

Heydər
ƏLİYEV

2

Azərbaycan xalqının Ümummilli lideri,
Milli qurtuluş mübarizəsinin qalibi və
Yeni Azərbaycanın qurucusu
Heydər Əliyevin
əziz xatirəsinə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

HEYDƏR ƏLİYEV

İki cilddə

2-ci cild

Turxan
Bakı - 2013

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Layihənin rəhbəri, elmi redaktor, giriş məqaləsi və son sözun müəllifi:
Əməkdar elm xadimi,
Azərbaycan Respublikasının dövlət mükafatı laureatı,
AMEA-nın müxbir üzvü,
t.e.d., prof. **Yaqub Mahmudov**

Redaksiya heyəti:
Y.M.Mahmudov *(baş redaktor)*, **İ.M.Hacıyev** *(baş redaktor müavini)*,
C.Ə.Bəhramov, T.H.Nəcəfli, G.N.Məmmədova,
Ə.Q.Qasımov *(buraxılışa məsul)*, **V.M.Musayev, E.Ə.Məhərrəmov,**
M.H.Xanbabayeva *(dizayner və texniki redaktor)*

Heydər Əliyev. İki cilddə. 2-ci cild.
Bakı: Turxan NPB, 2013. - 704 səhifə.

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan «Heydər Əliyev» fundamental elmi araşdırmasının 2-ci cildi dahi şəxsiyyətin ömür yolunun Müstəqillik dövrünü əhatə edir. Əsər Ulu Öndərin dövlətçilik fəaliyyətinin akademik səviyyədə araşdırılması yolunda ilk addımdır. Geniş mütəxəssislər kollektivi tərəfindən hazırlanmış «Heydər Əliyev» ikicildliyinin 2-ci cildi nəşrə hazırlanarkən Ulu Öndərin əsərləri, nitqləri, çıxışları, müxtəlif dövrlərdə nəşr olunmuş ilk mənbələr, o cümlədən arxiv sənədləri və elmi ədəbiyyatdan geniş istifadə olunmuşdur. Əsər elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8211-6-1

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2013
© «Turxan» Nəşriyyat-Poliqrafiya Birliyi, 2013

BAŞ REDAKTORDAN

Milli Elmlər Akademiyasının Tarix İnstitutu ikicildlik «Heydər Əliyev» fundamental elmi araşdırmasını elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim edir.

Geniş tədqiqatçılar heyəti tərəfindən yazılmış «Heydər Əliyev» ikicildliyi dahi şəxsiyyətin ömür yolunun akademik səviyyədə araşdırılması yolunda ilk təşəbbüsdür.

Milli Elmlər Akademiyasının Tarix İnstitutunda Azərbaycan xalqının Ümummilli liderinin siyasi və dövlətçilik fəaliyyətinin akademik səviyyədə hərtərəfli və dərindən tədqiq olunmasına xüsusi diqqət yetirilir. İnstitutda bu məqsədlə geniş tədqiqat işləri aparılır.

Heydər Əliyev irsinin müntəzəm olaraq, həm də sistemli surətdə araşdırılması üçün institutda ayrıca «Əliyevşünaslıq» elmi tədqiqat şöbəsi yaradılmışdır. Şöbə əməkdaşları, habelə institutun digər alimləri Heydər Əliyevə həsr olunmuş dissertasiya araşdırmaları aparır, çoxsaylı elmi tədqiqat işləri, o cümlədən monoqrafiyalar yazıb nəşr etdirirlər.

«Heydər Əliyev» ikicildliyinin **2-ci cildi** Ulu Öndərin ömür yolunun Müstəqillik dövrünü əhatə edir. Cild Giriş məqaləsi və 8 fəsli əhatə edən 2 bölmədən ibarətdir.

Cildin əvvəlində verilmiş **«Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti»** adlanan Giriş məqaləsi dahi şəxsiyyətin Azərbaycan xalqının tarixi keçmişindəki böyük xidmətlərinə həsr olunmuşdur.

«Heydər Əliyev» fundamental araşdırmasının 2-ci cildi zəmanəmizin böyük dövlət xadimi İlham Əliyevin Ulu Öndərin inkişaf strategiyasını böyük uğurla davam etdirməsinə və «Heydər Əliyev» fondunun fəaliyyətinə həsr olunmuş materiallarla tamamlanır.

Əsərin yazılmasına tədqiqat sahəsinə müvafiq olaraq geniş müəlliflər heyəti cəlb olunmuşdur. Ayrı-ayrı fəsillərin və paraqrafların müəllifləri mündəricatda göstərilmişdir.

Cild Ulu Öndərin fəaliyyətinə həsr olunmuş əsərlərin biblioqrafiyası və istifadə olunmuş mənbələr və ədəbiyyat siyahısı ilə tamamlanır.

«Heydər Əliyev» **ikicildliyi** nəşrə hazırlanarkən Ulu Öndərin əsərləri, nitqləri, çıxışları, müxtəlif dövrlərdə nəşr olunmuş ilk mənbələr və elmi

ədəbiyyatla yanaşı Azərbaycan Respublikası Dövlət Arxivi, Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivi, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi, Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivi, Azərbaycan Respublikası Milli Məclisinin Arxivi, Azərbaycan Dövlət Statistika Komitəsinin Arxivi, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Arxivi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının Arxivi, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Arxivi, Azərbaycan Dövlət Tibb Universitetinin cari arxivi, Rusiya Federasiyasının Dövlət arxivi, Rusiya Dövlət Ən Yeni Tarix Arxivi və digər arxivlərin sənədlərindən, dövri mətbuat materiallarından geniş istifadə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu «Heydər Əliyev» **ikicildliyinin** nəşrə hazırlanmasına köməkliyini əsirgəməmiş bütün müəssisə, təşkilat, struktur rəhbərlərinə və bu nəcib işdə əməyi olan hər kəsə dərin minnətdarlığını bildirir. **İkicildliyin** ərsəyə gəlməsində Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutuna tarix üzrə elmlər doktoru A.Ə.Paşayev başda olmaqla Azərbaycan Dövlət Milli Arxiv İdarəsinin və tarix üzrə fəlsəfə doktoru M.B.Bağırov başda olmaqla Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi yanında Siyasi Sənədlər Arxivinin əməkdaşları yaxından köməklik göstərmişlər. «Heydər Əliyev» **ikicildliyinin** işıq üzü görməsində Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini Cəbi Bəhramov, institutun əməkdaşları Elmar Məhərrəmov, Aypara Rüstəmova, Hakim İsakov, Tələt Nəcəfəliyev, Günel Aslanlı, Leyla Hüseynova, Nailə Məmmədova, Ramilə Şıxəliyeva, Rəhilə Kazımova, Səbinə Məmmədova, Vüsalə Əlləzova və başqalarının fəal iştirak etdiklərini, çap prosesində dizayner Mehri Xanbabayevanın böyük əməyi olduğunu məmnuniyyətlə qeyd etməyi özümüzə borc bilirik.

Ümid edirik ki, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nəşri olan **ikicildlik** «Heydər Əliyev» fundamental araşdırması Əliyevşünaslığa dəyərli töhfə olacaq, elmi ictimaiyyət və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanacaqdır.

Yaqub Mahmudov
AMEA-nın müxbir üzvü

AZƏRBAYCAN TARİXİNDƏ HEYDƏR ƏLİYEV ŞƏXSİYYƏTİ

(Giriş məqaləsi)

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Şah Abbas, Nadir şah Əfşar kimi neçə-neçə qüdrətli şəxsiyyətlər bəxş etmişdir.

Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.

Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmi bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzəyir. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı ona bəxş olunmuş Allah vergisi idi.

Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi olan Heydər Əliyev dünyanın bütün başqa dahi şəxsiyyətlərindən fərqli olaraq iki müxtəlif ictimai-siyasi sistemdə yaşamışdır. Və hər iki sistemdə siyasət nərdivanının ən yüksək pilləsinə ucala bilmişdir.

Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək Sovet

İttifaqı kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan Heydər Əliyev tarixə Azərbaycan xalqının ***Qurtuluş Mübarizəsinin Qalibi*** *kimi daxil olmuşdur.*

Heydər Əliyev ***bütün zamanların və bütün məkanların Böyük Azərbaycanlısıdır.*** *Bu qüdrətli şəxsiyyət* ***müasir Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycanın qurucusudur.***

Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidmətlərindən biri də budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə ***Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu.***

*Doğma xalqının «**olum, ya ölüm**» savaşına başçılıq edən Heydər Əliyev Azərbaycanı dibi görünməyən uçurumların, yarğanların üzərindən incə tellər üstündə keçirərək tarixi qələbəyə qovuşdurdu. Və bu gün zəfərdən-zəfərə qovuşan demokratik, dünyəvi, hüquqi Azərbaycan dövlətini yaratdı.*

Heydər Əliyev Azərbaycan SSR-də milli müstəmləkəçilik siyasətini həyata keçirən Dövlət Təhlükəsizliyi Komitəsini azərbaycanlılaşdırmaq üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərmiş, doğma Vətəninə iki dəfə rəhbərlik etmişdir: bir kommunist rejiminin hökmranlığı dövründə, 1969-1982-ci illərdə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsində; bir də müstəqil Azərbaycan Respublikasının Prezidenti (1993-2003) kimi.

Heydər Əliyev irsi akademik səviyyədə daha dərindən və daha ətraflı araşdırıldıqca, yeni-yeni arxiv sənədləri üzə çıxdıqca bu dahi şəxsiyyətin şərəfli ömür yolunun bugünkü nəsillərə məlum olmayan yeni-yeni səhifələri açılacaqdır.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü

Azərbaycan xalqının tarixində MİLLİ OYANIŞIN BAŞLANMASI VƏ MÜSTƏQİLLİYƏ DOĞRU BÖYÜK DÖNÜŞ illəridir.

Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX yüzilliyin 60-cı illərində Azərbaycan iqtisadiy- yatının bir çox sahələrində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyllər özünü göstərməyə başladı. Respublikanın inkişafı getdikcə ləngidi və bu, əhalinin sosial vəziyyətinə məntiqi təsir göstərməyə başladı. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan ittifaq səviyyəsindən geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu. Sonralar tariximizin bu dövrünə qiymət verərkən Heydər Əliyev deyirdi: «*Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi*».

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbərliyinin Birinci dövrü başlandı. Doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

Azərbaycanın XX əsr tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCANIN QURUCUSUDUR. O, bu quruculuğa hələ XX yüzilliyin 50-ci illərindən başlamışdır.

XX əsrin uzaq 20-30-cu illərində ermənilərin və qeyri millətlərin nümayəndələrinin yuva salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə – hələ sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev girişmişdir. Bu gün bütün azərbaycanlılar, o cümlədən xalqımızın hər bir nümayəndəsi aydın dərk etməli və unutmamalıdırlar ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin Mart soyqırımından sonra, 1920-ci ilin Sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə sovet hakimiyyətinin «qurucuları» cildinə girərək xalqımızı qırdılar. KQB-də (Dövlət Təhlükəsizlik Komitəsində) və NKVD-də (Xalq Daxili İşlər Komissarlığında) əsas mövqeləri ələ keçirdilər. Erməni «çekistləri» uydurma «cinayət işləri» qaldıraraq 20-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri – Azərbaycan xalqının qaymağını məhv etdilər. Bu baxımdan Heydər Əliyevin KQB-ni azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri Vətən və xalq qarşısında adi xidmətlər deyildi! Başqa sözlə, Heydər Əliyev qeyrətli və milli ruhlu Vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.

XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxsahəli, qaynar fəaliyyət dövrü başlandı. 1969-cu ildə – Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mər-

kəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, Sovet Azərbaycanının tarixində böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış Heydər Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başlandı. Xalq ilk addımlarındanca Heydər Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Azərbaycan xalqının tarixində HEYDƏR ƏLİYEV DÖVRÜ başlandı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi.

Böyük siyasətçi iqtisadiyyat, o cümlədən kənd təsərrüfatı və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə (o vaxtkı terminologiya ilə desək, inzibati-iqtisadi vahidə) çevirmək onun planlarının başında gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən xüsusi qərarlar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə 1970–1985-ci illər Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyevin uzaqgörən siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı. Sonralar tariximizin bu dövrünü Heydər Əliyev belə qiymətləndirirdi: *«1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur».*

1970–1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Paytaxt Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı – Balakən dəmir yolu, Dağlıq Qarabağın mərkəzə – Bakıya bağlılığını artırmaq və orada Azərbaycan mühitini canlandırmaq üçün görülən mühüm tədbirlər, o cümlədən Xankəndinə dəmiryolu çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

1970–1985-ci illər ərzində Azərbaycanın əldə etdiyi ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yeti-

rilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanın gələcək inkişafına ünvanlanmış strateji əhəmiyyətli bütün bu işlərə Heydər Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

Heydər Əliyevin XX yüzilliyin 70-80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin parlaq nəticəsi idi. Heydər Əliyevin özü demişkən: «*Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır*».

Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük düha sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Dahi dövlət xadimi Heydər Əliyev kommunist rejiminin hökmranlığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq, Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atdı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərini ucaltdırdı, repressiya qurbanı olmuş böyük Ca-

vidi ölümündən illər keçdikdən sonra Vətənə qaytardı, Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında abidə ucaltdırdı...

Məhz bu dövrdə – Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, ilk dəfə olaraq, Azərbaycanın görkəmli sənət adamlarının böyük bir dəstəsinə – şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza ilk dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktlardır.

Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya «irəli çəkilib» müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da «millətçi» damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun Bakıda əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən – xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

Heydər Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu – 70-ci illərində, Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə də maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş başlandı. O zaman ölkəmizdə milli oyanışın əsas mərkəzlərindən biri böyük mütəfəkkirimiz Rəsul Rzanın başçılıq etdiyi Azərbaycan Ensiklopediyası idi. Ensiklopediyanın Baş redaksiyası, redaksiya ətrafında toplanmış alimlərin böyük əksəriyyəti çox cəsarətli çıxışlar edirdilər. Xalqımızın təşəkküllündə türk etnoslarının həlledici rol oynaması, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı, Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin tariximizdə mütərəqqi rol oynaması, Cümhuriyyət dövrünün xadimlərinə obyektiv qiymət verilməsi, 1920-ci ilin Aprel işğalı kimi bir çox məsələləri o zaman məhz ensiklopediyaçılar qaldırdılar. Rəsul Rzanın həlledici köməyi ilə bu sətirlərin müəllifi Kiyevin xəritə fabrikində

ilk dəfə olaraq Azərbaycan tarixi xəritələrinin hazırlanması və çapına nail oldu. 1972-ci ildə Ensiklopediyanın Baş redaksiyası Rəsul Rzanın redaktorluğu ilə «Azərbaycan SSR xəritələri» (Azərbaycan və rus dillərində) adlı atlas nəşr etdi. Göstərilən tarix xəritələri həmin atlasa daxil edildi. Lakin «sapı özümüzdən olan baltalar» bütün bu məsələləri Moskvaya çuğulladılar, Ermənistandakı tarixçi «dostlarını» köməyə çağırdılar. Bizə «millətçi», «burjua məfkurəçiləri», «sovet hökumətinin və Rusiyanın düşmənləri» damğasını vurmaq məqsədilə xalqımıza qarşı 1918-ci ilin Mart soyqırımını törətmiş Stepan Şaumyanın oğlu L.S.Şaumyanı Bakıya gətirtdilər. O zaman «Böyük Sovet Ensiklopediyası» baş redaktorunun birinci müavini, həm də sovet ideologiyasının başında duranlardan biri olan oğul – Şaumyan əlinə düşən fürsətdən istifadə edərək Azərbaycan ziyalılarına zərbə vurmaq üçün özünü oda-közə vurdu. Lakin məqsədinə çata bilmədi. Çünki Azərbaycana doğma yurdunun təəssübkeşi olan qüdrətli bir şəxsiyyət başçılıq edirdi. Məhz Heydər Əliyevin müdrikliyi və cəsarəti sayəsində o zaman həm ensiklopediyaçılar, həm də ziyalılarımızın böyük bir dəstəsi nəinki KQB-nin təqiblərinə düçar olmadı, hətta partiya cəzasından da yaxa qurtara bildilər!!!

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə–yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir.

Bu inkarolunmaz tarixi faktdır ki, dünya sosializm sisteminin və böyük Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin

müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Heydər Əliyev yeni, müstəqil Azərbaycanı qurduğu illərdə tariximizin yuxarıda bəhs etdiyimiz dövrünü yada salaraq deyirdi:

«Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü Azərbaycan xalqının tarixində ən parlaq dövrdür. Bu dövrdə Heydər Əliyev Azərbaycan xalqının tarixinə QURTULUŞ MÜBARİZƏSİNİN QALİBİ, AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN XİLASKARI kimi daxil oldu.

Bu dövrdə Heydər Əliyev öz xalqı üçün ən müasir demokratik, dünyəvi və hüquqi dövlət yaratdı.

...Mütəqilliyin ilk illərində baş vermiş hərc-mərclik, xaos və anarxiyadan sonra doğma xalqının təkidli tələbi ilə Azərbaycanda hakimiyyət sükanının arxasına qüdrətli bir siyasətçi keçdi – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev başçılıq etdi Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir

silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi!

Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi Birinci dövrlə İkinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik dövrü, ağır tənəzzül illəridir. Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsə-bəhs, vaxtı ilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, ən bağışlanmaz səhvləridir. Əgər o zaman – müstəqilliyin ilk illərində bu müdrik siyasətçi hakimiyyət sükanının arxasında əyləşsəydi, bunca müsibətlərə düçar olardıqmı?!

Bu suala Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın cavab verir: **milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından «sovet», «sosialist» sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, muxtar respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 31 Dekabr gününün Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması, nəhayət, böyük Vətəndən – Azərbaycandan ayrı düşmüş Naxçıvanda, özü də amansız hərbi-iqtisadi blokada şəraitində vətən torpağının düşməndən qorunub saxlanması** – bax, bunlardır böyük şəxsiyyətimizin Naxçıvanda ağır blokada şəraitində keçən ömrünün, göstərdiyi fəaliyyətin qısa yekunu!

Bəs Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmadığı həmin dövrdə böyük Vətəndə – Azərbaycanda nələr baş verdi?

Sərt tarixi həqiqət belədir: **1993-cü ilin iyununda – Heydər Əliyevin hakimiyyətə qayıdışı ərəfəsində Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, satqınlıq, vəzifə ələ keçirmək üçün müqəddəs torpaqlarımızın hərraca qoyulması adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Bölgələrimizdə, rayonlarda, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalq vahimə və təşviş içərisində idi. Atışma səslərindən camaat evində rahat yata bilmirdi. Girovgötürmə kimi çirkin qazanc vasitəsi adi hala çevrilmişdi. O dövrün başabəla rəhbərləri təyyarələrini hazır saxlayır, vəziyyət bir az mürəkkəbləşən kimi qaçıb aradan çıxırdılar. Üzdə xalqdan danışan, əslində isə sərvət düşkünləri olan bir qrup vəzifəpərəst sovet hakimiyyəti illərində toplanmış xalq əmlakına sırışt olmuşdu. Talançılıq baş alıb gedirdi. Faktiki olaraq dövlət yox idi. Ölkəni xalq adından idarə edən, əslində isə heç bir səriştəsi olmayan, ən adi idarəçilik qaydalarının belə nə olduğunu bilməyən və xaricdəki ağalarının göstərişi ilə hərəkət edən məhdud bir qrup məmləkəti milli fəlakət həddinə çatdırmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Ölkə vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Ulularımızın müqəddəs əmanəti olan Vətən torpaqları hərraca qoyulmuşdu. Azərbaycan xarici aləmdəki olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların «Böyük Ermənistan» yaratmaq niyyətləri, tari-xi düşmənlərimizin – qonşu ölkələrin paytaxtlarında hazırlanmış və Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox**

olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı...

Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. **Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan xalqının qurtuluş mübarizəsində həlledici dönüş baş verdi.**

Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Və ya 1993-cü ilin 15 İyun gününü nə üçün Qurtuluş günü adlandırmaq olar?! Görülən böyük işlərin hamısını sadalamaq mümkün olmasa da, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzməyə çalışaq!

Ən başlıcası: azadlıq, müstəqillik həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə şəhid vermişik bu yolda. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillik də yoxdur.

Dövləti olmayan xalq ölümə məhkumdur. Azərbaycan dövləti bizim «olum, ya ölüm» məsələmizdir. **Ulu öndər Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu.** Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. **Qurtuluş deməkdir!**

Azərbaycan dövlətçiliyi və prezident Heydər Əliyevin qətiyyəti 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qiyamları, habelə digər qəsdlər və şantajlar zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə həlak olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Özündən əvvəlki «rəhbərlər»dən fərqli olaraq, dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı. Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. **Sabitlik və əmin-amanlıq yarandı. Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur – sabitlikdir.**

Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: ***Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!***

Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırıl-

masının qarşısını aldı – genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi demək idi...

Prezident Heydər Əliyev xalqı, yurdu milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki «rəhbərlərin» tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqiqətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi «Azərbaycan» möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı. Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi!

Heydər Əliyevin həyata keçirdiyi uğurlu daxili islahatlar və xarici siyasət nəticəsində müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti sürətlə artdı. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazandı.

Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz – Azərbaycan Respublikasının Konstitusiyası dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biri kimi beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırdı.

Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərdi.

Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrildi.

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənis-

tanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvünə çevrildi. **Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, öz zəmanəsinin Atatürkü kimi dərin ehtiram və nüfuz qazandı!**

Heydər Əliyevin yorulmaz səyləri nəticəsində müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da artdı.

Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatlara üzv qəbul olundu. Azərbaycan Avropa Şurasında xüsusilə böyük uğurlar qazandı. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğururdu.

Heydər Əliyev bütün tarixi dövrlərdə, ənənəvi düşmənlərimizin həmişə Azərbaycanı diz çökdürmək üçün istifadə etdikləri «erməni kartı»na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı. Və sübut etdi ki, Qafqaz problemlərinin həllində «erməni kartı»ndan daha güclü vasitələr vardır. Uzaqgörən siyasətçilər indi yaxşı başa düşürlər ki, neft strategiyasının «erməni kartı»na və xarici ölkələrdəki erməni lobbisinə qalib gələcəyi gün uzaqda deyil. Yaxın gələcəkdə müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən bir siyasət olduğunu zaman özü indikindən daha qabarıq göstərəcəkdir!

Heydər Əliyev zəkasının, onun gərgin, ardıcıl və inadlı fəaliyyətinin nəticəsi olan Bakı–Tiflis–Ceyhan əsas neft ixracı kəmərinin, həmçinin Bakı – Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən türk dünyasından ötrü nə demək olduğu hələ neçə-neçə nəsillər keçəndən sonra daha aydın və daha dərindən başa düşüləcəkdir!

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq – Qərb dəhlizini açdı. Böyük İpək

Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başladılar. İndi isə qaçılmaz məğlubiyyətlə üz-üzədirlər!

Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7–8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda – məşhur «Gülüstan» sarayında keçirilmiş beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində, onun iqtisadi – mənəvi oyanışında misilsiz rol oynayacaqdır. Bu gün həmin siyasətin uğurları da göz qabağındadır!

Heydər Əliyevlə siyasi mükalimədə uduzan ənənəvi düşmənlərimiz, çox keçmədən Qafqazda itirilmiş mövqeləri qaytarmaq, neft siyasətini uduzmamaq üçün siyasi şantajlara, hərbi təzyiq və terror aktlarına, bir sözlə, siyasət cığallığına əl atmağa başladılar. Ermənistanda rusiyapərəst davakarların və Qarabağda Azərbaycan xalqına qarşı həyata keçirilən soyqırımları qatillərinin hakimiyyətə gətirilməsi, Gürcüstan prezidenti E.A.Şevardnadzeyə qarşı təşkil olunmuş suiqəsd və s. bu baxımdan uduzmuş oyunçuların cığallığından başqa bir şey deyildi. **Bir sözlə, dahi dövlət xadimi, qüdrətli siyasətçi Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib işıqlı həyata qovuşdurdu.**

Bu gün yaşadığımız regionda təkcə Azərbaycanda xarici dövlətlərin əsgəri qüvvələri və hərbi bazaları yoxdur. Vətənimiz Azərbaycan bütün Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bunun özü də Heydər Əliyevin başladığı uzaqgörən siyasi gedişlərin uğurlu davamıdır.

Heydər Əliyevin Xəzərlə bağlı müdrik və uzaqgörən xarici siyasət strategiyası, bu dənizi sülh və əmin-amanlıq dənizinə çevir-

mək planları da öz reallığına görə Xəzərsahili ölkələr tərəfindən, faktiki olaraq, əsaslı bir etiraz doğurmadı! Beynəlxalq mənafelərin, o cümlədən böyük dövlətlərin və qonşuların mənafelərinin düyünləşdiyi Azərbaycan kimi çox mühüm hərbi-strateji və zəngin sərvətli bir ölkədə bütün bunlara nail olmaq hər siyasətçinin işi deyildi!!!

Heydər Əliyev özünün ölkəmiqyaslı qəbullarından tutmuş beynəlxalq miqyaslı görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətini dünyaya yaydı. Bunun nəticəsində **Azərbaycan vaxtilə ona qarşı yaradılmış beynəlxalq informasiya blokadasını yara bildi. Dünya Azərbaycan həqiqətini qəbul etməyə başladı.**

Heydər Əliyev vaxtilə onun öz qayğısı sayəsində Moskva, Sankt-Peterburq, Kiyev və başqa şəhərlərin ali məktəblərində təhsil almış, özü də Azərbaycanın müxtəlif bölgələrini təmsil edən gənclərin qabaqcıl bir dəstəsini Prezident Aparatına, müxtəlif dövlət strukturlarına toplayıb onlara idarəçilik qaydaları öyrətdi, gələcəyin yeni, qüdrətli Azərbaycanı üçün hazırladı!

Başqa bir məsələ barədə. Gecəli-gündüzlü, son dərəcə ağır, hətta dözülməz bir rejimlə işləməsinə baxmayaraq, Azərbaycan prezidenti yurdumuzda baş verən heç bir hadisəni, heç bir prosesi nəzərdən qaçırmır, onlardan ən mühümünü ön plana çəkir, şəxsi nəzarəti altına götürür, prezident andına sadiq qalaraq Vətəni zərgər dəqiqliyi ilə idarə edirdi.

Heydər Əliyevin öz doğma el-obası qarşısında danılmaz tarixi xidmətlərinin hamısını dərindən-dərinə araşdırmaq, yerli-yerində ipə-sapa düzmək, incələmək və gələcək nəsillərə doğru-düzgün çatdırmaq o qədər də asan məsələ deyil. Və bu hər tarixçinin də işi deyil! Əlbəttə, bütün bunlar xüsusi tədqiqatların və gələcəyin işidir. Mən isə bu yığcam yazıda müasirlərimə təkcə bir həqiqəti yetirmək istədim: **keçid dövrlərində qüvvətli şəxsiyyət olmadan qələbə yoxdur!** Hazırda tərəqqi dövrünü yaşayan bütün xalqları, millətləri,

ölkələri keçid dövrünün keçilməz labirintlərindən dahi şəxsiyyətlər – Atatürklər, Vaşinqtonlar, Bismarklar, Nehrular, De Qollar çıxarmışlar! Heydər Əliyev də belə şəxsiyyətdir! Bunu bütün dünya qəbul edir. Bunu Azərbaycanın çağdaş və gələcək nəsillərinin də daha dərindən dərk etməsi gərəkdir!..

Heç kəsin istəyindən asılı olmayaraq, XX yüzilliyin 90-cı illərində Azərbaycanın tarixinə daha bir silinməz səhifə həkk olundu. Zaman, tarix özü həkk etdi bu səhifəni. «**İstiqlal savaşı**» adlanır həmin qızıl səhifənin adı. Xalqımızı bu müqəddəs savaşdan – İstiqlal savaşından **Heydər Əliyev** şəxsiyyəti qələbə ilə çıxartdı! Və tamamilə təbii olaraq **İstiqlal savaşının qalibi** kimi dünyanın dahi şəxsiyyətləri sırasında öz layiqli yerini tutdu. Tanrı yazısına pozu yoxdur!

Çağdaş Azərbaycan bu gün – XXI yüzilliyin başlanğıcında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda uğurdan-uğura qovuşur. Tarixin ən qanlı burulğanı içərisində çabaladığımız günlər arxada qalmış, tarixə çevrilmişdir! Azərbaycan dövlətçiliyi məkrli düşmənlərin qanlı caynağından həmişəlik xilas edilmişdir! Bütün bunlar üçün hər bir Vətən övladı, qədirbilən xalqımız dahi xilaskara – Ata yurdumuzun Atatürkünə borcludur!

Bu gün Heydər Əliyev ideyalarının zəfər yürüşü davam edir! Azərbaycan Cənubi Qafqazın lider dövlətinə və dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrilmişdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvüdür. Heydər Əliyev inkişaf strategiyasının həyata keçirilməsində ölkəmizin Birinci xanımı Mehriban Əliyevanın başçılıq etdiyi «Heydər Əliyev» fondu mühüm rol oynayır. Azərbaycan xalqı müasir dünyanın böyük dövlət xadimi İlham Əliyevin rəhbərliyi ilə özünün daha parlaq gələcəyinə doğru inamla irəliləyir.

I BÖLMƏ

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ QORUNUB SAXLANMASI UĞRUNDA MÜBARİZƏ

(1988 – 1995)

I FƏSİL

HEYDƏR ƏLİYEV və AZƏRBAYCANDA MİLLİ AZADLIQ HƏRƏKATI

1. 1. SSRİ-nin dağılması ərəfəsində Azərbaycan SSR-də ictimai-siyasi vəziyyət

XX əsrin 80-ci illərinin sonunda sosialist iqtisadiyyatının çoxməsrəfli ekstensiv xarakteri, elmi-texniki tərəqqinin zəif inkişafı, onun nəticələrinin istehsalata tətbiqi sahəsindəki passivlik Sovet dövlətinin dünyada sınaqdan uğurla çıxmış, rəqabətə əsaslanan bazar iqtisadiyyatına keçidini tələb edirdi. Tənəzzüldə olan iqtisadiyyatı xilas etmək məqsəd ilə ictimai mülkiyyətdən imtina, xüsusi mülkiyyətin tətbiqi istiqamətində tədbirlərə başlandı. Lakin bunlar siyasi sistemdə dəyişiklik aparılmadan həyata keçirilirdi. Xüsusi mülkiyyətin tətbiqi ictimai mülkiyyətə əsaslanan sovet siyasi sisteminin iflası üçün zəmin yaradırdı. Kommunist partiyasının siyasi hegemonluğuna şərait yaradan təkpartiyalılığın ləğvi, çoxpartiyalılığın gerçəkləşdirilməsi isə İttifaq dövlətinin süqutunu daha da sürətləndirir, sovet respublikalarının müstəqilliyi üçün perspektiv açırdı. «Yenidənqurma» adı altında həyata keçirilən bu siyasət beynəlxalq enerji böhranının zərbəsini hiss edən dövlətlər tərəfindən fəal müdafiə olunurdu. Çünki, zəngin neft ehtiyatlarına malik SSRİ-nin dağılması milli respublikaların dövlət müstəqilliyinə, onlarla iqtisadi və siyasi münasibətlər yaradılmasına ümid verirdi.

SSRİ-də və dünyada gedən prosesləri, sovet dövlətinin süqut edəcəyini, imperiyada yaşayan millətlərin, o cümlədən öz xalqının azadlığa çıxacağı günün çox uzaqda olmadığını hələ 1986-cı ildə duyan ümummilli lider Heydər Əliyev sonralar deyirdi: «O zaman hiss edirdim ki, dünyada böyük dəyişikliklər baş verir və bunu alqışlayırdım» [16, 45].

İflasın qarşısını almağa çalışan imperiya isə irticaya hazırlaşır, azadlığın astanasında olan xalqlara, onların liderlərinə qarşı təzyiqlər gücləndirilirdi.

Azərbaycan xalqının XXI əsrdə dünya xalqları arasındakı yerini irəlicədən görən Heydər Əliyev 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırıldı. Vaxtilə Ümummilli liderin qayğısı sayəsində məsul vəzifələrə yiyələnmiş bədxahlardan istifadə edərək, «antiəliyevçi» kampaniyaya başlanıldı. Onun Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərə aid sənədlər SSRİ Baş Prokurorluğunun milliyyətcə erməni müstəntiqlərinin rəhbərliyi ilə qərəzli məqsədlər üçün təhqiq edildi, lakin onu ləkələmək üçün heç bir fakt tapılmadı. Heydər Əliyevin idarəçilik bacarığına, qətiyyətinə, mübarizliyinə, İttifaq rəhbərliyinin bəzi üzvləri tərəfindən dövlət başçılığına layiq şəxs kimi dəyərləndirilməsinə paxıllıq və qısqanclıqla yanaşan M.Qorbaçov bu hücumlarla erməni təcavüzkarlığına qarşı yeganə ciddi «maneəni» kənarlaşdırmaq Azərbaycanı «başsız» qoymaq istəyirdi. Təsadüfi deyil ki, M.Qorbaçovun məsləhətçisi akademik A.Aqanbekyanın Fransanın «Humanite» qəzetinə «Dağlıq Qarabağdakı ermənilərin «əzab çəkməsi» və vilayətin Ermənistana verilməsi məsələsini ermənilərin xeyrinə həll edəcəyinə M.Qorbaçovun söz verməsi» haqqında müsahibəsi məhz Heydər Əliyev vəzifədən uzaqlaşdırıldıqdan sonra bəyan olundu.

XX əsrin 80-ci illərinin ikinci yarısından etibarən «Ermənistanı türklərdən təmizləmək» və Dağlıq Qarabağı ilhaq etmək məqsəd ilə erməni təcavüzü özünü açıq göstərməyə başladı. 1988-ci ilin yanvar-fevralında Ermənistanda yaşayan azərbaycanlıların 4000 nəfərə yaxını el-obasından didərgin salındı. Burada məqsəd orada yaşamaqda davam edən soydaşlarımızı vahiməyə salaraq, onların Ermənistanı hamılıqla tərk etməsinə, Azərbaycan SSR-də ictimai-siyasi vəziyyətin gərginləşdirilməsinə və əsəbləri gərilmiş xalqın ermənilərə qarşı qalxmasına nail olmaq idi. Nəhayət, Azərbaycan SSR-də erməni separatçıları və onların havadarları tərəfindən törədiləcək cinayətkar təxribatları azərbaycanlıların adına yazmaq üçün süni beynəlxalq ictimai rəy formalaşdırmaq idi. Dünya isə erməni millətçilərinin həyasızlığına göz yumurdu. Hüquqları tapdanan azərbaycanlılar olduğu halda, Moskvanın və xarici ölkələrin kütləvi informasiya vasitələrində DQMV-də ermənilərin hüquqlarının pozulması barədə erməni iftiraları

səngimək bilmir, Ermənistanda və DQMV-də mitinqlər genişlənirdi. Açıq fəaliyyətə keçən erməni «Qarabağ» komitəsinin nümayəndə heyəti Kremldə M.Qorbaçov tərəfindən qəbul olunduqdan sonra tələblərinin yerinə yetiriləcəyinə vəd aldıqlarını bildirdilər. 1988-ci il fevralın 19-da DQMV-nin statusu məsələsinə baxılması haqqında SSRİ Ali Sovetinə müraciət qəbul edilməsi çağırışları altında kütləvi anti–Azərbaycan mitinqi keçirildi.

Erməni ekstremistlərinə cavab olaraq həmin gün Bakıda da mitinq toplandı. Bir gün sonra isə Vilayət Xalq Deputatları Sovetinin sessiyasında ermənilər DQMV-nin statusuna baxılması barədə SSRİ Ali Sovetinə müraciət qəbul etdilər. Həmin müraciəti respublikanın ərazi bütövlüyünə qəsd kimi qəbul edən Azərbaycan xalqının narazılığı daha da artdı. Fevralın 21-də İrəvan məscidinin təhqir edilməsi, sonrakı gün Əsgəranda iki azərbaycanlının ermənilər tərəfindən öldürülməsi, Ermənistan SSR-in Qafan rayonunda isə bir azərbaycanlının qətlə yetirilməsi, fevralın 23-də «Azərbaycan və Ermənistan zəhmətkeşlərinə və xalqlarına müraciət» qəbul edən Kremlin gözdən pərdə asaraq azərbaycanlıları əmin-amanlığa dəvət etsə də, erməni təcavüzünün vaxtında qarşısının alınması üçün ciddi əməli tədbir görməməsi xalqımızın ehtirasını daha da coşdurdu.

1988-ci il fevralın 28-də təşkilatçıları DTK və ermənilərin beynəlxalq havadarları olan, amma azərbaycanlılar tərəfindən törədilməsi dünyaya car çəkilən Sumqayıt hadisəsi baş verdi. Qondarma «əzabkeş erməni» obrazının fonunda azərbaycanlıların Ermənistan SSR-dən didərgin salınması, «Türksüz Ermənistan» yaratmaq, Dağlıq Qarabağı ilhaq etmək kimi cinayətlər kölgədə qoyuldu. Azərbaycanlılar Ermənistan SSR-in Masis, Dilican, Qafan, Mehri, Göyçə və digər tarixi yaşayış yerlərindən qovuldular. Martın 10-da İrəvanın yaxınlığındakı Mehmandar kəndinin 4 azərbaycanlı sakini öldürüldü, martın 25-də Ararat rayonunda azərbaycanlıların Vedi, Şirazlı, Xalsa və Şidli kəndləri hücuma məruz qaldı. Bir nəfər öldürüldü, onlarla insan yaralandı, 100-dək ev yandırılaraq viran qoyuldu.

Moskva Əsgəran və Qafanda azərbaycanlıların qətlə yetirilməsi faktlarının üstündən sükutla keçir, Ermənistanda azərbaycanlılara qarşı törədilən vəhşilikləri Sumqayıt hadisələrinə cavab kimi şərh edirdi. Mərkəzi KİV-in qızışdırıcı xəbərlərinə rəsmi etiraz bildirməyən,

erməni zorakılıqlarının respublika informasiya vasitələri ilə xalqa çatdırılmasına icazə belə verməyən, Moskvanın göstərişi ilə oturub-duran Azərbaycan SSR rəhbərliyinin gözləmə mövqeyi xalqın narazılığını daha da artırırdı.

Baş verən hadisələrə dair həqiqətlərdən xəbərdar olan xarici dövlətlər də susurdu. Nyu-Yorkda çıxan «Qlasnost» jurnalının yaradıcılarından biri və müxbiri Qriqoryantsın nümayəndəsi Andrey Şelkovun qırğın anında Sumqayıtda olması, hadisələri lentə alıb xaricə ötürməsi sayəsində ertəsi gün həmin lentlərin beynəlxalq efir kanalları ilə nümayiş etdirilməsindən sonra da hadisələrə beynəlxalq rəsmi münasibət bildirilmədi.

Azərbaycan SSR rəhbərliyi isə hadisələrin səbəbini yerlərdə ideya-siyasi tərbiyə işinin zəif aparılması ilə əlaqələndirirdi. Elə bu mövqeyin nəticəsi idi ki, 1988-ci il martın 17-də Azərbaycan KP MK Bürosunda Sumqayıt hadisələrinin başlıca günahkarlarının – erməni caniləri adı belə çəkilmədiyi halda, şəhər partiya komitəsinin birinci katibi, daxili işlər idarəsinin rəisi partiya sıralarından xaric edildi, icraiyyə komitəsinin sədrinə şəxsi vərəqəsinə yazılmaqla ciddi töhmət elan olundu. «Beynəlmiləlçilik tərbiyəsi» sahəsində nöqsanlara yol verdiyi bildirilməklə, 213 kommunist partiya məsuliyyətinə cəlb edildi, 130 rəhbər işçi partiya sıralarından çıxarıldı.

Azərbaycan SSR-də, eləcə də Qazaxıstan SSR, Gürcüstan SSR, Baltikyanı respublikalarda, Yakutiya MSSR-də və digər yerlərdə milli zəmində törədilən fitnəkarlıqların mahiyyətini dərk etməyən respublika iqtidarı erməni–azərbaycanlı münaqişəsinin səbəbini xalqın ümidgahı olan Heydər Əliyevin respublikaya rəhbərlik illəri ilə əlaqələndirməyə, Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində sosial-iqtisadi siyasətin uzun müddət düzgün aparılmadığını əsaslandırmağa cəhd edirdi.

Hüquqları respublika və ittifaq hökuməti tərəfindən qorunmayan Azərbaycan xalqı etiraz nümayişlərinə qalxır, kortəbii mitinqlərə toplaşırdı. Ermənistanın Dağlıq Qarabağa iddiasına və Qərbi Azərbaycandan soydaşlarımızın didərgin salınmasına qarşı ümumxalq hərəkatı güclənirdi. Yüksələn xalq etirazlarının təşkilatlandırılması aktual vəzifəyə çevrildi. Xalqa başçılıq məsələsində əmələ gəlmiş siyasi boşluq milli nicat yolunu Heydər Əliyevin hakimiyyətə gətirilməsində görən qüvvələr və təşəkkül tapmaqda olan müxalifət tərəfindən dolduruldu.

Təcavüzkar erməni siyasətinə qarşı yüksələn kortəbii xalq hərəkatının istiqamətləndirilməsi günün vacib məsələsinə çevrildi. Mitinq və nümayişlərin mütəşəkkilləşdirilməsi, tətil komitələrinin yaradılması və s. mövzularda siyasi təbliğat işi genişləndi.

Erməni cinayətlərindən və respublika rəhbərliyinin mövqeyindən təngə gəlmiş ziyalılar, Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyə dəvət olunmasının tərəfdarları, təşəkkül tapmaqda olan müxalifət mitinqlər təşkil edir, siyasi təkliflərini bildirirdilər. «Gənc alimlər şurası», «Çənlibel», «Müstəqillər», «Tərəqqi», «Qala», «Yurd», «Aşıq Ələsgər», «Ozan», «Varlıq» və s. ictimai-siyasi təşkilatlar yaradıldı. Yeni yaradılmış bu təşkilatların fəaliyyətinin mərkəzləşdirilməsi zəruri idi. Yeni siyasi özəklərdə və təşkilatlarda birləşən qüvvələrin təşəbbüsü ilə Azərbaycanda Xalq Cəbhəsinin yaradılması ideyası ortaya çıxdı. 1988-ci ilin əvvəllərində altı nəfərdən ibarət siyasi özək təşkil olundu. Mərkəzin fikrincə, yeni yaradılan bütün siyasi qurumlar cəmiyyətin demokratikləşdirilməsinə yönəldilən hər cür fəaliyyətə qarşı mübarizədə «yenidənqurma»nın dayağına çevrilməli idi. Yeni yaranan siyasi qurumlar yalnız iqtisadi müstəqillik ideyalarını müdafiə edir, elə bu məqsədlə Moskvanın böhrandan çıxmaq cəhdinə, ictimai mülkiyyətin ləğvi, torpağın ömürlük icarəyə verilməsi, azad rəqabətə imkan verən iqtisadi mühitin təmin olunması kimi təkliflərinə tərəfdar çıxırdı. AXC kəndlinin torpaqdan inzibati məcburiyyət yolu ilə ayrı salınmasını sosial ədalətsizlik kimi qiymətləndirərək bildirirdi ki, «demokratik qüvvələr radikal islahatların keçirilməsinə, xüsusi sahibkarlıq fəaliyyətinin inkişafına çalışmalı, bu yeni təbəqənin hüquqlarını bütün səviyyələrdə müdafiə etməlidir. Azərbaycanın sərhədləri daxilində olan bütün mülkiyyət obyektlərinin, təbii sərvətlərin imperiya strukturlarının tabeliyindən çıxarılması uğrunda mübarizə aparmaq demokratik qüvvələrin ən mühüm vəzifəsidir».

Əslində yalnış olaraq respublikanın bütün demokratik qüvvələri SSRİ-də aparılan qorbaçovsayağı «yenidənqurmanı» müdafiə edirdilər. AXC sədri Ə.Elçibəyin (Əliyev) «Sovet İttifaqında bütün hərəkatlar yuxarıdan M.Qorbaçovun icazəsi ilə islahatlar formasında gedir... Qorbaçov çox böyük demokrat, dahi islahatçı kimi tarixə düşəcək və bu cür də tarixdə qalacaq...» kimi cəfəng fikirləri həyati reallıqdan çox uzaq idi. 1990-cı il yanvarın 20-də M.Qorbaçovun demokrat deyil, qatil olduğu

sübut edildi. Yeni siyasi qurumlar Mərkəzin unitar ittifaq dövlətinin demokratikləşdirilməsi, inzibati idarəetmə metodlarının ləğvi, bazar iqtisadiyyatına keçid barədə, əslində isə siyasi populizmdən başqa bir şey olmayan təbliğatını müdafiə edir, bunun əleyhinə çıxanları mühafizəkarlıqda günahlandırırdılar. Təsadüfi deyil ki, 1991-ci il avqustun 19–21-də Moskvada hakimiyyət çevrilişi günlərində M.Qorbaçovun rəhbərlikdən uzaqlaşdırılması əleyhinə çıxış edən, bunu cinayətkarlıq adlandıran AXC «baş vermiş dövlət çevrilişi ciddi hazırlıq olmadan, müxalifətin müqavimət gücünü... nəzərə almadan həyata keçirilmişdi ..., bu çevriliş uğurla nəticələnə bilməzdi. Ölkədə artıq demokratik təfəkkür formalaşıb» bəyanatı ilə çevrilişi dəstəkləyən respublika hakimiyyətinə etirazını bildirmişdi. Əslində bu, M.Qorbaçovun növbəti siyasi oyunu idi.

Siyasi müstəqillik xarakterli məqsəd və çağırışlar heç də yeni yaradılmış siyasi qurumlar tərəfindən ortaya qoyulmur, mövcud sistemin öz daxilində dəyişikliklər məqbul hesab olunurdu. AXC-nin proqramında Azərbaycanın SSRİ-nin tərkibindən çıxması nəzərdə tutulmamışdı. AXC-nin təşəbbüs qrupunun 1989-cu ilin aprel ayında Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovla keçirilən görüşündə Ə.Elçibəy «milli hökumət» şüarının olmayacağını, AXC proqramında belə bir məqsədin nəzərdə tutulmadığını rəsmi bildirmişdi.

Lakin bu məqsəd açıq qoyulmasa da, SSRİ-nin iflası gözlənilir, qeyri-leqal olaraq dəstəklənirdi.

İmperiyanın süqutu ərəfəsində azərbaycanlıları tarixən yaşadıqları ərazilərdən didərgin salmaq, Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin ilhaqına nail olmaq, Şərqi Anadolunu ələ keçirərək Aralıq dənizi sahilinə dəhliz açmaq kimi üç tərkib hissədən ibarət olan təcavüzkar erməni siyasəti intensivləşdi. DQMV-də fəaliyyət göstərən «Krunk», SSRİ-də və xaricdəki «Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi», «Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi», «55-lər komitəsi» və s. separatçı, terrorçu təşkilatlar anti–azərbaycan ruhlu vərəqələr yayır, vilayət ermənilərini Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə çağırırdılar. Vaxtilə Aleksandr Qriboyedovun yazdığı kimi, «ilk dəfə buraxıldıqları torpaqlara həmişə sahib çıxmaq» adətini davam etdirən ermənilər 1980-ci illərin sonundan açıq təcavüzkarlıq planı cızırdılar. Plana görə, əgər SSRİ Ali Soveti Azərbaycan SSR-ə məxsus Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi tələbini yerinə

yetirməsə, vilayət ermənilər SSRİ-nin tərkibindən çıxmalı və bundan sonra Ermənistanın tərkibində olmaq şərtilə yenidən Sovet İttifaqına daxil olmaq haqqında xahişlə SSRİ Ali Sovetinə müraciət etməli idilər. Bu da baş tutmasa, daha avantürist plan – Ermənistanın özünün Dağlıq Qarabağın tərkibinə daxil olması bəyan edilməli, paytaxtı (Xankəndi) olacaq Arsax Erməni Respublikası təşkil olunmalı idi. Erməni ekstremizminin müəlliflərindən olan Levon Ter-Petrosyanın «biz məqsədimizə nail olduğumuz təqdirdə də bu hərəkat xalqımızın iradəsinin ifadəsi kimi davam etdirilməlidir» çağırışı ilə Azərbaycan SSR-in digər ərazilərinə iddianın davam etdirilməsi planlaşdırılırdı.

Azərbaycan SSR-də keçirilən mitinqlər respublikanın xilası yolunu Heydər Əliyevin hakimiyyətə gətirilməsində görən iştirakçıların ictimai rəyini ortaya qoydu. Xalqın mövqeyini ifadə edən bu qüvvələrin mövqeyi həm Moskva, həm yerli kommunist nomenklaturası, həm də yaranmaqda olan müxalifətin bəzi qanadları tərəfindən qısqanclıqla qarşılanır, «əliyevçilik» kimi qiymətləndirilirdi. Heydər Əliyevə qərəzçiliklə yanaşan həm müxalifət, həm də respublika rəhbərliyinin daxilindəki narazı qüvvələr ümumxalq mübarizəsi dalğası üstündə hakimiyyətə can atırdılar. Azərbaycan xalqının gündən-günə coşan etiraz dalğasını yatırtmaq məqsəd ilə 1988-ci il martın 24-də SSRİ Ali Sovetinin qərarına əsasən, «Krunk» xalqlar arasında ədavət salan bir təşkilat kimi buraxıldı. Buna məhəl qoymayan erməni ekstremistləri isə təşkilatın fəaliyyətini daha da genişləndirdilər. «Miatsum» direktorlar şurası və digər ekstremist təşkilatlar Dağlıq Qarabağın Ermənistana verilməsi tələbini gücləndirdi. Azərbaycanlıların öz tarixi etnik torpaqlarından qovulması kütləvi xarakter aldı. 1988-ci ilin mart–may aylarında təqiblərə məruz qalan yüzlərlə azərbaycanlı – uşaq, qoca, qadın məcburi surətdə ev-eşiklərini tərk etdi.

1988-ci il martın 24-də Mərkəzin qəbul etdiyi «1988-1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında» qərar respublikada ictimai-siyasi vəziyyəti daha da kəskinləşdirdi. Aprel-may aylarında «Azadlıq» meydanında mitinqlər vüsət aldı. 1988-ci il mayın 16-da mitinq iştirakçıları «Torpaqdan pay olmaz» şüarı altında mübarizəyə hazır olduqlarını bildirərək, Mərkəzin və respublika rəhbərliyinin mövqeyini qətiyyətlə pislədilər. Mitinqdə Azərbaycan Xalqını Müdafiə Cəmiyyətinin yaradılması haqqında bəyanat verildi.

Azərbaycan xalqının ayağa qalxmasından qorxan Moskva 1988-ci il iyunun 18-də ilk dəfə olaraq məsələni SSRİ Ali Sovetinin Rəyasət Heyətində müzakirəyə çıxarsa da, hadisələrin real səbəblərini araşdırmaq və ona son qoymaq məqsədindən uzaq idi. Ermənistan–Azərbaycan münasibətlərindəki qarşıdurma beynəlmiləlçilik tərbiyəsinə nəzarətin olmaması ilə izah edilərək tənqid olundu. 1970-ci illərdə guya Dağlıq Qarabağın sosial-iqtisadi inkişafına qayğı göstərilmədiyi bildirilməklə Heydər Əliyevin hakimiyyətdə olduğu dövrə böhtan yağdırıldı. Halbuki, DQMV-in erməni əhalisinin təkcə mənzillə təmin olunma səviyyəsi ümumən Azərbaycan SSR üzrə göstəricidən 1,4 dəfə, Ermənistandan isə daha yüksək idi. SSRİ Ali Sovetinin Rəyasət Heyəti siyasi məsuliyyətsizlik göstərərək, hətta DQMV-nin separatçı ekstremistlərinin şovinist hərəkətinə siyasi qiymət verməyə belə cəhd etmədi. Bundan ruhlanan erməni millətçiləri DQMV Xalq Deputatları Sovetinin 1988-ci il 21 iyun tarixli sessiyasında vilayətin Ermənistan SSR tərkibinə verilməsi məsələsini müzakirə etdilər. Ermənistan SSR Ali Soveti isə vilayətin onun tərkibinə verilməsinə həmrəy olduğunu bildirdi. Bu qərar Azərbaycan SSR Ali Soveti tərəfindən qeyri-qanuni hesab edildi və onun ərazi bütövlüyünə qəsd kimi qiymətləndirildi.

Mərkəzi informasiya vasitələri Azərbaycan SSR Ali Sovetinin bu qərarının üstündən sükutla keçdiyi halda, vilayət ermənilərinin antikonstitusion mövqeyini geniş təbliğ edirdi. Hadisələrə araqarışdırıcı münasibət iyul–sentyabr aylarında həm Ermənistanda, həm də DQMV-də azərbaycanlılara qarşı növbəti kütləvi zorakılıqlara rəvac verdi. Sentyabrın 18-də Xocalıda, 21-də isə Xankəndidə azərbaycanlılara qarşı hücumlar təşkil olundu. Buna cavab olaraq, Şuşada azərbaycanlılarla ermənilər arasında toqquşma baş verdi. Xankəndidən azərbaycanlıların qovulması üçün süni bəhanə formalaşdırılırdı.

Ermənilər çoxdankı çirkin niyyətlərinin həyata keçirilməsi üçün Mərkəzin himayəsi sayəsində məqam yarandığını gizlətmirdilər. 1988-ci il noyabrın 4-də İrəvanda keçirilən mitinqdə «bu onilliklər ərzində ilk dəfədir ki, Ermənistanı türklərdən təmizləmək üçün nadir imkan verilmişdir» sözlərinin səslənməsi bunu açıq-aydın təsdiqləyirdi. 1988-ci ilin sonuna qədər Ermənistan SSR-in 16 rayonunun azərbaycanlılar yaşayan 185 kəndindən 250 min azərbaycanlı didərgin salındı. Yüzlərlə azərbaycanlı fiziki işgəncəyə, xəsarətə məruz qaldı, qətlə yetirildi. Ümumiyyətlə, 1988-1989-cu illərdəki deportasiya prosesində vəhşicəsinə öldürülən 217 azərbaycanlının 87 faizi və ya 186 nəfəri Dağlıq Qarabağ hadisələrinin birinci ilində, yəni 1988-ci ildə həyatını itirmişdi. Real vəziyyət, azərbaycanlılara qarşı tətbiq edilən zorakılıq, fiziki işgəncələr haqqında əhaliyə obyektiv informasiya verməyən Azərbaycan SSR rəhbərliyinin fəaliyyətsizliyi ictimai-siyasi vəziyyətin partlayış həddinə çatmasını daha da sürətləndirirdi.

Xalqın hüquqlarının müdafiəsi tələbi ilə 1988-ci il noyabrın 15-də Azərbaycan Elmlər Akademiyasında mitinq keçirildi, DQMV-nin ləğv olunması, vilayət soveti rəhbərliyinin həbs edilməsi tələbləri irəli sürüldü. Azərbaycan Xalq Cəbhəsinin yaradılmasının zəruriliyi fikri bəyan edildi. Noyabrın 17-də Ermənistanın təcavüzkarlığına, vilayət ermənilərinin Şimali Azərbaycanın qədim Topxana meşəsində törətdiyi vəhşiliyə, nadir ağacların qırılmasına etiraz əlaməti olaraq Elmlər Akademiyasının qarşısında növbəti mitinq keçirildi. Azadlıq meydanında davam edən 19 günlük Meydan hərəkatı belə başlandı. Respublikanın rayon və şəhərlərində də mitinq dalğası güclənirdi.

Xalq hərəkatının vüsət aldığı bir şəraitdə istər respublika, istərsə də rayon səviyyələrində hakimiyyət uğrunda mübarizə də qızışmaqda idi. Mitinqlərdə respublika rəhbərliyinin istefa verməsi barədə tələblər səslənirdi. İqtidarın öz daxilində də səbatsız başçıların vəzifədən gedəcəyi an səbirsizliklə gözlənilirdi. Azərbaycan KP MK-nın öz daxilindəki qüvvələrin, xalq hərəkatının bəzi liderlərinin hakimiyyət uğrunda davası milli birliyin yaranması yolunda ciddi maneə idi. Bu maneə təkcə müxalifət və ya iqtidar arasında yox, mitinqdə iştirak edənlər arasında da mövqe ayrılığına təsir göstərirdi. Respublika rəhbərliyi mitinqin dayandırılması barədə müraciət etsə də, buna məhəl qoyulmadı. Dekabrın 4-dən 5-nə keçən gecə mitinqçilər iqtidarın hücumuna məruz qaldılar. Mərkəz güc tətbiq etməklə SSRİ-nin dayağı olan sovet ordusunun nüfuzuna ciddi zərbə vurdu, xalqla ordu arasında etimadsızlıq toxumu səpdi. Vətəninin suverenliyi uğrunda ayağa qalxan mitinqçiləri tankların gücü ilə dağıtmaqla ümumxalq nifrətini daha da gücləndirdi.

Siyasi böhranın kəskinləşdiyi belə bir vaxtda respublikadakı ictimai-siyasi vəziyyəti, rəhbərlik üçün vacib olan təcrübəsini və xalqın tələbini nəzərə alaraq Heydər Əliyevin Azərbaycana dəvət olunması ən məqbul variant idi. Yerli iqtidar imperiyanın iflasını hiss edə,

Moskvameyilli mövqeyindən, «anti Əliyev kampaniyasından» əl çəkib, onun təcrübəsindən və məsləhətlərindən istifadə edə bilərdi. Müxalifətdəki bəzi qüvvələr də Heydər Əliyevin hakimiyyətə gətirilməsinə qısqanclıqla yanaşırdılar. Lakin Heydər Əliyev şəxsiyyətinə inam bəsləyən xalq ilə hakimiyyətə can atanlar və onların tərəfdarları arasında parçalanma daha da gücləndi. (1993-cü ildə prezident Ə.Elçibəyin Heydər Əliyevi Bakıya dəvət etməsi, Azərbaycan SSR-də yaranmış vətəndaş müharibəsi təhlükəsi şəraitində onun təcrübəsinə ehtiyac duyması, əslində, həmin səhvlərin qaçılmaz etirafı idi). SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra siyasi fəaliyyətlə məşğul olmayacağını düşünən, ancaq ürəyi hər an xalqı ilə döyünən Heydər Əliyev sağlamlığı üçün təhlükəli bir şəraitdə Moskvada yaşamağa məcbur olsa da, xalqının taleyinə biganə qalmır, respublikanın dərdi, problemləri barədə ölkə rəhbərliyi ilə ciddi müzakirə aparmağa çalışırdı. M.Qorbaçov isə onu hətta qəbul etmək istəmirdi. Şəxsiyyətinə münasibətdə həm iqtidarın, həm də müxalifətin demokratiya prinsiplərinə zidd mövqeyinə məhəl qoymayan lider xalqın birliyini vacib hesab edirdi.

Mitinq dağıdıldıqdan az sonra Sabirabad, Yevlax, Lənkəran və digər rayonlarda baş verən iğtişaşlara son qoymaq məqsəd ilə dekabrın 24-dən etibarən Bakı şəhərində və respublikanın 17 rayonunda xüsusi vəziyyət və komendant saatı tətbiq olundu. Axşam saat 10-dan səhər saat 6-yadək «xüsusi idarəçilik formasının tətbiqi haqqında» qərar qəbul edildi. DQMV XDS və İcraiyyə Komitəsi hüququnda birbaşa Moskvaya tabe edilən Xüsusi İdarəetmə Komitəsi təşkil olundu. Beləliklə, vilayətdə Azərbaycan SSR-ə tabe olmayan antikonstitusion idarəçilik forması yaradıldı. Komitənin başçısı təyin olunmuş qatı millətçi Arkadi Volskinin havadarlığı sayəsində vilayətə müxtəlif materialların daşınması adı altında silah gətirilməsi genişləndi. Mərkəzin ermənipərəst siyasəti, azərbaycanlılara qarşı zorakılıq, Ermənistan SSR-dən azərbaycanlıların qovulmasının intensivləşməsi xalqın hiddətini artırır, onun təşkilatlandırılmasını tələb edirdi. AXC-nin təşkili ideyasının zəruriliyini inkar edə bilməyən iqtidar prinsip etibarilə onun əleyhinə olmadığını bildirsə də, yaradılmasına mane olurdu.

1989-cu il mayın 6-da SSRİ Nazirlər Sovetinin qərarı ilə DQMV-dəki idarə və müəssisələrin Azərbaycan SSR-in səlahiyyətindən çıxarılması, Azərbaycan SSR-dən Naxçıvan MSSR-ə gedən qatarların iyun ayından

etibarən Mehri rayonu ərazisində silahlı həmlələrə məruz qalması, Naxçıvan MSSR-in blokadaya alınması respublikanın suverenliyi üçün təhlükəni daha da artırdı. Azərbaycan SSR rəhbərliyi isə Ermənistan SSR-ə gedən, əksəriyyətində Azərbaycan SSR-ə təcavüz məqsədi üçün silah və sursatın daşındığı qatarların hərəkətində fasiləsizliyi həmişə təmin edirdi. Ermənilər Mehri rayonu hərəkətləri ilə həm respublikanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsini kəsir, həm də Ermənistan SSR-in guya Azərbaycan SSR tərəfindən blokadaya salındığını təbliğ edir, beləliklə, Dağlıq Qarabağda ermənilərin törətdiyi əməllərə bəraət qazandırılması üçün yeni ictimai rəy formalaşdırmaq imkanı əldə olunurdu. DQMV-də artıq çoxdan yerləşdirilmiş silahlı «saqqallıların» Xankəndi, Cəmilli, Daşbulaq, Həsənabad və s. yaşayış məntəqələrinə hücumları məhz bu təbliğata söykənirdi.

1989-cu il iyunun 4-də Bakı şəhər «Spartak» stadionunda Azərbaycan xalqının milli bayraqları qaldırılan mitinq keçirildi. Siyasi məhbusların həbsdən azad olunması, xüsusi vəziyyətin və komendant saatının ləğv edilməsi, DQMV-də törədilən cinayətlərə son qoyulması, qaçqınların dədə-baba yurdlarına qaytarılması tələbləri irəli sürüldü. Xalqın özünümüdafiəsinə rəhbərlik etmək ehtiyacı, respublikada siyasi pərakəndəliyə son qoymaq, müxtəlif qrup və birlikləri eyni məqsəd ətrafında birləşdirmək zərurəti AXC-nin yaranmasının gerçəkləşdirilməsinə təkan verdi. AXC-nin Təşəbbüs qrupu isə xalq hərəkatı ilə ayaqlaşa bilmir, ondan geridə qalırdı. İyulun 16-da Azərbaycan Xalq Cəbhəsinin təsis konfransı keçirildi. Respublikanın 30 rayonundan səsvermə hüququ ilə 196, məşvərətçi səslə 240 nümayəndənin iştirak etdiyi konfransda Təşəbbüs qrupunun hesabatı, respublikada siyasi vəziyyət, AXC-nin Məramnamə və Nizamnaməsinin təsdiqi və təşkilat məsələləri müzakirə edildi. Ə.Elçibəy (Əliyev) səs çoxluğu ilə (9 nəfər əleyhinə) AXC-nin sədri seçildi. «Azərbaycan SSR-in dövlət suverenliyi haqqında», «Azərbaycan Demokratik Respublikası haqqında» qətnamələr qəbul olundu. 28 May gününün Azərbaycanın istiqlaliyyət günü elan olunması, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzlərinin – üçrəngli bayraq, gerb və milli himnin tanınması barədə Azərbaycan SSR Nazirlər Soveti qarşısında məsələ qaldırıldı.

Azərbaycan SSR rəhbərliyi «Qarabağ problemi ilə və orada başlanmış hərbi əməliyyatlarla əlaqədar yaranmış» AXC-ni 1989-cu il

oktyabrın 5-də tanımağa məcbur oldu [9, 26]. Lakin demokratik qüvvələr arasında kökləri 1988-ci ildən özünü büruzə verən fikir ayrılığı daha da güclənir, təşkilat üzvlərinin vahid siyasi platforma ətrafında birləşməsini zəiflədirdi.

Ə.Elçibəyin (Əliyev) İttifaq Sovetinin sədri Y.Primakovla SSRİ daxilində suverenlik ideyalarını müdafiə edən söhbəti haçalanmış siyasi mövqelərdən xəbər verirdi: «Primakov soruşdu ki, sizin məqsədiniz nədir? Dedim ki, demokratik parlament seçkiləri aparmaq. Cavabında: «Bundan sonra Sovet İttifaqından ayrılmağa bir pillə qalır», -dedi. Əlavə etdim ki, siz düz demirsiniz. Bizim hələ ayrılmaq fikrimiz yoxdur; biz konfederal dövlət yaratmaq istəyirik ki, Azərbaycan SSR də, başqa respublikalar da bərabərhüquqlu olsun, bu respublikalar istədikləri vaxt öz aralarında müəyyən müqavilə bağlaya bilsinlər». «Nəyin bahasına olursa-olsun, milli istiqlal» fikirlərini təbliğ edən Nemət Pənahov və onun tərəfdarları isə xalqı Sovet imperiyasına qarşı mübarizəyə çağırır, respublikanın SSRİ-nin tərkibindən çıxmasını vacib hesab edirdilər. Fikir ayrılığı qüvvələrin «liberallar» və «radikallar» şəklində qütbləşməsinə, AXC daxilində parçalanmaya yol açdı.

AXC rəhbərliyi Azərbaycan SSR Ali Sovetinə 1989-cu il sentyabr seçkilərində iştirak etməyi, deputat mandatı alaraq, siyasi mübarizəni parlament daxilinə keçirməyi müxalifətin ümumi məqsədi kimi bəyan etdi. Daxili fikir ayrılığının məxfi saxlanmasında maraqlı olan hər iki tərəf sentyabr ayının birinci ongünlüyündə Ağdam, Bərdə, Şuşa və s. rayonlarda keçirilən mitinqlərdə DQMV-i üzrə Xüsusi İdarəetmə Komitəsini ləğv etmək və s. haqda yekdil qərarlar qəbul etdi. Vətənin müdafiəsinə hazır olan əhaliyə silah verilməməsi, hətta şəxsi ov tüfənglərinin yığılması, rayon rəhbərlərinin mitinqləri dağıtmaq cəhdləri və s. kəskin şəkildə pisləndi. Bərdə rayon rəhbərliyinin mitinqi dağıtmaq cəhdinin toqquşma təhlükəsi yaratması tənqid edildi.

Sentyabrın 15-də Bakıda şiddətlənən mitinq prosesində də eyni məzmunlu tələblər irəli sürüldü və həmin gün çağırılan Azərbaycan SSR Ali Sovetinin XI sessiyası qarşısında qoyuldu.

Sessiyada iştirak edən AXC İdarə heyətinin üzvləri respublikanın suverenliyi haqqında qanun qəbul olunması təklifi ilə çıxış etdilər. Rədd cavabı alan heyət üzvləri gecə saat 23 radələrində nümayişkaranə surətdə sessiyanı tərk etdilər. Sessiyanın televiziya ilə canlı yayımından

istifadə edilərək, xalq ümumi tətilə dəvət olundu. Çağırışa səs verən kütlə gecə Ali Sovetin binası ətrafına toplandı. Cəbhənin öz daxilindəki fikir, mövqe ayrılığı gərgin emosional şəraitdə bir daha üzə çıxdı. Bir sıra nümayəndələr «başqa tədbirlərə» əl atmaq tərəfdarı idisə, Ə.Elçibəy tərəfdarları yenidən iqtidarla danışıqlar aparmağı üstün tuturdular. Bu danışıqlar mümkün oldu və 15 sentyabr gecəsi tarixi əhəmiyyətli hadisə baş verdi. SSRİ respublikaları arasında ilk dəfə olaraq Azərbaycan SSR Ali Soveti respublikanın suverenliyi haqqında Konstitusiya Qanununun hazırlanması barədə ümumi razılığa gəldi.

Siyasi qətiyyəti olmayan iqtidar müxalifətlə ümumi razılığa gəlsə də, AXC-yə alternativ xarakterli Qarabağa Yardım Komitəsini də yaratdı. Məqsəd AXC-yə üzvlüyə olan kütləvi axının qarşısını almaq idi. AXC-yə və QYK-yə üzvlüyə yazılma prosesi qütbləşməni xalq içərisinə də yoluxdurdu.

1989-cu il noyabrın 28-də Moskvanın «Azərbaycan SSR-in DQMV» ifadəsini oyunbazlıqla işlətməyərək, «Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında» qərarı ermənilər arasında vilayət üzərində nəzarət, azərbaycanlılar arasında isə oradan yavaş-yavaş əlini üzmək əhval-ruhiyyəsi səpməklə vəziyyəti daha da qızışdırdı. DQMV-də xüsusi idarəçilik forması ləğv edilsə də, «saqqallılar»ın ixtiyarında olan vilayətdə Azərbaycan SSR Təşkilat Komitəsinin yaradılması qərara alınsa da, burada SSRİ Ali Sovetinin Nəzarət Komissiyası təşkil olundu. İrticanın Azərbaycan SSR-ə hücumuna zəmin hazırlayacaq xəyanətkar planlar (Bakıda təxribatçı «erməni talanları», Ermənistan SSR-dən qovulan və bakılı azərbaycanlılar arasında süni toqquşma törətmək cəhdləri) quruldu. Lakin xalqın birliyi sayəsində bu cəhdlər baş tutmadı. Demokratik qüvvələr tərəfindən yaradılan «Bakı Kəndlər Birliyi» bu xəyanətkar planların qarşısının alınmasında fəal iştirak etdi.

Respublika rəhbərliyinin Azərbaycan SSR-ə pənah gətirmiş qaçqınların yerləşdirilməsi ilə bağlı cinayətkar siyasəti respublikada ictimai sabitliyi pozurdu. Dağlıq Qarabağ ermənilərinin vilayəti tərk etmək niyyətində olduğu bir məqamda qaçqınların Ermənistan tərəfindən ilhaqı planlaşdırılan Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinə göndərilməsinə icazə verilməməsi vilayətdə demoqrafik vəziyyətin Azərbayca SSR-in xeyrinə dəyişdirilməsinə, ermənilərin oradan çıxıb

getməsinə mane oldu. Arxayınlaşan yerli erməni rəhbərliyi isə azərbaycanlıların vilayətdən kütləvi şəkildə didərgin salınmasına başladı.

Ermənistan SSR Ali Sovetinin «Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında» 1989-cu il 1 dekabr tarixli qərarı Azərbaycan xalqının mitinqlərinə yeni təkan verdi. Dekabrın 2-də Azadlıq meydanında mitinq başlandı. Dekabrın 11-də Lənkəran, Cəlilabad rayon partiya komitələri hakimiyyətdən uzaqlaşdırıldı, «Xalq hökuməti»nin yaradıldığı elan olundu. Halbuki Azərbaycan SSR-də sovet hakimiyyəti orqanlarının devrilməsi məsələsi xalqın mübarizəsinin heç gündəliyində də deyildi. Süqutu qaçılmaz olan rejimin devrilməsi yox, bacarıqsız respublika rəhbərliyinin yenisi ilə əvəz edilməsi nəzərdə tutulurdu. Görkəmli ziyalılar, müxalifət nümayəndələri respublika rəhbərliyinə yeni təyinata ehtimalı olan namizəd ətrafında ümumi razılığa da gəlmişdilər. Respublikanın İranla dövlət sərhədinin bir sıra məntəqələrində dirəklər söküldü. Arazın hər iki tayından olan əsəbləri gərilmiş həmvətənlərin tarixi görüşü Azərbaycan SSR-in təklənməsinə etirazın ifadəsi, dünya azərbaycanlılarının həmrəyliyinə çağırış idi. Sovet sərhədçilərinin gözü qarşısında maneə olmadan həyata keçirilən «sərhəd əməliyyatı» Arazın hər iki tayında yaşayan azərbaycanlıların həmrəyliyinin ifadəsi olsa da, sovet qoşunlarının əlavə hissələrinin respublikaya yeridilməsi üçün bəhanə kimi istifadəyə də imkan yaratdı.

İqtidar-müxalifətarası, iqtidardaxili və müxalifətdaxili qarşıdurma son həddə çatmaqda idi. 1990-cı il yanvarın 7-də AXC-nin yeni İdarə Heyətinə seçkidə 8 yer qazanan liberallarla barışmaq istəməyən, 3 yerə nail olmuş radikallar heyətdən çıxaraq Milli Müdafiə Şurası yaratdılar. DQMV-nin sosial-iqtisadi inkişaf vəzifələrinin Ermənistan SSR dövlət planına uyğunlaşdırılması haqqında 1990-cı il 9 yanvar tarixli qərardan, Xanlar rayonunun Quşçu kəndində erməni silahlılarının əhaliyə tutduğu divandan qəzəblənən xalqdan ayrı düşməmək, Vətəni müdafiə şüarı ilə yaradılmış Müdafiə Şurasından kənarda qalmaqla təklənməmək üçün liberallar Milli Müdafiə Şurasını tanıdılar. Yanvarın 9-10-da keçirilən müxalifət-iqtidar görüşündə «fəhlə drujinaları» yaradaraq sərhədyanı rayonlara və Qarabağa göndərmək fikri hamılıqla bəyənildi. İkiüzlü iqtidar həmin gün şifrəli teleqramla guya Azərbaycan SSR-də sovet hakimiyyəti üçün təhlükə olması barədə

Moskvaya müraciət etdi və kömək istədi. «Lənkəran və Cəlilabadda rayon partiya komitələrinin fəaliyyətinin dayandırılması ilə Azərbaycan SSR-də sovet hakimiyyəti üçün təhlükə vardır» bəhanəsini yaradanlar yanvarın 11-də yerli hökumətin fəaliyyətini bərpa etdilər.

1.2. Qanlı Yanvar. Erməni təcavüzünə qarşı xalq hərəkatından dövlət müstəqilliyi uğrunda mübarizə mərhələsinə keçid

İmperiyanı qoruyub saxlamağa can atan Mərkəz Azərbaycan SSR ərazisində təxribatlar hazırlayır, irticanın hücumunu planlaşdırırdı. Ermənistan SSR ərazisində azərbaycanlıların yaşadığı təkcə Nüvədi kəndi qaldığı halda, ermənilərin Azərbaycan SSR-də yaşamaqda davam etməsindən və rəhbərliyin «himayəsinə» alınmasından xalqın qəzəbləndiyi bir vaxtda ermənilərə qarşı düşünülmüş talanlar törədərək, onu azərbaycanlıların adına yazmaq mümkün idi. Yanvarın 13-14-də Bakıda belə bir talan törədildi. Azərbaycan KP MK bürosunun yanvarın 14-də Sov.İKP MK katibi A.Girenkonun, İttifaq Sovetinin sədri Y.Primakovun iştirakı ilə keçirilən iclasında respublikada fövqəladə vəziyyətin tətbiqi məsələsi müzakirə edildi. Ali Sovetin Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirovun hüquqi əsası olmayan göstərişi ilə çağırılan və yetərsaysız keçirilən iclası Azərbaycan SSR-in DQMV-ndə, zəruri hallarda isə vilayətə bitişik rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında qərar qəbul etdi. Bir gün sonra SSRİ Ali Sovetinin Bakı və Gəncə şəhərlərində, digər yaşayış məntəqələrində komendant saatının tətbiqi haqqında verdiyi fərman Azərbaycan SSR-də ictimai-siyasi vəziyyəti daha da ağırlaşdırdı.

Qərar verilən qırğının ağır nəticələrinə hazırlıq məqsədilə yanvarın 16-17-də respublika xəstəxanaları boşaldıldı, palatalar hazırlandı, cərrahlar xəbərdar edildilər. Bakı şəhərinin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında toplanaraq 60 hərbi hissədən 24-nün yolunu kəsən piketçilərə dövlət tərəfindən rəsmi xəbərdarlıq olunmadı. Əksinə, Bakı şəhərində qadağa tədbirinin olmayacağı barədə rəsmi bəyanat verildi. Yanvarın 18-də Bakıda və 11 rayonda ümumi tətil başlandı. Azərbaycan KP MK-nın binası mühasirəyə alındı. Öz iş

yerini başsız qoyaraq DTK-nın binasına çəkilən Ə.X.Vəzirovun əvəzinə, respublikaya rəhbərlik Y.M.Primakovun şifahi göstərişi ilə A.N.Mütəllibova və V.Polyaniçkoya tapşırıldı. Hakimiyyətsizlik hökm sürən respublikaya Ermənistan SSR tərəfdən silahlı hücum gücləndi. Naxçıvan MSSR-in Kərki kəndi Ermənistan SSR-də yerləşən 7-ci sovet ordusunun hərbçiləri tərəfindən işğal edilərək ermənilərə təhvil verildi. Yanvarın 19-da Sədərək, Şada, Yuxarı Yaycı, Havuş, Günnüt və Batabat hücuma məruz qaldı. Muxtar respublikada yerləşən diviziya isə Naxçıvan MSSR əhalisinin kömək haqqında xahişlərinə məhəl qoymadı. 30 min qaçqının problemləri ilə üz-üzə qalan Naxçıvan MSSR Ali Soveti muxtar respublikada fövqəladə vəziyyətin tətbiqi barədə respublika və ölkə rəhbərliyinin göstərişlərini rədd etdi. Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxma haqqında qətiyyətli qərar qəbul etdi.

Azərbaycan SSR dövlət televiziyasının enerji bloku DTK-nın xüsusi təyinatlı «Alfa» qrupu tərəfindən partladıldığı üçün hücum barədə AXC-yə sızdırılan informasiya ictimaiyyətə çatdırıla bilmədi. Xəbəri eşidən piketçilər isə buna məhəl qoymadılar. Bakıda fövqəladə vəziyyətin tətbiq olunmayacağı haqqında vədlər yalan çıxdı. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti yanvarın 20-də saat 00-dan «Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında» fərman versə də, qoşundan istifadə etmək niyyəti, fövqəladə vəziyyət rejiminin qüvvəyə mindiyi vaxt xalqa bildirilmədi.

M.Qorbaçov Bakıya qoşun yeritmək barədə qərar qəbul etdikdən sonra Heydər Əliyevə telefonla zəng etdi. Həyəcanlı-hamar nitqlə Bakıda vəziyyətin pis olduğunu və Azərbaycan SSR-ə nə isə bir əlac tapmaq lazım gəldiyini söylədi. Halbuki o, Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən hadisələrlə əlaqədar 1987-ci ildən bəri qəbul olunması, dinlənilməsi barədə Heydər Əliyevin təkidli xahişlərinə məhəl qoymurdu. Telefon zənginin ondan kömək dilənilməsi, yoxsa onun günahkar hesab olunması məqsəd ilə edilməsini bilməyən Heydər Əliyev xalqının haqqını müdafiə etdi [9, 51]. Həmin axşam saat 21-22 radələrində, «Tayfun» əməliyyatına uyğun olaraq, Bakıya qoşun yeridildi. Əməliyyat Türkan və Qala qəsəbələri arasındakı hərbi hissələrin yerləşdiyi ərazilərdən, əvvəlcədən spirtli içki verilmiş, aralarında ermənilərin də az olmadığı xüsusi təyinatlı dəstələr tərəfindən başlandı. Hərbi gəmilərdən şəhərə desant çıxarıldı. Gözya-

şardıcı qaz tətbiq olunur, hərbi texnika piketçilərin qurduğu maneələri əzib keçirdi. İnsanlar qəddarlıqla atəşə tutulur, yaralılar yerindəcə güllələnir, evlərə, təcili tibbi yardım maşınlarına və s. atəş açılırdı. Fövqəladə vəziyyətin tətbiqi haqqında fərmanın qüvvəyə minməsinədək 9 vətəndaş qətlə yetirilmişdi. Xalq fərman haqqında yalnız yanvarın 20-də səhər saat 7-də xəbər tutdu. Bu ana qədər artıq 82 şəxs həlak olmuş, 20 nəfər yaralanmışdı. 131 nəfərin, o cümlədən 3 tatarın, 3 yəhudinin, 6 rusun öldürüldüyü, 744 adamın yaralandığı, 400 vətəndaşın həbs edildiyi, 4 nəfərin itkin düşdüyü bu cinayəti ört-basdır etmək, xalq hərəkatına «islam fundamentalizmi» damğası vurmaq niyyəti ilə Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko hakimiyyəti şeyxülislam Allahşükür Paşazadəyə təklif etdi. Lakin niyyət baş tutmadı. Burada əsas məqsəd baş verə biləcək hadisələrdə Azərbaycan xalqını islam təməlçiliyinin yayılmasında günahlandırmaq idi.

M.Qorbaçovla kəskin telefon danışığından sonra bütün gecəni yata bilməyən Heydər Əliyev xalqının fəlakətə düçar olduğu bir vaxtda kənarda qala bilməyəcəyini qət etdi. Halbuki bəzi cəbhəçi «"liderlər» faciə günlərində xalq içərisində deyildi, evdə rahatlanırdılar. Ümummilli lider təqib və təzyiqlərə məruz qaldığı bir dövrdə respublikanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, 6 minə yaxın həmvətəninin iştirakı ilə təşkil olunmuş mitinqdə çıxış etdi. Mitinqə Kommunist partiyası sıralarını tərk etmək niyyəti ilə gəlsə də, düşündü ki, xalqına kömək etmək məqsəd ilə bu addımı atmaq bəlkə indi lazım deyil. O, mitinqdə və mətbuat konfransında çıxış edərək xalqına başsağlığı verdi, faciənin təşkilatçılarını qatil adlandırdı. Çox çətinliklə Azərbaycanda bir neçə adama telefonla zəng vuraraq, göndərdiyi başsağlığının respublika qəzetlərində dərc olunmasını, yaxud Yanvar şəhidlərinin matəm mərasimində oxunmasını rica etdi [9, 340; 11, 131]. Lakin onun bu xahişləri yerinə yetirilmədi. Moskva və respublika iqtidarı tərəfindən ona qarşı təzyiqlər daha da gücləndirildi.

20 Yanvar faciəsi sovet ordusunu dünyaya öz dövlətinin vətəndaşına divan tutan qaniçən kimi tanıtdı, ölkədə və dünyada nüfuzdan saldı. Belə bir ordunun Şərqi Avropada qalmasına beynəlxalq etiraz yüksəldi. Avropa birliyinin yaradılması yolunda əngələ çevrilmiş sovet ordusunun Şərqi Avropadan çıxarılması sürətləndi. Elə buna görə də ABŞ, İngiltərə, Fransa və s. dövlətlərin rəhbərləri Azərbaycan SSR-də

gedən azadlıq mübarizəsini müdafiə etsələr də, 20 Yanvar faciəsini «qayda-qanun yaradılması» cəhdi kimi qiymətləndirdilər. ABŞ prezidenti Corc Buş demişdi: «Mən bilən, M.Qorbaçov yaxşı hərəkət etmişdir. İnanmıram ki, kimsə onu ittiham eləsin. Zənnimcə, o, məsələnin cavabını gözəl tapdı». Nəhəng dövlətlərin bu mövqeyi və xüsusilə də Türkiyə prezidenti Turqut Özalın verdiyi bəyanatı Azərbaycan xalqı ürək ağrısı ilə qarşılamışdı.

Qanlı Yanvar Azərbaycan xalqının həyatında dönüş nöqtəsi oldu. Erməni təcavüzünə qarşı mübarizəyə qalxan xalq sovet dövlətinə hələ ümid bəsləyirdisə də, faciə bu ümidi puç etdi. Xalqımız şəhidlər versə də, öz namusunu, şərəfini qorudu. O sübut etdi ki, onun öz hüquqları uğrunda mübarizədə iradəsini qırmaq olmaz. Minlərlə kommunist partiya biletlərinə faşist nişanı çəkərək üzv olduqları partiya təşkilatlarına qaytardı və ya tonqallara atdı. AXC respublikada 40 günlük matəm elan etdi. Azərbaycan SSR Ali Sovet rəhbərliyi qoşunların respublikaya dəvət edilməsindən xəbəri olmadığını bəyan edərək Mərkəzi günahlandırsa da, fövqəladə vəziyyətin tətbiqinin zəruriliyini təsdiq etdi. Respublika rəhbərliyindən fərqli olaraq, qeyrətli deputat ziyalılar iqtidarın iradəsinə qarşı çıxaraq, yanvarın 22-də Azərbaycan SSR Ali Sovetin fövqəladə sessiyasını çağırdılar. Respublika rəhbərliyi sessiyanı qanunsuz hesab edərək, onun işində iştirak etmədi. Ağır şəraitdə, böyük təzyiqlər, qorxu altında faciəyə münasibət bildirildi. «Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında» qərar qəbul olundu. Bakıya qoşun yeridilməsi haqqında SSRİ Ali Sovetinin fərmanı «təcavüz aktı», Azərbaycan xalqına qarşı cinayət kimi pisləndi. DQMV və Ermənistanla qonşu rayonların sərhəd zolaqları istisna olmaqla, hər yerdə fərmanın qüvvəsinin dayandırılması, qoşun hissələrinin respublikadan çıxarılması tələb edildi. Yanvar faciəsini təhqiq etmək üçün 21 nəfərdən ibarət deputat istintaq komissiyası yaradıldı. İttifaq rəhbərlərinin cinayətkar mövqeyi vurğulansa da, respublika rəhbərlərinin cinayət tərkibli əməli müzakirəyə qoyulmadı. «1990-cı il 20 yanvardan sonra respublikamızda siyasi proseslər Azərbaycan xalqının, ölkəmizin tam müdafiəsi istiqamətində getmədi... O vaxt hakimiyyətdə olanların bir hissəsi də, hətta hakimiyyətə qarşı müxalifətdə olan, milli azadlıq hərəkatında iştirak edən, habelə ona rəhbərlik edən

adamlar da bu hadisənin müzakirə olunmasını istəmədilər... Çünki, hərə bir tərəfdən qorxurdu. Hakimiyyətdə olanlar qorxurdular ki, onların günahlarının üstü açılar. Milli azadlıq uğrunda mübarizə aparanlar isə, təəssüf, nədənsə qorxurdular ki, onları xalqı ayağa qaldırmaqda, qırğına verməkdə günahlandıracaqlar» [11, 124-125].

Faciəli yanvar günlərində Kremlə çağırılaraq təlimatlandırılan A.N.Mütəllibov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə yararlı hesab olundu. Yanvarın 24-də Azərbaycan KP MK-nın plenumu onu bu vəzifəyə seçdi. Təkidli təkliflərdən sonra «Respublikada siyasi vəziyyət haqqında» məsələ gündəliyə daxil edildi. İclasa sədrlik edən V.Polyaniçkonun və o vaxtkı rəhbərliyin «ört-basdır» mövqeyi sayəsində faciəyə siyasi qiymət verilməsi tələblərindən yan keçildi. Yalnız fövqəladə vəziyyətin tətbiq olunması səbəblərini təhqiq etmək məqsədilə komissiya yaradılmaqla kifayətlənildi. Azərbaycan KP MK-nın ilk partiya təşkilatının qərarı ilə Ə.X.Vəzirov yalnız partiya sıralarından xaric edilməklə vəzifədən azad olundu. Onun respublikada fəaliyyəti dövrünün araşdırılması üçün komissiya yaradıldısa da, qərar icra olunmadı. Yeni rəhbərlik «nizam-intizam» yaratmaq adı altında inzibati tədbirlərə başladı. Mitinqlərdə fəallıq göstərən şəxslər, o cümlədən 300-dən artıq AXC üzvü həbs olundu. AXC-nin qərargahı dağıdıldı, onun 26 rayon təşkilatının fəaliyyəti qadağan edildi. «Azadlıq» qəzetinin fəaliyyəti dayandırıldı. Yanvar faciəsinin səbəblərini AXC-nin üzərinə yıxmaq mövqeyindən çıxış edən iqtidar deputat istintaq komissiyasının Azərbaycan SSR Ali Sovetin Rəyasət Heyətinin 1990-cı il 11 fevral tarixli iclasında bəyənilən bəyanatına nail oldu.

Yeni iqtidar «Dağlıq Qarabağ məsələsi»nə münasibətdə əvvəlki rəhbərliyin gözləmə siyasətini tənqid etsə də, faciəni törədənlər pisləsə də, Moskvadan respublikanın sərhədlərinin qorunmasına yönəlmiş qəti və aydın siyasət aparmağı umsa da, əməli nəticələrə müvəffəq ola bilmədi. Fövqəladə vəziyyətin ləğvinə nəinki səy göstərmədi, əksinə, onun qalmasına etirazını da bildirmədi. Çünki, fövqəladə vəziyyət iqtidarın ömrünü uzatmaq üçün sərfəli idi. Milli Müdafiə Şurası xətti ilə könüllülərdən ibarət xalq drujinası və Xüsusi Təyinatlı Milis Dəstəsi münaqişə bölgəsinə göndərilsə də, erməni təcavüzünə təsirli hərbi müqavimət təşkil olunmadı. Azərbaycanlıların yaşadıqları 154 yaşayış

məntəqəsi aramsız basqınlara məruz qalırdı. Azərbaycan SSR-in Dağlıq Qarabağ ərazisinə hücum dövründə Naxçıvan MSSR ərazisinə də hücumlar edilirdi. Kərki kəndinin 130 ailəsi didərgin salınmış, 730 ha əkin sahəsi zəbt edilmişdi. Ermənilərin məqsədi muxtar respublikanın əhalisini vahiməyə salaraq yurdlarını tərk etməsinə və Naxçıvan MSSR-lə bağlı ərazi iddialarının həyata keçməsinə nail olmaq idi.

Yanvar faciəsindən sonra tətillər, mitinqlər vasitəsilə deyil, anti-iqtidar ruhlu təbliğat, azadlığa tədricən müvəffəq olmaq məqsədilə parlamentə demokratik seçkilər keçirilməsini tələb etmək, siyasi dialoq və s. üsullardan ibarət mübarizə formalarına üstünlük verildi. Mövcud siyasi vəziyyəti nəzərə alaraq AXC «milli barışıq üçün müəyyən qədər güzəştə getmək olar» mövqeyi seçdi. Bu mövqe Bakıda komendant idarəçiliyinin irticaçı siyasəti, «radikal» müxalifət qanadının «nəyin bahasına olursa-olsun, SSRİ-nin tərkibindən çıxmalıyıq» yolunun qabardılması üçün hələlik şəraitin olmaması ilə şərtlənirdi. Mitinq və tətillər üçün mühüm amil olan «kütlə» axınına zərbə vurulmuşdu. Cəbhə rəhbərliyinin faciənin baş verməsində «AXC-nin müəyyən təqsiri var idi» etirafı əhali arasında çaşqınlıq yaratmışdı. Kütləvi informasiya vasitələrinin iqtidarın mənafeyinə uyğun təbliğatı, yanvar qırğınının səbəblərini AXC-nin adı ilə bağlaması və s. də faciədən sonra yeni mübarizə formasını tələb edirdi. AXC-nin tərkibini təmizləmək, kommunist rejiminin ifşasını davam etdirmək, istiqlaliyyət uğrunda mübarizədə xalqın birliyinə nail olmaq, erməni təcavüzünə son qoymaq dinc mübarizə yolunun başlıca vəzifələri idi.

Həm Mərkəzin, həm də yerli iqtidarın AXC-nin tərkibinin təmizlənməsini istəməsi AXC tərəfindən də məqbul hesab edildi. AXC sədrinin «Yazov deyib ki, mən Xalq Cəbhəsini dağıdacağam. Qorbaçov da deyib ki, yox, dağıtma, qoy hələ qalsın...orada demokratik fikirlilər o millətçiləri, radikalları təmizləsinlər, sonra onlarla danışığa girərsiniz... İndi A.Mütəllibov da deyir ki, mənə belə deyiblər. İndi o da gözləyir ki, biz təmizlənək» fikri «təmizlənmə» tapşırığının olduğunu təsdiq edirdi. Təmizləmənin məqsədi Cəbhəni radikal qüvvələrdən, iqtidardan narazı olanlardan, eləcə də «bizim ümumittifaqdan nicatımız yoxdur» deyən Heydər Əliyevçilərdən ayrılmaq idi. Qeyri-prinsipial mövqe ziyalıların əsas kütləsinin cəbhədən uzaqlaşmasına təkan verdi. Partiyalaşma xətti, platforma ayrılığı olan qüvvələrin yenidən təşkilatlanması

ilə yanaşı, seçkilər ərəfəsində deputat yerləri uğrunda mübarizədə onların blok kimi birləşməsinə perspektiv açırdı.

Mayın 17-də ziyalıların, iqtidar və müxalifət nümayəndələrinin iştirakı ilə üçtərəfli görüş təşkil olundu. Cəmiyyətdə ortaq siyasi mövqeyin formalaşdırılması üçün vacib olan seçki qanunvericiliyinin dəyişdirilməsi müzakirə edildi. İqtidar Ali Sovetə seçkilərdə 320 deputat yerindən 120-ni ictimai təşkilatlar üçün nəzərdə tutan təklif irəli sürdü. Təkliflə razılaşmayan müxalifətin mövqeyinə məhəl qoymayan iqtidar mayın 18-də Azərbaycan SSR Konstitusiyasına SSRİ Xalq Deputatları seçkiləri haqqında Qanunun məzmunca təkrarı olan dəyişikliklər və əlavələr barədə qanunu qəbul etdi. Halbuki, SSRİ Xalq Deputatlarının II qurultayında qəbul olunmuş «Seçki sistemi məsələləri üzrə SSRİ Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında» qanunun müttəfiq respublikalara verdiyi hüquqlardan istifadə edərək, demokratik seçki qanunu qəbul etmək olardı.

1990-cı il mayın 18-də Azərbaycan Respublikasının Prezidenti vəzifəsi təsis olundu. Cəmiyyətin demokratikləşdirilməsi sözdə bəyan edilsə də, mövcud 35-dək partiya, cəmiyyət və təşkilatın rəsmi qeydiyyata alınması ləngidilirdi. Halbuki, ictimai qurumların qeydiyyata alınması barədə SSRİ qanunu qüvvədə idi. İyulun 8-də müxalifət ictimai təşkilatlar haqqında qanun qəbul edilməsi tələbini irəli sürdü. Seçkilərdə fəal iştirakı təmin etmək məqsədilə «Sosial-Demokrat», «Dirçəliş», «Azərbaycan Milli Demokrat (Yeni Müsavat) », «Xalq», «Azadlıq» və s. partiyaların təmsil olunduğu «Suverenlik Uğrunda Demokratik Azərbaycan Seçki Bloku» yaradıldı. İqtidar seçki komissiyalarının tərkibinə müxalifət nümayəndələrini də salmağa məcbur oldu. Deputat yerləri barədə liberallarla razılığa gəlindi. İqtidarla müxalifətin birgə iş aparması məqsədilə Məşvərət Şurası yaradıldı. Lakin iqtidar nümayəndələrinin Şuranın iclaslarına gəlməməsi kompromisin ciddi olmadığını nümayiş etdirdi. Heydər Əliyevin respublikaya dəvət edilməsi tələblərinə məhəl qoymayan iqtidar və müxalifət xalqla razılaşmağın zəruriliyini nəzərə almadı. Xalqının ağır günündə Moskvada təzyiq altında olmasına, Vətənə qayıdışına maneələr törədilməsinə, respublika rəhbərliyinin «Sizin gəlişinizlə qarışıqlıqlar baş verə bilər» söyləməsinə baxmayaraq, 1990-cı il iyulun 20-də Ümummilli lider Azərbaycan SSR-ə qayıtdı. Ona qısqanclıqla yanaşan

iqtidar və müxalifət qüvvələrinin Bakı hava limanında planlaşdırdığı riyakar piket planı Əliyevsevərlərin prinsipial, təzyiqlərə məhəl qoymayan məhəbbət dolu qarşılama mərasimi sayəsində kölgədə qaldı. Hava limanından şəhərə gələrkən yolun kənarındakı ağacların boy atdığını gördükdə çox sevinən və onların hər birini sanki öz doğma övladı hesab edən Ümummilli lideri xalq da hədsiz sevgi ilə qəbul etdi. Minlərlə insan heç bir təzyiqdən çəkinməyərək şəhəri, dənizkənarı parkı seyrə çıxan «millət ağsaqqalı»nın başına toplaşaraq, ona olan xalq məhəbbətini ifadə etdi [11, 419]. Heydər Əliyev tərəfindən vəzifələrə təyin edilən nankor iqtidar nümayəndələri isə 14 il Azərbaycanı qurub-yaradan adamı Bakıda yaşamağa qoymadılar. O, doğulduğu Naxçıvana, özünün dediyi kimi, «taleyin ümidinə buraxılmış tənha adaya sürgün edildi» [11, 150]. Vətənə qayıdış erməni təcavüzünə qarşı, müstəqillik və demokratiya uğrunda ümumxalq mübarizəsinin yeni dövrünün başlanğıcını qoydu. Hələ 1988-ci ildə muxtar respublikada yüksələn xalq hərəkatı dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin portretləri ilə mitinqlərə çıxan əhali indi milli liderinin ətrafında birləşmək imkanı qazandı.

Azərbaycan SSR Ali Sovetinə keçirilən seçkilərdə vahid blokda mübarizəyə üstünlük verilməsi ilk siyasi qələbəni təmin etdi. 1990-cı ilin sentyabr ayında keçirilən seçkilərdə müstəqil suyasi blok kimi çıxış edən qüvvələr xalqın dəstəyi ilə 30-dan artıq deputat mandatı qazandılar. Heydər Əliyev də deputat seçildi. Beləliklə, siyasi mübarizə parlament auditoriyasına keçdi. Seçkilər zamanı iqtidar Moskvanın «Yeni İttifaq müqaviləsi» layihəsini təbliğ edir, onun xeyrinə ictimai rəy formalaşdırmağa çalışırdı. Heydər Əliyev Azərbaycan SSR-də həyata keçirilən bu siyasətin anti milli mahiyyətini, imperiya niyyətlərini ifşa edirdi.

Azərbaycan SSR-in mühafizəkar rəhbərliyi isə SSRİ-nin iflasının qarşısıalınmaz olduğunu görmür, xalqa söykənməyin zəruriliyini dərk etmirdi. Elə bu mövqeyin nəticəsi idi ki, bir tərəfdən, Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması məqsədilə 74 nəfərdən ibarət komissiya yaradır, digər tərəfdən isə 1991-ci il fevralın 9-da SSRİ-nin saxlanmasına «hə» cavabı verməsi planlaşdırılan referendumun keçirilməsi barədə qərar verirdi. Azərbaycan Respublikası Ali Sovetinin mart sessiyasında öz tarixi çıxışları ilə SSRİ-nin saxlanması cəhdlərini

ifşa edən Heydər Əliyev respublikanın tam müstəqil yaşamaq imkanlarını açıqladı, yeni İttifaqın əleyhinə olduğunu vurğuladı.

İttifaqın saxlanmasını dəstəkləyən iqtidar mövqeyini əsaslandırmağa çalışır, iqtisadi cəhətdən sovet respublikaları ilə sıx bağlı olan Azərbaycan Respublikası İttifaqdan çıxarsa, qarşılıqlı əlaqələrin pozulacağını, iqtisadi inkişafın qeyri-mümkün olacağını, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməyəcəyini və s. təbliğ edirdi. Azərbaycan Respublikasının iqtisadi potensialını, onun dünya dövlətləri ilə inteqrasiya mühitində inkişafı imkanlarını nəzərə almır, İttifaq daxilində olarkən törədilən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin yalnız müstəqil dövlətçilik sayəsində mümkünlüyünü dərk etmirdi. Təsadüfi deyil ki, 1991-ci il martın 17-də referendumun nəticələrini saxtalaşdıraraq İttifaqın saxlanmasının lehinə səs verildiyini bəyan edən rəhbərlik deyirdi: «Biz referendumu keçirməli olduq, çünki, bizim Dağlıq Qarabağ problemimiz var idi». Halbuki, bütün respublikalarda «Yeni İttifaq müqaviləsi» ətrafında kəskin siyasi mübarizə dərinləşməkdə idi. Ermənistan isə, ümumiyyətlə, referendumdan imtina etmişdi.

Azərbaycan Respublikasında referendumun keçirilməsi baş tutmuş hesab edilən ərazilərdən fərqli olaraq, respublikanın milli maraqlarının əleyhinə olan və referendum vasitəsilə qanuniləşdirilməyə cəhd edilən xəyanətə Naxçıvan MR-də yol verilmədi. Naxçıvan MR-in bu qətiyyəti artıq siyasi sistemin əleyhinə üsyan, çürümüş, xalqın adından danışan, lakin onun rəyini saxtalaşdıran sistemin məhvinə çağırış idi.

Şübhəsiz, respublika rəhbərliyi İttifaq müqaviləsinə razılığın əvəzində Moskvadan bəzi sədəqələr aldı. 1991-ci ilin aprelində Goranboy, Xanlar, Hadrut rayonlarında Kremlin razılığı əsasında hərbi əməliyyatlar həyata keçirildi. Azərbaycan Respublikasının DQMV-ndə əvvəllər yaradılmış Xüsusi İdarəetmə Komitəsi ləğv olundu. Respublika tabeliyində olan yeni Təşkilat Komitəsi yaradılsa da, bölgədə sabitlik təmin edilmədi. 1991-ci ilin aprel ayında həyata keçirilən əməliyyatlarından sonra yerini möhkəmləndirdiyini zənn edən iqtidar, Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 26 iyun tarixli sessiyasında Yeni İttifaq müqaviləsi layihəsinin bəyənildiyini bəyan etdi. 1990-cı ilin mayından xalq tərəfindən deyil, Ali Sovetin deputatları tərəfindən

seçilən Prezident vəzifəsini xalqın səsi ilə legitimləşdirmək, deputatların asılılığından qurtulmaq məqsədilə 1991-ci il sentyabrın 8-də seçkilərin keçiriləcəyini bildirdi.

Moskvanın davam etməkdə olan ikiüzlü siyasəti, «Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan etmək haqqında» SSRİ Prezidentinin 1991-ci il 4 iyul tarixli fərmanında Goranboy rayonu ifadəsi ilə paralel «keçmiş Şaumyan rayonu» ifadəsinin işlədilməsi əhalinin hiddətini alovlandırdı. AXC-nin 1991-ci il iyulun 13–16-da keçirilən I qurultayı respublikanın suverenliyinin müdafiəsi sahəsində iqtidarın tədbirlərinin yarımçılığını, Azərbaycan Kommunist Partiyasının dağılmaq ərəfəsində olduğunu bəyan etdi. Qurultay demokratik cəmiyyət qurulmasına çalışan bütün partiyalarla əməkdaşlığın zəruriliyini bildirdi.

Uzun illər üzvü olduğu partiyanın mövcud siyasi durumunu, yeni İttifaq layihəsini ifşa edən bəyanatı ilə 1991-ci il iyulun 19-da qeydiyyatda olduğu SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciət edərək, Kommunist partiyasını tərk edən Ümummilli lider Heydər Əliyevin qətiyyətli addımı azadlıq uğrunda mübarizəyə stimul verdi.

1991-ci il avqustun 19-21-də imperiyanın qorunub saxlanması niyyəti ilə Moskvada həyata keçirilən dövlət çevrilişindən sonra respublikada ictimai-siyasi vəziyyət kəskinləşdi. Həmin gün İran İslam Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Prezidenti A.N.Mütəllibovun avqustun 19-da Moskvada baş vermiş dövlət çevrilişi cəhdlərini dəstəkləyən müsahibəsi, daha sonra isə televiziya vasitəsilə oxunan müraciəti aprel əməliyyatlarından sonra formalaşdırılmağa çalışılan müvəqqəti ictimai rəyə zərbə endirdi. Moskvada cəhd olunan dövlət çevrilişinin qarşısının alınması isə onun süqutunu tezləşdirdi. Başlanan izdihamlı mitinqlərdə iqtidarın hakimiyyətdən getməsi, Kommunist partiyasının ləğvi tələb olunurdu. Azərbaycan Respublikası Ali Sovetinin avqustun 27-də xalqın tələbi ilə çağırılan növbədənkənar sessiyası avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında «Bəyannamə» qəbul etdi.

Sessiyada çıxış edərək qiyamçıları, ən başlıcası, onların Azərbaycan Respublikasındakı əlaltılarını ittiham edən Heydər Əliyev respublika prezidentinin çirkin əməllərini pisləyərək, onu prezident seçkisindən çəkinməyə çağırdı. Sessiya iştirakçılarından bəziləri

Ümummilli lideri iclası pozmaqda təqsirləndirsələr də, o, sessiyanın ikinci günü də çıxış edərək, qətiyyətli mövqeyini nümayiş etdirdi. Axşam qardaşının evində gecələyən xalqın xilaskarına qarşı ciddi tədbirlər hazırlanması barədə məlumat daxil olduqdan, hətta evə atəş açılması ehtimalı olması bildirildikdən sonra milli lider dərhal Bakını tərk edərək Naxçıvan MR-ə qayıtdı.

Respublikada prezident seçkilərinə hazırlıq davam etdirilməkdə idi. Qanunvericilik bazası hələ də yaradılmayan prezident seçkisi ilə əlaqədar heç bir hüquqi əsası olmayan qanun qəbul edildi. Yaşı 35-dən aşağı, 65-dən yuxarı olmayan, son 5 ildə Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşların prezident seçkilərində iştirak etmək hüququ təsbit olundu. Azərbaycan Respublikası Konstitusiyasının 112-ci maddəsinə bu cür dəyişiklik edilməsi Heydər Əliyevin seçkilərdə iştirakına məhdudiyyət qoymaq məqsədi daşıyırdı.

1991-ci il sentyabrın 8-də keçirilən prezident seçkiləri baş tutmuş elan olunsa da, əhalinin 83,7 faizinin seçkidə iştirakı barədə saxtalaşdırılmış nəticə iqtidarın legitimliyini təmin etmədi. Müxalifətin 1991-ci il 12 sentyabr tarixli bəyanatı seçkilərin saxta nəticələrini dünya ictimaiyyətinə çatdırdı. Xalqın siyasi mübarizəsinin təsiri altında iqtidar Azərbaycan Kommunist Partiyasının 1991-ci il sentyabrın 14-də keçirilən XXXIII qurultayında partiyanın fəaliyyətinə xitam verdi. Heydər Əliyevin sovet imperiyasına qarşı mübarizədə özünün əsas prinsiplərindən biri hesab etdiyi, muxtar respublika Ali Məclisinin 1991-ci il 4 sentyabr tarixli qərarında uzaqgörənliklə bəyan etdiyi Kommunist partiyasının ləğvi tələbi gerçəkliyə çevrildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarını dövlət çevrilişi kimi qiymətləndirən iqtidar Heydər Əliyev şəxsiyyətindən yaxa qurtarmaq üçün respublika Ali Sovetinin səbatsız deputatları vasitəsilə oktyabrın 8-də Konstitusiyanın 112-ci maddəsinin ikinci hissəsində qərəzli dəyişiklik edərək, Naxçıvan MR Ali Məclisi sədrinin respublika Ali Soveti Sədrinin müavini olması hüququnu ləğv edən qərar qəbul etdi. Müxalifət, bir tərəfdən, Ali Sovetdə Azərbaycan Respublikası Konstitusiyanın 112-ci maddəsindəki dəyişikliyin bərpa olunmasını təklif edən deputatları dəstəkləyir, bununla cəmiyyətdə Heydər Əliyev haqqında yaranmış ictimai rəyə sığınaraq xalq arasında dayaqlarını gücləndirməyə çalışırdı, digər tərəfdən isə iqtidarın Heydər Əliyevi boykot siyasətinin

təhlükəli olduğunu, onun respublika rəhbərliyinə gəlişini sürətləndirəcəyindən ehtiyatlanaraq bildirirdi: «Heydər Əliyev Azərbaycana qayıdanda Azərbaycanın nomenklaturası bu şəxsiyyəti həzm edə bilmədi. Onu öz sıralarında yerləşdirə bilmədi və səhv siyasət nəticəsində Heydər Əliyevin başqa vasitə ilə, başqa yolla yüksəlməsinə şərait yaratdı. Naxçıvanda demokratik qüvvələrin də müəyyən zəifliyinin nəticəsidir ki, onlar öz sıralarından Naxçıvan camaatının mövqeyini təmsil edən, ifadə edən bir lider yetişdirə bilmədilər və nəticədə Naxçıvanın rəhbərliyinə keçmiş kommunist olan Heydər Əliyev gəldi. İndi Heydər Əliyev fenomenini gücləndirən, reallaşdıran Azərbaycan rəhbərliyi... bu siyasətlə Heydər Əliyevi tədricən Azərbaycanın rəhbərliyinə gətirəcəkdir».

Heydər Əliyev şəxsiyyətindən qorxuya düşən iqtidar və müxalifət Azərbaycan Respublikasının maraqlarının ziddinə gedərək, onun nüfuzu və dövlətçilik təcrübəsindən istifadənin zəruriliyini dərk etməyərək, ümumi rəqib kimi ona qarşı daim boykot mövqeyi tutdu. Nəinki respublika Konstitusiyasının 112-ci maddəsində qanunsuz dəyişiklik edildi, həm də mövcud seçki qanununa məhəl qoyulmadan separatizmə, iqtidar-müxalifət sövdələşməsinə nail olundu. Ali Sovetin 1991-ci il 29 oktyabr tarixli sessiyasında 360 xalq deputatının və onların seçicilərinin hüquqları tapdalanaraq, qanunvericilik hakimiyyətində çevriliş edildi. 25 nəfər iqtidar, 25 nəfər isə müxalifət təmsilçisi olmaqla, 50 üzvdən ibarət Milli Şura yaradıldı. Ali Sovetin adı dəyişdirilərək Milli Şura qoyuldu. Parlamentin daimi komissiyalarının fəaliyyəti qanunsuz olaraq dayandırıldı.

Hakimiyyət uğrunda dərinləşən çəkişmələr, iqtidarın özünə sadiq kadrlar seçmək xəstəliyi, torpaqlarımızın müdafiəsinin təşkilinin yarımazlığı, döyüş bölgələrində könüllü özünümüdafiə dəstələrinin fəaliyyətinin əlaqələndirilməməsi Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisinə təcavüzü üçün daha əlverişli şərait yaratdı. 1988–1991-ci illərdə, yəni hələ Qarabağda hərbi əməliyyatlar başlanmazdan əvvəlki dövrdə erməni quldurları tərəfindən Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə və ətraf rayonlara 1650 silahlı hücum təşkil olunmuş, əhali intensiv atəşə məruz qoyulmuşdu. Nəticədə 383 azərbaycanlı, o cümlədən 84 nəfər hüquq mühafizə orqanı işçisi, 23 hərbi qulluqçu, habelə sabiq Sovet Ordusu-

nun digər millətlərdən olan hərbi qulluqçularından və sülhməramlı missiyaların nümayəndələrindən 15 nəfər həlak olmuşdu. 1028 nəfər, o cümlədən hüquq mühafizə orqanlarının 183 əməkdaşı, 43 hərbi qulluqçu (onlardan 29-u sabiq Sovet Ordusunun digər millətlərdən olan hərbi qulluqçuları və sülhməramlı missiyaların nümayəndələri idi) yaralanmış, 95 nəfər, o cümlədən hüquq mühafizə orqanlarının 4 əməkdaşı, 33 hərbi qulluqçu, 58 dinc sakin girov götürülmüş, 20 nəfər itkin düşmüşdü. 1280 ev talan edilib yandırılmış, 8324 baş mal-qara aparılmışdı. 690 müxtəlif obyekt, 58 avtonəqliyyat, 5 təyyarə və vertolyot, 3 qatar, 3 körpü, 3 radio-televiziya retranslyatoru, 4 su və qaz kəməri, 1 gəmi-bərə yandırılmış, dağıdılmış və partladılmışdı.

Respublika rəhbərliyi SSRİ Müdafiə Naziri E.Şaposnikovun digər hərbi qüvvələrə toxunmamaq şərtilə Azərbaycan Respublikası ərazisində yerləşən 4-cü ordunun maddi-texniki bazası əsasında milli hərbi qüvvələr yaradılmasına etiraz etməməsinə baxmayaraq, Milli Ordunun yaradılması sahəsində əməli iş görmür, respublikanın ərazi bütövlüyünün qorunmasını təşkil edə bilmirdi. Respublika Ali Sovetinin 1991-ci il oktyabrın 9-da Milli Ordu haqqında qanun qəbul etməsinə baxmayaraq, konkret tədbirlər görülmədi. Müxalifətlə konsensus axtarışı naminə razılaşdırılmış Müdafiə Şurası, Dövlət Şurası, Təhlükəsizlik Şurası yaratsa da, iqtidar respublikanın ərazi bütövlüyünün müdafiəsi sahəsində real müsbət dəyişikliyə nail ola bilmədi. Müdafiə məqsədli təşkilatların bəzilərinə, faktik olaraq, qeyri-məhdud ixtiyaratlar verilir, bəziləri isə hüquqi səlahiyyətlərindən istifadə edə bilmirdi. Bir-birini təkrar edən paralel qurumlar, vəzifə ştatları yaradılır, Prezident Aparatının statları artırılırdı. Xüsusi idarəçilik zonaları təşkil olunur, fəaliyyət dairələri toqquşan müvəkkillər təyin edilirdi. Kimin nəyə görə məsuliyyət daşıdığı və cavabdehliyi bilinmirdi. Paytaxtda fəaliyyət göstərən mərkəzi hərbi təşkilatlar Dağlıq Qarabağda hadisələrin gedişinə təsir göstərə bilmirdi. Az-çox təsir gücünə malik təşkilatlar var idisə, onlar da Ağdam şəhərində yerləşdirilmişdi və mərkəzi idarəetmə strukturlarının tam nəzarəti altında deyildi. Qarabağ zonası üzrə yaradılmış prezident müvəkkilliyi öz aparatı ilə birlikdə, daxili işlər idarəsi, Müdafiə Nazirliyi komendantlığının qərargahı, respublikanın bir sıra nazirlikləri və idarələrinin müvəqqəti daimi nümayəndəlikləri də burada yerləşdirilmişdi. Rayon komendantlığının,

eləcə də Daxili İşlər, Müdafiə nazirliklərinin tabeliyində olan, habelə könüllülük xətti ilə yaradılmış dəstələr də Ağdamda idi. Paytaxtdakı siyasi qarşıdurma eynilə Ağdamda da cərəyan edirdi.

Sovet qoşunlarının Azərbaycan Respublikası ərazisindən çıxarılmasının təşkilindəki qüsurlar, müxalifət nümayəndələrinin sadəlövhlüyü və özbaşına qərarları vəziyyəti daha da kəskinləşdirirdi. Şərqi Avropadan çıxarılan hərbi hissələrin yerləşdirilməsi problemi ilə üzləşən sovet dövləti respublikadakı qüvvələrin çıxarılmasının əleyhinə idi. Heydər Əliyev Naxçıvan MR-sı ərazisindəki 75-ci diviziyanın çıxarılmasına nail olduğu halda, respublika hakimiyyəti bu vəzifənin öhdəsindən gələ bilmədi. Müxalifət hərbi hissələrə silah əldə etmək məqsədilə özbaşına keçirdiyi reydlərin üzləşdiyi təhlükə barədə bildirirdi: «Gəldilər, gecəynən tutdular, nəfəsimizi kəsdilər». Zığ, Bayıl, Sitalçay, Nasoslu, Kürdəmir və digər yerlərdəki hərbi hissələrin döyüş texnikası komandanlıq tərəfindən respublikadan çıxarıldı, mümkün olmadıqda isə məhv edildi.

Əhalidən toplanan pulla hərbi hissələrdən alınan silahlar ayrı-ayrı qrupların əlində cəmləndi. Hakimiyyət uğrunda mübarizədə bu silahlardan istifadə olunması, Azərbaycan Respublikasında vətəndaş silahlı qarşıdurması üçün zəmin yaradıldı.

1991-ci il noyabrın 20-də Azərbaycan xalqının görkəmli dövlət xadimlərinin mindiyi «Mİ-8» vertolyotunun Xocavənd rayonunda – Qarakənd yaxınlığında erməni terrorçuları tərəfindən vurulması, eyni vaxtda Azərbaycan Respublikasının Dağlıq Qarabağ və Ermənistan Respublikası ilə həmsərhəd rayonlarda erməni təcavüzkarlığının artması, eləcə də daxili siyasi qarşıdurma respublikada ictimai-siyasi gərginliyi partlayış həddinə çatdırdı. Müxalifət qəti olaraq Azərbaycan Respublikası DQMV-nin statusunun ləğvini, ümumi səfərbərlik elan olunması və torpaqların müdafiəsinin təşkili tələbini irəli sürdü. Respublika Ali Soveti tələbdən qaçа bilməyərək DQMV-nin statusunu ləğv etdi. Bundan hüquqlarını daha da genişləndirmək üçün bəhanə kimi istifadə edən ermənilər vilayəti «müstəqil respublika» elan etdilər. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlılar yaşayan kəndlərinə silahlı hücumlar genişləndi. 1991-ci ilin oktyabrından dekabrın sonuna qədərki müddətdə azərbaycanlı əhaliyə qarşı 170 terror, təxribat, hərbi təcavüz aksiyası və digər cinayətlər törədildi. Xocalı ra-

yonunun Cəmilli, Meşəli kəndlərində, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində, Ağdamın İmarət Qərvənd, Xocavənd rayonunun Xocavənd kəndlərində, Tuğ kəndinin azərbaycanlılar yaşayan hissəsində, Axurlu, Salakerin kəndlərində, Goranboy rayonunun Ballıqaya, Başqışlaq kəndlərində talanlar təşkil olundu. Erməni quldurları birinci növbədə coğrafi cəhətdən hər tərəfdən erməni kəndləri ilə əhatə olunmuş əraziləri işğal edirdilər. Bundan məqsəd Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafında yerləşən rayonlarına yaxınlaşmaq idi. Planlı hücumlar nəticəsində Xocalı şəhəri, Xocavənd rayonunun Qaradağlı, Əmirallar, Ağdərə rayonunun Umudlu, Şuşanın Malıbəyli, Quşçular kəndləri hər tərəfdən mühasirəyə alınmışdı. Həmin yerlərə gedən yollar erməni yaraqlılarının nəzarətində idi. Yeganə əlaqə vasitəsi vertolyotlar idi ki, onlar da böyük risk hesabına ərzaq və kömək aparırdı. Strateji əhəmiyyətə malik bu məntəqələrin işğalı erməni silahlılarının Qarabağın şimalından cənubuna, şərqindən qərbinə sərbəst hərəkətinə, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Kəlbəcər, Goranboy, Tərtər rayonlarının ərazisinə canlı hərbi qüvvə və texnika yeritməsinə imkan yaradardı.

Ərazi bütövlüyünün qorunmasında gözlərini Moskvaya dikən, Azərbaycan xalqının nicatı olan Heydər Əliyevin respublikaya dəvət olunması barədə xalqın tələblərinə məhəl qoymayan respublika rəhbərliyinin cinayətkar fəaliyyətsizliyi Dağlıq Qarabağın və ona bitişik strateji əhəmiyyətli şəhər və kəndlərin düşmən tərəfindən işğalına yol açdı.

1.3. Heydər Əliyevin Naxçıvana gəlməsi və muxtar respublikada milli azadlıq hərəkatının vüsət alması

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası milli dövlətçiliyimizin müstəqil inkişaf tarixində ən müxtəlif çətinliklərlə üzləşərək mürəkkəb, eyni zamanda şərəfli yol keçmiş, xalqımızın istiqlal mübarizəsində, dövlət müstəqilliyinin bərpası və qorunmasında, demokratik cəmiyyətin qurulmasında fəal və əhəmiyyətli rol oynamışdır.

XX əsrin axırlarında Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etmək və onu möhkəmləndirmək imkanı əldə etdi. Bu, Sovet imperiyasının ciddi daxili və xarici, obyektiv və subyektiv səbəblər üzündən, o cümlədən xalqların suverenlik və demokratiya uğrunda mübarizəsi nəticəsində dərin ümumi böhran keçirərək dağılması ilə əlaqədar idi.

1980-ci illərin ortalarında SSRİ-də həyata keçirilməyə başlanan üzdəniraq «yenidənqurma» siyasəti totalitar sovet rejiminin siyasi, iqtisadi, mənəvi böhranını nəinki aradan qaldırmadı, əksinə, onu daha da dərinləşdirdi. Sovet imperiyasında mərkəzdənqaçma meyilləri dönməz xarakter aldı. Müttəfiq respublikalarda baş qaldıran xalq hərəkatının qarşısını almaq üçün Mərkəz milli münasibətləri, xalqlar arasında ədavəti qızışdırmaq yoluna əl atdı. Nəticədə keçmiş İttifaqın müxtəlif bölgələrində münaqişə ocaqları alovlandırıldı.

Mövcud siyasi şəraiti özləri üçün əlverişli hesab edən, Moskvanın hakim dairələrinin havadarlığından ruhlanan erməni şovinistləri Azərbaycan SSR-in tərkib hissəsi olan Dağlıq Qarabağ və Naxçıvan MSSR-ə qarşı ərazi iddiaları ilə çıxış edərək, bu torpaqları ələ keçirmək üçün təcavüzkar hərəkətlərə başladılar.

SSRİ və Azərbaycan SSR rəhbərliyinin ermənilərin bu azğınlığına qarşı heç bir tədbir görməməsi, Azərbaycan SSR-in suveren hüquqlarının tapdalanması, Ermənistan SSR ərazisində yaşayan soydaşlarımızın əzəli torpaqlarından didərgin salınması Azərbaycan xalqında hiddət doğurmuş, xalqı ayağa qaldırmışdı.

Dağlıq Qarabağ hadisələri Naxçıvan MSSR-in ictimai-siyasi və iqtisadi həyatına da ciddi təsir göstərirdi. Ermənistan SSR tərəfindən nəqliyyat blokadasına alınmış muxtar respublikada vəziyyət getdikcə ağırlaşır, əhalinin həyat şəraitinin təmin edilməsində ciddi problemlər yaranırdı. Ermənilərin azğınlığı, mərkəzi və respublika hakimiyyət orqanlarının cinayətkar fəaliyyətsizliyi Naxçıvan MSSR əhalisində kütləvi etiraz doğurudu.

Erməni millətçiləri yaxşı başa düşür və bilirdilər ki, Azərbaycan SSR-ə rəhbərliyi dövründə respublikanın bir qarış da olsun torpağını Ermənistan SSR-ə verməyən, ermənilərin torpaq iddialarının, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində separatçı hərəkətlərinin qarşısını qətiyyətlə alan Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci

müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü kimi SSRİ dövlətinin rəhbərlərindən biri kimi qaldıqca, onlar öz cinayətkar niyyətlərini həyata keçirə bilməyəcəklər. Nəhayət, bədnam erməni şovinist dairələri ən çirkin vasitələrdən istifadə edərək, bu dahi şəxsiyyəti hər vəchlə ləkələməyə, onun ali hakimiyyətdən getməsinə çalışır, şovinist və qısqanc M.S.Qorbaçovun simasında özlərinə himayədar tapan ermənilər 1987-ci ilin oktyabrında Heydər Əliyevin Kremldən uzaqlaşdırılmasına nail oldular.

Heydər Əliyevin SSRİ-nin ali siyasi hakimiyyətindən getməsi Azərbaycan xalqını böyük fəlakətlər qarşısında qoydu. Özünün istefaya göndərilməsinin hansı nəticələrə gətirib çıxaracağını yaxşı başa düşən Heydər Əliyev sonralar deyirdi: «Azərbaycan üçün bəla ondan başladı ki, 1987-ci ildə ermənilər bizim azərbaycanlıların bəziləri ilə birlikdə yığışdılar, mənim Kremldən istefa verməyimə nail oldular. Aqanbekyan o vaxt gedib Fransada bəyanat verdi ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir və o bu məsələni Qorbaçovla razılaşdırıbdı. Bundan iki ay sonra Dağlıq Qarabağda üsyan, münaqişə başlandı. O vaxtdan ermənilərin bir məqsədi var idi ki, Heydər Əliyevi Kremldən uzaqlaşdırsınlar. Çünki bilirdilər ki, mən Moskvada oturmuşam və belə məsələlərin qaldırılmasına yol verməyəcəyəm. Məni Kremldən uzaqlaşdırdılar. Amma təkcə onlar yox, bizim bəzi bədxah azərbaycanlılar da bu işə kömək etdilər. Onlar birləşdilər, məni Kremldən uzaqlaşdırdılar. Bundan sonra Azərbaycan nə günlərə düşdü» [77, 71].

Onun istefasından cəmi 20 gün sonra Azərbaycan SSR torpaqlarının işğalı ilə nəticələnəcək məlum Dağlıq Qarabağ hadisələri baş verdi. İki xalq arasında milli ədavətin ilk qurbanları isə yenə də Ermənistan SSR ərazisində öz tarixi-etnik torpaqlarında yaşayan azərbaycanlılar oldu. 1988-ci il noyabrın 23-dən dekabrın 1-dək onlar son nəfərinədək doğma yerlərindən qovularaq Azərbaycan SSR-ə, o cümlədən Naxçıvan MSSR torpağına pənah gətirdilər.

Ermənistan SSR və Azərbaycan SSR-in Dağlıq Qarabağ MV-də yaşayan ermənilərin azərbaycanlılara qarşı azğın hərəkətlərinin cavabsız qalması, Naxçıvan MSSR ərazisinə pənah gətirmiş qaçqınların acı taleyi muxtar respublika əhalisinin dərin hiddətinə səbəb oldu. 1988-ci il mayın 20-də muxtar respublika ictimaiyyətinin mitinqi keçirildi.

Mitinq iştirakçıları SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR rəhbərliyindən qəti tədbirlər görülməsini, Azərbaycan xalqının suveren hüquqlarının qorunmasını tələb etdilər [327, 7].

Naxçıvan MSSR-də başlayan xalq hərəkatı erməni təcavüzünə qarşı etirazla yanaşı, Azərbaycan xalqının imperiya buxovlarından xilas olmaq və milli müstəqillik əldə etmək üçün geniş vüsət alan milli azadlıq hərəkatının tərkib hissəsi idi. Bu hərəkatın ilkin dövründə əsas etiraz vasitələri və formaları mitinqlər, nümayişlər, tətillər və s. idi. Naxçıvan MSSR-də başlayan hərəkat həm də Mərkəz və respublika hökumətləri qarşısında mütilik göstərən, əhalinin haqlı tələblərinə məhəl qoymayan, ermənilərin təcavüzkar hərəkətlərinə qarşı təsirli tədbirlər görməyən, hətta əhalinin əlindəki ov silahlarını almağa çalışan və son nəticədə muxtar respublikada ictimai-siyasi vəziyyəti daha da gərginləşdirən yerli partiya və sovet rəhbərlərinə qarşı yönəlmişdi [428, 5].

Azərbaycan SSR-in Dağlıq Qarabağ MV-ndə baş verən hadisələr, Ə.Vəzirov başda olmaqla, Azərbaycan SSR-in yeni rəhbərliyinin cinayətkar fəaliyyətsizliyi xalqı daha da hiddətləndirdi, 1988-ci il noyabr ayının ortalarından Bakıda və digər şəhərlərdə etiraz mitinqlərinin yeni, daha yüksək mərhələsi başlandı. Bu mitinqlərdən biri noyabrın 22-də Naxçıvan şəhərində keçirildi. Şəhərə gələn yolların bağlanmasına baxmayaraq, muxtar respublikanın rayon və kəndlərindən gəlmiş 50 mindən çox insan təkidlə vilayət partiya komitəsinin birinci katibi Nurəddin Mustafayevi mitinqə dəvət edirdi. Lakin N.Mustafayev mitinqçilərlə dialoqa getmək əvəzinə, onların üzərinə tank yeritdi. Nəticədə yaralananlar oldu. Bu hadisədən hiddətlənən Naxçıvan MSSR əhalisi vilayət partiya komitəsinin binasına hücum çəkdi, N.Mustafayevi imperiya rəhbərliyinin təqiblərinə məruz qalan Heydər Əliyevin portretini mitinq iştirakçıları qarşısında yuxarı qaldırmağa məcbur etdi.

Həmin günlərdə Naxçıvan MSSR-in bütün ərazisində, demək olar ki, hər gün mitinqlər keçirilirdi. Azərbaycan SSR və muxtar respublikanın rəhbərliyi xalqın haqlı etirazlarına qoşulmaqdan çəkinərək, müəyyən manevrlər etməklə vəziyyəti nəzarət altına almağa çalışırdı. Vəziyyətin nəzarətdən çıxmasından ehtiyat edən Mərkəz Bakı və Gəncə ilə yanaşı, noyabrın 24-də Naxçıvan şəhərində də xüsusi

vəziyyət və komendant saatı tətbiq etdi. Küçələrə ağır texnika ilə silahlanmış qoşun hissələri yeridildi [127, 267].

1989-cu ilin əvvəllərindən başlayaraq erməni quldurlarının Azərbaycan SSR Dəmir Yolunun Ermənistan SSR ərazisindən keçən hissəsində sərnişin və yük qatarlarına, sərhəd kəndlərinə aramsız hücumları naxçıvanlıların hiddətinə səbəb olur, rəsmi hakimiyyət orqanlarına etimadsızlığı artırırdı. Nəqliyyatın hərəkətinin dayanması muxtar respublikanın sənaye müəssisələrinin, xidmət sahələrinin işinə ciddi təsir göstərirdi.

Respublikada sosial-iqtisadi vəziyyətin gərginliyinə baxmayaraq, demokratik hərəkat getdikcə genişlənirdi. 1989-cu ilin birinci yarısında müxtəlif yerlərdə Azərbaycan Xalq Cəbhəsinin dayaq nöqtələri yaradılmış, iyulda isə AXC-nin Naxçıvan şöbəsi təşkil edilmişdi. Radikal tədbirlərə üstünlük verən bu təşkilat artıq muxtar respublikada qeyri-rəsmi hakimiyyətə malik idi.

1989-cu il noyabrın 3-də Naxçıvan şəhərində keçirilmiş mitinqdə Moskvanın Azərbaycan SSR və Naxçıvan MSSR-dəki canişinləri V.Polyaniçkonun və A.Bolotinin istefaları və respublikadan qovulmaları, muxtar respublikada «7 noyabr» tədbirinin keçirilməməsi barədə tələblər irəli sürüldü. Mitinqdə muxtar respublikada komendant saatının ləğv edilməsi, özünümüdafiə dəstələrinin təşkili üçün əhaliyə silahların verilməsi tələbləri də səsləndi [327, 14].

Azərbaycan SSR ərazisində milli azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən «sərhəd hərəkatı» da məhz Naxçıvanda başlanmışdı. Azadlıq hərəkatının ilk günlərindən başlayaraq, Azərbaycan SSR-in suverenliyinin təmin olunması, demokratik islahatların həyata keçirilməsi ilə yanaşı, Cənubi Azərbaycanla gediş-gəlişin təmin edilməsi barədə də tələblər irəli sürülürdü. «Cənub həsrəti» Azərbaycan SSR-in digər bölgələrinə nisbətən Naxçıvan MSSR əhalisi arasında daha çox hiss olunurdu. Əhali İran İslam Respublikasında yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələrin, gediş-gəlişin bərpa olunması tələbi ilə dəfələrlə rəhbər orqanlara müraciət etmişdi.

AXC Naxçıvan şöbəsinin 1989-cu ilin noyabrında keçirilmiş məclisi xalqın iradəsini ifadə edərək, Cənubi və Şimali Azərbaycan arasında humanitar, mədəni, iqtisadi əlaqələri bərpa etmək məqsədilə sərhəd çəpərlərinin götürülməsi və mühəndis-texniki qurğuların

sökülməsi haqqında qərar qəbul etdi. Dekabrda Naxçıvan MSSR-də sərhədboyu 9 minə qədər adam toplaşmış, çadırlar qurulmuş, tonqallar yandırılmışdı. Xalq Cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərərək, dekabrın 31-dək adamların müəyyən qaydalarla sərhəddən keçməsinə, cənublu qan qardaşları ilə əlaqə saxlamalarına imkan yaratmasını tələb etdi. Lakin buna razılıq verilmədi [281, 27].

İmperiya azadlıq əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə adamlara müqa-vimət göstərməmək əmri verilmişdi.

Dekabrın 31-də AXC-nin çağırışı ilə Naxçıvan MSSR-də Araz çayı boyunca SSRİ – İran İslam Respublikası sərhədində həyəcanlar başladı, sərhəd qurğuları dağıdıldı. 1990-cı il yanvarın 7-də SSRİ – Türkiyə Cümhuruyyəti sərhədində də həyəcanlar oldu.

SSRİ – İran İslam Respublikası sərhədinin muxtar respublika ərazisində baş vermiş hadisələrlə əlaqədar SSRİ rəhbərliyinin yüksək rütbəli nümayəndələri Naxçıvan şəhərinə gəldilər. Lakin onların gəlişi genişlənən milli azadlıq hərəkatının qarşısını ala bilmədi. Əksinə, Naxçıvandakı görüşlərində onlar əhalinin tələblərinin haqlı olduğunu etiraf etməli oldular [452, 1990, 7 yanvar].

Beləliklə, milli azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən sərhəd hərəkatının qarşısını almaq üçün cidd cəhdlər göstərilsə də, heç bir nəticə vermədi. 1989-cu il dekabrın 31-i Dünya azərbaycanlılarının həmrəyliyi bayramına çevrildi.

Azərbaycan SSR-də başlanmış xalq hərəkatına rəhbərliyi AXC-nin öz əlinə almasına baxmayaraq, Heydər Əliyevin nüfuzu xalq arasında müqayisəedilməz dərəcədə yüksək idi. Azərbaycan xalqı Heydər Əliyevə öz xilaskarı kimi baxır, azadlıq hərəkatına başçılıq etmək üçün ona saysız-hesabsız müraciətlər olunurdu. Respublikanın bir sıra bölgələrində, o cümlədən Naxçıvanda əhali əllərində Heydər Əliyevin portreti ilə mitinq və nümayişlərə çıxır, onun Azərbaycana qayıtmasını və respublikaya başçılıq etməsini tələb edirdi. Lakin SSRİ və Azərbaycan SSR rəhbərliyi xalqın iradəsini nəinki yerinə yetirmir, bu böyük insanı ləkələmək, hətta fiziki cəhətdən məhv etmək üçün məkrli planlar qururdu.

Həmin dövrdə Bakıdan sonra Naxçıvan MSSR milli azadlıq hərəkatının ikinci mərkəzinə çevrilmişdi. Heydər Əliyevin vurğuladığı kimi, o illərdə, xüsusən 1990-1991-ci illərdə Naxçıvan MR-də xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar, əksəriyyətini təşkil edirdi. «Naxçıvanın müstəqillik, milli azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan MR bir çox addımlar atır və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində öz xidmətlərini göstərirdi» [350, 345]. Bu illərdə Heydər Əliyevin Naxçıvan MSSR-də xalqın mübarizəsini azadlığa, müstəqillik qazanılmasına, dövlətçilik ənənələrinin bərpa və inkişaf etdirilməsinə yönəldilən fəaliyyəti olduqca mühüm rol oynamışdı.

Xalq hərəkatına divan tutmaq, Azərbaycan xalqını qorxutmaq üçün SSRİ rəhbərliyi Bakıda DTK-nın əli ilə erməni talanları təşkil edərək paytaxta qoşun yeritdi. Eyni zamanda ermənilər Naxçıvan MSSR ərazilərinə hücuma keçərək, 1990-cı ilin yanvarında Kərki kəndini işğal etdilər [378, 393]. Diyarın işğalı təhlükəsinin real olduğunu nəzərə alan Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il yanvarın 19-da keçirilmiş fövqəladə sessiyası əhalinin tələbi və təzyiqi ilə muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında 6 bənddən ibarət tarixi qərar qəbul etdi [484, 1990, 20 yanvar]. Sonralar Heydər Əliyev bu qərarı yüksək qiymətləndirərək deyirdi ki, bu addım naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını sübut etdi, nümayiş etdirdi [350, 33].

Heydər Əliyevin öz xalqının müsibətli günlərində onunla birgə olmaq üçün Azərbaycana qayıtmaq istəyinə İttifaq və respublika rəhbərliyi tərəfindən müxtəlif maneələr yaradılmasına baxmayaraq, o, 1990-cı il iyulun 20-də Bakıya gəldi. Lakin A.N.Mütəllibov iqtidarı onun Bakıda qalıb yaşamasına, fəaliyyət göstərməsinə hər vəchlə mane olduğuna görə, Heydər Əliyev iki gündən sonra – iyulun 22-də Naxçıvana, doğulub boya-başa çatdığı şəhərə pənah gətirməli oldu.

Heydər Əliyev bu qayıdışı ilə qədim diyarı, bütövlükdə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. «Taleyin ümidinə buraxılmış tənha bir adamın», Naxçıvan əhalisinin ürəyində ümid çırağı yandıran dahi insanın Naxçıvan şəhərinə gəlməsi iqtisadi və siyasi böhran vəziyyətinə düşmüş, blokada şəraitində erməni təcavüzü qarşısın-

da əliyalın və köməksiz qalmış insanlarda böyük coşqunluq və sevinc ovqatı yaratmışdı.

Heydər Əliyev sonralar Naxçıvana gəlişini belə təsvir edirdi: «1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda, özümü çox rahat hiss etdim. Mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı. Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illərdə çəkdiyim bütün əzab-əziyyəti unutdum. Bilirsiniz ki, bir il sadə həyat keçirdim. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş» [327, 43].

Heydər Əliyevin Naxçıvan MR-ə gəlişi burada ictimai-siyasi həyatı daha da canlandırdı, insanların mübarizə əzmini möhkəmləndirdi. Şəhərə gəldikdən sonra ilk olaraq Hüseyn Cavidin məqbərəsini ziyarət edən Heydər Əliyev həmin gün axşam mərkəzi meydanda 80 min insanın toplaşdığı mitinqdə çıxış etdi, Azərbaycan xalqının birliyi, suverenliyi və azadlığı uğrunda mübarizə aparacağını qətiyyətlə bildirdi [17, 1990, 1 avqust].

Meydana toplaşmış insan kütləsi Heydər Əliyevə özünün nicatı və son ümidi kimi baxırdı. Muxtar respublikanın ayrı-ayrı şəhər və kəndlərindən gələn nümayəndələr Heydər Əliyevi görüşlərə dəvət edirdilər.

Xalqın dahi oğlunun Naxçıvana gəlməsi Azərbaycan SSR və Naxçıvan MSSR ali sovetlərinə seçkilər kampaniyası ilə bir vaxta düşmüşdü. Heydər Əliyev hara gedirdisə, onu deputatlığa namizəd irəli sürürdülər. O, Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyinə razılıq vermişdi. Eyni zamanda, 2 nömrəli Naxçıvan şəhər seçki dairəsində Naxçıvan MSSR-in xalq deputatlığına da rəsmi namizəd kimi təsdiq olunmuşdu [484, 1990, avqust].

Heydər Əliyevin seçicilərlə görüşü əhalinin yüksək fəallığı şəraitində keçirdi. Nehrəm kəndində seçicilərlə görüşündə o, öz platformasından danışarkən bildirmişdi ki, deputat seçilərsə, əsas məqsədi Azərbaycan SSR-in ərazi bütövlüyünün təmin edilməsi, Azərbaycan Respublikasının tam müstəqil, azad, demokratik respublika olması sahəsində fəaliyyət göstərmək olacaqdır. Respublikanın iqtisadi potensialının yüksəldilməsini və xalqın güzəranının yaxşılaşdırılmasını da

başlıca vəzifə hesab edən Heydər Əliyev bütün siyasi qüvvələri birliyə, Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə mübarizəyə, xalqın tərəqqisinə köməyə çağırır və deyirdi ki, «bütün bu vəzifələri yerinə yetirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır. Hər cür dedi-qodunu, incikliyi aradan götürməli, bir yumruq kimi birləşməli, xalqımıza düşmən olan qüvvələrə qarşı durmalıyıq. Bunun üçün rəhbərliklə xalqın yekdilliyi tam təmin olunmalıdır» [484, 1990, 26 sentyabr].

Naxçıvana gəldikdən dərhal sonra o, Naxçıvan MSSR vətəndaşlığına qəbul olunması üçün Muxtar Respublika Ali Soveti Rəyasət Heyətinin sədri A.Cəlilova müraciət etmişdi. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 21 avqust tarixli qərarı ilə Heydər Əliyev Azərbaycan SSR-in Naxçıvan MSSR vətəndaşlığına qəbul olunmuşdu [286, 101].

1990-cı il sentyabrın 30-da keçirilən seçkilərdə Heydər Əliyev tam yekdilliklə Azərbaycan SSR-in və Naxçıvan MSSR-in ali qanunverici orqanlarına seçildi.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası öz işinə başladı, sessiyanın aparılması yekdilliklə deputat Heydər Əlirza oğlu Əliyevə həvalə edildi. Həmin sessiyada Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan milli dövlətçiliyinin dirçəlişi istiqamətində tarixi qərarlar qəbul olundu. Sessiya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilərək, «Naxçıvan Muxtar Respublikası», Naxçıvan MR Ali Sovetinin isə Ali Məclis adlandırılması haqqında qərar qəbul etdi. Sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında da məsələ müzakirə edildi, Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi yekdilliklə qərara alındı, Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın Azərbaycan Respublikası dövlətinin rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıldı [327, 46]. Bu təkliflər hələ sessiya başlanmazdan 8 gün əvvəl şəxsən Heydər Əliyev tərəfindən irəli sürülmüşdü [285, 76].

Sessiyada qəbul edilmiş qərarlar haqqında Azərbaycan SSR-in rəsmi informasiya vasitələrinə ətraflı məlumat verilməsinə baxmayaraq, bu barədə Azərbaycan SSR mətbuatında və elektron vasitələrində

məlumat verilməmişdi. Buna görə də Ali Məclis öz qəti etirazını bildirmiş və bunun Naxçıvan MR-in informasiya blokadasına alınması kimi qiymətləndirmişdi [285, 71-72].

Naxçıvan MR Ali Məclisinin həmin sessiyasında ilk dəfə olaraq 20 Yanvar hadisələrinə də siyasi qiymət verildi. Bu məsələ ilə bağlı çıxış edən deputat Heydər Əliyev faciənin başvermə səbəbləri, günahkarları haqqında fikirlərini açıq söyləyərək, 20 Yanvar hadisələrini M.S.Qorbaçov başda olmaqla, o vaxtkı ölkə rəhbərliyinin Azərbaycan xalqına qarşı cinayəti, ölkəmizə qarşı hərbi təcavüz, respublika rəhbərliyinin xalqa xəyanəti kimi səciyyələndirmişdi. Ali Məclisin 1990-cı ilin yanvarında Bakıda törədilmiş hadisələrə siyasi qiymət verilməsi haqqında qərar layihəsini şəxsən Heydər Əliyev özü hazırlamış və qərar yekdilliklə qəbul edilmişdi.

Həmin sənəddə ilk dəfə olaraq 20 Yanvar hadisələri Azərbaycan SSR-in suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd, xalqımıza qarşı açıq təcavüz kimi qiymətləndirilmiş, 20 Yanvarın hər il milli matəm günü kimi qeyd edilməsi də qərara alınmışdı.

Naxçıvan MR Ali Məclisinin sessiyası respublikanın Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun (indiki Göygöl) Çaykənd kəndində yaranmış vəziyyətə də öz prinsipial münasibətini bildirərək xüsusi qərar qəbul etmişdi. Heydər Əliyev bu məsələ ilə bağlı iki dəfə – noyabrın 20-də və 21-də çıxış edərək, Dağlıq Qarabağ ətrafında baş verən hadisələrin geniş təhlilini vermiş, vəziyyətdən çıxış yollarını göstərmişdi. Ali Məclisin bu məsələ ilə bağlı qəbul etdiyi geniş qərar məhz Heydər Əliyevin çıxışlarında irəli sürülmüş müddəalara əsaslanırdı.

Qərarda DQMV-nin Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi, tarixi torpağı olduğu qətiyyətlə vurğulanır, Ermənistanın Azərbaycana qarşı bütün ərazi iddialarından əl çəkməsi tələb edilirdi. Dağlıq Qarabağ münaqişəsi məsələsində Azərbaycan rəhbərliyinin mövqeyi, xüsusən Azərbaycan SSR-in dövlət suverenliyinin və ərazi bütövlüyünün, Azərbaycan xalqının şərəf və ləyaqətinin müdafiəsində qətiyyətsizliyi, Azərbaycan SSR-in DQMV-də Xüsusi İdarəetmə Komitəsinin yaradılmasına razılıq verməsi Azərbaycanın milli mənafeyinə zidd mövqe kimi qiymətləndirilirdi. Eyni zamanda Dağlıq Qarabağ münaqişəsi məsələsində qeyri-obyektiv və birtərəfli mövqe

tutan SSRİ rəhbərliyindən Ermənistanın Azərbaycan SSR-in daxili işlərinə qarışmasına son qoymaq, Azərbaycana qarşı torpaq iddialarının qarşısını almaq, Azərbaycanın dövlət orqanlarının DQMV-də sərbəst fəaliyyət göstərməsi üçün şərait yaratmaq tələb olunurdu [95, v.161–163].

Heydər Əliyevin liderliyi altında Naxçıvan Ali Məclisi Azərbaycan xalqının mənafeyinə aid olan bütün məsələlərə prinsipial yanaşma nümayiş etdirir, öz mövqeyini ortaya qoyurdu. SSRİ-nin dağılmasının qarşısını almaq, respublikaları müstəqillik yolundan döndərmək üçün Mərkəz «yeni ittifaq müqaviləsi» ideyasını ortaya atmış, SSRİ-nin saxlanması haqqında referendum keçirilməsi təklifi ilə çıxış etmişdi. A.N.Mütəllibov başda olmaqla, Azərbaycan SSR rəhbərliyi yenə də milli maraqlara zidd mövqe tutaraq, Mərkəzin bu avantürist siyasətini müdafiə edirdi.

1991-ci il yanvarın 14-də Naxçıvan MR Ali Məclisinin sessiyasında layihənin müzakirəsində çıxış edən Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini kəskin tənqid edərək bildirdi ki, «ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi tərəfindən və xüsusən Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür... Bir tərəfdən, Azərbaycanın bəzi rəsmi dairələri öz hərəkətləri ilə göstərirlər ki, biz milli dövlət dirçəlişi yoluna düşürük. Bu yolla getmək istəyirik. Belə olan halda necə ola bilər ki, əgər biz milli dirçəlişi təmin etmək istəyiriksə, özümüzü gətirib hansısa bir ittifaqa bağlayaq? Burada məntiq yoxdur... Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir... Son üç ildə başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümumittifaqdan nicatımız yoxdur [286, 163,165, 167, 168].

Heydər Əliyev bu prinsipial mövqeyini 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasında bir daha nümayiş etdirərək, «SSRİ-nin saxlanması haqqında» referenduma qətiyyətlə «yox» dedi: «Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm ... Azərbaycanın tam istiqlaliyyəti, azadlığı, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam» [481, 1991, 15 mart]. Belə bir şəraitdə Azərbaycanın mühafizəkar rəhbərliyi respublika əhalisinin referendumda iştirakı

barədə qərar qəbul etdi. Halbuki öz suverenliyi uğrunda mübarizə aparan respublikaların bir çoxu, hətta Ermənistan da referendumu boykot etmişdi. Azərbaycan xalqının demokratik qüvvələri də bu saxta referendumun əleyhinə idi.

Azərbaycan Respublikası rəhbərliyinin təzyiqinə baxmayaraq, Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi martın 14-də muxtar respublika əhalisinin referendumda iştirak etməməsi haqqında tarixi qərar qəbul etdi [327, 48]. Bu hadisədən sonra Naxçıvana qarşı yeni təzyiqlər və hücumlar başlandı. Heydər Əliyevin yaxın tərəfdarı sayılan Afiyəddin Cəlilov 1991-ci il aprelin 5-də Ali Məclisin sədri vəzifəsindən uzaqlaşdırıldı. Onun yerinə Əkbər Əliyev təyin edildi. Heydər Əliyev əhalinin və deputatların iradəsinin əksinə olaraq, yetərsay olmayan sessiyada rəhbərliyin dəyişdirilməsinin qanunazidd olduğunu, muxtar respublikada ictimai-siyasi vəziyyətə mənfi təsir göstərəcəyini bildirdi.

Hadisələrin sonrakı gedişi onun fikrini təsdiqlədi. 1991-ci il sentyabrın əvvəllərinə qədər Ali Məclisin fəaliyyəti faktiki olaraq donduruldu, partiya komitələrinin inzibati rəhbərliyi bərpa edildi. Muxtar respublikada demokratik qüvvələrə qarşı Bakıdan idarə olunan təzyiq kampaniyası genişləndirildi. Əslində, əsas məqsəd Heydər Əliyevi gözdən salmaq, onun xalq arasındakı böyük nüfuzuna zərbə vurmaq, siyasi fəaliyyətinə əngəllər yaratmaq idi. Heydər Əliyev başda olmaqla, demokratik ruhlu deputatların çoxsaylı çağırışları nəticəsiz qalır, Ali Məclisin sessiyalarının keçirilməsinə yol verilmirdi.

Kommunist partiyasının mürtəce siyasətinə etiraz əlaməti olaraq, Heydər Əliyev partiyanın sıralarını tərk etdi. O, 1991-ci il iyulun 19-da SSRİ Nazirlər Soveti yanında partiya təşkilatına yazdığı ərizədə partiyanın siyasi rəhbərliyini 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı hərbi təcavüzdə, Mərkəzi ikiüzlü siyasətdə, Dağlıq Qarabağ hadisələrini yaratmaqda, Azərbaycanda demokratik hərəkatın qarşısını almaq cəhdlərində təqsirləndirir, bildirirdi ki, «yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar xalqı yenə də aldatmaqdır. Xalqa açıq və düzünü demək lazımdır ki, ölkəmizdə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaradılmış və saxlanılan respublikalar ittifaqı dağılmaqdadır».

Heydər Əliyevin bu uzaqgörənliyi düz bir aydan sonra sübuta yetirildi. İmperiyanı qoruyub saxlamağa çalışan mühafizəkar qüvvələr 1991-ci ilin avqustunda dövlət çevrilişinə əl ataraq, Dövlət Fövqəladə Vəziyyət Komitəsi yaratdıqlarını elan etsələr də, bu, bütün müttəfiq respublikaların mütərəqqi qüvvələrinin kütləvi etirazına səbəb oldu. Belə bir gərgin vaxtda Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinə yazılı müraciət edərək, növbədənkənar fövqəladə sessiya çağırılmasını tələb etdi. Müraciətdə sessiyada, A.N.Mütəllibov başda olmaqla, Azərbaycan Respublikası rəhbərliyinin hərbi xuntanın həyata keçirməyə çalışdığı dövlət çevrilişi ilə bağlı mövqeyinin və fəaliyyətinin müzakirə edilməsi və obyektiv qiymət verilməsi, Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan KP-nin respublikada təkhakimiyyətlikdən kənarlaşdırılması və onun hərbi xunta ilə əməkdaşlığının məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi və xuntaya etiraz mitinqləri zamanı dinc əhaliyə qarşı güc tətbiq olunması məsələsinin müzakirə edilməsi məsələlərinin aydınlaşdırılmasına qədər sentyabrın 8-n təyin olunmuş prezident seçkilərinin təxirə salınmasını tələb etdi [484, 1991, 11 oktyabr]. Heydər Əliyev həmin tələbləri Azərbaycan Ali Sovetinin demokratik qüvvələrin təkidi ilə avqustun 29-da çağırılmış sessiyasında da səsləndirərək respublikanın, Azərbaycan xalqının daha çətin, daha ağır vəziyyətinin əsas səbəbinin Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasətində və buraxdığı kobud, bağışlanılmaz səhvlərdə olduğunu göstərdi. Heydər Əliyev çıxış yolu kimi milli birliyə nail olmağı, bu məqsədlə AKP-nin dərhal hakimiyyətdən getməsini, 20 Yanvar hadisələrinə prinsipial siyasi qiymət verilməsini, kommunist partiyası, əksəriyyətinin kommunistlərdən ibarət olan Respublika Ali Soveti çox şeylərdə günahkar olduğu üçün parlamentin buraxılmasını və yeni seçkilərin keçirilməsini qətiyyətlə tələb etdi [285, 120–123]. Özünün dediyi kimi, bu çıxışdan sonra, xüsusi hazırlanmış adamlar həmin gün və avqustun 30-da çıxıb onun əleyhinə danışır, salonda hay-küy salıb ona böhtanlar yağdırırdılar. Lakin bu iyrənc hərəkətlər Heydər Əliyevin iradəsini sarsıda bilmədi.

Naxçıvan MR Ali Məclisinin uzun fasilədən sonra, 1991-ci il avqustun 26-da çağırılmış fövqəladə sessiyası dövlət çevrilişi cəhdlərini və A.N.Mütəllibovun hərbi xuntanı dəstəkləyən mövqeyini

kəskin şəkildə pisləməklə yanaşı, muxtar respublika ərazisində kommunist partiyası və komsomolun yerli təşkilatlarının fəaliyyətinin dayandırılması və əmlakının milliləşdirilməsi barədə qərar qəbul etdi, Ali Məclisin yetərsay olmadan keçirilmiş 1991-ci il 5 aprel tarixli sessiyasında Əkbər Əliyevin Ali Məclisin Sədri seçilməsi haqqında qərarı ləğv edildi [94, v.108].

Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyi ilə bağlı Bəyannamə qəbul etdi. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev «Azadlıq bəyannaməsi»nin legitimliyinin təmin edilməsi üçün referendum keçirilməsi, 1920-ci il aprelin 28-də Şimali Azərbaycanın işğal edildiyinin və Azərbaycan Xalq Cümhuriyyətinin zorakılıqla devrildiyinin təsbiti məsələsini təklif etsə də, onun bu təklifləri mühafizəkar çoxluq tərəfindən rədd edildi [285, 124-125].

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər çox coşqun inkişaf etdirdi. On minlərlə insanın iştirak etdiyi mitinqlərdə Heydər Əliyevin qətiyyətli mövqeyi müdafiə olunur, muxtar respublikanın düşdüyü ağır siyasi, iqtisadi vəziyyətdən çıxış kimi onun rəhbərliyə gətirilməsi tələb edilirdi [484, 1991, 6 sentyabr].

Nəhayət, Ali Məclisin 1991-ci il sentyabrın 3-də keçirilmiş sessiyasında dörd dəfə namizədliyini geri götürməsinə baxmayaraq, Heydər Əliyev yekdilliklə Naxçıvan MR-in rəhbəri seçildi. Ertəsi gün Ali Məclisin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında sentyabrın 8-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin muxtar respublika ərazisində dayandırılması haqqında qərar qəbul edildi, Azərbaycan Ali Sovetindən isə prezident seçkilərinin daha sonrakı müddətə keçirilməsi xahiş olundu. Sessiyada həmçinin Ali Sovetdən Azərbaycan Kommunist Partiyasının, onun Mərkəzi Komitəsinin fəaliyyətinin dayandırılması, partiyanın əmlakının milliləşdirilməsi xahiş edildi [285, 140-141]. Lakin Azərbaycan rəhbərliyi muxtar respublikada gedən demokratik prosesləri təhrif etmək, baş verən müsbət dəyişikliklərə qara yaxmaq üçün bütün vasitələrdən istifadə edərək, ölkə əhalisində bu dəyişikliklər barədə yanlış təsəvvür yaratmağa çalışırdı.

A.N.Mütəllibovun əlaltıları Ali Məclisin işini pozmaq üçün ən iyrənc vasitələrdən belə çəkinmirdilər. Bu məqsədlə inhisara alınmış

kütləvi informasiya vasitələrindən, radio və televiziyanın imkanlarından istifadə edilərək, Naxçıvan rəhbərliyinin fəaliyyəti separatizm kimi qələmə verilir, Heydər Əliyevi Azərbaycan xalqının gözündən salmağa cəhd edilirdi. Hətta muxtar respublikada cərəyan edən hadisələrdən tamamilə xəbərsiz olan və Bakıda yaşayan naxçıvanlı ziyalılar da bu kampaniyaya cəlb olunmuşdular. Muxtar Respublikanın Ali Məclisi Azərbaycan Respublikası rəhbərliyinin qanunsuz hərəkətlərini qətiyyətlə pisləyərək, bunları Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri pozmaq cəhdləri kimi qiymətləndirmişdi [285, 157].

Muxtar Respublika Ali Məclisinin 1991-ci il 1 oktyabr tarixli qərarı ilə Azərbaycan Respublikasının keçid dövrü İttifaq orqanlarında iştirakı yolverilməz hesab edildi [285, 171]. Oktyabrın 26-da keçirilən iclasda isə Azərbaycan Respublikası Ali Soveti tərəfindən «Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında» 1991-ci il oktyabrın 8-də qəbul olunmuş qanuna və bununla əlaqədar «Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında» Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 18 oktyabr tarixli fərmanına münasibət bildirən Ali Məclis tərəfindən bunları siyasi baxımdan mürtəce və antidemokratik xarakter kəsb edən, hüquqi cəhətdən konstitusiyaya zidd sənədlər kimi pisləndi, bu qərarlar Naxçıvan MR üçün qəbulolunmaz hesab edildi. Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 18 oktyabr tarixli fərmanı muxtar respublikada demokratik prosesləri məhdudlaşdırdığı üçün Naxçıvan MR-in Konstitusiyasına zidd hüquqi sənəd kimi onun muxtar respublika ərazisində tətbiq edilməməsi haqqında qərar qəbul olundu, prezidentə əlavə səlahiyyətlər verən 1991-ci il 8 oktyabr tarixli Azərbaycan Respublikasının qanununa yenidən baxılması Ali Sovetdən xahiş edildi [285, 186–190].

Naxçıvan Muxtar Respublikasına, onun Ali Məclisinə, xüsusən Heydər Əliyevə qarşı böhtançılıq və təxribat kampaniyasının davamı kimi, Azərbaycan Respublikasının Ali Soveti müəmmalı şəraitdə Azərbaycan Respublikası Konstitusiyasına dəyişiklik haqqında məsələni gündəliyə salaraq, Konstitusiyanın 112-ci maddəsinin 2-ci hissəsində təsbit edilmiş «Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri və-

zifəyə görə Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavinidir» cümləsini Konstitusiya mətnindən çıxardı. Bu qərar Naxçıvan MR-in Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən olunmuş statusunun kobud surətdə pozulması demək idi, eyni zamanda demokratiya əleyhinə yönəlmiş süni «Naxçıvan problemi» yaratmaq məqsədi daşıyırdı. Bu cür siyasətə qəti etiraz əlaməti olaraq, ayrı-ayrı vətəndaşlar və əmək kollektivləri tərəfindən Azərbaycan Respublikası Ali Sovetinə, Naxçıvan MR Ali Məclisinə saysız-hesabsız teleqramlar göndərilmişdi. Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti bəyanat verərək, Konstitusiyaya zidd hərəkətlərə öz etirazını bildirmiş və qərarın ləğvini tələb etmişdi [285, 192]. Heydər Əliyev başda olmaqla, Naxçıvan MR rəhbərliyinin qətiyyətli mövqeyi, demokratik ruhlu deputatların etirazları sayəsində bu qərar tezliklə, 1991-ci il oktyabrın 17-də ləğv olunsa da, Azərbaycan Respublikası rəhbərliyi Naxçıvan MR ilə süni qarşıdurma yaratmaq, buradakı demokratik prosesləri əngəlləmək siyasətindən əl çəkmirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı» yekdilliklə qəbul edildi. Bu tarixi hadisə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev «Həyat» qəzetinə göndərdiyi teleqramda muxtar respublika əhalisi adından bütün Azərbaycan xalqını təbrik etmiş və əmin etmişdi ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər [439, 1991, 20 oktyabr; 285, 181].

Bütün maneələrə və çətinliklərə baxmayaraq, Naxçıvanda müstəqil dövlət quruculuğu və demokratikləşmə prosesi sürətlə getməkdə idi. Heydər Əliyevin başçılığı altında Ali Məclisin qəbul etdiyi qərarlar muxtar respublikanın əhalisi tərəfindən tam dəstəklənir və müdafiə olunurdu.

Ali Məclisin 1991-ci il dekabrın 15-də keçirilmiş sessiyasında «Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə Azərbaycan Respublikasının referendumunun keçirilməsi haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 15 noyabr tarixli qərarı geniş müzakirə olundu. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev Azərbaycan Respublikası rəhbərliyinin mövqeyini kəskin tənqid edərək, dövlət müstəqilliyi ilə bağlı mühüm və tarixi qərarların qəbul edilməsinin

əsassız olaraq gecikdirilməsini dövlət müstəqilliyinə nail olunmasına daxilən müqavimət göstərilməsi kimi səciyyələndirmişdi.

Buna baxmayaraq, Naxçıvan MR Ali Məclisi bu aktın qəbul edilməsini Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası və onun suveren dövlət kimi tanınması, beynəlxalq hüququn subyekti kimi fəaliyyət göstərməsi yolunda atılan bir addım kimi bəyəndiyini bildirmiş, eyni zamanda Ali Sovetdən SSRİ-nin saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də Azərbaycan Respublikası ərazisində keçirilmiş referendumun nəticələrinin saxtalaşdırılmış hesab olunması və ləğvi üçün qərar verilməsi xahiş edilmişdi [285, 214].

Naxçıvan MR Ali Məclisinin həmin dövrdə qəbul etdiyi qərarlar içərisində öz tarixi əhəmiyyətinə görə 1991-ci il 16 dekabr tarixli «31 dekabr Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında» qərarı mühüm yer tutur. Məsələnin müzakirəsində çıxış edən Heydər Əliyev demişdi: «Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında məsələnin Naxçıvan MR Ali Məclisinin sessiyasında müzakirə olunması Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu, məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür». O, qətiyyətlə bildirirdi ki, «Ali Məclisin qərarı Azərbaycan Respublikasının tərəqqipərvər, milli ruhlu dairələrində razılıq hissi ilə qarşılanacaq və bütün Azərbaycanda bu hərəkatın güclənməsinə bir daha təkan verəcəkdir... Şübhə yoxdur ki, bu hərəkat getdikcə güclənərək bizim xalqın birləşməsinə, tam milli azadlığa nail olmasına kömək edəcəkdir» [285, 208]. Ali Məclisin qərarında 31 dekabrın Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunması və hər il bayram edilməsi, həmin günün Naxçıvan MR ərazisində istirahət günü hesab olunması, bu günün bütün Azərbaycan Respublikasında rəsmən qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilməsi kimi müddəalar öz əksini tapmışdı [285, 217-218].

Beləliklə, Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıtması nəticəsində muxtar respublikada siyasi proseslər daha da dərinləşdi, demokratikləşmə, milli ruhun dirçəldilməsi dönməz xarakter aldı.

Məhz Heydər Əliyevin Naxçıvana gəlişindən sonra burada milli dövlətçiliyin bərpası istiqamətində qəti addımlar atılmağa başlandı.

Blokadanın yaratdığı ağır məhrumiyyətlər şəraitində yaşayan muxtar respublika əhalisində gələcəyə inam və ümid doğurdu.

Xalqın təkidli tələbi ilə 1991-ci il sentyabrın 3-də muxtar respublikanın rəhbəri – Ali Məclisin sədri vəzifəsinə seçilmiş Heydər Əliyev Azərbaycan Respublikası rəhbərliyinin ölkəmizin, milli maraqlarına zidd, dövlət müstəqilliyi əleyhinə yönəlmiş siyasətini kəskin tənqid edərək Naxçıvan MR-də, Azərbaycan Respublikasının bu kiçik torpağında milli müstəqillik istiqamətində qətiyyətli tədbirlər gördü. Bu məsuliyyətli vəzifəni öhdəsinə götürməklə, Naxçıvan MR ərazisini onu gözləyən bəlalardan xilas etdi, onun muxtariyyət statusunu qoruyub saxladı. Məhdud məkan çərçivəsində fəaliyyət göstərməsinə, respublikada rəhbərlikdə olan imperiyapərəst rejimin təzyiq və böhtanlarına baxmayaraq, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar bütün Azərbaycanda geniş əks-səda doğurur, xalq, demokratik qüvvələr tərəfindən yekdilliklə dəstəklənirdi.

1.4. SSRİ-nin dağılması və Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası

SSRİ-də gedən iqtisadi və siyasi proseslərin təsiri altında sovet imperiyasının süqutu labüdləşdi. 1991-ci il dekabrın 8-də Brestdə «Viskuli» iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belarus respublikaları rəhbərlərinin Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında imzaladıqları sazişlə SSRİ-nin süqutu başa çatdırıldı. Hüquqi müstəqilliyini üç ay əvvəl elan etmiş Azərbaycan Respublikası imperiyanın dağılması ilə faktiki dövlət müstəqilliyinə nail oldu.

SSRİ-nin süqutundan sonra Ermənistan Respublikasının RF-nin hərbi-siyasi yardımı ilə Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasəti respublikada ictimai-siyasi böhran daha da kəskinləşdi. Ərazisindəki 7-ci sovet ordusunun bazasında yaratdığı hərbi qüvvələrlə hücum edən düşmənin qarşısını almaq üçün əməli tədbirlər görə bilməyən Azərbaycan Respublikası iqtidarının bacarıqsızlığı özünü bir daha göstərdi. Tarix Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyini – imperiyanın iflasını, ərazi bütövlüyünün təmin olunmasında

iqtidarın Moskvaya bəslədiyi ümidlərin əsassızlığını sübut etdi. Dünyada gedən siyasi-iqtisadi proseslərdən baş çıxara bilməyən respublika rəhbərliyi müstəqillik dövrünün tələblərinə uyğun idarəetmə sistemi yaratmaq bacarığından da uzaq idi. Kommunist nomenklaturası MDB-yə daxil olmağın vacibliyini Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə, postsovet məkanında yaranmış müstəqil dövlətlərlə iqtisadi əlaqələrsiz inkişafın mümkünsüzlüyü kimi səhv qənaətlə əsaslandırmağa cəhd edir, Birliyə daxil olmaq yolunda qəti addım atmırdı. Halbuki MDB-yə daxil olmaqla, Azərbaycan Respublikası dünya siyasətində lazımi diplomatik təzyiq vasitəsinə nail ola bilər, Qafqazda Rusiya Federasiyasının nüfuzunun yenidən güclənəcəyindən ehtiyatlanan dünya dövlətləri respublika ilə ikitərəfli və çoxtərəfli müqavilələrin bağlanmasına tələsərdi. Qərblə Rusiya Federasiyasının toqquşan maraqları üz-üzə qoyular və milli maraqların diktə edilməsi üçün imkan yaranardı. Lakin iqtidar və müxalifət bu perspektivləri görə bilmirdi. Müxalifət MDB-nin keçmiş imperiyanın bərpasından başqa bir məqsəd güdmədiyini söyləyir, «MDB altı aya dağılacaq» kimi sadəlövh mövqedən çıxış edərək, ona daxil olmağın əleyhinə gedirdi.

MDB ölkələri dövlət başçılarının 1991-ci il 21 dekabr tarixli Almatı görüşündə Azərbaycan Respublikası rəhbərliyinin bu məsələyə razılıq mövqeyi müxalifətin etirazı ilə qarşılandı. Hakimiyyət dövlətçilik maraqları naminə qətiyyət nümayiş etdirməli, istefaya getməklə ictimaiyyətin diqqətini bu addımın zəruriliyinə cəlb etməli olduğu halda, prinsipsizliyini davam etdirdi. 1990-cı ilin seçkilərində bilavasitə onun razılığı ilə seçilmiş deputat korpusu müxalifətin mövqeyini müdafiə edərək, MDB-yə daxil olmağın əleyhinə səs verdi.

Rusiya Federasiyasından hərbi və siyasi dəstək alan Ermənistan Respublikasının hücumu isə güclənirdi. Azərbaycan Respublikasının Füzuli rayonunun Arış, Çuvarlı, Qoca, Çimən, Xələfşə, Goranboyun Şəfəq, Zeyvə və digər kəndlərinə basqınlar oldu. Dekabrın 23-də erməni quldurları Meşəli, Saldaş kəndlərini şiddətli top atəşinə tutaraq, zirehli texnikanın köməyi ilə hücum etdilər. Ordunun yaradılmasında, hərbi əməliyyatların keçirilməsində buraxılan ciddi səhvlər və daxili qarşıdurma nəticəsində 1992-ci ilin yanvar-fevral aylarında Azərbaycan Respublikasının bir sıra torpaqları düşmənin əlinə keçdi. Yanvarın

21-də Qeybalı, fevralın 12-də Aşağı Quşçular, Yuxarı Quşçular, Malıbəyli, 17-də Qaradağlı və s. yaşayış yerləri viran qoyuldu, əhali qovuldu. Xocalı və Şuşa üçün təhlükə reallaşdı. Ümumiyyətlə, 1992-ci ilin əvvəlindən Xocalının işğalına qədər ermənilər 230 silahlı basqın etmiş, nəticədə 117 insan həlak olmuşdu, 155 nəfər yaralanmış, 190 ev yandırılmışdı.

Azərbaycan Respublikası ərazisinin müdafiəsini təşkil edə bilməyən, mühasirə vəziyyətində qalan insanların çıxarılması üçün real tədbirlər görməyən respublika rəhbərliyindən fərqli olaraq, ümummilli lider Heydər Əliyev ölkənin, erməni təcavüzünə məruz qalmış Qarabağın taleyini düşünürdü. 1991-ci ilin dekabrından mühasirə vəziyyətində olan strateji əhəmiyyətli Xocalı şəhəri Azərbaycan Respublikası rəhbərliyinin diqqətindən kənarda qaldığı halda, hələ 1991-ci il oktyabrın 2-də Naxçıvan MR Ali Məclisinin sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə qapalı iclasda müdafiə məsələsi müzakirə edilmiş, Xocalı şəhər İcra Hakimiyyətinin başçısı Elman Məmmədovun şəhərdə yaranmış gərgin vəziyyət barədə məlumatı dinlənilmişdi. Respublika rəhbərliyinin cinayətkar mövqeyi ifşa olunmuş, böyük siyasətçidən kömək istənilmişdi. Goranboyu təmsil edən nümayəndələrin çıxışlarında, eləcə də goranboylulardan daxil olan teleqramlarda rayonda və respublikadakı vəziyyətlə, ermənilər tərəfindən əsir və girov götürülmüş insanların xilası ilə bağlı Heydər Əliyevə müraciətlər edilmiş, ümidlərin yalnız ona olduğu bildirilmişdi. Hər bir müraciətə, ona bəslənilən ümidlərə həssaslıqla yanaşan təcrübəli siyasi xadimin səyi nəticəsində Ermənistan Respublikası rəhbərliyi ilə danışıqlar aparılmış, yaşayış məntəqələrinə silahlı hücumlar dayandırılmış, əsir və girov götürülmüş vətəndaşlar xilas olunmuşdu. Halbuki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində yaşayan azərbaycanlıların yaşadığı məntəqələr bir-birinin ardınca işğal olunur, insanlar əsir və girov götürülür, itkin düşürdü.

1992-ci il fevralın 26-na keçən gecə Xocalıda törədilən soyqırımında 613 azərbaycanlı öldürüldü, 1275 qoca, qadın, cavan, körpə əsir və girov götürüldü. 56 şəxs xüsusi qəddarlıqla – yandırılmaqla, başı kəsilməklə, qadının bətni yarılaraq körpəsi çıxarılmaqla, ağzına torpaq doldurulmaqla və s. vəhşiliklə qətlə yetirildi. Jurnalistlər Seyidağa Mövsümovun və Çingiz Mustafayevin Xocalıda çəkdikləri, erməni qəddarlığını təsdiq

edən videokadrlar «Yevrovideniye» və «Ri-Bi-Si» televiziya kanallarına ötürülərək nümayiş etdirilsə də, dünya dövlətləri ermənilərin keçmiş SSRİ-yə, sonra isə Rusiya Federasiyasına məxsus 366-cı motoatıcı alayın hərbçiləri ilə birgə törətdiyi bu cinayətə də göz yumdu.

Xocalı faciəsindən dəhşətə gəlmiş xalq Respublika Ali Sovetinin sessiyasının çağırılmasını və ölkə prezidentinin istefasını tələb etdi. Milli Şuranın qərarı ilə martın 5-də müxalifətin silahlanmış qüvvələrinin təzyiqi altında Ali Sovetin fövqəladə sessiyası toplandı. Azərbaycan Respublikası Ali Sovetinin Sədri Elmira Qafarova səhhəti ilə əlaqədar işləyə bilmədiyini və istefa verdiyini bəyan etdi. Deputat Yaqub Məmmədov Ali Sovetin Sədri seçildi. Xocalı faciəsinə dair videolentin nümayişindən sonra sessiyada qarşıdurma yarandı. Uğursuzluqların səbəbini öz üstündən atmağa çalışan Ayaz Mütəllibov haqsız olaraq Heydər Əliyevi günahlandırırdı: «Soruşmaq lazımdır ki, 1982-ci ildə bu alayı kim təşkil edib və nə məqsədlə, bu, hansı bir strateji yerdir ki, orada bu alayı biz təşkil etmişik, nəyin hesabına, niyə? Yenə onun zibilinə biz düşdük».

1992-ci il martın 5-dən 6-na keçən gecə Respublika Ali Sovetinin sessiyası ölkə prezidentinin istefası məsələsini qoydu. A.N.Mütəllibov istefa verməyə məcbur oldu. Konstitusiyaya uyğun olaraq, prezidentin səlahiyyətləri Ali Sovetin Sədri Y.Məmmədova keçdi. 1992-ci il martın 25-də növbədənkənar sessiyanın çağırılması, ali icra hakimiyyətinə seçkilərin davam etdirilməsi və ya dayandırılması məsələsinin müzakirəsi barədə vəd verildi. Lakin Azərbaycan Respublikasında parlamentli idarəetmə formasını məqsədəuyğun hesab edən müxalifət prezident üsul-idarəsinin ləğvi barədə təkliflə yeni gərginliyin başlanğıcını qoydu. Müxalifət qanunvericilik hakimiyyətinin Milli Şuraya verilməsi, koalisiya hökuməti yaradılması, MDB-yə daxil olmamaq barədə tələblərini gücləndirdi.

Kompromisə cəhd edən yeni rəhbərlik müxalifətin nümayəndələrini müdafiə naziri, daxili işlər naziri kimi məsul vəzifələrə təyin etdi. «Yaşıllar Cəmiyyəti», «Dirçəliş və tərəqqi», «Kəndli», «Milli məhəbbət» və s. partiya və ictimai cəmiyyətlərin meydana gəlməsi, kütləvi informasiya vasitələrində siyasi partiyaların, ictimai qurumların, əhalinin müxtəlif təbəqələrinin sərbəst çıxışlarının təşkil edilməsi, «Söz istəyirəm» rubrikası vasitəsilə müxtəlif şəxslərə müraciət və bəyanatlar ver-

mək imkanının yaradılması, sovet qanunları ilə məhkum edilmiş şəxslərin azad olunması və döyüş bölgələrinə göndərilməsi barədə çağırışlardan «ruhlanan» məhbusların həbs yerlərində qiyamlar qaldırması, ailələri Qarabağın dağlıq hissəsində və Ermənistanla həmsərhəd rayonlarda yaşayan, yalnız respublika məhkəmələri tərəfindən məhkum olunmuş bir qrup şəxsin bağışlanma qaydasında cəza çəkməkdən azad edilməsi barədə fərmanın imzalanması, yerlərdə ictimai-siyasi vəziyyətlə tanışlıq məqsədilə rəhbərliyin Goranboy, Tovuz, Qazax, Cəlilabad, Masallı, Lənkəran, Zaqatala, Ağdam, Gəncə və Yevlaxa səfərlərinin təşkili, qanunsuz saxlanılan silahların təhvil verilməsi sahəsində atılan addımlar, iqtisadi sahədə qanunçuluğun müdafiəsi ilə əlaqədar görülən kampaniya xarakterli tədbirlər, çörək, süd və digər gündəlik ərzaq məhsullarının əlavə dəyər vergisindən azad olunması və s. «demokratik hakimiyyət» təsiri bağışlasa da, Azərbaycan Respublikası «hakimiyyəti olub, gücü olmayan» hakimiyyətsizlik günlərini yaşayırdı. Görülən tədbirlər dövlət quruculuğu prinsiplərindən uzaq idi və hərbi-siyasi böhrana son qoymaq iqtidarında deyildi. Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən artıq 50-yə yaxın yaşayış məntəqəsi işğal olunmuşdu. Sovet dövründəki müqavilələr işləmir, yeniləri isə bağlanmamışdı. İdarəetmə üçün vacib olan qanunvericilik bazasının yaradılmaması, adi məhsulların belə tapılmaması, qiymətlərin gündən-günə şişməsi, Naxçıvan MR-nə elektrik enerjisi verilməsinin Ermənistan tərəfindən kəsilməsi, Mingəçevir SES-dən gələn elektrik xəttinin Ağdərə yaxınlığında sıradan çıxması, Rusiya Federasiyasından alınan elektrik enerjisinə Dağıstan Respublikasında məhdudiyyət qoyulması Azərbaycanda ümumi böhranı gündən-günə kəskinləşdirirdi. Daxili və xarici siyasətdə dövlətçilik üçün vacib təcrübə və qətiyyətin olmaması özbaşınalığı gücləndirirdi.

Yeni rəhbərliyin seçki kampaniyasının davam etdiriləcəyi barədə 15 mart tarixli müsahibəsindən sonra iqtidar-müxalifət kompromisinə yer qalmadı. Martın 25-də Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası toplandı, müzakirələr 1992-ci il iyunun 7-də prezident seçkilərinin keçirilməsi haqqında qərarla yekunlaşdı.

Ə.Elçibəyin prezidentliyə namizədliyini irəli sürən AXC Ali Məclisinin 1992-ci il 27 mart tarixli sessiyasından sonra respublikanı yeni mitinq dalğası bürüdü.

Prezidentin səlahiyyətlərini icra edən Ali Sovetin Sədrinin «biz istiqlaliyyət, demokratiya və suverenlik yolu seçmişik və keçmiş İttifaq kimi hər hansı bloka qoşulmaq arzusunda deyilik» kimi diplomatiyadan uzaq mövqeyi Rusiya Federasiyası ilə münasibətləri daha da pisləşdirdi.

Aprelin 4-də Azadlıq meydanında başlanan mitinq nəinki iqtidarla müxalifət arasında, eləcə də müxalifətin öz daxilində hakimiyyət uğrunda qarşıdurmanın olduğunu bir daha nümayiş etdirdi. Dünən xalqa başqa vədlər verən, seçkilərin dayandırılması barədə bəyənilən platforma ilə çıxış edən müxalifət indi hakimiyyət kreslosu uğrunda mübarizədə bir-birini didir, özünü xalqın gözündən salırdı. Yeni seçki qanununun qəbul edilməməsi saxtakarlıq ənənələrinin daha da genişlənməsinə imkan yaratdı. Yerli icra orqanları dəstəklədiyi namizədin adı qeyd olunmamış boş imza vərəqələrini saxta imzalar əsasında təsdiq edirdi.

Respublika Mərkəzi Seçki Komissiyası aprelin 7-dən 22-dək davam edən prezidentliyə namizədlərin irəli sürülməsi kampaniyası ərzində Y.Məmmədov, Ə.Elçibəy, N.Süleymanov, Ə.Mehdiyev, R.Abdullayev, E.Məmmədov və İ.İsmayılovun namizədliyinin qeydə alınması barədə qərar qəbul etdi. Naxçıvan MR mədəniyyət işçilərinin 1992-ci il 22 aprel tarixli yığıncağında Heydər Əliyevin prezidentliyə namizədliyi irəli sürülsə də, MSK onun namizədliyinin qeydə alınması barədə belə düşünmədi.

Azərbaycan Respublikasının bütün bölgələrində isə əhali mitinq və nümayişlər keçirərək, respublikanı hərbi-siyasi böhrandan çıxara biləcək Heydər Əliyevin prezidentliyə namizədliyinə maneələrin aradan qaldırılmasını, ali icra hakimiyyətinə seçkilər haqqında qanunda dəyişiklik olunmasını tələb edirdi.

Aprelin sonu, mayın əvvəlində Respublika Ali Soveti binasının qarşısında Heydər Əliyevin namizədliyinin qeydə alınması, qanunvericilikdəki məhdudiyyətin götürülməsi tələbi ilə mitinqlər gücləndi.

Naxçıvan MR-də idarəçilikdə nümayiş etdirilən böyük dövlətçilik təcrübəsi ilə xarici informasiya agentliklərinin diqqətini özünə cəlb edən Heydər Əliyev onlara verdiyi müsahibələrində prezident seçilmək iddiasında olmadığını bəyan edir, Azərbaycanın müharibə vəziyyətində, torpaqlarının böyük hissəsinin erməni işğalı altında

olduğu bir şəraitdə demokratik seçkilərin mümkünsüzlüyünü vurğulayır, belə şəraitdə keçirilən seçkilərin mənəvi cəhətdən xalqa xəyanət olduğunu bildirirdi.

Hakimiyyətdən uzaqlaşdırılmış A.N.Mütəllibovun «mənə iynə vurmuşdular, mən həmin iynələrin təsiri altında istefa vermişəm», «mənim istefam ironik xarakter daşıyırdı» məzmunlu təzadlı müsahibələri seçki ərəfəsində ictimai-siyasi vəziyyəti daha da bulandırırdı. Respublika Ali Soveti binasının ətrafında təşkil olunan silahlı piket onun vəzifəyə qaytarılmasını tələb edirdi. Martın 6-da prezidentin istefasına nail olmaq üçün müxalifət tərəfindən yaradılmış vəziyyət sanki təkrar olunurdu.

Ermənistan Respublikası isə mayın 8-də Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində azərbaycanlıların yaşadığı sonuncu məntəqəni – qədim Azərbaycanın mədəniyyət beşiyi Şuşa şəhərini işğal etdi. Elə keçirilməsi çoxdan planlaşdırılan Şuşa–Laçın dəhlizi tutuldu. «Dəhliz» əməliyyatının başa çatması ilə Ermənistan Respublikası Dağlıq Qarabağa əlavə hərbi texnika və qüvvə gətirmək imkanı əldə etdi. «Əgər Şuşa işğal edilərsə, mən başıma güllə vuraram» deyən müdafiə naziri Rəhim Qazıyev isə işğaldan dərhal sonra Azərbaycan Respublikasını tərk edərək Moskvaya getdi.

Respublika Ali Sovetinin mayın 27-nə nəzərdə tutulan sessiyasının təcili çağırılması və eks-prezidentin hakimiyyətə qaytarılması tələbi ilə 11 gün davam edən silahlı piketin təzyiqi altında Milli Şura çağırıldı. «Mən özüm sessiyanı çağırmaq istəmirəm. Milli Şura müzakirə etsin, qərar çıxarsın» deyən Ali Sovetin Sədri Y.Məmmədov sessiyanın mayın 15-də keçirilməsi barədə qərarın qəbuluna nail ola bildi. Lakin Ali Sovetin Rəyasət Heyətinin axşam keçirilən iclasında silahlı piketçilərin tələbi ilə sessiyanın mayın 14-də çağırılması «razılaşdırıldı».

1992-ci il mayın 14-də 253 deputatın iştirakı ilə sessiya başlandı. Nəzərdə tutulmadığı halda, Xocalı faciəsi ilə bağlı məsələnin gündəliyə salınması barədə «gözlənilməyən təklif»in səslənməsindən sonra faciə nəticəsində istefasına nail olunmuş eks-prezidentin də iclas salonuna dəvət edilməsi məqsədəuyğun sayıldı. Xocalı faciəsi üzrə deputat istintaq komissiyasının «biz komissiyanın işinə başlayarkən and içmişik ki, yalnız həqiqəti deyəcəyik. Lakin indi bizi məcbur edirlər ki, təhqiqat

başa çatmadığı halda hesabat verək» məzmunlu «giriş sözü»ndən sonra eks-prezidentin nöqsanlarının olduğu, lakin əməlində cinayət tərkibinin olmadığı bildirildi.

Respublika Baş Prokurorunun müavininin eks-prezidentin istefası barədə Ali Sovetin 6 mart tarixli sessiyasının qərarının qanuni olmadığı üçün ləğv edilməsi, yeni prezident seçkilərinin dayandırılması və koalisiya hökuməti yaradılması təklif olunan arayışından sonra məsələ səsə qoyuldu. Qərarın təsdiqini alqışlarla qarşılayan deputatlara «o qərarı da, bu qərarı da siz qəbul etmisiniz, nəyə əl çalırsınız?» atmacası ilə, əslində, deputatların ikiüzlülüyünü etiraf edən sədr «mən artıq öz işimi qurtardım» deyərək, ssenariyə yekun vurdu. «Bax onda həmin rejimdən və Mütəllibovun atdığı düşünülməmiş həmin addımdan narazılıq dalğası xalqı Xalq Cəbhəsi ətrafında birləşdirdi» [9, 26].

Mayın 15-də Azərbaycan Xalq Cəbhəsinin binası qarşısında, indiki Sahil bağında Heydər Əliyevin hakimiyyətə qaytarılması tərəfdarlarının, cəbhəçilərin və hakimiyyətin siyasətindən narazı olan müxtəlif təbəqələrin nümayəndələrinin mitinqi toplandı. Respublika Ali Sovetinin 14 may tarixli sessiyasının qərarı «demokratiyaya arxadan vurulan zərbə» kimi pisləndi. Tribunadan «bu saat Heydər Əliyevlə telefon əlaqəsi saxlanılıb. Naxçıvandan bizə kömək göndəriləcəkdir» fikrinin səslənməsindən az sonra əliyevsevərlərin mitinqi böyük izdihama çevrildi. Oradan başlanan yürüş Ali Sovetin və Teleradio Verilişləri Komitəsinin binalarının ələ keçirilməsi ilə nəticələndi. Axşam saat 19.30-da müxalifətin «saat 8-ə qədər prezident sarayı boşaldılmasa, təyyarə ilə binanın bombardman ediləcəyini» bildirən ultimatumundan sonra cəbhəçilər heç kəsin olmadığı saraya daxil oldular.

AXC-nin tələbi ilə toplaşan Milli Şura Ali Sovetin 14 may tarixli sessiyasının qərarlarını ləğv etdi. Müxalifətdən olan deputatlar prezident seçkilərinin davam etdirilməsini məqsədəuyğun saydılar. Bir qrup deputat, o cümlədən xalqın lideri Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin tərəfdarları isə seçkilərin çıxış yolu olmadığını bildirdilər. Dövləti idarə etmək təcrübəsi olmayan müxalifətin hakimiyyətə gələcəyi təqdirdə də respublikada vəziyyətin düzəlməyəcəyi barədə xəbərdarlıq etdilər. Heydər Əliyevin rəhbərliyi altında Dövlət Şurasının yaradılması təklif olundu. Heydər Əliyevin adından hürkən,

«onun söhbətini salmaqla qaragüruhu gətirib doldurduz bura..., qardaş, bizə cavan adamlar lazımdır» söyləyən müxalifət uzağı görməyən mövqeyindən əl çəkmədi. Milli Şuranın iclasının gedişində «müəmmalı» Moskva səfərindən qayıdan Azərbaycan Respublikası Müdafiə nazirinin «mən belə hesab edirəm ki, hakimiyyəti əlinə müdafiə naziri götürməlidir» təklifinə meyilli olan, «...təklifə münasibət bildirək...müdafiə nazirinin ixtiyarını genişləndirməliyik» deyən deputatlar da tapıldı. Lakin səslənən təkliflərin heç birinin gerçəkləşmək şansı yox idi. Çünki «Xalq Cəbhəsi hakimiyyətə siyasi partiya kimi normal demokratik mübarizədə gəlməsə də», artıq onu ələ almışdı [9, 27]. Ali Sovet Sədrinin «hakimiyyəti gəlin bu gündən verək Xalq Cəbhəsinə» təklifinə cavab olaraq, «hakimiyyəti verək deyirlər, hakimiyyəti bizə vermək lazım deyil, biz artıq o addımı atmışıq və hakimiyyəti ələ almış kimiyik» söyləyən cəbhəçilər özləri də bunu təsdiq edirdilər. Sadəcə, onun qanuniləşdirilməsi lazım idi. Müxalifətin «biz Konstitusiyaya uyğun hərəkət etsək, qabaqdan başımıza gələni qanuni şəklə sala bilərik» kimi mövqeyi məhz bu məqsədi ifadə edirdi.

1992-ci il mayın 18-də 250 deputatın iştirakı ilə, AXC tərəfindən ələ alınmış hakimiyyətin qanuniləşdirilməsinə xidmət edən sessiya çağırıldı. Ali Sovetin Sədri vəzifəsindən uzaqlaşdırıldı. AXC və iqtidar nümayəndələrinin 16-17 may sövdələşməsində ümumi dil tapılaraq, Ali Sovetin Sədrliyinə İsa Qəmbərovun namizədliyi irəli sürüldü. Minlərlə insan Heydər Əliyev ümidi ilə Respublika Ali Sovetinin binası ətrafında toplaşaraq, Naxçıvan MR-də milli həmrəyliyə nail olan, problemlərin həllində bütün siyasi qüvvələrin birliyini təmin edən, muxtar respublikanın təhlükəsizliyi ilə əlaqədar beynəlxalq səviyyədə tədbirlər görən, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə iqtisadi və mədəni əlaqələrin ilk bünövrə daşlarını qoyan, dövlətçilik təcrübəsinə böyük hörmətlə yanaşan ABŞ-ın Moskvadakı səfirliyinin nümayəndələrinin Naxçıvan MR-ə görüşünə gəldikləri böyük siyasi xadimin Ali Sovetin Sədri seçilməsinə ümid edirdilər.

Reqlamentə görə namizədliyi irəli sürülən şəxs təkliflə razı olub-olmadığını bildirməli idi. İsa Qəmbərov namizədliyini geri götürməyəcəyini bildirdi. Deputat Arif Rəhimzadənin sessiyada iştirak etməyən Heydər Əliyevin rəyinin öyrənilməsi məqsədilə tənəffüs elan olunması və onunla telefon əlaqəsi saxlanması barədə təkidindən sonra

Naxçıvan MR Ali Məclisinə zəng edilməsi razılaşdırıldı. Heydər Əliyevlə telefonla əlaqə saxlayaraq onun fikrinin öyrənilməsinin əleyhinə olmadığını bildirən müxalifətçi deputat Arif Hacıyev «mən qabaqcadan deyirəm və əminəm ki, – yəni bununla əlaqədar bizdə müəyyən informasiya var, – Heydər Əliyev İsa Qəmbərovun namizədliyini hökmən müdafiə edəcək, buna şübhə etmirik», «Azərbaycanın idarəçiliyi, demək olar ki, Xalq Cəbhəsinin əlindədir. Bu gün AXC-nin müdafiə etmədiyi namizədin Azərbaycanın rəhbəri olması qeyri-mümkündür. Bunu Heydər Əliyev də yaxşı başa düşəcək, gəlin burda onu hörmətsiz etməyin. Biz o qəti addımı atmışıq, axıra kimi gedəcəyik. Bu məsələ respublikanın rəhbərliyi ilə də, müxtəlif qüvvələrlə də, xarici dövlətlərlə də danışılıb» - fikrini bəyan etdi. Fasilə zamanı Heydər Əliyevin namizədliyini irəli sürən deputatların və müxalifətdən olan deputatların iştirakı ilə Naxçıvan MR Ali Məclisinə zəng edilsə də, danışıq baş tutmadı.

Kommunist rejiminə qarşı müxalifətdə olsa da, bu rejim devrildikdən sonra müxalifətdə olmadığını, demokratik blok qüvvələri ilə birliyə cəhd edən əməlləri ilə sübut edən, demokratik seçki yolu ilə hakimiyyətə gəlməyi yeganə sivil yol hesab edən Ümummilli lider siyasi partiya kimi normal demokratik mübarizədə hakimiyyətə gəlməyən AXC-nin ona qarşı qərəzli mövqeyinə alicənablıqla yanaşaraq milli həmrəyliyə çalışırdı. Heydər Əliyev həmin günlərdəki mövqeyi barədə demişdi: «Xalq Cəbhəsi hakimiyyətə gəlmək istəyirdi. Mən də onlara kömək etdim. Onlara ümid bəsləyirdim».

İş başında olan Heydər Əliyev həmin vaxt erməni təcavüzünün qarşısının alınması ilə əlaqədar beynəlxalq təşkilatlara, xarici dövlətlərin başçılarına bəyanatlar göndərirdi. Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin, Xarici İşlər naziri Ərdal İnönünün telefon zənglərinə cavabında vəziyyət barədə məlumat verir, məsləhətləşirdi. Xatırladaq ki, ermənilərin mayın əvvəlində başlanan, lakin Heydər Əliyevin gərgin siyasi səyləri nəticəsində qarşısı alınan silahlı təcavüzü Bakıda hakimiyyət uğrunda gedən didişmə zamanı yenidən fəallaşmışdı.

Respublika Ali Sovetinin 1992-ci il 18 may tarixli sessiyası AXC-nin proqram və platformasını hakimiyyətin siyasət xətti elan etdi. Bütün rəhbər vəzifələrə cəbhəçilər təyin olunmağa başladı. Lakin AXC

həmişə dəstək aldığı, respublikanın nicatını Heydər Əliyevdə görən güclü bir qüvvədən ayrı düşdü. Xalqda AXC-Müsavat cütlüyünün hakimiyyətinin bir ildən artıq sürməyəcəyi qənaəti formalaşdı.

Kommunist nomenklaturasının hakimiyyəti dövrünün seçki sistemindən yararlanan yeni rəhbərlik seçki qanunvericiliyindəki qərəzli məhdudiyyət götürülmədən başlanmış prezident seçkiləri kampaniyasını davam etdirdi. 1992-ci il iyunun 7-dəki prezident seçkiləri ilə AXC-Müsavat cütlüyünün hakimiyyətə gəlişi başa çatdı.

Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra artıq müxalifət mövqeyindən çıxış etməyən Ümummilli lider deyirdi: «Mən müxalifətdə idim o vaxta qədər ki, Kommunist partiyası hakimiyyətdən getdi. Bundan sonra mən müxalifətdə olmadım. Çünki mənim prinsiplərim bu prinsiplərə uyğun idi.... xüsusən də Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra mən müxalifətdə deyildim... Baxmayaraq ki, mənə qarşı Xalq Cəbhəsi çox böyük ədalətsizliklər etmişdi». Lakin Ulu Öndərin bu ümidləri doğrulmadı, xalqın xilaskarına qəsd cəhdləri planlaşdırıldı.

Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi təmin etməyə qadir olmadığını dərk edən AXC-Müsavat cütlüyünün Heydər Əliyev şəxsiyyətinə bəslədiyi hədsiz qısqanclığın ömrünə, milli və beynəlxalq maraqları diplomatik ustalıqla çulğalaşdıra bilən, zəngin idarəçilik təcrübəsinə, fenomen dövlətçilik istedadına malik siyasətçinin respublika rəhbərliyinə dəvətinə, sərişəsiz iqtidarın gecikmiş etirafına, «QAYIDIŞ» a hələ düz bir il qalırdı.

II FƏSİL

MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ DAXİLİ VƏZİYYƏT VƏ HAKİMİYYƏT BÖHRANI. DÖVLƏT MÜSTƏQİLLİYİNİN QORUNUB SAXLANMASI UĞRUNDA MÜBARİZƏ (1991–1995)

2.1. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun daxili siyasi vəziyyətə təsiri

XX əsrin 80-ci illərinin ikinci yarısında SSRİ imperiyasının siyasi, sosial-iqtisadi və mədəni həyatında başlanmış böhran onun tezliklə süqut edəcəyindən xəbər verirdi. 1982-ci ildən 1985-ci ilədək dövlətin siyasi rəhbərliyinin üç dəfə dəyişməsi, ölkə iqtisadiyyatının tənəzzülə uğraması, ABŞ və inkişaf etmiş Avropa ölkələri ilə hərbi və iqtisadi rəqabət apara bilməməsi, 1979-cu ildə Əfqanıstana yeridilmiş sovet qoşun birləşmələrinin mücahidlərlə müharibədə uduzması, cəmiyyətdə güclənən mənəvi-psixoloji düşkünlük və sosializm quruluşuna olan inamın sürətlə azalması başlanmış dağılma prosesini daha da sürətləndirdi. Digər tərəfdən, ABŞ və Qərbi Avropa ölkələrinin birbaşa maliyyə yardımı ilə 1946-cı ildən «soyuq müharibə» adı altında SSRİ-yə qarşı aparılan ideoloji müharibə artıq öz işini görmüşdü. Bununla yanaşı, XX əsrin 20–30-cu illərində Kommunist partiyası tərəfindən elan edilən kommunizm quruculuğu işi istər iqtisadi və istərsə də ideoloji nəticə baxımından özünü həyatda doğrultmamışdı. 1917-ci ilin oktyabrında hərbi çevriliş yolu ilə Rusiyada hakimiyyəti ələ keçirən bolşeviklər beynəlmiləlçilik şüarı altında keçmiş çar Rusiyasının əvvəlki sərhədlərini bərpa etmək siyasətinə üstünlük verirdilər. Bu siyasətdə bütün Qafqaz, o cümlədən Cənubi Qafqazın əsas ölkələri sayılan Şimali Azərbaycana və Gürcüstana xüsusi əhəmiyyət verilirdi. Bakı neftini nəyin bahasına olursa olsun, əldə saxlamaq bu siyasətin

əsas mahiyyətini təşkil edirdi. 1917-ci ilin sonu və 1918-ci ilin əvvəllərində Polşa və Finlandiyanın, Baltikyanı ölkələrin dövlət müstəqilliklərini tanıyan bolşeviklər Azərbaycanın və Gürcüstanın dövlət müstəqilliyini tanımaqdan imtina etdilər. Ermənilərdən 1917-ci ilədək öz talançılıq, qarət və soyğunçuluq işlərində məharətlə istifadə edən bolşeviklər, siyasi fəaliyyətlərində də onların ən tanınmış siyasi «xadimlərini» ön plana çəkirdilər. «Daşnaksutyun» partiyasının Bakı komitəsinin üzvü, Bakı Sovetinin sədri Stepan Şaumyan 1917-ci il dekabrın 16-da Sovet Rusiyası XKS-nin sədri, V.İ.Leninin sərəncamı ilə Qafqazın fövqəladə komissarı təyin edildi və neft şəhərini əldə saxlamaq üçün ona 500 000 rubl vəsait ayrıldı. 1918-ci ilin birinci rübündə isə yenə V. Leninin sərəncamı ilə Bakı Sovetinə əlavə olaraq 30,8 rubl pul, 2 zirehli maşın, 2 aeroplan və 5 min tüfəng ayrılmışdı. Bu sərəncama əsasən, İ. Stalin yuxarıda göstərilən maliyyə və hərbi yardımı Şaumyana çatdırmaq üçün Moskva Hərbi Dairəsinə xüsusi tapşırıq vermişdi. Xatırladaq ki, rus ordusunun tərkibində Osmanlı Türkiyəsinə qarşı vuruşan və 1918-ci ilin martında Qafqaz cəbhəsindən Rusiyaya qayıdan 5 min nəfər erməni daşnak könüllüləri Bakıya gətirilmişdi və onlardan ilk növbədə azərbaycanlılara qarşı bütün Azərbaycan ərazisində istifadə edilərək soyqırımı cinayətləri törədildi. Cənubi və Şimali Azərbaycan ərazilərində ermənilər tərəfindən 700 000 nəfər azərbaycanlı soyqırımına məruz qaldı. Lenin 1918-ci ilin iyulunda Bakını tərk etməyə məcbur olan S. Şaumyan, A. Mikoyan və onların əlaltılarından biri olan Baş Neft Komitəsinin sədri Ter-Qabrielyana neft Bakısını bütünlüklə yandırmaq tapşırığını vermişdi.

1918-ci ilin fevralında yaradılmış Zaqafqaziya Seyminin dağılmasında ingilislər, bolşeviklər və ağqvardiyaçılarla sıx əməkdaşlıq edən ermənilər mayın 29-da ABŞ, Fransa və İngiltərənin, habelə Osmanlı Türkiyəsi hərbçilərinin birbaşa təzyiqləri və razılığı ilə, Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadənin və xarici işlər naziri M.H.Hacınskinin bağışlanılmaz səhv siyasi qərarlar qəbul etmələri ucbatından keçmiş İrəvan quberniyasının, əsasən, mərkəzi hissəsi və İrəvan şəhəri ermənilərə güzəştə gedildi. Beləliklə, Qərbi Azərbaycan torpaqlarının şimal-qərb ərazilərində Ermənistan «dövləti» yaradıldı. 1918–1921-ci illərdə «mövcud olmuş» Ermənistan Respublikası sovet Rusiyası tərəfindən Qərb dövlətlərinin əlindən alındı.

Sovet Rusiyası Azərbaycan Xalq Cümhuriyyətini məhv etmək və təkcə neft Bakısını deyil, bütün Şimali Azərbaycanı işğal etmək planı hazırlayırdı. Buna görə də V.Lenin 1920-ci il aprelin 23-də Şimali Azərbaycanın işğalı ilə bağlı 490 və 5698 saylı iki sərəncam imzalayaraq, Hərbi Şuranın üzvü S.Orconikidzeyə və Qafqaz ordusunun komandanı Tuxaçevskiyə göndərmişdi. 1920-ci il aprelin 28-də Şimali Azərbaycanı işğal edən Sovet Rusiyasının ən tanınmış «xadimləri» olan İ.Stalin, S.Orconikidze, Q.Çiçerin, A.Mikoyan, S.Kirov, G.Mirzoyan, A.Serebrovski azərbaycanlı əhaliyə qarşı həyata keçirilən müstəmləkə siyasətinin ən məhşur simaları idi. İ.Stalin, S.Orconikidze və S.Kirov ermənilərin başlıca himayədarları olduqlarını təkcə sözdə deyil, həm də Azərbaycan xalqına qarşı çirkin və cinayətkar əməlləri ilə sübut edirdilər. Kirov hələ 1916-cı ilin fevralında «Terek» qəzetində dərc olunmuş məqaləsində Anadolu türklərini ermənilərə qarşı cinayətlərdə ittiham edir və onlara himayədarlığa çağırırdı.

1922-ci ildə Azərbaycan Kommunist Partiyasının rəhbəri təyin edilən S.M.Kirov Zəngəzur, Zəngibasar, Dərələyəz, Göycə mahalı və Dilican da daxil olmaqla, ümumi sahəsi 19,8 min km² olan qədim Şimali Azərbaycan torpaqlarının Ermənistana verilməsi prosesində mühüm rol oynamışdı. S.Orconikidze isə onu təkrar edərək, «... tarixdə ermənilər qədər böyük qurbanlar verən xalq, o cümlədən ölkələr çox azdır, onların heç birində Ermənistandakı qədər qan tökülməyib...» deyir, V.Lenin və İ.Stalindən, mərkəzi bolşevik hökumətinin digər liderlərindən Naxçıvan və Qarabağ torpaqlarının Ermənistan SSR-ə verilməsini tələb edirdi. 1920–1924-cü illər ərzində Nəriman Nərimanovun bütün səylərinə və müqavimətinə baxmayaraq, 1921–1929-cu illər ərzində Azərbaycan SSR-dən 19,8 min km² ərazi, azərbaycanlıların iradəsinin tam əleyhinə olaraq, Ermənistan SSR-ə verildi. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən, Şimali Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülən ermənilər üçün 1923-cü il iyulun 7-də muxtar vilayət yaradıldı. Zəngəzurun ermənilərə verilməsi ilə Naxçıvan diyarının Azərbaycan SSR-in əsas ərazisindən ayrı salınması və DQMV-nin yaradılması bolşevik imperiyasının süqut edəcəyi təqdirdə Azərbaycan xalqına qarşı ərazi iddiaları irəli sürmək üçün saxta tarixi və hüquqi əsas yaradırdı.

1600 illik fasilədən sonra – ABŞ, Fransa, İngiltərə və sovet Rusiyasının yardımı ilə qədim Şimali Azərbaycan torpaqlarında oyun-

caq «dövlət yaradan» ermənilər sovet hakimiyyəti illərində müxtəlif bəhanə və səbəblər axtararaq, Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin və Naxçıvan MR-in ərazilərinin də Ermənistana verilməsini dəfələrlə tələb etmişdilər. Onlar 1945-ci ilin noyabrında özlərinin köhnə himayədarı Stalinə Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisinin Azərbaycan SSR-dən alınıb Ermənistan SSR-ə verilməsi ilə bağlı müraciət edirlər. Məktubu imzalayan Ermənistan KP MK-nın birinci katibi Arutuyunov DQMV əhalisinin əksəriyyətinin ermənilərdən ibarət olmasını, guya tarixi, iqtisadi və mədəni inkişaf baxımından Ermənistanla daha sıx bağlı olduğunu iddia edərək, bu məsələnin ermənilərin xeyrinə həllini xahiş edirdi. Şübhəsiz ki, Arutuyunovun bu məsələ ilə bağlı mərkəzi hökumətin başçısına müraciət etməsində Mikoyan, Baqramyan və digər millətçi erməni «liderləri»nin rolu az deyildi.

Bu müraciətdən xəbər tutan Azərbaycan KP MK-nin birinci katibi Mir Cəfər Bağırov ermənilərin cinayətkar mahiyyət daşıyan təşəbbüslərinə kəskin reaksiya verərək, Azərbaycan alimləri Ə.Əlizadə, İ.Əliyev, M.Şərifli, S.Qazıyev, İ.Cəfərzadə və Q.Mehdiyev tərəfindən hazırlanmış elmi arayışa istinad edərək təkcə Dağlıq Qarabağın deyil, RSFSR-in Dağıstan Muxtar Respublikasının Dərbənd rayonunun, Gürcüstan SSR-in tərkibində olan Borçalı mahalının, 1920–1929-cu illərdə Ermənistan SSR-ə verilmiş 19,8 km² tarixi Azərbaycan torpaqlarının Azərbaycan SSR-ə qaytarıldığı təqdirdə DQMV-nin (Şuşa rayonu istina olmaqla) Ermənistana verilməsinə etiraz etməyəcəyini İ.V.Stalinə və G.M.Malenkova bildirir. Azərbaycan SSR rəhbərinin haqlı tələbi qarşısında çıxılmaz vəziyyətə düşən İ.V.Stalin M.C.Bağırovun təqdim etdiyi sənədin üstündə «... köhnə bolşeviklərin arxivinə verilsin və bu məsələyə bir də heç vaxt qayıdılmasın» sözlərini yazaraq, ermənilərin tələbinə rədd cavabı verir.

Öz çirkin niyyətlərinin baş tutmayacağını görən ermənilər 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti tərəfindən «Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» və 1948-ci il martın 10-da «Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında» – yerli azərbaycanlı əhaliyə qarşı deportasiya metodlarının tətbiqi mahiyyəti daşıyan qərarların qəbul edilməsinə nail oldular. Bu qeyri-insani qərarlara əsasən, Ermənistan SSR-in 22 rayonundan 100 000 nəfər azərbaycanlı öz tarixi-etnik torpaqlarından deportasiya olunmalı idi. 1948–1956-cı illərdə Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən BMT-nin İnsan Hüquqları Komissiyasının 1948-ci il 9 dekabr tarixli konvensiyasının II maddəsinə uyğun olaraq, əslində, soyqırımı və etnik təmizləmə kimi qiymətləndirilməlidir.

Ermənilərin bütün fəaliyyətləri həmişə, əsasən bütün ermənilərin katalikosu tərəfindən idarə olunur və istiqamətləndirilir. Bu, sovet dövründə də belə olmuşdu. Ermənilərə həmişə öz dost münasibəti ilə seçilən İ.V.Stalin 1945-ci il aprelin 19-da SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə Eçmiədzin kilsəsinə çox böyük imtiyazlar verdi. İ.V.Stalin azərbaycanlılara münasibətini hələ 1923-cü il aprelin 17–23-də partiyanın XII qurultayında çıxışında bildirmişdi: «... Orada tatarlar (azərbaycanlılar – **C.B.**) üstün idilər və onlar bütün ermənləri məhv etmişlər. Bu, elə Gürcüstan və Ermənistanın azad edilməsi ərəfəsində baş vermişdi». Həmin böhtan konkret olaraq yuxarıda adıçəkilən iki qərarın qəbulu və icrasında öz təsdiqini tapmışdı.

1958-ci ildə I Vazgen (Palçyan) A.Mikoyanın himayəsi ilə Bakıya gələrək, Azərbaycan SSR rəhbərliyindən Bakı şəhərində yaşayan ermənilər üçün ruhani gimnaziyasının açılmasını, hər səhər, günorta və axşam şəhərin mərkəzindəki erməni kilsəsinin zənglərinin çalınmasını, DQMV-nin Ermənistana birləşdirilməsinə razılıq verilməsini tələb etmişdi. Təbii ki, o, rədd cavabı alır və ondan respublikanı tərk etməsi tələb olunur. Yeri gəlmişkən deyək ki, Azərbaycan SSR-in rəhbərləri İ.Mustafayev, M.İbrahimov və S.Rəhimovun millətçilikdə təqsirləndirilərək vəzifələrindən azad olunmalarında bu hadisə az rol oynamamışdı.

Öz çirkin niyyətlərindən əl çəkməyən ermənilər İ.V.Stalinin ölümündən sonra hakimiyyətə gələn N.S.Xruşşovu ələ almaq üçün Mikoyandan, marşal Baqramyandan və akademik Arzumanyandan istifadə etməyə çalışırdılar. 1961-ci ildə Ermənistan SSR-ə gələn N.S.Xruşşov Qarabağ məsələsinin onların xeyrinə həll edilməsini tələb edən erməni «ziyalılarına» «... Bu nəyə lazımdır. Bu, SSRİ dövlətidir. Digər tərəfdən, siz onlardan (Azərbaycan SSR-dən – **C.B.**) neft alırsınız. Sizin üçün bu

azdırmı?» – deyə, çox sərt cavab vermişdi. Lakin ermənilərin həyasızlığı səngimək bilmirdi. Belə ki, 1961-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Sədri seçilən A.Mikoyan 1964-cü ildə N.S.Xruşşova DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi təklifi ilə müraciət etmişdi. Ancaq Xruşşov buna «mən gün ərzində DQMV-dən ermənilərin Ermənistana köçürülməsi üçün 12 000 hərbi yük maşını verməyə hazıram» – deyə, kəskin reaksiya vermişdi. Lakin bütün bunlara baxmayaraq, əslində, N.S.Xruşşov oğlu Sergey Xruşşovun yazdığı kimi, «Krımı Ukraynaya verdiyi kimi, DQMV-ni də Ermənistan SSR-ə verə bilərdi, çünki onun özü, A.İ.Mikoyan başda olmaqla, daha çox ermənilərin təsiri altında idi».

Ermənistan SSR rəhbərliyi mərkəzi hökumətin rədd cavablarına baxmayaraq, yenə təkidlə Dağlıq Qarabağ MV-nin Ermənistan SSR-ə birləşdirilməsi ilə bağlı Sov.İKP MK Siyasi Bürosu, SSRİ Ali Soveti Rəyasət Heyəti və SSRİ Nazirlər Sovetinə müxtəlif bəhanələr altında müraciətlər edirdi. Növbəti dəfə belə bir müraciət 1972-ci ildə Sov.İKP MK katibi M.Suslova ünvanlanmışdı. Məzuniyyətdə olduğu üçün M.Suslovu əvəz edən A.Kirilenko məsələnin Azərbaycan və Ermənistan rəhbərlərinin birgə müzakirə etməsini təklif edir. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Ermənistan KP MK-nın birinci katibi Koçinyanla görüşür və məsələnin onlar tərəfindən düzgün qoyulmaması ilə yanaşı, bunun müzakirəsi üçün nə tarixi, nə də hüquqi əsasın olduğunu bildirmişdi. Bundan sonra Heydər Əliyev Soçi şəhərində dincələn M.Suslovla görüşərək, erməni tərəfini öz müraciətini geri götürməyə məcbur etmişdi. Lakin Ermənistan SSR-in yeni rəhbəri K.Dəmirçyan Dağlıq Qarabağ məsələsini yenidən gündəmə gətirir və məsələ ilə bağlı Sov. İKP MK katibi B.Ponomaryova müraciət edir. B.Ponomaryovun tapşırığı ilə 1977-ci il noyabrın 23-də SSRİ Nazirlər Sovetinin Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR tərkibindən çıxarılaraq Ermənistan SSR-ə verilməsi haqqında qərar layihəsi hazırlayır. Məsələdən xəbər tutan Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev yenidən baş qaldırmış bu çirkin erməni niyyətinin baş tutmaması üçün bir sıra mühüm tədbirlər görür. O, professor İqrar Əliyevə Şimali Azərbaycanın Qarabağ bölgəsinin ən qədim zamanlardan indiyə qədərki tarixini əks etdirən və bu bölgənin qədim Azərbaycan torpağının bir hissəsi olmasını sübut edən elmi arayış hazırlamağı tapşırır. Elmi arayış hazır olduqdan sonra Azər-

baycan KP MK bürosunda Heydər Əliyevin sədrliyi ilə müzakirə edilərək qəbul olunur və Moskvaya Sov.İKP MK Baş katibi L.Brejnevə göndərilir. Xatırladaq ki, arayışın müzakirəsində DQMV partiya komitəsinin katibi B.Gevorkov da iştirak etmişdi. Azərbaycan SSR-in rəhbəri Heydər Əliyevin gördüyü tədbirlər öz müsbət nəticəsini verir və ermənilərin müraciəti növbəti dəfə rədd edilir. Azərbaycan xalqının milli maraqlarını rəhbər tutan Heydər Əliyev mərkəzi hökumətin təzyiqi altında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1969-cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarının ərazilərində Azərbaycan SSR-ə məxsus 2000 hektardan çox torpağının Ermənistan SSR-ə verilməsi haqqında qərarın hələ 1969-cu ildə təsdiqinin ləğv edilməsinə nail oldu.

Heydər Əliyev erməni millətçilərinin çirkin niyyətlərini yaxşı dərk edir, sərhəd rayonlarının iqtisadi və sosial-mədəni inkişafına böyük əhəmiyyət verir və qayğı göstərirdi. 1970-ci illərdə ermənilərin təhriki ilə İttifaq hökuməti Kəlbəcər rayonunun perspektivsizliyi, buradan əhalinin köçürülməsi, torpaqların isə yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırmışdı. Məsələnin antiazərbaycan mahiyyətini duyan Heydər Əliyev 1977-ci ildə Kəlbəcər rayonunun potensial imkanlarını genişləndirmək və onun inkişafını təmin etmək məqsədilə əsaslı planın hazırlanaraq həyata keçirilməsinə nail oldu.

1987-ci ildə Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən getməsi imperiyanın dövlət strukturlarında kök salmış erməni millətçilərinin Azərbaycan xalqına qarşı bütün sahələrdə düşmənçilik fəaliyyətlərini genişləndirmələri üçün fürsət yaratdı. 1988–1991-ci illər ərzində Azərbaycan SSR-ə imperiya büdcəsindən ayrılan vəsaitlər kəskin surətdə azaldıldı. Əsas fondların istifadəyə verilməsi 1990-cı ildə 1985-ci ilə nisbətən 55 faizi aşağı düşdü. 1987-ci ilin noyabrından erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarının respublika rəhbərliyi tərəfindən dəf edilməməsi ölkə daxilində sosial-iqtisadi vəziyyətin ağırlaşması ilə yanaşı, siyasi və mənəvi-psixoloji mühitin də sürətlə gərginləşməsinə səbəb oldu.

Uzun illər münasib fürsət gözləyən erməni millətçiləri yaranmış vəziyyətdən məharətlə istifadə edərək, bu dəfə də Azərbaycan tor-

paqlarını ələ keçirmək məqsədilə fəaliyyətə başladılar. Azərbaycan Respublikasının imperiyaya sədaqətlə xidmət edən rəhbərliyi isə yaranmış yeni beynəlxalq şəraitdə qüvvələri düzgün qiymətləndirə, xalqı vahid ümummilli məqsəd ətrafında mübarizəyə qaldıra bilmədi. Onun bağışlanılmaz passivliyi və laqeydliyi nəticəsində Azərbaycan Respublikasının suveren hüquqları tapdalandı. Ölkəmizin ərazisində milli münaqişə ocağı alovlandırıldı. 1988-ci ilin fevralından SSRİ hökumətinin birbaşa havadarlığı, Ermənistan SSR rəhbərliyinin və Erməni Qriqorian kilsəsinin müdaxiləsi ilə Dağlıq Qarabağ MV-nin rəhbərliyi təkcə SSRİ Konstitusiyasını deyil, həm də Azərbaycan SSR Konstitusiyasını pozaraq, vilayətin Azərbaycan SSR-in tərkibindən çıxaraq Ermənistan SSR-ə birləşməsi haqqında qeyri-qanuni qərar qəbul etdi.

Hadisələrin belə gedişi Azərbaycan Respublikasında milli azadlıq hərəkatının başlanmasına güclü təkan verdi. Ermənilərin təcavüzkar niyyətlərinə qarşı ilk etiraz mitinqi 1988-ci il fevralın 19-da Bakı şəhərində keçirildi. Martın 16-da Azərbaycan ziyalılarının, elm və mədəniyyət xadimlərinin iştirakı ilə Elmlər Akademiyasında etiraz mitinqi təşkil olundu. Mitinq iştirakçıları Moskvadan və Azərbaycan SSR rəhbərliyindən erməni millətçilərinin azğın hərəkətlərinə qəti cavab verilməsini tələb edirdilər. Respublikanın başqa şəhərlərində də mitinqlər keçirildi.

1988-ci il mayın 21-də Moskva Ə.X.Vəzirovu Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) birinci katibi vəzifəsinə təyin etdi. Ə.X.Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasəti ilə ermənilərı öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi.

Mərkəzi hökumətin Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi A.Volskinin ermənipərəst siyasəti, nadir Topxana meşəsində sənaye obyekti tikintisinə başlanması xəbəri bütün xalqı hiddətləndirdi. Noyabrın 15-də Bakı Dövlət Universiteti qarşısında, səhəri gün Elmlər Akademiyasında mitinqlər keçirildi. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasət yeridən qurumun ləğv olunması, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi, Azərbaycan SSR-dən olan deputatların SSRİ Ali Sovetinin sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Bu tələblər Azərbaycan SSR rəhbərliyini qane edirdi,

lakin hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə mitinqçilər tələbləri yerinə yetirilməyincə getməyəcəklərini bildirdilər.

Moskvaya təzyiq göstərib respublikada hakimiyyəti ələ keçirmək istəyən qüvvələr bundan istifadə etməyə çalışırdılar. Bakının bəzi rayonlarında vəziyyət qəsdən gərginləşdirilir, xuliqanlıq hərəkətləri törədilirdi. Naxçıvan MSSR-də dövlət orqanlarının binalarına hücum edilmiş, noyabrın 22-də Gəncədə əhali ilə ordu arasında qanlı toqquşma baş vermiş, 160 nəfər yaralanmış, üç əsgər və bir uşaq həlak olmuşdu. Noyabrın 24-də Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saat tətbiq edilmişdi. Bakıda Hökumət evinin qarşısındakı meydandakı mitinqin iştirakçıları Azərbaycan SSR-in oraqçəkicli bayrağı ilə gəlmişdilərsə, bir neçə gün sonra – noyabrın 17-də burada ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Hər gün yüz minlərlə insan tankların, əsgərlərin arasından keçib meydana axışırdı. Çox vaxt mitinqçilərin sayı milyon nəfəri ötürdü.

Xalq artıq mitinqlə mümkün olan nəticəni əldə etmişdi. Ölkə rəhbərliyi mövcud problemə Azərbaycan xalqının münasibətini bilmişdi. Lakin erməni millətçiliyinə, separatizminə qarşı heç bir tədbir görülmürdü. Xalq hərəkatının birinci – kortəbii mərhələsinin zirvəsi olan Meydan hərəkatı göstərdi ki, mitinq və nümayişlərlə mövcud problemi həll etmək mümkün deyil, demokratikləşmə yolu ilə getmək, mərkəzi hökumətin təyin etdiyi rəhbərlərin əvəzinə, demokratik yolla xalqın nümayəndələrini seçmək, xalq birliyini təmin etmək, respublikanın suveren hüquqlarının qorunmasına nail olmaq lazımdır. Xalqın mənafeyini yalnız onun etimad etdiyi lider müdafiə edə bilər. Xalq isə Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçinin Heydər Əliyev olduğunu dərk edərək, onun yenidən respublikaya rəhbər təyin olunmasını istəyirdi. Minlərlə adam mitinq və nümayişlərə Heydər Əliyevin portretləri ilə çıxırdı. Yevlax şəhərində vətənpərvər gənclərin təşkil etdiyi mitinqdə 20 minədək adam iştirak etmişdi. Onlar Heydər Əliyevin yenidən hakimiyyətə qaytarılmasını tələb edirdilər. Mitinqin təşkilatçıları həbs olunmuş, izdiham ordu hissələrinin köməyi ilə dağıdılmışdı.

1988-ci il noyabrın 23-dən dekabrın 1-dək Ermənistan SSR-də yerli azərbaycanlı əhaliyə qarşı ağır cinayət törədildi. Son araşdırmalara görə, ermənilərin törətdikləri cinayətlər nəticəsində Ermənistan

SSR ərazisindən 250 min nəfər azərbaycanlı deportasiya edilmiş, 740 nəfər öldürülmüş və 1154 nəfər yaralanmışdı. Deportasiya olunan soydaşlarımızın Azərbaycan SSR-ə pənah gətirməsi respublikada ictimai-siyasi gərginliyi daha da artırdı. Bütün bunlarla yanaşı, respublikada iqtisadi çətinliklər, cinayətkarlıq gündən-günə artırdı.

1989-cu il sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiyada DQMV-də Xüsusi İdarəetmə Komitəsinin ləğvi, Azərbaycan SSR Konstitusiyasına respublikanın sərhədlərinə yalnız ümumxalq referendumu yolu ilə dəyişiklik etməyin mümkünlüyünü nəzərdə tutan əlavələr edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul olundu.

Suverenlik haqqında qanun layihəsinin ümumxalq müzakirəsi keçirildi. Qanuna respublikada Azərbaycan SSR qanunlarının İttifaq qanunlarından üstünlüyü və Azərbaycanın SSRİ tərkibindən çıxmaq reqlamenti haqqında mühüm bəndlər daxil edildi. Ali Sovetin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyası «Azərbaycan SSR-in suverenliyi haqqında» Konstitusiya qanunu qəbul etdi. Bu, Azərbaycan xalqının müstəqillik istiqamətində ən uğurlu addımı idi.

Bütün yaradılan məhdudiyyətlərə, Moskvada təcrid olunmuş vəziyyətdə yaşamasına baxmayaraq, xalq içərisində Heydər Əliyevin nüfuzu daha böyük idi. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri V.Ə.Hüseynovun Moskvaya göndərdiyi 1990-cı il 3 yanvar tarixli məlumatında deyilirdi: «Əvvəlki kimi... Heydər Əliyevin mövqeləri güclüdür. Əhali indiyədək Heydər Əliyevin adını ehtiramla çəkir... Heydər Əliyevin Ordubad rayonundan Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyinin irəli sürülməsi, əlverişli şərait yarandığı halda isə onu Ali Sovet Rəyasət Heyətinin sədri vəzifəsinə seçilməsi planlaşdırılır».

1990-cı il yanvarın 20-də sovet rəhbərliyinin göstərişi ilə Azərbaycan xalqına qarşı ağır cinayət törədildi. Xalq başsız qalmışdı, vahimə içində idi. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, burada təşkil olunmuş 6 minədək adamın iştirak etdiyi yığıncaqda çıxış etdi, bu ağır günlərdə heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və müsahibələrində 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqa

qarşı qoşun yeridilməsini hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Heydər Əliyev bəyan etdi ki, «Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki hala çatmaz, təraflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı». Ölkə rəhbərliyini ciddi tənqid edən Heydər Əliyev Mərkəzə yarınan respublika rəhbərlərinin də yarıtmaz fəaliyyətini ifşa edərək dedi ki, Vəzirov «bu yüksək vəzifədə olduğu müddətdə... Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır». Heydər Əliyev heç nədən çəkinmədən imperiya rəhbərlərini «qatillər» adlandırırdı.

Bütün maneələrə baxmayaraq, Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni respublikada və dünyada geniş yayıldı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında onu bu ağır gündə «ağıllı, kamallı olmağa, həmrəyliyə və birliyə» çağırdı. Təklənən, heç nəyə əli çatmayan Azərbaycan xalqının qəlbində ümid çırağı yandı. Heydər Əliyev kimi bacarıqlı, nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini görən xalq müstəqillik yolunda daha da inamla irəliləməyə başladı.

Bakı şəhərində fövqəladə vəziyyət olmasına baxmayaraq, xalq yanvarın 22-də şəhidləri ilə vidalaşdı. Respublikada üç gün matəm elan olunmuşdu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində milyona qədər insan iştirak edirdi. Bu, azadlıq, haqq-ədalət, demokratiya yolunda canlarından keçmiş şəhidlərə ehtiramın, eyni zamanda Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Küçələrdə, AKP MK binasının divarlarında «Qorbaçov cəlladdır!», «Rədd olsun Sov.İKP!», «İşğalçılar, rədd olub gedin!» və s. şüarlar yazılmışdı. Partiya biletlərindən tonqallar qalanmışdı.

İmperiyanın şovinist rəhbərliyi qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi, özünün dayağı olan Kommunist partiyasını, sovet hakimiyyətini xalqın gözündən daha da saldı, bəzilərində «yenidənqurma»ya olan ümidi puç etdi və təsdiqlədi ki, imperiya üçün respublikanın suverenliyi, xalqların ləyaqəti heç nədir.

1990-cı ilin Qanlı Yanvarı Azərbaycan üçün təkcə böyük faciə deyil, ləyaqətini qorumaq üçün mübarizə aparmağa, bu yolda qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

Azərbaycan xalqının qabaqcıl qüvvələri o vaxta qədər respublikanın suverenliyini SSRİ daxilində siyasi və iqtisadi münasibətlərin təkmilləşdirilməsi kimi qeyri-real imkanlarda axtarırdısa, Qanlı Yanvar faciəsi sübut etdi ki, suverenliyin yeganə yolu imperiyanın dağılmasında, müstəqilliyin bərqərarlaşmasındadır. Heydər Əliyevin «bizim ümumittifaqdan nicatımız yoxdur!» sözləri xalqın ümumi rəyinin ifadəsi oldu. Xalq hərəkatı bu şüar altında keyfiyyətcə yeni mərhələyə qədəm qoydu.

Azərbaycan xalqının təkidi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda Xüsusi İdarəetmə Komitəsini ləğv etdikdən sonra vilayətin idarəsi xüsusi komissiyanın nəzarəti altında Azərbaycan SSR-in Təşkilat Komitəsinə verilmişdi. Lakin mərkəzi hökumət tərəfindən yenə də qəti tədbirlər görülməməsi ermənilər yeni təhrikçi hərəkətlərə şirniklendirirdi. Ermənistan SSR Ali Soveti isə 1989-cu il dekabrın 1-də Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirmək haqqında qeyri-qanuni qərar qəbul etdi. Xankəndidə Ermənistanın dövlət bayrağı qaldırıldı. İdarəçilik işləri, müəssisələr bu respublikanın nazirlik və baş idarələrinə tabe edildi 1990-cı il yanvarın 9-da DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planı Ermənistan SSR-in dövlət planına daxil olundu. 1990-cı ildə Azərbaycan SSR ərazisində – DQMV-də Ermənistan SSR xalq deputatları seçkiləri üzrə qeyri-qanuni seçki dairələri təşkil edildi və «deputatlar» seçildi. Yanvarın 15-də SSRİ Ali Soveti DQMV-də və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi. Respublika Təşkilat Komitəsi, Xüsusi Təyinatlı Milis Dəstələri (OMON), hərbi komendatura vilayətdəki azərbaycanlılar yaşayan kəndlərin blokadasını açmağa, qanunsuz silahlı dəstələri ləğv etməyə başladı. Ermənistan SSR-dən vilayətə silah daşınmasının qarşısını almaq üçün tədbirlər görüldü. 1990-cı ilin yanvar–iyun aylarında vilayətin 43 yaşayış məntəqəsində 67 xüsusi əməliyyat aparılaraq quldurlardan silahların bir hissəsi alındı.

Həmin vaxt Ermənistan SSR ərazisindən Azərbaycan SSR-in sərhəd bölgələrinə hücumlar genişlənməyə başladı. Ermənistan SSR-in ərazisində Mərkəzi dövlətin himayəsi ilə 6 böyük qanunsuz silahlı qruplaşma təşkil olunmuşdu. Quldurlar hərbi hissələrə hücum edir, silah və sursatı ələ

keçirirdilər. İrimiqyaslı hərbi əməliyyatlar keçirməyə qabil olan bu qruplaşmalarda – erməni milli ordusunda, erməni ümummilli hərəkatının hərbi təşkilatında, «David Sasuni», «Vretaruner» (qisasçılar), «Haydat» (erməni məhkəməsi) və silahlı dəstələrdə 10 minə qədər «döyüşçü» vardı.

Ermənistan SSR Ali Soveti «SSRİ qanunvericiliyində nəzərdə tutulmamış silahlı dəstələrin yaradılmasını qadağan etmək və silah qanunsuz saxlanıldığı halda onu geri almaq haqqında» SSRİ Prezidentinin 1990-cı il 25 iyul tarixli fərmanının Ermənistan SSR və DQMV-də qüvvədə olmadığını elan etmişdi.

Erməni hərbi birləşmələri tez-tez Azərbaycan ərazisinə basqın edirdilər. Naxçıvan MSSR Ermənistan SSR tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan SSR dəmir yolunun Ermənistan SSR-in Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular.

Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistan SSR-lə sərhəd boyu (975 km) fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi, onu müdafiə etmək üçün Xüsusi Təyinatlı Milis Dəstələri yaradıldı. 1991-ci ilin əvvəllərindən DQMV-dəki hava limanına nəzarət Azərbaycan SSR milisinə verildi.

Sovet imperiyasının silahlı qüvvələri SSRİ-nin saxlanılmasına münasibəti haqqında ümumittifaq referendumunda iştirak etməyən Ermənistan SSR-i «cəzalandırmaq», habelə Azərbaycan SSR-də kommunist rejimini dəstəkləmək üçün erməni quldurlarına köməyi azaltdı. 1991-ci il mayın əvvəllərində Çaykənd və Martunaşendə pasport rejimi yoxlanıldı və hərbiləşmiş erməni birləşmələri tərk-silah edildi. İyulun əvvəllərində Goranboy rayonunun Azadkənd, Sarısu, Manaşid, Erkeç və Buzluq kəndlərində yerləşən düşmənin dayaq məntəqələri dağıdıldı.

Lakin erməni quldurları yenə sovet qoşunlarının köməyi ilə Azərbaycan SSR-n sərhəd kəndlərinə basqınları davam etdirirdilər.

Azərbaycan SSR-də vəziyyəti gərginləşdirmək üçün terrordan da çəkinmirdilər. 1989-cu il sentyabrın 16-da onlar Tbilisi–Bakı sərnişin avtobusunu Yevlax şəhəri yaxınlığında partlatdılar. 1990-cı il avqustun 10-da Xanlar rayonunda Tbilisi–Ağdam sərnişin avtobusunda yeni terror aktı törətdilər. Partlayış nəticəsində 17 nəfər həlak oldu və 15 nəfər yaralandı. 1991-ci il iyulun 31-də erməni terrorçuları Mahaçqala yaxınlığında Moskva-Bakı sərnişin qatarında böyük partlayış törətdilər.

Nəticədə 15 sərnişin həlak oldu, 16 nəfər ağır yaralandı. Bundan əvvəl, mayın 30-da Kolonyurd stansiyası yaxınlığında sərnişin qatarının partladılması nəticəsində 12 nəfər həlak oldu. Rostov şəhəri yaxınlığında Simferepol–Bakı qatarını da partlatmağa cəhd edilmişdi.

İmperiya milli münaqişəni daha da dərinləşdirirdi. Lakin bu yolla imperiyanın xalqlar üzərində ağalığını saxlaması artıq mümkün deyildi. Onun süqutu gündən-günə yaxınlaşırdı. İmperiyanın pəncəsindən xilas olmağa çalışan xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanatın, xüsusilə də oktyabrın 18-də bu barədə Konstitusiya aktının qəbulu ilə Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi.

1991-ci il oktyabrın 3-də A.Mütəllibovun və Ə.Əliyevin (Elçibəy) görüşündə Milli Şura yaradılması haqqında razılıq əldə olundu. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev bu razılaşmanı kəskin tənqid edərək, AXC-nin ona Milli Şuraya daxil olmaq təklifini rədd etdi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında «Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktı» yekdilliklə qəbul edildi və Azərbaycan xalqının tarixində yeni mərhələ – müstəqil, suveren milli dövlət quruculuğu dövrü başlandı. Konstitusiya Aktında deyilirdi ki, Azərbaycan Respublikası müstəqil, unitar və dünyəvi dövlətdir. Keçmiş SSRİ-nin ölkə ərazisindəki bütün daşınan və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur. Siyasi, iqtisadi, mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz, inkaredilməz hüququdur.

Ermənistandan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə göndərilən silahlı quldurların Xocavənd rayonunda törətdikləri vəhşilikləri araşdırmaq üçün oraya yollanan dövlət xadimlərinin mindiyi vertolyot 1991-ci ilin noyabrında Qarakənd üzərində vuruldu və oradakıların hamısı həlak oldu. Bu faciə respublikada siyasi vəziyyəti daha da kəskinləşdirdi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları Rusiya Müdafiə Nazirliyinin tabeliyində olan və Xankəndidə yerləşən 366-cı motoatıcı alayın bilavasitə iştirakı ilə Xocalı şəhərinə hücum edərək, soyqırımı cinayəti törətdilər. Xocalı şəhərinin məhv edilməsi barədə qərar fevralın 19-da Moskvada Rusiya

Prezidenti B.Yeltsinin, Ermənistan prezidenti L.Ter-Petrosyanın, R.Koçaryanın, S.Sərkisyanın, S.Ohanyanın, Rusiyanın müdafiə naziri P.Qraçovun, daxili işlər naziri Yerinin və Baş qərargah rəisi Şanovkinovun iştirakı ilə keçirilən məxfi müşavirələrdə qəbul edilmişdi. Erməni faşistləri Xocalıda 366-cı alayın əsgərləri ilə birlikdə 613 nəfər azərbaycanlını, o cümlədən 106 qadını, 83 azyaşlı uşağı, 70 nəfər qocanı qətlə yetirdilər, 1000 nəfərdən artıq adam şikəst oldu. 1275 nəfər əsir alındı, 8 ailə bütünlüklə məhv edildi.

Xocalı faciəsindən sonra xalqının təkidli tələbi ilə A.Mütəllibov martın 6-da istefa verdi. Respublika Ali Sovetinin Sədri seçilən Y.Məmmədov H. Həsənova Nazirlər Kabinetinin yeni tərkibini təşkil etməyi tapşırdı. Lakin ölkə daxilində ictimai-siyasi sabitliyi bərpa etmək cəhdi iflasa uğradı və əsl hərc-mərclik dövrü başlandı. A.Mütəllibovun istefasından sonra Azərbaycanda nüfuzunun zəifləyəcəyindən təşvişə düşən Rusiya Federasiyası respublikada vəziyyətin gərginləşdirilməsində maraqlı idi. Buna görə də müdafiə naziri P.Qraçovun təkidli tələbi ilə R.Qazıyev Azərbaycan Respublikasının Müdafiə Naziri təyin edildi. Ancaq çox keçmədən Azərbaycan Respublikasının siyasi-hərbi rəhbərliyində münaqişə yarandı. Mövcud iqtidar xalqın qüvvələrini birləşdirib erməni-rus təcavüzünə qarşı qəti mübarizə apara bilmədi.

Heydər Əliyevin isə çox mürəkkəb və ağır şəraitdə Naxçıvan MR-ə uğurla rəhbərlik etməsi, əhalini birləşdirib düşmənə sinə gərməsi, diplomatik vasitələrdən məharətlə istifadə etməsi insanlara böyük ümidlər verirdi.

İstefaya getmiş A.Müətllibovun 1992-ci ilin mayın 14-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında ölkə prezidenti vəzifəsinə qaytarılması haqqında qərar qəbul edilməsi ilə, faktik olaraq, ölkədə dövlət çevrilişi baş verdi. Buna etiraz əlaməti olaraq Bakıda AXC-nin qərargahı qarşısında mitinq keçirildi və burada Heydər Əliyev tərəfindən verilən bəyanat bir neçə dəfə səsləndirildi. A.Mütəllibov xalqın təzyiqi altında hakimiyyətdən imtina etdi və Rusiya Federasiyasına məxsus hərbi təyyarədə gizlicə Moskvaya qaçırıldı.

Bakıda hakimiyyət uğrunda gedən mübarizədən istifadə edən ermənilər 1992-ci il mayın 18-də Laçın rayonunu işğal etdilər və beləliklə, Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi ilə Ermənistan arasında dəhliz yaradıldı. Mayın 8-də Şuşa şəhərinin, sonra isə Laçın

rayonunun işğalı Azərbaycan xalqı üçün ağır itki olmaqla bərabər, həm də mənəvi-psixoloji zərbə idi.

Azərbaycan xalqı bu dövrdə Naxçıvan MR-dəki hadisələri, Heydər Əliyevin əhalini səfərlər etməsini, düşünülmüş diplomatik tədbirlər görməklə düşmənin güclü hücumlarının qarşısını uğurla almasını diqqətlə izləyirdi. 1992-ci il mayın əvvəllərində Naxçıvan MR-in Ermənistanla sərhədlərində gərginlik yenidən artmışdı. Ermənilər mayın 18-də Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. kəndlərə güclü hücumlara başladı. Sədərək qəsəbəsinə yazın ərazilərdə qanlı döyüşlər iki aya yaxın davam etdi. Ermənistan tərəfdən edilən hərbi təcavüz nəticəsində xeyli kənd dağıdılmış, yüzlərlə insan həlak olmuşdu. Naxçıvan MR-nin sədri Heydər Əliyev Rusiya Federasiyasının təhriki ilə Ermənistanın başladığı hərbi təcavüzün qarşısını almaq üçün bütün diplomatik vasitələrdən istifadə etdi. Türkiyə Cümhuriyyətinin 1992-ci il mayın 18-də Ermənistanın hərbi təcavüzünü pisləyən bəyanat qəbul etməsi və bu bəyanata 57 ölkənin qoşulması, NATO-nun məsələ ilə bağlı xüsusi bəyanat verməsi Ermənistanı və onun Rusiyadakı himayədarlarını geri çəkilməyə məcbur etdi. Ermənistanın təklifi ilə danışıqlar başlandı. Bu, Ümummilli lider Heydər Əliyevin dövlət xadimi və dahi şəxsiyyət kimi necə geniş imkanlara malik olduğunu bir daha təsdiqlədi. Digər tərəfdən, bu, həm də Heydər Əliyevin dünyada nüfuzunun nə qədər yüksək olduğunu göstərdi.

Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə apardığı danışıqlar nəticəsində diyara 100 000 dollar kreditin ayrılmasına, İqdır – Naxçıvan elektrik xəttinin çəkilməsinə və «Türksat» rabitə şirkəti vasitəsilə Naxçıvanla ölkənin paytaxtı Bakı arasında telefon əlaqəsinin yaradılmasına nail oldu. 1992-ci ilin mayında Türkiyə Cümhuriyyəti ilə Naxçıvan MR-i birləşdirən «Ümid» körpüsü açıldı.

Heydər Əliyev 1992-ci il avqustun 22–26-da İran İslam Respublikasının dəvəti ilə Tehrana səfər etdi və aparılan danışıqlar nəticəsində qonşu ölkə ilə Naxçıvan MR arasında sıx iqtisadi əlaqələr yaradıldı. Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti siyasətində muxtar respublikanın nəqliyyat, enerji blokadası yarıldı və diyarın əhalisi ağır fəlakətlərdən xilas oldu.

Lakin Prezident Ə.Əliyevin (Elçibəy) birbaşa göstərişi ilə AXC-Müsavat iqtidarı Azərbaycan Respublikasında siyasi hakimiyyətə qayıtmaq iddiasında olmadığını dəfələrlə bəyan etmiş Heydər Əliyevin məsləhətlərinə əməl etmək əvəzinə, onu separatçılıqda və hətta dövlət əleyhinə fəaliyyətdə günahlandırır, Naxçıvan MR-də çevriliş etməyə cəhd göstərirdi. 1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsinə məxsus silahlı dəstələr Naxçıvan şəhərində bir sıra dövlət idarələrini və mühüm obyektləri zəbt edib hakimiyyət əleyhinə bəyanat verdilər. Lakin Naxçıvan MR əhalisinin böyük əksəriyyəti Heydər Əliyevi müdafiə etmək üçün ayağa qalxdı, silahlı dəstələri dövlət idarələrindən qovub çıxardı.

İqtidar Heydər Əliyevi muxtar respublikanın rəhbərliyindən uzaqlaşdırmaq üçün hətta Naxçıvan MR-nin mövcud statusunu ləğv etməyə və ya Ali Məclisin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Lakin Heydər Əliyev diplomatik uzaqgörənliyi sayəsində Naxçıvan MR-in statusunu qoruyub saxladı. Türkiyə Cümhuriyyətinin rəhbərliyi ilə görüşərkən Moskva və Qars müqavilələrinin prinsipial müddəalarının qüvvədə olduğunu bütün dünyaya bəyan etdi. Muxtar Respublika Ali Məclisinin 1992-ci il 25 oktyabr tarixli qərarında deyilirdi ki, «xüsusi coğrafi və geosiyasi şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər hansı bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan MR-in hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır».

Yeni müstəqil dövlət quruculuğu işində, xüsusilə kadr siyasətində buraxılan səhvlər, idarəçilik sistemində tətbiq edilən uğursuz üsullar AXC-Müsavat hakimiyyəti ilə xalq arasında uçurumun getdikcə dərinləşməsinə səbəb oldu. Ölkədə müxalif qüvvələrə qarşı qəddarlıq, hücum, qarayaxma, vəzifəli şəxslərin cəmiyyətdə törətdikləri özbaşınalıqlar, tanınmış insanlara qarşı qərəzli kampaniya adi hal almışdı. Daxili işlər, müdafiə nazirlərinin və digər dövlət nümayəndələrinin əməlləri və bu mühüm güc strukturlarında yaranmış özbaşınalıq Rusiya Federasiyasından hərbi-siyasi yardım alan Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü genişləndirməyə şərait yaratdı. Doğrudur, 1992-ci ilin yay və payızında Azərbaycan ordusu ermənilər üzərində bir sıra qələbələr qazanmış, qoşunlarımız Xankəndinin 10–15 kilometrliyinə çatmışdı.

Lakin 1992-ci ilin sonu – 1993-cü ilin əvvəlində Ermənistan–Azərbaycan cəbhəsində vəziyyət dəyişdi. Erməni faşistləri Rusiya Fede-

rasiyasının hərbi dairələrinin köməyinə arxalanaraq, 1993-cü ildə Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını işğal edərək etnik təmizləmə apardılar. Ermənistanın hərbi təcavüzü nəticəsində 100 000 nəfər yaralanmış, 50 000 şikəst olmuş, 4853 nəfər itkin düşmüşdür. İtkin düşənlərdən 439 nəfəri əsirlikdə öldürülmüş, 783 nəfər isə indiyə qədər əsirlikdədir.

Azərbaycan Respublikası ərazisində 946 yaşayış məntəqəsi, 6 min sənaye, kənd təsərrüfatı və başqa müəssisə, ümumi sahəsi 9 mln.m^2 olan 150 min mənzil, 4366 sosial-mədəni təyinatlı müəssisə, 690 orta məktəb, 850 məktəbəqədər müəssisə, 665 tibb məntəqəsi, 927 kitabxana, 22 muzey, 4 rəsm qalareyası, 6 dövlət teatrı, 9 məscid dağıdılmışdır, Azərbaycan xalqına qarşı edilən hərbi təcavüz nəticəsində vurulan maddi zərərin həcmi 60 milyard ABŞ dollarından çoxdur.

Beləliklə, təkcə XX əsrdə ermənilərin Azərbaycan xalqına qarşı etdikləri deportasiya, etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində respublikamız 1918–1929-cu illərdə 29,8 min km^2 torpağını itirmiş, 1991–1993-cü illərdə ərazimizin 20 faizi işğal edilmiş, son yüz ildə 2,5 mln. nəfər soydaşımız məhv olunmuşdur. Bütün bunlar belə bir fikri irəli sürməyə əsas verir ki, Azərbaycan Respublikası Milli Məclisi Azərbaycan Xalq Cümhuriyyətinin varisi olmaq hüququndan istifadə edərək, 1918-ci il may ayının 29-dan 1991-ci ilə qədər Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq onun əraziləri ilə bağlı qəbul edilmiş bütün qərarları ləğv etmək səlahiyyətinə malikdir. Bu istiqamətdə görüləcək hər bir tədbirin Azərbaycan xalqı tərəfindən müdafiə olunacağına şübhə yoxdur.

2.2. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında milli dövlət quruculuğuna başlanması

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi bu diyarın və bütünlükdə Azərbaycan Respublikasının mürəkkəb, eyni zamanda, ağır dövrünə təsadüf edirdi. Mixail Qorbaçov başda olmaqla, Kreml hakimiyyətinin havadarlığından istifadə edən erməni millətçiləri və şovinist dairələrinin Azərbaycanın əzəli tor-

pağı olan Qarabağ bölgəsini ələ keçirmək məqsədilə açıq təcavüzkar hərəkətləri səngimək bilmirdi. Üzdəniraq «Dağlıq Qarabağ» münaqişəsi Azərbaycan Respublikasında, o cümlədən Ermənistan Respublikası ilə həmsərhəd olan Naxçıvan MR-də ictimai-siyasi vəziyyəti son dərəcə ağırlaşdırmışdı. Erməni silahlı quldur dəstələri SSRİ Müdafiə Nazirliyinin 7-ci ordu hissələrinin köməyi ilə 1990-cı ilin yanvarında Kərki kəndini işğal etmişdi. Muxtar respublikanın Sədərək, Havuş, Kərməçataq, Yuxarı Buzqov, Şada kəndləri və digər sərhədyanı yaşayış məntəqələri aramsız hücumlara məruz qalaraq dağıdılmış, dinc insanlar həlak olmuş, girov götürülmüş, dövlət əmlakına və şəxsi mülkiyyətə xeyli ziyan vurulmuş, əhalinin dinc həyatı tamamilə pozulmuşdu.

Naxçıvan MR ərazilərinə erməni təcavüzü barədə Mərkəzə, Azərbaycan Respublikası rəhbərliyinə dəfələrlə məlumat verilməsinə baxmayaraq, heç bir tədbir görülməmiş, əksinə, qonşu respublika tərəfindən silahlı basqınların sayı daha da artmışdı. Muxtar respublikada yerləşən sovet qoşun hissələri isə Mərkəzin siyasətinə uyğun olaraq, Azərbaycan Respublikası ərazisini ermənilərin silahlı təcavüzündən qorumaq üçün heç bir cəhd göstərmir, əksinə, bir sıra hallarda təcavüzkara hərbi-texniki yardım edirdi. Ermənistan Respublikası ərazisindən keçən və Naxçıvan MR, Azərbaycan Respublikası ilə birləşdirən elektrik, qaz, telekommunikasiya xətlərinin kəsilməsi, avtomobil və dəmir yollarının bağlanması nəticəsində muxtar respublika tam blokadaya alınmış, ümumiyyətlə, xarici aləmdən təcrid vəziyyətinə düşmüşdü. İqtisadi və siyasi böhran içində çapalayan, erməni təcavüzü qarşısında köməksiz qalan Naxçıvan diyarı məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Muxtar respublikada genişlənən milli azadlıq hərəkatından təşvişə düşmüş o zamankı Azərbaycan Respublikası rəhbərliyi də özünün xalqa zidd mövqeyi, Naxçıvan MR-na düşmən münasibətilə erməni dəyirmanına su tökürdü.

Yalnız cahanşümul siyasətçi və strateq Heydər Əliyevin müdrikliyi və qətiyyəti bu müqəddəs vətən torpağını düşmən caynağından xilas etdi, onu Dağlıq Qarabağın və Azərbaycanın digər işğal olunmuş rayonlarının acı aqibətindən qorudu. «Azərbaycanın bu qədim torpağını xilas edən Heydər Əliyev özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı» [285, 9].

Ali Məclisin sədri seçildikdən sonra Heydər Əliyevin Muxtar Respublikanın rəhbəri kimi qəbul etdiyi hər bir qərar məhz bu vəzifənin yerinə yetirilməsinə xidmət edirdi. Onun imzaladığı ilk sənədlərdən biri muxtar respublikanı yaranmış vəziyyətdən xilas etmək və Ermənistan Respublikası ərazisindən edilən silahlı basqınlardan qorumaq, əhalinin təhlükəsizliyini təmin etmək, Naxçıvan Muxtar Respublikasının suverenliyini və ərazi bütövlüyünü təmin etmək məqsədilə [285, 480] Ali Məclisin Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında 1991-ci il sentyabr tarixli qərarı oldu.

Azərbaycan Respublikası üçün taleyüklü olan bu qərarı imzalayarkən Heydər Əliyev hüquqi müstəvi çərçivəsində «Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında» Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsinə, «Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında» qərarına və Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 5 sentyabr tarixli fərmanına istinad etməyi zəruri hesab etmişdi. Belə bir münasibət Ulu öndərimizin müdrikliyi ilə yanaşı, onun hüquq məsələlərinə ləyaqətlə yanaşmasının, dövlətçilik siyasətinə sadiqliyinin daha bir təzahürü idi. Sənədi imzaladığının ertəsi günü Heydər Əliyev Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gələrək, Vətənin azadlığı uğrunda canlarından keçmiş övladların xatirəsini anmış, şəhid ailələrinin üzvləri ilə görüşmüşdü [481, 1991, 10 sentyabr].

1991-ci il sentyabrın 11-nə keçən gecə erməni silahlı quldur dəstələri basqın edərək, Naxçıvan MR-in Şahbuz rayonunun Yuxarı Remeşin kəndindən 1033 baş, Ordubad rayonunun N.Tusi adına kolxozundan 1054 baş qoyun aparmış və həmin rayonun sakinləri olan iki çobanı – Xəlil Xəlilovu və Əşrəf Abbasovu girov götürmüşdülər. Çobanların və sürünün geri qaytarılması ilə bağlı Ermənistan hüquq mühafizə orqanlarına edilən tələblər yerinə yetirilmədiyindən Ordubad rayonunun əhalisi Qafan–İrəvan sərnişin qatarını saxlamışdılar. O vaxt Ermənistan Ali Sovetinin Sədri işləyən Levon Ter-Petrosyan Heydər Əliyevə zəng edərək, saxlanılan sərnişin qatarının geri qaytarılmasına kömək göstərməsini xahiş etmiş, çobanların və qoyun sürüsünün qaytarılması, cinayətin dərhal araşdırılması üçün tədbirlər

görəcəyini vəd etmişdi [285, 481–483]. Lakin Ermənistan rəhbərliyi vədinə əməl etmədi, dörd gün davam edən danışıqlar nəticəsində sürünün yalnız bir hissəsi qaytarıldı. Sonradan məlum oldu ki, ermənilər X.Xəlilov və Ə.Abbasovu vəhşiliklə qətlə yetirmişlər. Buna baxmayaraq, Heydər Əliyevin göstərişi ilə ordubadlılar saxladıqları qatarı buraxmağa razılıq vermiş, sərnişinlərdən heç kimə xətər yetirməmişdilər. Lakin ermənilər yeni azğınlıqlara əl atırdılar. 1991-ci il sentyabrın 19-da quldurlar Babək rayonunun Yuxarı Buzqov kəndindən olan iki çobana hücum etmiş və onlardan birini – Eyvaz Eyvazovu özləri ilə aparmışdılar. Ermənilərin bu hərəkətlərinin arxasında məhz Ermənistanın rəsmi dairələrinin durduğunu yaxşı başa düşən Heydər Əliyev L.Ter-Petrosyana müraciət edərək, Ermənistan ərazisindən edilən quldur hücumlarına təcili son qoyulmasını, girovların geri qaytarılmasını və cinayətkarların Naxçıvan MR-in istintaq orqanlarına verilməsini tələb etmişdi [285, 491–494].

Heydər Əliyevi münaqişədən zərər çəkən hər bir azərbaycanlının taleyi narahat edir, erməni quldurları tərəfindən girov götürülmüş soydaşlarının azad olunması və öz ailələrinə qaytarılması üçün bütün imkan və vasitələrdən istifadə edirdi. Məhz onun səyləri sayəsində Şahbuz rayonunun sakinləri E.Mədətov, E.Hüseynov, Goranboy rayonunun sakinləri U.Bayramov, S.Bədəlov erməni əsirliyindən azad olunmuşdular.

Heydər Əliyevin fəaliyyətinin ən böyük uğurlarından biri muxtar respublika ərazisindəki sovet qoşun hissələrinin dincliklə oradan çıxarılması, onlara məxsus silah-sursatın, texnikanın, əmlakın tamamilə Azərbaycanın ixtiyarına verilməsinə nail olması oldu. Heydər Əliyev bu mürəkkəb işi elə incəliklə həyata keçirmişdi ki, keçmiş MDB məkanında, hətta Şərqi Avropada sovet qoşunlarının çıxarılması zamanı müşahidə olunmuş gərginlik Naxçıvan MR-ə yaranmamışdı.

1991-ci il oktyabrın 26-da Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında Naxçıvan MR ərazisindəki qoşun hissələrinin statusu haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi [285, 509-510].

Heydər Əliyevin nüfuzu qoşun hissələrinin və sərhədçilərin fəaliyyəti ilə bağlı məsələlərin, Azərbaycan Respublikasının mənafeyinin qorunması şərtilə, həllinə imkan yaratdı. Muxtar respub-

likadakı sərhəd məntəqələrinin 1990-cı ilin sonunda müəmmalı şəkildə Ermənistan Respublikası ərazisindəki sərhəd dəstələrinə tabe etdirilməsi barədə qərar məhz onun qətiyyətli tələblərindən sonra ləğv olundu və onlar yenidən Naxçıvan MRdəki 41-ci sərhəd dəstəsinin tabeliyinə qaytarıldı.

Heydər Əliyev mütəmadi olaraq komandirlərlə görüşür, onlardan hərbi hissələrin yerləşməsi, sayı, təyinatı və s. məsələlər haqqında yerli hakimiyyət orqanlarını müntəzəm məlumatlandırmağı tələb edirdi.

Naxçıvan MR Ali Məclisinin 1991-ci il 26 oktyabr tarixli qərarı böyük əks-səda doğurmuş, bununla əlaqədar Cənubi Qafqaz Hərbi Dairəsindən, Sərhəd Qoşunları Qərargahından yüksək rütbəli hərbçilər muxtar respublikaya gəlmişdilər. Heydər Əliyev MR rəhbərliyinin hərbi qüvvələrlə bağlı prinsipial mövqeyini onlara da bildirmişdi.

1991-ci il dekabrın sonlarında geosiyasi proseslərin gedişi muxtar respublikadakı hərbi hissələrin statusu ilə bağlı məsələnin həllini sürətləndirməyi zəruri etdi. 1992-ci il yanvarın 2-də Heydər Əliyevin iştirakı ilə Ali Məclisin Rəyasət Heyətində hərbi hissələrin yerli hakimiyyət orqanları ilə münasibətlərinin vəziyyəti barədə məsələyə baxıldı.

Qəbul edilmiş qərarda Azərbaycan Respublikasının siyasi rəhbərliyinin bu məsələlərə qeyri-müəyyən, bəzən də anlaşılmaz münasibəti pislənilmiş, ayrı-ayrı hərbi bölmələrin komandanlığının qanunsuz hərəkətlərinin muxtar respublikadakı vəziyyəti daha da kəskinləşdirdiyi, xüsusən hərbi sursatın, təsərrüfat əmlakının talan edilməsi və muxtar respublikadan çıxarılması ilə bağlı çoxlu faktların olduğu vurğulanmış və bildirilmişdi ki, «muxtar respublika ərazisində yerləşən silahlı qüvvələr hissələrinin bütün hərbi və təsərrüfat tikilіləri, əmlakı, silahları və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur». Hərbi hissələrin komandanlıqlarından tələb edilmişdi ki, onların sərəncamlarında olan hər bir şey haqqında beş gün müddətində muxtar respublika Ali Məclisinə məlumat təqdim olunmalı və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən heç bir şey aparılmamalıdır [285, 522].

1992-ci ilin əvvəllərində Azərbaycan Respublikasında hərbi-siyasi vəziyyətin daha da pisləşməsindən istifadə edən, artıq ölkənin Dağlıq

Qarabağ bölgəsinin işğalını başa çatdıran ermənilər 1992-ci il mayın 1-dən Naxçıvan Muxtar Respublikasının ərazisinə hücumlar edirdilər. Erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyev dünya ictimaiyyətinə, Türkiyə hökumətinə müraciət etdi. Türkiyə Cümhuriyyəti hökuməti mayın 18-də gecəyarı toplaşaraq, Naxçıvanla bağlı geniş bəyanat verdi. Azərbaycanla bütün əlaqələri kəsilərək blokada şəraitində yaşayan Naxçıvan MR-ə Türkiyə Cümhuriyyəti hərtərəfli yardım göstərirdi. Heydər Əliyev Naxçıvandakı vəziyyəti dünya ictimaiyyətinə çatdırmaq üçün xarici ölkələrdən, o cümlədən Rusiya Federasiyasından müxbirlər dəvət etmiş, onlara Azərbaycan Respublikasında və bölgədə yaranmış vəziyyət barədə obyektiv məlumat vermişdi. Bu, son dörd il ərzində Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin xarici mətbuatda birtərəfli, ermənipərəst mövqedən işıqlandırılması nəticəsində Azərbaycan Respublikasının düşdüyü informasiya blokadasının yarılması səmtində atılmış mühüm addım idi. Heydər Əliyevin səyləri sayəsində dünya informasiya orqanları Ermənistanın Naxçıvan MR ərazilərinıə hücumu barədə məlumatlar vermiş, 57 dövlət Ermənistan Respublikasının təcavüzkarlığını pisləmiş, NATO xüsusi bəyanatla çıxış etmişdi [285, 550–554].

Heydər Əliyevin Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Cənubi Qafqaz Hərbi Dairəsinin və 75-ci diviziyanın komandanlıqları ilə apardığı danışıqlar nəticəsində diviziyanın ləğv edilməsi və onun bütün əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə olundu. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 25 iyun tarixli iclasında Naxçıvan MR Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi [285, 542].

1992-ci il avqustun 18-də 75-ci diviziyanın bütün əmlakının, Azərbaycan Respublikasının Milli Ordusunun 5-ci əlahiddə motoatıcı briqadasına verilməsi haqqında sənədlər imzalandı. Diviziyanın şəxsi heyəti Naxçıvan MR ərazisini tamamilə tərk etdi. Sənədlərin imzalanması mərasimində çıxış edən Ali Məclisin sədri Heydər Əliyev bu günü müstəqil Azərbaycan Respublikasının və onun tərkib hissəsi olan Naxçıvan MR-in həyatında əlamətdar, tarixi gün adlandırmışdı [481, 1992, avqust].

1992-ci ilin avqust-sentyabr aylarında 41-ci Sərhəd Dəstəsinin ləğv edilməsi, onun əmlakının Azərbaycan Respublikasının 1-ci Sərhəd Dəstəsinə verilməsi barədə razılaşma əldə olundu. Sentyabrın 29-da sərhəd dəstəsinin sonuncu zabit və əsgərləri təntənəli şəkildə Naxçıvan MR yola salındılar [285, 557].

Beləliklə, Heydər Əliyevin siyasi bəsirəti nəticəsində keçmiş sovet ordusunun və sərhəd qoşunlarının bütün hissələri Naxçıvan MR ərazisindən tamamilə çıxarıldı, onların bütün hərbi və təsərrüfat əmlakı Azərbaycan Respublikasının ixtiyarına keçdi. Hərbi hissələrin muxtar respublika ərazisindən münaqişəsiz çıxarılması o dövr üçün çox fenomenal hadisə idi və bu, yalnız Heydər Əliyevin xidmətləri sayəsində baş tutmuşdu. Halbuki qonşu Gürcüstandan keçmiş və indiki RF-yə məxsus sovet qoşunları yalnız 2007-ci ildə beynəlxalq danışıqlar və müqavilələr əsasında çıxarılmış, bəzi MDB ölkələrində, o cümlədən qonşu Ermənistan Respublikasında isə hələ də qalmaqdadır.

1992-ci il oktyabrın 9-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının bir ili tamam oldu. Bu münasibətlə Naxçıvan şəhərində hərbi parad keçirilmiş və Heydər Əliyev əsgərlər və əhali qarşısında çıxış etmişdi. O, Naxçıvan MR torpaqlarını cəsarətlə qorumuş bütün vətənpərvər və qəhrəman Naxçıvan oğullarına, könüllü dəstələrə minnətdarlığını bildirərək, onların gördükləri işləri layiqincə qiymətləndirmiş və bəyan etmişdi ki, artıq Naxçıvan MR Azərbaycan Respublikası Milli Ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdir və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdir. Eləcə də Naxçıvan MR-in qonşu İran İslam Respublikası və Türkiyə cümhuriyyəti ilə sərhədlərini mühafizə etmək üçün öz milli sərhəd dəstəmiz var. Ona görə də bütün könüllü dəstələrə minnətdarlığımızı bildirməklə, onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələri ilə məşğul olsunlar. Torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələri həyata keçirməlidir [285, 561].

Lakin Heydər Əliyevin müdrik tövsiyələrinə, ali hakimiyyət orqanının qərarlarına məhəl qoymayan Xalq Cəbhəsinin yerli rəhbərləri, xüsusən AXC-nin Ordubad rayon şöbəsi silahlı dəstələr saxlamaqda davam edirdi. Bir sıra hallarda Bakıdan idarə olunan, əsas məqsədlərindən biri də Heydər Əliyevin fəaliyyətinə maneə törətmək

cəhdi olan bu qüvvələrin dinc yolla tərk-silah edilməsi üçün bütün imkanlardan istifadə olunsa da, onlar muxtar respublikada sabitliyi pozmaqda, qeyri-qanuni əməllərə rəvac verməkdə davam edirdilər. 1992-ci ilin avqustunda Naxçıvanda siyasi çevrilişə cəhd edən, qanuni hakimiyyəti yıxmaq istəyən bu qüvvələr Heydər Əliyevin siyasi qətiyyəti və xalqın ona dəstəyi sayəsində öz məqsədlərinə çata bilmədilər [285, 569].

Heydər Əliyev Muxtar Respublika ərazisinin təhlükəsizliyinin təmin olunması, əhalinin normal şəraitdə yaşaması üçün bütün imkanlardan istifadə edirdi. 1993-cü il mayın 14-də Heydər Əliyev Ermənistan Respublikası Ali Sovet Sədrinin birinci müavini A.Sakyanla görüşərək, sərhəd məntəqələrində təhlükəsizliyin və sabitliyin təmin olunması məsələsini müzakirə etmişdi. Heydər Əliyev həmçinin dəmir yolunun işinin, bütün kommunikasiya xətlərinin bərpası təklifini irəli sürmüş, müvafiq bəyannamə imzalanmışdı.

Lakin Heydər Əliyevin Muxtar Respublikanın təhlükəsizliyi ilə bağlı gördüyü tədbirlər, xüsusən Ermənistan Respublikası ilə imzalanmış son bəyannamə Azərbaycan Respublikasının rəsmi dairələrində və mətbuat orqanlarında əsassız söz-söhbətlərə səbəb olur və o, separatçılıqda, Azərbaycan Respublikasının milli maraqlarına qarşı çıxmaqda ittiham edilirdi. Buna görə də Heydər Əliyevin tapşırığı ilə Ali Məclisin mətbuat xidməti xüsusi məlumat yaymış, eyni zamanda Bəyannamənin məzmunu təhrif olunduğu üçün Heydər Əliyevin tapşırığı ilə onun mətni kütləvi informasiya vasitələrində dərc edilmişdi [285, 577-578].

Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra Heydər Əliyev müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi və xalqın ona olan sarsılmaz inamı və dəstəyi sayəsində bölgəni real erməni işğalı təhlükəsindən xilas etdi. Bacarıqlı dövlət xadimi və diplomat kimi Heydər Əliyevin Dağlıq Qarabağ və Naxçıvan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, münaqişənin əsl mahiyyəti haqqında informasiya vasitələrinə geniş və obyektiv məlumatlar verməsi də erməni təcavüzünün qarşısının alınmasında mühüm rol oynadı. O, qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərləri, Naxçıvan MR-ə gələn xarici qonaqlar, o cümlədən böyük dövlətlərin səfirləri ilə görüşləri zamanı onların diqqətini

Ermənistan Respublikasının Azərbaycan Respublikası torpaqlarının işğalına yönəlmiş siyasətinə cəlb edir, təcavüzün dayandırılması üçün bütün vasitələrdən, o cümlədən beynəlxalq təsir vasitələrindən istifadə etməyə çağırırdı. Həmin mürəkkəb şəraitdə, Azərbaycan Respublikası haqqında dünya birliyində yanlış fikirlərin mövcud olduğu bir dövrdə Heydər Əliyevin Ermənistanın Naxçıvan MR ərazilərinə təcavüzü, muxtar respublikanın hərbi, iqtisadi blokadaya alınması haqqında bəyanat və çıxışları bölgənin işğaldan qorunmasında mühüm amilə çevrilmişdi.

Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti sayəsində muxtar respublikada sabitlik təmin edilmiş, demokratik dövlət quruculuğuna başlanılmış, əhali ilə muxtar respublika rəhbərliyi arasında həmrəylik və birlik yaranmışdı. Lakin buna baxmayaraq, muxtar respublikada sosial-iqtisadi vəziyyət gündən-günə ağırlaşır, əhalinin gündəlik tələbatını ödəmək imkanı getdikcə tükənirdi. 1992-ci il aprelin 24-dən dəmir yolunda hərəkət tamamilə dayanmışdı, 1991-ci ilin dekabrından qaz, 1992-ci ilin iyulundan isə elektrik enerjisinin verilməsinin dayandırılması mövcud böhranı daha da dərinləşdirdi. Dəmir yolunun işləməməsi nəticəsində muxtar respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələri təchiz edilmədiyindən onların əksəriyyəti tamamilə dayanmışdı [285, 265]. Muxtar respublikanın tələbatının 30 faizini ödəyən mövcud elektrik enerjisi yalnız həyati vacib obyektlərə yönəldiyindən, yaşayış məntəqələrinin təchizatında, xüsusən içməli su ilə təminatında ciddi çətinliklər yaranmış, təhlükəli yoluxucu xəstəliklərin yayılması qorxusu artmışdı. Əhalinin ən zəruri ərzaq məhsulu olan unla, çörəklə təminatı minimum miqdarda ödənilirdi. Blokada və iqtisadi əlaqələrin kəsilməsi ucbatından muxtar respublikaya ənənəvi mənbələrdən məhsul gətirilməsi tamamilə kəsilmişdi.

Belə bir vəziyyətdə Heydər Əliyev muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün ciddi tədbirlər görməyə başladı. Onun sədrliyi ilə Ali Məclisin sessiyasında diyarın sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti ətraflı təhlil edilmiş, təcili tədbirlər görmək üçün muxtar respublika hökumətinə müvafiq tapşırıqlar verilmişdi.

Heydər Əliyev muxtar respublikada milli həmrəyliyə nail olmaq, sosial-iqtisadi və siyasi problemləri aradan qaldırmaq, bütün imkanlardan və kadr potensialından istifadə etmək üçün ilk vaxtlardan yerli

siyasi qurumlarla, xüsusən Xalq Cəbhəsi ilə əməkdaşlıq yolu tutmuşdu. Onun təkidi ilə 1991-ci ilin sentyabrında AXC-nin iki nümayəndəsi – A.Kələntərli və Q.Məmmədov Ali Məclis sədrinin müavini seçildilər. Ali Məclisin deputatı, idarəçilik təcrübəsi olmayan, lakin populist çıxışlarla müəyyən insanların etimadını qazanmış Becan Fərzəliyev Muxtar Respublikanın Baş naziri vəzifəsinə təyin olundu. Lakin B.Fərzəliyev Heydər Əliyevin bu böyük etimadını doğrultmaq və onun zəngin təcrübəsindən bəhrələnməklə muxtar respublikanın sosial-iqtisadi problemlərini həll etmək əvəzinə, vəzifə səlahiyyətlərindən öz şəxsi maraqları üçün sui-istifadə etməyə başladı. O, Baş nazir vəzifəsində işlədiyi dövrdə MR Nazirlər Kabinetinin işini günün tələbləri səviyyəsində qura bilməmiş, əməli fəaliyyətdə kobud və ciddi nöqsanlara yol vermişdi.

Maraqlıdır ki, baş nazirlə bağlı məsələ Ali Məclisdə müzakirə olunarkən hətta B.Fərzəliyevin namizədliyini irəli sürmüş deputatlar da onun fəaliyyətinə mənfi qiymət vermişdilər və o, vəzifəsindən azad edilmişdi [285, 234-235].

Muxtar respublikada yaranmış ağır sosial-iqtisadi vəziyyəti qismən də olsa aradan qaldırmaq üçün yollar axtaran Heydər Əliyev birinci növbədə icra orqanlarının, yerli hakimiyyət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi, onlara nəzarətin artırılması, mövcud imkanlardan maksimum istifadə edilməsi üçün tədbirlər görməyə başladı. Muxtar respublikada bazar mexanizmlərinin və elementlərinin geniş tətbiqi məqsədilə müvafiq qanunvericilik aktları qəbul edildi.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasında ilk dəfə olaraq məhz Naxçıvan MR-də bazar iqtisadiyyatının mühüm şərti olan özəl mülkiyyətin genişləndirilməsi istiqamətində ilk və zəruri tədbirlər görülmüşdü. «Zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaranması haqqında» və «Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi» haqqında MR Ali Məclisinin qərarları tezliklə müsbət nəticələrini verdi, muxtar respublikada kənd təsərrüfatının inkişafı, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması üçün əlverişli zəmin yaratdı.

Blokadanın yaratdığı mürəkkəb problemləri aradan qaldırmaq, muxtar respublikanın həyati tələbatlarını ödəmək, nəqliyyat və kommunikasiya əlaqələrini bərpa etmək üçün Heydər Əliyev qonşu

Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə münasibətlərin inkişafına çalışırdı. 1991-ci ildə Heydər Əliyevin iştirakı ilə Naxçıvan MR ilə Türkiyə Cümhuriyyəti arasında müvəqqəti körpünün açılması muxtar respublikanın dost ölkə ilə əlaqələrinin inkişafında mühüm mərhələ oldu. Körpünün açılması ilə Türkiyə Cümhuriyyəti hökumət nümayəndələrinin, iş adamlarının Naxçıvana səfərləri intensiv xarakter almağa başladı.

1992-ci ilin martında Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə dost ölkədə səfərdə oldu. Heydər Əliyev səfər müddətində Prezident Turqut Özalla görüşmüş, sonra Baş nazir S.Dəmirəl ilə Türkiyə Cümhuriyyəti və Naxçıvan Muxtar Respublikası arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi haqqında protokol imzalamışdı. Muxtar respublikanın müxtəlif sahələrdə tələbatını ödəmək məqsədilə Türkiyə Cümhuriyyəti hökuməti Naxçıvan MR-ə 100 mln. dollar kredit ayırmağı öhdəsinə götürmüşdü.

Heydər Əliyevlə görüşündə Baş nazir Süleyman Dəmirəl Naxçıvan MR-in iqtisadi çətinliklərinin aradan qaldırılması, ehtiyaclarının ödənilməsi üçün zəruri kömək göstərəcəyinə söz vermişdi. Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə Naxçıvan MR arasında bağlanmış müqavilənin siyasi, iqtisadi, mənəvi əhəmiyyətini vurğulayaraq, çox böyük uzaqgörənliklə onun Qars, Moskva müqavilələri kimi tarixə düşəcəyini, gələcək nəsillərin, bütün türk dünyasının bu sənədi də öz tarixində həmişə araşdıracağını və sənədi imzalayanlara daim təşəkkür edəcəklərini bildirmişdi [285, 615].

Heydər Əliyev Türkiyə Cümhuriyyəti vasitəsilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ və Naxçıvan bölgələrində yaranmış mövcud vəziyyət, ermənilərin vəhşilikləri barədə dünya ictimaiyyətinə obyektiv məlumat verməyə çalışır və buna nail olurdu. Məhz Heydər Əliyevin sayəsində Baş nazir Süleyman Dəmirəl bəyan etmişdi ki, əgər Naxçıvan MR-in statusunda hər hansı bir vaxt dəyişiklik olarsa, Türkiyə Cümhuriyyəti bu məsələdə söz sahibi olacaqdır [285, 613].

Doğrudan da, 1992-ci ilin mayında ermənilər Naxçıvan MR ərazilərini işğal etmək üçün hücuma başladıqda Türkiyə Cümhuriyyəti hökumətinin kəskin bəyanatı düşməni geri çəkilməyə məcbur etdi.

1992-ci il mayın 28-də Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin iştirakı ilə Araz çayı üzərində

Naxçıvan MR-i və Türkiyə Cümhuriyyətini birləşdirən körpü istifadəyə verildi. Körpünün açılış mərasimində çıxış edən Heydər Əliyev demişdi ki bu, bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərədir. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi [285, 637-638]. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 9 iyul tarixli qərarı ilə Sədərək–Dilucu körpüsü – «Ümid körpüsü» Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi [286, 704].

Muxtar Respublikanın sosial-iqtisadi problemlərinin həllində İran ilə əlaqələrin yaradılması da müsbət rol oynadı. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin ilk illərində İran İslam Respublikası ilə münasibətlərdə müəyyən soyuqluq yaransa da, Heydər Əliyevin müdrik siyasəti, Naxçıvan MR ilə İran İslam Respublikası əlaqələrinin inkişaf etdirilməsi diyarın düşdüyü böhrandan çıxmasına, həm də Azərbaycan Respublikası – İran İslam Respublikasının əlaqələrində tarazlığın təmin olunmasına kömək etdi. Heydər Əliyevin İran İslam Respublikasında nüfuzu çox böyük idi. İran ilə İslam Respublikasının, onun şimal vilayətlərinin nümayəndə heyətlərinin Naxçıvan MR-ə səfərləri, Heydər Əliyevin bu ölkəyə rəsmi və işgüzar səfərləri, əməkdaşlığın inkişafına dair imzalanmış sənədlər münasibətləri daha yüksək səviyyəyə qaldırmağa imkan verdi.

Lakin Heydər Əliyevin muxtar respublikanı ağır böhrandan çıxarmaq üçün gördüyü tədbirlər, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının yaratdığı mehriban qonşuluq əlaqələri Bakıda ali hakimiyyət kürsüsündə oturan, ancaq diyara heç bir əməli yardım göstərməyən şəxslər tərəfindən qısqanclıqla qarşılanır, onlar Heydər Əliyevin fəaliyyətini separatçılıq kimi qələmə verməklə onu gözdən salmağa çalışırdılar. Bu məqsədlə də müxtəlif mətbuat səhifələrində cürbəcür şayiələr yayır, təxribatçılıqla məşğul olurdular. Bunları qətiyyətlə rədd edən Heydər Əliyev isə deyirdi ki, Naxçıvan MR-in Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələrinin hamısı Azərbaycan Respublikasının bu ölkələrlə münasibətlərinin tərkib hissəsidir. «"Naxçıvan Muxtar Respublikasının bu ağır dövründə kim Naxçıvana hansı yardımı göstərə bilərsə, biz onu bəyənməliyik, onu alqışlamalıyıq və kömək göstərməliyik. Bu baxımdan,

indi Naxçıvana Türkiyənin və İranın xüsusi yardımını başqa cür hallandırmaq, onlara başqa cür don geyindirmək, başqa rəng vermək, sadəcə olaraq, naxçıvanlılara xəyanət etməkdir. Ona görə də mən bu cürbəcür şayiələri qərəzli, heç bir əsası olmayan şayiələr kimi tamamilə rədd edirəm və bildirmək istəyirəm ki, muxtar respublikanın Ali Məclisi və onun sədri burada heç bir xüsusi siyasət aparmır. Bunlar hamısı Azərbaycanın xarici siyasətinin tərkib hissəsidir» [485, 1992, 26 sentyabr].

Naxçıvan MR Ali Məclisinin sədri işləyərkən Heydər Əliyevin ən böyük diplomatik uğurlarından biri də Azərbaycan Respublikası, onun tərkib hissələri olan Dağlıq Qarabağ və Naxçıvan MR ətrafında baş verən proseslər, Ermənistanın işğalçı siması haqqında dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması, muxtar respublikanın sosial-iqtisadi, humanitar problemlərinə dünya dövlətlərinin, beynəlxalq birliyin diqqətini cəlb edə bilməsi idi. Azərbaycan Respublikasına gələn hər bir diplomat Naxçıvana səfər etməyə, Heydər Əliyevlə görüşüb onun mövqeyini öyrənməyə çalışırdı. Heydər Əliyevin sayəsində Naxçıvan MR bütün dünya informasiya vasitələrinin diqqət mərkəzinə çevrilmiş, öz tarixi ərzində heç vaxt xarici diplomat qəbul etməmiş Naxçıvan şəhəri Heydər Əliyevlə görüşmək istəyən xarici nümayəndə heyətlərini tez-tez qarşılamağa artıq vərdiş etmişdi.

Bill Klintonu ABŞ-ın Prezidenti seçilməsi münasibətilə təbrik edən Heydər Əliyev 1993-cü il yanvarın 20-də ona məktubla müraciət edərək, Ermənistanın Naxçıvan MR-i iqtisadi blokadaya alması nəticəsində muxtar respublikada ağır iqtisadi vəziyyət yarandığını bildirmiş və muxtar respublikaya humanitar yardım göstərilməsini xahiş etmişdi. B.Klinton Heydər Əliyevin bu məktubunu cavabsız qoymamış, Naxçıvana təcili yardım göstərmək barədə qərar qəbul etmişdi.

1993-cü ilin fevralında ABŞ-ın Azərbaycan Respublikasındakı səfiri M.Mayls Naxçıvan şəhərində Heydər Əliyevlə görüşündə ABŞ hökumətinin qərarını ona çatdırmış, humanitar yardımın həyata keçirilməsi mexanizmini onunla müzakirə etmişdi [285, 705–707].

ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Pulini 1993-cü ilin mayında Ermənistanın blokadası nəticəsində Naxçıvan MR-in düşdüyü vəziyyəti öyrənmək və regiona yardım proqramı hazırlamaq üçün Naxçıvan şəhərinə gəlmiş və Heydər Əliyevlə görüşmüşdü.

ABŞ-ın Naxçıvan MR-ə humanitar yardım göstərməsinin bölgə əhalisinin sosial ehtiyaclarının aradan qaldırılmasına müəyyən köməyi ilə bərabər, həm də böyük siyasi əhəmiyyəti var idi. Çünki erməni lobbisinin təsiri altında ABŞ Konqresinin 1992-ci ilin oktyabrında Azərbaycan Respublikasına hər hansı yardımı qadağan edən bədnam 907-ci düzəlişi qəbul etməsindən sonra belə qərarın verilməsi ABŞ hökumətinin nüfuzunu bərpa edəcək bir addım olardı.

Heydər Əliyevin xahişilə B.Klintona məktubla müraciət etməsi Qərb dövlətlərinin də diqqətini cəlb etmişdi. ABŞ-ın yardımından sonra Böyük Britaniya və Fransa da Naxçıvan MR-ə yardım göstərilməsi barədə qərar qəbul etmişdi [285, 718–724].

Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi, NATO, ATƏM və sair beynəlxalq qurumların da diqqətini Naxçıvan MR-də yaranmış vəziyyətə cəlb etməyə nail olmuşdu. Bunun nəticəsində BMT Təhlükəsizlik Şurası Ermənistanla yanaşı, Naxçıvan MR-ə də ərzaq və yanacaq yardımı göstərilməsi ilə bağlı dünya dövlətlərinə müraciət etmişdi [285, 708]. 1991-ci ilin fevralında BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəsi Mahmud Əl-Səid Muxtar Respublikada yaranmış sosial-iqtisadi vəziyyəti öyrənmək və humanitar yardım üçün BMT Baş Katibinə məlumat vermək üçün Naxçıvana getmişdi.

Dünyanın ən nüfuzlu təşkilatlarından biri olan Avropa Birliyi də Naxçıvan MR-in iqtisadi vəziyyətini öyrənmək və humanitar yardım göstərmək üçün buraya öz nümayəndələrini göndərmişdi [285, 731-732].

Heydər Əliyevin blokada şəraitində yaşayan muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün gecə-gündüz çalışdığı, bütün imkanlardan istifadə edərək əhalinin güzəranının yaxşılaşdırılması üçün səy göstərdiyi bir vaxtda Bakıda müxtəlif qüvvələr arasında hakimiyyət uğrunda didişmə gedirdi. Bunun nəticəsində Dağlıq Qarabağ və onun ətrafında yerləşən yaşayış məntəqələri bir-birinin ardınca əldən gedir, Azərbaycan dövlətçiliyi üçün real təhlükə yaranırdı. 1992-ci ilin fevralında Xocalı faciəsinin baş verməsi Azərbaycanda mənəvi-psixoloji mühiti daha da gərginləşdirmiş, xalqın etirazı qarşısında aciz qalan A.Mütəllibov istefaya getməyə məcbur olmuşdu.

Hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü isə Heydər Əliyevin muxtar respublikanı fəlakətdən qurtarmağa yönəlmiş fəaliyyətini müxtəlif yollarla gözdən salmağa, hətta onu qeyri-qanuni yolla vəzifəsindən uzaqlaşdırmağa çalışırdı. AXC-nin Naxçıvan şöbəsi, Ali Məclisin «demblok»dan olan deputatları Heydər Əliyevə kömək etmək əvəzinə, təxribat və pozuculuqla məşğul olur, muxtar respublikada ictimai-siyasi sabitliyi pozmağa yönəlmiş hərəkətlər edirdilər. Yaratdıqları silahlı dəstələrə arxalanan cəbhəçilərin asayişi pozmaları, əhalini vahimə içində saxlamaları vətəndaşların haqlı narazılığına səbəb olsa da, Heydər Əliyev təmkinlik nümayiş etdirir, qarşıdurmanın dərinləşməsinə yol vermirdi.

Ən acınacaqlı hallardan biri də o idi ki, AXC – Muxtar Respublikada polisin, digər hüquq mühafizə orqanlarının fəaliyyətinə kobud şəkildə müdaxilə edir, onların sıraları sərişdəsiz cəbhəçilərlə doldurulurdu. İş o yerə çatdı ki, cəbhəçilər Ali Məclisin 1992-ci il avqustun 7-də çağırılmış və Muxtar Respublikada sosial-iqtisadi vəziyyətin təhlilinə həsr edilmiş sessiyasını pozmağa nail olmuşdular. Lakin təzyiq və təxribatlara baxmayaraq, Heydər Əliyev Muxtar Respublikanın iqtisadi problemlərinin aradan qaldırılması üçün bütün vasitə və imkanlardan istifadə edirdi.

1992-ci il oktyabrın 24-də Azərbaycan Xalq Cəbhəsinin təxminən 300 nəfərlik silahlı dəstəsi hücum edərək, Naxçıvan MR Daxili İşlər Nazirliyini, Dövlət Teleradio Verilişləri Komitəsini, rabitə və elektrik şəbəkələrini ələ keçirdi [285, 399]. Heydər Əliyev bu hadisədən xəbər tutan kimi Xalq Cəbhəsinin üzvlərindən ağır nəticələr verə biləcək qanunsuz hərəkətlərə son qoymağı tələb etmişdi. Heydər Əliyevin Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinin qarşısını almaq barədə Azərbaycan Respublikası Prezidentinə dəfələrlə etdiyi müraciətlər də bir nəticə verməmişdi. Yalnız bundan sonra Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin binası qarşısında toplaşmış naxçıvanlılara müraciətlə çıxış edərək, Xalq Cəbhəsinin qanunsuz hərəkətlərini pisləməklə yanaşı, toplaşanları təmkinli və səbirli olmağa, düşünülməmiş hərəkətlərə yol verməməyə çağırmışdı. Eyni zamanda çevrilişdə iştirak edənlərə xəbərdarlıq olunmuşdu ki, onların silahlı dəstələri bir saat ərzində DİN və Teleradio Komitəsinin binalarını tərk etməsələr, silahsız xalq buna özünün təzyiq gücü ilə nail olacaqdır. Yalnız bundan sonra Xalq Cəbhəsinin silahlı dəstələri geri çəkilmişdi.

Beləliklə, Heydər Əliyevin prinsipial mövqeyi, bütün Naxçıvan MR əhalisinin muxtar respublika rəhbərliyini, qanunçuluğu qətiyyətlə müdafiə etməsi sayəsində Xalq Cəbhəsinin qanunazidd hərəkətləri baş tutmadı.

Naxçıvan MR Ali Məclisinin 1992-ci il 25 oktyabr tarixli qərarında 24 oktyabr hadisələri dövlət çevrilişinə cəhd kimi qiymətləndirildi, Xalq Cəbhəsinin qanunsuz silahlı dəstələrinin ləğv edilməsi qərara alındı. Eyni zamanda Ali Məclis Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusunun dəyişdirilməsinə yönəldilmiş cəhdlərə qarşı qəti etiraz edərək bildirirdi ki, xüsusi coğrafi və geosiyasi vəziyyəti olan Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər bir qəsdi müstəqil Azərbaycan xalqının milli dövlətçiliyinə, Naxçıvan MR-in hər bir vətəndaşının hüquq və mənafeyinə qarşı qəsd kimi qiymətləndirmək lazımdır [285, 414].

Naxçıvan MR-in müxtəlif yerlərində vətəndaşlar toplantı keçirərək, Heydər Əliyevi dəstəklədiklərini bildirir, muxtar respublikada dövlət çevrilişi, Heydər Əliyevə qarşı terror aktı törətmək istəyənlərin cinayət məsuliyyətinə cəlb olunmasını tələb edirdilər.

Heydər Əliyev Naxçıvan MR-in Konstitusiya hüquqlarını tapdalamaq cəhdlərini burada sabitliyi pozmağa, Azərbaycan Respublikası ilə muxtar respublikanın hakimiyyət orqanları arasında qarşılıqlı əlaqələri kəskinləşdirməyə yönəldilmiş və əvvəlcədən düşünülmüş hərəkət kimi qiymətləndirərək, Azərbaycan Respublikasının rəhbərliyindən belə cəhdlər edən ayrı-ayrı qüvvələrin qarşısını almaq üçün ciddi tədbirlər görməyi tələb etmişdi [285, 309-310].

Azərbaycanda isə ictimai-siyasi, iqtisadi vəziyyət getdikcə ağırlaşırdı. «İqtidarsız» iqtidarın siyasəti ölkəni çıxılmaz böhrana, fəlakətə sürükləyirdi. AXC hakimiyyətinin ölkə qarşısında duran heç bir problemi həll edə bilməməsi, demokratiyanın, qanunçuluğun hər addımda pozulması, hakimiyyət uğrunda mübarizə, iqtisadi və mənəvi böhran, sərişdəsiz xarici siyasət Azərbaycanın müstəqil dövlətçiliyini təhlükə qarşısında qoymuşdu. Belə şəraitdə gözə çarpan böyük «inkişaf» məramları və məqsədləri bəlli olmayan, siyasət dəllallarının hakimiyyət iddialarının göstəricisi olan cırtdan partiyaların göbələk kimi

artması idi. Lakin bu partiyalar və onların liderlərindən heç biri geniş xalq kütləsinin etimad və inamını qazana bilməmişdi.

Xalqın qabaqcıl ziyalıları, mütərəqqi insanları yaranmış mürəkkəb vəziyyəti yaxşı başa düşür və aydın dərk edirdilər ki, Azərbaycanı bu böhrandan çıxara biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir. 1992-ci il oktyabrın 16-da 91 nəfər nüfuzlu ziyalı Heydər Əliyevə müraciət edərək, ondan Azərbaycan Respublikasında geniş xalq kütləsini əhatə edə biləcək güclü, nüfuzlu və işlək bir partiya yaratmağı və onun lideri olmağı xahiş etdi.

Heydər Əliyev ziyalıların müraciətinə oktyabrın 24-də geniş məktubla cavab verdi. Cavab məktubunda o, Azərbaycan Respublikasında yaranmış siyasi vəziyyətin qısa təhlilini vermiş, respublikamızın dövlət müstəqilliyinin keçmiş Sovet İttifaqında və bütün dünyada gedən ictimai-siyasi proseslərin zəruri nəticəsi olduğunu bildirmişdi. Buna görə də Azərbaycan Respublikasının müstəqillik əldə etməsinin hər hansı siyasi təşkilatın, o cümlədən Xalq Cəbhəsinin, ayrı-ayrı şəxslərin xidməti olmadığını deyən Heydər Əliyev müstəqilliyin bütün Azərbaycan xalqının milli sərvəti olduğunu vurğulamışdı.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsi, milli-demokratik dövlətin, hüquqi cəmiyyətin yaradılması üçün Heydər Əliyev beş əsas vəzifənin həll edilməsini vacib bilirdi: 1) Azərbaycan Respublikasının müharibə vəziyyətindən çıxarılması və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli; 2) ölkədə yaranmış sosial-iqtisadi böhranın aradan qaldırılması; 3) respublikada kadr siyasətinin düzgün aparılması; 4) ölkədə qanunun aliliyinin, vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, demokratiyanın inkişafı; 5) Azərbaycan Respublikasının parçalanmasına yönəldilmiş meyillərin aradan qaldırılması, vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub saxlanması və inkişaf etdirilməsi [285, 442–446].

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi, Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi, partiyanın onun işləyib hazırladığı proqramı və nizamnaməsi qəbul edildi [285, 447].

Həmin gün qəbul edilmiş ilk bəyanatında partiya başlıca proqram məqsədinin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən,

demokratik, hüquqi dövlət yaradılmasından, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq, şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli inkişafı və etibarlı müdafiəsini təmin etmək məqsədilə geniş demokratik islahatların həyata keçirilməsi uğrunda mübarizə aparmaqdan ibarət olduğunu bildirdi [285, 448-449].

Heydər Əliyevin fəaliyyətinin Naxçıvan dövrünün mühüm istiqamətini xalqımızın mənəvi dirçəlişi, milli, dini ənənələrinin bərpası, elm, mədəniyyət və təhsilin inkişafı təşkil edirdi. Hələ Naxçıvan MR gəldiyi ilk günlərdə, deputatlığa namizəd kimi öz seçiciləri ilə görüşlərdə o, respublikanın siyasi, iqtisadi böhrandan çıxarılması, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə yanaşı, Azərbaycan xalqının milli ənənələrinin inkişafına çalışacağına söz vermişdi.

Xalqın özünü tanımasını, öz kökünə qayıtmasını milli intibahın zəruri şərti hesab edən Heydər Əliyev «biz türkük» deyir, eyni zamanda Naxçıvan MR Konstitusiyasına dəyişiklik edilən zaman muxtar respublikanın dövlət dilinin türk dili kimi yazılmasında tələsikliyə yol verildiyini, bu dilin bütün millətin ümumi dili olduğunu, bütün Azərbaycan Respublikasına aid olduğunu, deməli, bu məsələnin yalnız Azərbaycan xalqının yekdil rəyi nəzərə alınmaqla həll edilməsinin vacibliyini vurğulayırdı [285, 97].

O bu prinsipial mövqeyini 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu zamanı bir də nümayiş etdirdi, Azərbaycan Respublikasının dövlət dili Konstitusiyada Azərbaycan dili kimi qəbul olundu.

Heydər Əliyev Naxçıvan MR xalqın milli və dini dəyərlərinin inkişaf etdirilməsi üçün bütün şəraitin yaradılmasına çalışırdı. Onun təşəbbüsü və iştirakı ilə xalqımızın bütün milli və dini bayramları, mərasimləri geniş qeyd olunurdu.

1992-ci ilin oktyabrında dahi Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin 110 illiyi Naxçıvan şəhərində təntənəli şəkildə qeyd edildi. C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrında keçirilən ədəbi-bədii gecədə çıxış edən Heydər Əliyev bu günü böyük bayram, Hüseyn Cavid bayramı adlandıraraq demişdir ki, Cavid irsi, Cavid sənəti özünün yüksək mənəviyyatı, əxlaqi-etik keyfiyyətləri, fəl-

səfi mündəricəsi ilə dünya ədəbiyyatının klassikləri ilə birgə addımlayır. Biz fəxr edirik ki, Cavid hər şeydən öncə türk xalqının oğludur [485, 1992, 28 oktyabr].

H.Cavidin 100 illik yubileyi və şairin cənazəsinin vətənə gətirilməsi məsələsinə toxunan Heydər Əliyev təəssüf hissi ilə qeyd edirdi ki, H.Cavidlə bağlı onun qəbul etdiyi qərarların çox hissəsi həyata keçmədi. Ancaq Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan şəhərində Cavidin məzarı üstündə möhtəşəm məqbərə tikildi. Heydər Əliyev məqbərənin açılış lentini kəsərkən 15 il əvvəl qəbul etdiyi qərarı, nəhayət ki, müstəqil Azərbaycan Respublikasında həyata keçirməsindən məmnunluğunu bildirmişdi [218, 1997, s. 39].

Təhsili millətin gələcəyi hesab edən Heydər Əliyev muxtar respublikada maarifin inkişafı, yüksəkixtisaslı kadrların hazırlanması üçün bütün imkanlardan istifadə etməyə çağırırdı. Məhz onun təşəbbüsü ilə 1992-ci il martın 24-də Türkiyə ilə bağlanmış protokolda 100 nəfər naxçıvanlı gəncin qonşu dövlətin ali məktəblərində təhsil almasını nəzərdə tutan müddəa öz əksini tapmışdı [285, 617].

1992-ci il oktyabrın 5-də Türkiyə Cümhuriyyətinin ali təhsil ocaqlarına təhsil almağa gedən tələbələrlə görüşən Heydər Əliyev bunu Naxçıvan MR-in həyatında mühüm hadisə adlandıraraq, əmin olduğunu bildirmişdi ki, yaranan ənənə gələcəkdə də davam edəcək, naxçıvanlı gənclər bundan sonra Türkiyə Cümhuriyyətinin, Avropanın və dünyanın başqa ölkələrində təhsil almaq imkanı qazanacaqlar. O, naxçıvanlı tələbələrə azərbaycanlı adını, Azərbaycan xalqının adını həmişə yüksək tutmağı, yüksək elmə, ixtisasa yiyələnməyi, türk dili ilə yanaşı, əcnəbi dilləri də öyrənməyi tövsiyə etmişdi [485, 1992, 7 oktyabr].

Heydər Əliyev Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin fəaliyyəti ilə daim maraqlanır, tələbə və müəllimlərlə müntəzəm görüşür, onlara öz tövsiyələrini verirdi. 1992-ci ildə Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyi Heydər Əliyevin iştirakı ilə geniş və təntənəli şəkildə qeyd olundu. O, universitetin kollektivinə Naxçıvan MR-in iqtisadi-siyasi həyatında daha fəal iştirak etməyi, dünya təcrübəsindən bəhrələnməyi, beynəlxalq əlaqələri daha da genişləndirməyi tövsiyə etmiş, eyni zamanda elmi potensialın, toplanmış təcrübənin böyük elmi-mənəvi sərvət olduğunu xatırladaraq, bu

sərvətdən səmərəli istifadə etməyin, hazırlanan alitəhsilli kadrların daha yüksək meyarlara cavab verməsinin zəruriliyini vurğulamışdı [485, 1992, 18 noyabr].

Beləliklə, Heydər Əliyevin çoxşaxəli fəaliyyəti nəticəsində Naxçıvan MR əraziləri nəinki erməni təcavüzündən xilas oldu, eləcə də sosial-iqtisadi, siyasi, milli mənəvi sahələrdə müsbət nəticələr əldə edildi. Muxtar respublikanın əhalisini ağır böhrandan, aclıq və səfalətdən qorumaq üçün radikal tədbirlər görüldü, qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə iqtisadi əlaqələr yaradıldı. İqtisadi islahatların, birinci növbədə aqrar islahatların keçirilməsi, bütün daxili potensialın səfərbər edilməsi sayəsində əhalinin sosial vəziyyətini qismən yaxşılaşdırmaq mümkün oldu. Heydər Əliyevin müdrikliyi sayəsində muxtar respublikada siyasi sabitlik təmin edildi, səbatsız qüvvələrin hakimiyyət ambisiyalarına son qoyuldu, milli dövlət quruculuğu istiqamətində səmərəli işlər görüldü.

Ağır sosial-iqtisadi böhran vəziyyətinə baxmayaraq, milli mənəvi dəyərlərin bərpasında, mədəniyyətin, maarifin inkişafında da uğurlar qazanıldı. Heydər Əliyev misilsiz fəaliyyəti və gərgin əməyi nəticəsində Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasını özünün gözəl «əsərinə» çevirdi, bu diyarın gələcək möhtəşəm uğurlarının bünövrəsini qoydu.

2.3. Azərbaycan Respublikasında ictimai-siyasi, hərbi böhran. Qurtuluş hərəkatı

XX əsrin 80-ci illərinin sonunda keçmiş sovet imperiyası rəhbərliyinin bilavasitə təhriki ilə Azərbaycan xalqına qarşı açıq-aşkar təcavüzkar niyyətlərini elan edən Ermənistanın işğalçı siyasəti və bunun nəticəsində ölkə daxilində ictimai-siyasi sabitliyin pozulması, iqtisadi böhranın getdikcə dərinləşməsi Azərbaycan SSR-i çox ağır vəziyyətə salmışdı. 1988-ci il noyabrın 23-dən dekabrın 1-dək Ermənistan SSR-dən 250 mindən çox azərbaycanlının etnik təmizləməyə, deportasiyaya, yüzlərlə insanın soyqırımına məruz qalması, 1990-cı il yanvarın 20-də sovet ordusunun Bakıya təcavüzü nəticəsində kütləvi qırğınların törədilməsi, 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyinin bər-

pasına baxmayaraq, Rusiya Federasiyasının bilavasitə hərbi yardımı ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ, Laçın və Kəlbəcər rayonlarının Ermənistan tərəfindən işğalı və bütün bu proseslərin baş verdiyi dövrdə respublikanın səriştəsiz idarəsi yenicə bərpa edilmiş milli dövlətçiliyimizin itirilməsi və məhvi təhlükəsini yaratmışdı.

Xalq böyük fəlakətin yaxınlaşdığını hiss edirdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinə düşmən kəsilmiş keçmiş imperiyanın təcavüzkar dairələri və onların əlaltıları respublika iqtidarının fərasətsizliyindən məharətlə istifadə edərək, ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə çalışırdılar. 1993-cü il iyunun 4-də ölkədə baş vermiş hərbi-siyasi böhran bu prosesləri daha da sürətləndirirdi.

Belə bir şəraitdə xalqın qabaqcıl qüvvələrinin, ilk növbədə, ziyalıların başçılığı ilə ölkədə **«Qurtuluş»** hərəkatı başlandı. Hərəkatın təşəbbüskarları 1969–1982-ci illərdə Azərbaycan SSR-ə rəhbərlik etmiş, 1982-1987-ci illərdə isə SSRİ-nin rəhbərlərindən biri olmuş, 1991-ci ilin sentyabrından Naxçıvan MR Milli Məclisinin sədri işləyən Heydər Əliyevin ətrafında birləşərək, ölkənin xilası üçün xalqa müraciət ünvanladılar. Tanınmış elm, mədəniyyət xadimləri, qabaqcıl sadə əmək adamları dəfələrlə Naxçıvan şəhərinə səfərlər edərək, Heydər Əliyevdən Vətənin xilası naminə yenidən böyük siyasətə qayıtmasını xahiş edirdilər. «Əlincə» Cəmiyyətinin nəşr etdirdiyi «Səs» qəzetində çap olunmuş «Heydər bəyi biz çağırmalıyıq!» adlı müraciət böyük əksəda doğurmuşdu. Lakin Heydər Əliyev bu fikirdə deyildi. O, bütün müraciətlərə hörmətlə yanaşır, ancaq edilən təkliflərdən imtina edirdi. Böyük siyasi təcrübəyə malik olan Heydər Əliyev belə bir gərgin şəraitdə ölkə daxilində siyasi vəziyyətin gərginləşməsini istəmirdi.

Azərbaycanın 91 nəfər tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da «Səs» qəzeti vasitəsilə Heydər Əliyevə «Azərbaycan Sizin sözünüzü gözləyir - deyə müraciət etdi. Bu müraciət ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun AXC-Müsavat iqtidarının səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı.

AXC-Müsavat hökuməti Yeni Azərbaycan Partiyasının təsis konfransının Bakı şəhərində keçirilməsinə imkan vermədi. Konfrans

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində keçirildi. Azərbaycan Respublikasının, demək olar ki, bütün rayonlarından olan təşəbbüs qruplarının 550-dən çox nümayəndəsinin iştirak etdiyi konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə edilərək qəbul olundu. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Təşkilatın rəhbər orqanları yaradıldı.

Qısa bir zaman içərisində Yeni Azərbaycan Partiyası ölkənin ən güclü siyasi qüvvəsinə çevrildi. AXC-Müsavat hökumətinin bütün təzyiqlərinə baxmayaraq Heydər Əliyev öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətlərdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. 1992-ci ilin mayından 1993-cü ilin iyununadək bu məsləhətlərə məhəl qoymayıb səriştəsiz daxili və xarici siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş AXC-Müsavat iqtidarı təhlükəli proseslərin qarşısını almaqda özünün gücsüzlüyünü görərək, son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Əliyevin (Elçibəyin) dəfələrlə təkidli dəvətlərindən sonra Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il iyunun 9-da prezidentin göndərdiyi təyyarə ilə Bakıya gəldi. Çünki, iyunun 4-də Gəncə şəhərində baş vermiş faciə göstərirdi ki, Azərbaycan Respublikası vətəndaş müharibəsinin bir addımlığındadır.

Heydər Əliyev genişlənmək təhlükəsi olan vətəndaş müharibəsini dayandırmaq üçün müdrik, düşünülmüş siyasi tədbirlər görməyə başladı. O, iyunun 13-14-də Gəncəyə getdi və hərbi müxalifətlə danışıqlar apararaq, siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi. Yaranmış böhranlı vəziyyətin nə qədər ağır olduğunu görən Heydər Əliyev xalqı gözlənilən fəlakətdən qurtarmaq üçün mövcud iqtidarla birgə işləməyə razılıq verdi.

İyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin Sədri seçdi. Həmin gün Azərbaycanın müasir dövr tarixinə «Qurtuluş günü» kimi daxil oldu. 1993-cü ilin 15 iyunu mühüm siyasi hadisə kimi Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcını qoydu.

Ölkədəki ictimai-siyasi gərginlik isə qalmaqda davam edirdi. Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndə-

lik həddinə gətirib çıxaran AXC-Müsavat iqtidarının başçıları xalqın qəzəbindən qorxaraq, siyasi meydandan qaçıb xarici ölkələrdə gizləndilər. Siyasi gərginliyə tab gətirə bilməyən, şəxsi təhlükəsizliyindən qorxan, guya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan Prezident Əbülfəz Əliyev iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edərək, Ordubad rayonuna – doğulduğu Kələki kəndinə getdi və ölkəni bu ucqar dağ kəndindən idarə etmək iddiasında olduğunu bildirdi. Azərbaycan Respublikasının Ali Soveti paytaxtı tərk etmiş Prezidentə geri qayıdıb belə bir mürəkkəb hərbi-siyasi şəraitdə ölkəyə lazımi səviyyədə rəhbərlik etməyi dönə-dönə təklif etsə də, hər dəfə, faktik olaraq, rədd cavabı aldı. Belə bir şəraitdə iyunun 24-də Azərbaycan Respublikasının Ali Soveti ölkə Prezidentinin səlahiyyətlərinin Ali Sovetin Sədri Heydər Əliyevə verilməsi haqqında qərar qəbul etdi. Ölkədə yaranmış dərin hərbi-siyasi böhranın ağırlığını bütün məsuliyyəti ilə hiss edən Heydər Əliyev vətəndaş müharibəsinin qarşısını almaq məqsədilə heç bir siyasi idarəçilik bacarığı olmayan, Rusiya Federasiyasının xüsusi orqanlarının və qisas almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik Surət Hüseynovu öz sayıq nəzarəti altında saxlayaraq, Azərbaycan Respublikasının Baş Naziri vəzifəsinə təyin etdi və bütün güc nazirliklərinə rəhbərlik ona tapşırıldı.

Heydər Əliyev iqtidarında yüksək vəzifələr tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən S.Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. Burada o, keçmiş müdafiə naziri R.Qazıyev və iyunun 15-də Lənkəranda mülki hakimiyyəti hərbi hissələrin köməyi ilə zəbt edərək ölkənin cənub bölgəsinə faktik rəhbərlik edən Ə.Hümbətovla mütəmadi görüşlər keçirərək, Heydər Əliyevi hakimiyyətdən getməyə məcbur etmək planları cızırdı.

1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar xəyanəti nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünə yeni zərbələr endirildi. Ermənistan silahlı birləşmələri Azərbaycan Respublikasında yaranmış siyasi böhrandan istifadə edib, Rusiya Federasiyası hərbi hissələrinin birbaşa iştirakı ilə güclü hücuma keçdi. Hərbi-siyasi böhran zamanı həm AXC-Müsavat iqtidarı, həm də S.Hüseynov xəyanət yolunu tutaraq Ağdam cəbhəsində bütün istiqamətlərdən canlı qüvvəni və hərbi texnikanı çıxarmışdı. Daxili qoşun hissələri

ölkə Prezidentinin tapşırığı ilə Bakı şəhərinin hərbi qiyamçılardan müdafiəsinə gətirilmişdi. Ermənilər bundan istifadə edib Ağdamın Qarqarçay və Qayıblı kəndinə qədər ərazisini ələ keçirdilər. İyunun 25-dən 26-na keçən gecə Azərbaycan Respublikasının hərbi qüvvələri Ağdam cəbhəsindən çıxarıldı və cəbhə yerli özünümüdafiə taburlarının ümidinə qaldı. İyulun əvvəllərində S.Hüseynova sadiq 709-cu hərbi hissə Ağdama daxil oldu. Bütün bu xəyanətkar planların əsas məqsədi Heydər Əliyevi çıxılmaz vəziyyətə salmaqla onu həm fiziki, həm də siyasi cəhətdən məhv etmək idi. Döyüşlərin bütün ağırlıqlarını çəkmiş özünümüdafiə hissələri ön mövqelərdən çıxarıldı. Ağdam şəhəri düşmən tərəfindən intensiv atəşə tutulanda isə S.Hüseynova tabe olan hərbi qüvvələr tərəfindən heç bir cavab tədbiri görülmədi. Birləşmiş erməni–rus qüvvələri sürətlə irəliləyir, Azərbaycan Respublikasının yaşayış məntəqələri bir-birinin ardınca işğal olunurdu. Malıbəyli kəndi uğrunda gedən ağır döyüşlər zamanı Asif Məhərrəmovun başçılıq etdiyi özünümüdafiə taburu iyulun 22-23-də iki gün ərzində düşmənlə vuruşsa da, heç bir kömək almadığından geri çəkilməyə məcbur oldu. Əsasən, özünümüdafiə dəstələrinin gücü ilə 43 gün düşmənlə qanlı döyüşlər aparmış Ağdam şəhəri iyulun 23-də səhər işğal olundu. Bu, əslində, təkcə Heydər Əliyevə qarşı deyil, həm də Azərbaycan xalqına qarşı ən ağır zərbə idi. Yaranmış ağır hərbi-siyasi vəziyyətdən istifadə edən S.Hüseynov Gəncədə bəyanat verib bildirdi ki, o, «xalqın və dövlətin taleyinin həll edilməsi məsələsini» öz üzərinə götürür. Onun bu bəyanatını keçmiş müdafiə naziri R.Qazıyev və ölkənin cənubunda separatizmə başçılıq edən Ə.Hümbətov da alqışladı.

Cənub bölgəsində separatçılıq mövqeyinə keçən qüvvələrlə münasibəti dincliklə nizama salmaq məqsədilə Heydər Əliyev Ə.Hümbətovla görüşməyi qərara aldı. Bu görüş zamanı «mənim səlahiyyətim avtomatımdır» deyən Əlikram Hümbətov yersiz tələblər irəli sürərək, Baş nazir S.Hüseynova geniş səlahiyyətlər verilməsini, respublika Ali Sovetinin növbədənkənar sessiyasını çağırıb 1990-cı il 20 Yanvar faciəsinin günahkarlarından biri olan və Rusiya Federasiyasının hərbi-siyasi dairələrinin yardımı ilə Moskvaya qaçmış A.Mütəllibovu öz vəzifəsinə qaytarmağı tələb etdi. Heydər Əliyevdən qəti rədd cavabı alan Ə.Hümbətov cənub bölgəsinə qayıdaraq, avqustun 7-də Azərbaycan Respublikasının 6 rayonu ərazisində qondarma «Talış Muğan Res-

publikası» (TMR) yaradıldığını elan etdi. Sonra isə bu oyuncaq «hökumət» adından Rusiya Federasiyasına, İran İslam Respublikasına, Belarus Respublikasına və BMT-yə müraciət edərək, özünün yaratdığı, lakin xalq tərəfindən qətiyyətlə rədd edilən saxta qurumun tanınmasını xahiş etdi. Heç şübhəsiz ki, bu qondarma qurumun beynəlxalq aləm tərəfindən tanınması mümkün deyildi və belə də oldu. Xatırladaq ki, cənub bölgəsinin müxtəlif yerlərində keçirilən kortəbii mitinqlərdə əhalinin tam əksəriyyəti Ə.Hümbətovun silahlı quldur dəstəsinin ləğv olunmasını, qondarma «TMR» i tanımadığını bəyan edirdi.

Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq bölgədə yaranmış vəziyyəti dinc vasitələrlə yoluna qoymağa üstünlük verdi. Bu məqsədlə 1993-cü il avqustun 13-də əksəriyyəti bu bölgədən olan xalq deputatları, tanınmış ziyalılar və ağsaqqallarla görüşdü. Görüş iştirakçıları «hümbətovçulara» qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Ali Sovet cənub bölgəsindəki hadisələrə siyasi qiymət verdi, onu Azərbaycan Respublikasının dövlət müstəqilliyinə qarşı çıxan qüvvələrin siyasi oyunu kimi ifşa etdi. Baş nazir S.Hüseynov isə avqustun 18-19-da Gəncədə Ə.Hümbətovu yaxın silahdaşı kimi qəbul edib ona möhkəm dayanmağı məsləhət gördü. Lakin xalqın və dövlət qüvvələrinin birliyi sayəsində 1993-cü il avqustun 23-də separatçılar məğlub edildilər. Ə.X.Vəzirov və A.N.Mütəllibov kimi, Ə. Hümbətov da Rusiya Federasiyasına qaçdı və qondarma «TMR» ləğv olundu. Heydər Əliyevin göstərdiyi bu qətiyyət müxalifətə keçmiş AXC-Müsavata tabe olan hərbi-siyasi qüvvələri daha da fəallaşdırdı. Xəyanət yolunu tutan bu qüvvələrin təxribatı nəticəsində 1993-cü il avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də Qubadlı rayonları, oktyabrın 29-30-da isə Zəngilan rayonu işğal olundu.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinə düşmən kəsilmiş, xaricdən idarə olunan qüvvələrin ölkədə hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1993-cü il avqustun 29-da ölkə Prezidenti Ə.Əliyevə (Elçibəyə) etimad haqqında ümumxalq referendumu keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi Ə.Q.Əliyevə (Elçibəyə) etimadsızlıq göstərdi.

1993-cü il oktyabrın 3-də Heydər Əliyev alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

2.4. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində vəziyyət. dövlət çevrilişi cəhdlərinin qarşısının alınması

Sovet İttifaqının dağılması ərəfəsində, onun süqutundan sonra keçən üç il ərzində isə imperiyanın varisi olan Rusiya Federasiyasından hərbi-siyasi yardım alan Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü şəraitində hakimiyyətdə olan siyasi qüvvələr ölkəmizin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin qorunması kimi həyati əhəmiyyət kəsb edən məsələlərlə bağlı heç bir konkret tədbirlər görməmişdilər. Təəssüf doğuran və ürək ağrıdan cəhət o idi ki, Azərbaycan SSR-də hələ keçən əsrin 70-ci illərində Ümummilli lider Heydər Əliyev tərəfindən milli zabit kadrlarının hazırlanması ilə əslində ordu quruculuğu işinin əsası qoyulmasına baxmayaraq, bu potensialdan səmərəli istifadə olunmadı. Bu isə son nəticədə Azərbaycan xalqı üçün ağır itkilər – torpaq və insan itkiləri ilə nəticələndi. Respublikanın o vaxtkı rəhbərliyinin siyasi kütlüyü və bacarıqsızlığı ona gətirib çıxardı ki, Ermənistanın hərbi təcavüzü nəticəsində hələ 1918-ci ildə Qərbi Azərbaycan torpaqlarının bir hissəsini əhatə edən keçmiş İrəvan quberniyası ərazisində, əvvəlcə «Antanta» dövlətlərinin birbaşa təzyiqi ilə yaradılan və sonra isə 1920-ci ilin noyabrında Sovet Rusiyası tərəfindən ələ keçirilən bu qondarma «dövlətin» ərazisindən və Azərbaycan Respublikasının işğal olunmuş 17000 km^2 torpaqlarından 1010000 azərbaycanlı deportasiya və etnik təmizləməyə məruz qaldı, 30 000 nəfər həlak oldu, 60 000 nəfər şikəst və əlil oldu, 200000 nəfər yaralandı.

İşğalçı Ermənistan tərəfindən 4861 nəfər Azərbaycan Respublikası vətəndaşı, o cümlədən 315 qadın, 58 uşaq, 255 qoca əsir və girov götürüldü. Erməni faşistləri azərbaycanlı əsir və girovların həqiqi sayını ABŞ və Avropa ölkələrində fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani rəftar edir, qul kimi işlədir, ağlasığmaz işgəncələr verir, şəxsiyyətini təhqir edir və alçaldırdılar. Erməni cəlladları tərəfindən öldürülmüş əsir Fərhad Atakişiyevin meyiti üzərində ekspertlər tərəfindən aşkar edilmiş 12 işgəncə əlaməti bunu bir daha təsdiq edir. Onun əlləri, ayaqları

sındırılmış, qulaqları kəsilmiş, gözləri çıxarılmış, dırnaqları kökündən qoparılmış, burun, qulaq dəliklərinə və qarnına məftil keçirilmişdi. Əsirlərə Azərbaycan xalqının milli bayramları günü daha ağır işgəncələr verilirdi, erməni qəbri üstündə əsir başı kəsmək isə tarixdə görünməmiş qeyri-insani «ənənəyə» çevrilmişdi.

Hərbi təcavüz nəticəsində Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş əraziləri beynəlxalq terrorizmin təlim düşərgələrinə və müxtəlif növ kimyəvi qırğın silahlarının sınaq meydanına, habelə nüvə tullantılarının basdırıldığı zonaya çevrildi. Beynəlxalq erməni terror təşkilatlarının birbaşa iştirakı ilə Azərbaycan Respublikasının Laçın rayonunun Zabux kəndində rəhbəri Zeylan Öcalan olmaqla «Kürd konqresi», Xocavənd rayonunun Qırmızıbazar ərazisində rəhbəri Zamir əl-Qisse (Suriya) olmaqla «Xalq Azadlıq Cəbhəsi», Zəngilan rayonunun Mincivan qəsəbəsində rəhbəri Ömər Şəhabi (Liviya) olmaqla «Hizbullah», Livan və Fələstindən başçısı Musa Qulam Haq olmaqla «Həmas» kimi silahlı terrorçu qrupları yerləşdirilmişdi. «ASALA» beynəlxalq erməni terrorçu təşkilatının radikal qanadı üçün Şuşa rayonunun Xəlifəli, Xocavənd rayonunun Kiş kəndlərində, Əsgəran rayonunun və Xankəndi şəhərinin yaşayış məntəqələrində təlim düşərgələri təşkil edilmişdi. Qəribəsi odur ki, beynəlxalq terrorizmə müharibə elan edən ABŞ, RF və bütün Avropa dövlətləri yuxarıda adları çəkilən ən qorxulu və təhlükəli terrorçu təşkilatların Azərbaycan Respublikası ərazisində fəaliyyətinə və Azərbaycan əhalisinə qarşı törətdikləri vəhşiliklərə cinayətkarcasına göz yumur, Ermənistanı isə beynəlxalq terroru dəstəkləyən dövlət kimi tanımaqdan imtina edirlər. 1996-cı il mayın 26-da Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə Əfqanıstanda uzun müddət terrorçuluqla məşğul olan ərəblər – «Əl-Qaidə»çilər gətirilmişdi. Ölkəmizin işğal altındakı ərazilərində beynəlxalq qanunlarla qadağan edilmiş, ən təhlükəli terror fəaliyyəti hesab olunan nüvə terrorizmi (Ağdaban, Xanabad, Həsənriz, Kropatkino), bioloji terrorizm (İstisu, Kiş, Aşağı Veysəlli), kimyəvi terrorizm (Vejnəli, Havıslı) və kompyuter terrorizmi (Şuşa, Xankəndi) üzrə qruplar yerləşdirilmişdi.

Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ ərazisində yerləşdirilmiş Rusiya istehsalı olan «S-300» və «Tayfun» raketləri Rusiya, Çin və Ermənistan alimləri ilə birlikdə yerli şəraitə

uyğun modernləşdirilmiş və onlar ölkəmizin strateji obyektlərinin çox asanlıqla vurula biləcək istiqamətdə quraşdırılmışdı. Ermənistan, ilk növbədə, Rusiya Federasiyasının yardımı ilə nüvə silahı hazırlamağa çalışırdı. Ermənilərin nüvə texnologiyası məsələləri ilə məşğul olan «Vartanoil», «Razdanmaş», «Jak-Mak Metaliz» və sair şirkətlərinin, «Lizinq» biznes mərkəzinin İran, Rusiya, Fransa, İraq, Pakistan, Səudiyyə Ərəbistanı və digər ölkələrdə filialları fəaliyyət göstərirdi. İşğal altında olan Dağlıq Qarabağda təşkil edilmiş nüvə tədqiqatı laboratoriyası və mərkəzində Suriya, Səudiyyə Ərəbistanı, Pakistan, İran, Ermənistan alimləri və Əfqanıstandan gəlmiş ərəb mütəxəssisləri elmi axtarışlarını davam etdirirdilər. Erməni və rus alimlərinin birgə sınaq təcrübələri keçirilmişdi. Ermənistan Respublikasının 2000-ci il dekabrın 14-də qəbul edilmiş nüvə proqramının 4-cü maddəsində Azərbaycan Respublikasının işğal olunmuş əraziləri – Kəlbəcər rayonunun Başlıbel, Şuşa rayonunun Göytala və Laçın rayonunun Mixidərə, Malxələf, Aşağı Fərəcan yaşayış məntəqələri işğalçı ölkənin nüvə zonalarına aid edilmişdi.

Azərbaycan Respublikasının zəbt edilmiş ərazilərindən işğalçı ordunun dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul olunmuş 822, 853, 874 və 884 nömrəli qətnamələrində öz əksini tapsa da, Ermənistan Respublikası, ilk növbədə bu beynəlxalq təşkilatın ən nüfuzlu üzvləri olan ABŞ, RF və Fransaya arxalanaraq, müxtəlif bəhanələrlə həmin qətnamələri yerinə yetirməkdən imtina edirdi və bu siyasət indi də davam etdirilir. Əslində, işğalçı olan qondarma dövlətə – Ermənistana doğma, işğala məruz qalan Azərbaycan Respublikasına isə düşmən münasibət bəslənildiyindən, bu qətnamələrin heç birində Ermənistan Respublikası təcavüzkar tərəf kimi tanınmır. Qətnamələrdən yalnız birində Ermənistan Respublikasının adı çəkilir və ondan tələb olunurdu ki, o, Dağlıq Qarabağda elə Ermənistanın və Rusiya Federasiyasının birgə yaratdıqları separatçı quldur rejimə təsir göstərsin. ABŞ, Rusiya və başqa dövlətlərin parlamentlərində özünə doğma münasibət görən Ermənistan Respublikası bu gün də təcavüzkar əməllərini həyasızcasına davam etdirir.

Dövlət müstəqilliyini yenicə bərpa edən Azərbaycan Respublikasının milli ordusunda faciəvi vəziyyət yaranmışdı. Hərbi hissələr

ayrı-ayrı siyasi qruplaşmaların təsiri altında idi. Ordunun silah, sursat, geyim və ərzaqla təminatı yaratmaz halda idi. Onun bütün strukturlarında korrupsiya, fərarilik artmış və nəticədə təkcə 1991-1992-ci illərdə onun sıralarını 30 mindən çox döyüşçü özbaşına tərk etmişdi. Belə vəziyyətin yaranmasının bir sıra siyasi, mənəvi-psixoloji və sosial-iqtisadi səbəbləri var idi. Müasir Azərbaycan Respublikasında milli silahlı qüvvələrin formalaşması prosesinə nəzər saldıqda ,deyə bilərik ki, hər bir müstəqil dövlət üçün ən mühüm atributlardan biri olan ordunun yaranması ölkəmizdə çox ağır ictimai-siyasi və hərbi şəraitdə baş vermişdi. Azərbaycanda ordu quruculuğu işinə Ermənistanın hərbi-ideoloji təcavüzü şəraitində başlanılmışdı. 1988-ci ildə başlanmış bu proses əhali tərəfindən özünümüdafiə dəstələrinin yaradılmasında özünü biruzə verirdi. Lakin bu şəkildə meydana gəldiyindən hərbin tələb etdiyi struktura, müvafiq hərbi və nəzəri hazırlığa malik olmadığına, əhatə etdiyi könüllülərin yaş səviyyəsinə görə mütəşəkkil ordunun özülünü, bazasını təşkil edə bilməzdi.

Bu dövrdə yaranmış könüllü özünümüdafiə dəstələrinin fəaliyyətində ən müsbət cəhəti onlarda hərbi vətənpərvərlik ruhunun, düşmənə sonsuz nifrətin və döyüş əzminin çox yüksək olması idi.

Azərbaycan Respublikasında ordu quruculuğunun ikinci mərhələsi 1991-ci ilin avqustundan 1993-cü ilin noyabrına qədər olan dövrü əhatə edir. Bu dövrün diqqəti cəlb edən cəhət, o idi ki, Azərbaycan Respublikasında, nəhayət, ölkənin müdafiəsini və təhlükəsizliyini təmin edən rəsmi silahlı qüvvələr sistemi yaradılmağa başladı. 1991-ci il avqustun 30-da Ali Sovetin iclasında ilk dəfə Azərbaycan Respublikasının milli qvardiyasının yaradılması məsələsi müzakirə olunmuşdu. Uzun sürən müzakirələrdən sonra, sentyabr ayının 5-də Ali Sovet Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında qərar qəbul etdi və bununla da respublika Müdafiə Nazirliyinin əsası qoyuldu. Oktyabrın 9-da isə Ali Sovet «Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında» qanun qəbul etdi.

1991-ci ildə milli ordunun yaradılması haqqında qərar qəbul edilsə də, əslində Azərbaycan Respublikasının mütəşəkkil, vahid komandanlığa malik, müasir silahlarla və hərbi texnika ilə təmin edilməsi, peşəkar hərbçi kadrlarla komplektləşdirilmiş silahlı qüvvələri formalaşmamışdı. Bu isə hərbi əməliyyatların uğursuzluğuna gətirib çıxarırdı.

Ordu quruculuğu sahəsində real dövlət tədbirləri yalnız Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra görülməyə başlandı. Milli Lider çox yaxşı başa düşürdü ki, silahlı qüvvələri formalaşdırmaq, müasir səviyyəli orduya çevirmək, onu ən yeni silah-sursat və hərbi texnika ilə təchiz etmək və hərb sənətinə dərindən bələd olan kadrlar yetişdirmək üçün müəyyən vaxt tələb olunur. Bu müddət ərzində ölkənin iqtisadiyyatı inkişaf etdirilməli, resurslar səfərbər olunmalı, cəmiyyətə qələbə ruhu aşılanmalıdır. Bütün bunlar isə sonda mütəşəkkil milli ordunun formalaşmasını təmin etməli idi.

Azərbaycan Respublikasında ölkənin hərbi siyasətinə rəhbərlik etmək üçün Prezident Heydər Əliyevin Fərmanı ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı və onun ilk iclası keçirildi. Təcili keçirilən bu iclasda ölkənin ordu quruculuğu işi, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələrində şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə istiqamətləndirilmiş tədbirlər müəyyən olundu.

1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev Ermənistanın hərbi təcavüzünün və ölkə daxilində yaranmış ağır siyasi böhranın yaratdığı fəsadları, ölkənin ərazi bütövlüyü və dövlət müstəqilliyi üçün yaranmış real təhlükəni dərindən analiz edərək, milli dövlətçiliyin və ölkənin ərazi bütövlüyünün qorunması üçün erməni işğalçılarına qarşı mübarizəyə qalxmaq üçün noyabrın 2-də dövlət radio və televiziyası ilə xalqa müraciət etdi. Bu müraciət həm də milli silahlı qüvvələr quruculuğu işində yeni mərhələnin əsasını qoydu. Həmin mərhələnin əsas cəhəti ondan ibarət idi ki, silahlı qüvvələr quruculuğu işi bütövlüklə dövlətin ciddi nəzarətinə götürüldü.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı Heydər Əliyev 1993-cü il noyabrın 4-də Əfqanıstan müharibəsi iştirakçılarının könüllü olaraq cəbhəyə yollanmaq istəyən qrupu ilə, noyabrın 7-də hərbi hissələrin birinin təlim mərkəzində şəxsi heyətlə və noyabrın 30-da isə bir qrup hərbçinin valideynləri ilə görüşlər keçirdi. Dekabrın 11-12-də isə ölkənin İmişli, Beyləqan, Füzuli rayonlarına səfər etdi, cəbhənin ön xəttinə getdi və keçirilən görüşlər zamanı respublikada yaranmış vəziyyət bir daha təhlil olundu, qoşun

hissələrinin döyüş ruhunun və mübarizliyinin artırılması zəruriliyinə toxunuldu. Silahlı Qüvvələrdə hərbi vətənpərvərlik ruhunda sistemli şəkildə aparılan işlər qısa müddət ərzində öz müsbət nəticələrini verməyə başladı.

1993-cü il noyabrın 23-də Azərbaycan Respublikasının Ali Soveti «Müdafiə haqqında» qanun qəbul etdi. Qanunda ordu quruculuğunda məsul vəzifəli şəxs və orqanların fəaliyyəti sistemləşdirildi, məsuliyyət sahələri dəqiqləşdirildi.

AXC-Müsavat iqtidarı tərəfindən 1992-1993-cü illərdə yaradılmış Səhra Cəbhə İdarəsi, 33 köhnə başıpozuq hərbi hissə ləğv edildi, ölkənin müdafiə qüdrətini zəiflədə biləcək bütün maneələr aradan qaldırıldı və 36 yeni hərbi hissə yaradıldı. Səmərəli hərbi təlim üçün proqramlar hazırlandı, ordunun döyüş hazırlığının yüksəldilməsi işi dövlət başçısının ciddi nəzarəti altına alındı.

1993-cü il dekabr ayının 10-da Beyləqan istiqamətində işğalçılıq hücumlarını davam etdirən Ermənistan qoşunları son bir neçə ay ərzində ilk dəfə olaraq, yenidən təşkil edilmiş Azərbaycan Respublikası Milli Ordusunun güclü müqavimətinə rast gəldi və qətiyyətlə geri oturduldu. Azərbaycan Respublikası Milli Ordusunun döyüşçüləri hücuma keçib 30 km irəlilədilər. Minomyotçular komandiri Akif Xanəliyev döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etdi. Etibar İsmayılov qumbara ilə özünü düşmən tankının altına ataraq onu partlatdı və həyatı bahasına döyüşçü yoldaşlarını ölümdən xilas etdi. Ölümündən sonra ona Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verildi.

1994-cü il yanvarın 5-də Azərbaycan ordusu müvəffəqiyyətli əməliyyatlar nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsini, 22 kəndi düşməndən təmizlədi, hücumu genişləndirib Cəbrayıl rayonu ərazisinin bir hissəsini, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çənli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Qamışlı, Bağırlı yaşayış məntəqələrini azad etdi. Çiçəklidağı və başqa strateji yüksəklikləri ələ keçirdi, Kəlbəcər–Ağdərə yolunun tunelə qədərki hissəsini nəzarət altına aldı. Ali Baş Komandan Heydər Əliyev yaxşı bilirdi ki, yeni yaranmış orduda nizam-intizamın, döyüş əzminin artırılmasının, vahid komandanlıq altında hərbi əməliyyatlarda uğur qazanmağın yollarından biri də hər bir əsgərdə, zabitdə

vətənə, torpağa məhəbbət hissinin, milli ruhun aşılanmasıdır. O, 1994-cü il yanvarın 24-də cəbhəyə yola düşən əsgərlərə müraciətlə demişdi: «Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vətəninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz və indi cəbhəyə yola düşürsünüz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır» [9, 346].

1993-cü il dekabr – 1994-cü il yanvar döyüşlərində düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycan ordusunun itkisi bundan 1-1,5 dəfə az idi.

Lakin Rusiya Federasiyasının hərbi-şovinist və imperiyapərəst dairələri Ermənistana hərbi yardımı daha da artırırdı. Bu səbəbdən 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Kəlbəcər rayonu ərazisində uğurla başlayan «Murovdağ» əməliyyatı məğlubiyyətlə nəticələndi. Azərbaycan Respublikasında çaşqınlıq, ümidsizlik və vahimə yaratmaq üçün Ermənistan terror fəaliyyətini daha da gücləndirdi. Ermənistanın xüsusi xidmət orqanlarının bilavasitə tapşırığı ilə 1994-cü il fevralın 1-də Bakı dəmiryol vağzalında «Kislovodsk–Bakı» sərnişin qatarında törədilmiş terror aktı nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdı. Bu hadisədən 8 gün sonra Xaçmaz raoynunun Xudat stansiyasında yük vaqonu partladılmış, dövlətə böyük ziyan dəymişdi. 1994-cü il aprelin 13-də «Daqestanskiye oqni» stansiyası yaxınlığında «Moskva–Bakı» sərnişin qatarında törədilmiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdı.

Rusiya Federasiyası Cənubi Qafqaz regionunda mövqelərini qoruyub saxlamaq, qoşunlarını Ermənistan–Azərbaycan müharibəsində atəş xəttində yerləşdirmək, ağlasığmaz siyasi və iqtisadi güzəştlər əldə etmək məqsədilə 1994-cü ilin aprelində Azərbaycan Respublikasına alçaldıcı və qəbul edilməsi mümkün olmayan bir saziş layihəsi təklif etdi.

Azərbaycan Respublikasını artıq Ermənistan tərəfindən bəyənilmiş bu layihə ilə razılaşmağa məcbur etmək üçün Rusiya Federasiyasından birbaşa hərbi yardım alan ermənilər aprelin 10-dan bütün

cəbhələrdə güclü hücuma keçdilər. Azərbaycan Milli Ordusu düşmənin hücumunu müvəffəqiyyətlə dəf etdi. Goranboy rayonunun Talış və Gülüstan kəndləri uğrunda döyüşlərdə Azərbaycan əsgərləri düşməni ağır itkilər verərək geri çəkilməyə məcbur etdilər. Tərtər rayonunun İlxıçılar və Göyarx kəndləri tərəfdə gedən ağır döyüşlərdə düşmənin 200-dən çox canlı qüvvəsi məhv edildi. Lakin Rusiyadan hərbi yardım almaqda davam edən ermənilər Ağdam rayonunun daha 18 kəndini, Ağdərə bölgəsində isə bir neçə kəndi işğal edə bildilər. Respublikanın Bərdə rayonu üçün çox ciddi təhlükə yaranmışdı. Azərbaycan Respublikasının Milli Ordusu buraya əlavə qüvvələr gətirməklə düşmən hücumunun qarşısını aldı və əks-hücuma keçərək, bir neçə yaşayış məntəqəsini azad etdi. Beləliklə, Rusiyanın imperiyapərəst qüvvələrinin təklif etdiyi plan – döyüşən tərəflərin ayrılmasında ATƏM-in iştirakı olmadan, yalnız Rusiya Federasiyasının vasitəçiliyini nəzərdə tutan plan boşa çıxdı. Azərbaycan Respublikası üçün həyati əhəmiyyət kəsb edən bu məsələdə ABŞ-ın və ATƏM-in Minsk qrupunun mühüm rolu oldu.

Azərbaycan Respublikası öz suverenliyinə hörmət çərçivəsində qonşu Rusiya Federasiyasının atəşkəsə nail olmaq sahəsində səylərindən də imtina etmədi. 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, eləcə də Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının, habelə Rusiya Federasiyasının bu niyyətini təsdiq edən Bişkek protokolu Azərbaycan Respublikası tərəfindən də imzalandı.

Azərbaycan Prezidenti Heydər Əliyevin uğurlu diplomatiyası, milli ordunun yaradılması və güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişəni zorakı vasitələrə həll etmək cəhdlərinin perspektivsizliyini dərk edirdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.

1994-cü ilin dekabrında ATƏT-in Budapeşt zirvə toplantısında Prezident Heydər Əliyevin səyləri nəticəsində Azərbaycan diplomatiyası Ermənistan Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində çox böyük uğur qazandı. Zirvə toplantısında qəbul edilmiş qərara əsasən, münaqişə həll edildiyi təqdirdə regionda ATƏM-in Minsk qrupuna daxil olan ölkələrin, o cümlədən Rusiya Federasiyasının qoşunları deyil, bu beynəlxalq təşkilatın himayəsi altında bitərəf dövlətlərin hərbi qüvvələri yerləşdirilməli idi.

Prezident Heydər Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin dönməz olduğunu təsdiq edən daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. 1993-cü il sentyabrın ortalarında S.Hüseynov, Ə.Hümbətov və R.Qazıyev öz qüvvələrini birləşdirib Bakıya hücum etmək, Heydər Əliyevi hakimiyyətdən salmaq planı hazırlamışdılar. Bu məqsədlə respublikanın qərb rayonlarının ərazilərində qeyri-rəsmi hərbi qruplar yaradılmışdı. Murovdağ, Goranboy və Gədəbəy bölgələrindən 50-yə qədər, Lənkərandan 8 zirehli texnika və canlı qüvvə Gəncə ətrafındakı meşələrdə yerləşdirilmişdi və fürsət gözləməkdə idi. S.Hüseynov Gəncədə və Yevlaxda öz tərəfdarlarının müşavirəsini keçirərək, çevrilişə hazırlıq tədbirlərini müzakirə etmişdi.

Azərbaycan Respublikasında ictimai-siyasi gərginliyi gücləndirmək, ölkə əhalisi içərisində vahimə yaratmaq üçün dövlətə qarşı cinayətlərdə ittiham olunan bir neçə şəxs 1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə Milli Təhlükəsizlik Nazirliyinin istintaq təcridxanasından qaçırıldı. Sentyabrın 29-da isə Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini Afiyəddin Cəlilov və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov qətlə yetirildilər. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) Ermənistanın hərbi təcavüzünə qarşı cəbhə bölgələrində müəyyən xidmətləri olsa da, o, pozucu qüvvələrin təsiri ilə artıq cinayət yoluna düşmüşdü. XTPD-nin 30-a qədər «döyüşçüsü» 1994-cü il oktyabrın 2-də Respublika Prokurorluğunun binasına hücum edərək, Baş prokurora bədən xəsarəti yetirdilər. Daxili işlər nazirinin müavini Rövşən Cavadovun 40 nəfərlik silahlı dəstə ilə nazirliyin binasına hücumu dəf olunduqdan sonra o, qardaşı Mahir Cavadovun hərbi dəstəsinin zəbt etdiyi Respublika Prokurorluğunun binasını mühasirəyə aldı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin apardığı intensiv danışıqlar nəticəsində Cavadov qardaşları öz tərəfdarları ilə Prokurorluğun binasını tərk etdilər. Respublika Prokurorluğuna hücum, əslində, hərbi qiyam cəhdinin başlanğıcı idi. 1994-cü il oktyabrın 4-də Gəncədə S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı şəxs şəhər icra hakimiyyətinin binasını və digər dövlət əhəmiyyətli obyektləri ələ keçirdi. Paytaxt Bakıda isə iki hərbi hissənin

əsgərləri artilleriya qurğularını Prezident Sarayına, Milli Məclisin və Müdafiə Nazirliyinin binalarına tuşlayıb atəş əmrini gözləyirdilər. Oktyabrın 4-dən 5-nə keçən gecə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müstəqil milli dövlətçiliyi müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi. Gecəyarısı olmasına baxmayaraq, qısa bir vaxtda bir milyondan çox adam Prezident Sarayı qarşısına toplaşdı. Xalqın milli dövlətçiliyi və onun təminatçısı olan prezidenti müdafiə etməsi qiyamçıları öz çirkin niyyətlərindən əl çəkməyə məcbur etdi. Vəziyyətin dəyişdiyini görən Rövşən və Mahir Cavadov qardaşları Heydər Əliyevi müdafiə etdiklərini bildirdilər.

Oktyabrın 5-də Bakının Azadlıq meydanında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə izdihamlı mitinq keçirildi və xalq öz qanuni Prezidentini müdafiə etdiyini bir daha nümayiş etdirdi.

Qiyamda və dövlət çevrilişi cəhdində ittiham olunan Baş nazir S.Hüseynov tutduğu vəzifədən kənarlaşdırıldı. Başqa cinayətkarlar kimi, o da Rusiya Federasiyasına qaçdı (1996-cı ildə S.Hüseynov Rusiya Federasiyasında həbs olunaraq, Azərbaycan Respublikasına gətirildi və ədalət məhkəməsinə təqdim edildi).

Lakin Azərbaycan xalqının, onun dövlətçiliyinin qatı düşmənləri, xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olan hakimiyyət hərisləri yenə də öz çirkin niyyətlərindən əl çəkmirdilər. Onların təşəbbüsü ilə 1994-cü il dekabrın 4-də Türkiyə Cümhuriyyətindən olan bir sıra «alimlərin» bilavasitə iştirakı ilə «Azərbaycana xidmət» vəqfi tərkibində «Azərbaycan Strateji Araşdırmalar Mərkəzi» adlı təşkilat yaradıldı. Bu təşkilat Azərbaycanın milli və dövlətçilik mənafelərinə xidmət etmək əvəzinə, əslində, ölkədə siyasi müxalifətlə hərbi müxalifəti birləşdirib dövlət çevrilişi etməyi, Prezident Heydər Əliyevi fiziki cəhətdən məhv etdikdən sonra A.Mütəllibov, Ə.Əliyev (Elçibəy) və başqalarının təmsil olunduğu «Dövlət Şurası» yaratmağı planlaşdırmışdı. Yeni yaradılmış bu «mərkəzin» işində İsa Qəmbərovun başçısı olduğu Müsavat partiyası, Türkiyənin Doğru Yol Partiyasının nümayəndələri və keçmiş Prezident Ə.Əliyevin (Elçibəy) sədri olduğu AXC və onun tərəfdarları çox böyük fəallıq göstərirdilər.

1995-ci il martın 12-dən 13-nə keçən gecə respublikanın Ağstafa və Qazax rayonları ərazilərində yerləşən XTPD əməkdaşları qiyam

qaldıraraq, dövlət idarələrini zəbt etdilər. Martın 15-də XTPD-nin komandiri Rövşən Cavadovun başçılığı ilə Bakıda Nizami rayon polis idarəsinə silahlı basqın edildi, lakin onlar geri oturduldular. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 16 mart tarixli fərmanı ilə Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv edildi və onun Bakıdakı əməkdaşlarından silahı könüllü təhvil verib, 8-ci Kilometr yaşayış sahəsindəki bazalarını tərk etmək tələb olundu. Rövşən və Mahir Cavadov qardaşları Prezident Heydər Əliyevin münaqişəni dinc yolla həll etmək istəyini qətiyyətlə rədd etdilər. Onlar bazada toplaşmış silahlı dəstələri dörd hücum qrupuna bölüb, martın 17-nə keçən gecə Prezident Sarayını, Dövlət Teleradio Şirkətinin və Daxili İşlər Nazirliyinin binalarını tutmaq üçün həmlə ilə mühasirəni yarıb şəhərə çıxmağa cəhd göstərdilər. Lakin ölkə Prezidenti Heydər Əliyevin gördüyü fövqəladə tədbirlər və hökumət qüvvələrinin çevik əməliyyatı nəticəsində dövlət çevrilişi cəhdi bu dəfə də baş tutmadı, Azərbaycan Respublikası növbəti hərbi-siyasi böhrandan çıxdı.

Doğrudur, 1996-1997-ci illərdə də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə qarşı sui-qəsdlər təşkil etmək cəhdləri olsa da, bütün bunların hamısı uğursuzluqla nəticələndi. Xalq respublikanın dövlət müstəqilliyinin təminatçısı olan ölkə Prezidenti, Ümummilli lider Heydər Əliyevi dəstəklədi, siyasi yetkinlik, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirdi.

II BÖLMƏ

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN RESPUBLİKASINDA DEMOKRATİK DÖVLƏT QURUCULUĞU

(1996 – 2003)

I FƏSİL

HEYDƏR ƏLİYEV
və
AZƏRBAYCAN RESPUBLİKASINDA HÜQUQİ DÖVLƏTİN VƏ DEMOKRATİK CƏMİYYƏTİN FORMALAŞMASI

1.1. Hüquq mühafizə sisteminin möhkəmləndirilməsi

Hər bir dövlət müxtəlif tarixi inkişaf mərhələlərində özünün keçmişi, bu günü və gələcəyi ilə şərtlənən bir sıra həyati əhəmiyyətli məsələlərin həlli ehtiyacı ilə üzləşir və bunun üçün ən məqbul inkişaf yollarını müəyyən etmək seçimi qarşısında qalır. Bu zaman dövlətlərin milli maraqlara uyğun inkişaf strategiyası müəyyənləşir. Müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qoymuş Ümummilli lider Heydər Əliyev öz dühası ilə qarşıdakı bir çox onilliklər üçün millətimizin və dövlətimizin hərtərəfli inkişafının təmin olunması və yeni hüquq sisteminin formalaşdırılması istiqamətlərini müəyyən etmişdir. Məhz onun uzaqgörən siyasəti sayəsində ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi dövlətin dayaqlarının möhkəmləndirilməsinə, həyatın bütün sahələrini bürümüş tənəzzülün qarşısının alınmasına, ölkənin beynəlxalq nüfuzunun yüksəldilməsinə, iqtisadiyyatın sağlamlaşdırılmasına, hüquq islahatlarının həyata keçirilməsinə gətirib çıxarmışdır.

Azərbaycan Respublikasında demokratik hüquqi dövlət quruculuğunun fundamental əsasları Heydər Əliyev tərəfindən qoyulmuş və onun rəhbərliyi altında ölkəmizin demokratik dəyərlərə əsaslanan hüquq sisteminin formalaşdırılmasına başlanmışdır. Heydər Əliyev xəttinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev möhkəm əsaslar üzərində qurulmuş Azərbaycan milli dövlətçiliyinin qoruyucusu və milli maraqlarının təminatçısı olmaqla yanaşı,

həm də ölkəmizdə siyasi, sosial-iqtisadi, hüquqi islahatların təşəbbüskarı kimi çıxış etmişdir.

Bu baxımdan, müəyyən keçid tələtümlərini yaşamış Azərbaycan Respublikasında hüquq sisteminin və hüquq mühafizə orqanlarının inkişaf yoluna və gələcək perspektivlərinə nəzər yetirməyə ehtiyac vardır. Yəni hüquq islahatları hansı zərurətdən doğmuşdur, necə gerçəkləşdirilmişdir? Müasirləşmə tələbləri baxımından hansı dəyişikliklərə ehtiyac var və hüquq sisteminin gələcək perspektivləri necədir?

Bu suallara cavab verməklə Azərbaycan Respublikasının hüquqi, demokratik dövlət quruculuğu istiqamətində hansı inkişaf yolunu keçdiyini təsəvvür etmək mümkündür.

Azərbaycan xalqının müasir dövlətçilik tarixinə nəzər salındıqda, onun hüquq sisteminin tarixini üç dövrə bölmək olar: Azərbaycan Xalq Cümhuriyyəti dövrü, sovet hakimiyyəti dövrü, dövlət müstəqilliyinin bərpa edilməsindən sonrakı dövr.

Azərbaycan Xalq Cümhuriyyəti ilk günlərdən ölkədə demokratik prinsiplər əsasında hüquq və məhkəmə sistemi yaradılmasına böyük diqqət yetirmişdir. 1918-ci il dekabrın 26-da parlamentin ədliyyə sahəsində qəbul etdiyi «Bəyannamə»yə görə, hakimiyyətlərin bölünməsi prinsipi tanınmışdı.

«Bəyannamə» ilə ədalət mühakiməsinin keçirilməsi vəzifəsi məhkəmələrin üzərinə qoyulmuş, 1918-ci il 14 noyabr tarixli «Azərbaycanın məhkəmə palatası və onun Əsasnaməsi»nə uyğun olaraq, səlahiyyət dairəsi bütün Azərbaycan Xalq Cümhuriyyəti ərazisini əhatə edən Məhkəmə Palatası yaradılmış, ölkə ərazisində mərhələ-mərhələ digər məhkəmə instansiyalarının təsis edilməsi nəzərdə tutulmuşdu. Lakin Məhkəmə Palatasının idarə forması və onun nəzdində olan prokuror nəzarəti çar hökumətinin (1864-cü il) və Müvəqqəti hökumətin (1917-ci il) qanuniləşdirilmiş məhkəmə nizamnamələri ilə müəyyən olunmaqda davam edirdi.

Əsasnamədən əvvəl Azərbaycan Xalq Cümhuriyyətində hüquq qaydaları və qanunçuluğun möhkəmləndirilməsi məqsədilə Bakı və Gəncə şəhərlərində əvvəllər mövcud olmuş dairə məhkəmələrinin, onların nəzdindəki barışdırıcı idarələrin fəaliyyəti bərpa edilmişdi.

AXC Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı quberniyasında hüquq qaydasının bərpa olunması və qanuni

hökumətin Bakıya köçürülməsi ilə əlaqədar anarxiya dövründə müxtəlif adlarla yaradılmış məhkəmələr və məhkəmə funksiyasına malik bütün komissiyalar ləğv edilmiş, Bakı dairə məhkəməsinin və onun tabeliyindəki bütün idarələrin fəaliyyəti bərpa olunmuşdu. Bundan əlavə, bu qərarla milli prokurorluq orqanları da yaradılmışdı. 1918-ci il mayın 28-də Ədliyyə Nazirliyi təsis olunmuş, noyabrın 22-də isə Əsasnaməsi təsdiq edilmişdi. Ədliyyə Nazirliyi tərəfindən ölkənin yeni hüquq sisteminin təşkili, ədliyyə, məhkəmə və istintaq orqanlarının infrastrukturunun yaradılması ilə bağlı o dövr üçün çox mütərəqqi hesab edilən qərarlar qəbul olunmuşdu.

1918-ci il iyulun 2-də yaradılmış asayişi mühafizə dəstələri (Daxili İşlər Nazirliyinin sələfi) Xalq Cümhuriyyətinin müstəqilliyinin təmin olunmasında mühüm rol oynamış, 1919-cu il martın 28-də kəşfiyyat və əks-kəşfiyyat qurumu kimi yaradılan xüsusi bölmə (Milli Təhlükəsizlik Nazirliyinin sələfi) öz fəaliyyətinə ermənilərin Azərbaycan Xalq Cümhuriyyətinə qarşı ərazi iddialarının və azərbaycanlılara qarşı soyqırımı siyasətinin, ölkə daxilində müxtəlif təxribatların qarşısının alınması ilə başlamışdı.

Lakin bu islahatların mütərəqqiliyinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradığı üçün onları başa çatdırmaq mümkün olmamışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra SSRİ dövründə ittifaq hüquq mühafizə orqanlarının tabeliyində fəaliyyət göstərən Azərbaycan SSR-in hüquq mühafizə orqanları sosialist quruluşuna uyğun, mahiyyətcə sinfi xarakter daşısa da, müxtəlif dövrlərdə müxtəlif tələtümlər yaşasa da, 70 il ərzində ictimai qaydanın, milli təhlükəsizliyin qorunması sahəsində böyük təcrübə qazanmış, təşkilati cəhətdən möhkəmlənmişdi. Bu orqanlar sovet dövlətinin siyasi sisteminin maraqlarını müdafiə etmiş, demokratik dəyərlər deklarativ şəkildə bəyan olunsa da, reallıqda onlara əməl edilməmişdi. Bu dövrdə hüquq mühafizə orqanları nəinki məzmun dəyişikliyinə, həm də ciddi struktur dəyişikliklərinə məruz qalmışdı. Hətta özləri də repressiya qurbanına çevrilmişdi.

1930-cu və 1959-cu illərdə Ədliyyə Komissarlığının (Nazirliyinin) iki dəfə ləğv olunması, onun funksiyalarının dəfələrlə dəyişdirilməsi, gah genişləndirilməsi, gah da məhdudlaşdırılması, məhkəmə və istin-

taq orqanlarına aid funksiyaların ona verilməsi və geri alınması, səlahiyyətlərinin ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülməsi buna bariz nümunədir. İfrat mərkəzləşdirilmiş hakimiyyətə aludəçilik, ayrı-ayrı dövrlərdə ədliyyə orqanlarından repressiya aləti kimi istifadə edilməsinə yönələn dövlət siyasəti, bu orqanların bir neçə dəfə ləğv edilib yenidən qurulması ədliyyə sisteminin sabit struktura çevrilməsinə mane olmuşdu.

Maraqlıdır ki, Azərbaycan SSR Ədliyyə Nazirliyinin fəaliyyətinin bərpası və sabit inkişafının təmin edilməsi məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, onun Azərbaycan SSR-ə rəhbərliyi vaxtı – 1970-ci il oktyabrın 27-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Ədliyyə Nazirliyi yenidən təsis edilmiş və bununla Azərbaycan SSR-in ədliyyə tarixində yeni mərhələ başlanmışdı. Həmin dövrdən etibarən Ədliyyə Nazirliyi sabit, oturuşmuş struktur kimi fəaliyyət göstərmiş, məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmişdi. Ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək, onun gələcək inkişafı üçün zəmin yaradılmışdı.

1920-ci illərdə iki dəfə ləğv edilən prokurorluq və istintaq orqanları öz fəaliyyətini 1922-ci ildə, daha sonra 1936-cı ildə bərpa etmiş, Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq, birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə müstəqil quruma çevrilmişdi. 1955-ci il 24 may tarixli «SSRİ-də prokuror nəzarəti haqqında Əsasnamə»nin və 1979-cu il 30 noyabr tarixli «Prokurorluq haqqında» SSRİ qanununun qəbulu prokurorluğun inkişafına mühüm təsir göstərmişdi.

Azərbaycan SSR-in məhkəmə quruluşu da kifayət qədər ziddiyyətli inkişaf yolu keçmişdir. 1920-ci il 29 aprel tarixli dekret ilə yuxarı məhkəmə orqanı kimi işlərə həm kassasiya, həm də nəzarət qaydasında baxmaq səlahiyyətinə malik Ali İnqilabi Tribunal təsis edilmiş, 1920-ci il 12 may tarixli dekret ilə isə xalq məhkəmələrinin timsalında Azərbaycan SSR-də vahid məhkəmə sisteminin yaradılmasına ilk cəhd göstərilmişdi. SSRİ-nin ikinci Konstitusiyasının və 1937-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyasının, daha sonra 1958–1960-cı illərdə məhkəmə quruluşu haqqında qanunların qəbulu ilə məhkəmə quruluşuna müəyyən sabitlik gəlmişdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə respublikanın məhkəmə sistemində də müəyyən dönüş yaranmış və zəruri islahatlar həyata keçirilmişdi. Belə ki, Ədliyyə Nazirliyinin yenidən təşkil olunması ilə əlaqədar Ali Məhkəmədən başqa, Azərbaycan SSR-də bütün səviyyələrdə məhkəmələrə təşkilati rəhbərlik və məhkəmə idarəçiliyi işi Azərbaycan SSR Ədliyyə Nazirliyinə həvalə olunmuşdu. Bundan əlavə, 1981-ci ildə qəbul edilmiş «Məhkəmə quruluşu haqqında» yeni qanun məhkəmə orqanlarının inkişaf və möhkəmlənməsinə əhəmiyyətli təsir göstərmişdi. Məhkəmə quruluşu haqqında 1960-cı il 8 dekabr tarixli qanuna nisbətən «Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında» yeni qanun daha geniş, daha mütərəqqi xarakter daşıyırdı. Bu qanuna görə, insan və vətəndaş hüquq və azadlıqlarının məhkəmə yolu ilə müdafiəsi prosesi xeyli möhkəmləndirilmiş, Azərbaycan SSR Ali Məhkəməsinin səlahiyyət dairəsi daha da genişləndirilmişdi.

Məhkəmə hakimiyyətinin problemlərindən danışarkən deməliyik ki, sovet hakimiyyəti dövründə müstəqil və sərbəst məhkəmə hakimiyyəti olmamışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra daxili işlər orqanları, eləcə də xüsusi xidmət orqanları imperiya siyasətinin həyata keçirilməsinə və bolşevik-kommunist rejiminin gücləndirilməsinə xidmət etmişdir. Bu işdə inzibati alət rolunu oynayan Azərbaycan SSR Fövqəladə Komissiyası, bir qədər sonra isə Azərbaycan Dövlət Siyasi İdarəsi və Xalq Daxili İşlər Komissarlığı 1920–1940-cı illərdə xalqımızın minlərlə nümayəndəsini fiziki və mənəvi terrora məruz qoymuşdu. 1920-ci ilin mayından 1921-ci ilin əvvəllərinədək 48 mindən çox soydaşımız Fövqəladə Komissiya tərəfindən məhv edilmiş, 1934–1938-ci illərdə 27 min 854 nəfər Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı tərəfindən güllələnmə hökmünə məhkum olunmuşdu. Ümumiyyətlə, 1920–1950-ci illərdə repressiyaya məruz qalaraq məhv olunanların sayı 400 mini keçmiş, yarım milyondan çox insan isə ölkədən sürgün edilmişdi.

1950-ci illərin sonlarından etibarən respublikanın təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi, repressiyaya məruz qalmış bir çox insanların hüquqi və mənəvi bəraət alması istiqamətində xeyli iş görülmüşdü. Bu proses ömrünün böyük bir

hissəsini təhlükəsizlik orqanlarına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Onun Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1964-cü ildən sonrakı dövrdə orqana milli kadrların cəlb olunması, onların yetişdirilib, həlledici iş sahələrində rəhbər vəzifələrə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almışdı. Ümummilli liderimiz təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi dövrdə xüsusi xidmət orqanlarının Azərbaycan xalqının gələcəyinə hesablanmış milli təməllər üzərində formalaşdırılması, xalqımızın milli maraqlarının qorunması və özünüdərkinin dirçəldilməsi məqsədilə bir sıra mühüm tədbirlər görmüşdür. Heydər Əliyev respublika və İttifaq rəhbərliyində çalışdığı müddətdə də Azərbaycan SSR-in xüsusi xidmət orqanlarının fəaliyyətini daim diqqətdə saxlamış, öz qayğısını əsirgəməmişdir.

Tarixin bəzi taleyüklü məqamlarında, xüsusən keçid mərhələlərində bir çox insanların, bəzən isə bütün cəmiyyətin inkişaf yolunun müəyyənləşdirilməsi yükü bir şəxsin çiyinlərinə düşür. Belə vaxtda bütöv bir xalqın, ölkənin gələcəyi həmin şəxsiyyətin müdrikliyi, qətiyyəti və təcrübəsindən asılı olur.

Belə keçid mərhələlərindən biri də XX əsrin axırlarına təsadüf etmişdir. Bir tərəfdən, sovet dövlətinin o vaxtkı rəhbərliyinin respublikamıza ögey münasibəti, digər tərəfdən, həmin dövlətin rəvac verdiyi və «Böyük Ermənistan» xülyası ilə yaşayan separatçı qüvvələrin ərazi iddiaları ilə üzləşən Azərbaycan xalqının müdafiəsinə onun müdrik oğlu, dünya miqyaslı şəxsiyyət Heydər Əliyev qalxdı. Sovet dövlətinin o vaxtkı rəhbərliyi və onun Azərbaycan SSR-də olan canişinləri tərəfindən Ümummilli lider Heydər Əliyevin xalqdan təcrid edilməsinə hər vasitə ilə cəhd göstərilməsinə baxmayaraq, o, həmişə olduğu kimi, xalqın bu çətin günündə onun hüquqlarının müdafiəsi üçün öz səsini ucaltdı.

Həmin dövrdə Ə.X.Vəzirov – A.N.Mütəllibov rəhbərliyinin xəyanəti və satqınlığı, Xalq Cəbhəsinin isə səriştəsizliyi ucbatından erməni təcavüzünə layiqli cavab verilməməsi nəticəsində xalqımız fəlakət, vətəndaş qarşıdurması həddinə çatmışdı. O vaxtkı iqtidarın həyata keçirilməsi mümkün olmayan vədlər sayəsində hakimiyyəti ələ keçirməsi, xalqdan uzaq düşməsi, sosial bazasının olmaması

səbəbindən yürüdülən dövlət siyasəti məntiqi olaraq iflasa uğradı. Torpaqların bir hissəsinin itirildiyi, iqtisadiyyatın tənəzzülə uğradığı, müstəqilliyin əldən getməsinin, ölkə ərazisinin parçalanması prosesinin az qala reallaşdığı, xalqın hüquqlarının tapdalandığı, zorakılığın baş alıb getdiyi, əhalinin vahimə içərisində yaşadığı bir vaxtda xalq dövlət sükanını zəngin dövlətçilik təcrübəsi olan bir liderə – Heydər Əliyevə etibar etdi.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra demokratik, hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi. Lakin bu dövlət quruculuğu prosesi heç də sadə olmamışdır. Artıq məlum olduğu kimi, SSRİ-dən miras qalmış hüquq sistemi və qanunlar hüquqi və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinə təminat vermirdi. Cəmiyyətin gələcək inkişafı hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi.

Lakin müstəqilliyinin ilk illərində Azərbaycan Respublikası öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayırdı. 1991–1993-cü illərdə Azərbaycan Respublikasında hökm sürən xaosun, özbaşınalığın, siyasi səbatsızlığın, Ermənistanın hərbi təcavüzünün doğurduğu böhran həyati əhəmiyyətli bu vəzifələrin yerinə yetirilməsinə imkan vermirdi.

Bundan əlavə, hüquq mühafizə orqanlarının fəaliyyətinin lazımi səviyyədə təşkil olunmaması da kriminogen durumun ağırlaşmasına təsir göstərirdi. Belə ki, hüquq mühafizə orqanları tərəfindən qarşısı vaxtında alınmayan cinayətkar qruplar silahlanmış, mütəşəkkil və peşəkarlıq baxımdan möhkəmlənən təhlükəli sosial təzahürə çevrilmişdilər. Bu cinayətkar qruplar silahlı dəstələr yaradaraq sifarişli qətllər törətmiş, insanları qanunsuz azadlıqdan məhrum etmiş və digər zorakı əməllər törətmişdilər. Onlar, faktik olaraq, regionları nüfuz dairələrinə bölmüş, bəzi şəhər və rayonlarda maliyyə-kredit orqanlarını, kommersiya strukturlarını, bəzi idarəetmə orqanlarını nəzarətə götürməklə cinayət yolu ilə əldə edilmiş kapital və vəsaitləri leqallaşdırmışdılar.

1992-1993-cü illərdə prokurorluq, ədliyyə, polis, milli təhlükəsizlik, gömrük orqanlarında kadr siyasəti ciddi təhrif olunmuş, bu orqan-

lara çoxlu sayda sərištəsiz, təsadüfi, hətta kriminal keçmişi olan şəxslər qəbul edilmiş, o cümlədən rəhbər vəzifələrə irəli çəkilmişdilər ki, bu da ictimaiyyətin haqlı narazılığına səbəb olmuşdu, əhali arasında hüquq mühafizə orqanlarını nüfuzdan salmışdı.

Hüquq mühafizə orqanlarının fəaliyyətinə nəzarətin zəifləməsi nəticəsində cinayətlərin açılması sahəsində real vəziyyətin ciddi təhrif olunması cinayətkarlığa qarşı mübarizə tədbirlərinin hazırlanmasını çətinləşdirirdi. Eyni zamanda cinayətkarlığa qarşı mübarizə məqsədilə yeni dövrün çağırışlarına uyğun zəruri qanunvericilik bazasının hazırlanmasındakı ciddi çatışmazlıqlar, heç bir elmi təhlil aparılmadan cinayət qanunvericiliyinə edilən əlavə və dəyişikliklər müxtəlif normalar arasında uyğunsuzluğa və tarazlığın pozulmasına gətirib çıxarmışdı. İnsan hüquq və azadlıqlarının kütləvi şəkildə pozulmasına baxmayaraq, bu hüquqların məhkəmə müdafiəsinin təmin olunmaması vətəndaşlarda dövlətə qarşı inamsızlıq, sabahkı günə ümidsizlik yaradırdı.

Belə ağır şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıtmış Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasında milli dövlət quruculuğu prosesinə başlanılması üçün ölkədə, ilk növbədə, sabitliyin bərqərar olunması zəruriliyini dərk edirdi. Bütün çətinliklərə baxmayaraq, o, qısa müddət ərzində Azərbaycan Respublikasında sabitliyi təmin etməyə nail oldu. 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ölkəni lərzəyə salan cinayətkar dəstələrin zərərsizləşdirilməsinə, aşkar edilən silah-sursatın müsadirəsinə başlanıldı. Cinayətkarlığa qarşı mübarizə keyfiyyətcə yeni müstəviyə keçdi. Prezident Heydər Əliyevin «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, Qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» Fərmanı Konstitusiya və dövlət quruluşunun mühafizəsinə, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunmasına yönəldi və cinayətkarlığa qarşı mübarizədə əsaslı dönüş yaratdı.

Həyata keçirilən tədbirlər nəticəsində hüquq mühafizə orqanlarında və digər sahələrdə kriminal ünsürlərdən təmizlənmə işinə başlandı, cinayətkarlarla əlbir olanlar, təxribatlar törədənlər və siyasi qarşıdurma yaratmaq istəyənlər, vəzifədən sui-istifadə edən və digər qanunsuz əməllərlə məşğul olan şəxslər məsuliyyətə cəlb edildi, gör-

kəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən cinayətlərin üstü açıldı, onların sifarişçiləri və icraçıları müəyyən olunaraq cəzalandırıldılar.

Görülmüş işlər nəticəsində cinayətlərin, xüsusilə ağır cinayətlərin, reketçilik, dövlət əmlakına, ümumiyyətlə, mülkiyyətə qarşı cinayətlərin, soyğunçuluq və quldurluğun sayı əhəmiyyətli dərəcədə azaldı, cinayətlərin açılma faizi isə artdı. Məsələn, 1992-ci illə müqayisədə 2000-ci ildə cinayətlərin sayı 37,8% azaldı, cinayətlərin açılma faizi isə 67%-dən 92,4%-ə qalxdı. Azərbaycan kriminogen durum baxımından MDB məkanında ən sabit ölkəyə çevrildi.

Əldə edilən ən böyük nailiyyət isə o oldu ki, cəzasızlıq əhvalruhiyyəsinə, anarxiyaya və siyasi eksperimentlərə son qoyuldu, insanlarda olan əvvəlki illərin xofu aradan qalxdı, onlarda qanunun gücünə, hakimiyyətə, dövlətçiliyə inam, sabaha ümid yarandı.

İctimai-siyasi sabitliyin bərqərar olması ölkənin qarşısında duran taleyüklü demokratik, hüquqi dövlət quruculuğu məsələlərini həyata keçirməyə, bazar münasibətlərinə əsaslanan liberal iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya imkan yaratdı.

Ölkəmizdə, sözün əsl mənasında, demokratik dəyərlərə əsaslanan hüquq sisteminin formalaşdırılması insanların hüquq və azadlıqlarını müdafiə etməyə, azad, müstəqil ədalət mühakiməsinin bərqərar olmasına yönəlmiş hüquq islahatlarının həyata keçirilməsini zəruri etdi. Hüquq islahatlarının reallaşdırılması isə hər şeydən əvvəl yeni hüquqi dövlət quruculuğu konsepsiyasının işlənib hazırlanmasını şərtləndirdi.

Müstəqil Azərbaycan Respublikasının hüquq sisteminin keçdiyi inkişaf yolunu bir neçə mərhələyə bölmək olar.

Ölkəmizdə islahatların həyata keçirilməsi, hüquq sisteminin yenidən qurulması üçün hər şeydən əvvəl yeni konsepsiya işlənib hazırlanmalı idi. Bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə təminat yaratmalı idi.

Tarix boyu insanları ədalətli, hüquqi dövlət quruculuğu ideyası düşündürmüşdür. Antik dövrdən bu günə kimi bir çox mütəfəkkirlər

onların azadlıq, bərabərlik, qanunçuluq və demokratiya haqqında baxışlarına uyğun gələn dövlət quruculuğu problemləri ilə maraqlanmışlar. Təbii hüquq məktəbinə görə, hüquqi dövlət ideyasının əsasında ayrılmaz, təbii hüquqlara malik olan müstəqil şəxsiyyət ideyası dayanır. Hüquqi dövlətdə dövlət hakimiyyəti və şəxsiyyət arasındakı qarşılıqlı münasibətlər digər cəmiyyətlərlə müqayisədə prinsipial surətdə fərqlənir. Belə ki, totalitar dövlətdə şəxsiyyət, cəmiyyət və xalq hakimiyyəti siyasi aparatı olan dövlətə qarşı durur, ondan kənarlaşdırılır. Bu dövlətə tamhakimiyyətlilik, hüquqla məhdudlaşdırılmama, dövlətin cəmiyyətdən asılı olmaması, vətəndaşın dövlət orqanlarının və vəzifəli şəxslərin özbaşınalıq və zorakılığı qarşısında acizliyi xarakterikdir.

Bundan fərqli olaraq, hüquqi dövlət demokratiya, humanizm, insan hüquqları, siyasi və iqtisadi azadlıqlar kimi fundamental ümumbəşəri bir sərvətdir. O, cəmiyyətin bütün seqmentlərinə siyasi həyatda iştirak etməyə bərabər hüquqi imkanlar açır və hər bir fərdin hüquqlarını təmin edir.

Demokratik dövlətin başlıca əlaməti əsas dövlət orqanlarının seçkili olmasıdır. Yəni hakimiyyətin daşıyıcısı tək-tək şəxslər və yaxud şəxslər qrupu deyil, bütün xalqdır. Demokratik cəmiyyətlərdə hakimiyyətin obyektləri və subyektləri xalqın simasında cəmləşir. Referendum, seçkilər demokratik cəmiyyətin ayrılmaz atributlarıdır. Demokratik dövlətlərin məqsədi cəmiyyətin bütün təbəqələrinin maraqlarını müdafiə etməkdir. Belə dövlətin əsas əlamətləri Azərbaycan Respublikasında milli dövlət quruculuğunda öz əksini tapmışdır. Məlumdur ki, demokratiya daim inkişafda olan bir prosesdir və onun insan həyatının bütün sahələrində hakim olması üçün müəyyən bir tarixi dövrün keçilməsi zəruridir. Bəzən isə əldə edilmiş demokratik dəyərləri qoruyub saxlamaq onlara nail olmaqdan daha çətin olur. Demokratik dövlətlərin bütün fəaliyyəti xalqın rifahına xidmət edir, qanunla və ən əvvəl konstitusiya ilə nizamlanır.

1918–1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə və Əsasnaməsi 1919-cu il iyulun 21-də təsdiq edilən Müəssislər Məclisini çağıra bilməmişdi. Azərbaycan Respublikasının konstitusion quruluşunun tarixi, əsasən, SSRİ-nin tarixi ilə bağlıdır. 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurul-

tayında qəbul olunan Azərbaycan SSR-in birinci Konstitusiyası AXC-nin süqutuna gətirib çıxarmış dövlət çevrilişini qanuniləşdirmişdi. 1927-ci və 1937-ci illərdə qəbul olunan konstitusiyalar isə, əsasən, 1924-cü və 1936-cı illər SSRİ Konstitusiyalarına uyğunlaşdırmanı özündə ehtiva edirdi. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş sonuncu Konstitusiyası da 1977-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılma məqsədi daşıyırdı. Lakin o vaxt Azərbaycan SSR-ə rəhbərlik edən Ümummilli lider Heydər Əliyevin prinsipial mövqeyi sayəsində bu Konstitusiyaya Azərbaycan xalqının milli şüurunun inkişafında mühüm rol oynayan müddəa daxil edilmişdi. Söhbət Azərbaycan dilinin dövlət statusunu müəyyən edən 73-cü maddədən gedir. Xatırladaq ki, belə müddəa SSRİ-nin 15 respublikasının 12-nin konstitusiyasında öz əksini tapmamışdı.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra da 1978-ci il Konstitusiyası hüquqi qüvvəsini saxlamışdı. «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktının 4-cü maddəsinə əsasən, 1978-ci il Konstitusiyası öz qüvvəsini yalnız Konstitusiya Aktına zidd olmayan hissələrdə saxlayırdı.

1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə yaradılan Konstitusiya Komissiyası nə iclas keçirdi, nə də yeni Konstitusiya layihəsi hazırladı. 1993-cü il dekabrın 6-da yaradılan Azərbaycan Respublikasının yeni Konstitusiya Komissiyası 1994-cü ildə fəaliyyətə başladı.

Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyası layihəsinin təşəbbüskarı olan Prezident Heydər Əliyev bu istiqamətdə işləri sürətləndirmək üçün layihənin baxılmaq üçün xüsusi komissiyaya təqdim edilməsi barədə müvafiq göstəriş verdi. Azərbaycan Respublikası Prezidentinin bilavasitə sədrlik etdiyi komissiyanın tərkibinə məhkəmə, icra və qanunvericilik hakimiyyətlərinin nümayəndələri ilə yanaşı, hüquq, fəlsəfə və siyasi elmlərin nümayəndələri də daxil idi. Daxil olan təklifləri təhlil etmək üçün Komissiyanın tərkibində işçi qrup yaradılmışdı. Ümumxalq müzakirələrinin keçirilməsi məqsədilə Konstitusiya layihəsi 1995-ci il oktyabrın 15-də mətbuatda dərc olundu. Daxil olan 2450 təklifin bir qismi Konstitusiya layihəsinin son variantında nəzərə alındı və layihə noyabrın 12-də keçirilən ümumxalq səsverməsində qəbul edildi.

1995-ci il Konstitusiyası Azərbaycan Respublikasının milli dövlət quruculuğunun əsaslarını müəyyən etdi. Konstitusiyada xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olması, dövlətin demokratik, hüquqi və dünyəvi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil edilməsi kimi təməl prinsiplər təsbit olunmuşdur.

Dövlətimizin Əsas Qanununda təsbit edilmiş insan hüquq və azadlıqları beynəlxalq standartlara uyğundur. Konstitusiyanın 12-ci maddəsi dövlətin ali məqsədinin insan hüquqlarını təmin etmək olduğunu müəyyən edir. Burada insan hüquqlarının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, Konstitusiya müəyyən edir ki, insan hüquq və azadlıqlarını gözləmək və onları qorumaq bütün hakimiyyət orqanlarının borcudur. Bu hüquq və azadlıqlar birbaşa qüvvədədir, onların həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz və heç bir müddəa onların ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

Eyni zamanda hüquq və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir və heç kəs öz hüquq və azadlıqlarından sui-istifadə etməməlidir. İnsan hüquqları yalnız digər insanların hüquqları və azadlıqlarının həyata keçirilməsinə təminat verilməsi və onların müdafiə edilməsi məqsədilə məhdudlaşdırıla bilər və bu məhdudiyyətlər yalnız qanunla müəyyən edilməli və demokratik cəmiyyətin zərurətindən irəli gəlməlidir. «Demokratik cəmiyyətin zərurətindən irəli gəlmə» anlayışına gəldikdə isə, ilk növbədə, müəyyən olunmalıdır ki, insan hüquqları və azadlıqlarına qoyulan məhdudiyyətin məqsədi qanunidirmi və ikincisi, məhdudiyyət məqsədilə tətbiq olunan vasitələr nəzərdə tutulan qanuni məqsədlərə mütənasibdirmi. İnsan hüquqları sahəsində Avropa presedent hüququ belə bir fikir söyləməyə imkan verir ki, insan hüquq və azadlıqları ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırıla bilməz və bu məhdudiyyətlər həmin hüquq və azadlıqların mahiyyətini dəyişməməlidir.

İnsan hüquqlarının mühüm təminatlarından biri də onların toxunulmaz, pozulmaz və ayrılmaz olmasıdır. Bunun üçün hamı qanun və məhkəmə qarşısında bərabər olmalı, heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Həmin məqsədə nail olmaq üçün isə dövlət hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə onun irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq təminat verir.

Əsas hüquqi təminatları və dövlət idarəçilik prinsiplərini müəyyən edən Konstitusiya qəbul olunduqdan sonra demokratikləşmə və hüquq islahatları üçün hüquqi zəmin yaradılır.

Demokratiya və insan hüquqları bir-biri ilə sıx əlaqədədir. Belə ki, demokratiya insan hüquqları, insan hüquqları isə demokratiya olmadan mümkün deyildir. Bu baxımdan, demokratik təsisatların yaradılması insan hüquqlarına riayət etməklə gerçəkləşir.

Azərbaycan Respublikasında demokratikləşmə prosesi iki xüsusiyyəti ilə fərqlənir. Ənənəvi Qərb demokratiyalarından fərqli olaraq, ölkəmizdə demokratikləşmə prosesi dövlətin öz təşəbbüsü ilə başlamış, digər tərəfdən isə bu proses beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınmaqla qısa müddət ərzində gerçəkləşdirilmişdir. Bunun isə həm müsbət, həm də mənfi cəhətləri vardır. Bir tərəfdən, ölkəmiz başqa dövlətlərin səhvlərini təkrarlamadı, lakin digər tərəfdən, tətbiqi üçün hələ şərait yetişməmiş, cəmiyyətin qəbul etməyə hazır olmadığı bəzi tədbirlərin həyata keçirilməsində beynəlxalq təşkilatların təkid etməsi, bəzi standartların isə ikili xarakter daşıması ölkəmizə münasibətdə ayrı-seçkiliyin yaranmasına gətirib çıxardı. Bütün nüanslara baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə demokratik, dünyəvi və hüquqi dövlət quruculuğuna yönəlmiş hüquq islahatları dönmədən, ardıcıl şəkildə reallaşdırıldı. Hüquq islahatlarının səmərəliliyinə nail olmaq üçün bazar iqtisadiyyatı münasibətlərinə əsaslanan iqtisadi islahatlar da paralel həyata keçirilməyə başladı.

Bundan əlavə, insan hüquq və azadlıqlarının təminatı beynəlxalq standartlara tam uyğun şəkildə həyata keçirildi. İnsan hüquqlarına və azadlıqlarına göstərilən böyük diqqətin təzahürü olaraq, Prezident Heydər Əliyev 1998-ci il fevralın 22-də «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman imzaladı. Fərman Konstitusiyada təsbit olunan insan hüquq-

larının təminatının gücləndirilməsi üçün dövlət siyasətinin əsas istiqamətlərini müəyyən etdi. Fərman əsasında iyunun 18-də insan hüquqlarının müdafiəsi sahəsində ilk dövlət proqramı qəbul edildi.

Azərbaycan Respublikası dünya dövlətləri birliyinin fəal üzvü olduğunu, insan hüquq və azadlıqlarına böyük diqqət yetirdiyini bir sıra beynəlxalq müqavilələrin iştirakçısı olmaqla və həmin müqavilələrdən irəli gələn öhdəlikləri dönmədən yerinə yetirməklə təsdiqləyir. Azərbaycan Respublikası müvafiq beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir, onlara məruzələrini təqdim edir və onların tövsiyələrinə diqqətlə yanaşır.

Hüquqi dövlətdə insanların öz baxış, məslək və əqidəsini qanun çərçivəsində müdafiə və təbliğ etmək imkanları təmin edilir. Bu da siyasi partiyaların, ictimai birliklərin formalaşması və fəaliyyət göstərməsində, siyasi plüralizmdə, mətbuat azadlığında öz ifadəsini tapır.

Azərbaycan Respublikasında fikir, söz və mətbuat azadlığının inkişafına təminat yaratmaq dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Azərbaycan dövləti cəmiyyətin mütərəqqi inkişafının digər demokratik norma və dəyərlərlə yanaşı, söz və mətbuat azadlığının mövcudluğu ilə üzvi şəkildə bağlı olduğunu nəzərə alaraq, ötən dövr ərzində bu sahədə mühüm tədbirlər görmüşdür. Demokratik dövlətlərin təcrübəsindən istifadə etməklə söz və mətbuat azadlığının inkişafı üçün zəruri olan qanunvericilik bazası yaradılmışdır. Prezident Heydər Əliyevin «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» 1998-ci il 6 avqust tarixli fərmanı ilə ölkədə keçmiş hakimiyyətlərin kütləvi informasiya vasitələri üzərində tətbiq etdiyi dövlət senzurası ləğv olunmuşdur. Kütləvi informasiya vasitələrinin qeydiyyatdan keçdiyi Mətbuat və İnformasiya Nazirliyi 2000-ci ildə ləğv edilmiş və bununla da kütləvi informasiya vasitələrinin qanunvericiliyin tələblərinə uyğun olaraq demokratik şəkildə təsis edilməsi proseduru yaradılmışdır. Beləliklə, kütləvi informasiya vasitələrinin istifadəsinə və yayılmasına nəzarət edə biləcək dövlət mexanizmi aradan qaldırılmışdır.

Azərbaycan dövlətinin söz, fikir və mətbuat azadlığının inkişafı üçün apardığı siyasətin mahiyyətini ölkənin Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri, insan hüquqları ilə bağlı olan beynəlxalq müqavilələrin əsas prinsiplərini səmərəli şəkildə yerinə yetirmək və

cəmiyyətin inkişafının tələblərinə uyğun olaraq yeni hüquqi normativ aktlar işləyib hazırlamaqla onları ictimai praktikada səmərəli şəkildə həyata keçirmək təşkil edir.

Heydər Əliyevin rəhbərliyi ilə görülən qanunvericilik və icra tədbirləri nəticəsində siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri haqqında qanunlar beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycanda hazırda 54 siyasi partiya, 2487 qeyri-hökumət, o cümlədən 148 hüquq müdafiə təşkilatı, 66 həmkarlar ittifaqı və 4110 kütləvi informasiya vasitəsi qeydə alınmışdır. Onların hamısı sərbəst fəaliyyət göstərir.

Ölkəmizdə insan hüquqları sahəsində mühüm tədbirlərdən biri də Şərq aləmində ilk dəfə olaraq ölüm cəzasının ləğv edilməsidir. Azərbaycan Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1993-cü ildən icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü 1998-ci il 10 fevral tarixli qanunla tamamilə ləğv olunmuşdur. Bununla hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilərək, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunmuşdur.

Prezident Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ildən əfv və amnistiya təsisatları bərpa edilmişdir. İndiyə qədər ölkəmizdə əfv barədə 47 fərman və sərəncam verilmiş və 5 mindən çox adam əfv edilmişdir, 9 amnistiya aktı 96 mindən çox şəxsə tətbiq edilmiş, o cümlədən təxminən 25 min məhkum cəzaçəkmə müəssisələrindən azad olunmuşdur.

İnsan hüquqlarının təminatı müvafiq müdafiə mexanizmləri olmadan mümkün deyildir. Azərbaycan Respublikasının Konstitusiyası hər kəsə qanunla qadağan olunmamış üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ vermişdir. Bundan əlavə, insan hüquq və azadlıqlarının təmin olunması dövlət siyasətinin həlledici istiqaməti, bütün dövlət orqanlarının fəaliyyətinin əsas məqsədi kimi müəyyən edilmişdir. Təsadüfi deyil ki, hüquqi dövlətin ayrılmaz atributu kimi insan hüquq və azadlıqlarının qorunması sonradan ölkədə həyata keçiriləcək hüquq islahatlarının əsas prioritetinə çevrilmişdir.

Hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin

təmin edilməsi məqsədilə 1996-cı il fevralın 21-də Prezident Heydər Əliyevin təşəbbüsü ilə Hüquq İslahatları Komissiyası yaradıldı. Komissiya ilkin mərhələdə reallaşdırılacaq hüquq islahatlarının prioritetlərini müəyyən edir və Sovet İttifaqından miras qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirir. Azərbaycan Respublikasında aparılan hüquq islahatlarının təməlini ümumbəşəri demokratik prinsiplər, qanunun aliliyi və insan hüquqlarının müdafiəsi kimi fundamental dəyərlər, ədalət mühakiməsi prinsipləri təşkil edir. Eyni zamanda xalqımızın dövlətçilik tarixi və ənənələri, inkişaf etmiş ölkələrin hüquqi dövlət quruculuğu təcrübəsi nəzərə alınır.

Bundan əlavə, hüquq islahatlarının aparılması, habelə ölkəmizin Avropa təsisatlarına inteqrasiyası məqsədilə Prezident Heydər Əliyev 1996-cı il iyulun 8-də Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramını təsdiq etmiş, «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası»nın müddəaları nəzərə alınmaqla yeni qanunlar hazırlanmışdır.

Mahiyyət etibarilə hüquq islahatları qanunların və digər normativ-hüquqi aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi tədbirləri özündə ehtiva edir.

«Məhkəmələr və hakimlər haqqında», «Konstitusiya Məhkəməsi haqqında» qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində ilk, lakin çox mühüm tədbir olmaqla müstəqil məhkəmə sisteminin formalaşmasına və fəaliyyət göstərməsinə imkan yaradır, konstitusiya nəzarəti ideyası qəbul edilir.

Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi «Məhkəmələr və hakimlər haqqında» qanunda inkişaf etdirilərək öz real təminatını tapır və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaradır. Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin olunmasına, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlir, köhnə hüquq sistemindən miras qalmış korporativ münasibətləri aradan qaldırır.

Sovet məhkəmə sistemi ikipilləli olmaqla, əlavə olaraq işlərə məhkəmədə nəzarət qaydasında baxılmasını da nəzərdə tuturdu. Yeni qanunvericilik isə müxtəlif məhkəmə instansiyalarının səlahiyyətlərinə aid olan bu funksiyaların Ali Məhkəmədə cəmləşməsini aradan qaldırır və Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi məhkəmə piramidasının zirvəsində dayanır. «Məhkəmələr və hakimlər haqqında» qanun köhnə məhkəmə quruluşundan tamamilə imtina edir və beynəlxalq standartlara cavab verən yeni məhkəmə quruluşunu ehtiva edir.

Bu islahatlardan sonra ölkəmizdə birinci, apelyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi formalaşır. Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onlara hüquqa və fakta görə apelyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə məhkəmə qərarlarının kassasiya qaydasında yoxlanılmasına imkan yaradır. Bu, birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həllində süründürməçiliyin aradan qaldırılmasına, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə zəmin yaradır.

Məhkəmə qərarlarının qanuniliyi üzərində prokuror nəzarətinin aradan qaldırılması, prokurorun məhkəmədə yalnız tərəf kimi iştirak etməsi, ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı tarazlığın bərpası və onların məhkəmə prosesində bərabər hüquqlara malik olması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi, məhkəmə aidiyyətinin dəyişdirilməsinin qadağan edilməsi, məhkəmə icraatında qeyri-prosessual münasibətlərə yol verilməməsi və sair yeni müddəalar məhkəmə-hüquq sistemində ilk dəfə tətbiq edilir.

Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə və yüksək- keyfiyyətli hüquqi yardım almaq hüququ təmin olunur. Hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Hər kəsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ yaranır.

Qəbul olunmuş qanunlar məhkəmə sistemində əsaslı dəyişikliklərin aparılmasına, bu sistemin daha mütərəqqi olmasına, təkmilləşməsinə və müstəqil fəaliyyət göstərməsinə imkan yaradır.

Ölkəmizdə məhkəmələr ədalət mühakiməsi ilə bərabər, həm də yeni səlahiyyətlər kimi məhkəmə nəzarəti funksiyasını həyata keçirir. Belə ki, hər kəsin azadlıq, mənzil və şəxsi toxunulmazlıq hüququnu, şəxsi sirrinin saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və kommersiya sirrini özündə əks etdirən məlumatlar ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirlərinin görülməsi, habelə cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri və ya qərarları üzərində qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmə nəzarəti həyata keçirilir.

İlk dəfə olaraq, qanunvericilik həbs edilmiş və tutulmuş hər bir şəxsin tutulmasının qanuniliyi məsələsinin həllini məhkəmələrə həvalə edir. Yeni qanunvericilik cinayət təqibi ilə bağlı hər hansı ayrıseçkiliyi istisna edir, təqsirsizlik prezumpsiyasına təminat yaradır.

«Məhkəmələr və hakimlər haqqında» qanun hakimlərin müstəqilliyinə təminat verir. Məhkəmələrin müstəqilliyini təmin etmək məqsədilə qanunvericiliyin tələblərinə görə hər hansı bir şəxs tərəfindən və ya hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanunazidd təsir, hədə və müdaxilə edilməsi, habelə məhkəməyə hörmətsizlik göstərilməsi yolverilməz hesab edilir və qanunvericiliyə müvafiq olaraq məsuliyyətə səbəb olur. Ədalət mühakiməsi heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən qərəzsiz, ədalətlə və qanunvericiliyə müvafiq şəkildə həyata keçirilir.

Hakimlərin müstəqilliyi, həmçinin onların səlahiyyətləri dövründə siyasətsizləşdirilməsi, dəyişməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, səlahiyyətlərinə xitam verilməsinin və vəzifədən kənarlaşdırılmasının məhdudlaşdırılması ilə, hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi ilə həyata keçirilir və onlara yüksək hakim adına uyğun maddi və sosial təminatlar verilir. Ədalət mühakiməsinin zəruri şərtlərindən biri də məhkəmələrin ədalət mühakiməsini məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan, bütün prosessual tələblərin yerinə yetirilməsinə imkan verən, hakimlərin öz iradəsini ifadə etmək azadlığına təsiri istisna edən şəraitdə həyata keçirilməlidir. Məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanmalıdır.

Qanunvericilik hakimlərə geniş hüquqlar verməklə bərabər, onların üzərinə mühüm vəzifələr qoyur. Hakimlər ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etməli, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etməli, ədalətli və qərəzsiz olmalı, peşə və digər məlumatları gizli saxlamalı, ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinməlidirlər.

Beləliklə, ölkəmizdə məhkəmə hakimiyyəti həm qanunverici, həm də icra hakimiyyəti tərəfindən hüquq normalarının, ilk növbədə, konstitusion normaların pozulmasının qarşısını alaraq dövlətlə vətəndaş arasında hüquq münasibətlərinin tənzimlənməsində saxlayıcı, tarazlayıcı rol oynayır.

1997-ci ildə qəbul edilən və başlıca məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəlmiş «Konstitusiya Məhkəməsi haqqında» qanun və sonrakı dəyişikliklər Konstitusiya Məhkəməsinə Konstitusiyanın və qanunların şərh edilməsi, qanunların və digər normativ aktların, Ali Məhkəmənin qərarlarının, bələdiyyə aktlarının, dövlətlərarası və hökumətlərarası müqavilələrin Konstitusiyaya uyğunluğunun yoxlanılması, insanların konstitusion hüquqlarının müdafiəsi ilə bağlı fərdi şikayətlərə baxılması, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi səlahiyyətləri və Konstitusiyanın müdafiəsinə imkan yaradan digər səlahiyyətlər verilir.

Cəmiyyətin inkişafı, yeni iqtisadi münasibətlərə keçid prokurorluğun funksiyalarına və statusuna da yenidən baxılmasına gətirib çıxarır. Sovet İttifaqı dövründə prokurorluq mahiyyət etibarilə, demək olar ki, qeyri-məhdud səlahiyyətlərə malik idi və hakimiyyətlər bölgüsü olmadığı bir şəraitdə hətta məhkəməyə, o cümlədən Konstitusiya Məhkəməsinə aid olan bir sıra funksiyaları da həyata keçirirdi.

Prokurorluqda həyata keçirilən islahatların əsas məqsədi ölkənin gələcək inkişafına və demokratik hüquqi dövlət quruculuğu prinsiplərinə uyğun olaraq, prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkar səviyyəsinin artırılması idi.

Bu məqsədlə prokurorluq Konstitusiyada məhkəmə hakimiyyəti fəslinə daxil edilir və prokurorluğun demokratik cəmiyyətlərə xas funksiyaları müəyyən olunur. 1995-ci il Konstitusiyası prokurorluğu ərazi prokurorlarının və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi tanımış, onun statusunu müəyyənləşdirmişdir.

1999-cu ildə qəbul edilən «Prokurorluq haqqında» qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olunmuş, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırılmışdır. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilir. Prokurorluğun islah-əmək müəssisələrində və nəqliyyatda qanunların icrasına nəzarət funksiyaları aradan qaldırılmışdır.

Hazırda prokurorluğun fəaliyyət istiqamətləri aşağıdakılardır: cinayət işi başlamaq və ibtidai istintaq aparmaq, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik etmək və qanunlara riayət olunmasını təmin etmək, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icrası və tətbiqinə nəzarət, məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmə qərarlarından protest vermək, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak etmək.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» referendum aktına əsasən, prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Hüquq islahatları çərçivəsində həyata keçirilən tədbirlərdən biri də «Vəkillər və vəkillik fəaliyyəti haqqında» qanunun qəbul olunmasıdır. Bu qanun hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etməsinə, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etməsinə, fiziki və hüquqi şəxslərin hüquqlarının,

azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə olunmasına, onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaradır.

Bundan əlavə, qanun vəkillərin hüquqi statusunu müəyyənləşdirir, ittiham və müdafiə tərəflərinin hüquq bərabərliyini təmin edir, hüquqların müdafiəsinə, məhkəmədə araşdırmanın ədalətli aparılmasına və vəkilin müstəqilliyinə təminat verir.

İnsan hüquq və azadlıqlarını təmin etmək və polisin fəaliyyətini tənzimləmək məqsədilə hüquq mühafizə orqanları sistemində mühüm yer tutan «Polis haqqında» qanun qəbul edilmişdir. Qanuna görə, polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması, habelə yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Qanunda polisin səlahiyyətləri dəqiq müəyyən olunmuş, polis fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edilmiş, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət hüququ təsbit olunmuşdur.

Respublika Dövlət Təhlükəsizliyi Komitəsinin maddi-texniki və kadr bazası əsasında 1991-ci ildə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaradılmışdır. Qısa müddət ərzində təhlükəsizlik orqanlarında milliləşmə başa çatmış, onun qarşısında duran vəzifələrin məzmunu və mahiyyəti dəyişmişdir. Milli Təhlükəsizlik Nazirliyi qarşısında Azərbaycan Respublikasının suverenliyinə, Konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaq kimi vəzifələr qoyulur.

Cəmiyyətin demokratikliyi onun hər bir üzvünün, hətta qanunları pozaraq cinayət törətmiş şəxslərin hüquqlarının qorunması ilə də ölçülür. Bu mənada, penitensiar sistemdə aparılan islahatlar ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlardan geri qala bilməzdi. SSRİ-nin «QULAQ» sisteminə xas, cəzanı insan şəxsiyyətindən üstün tutan köhnə təfəkkür və stereotiplərin aradan qaldırılması məqsədilə penitensiar sistemdə hüquqi və təşkilati tədbirlər həyata keçirilmişdir.

Cəzaçəkmə müəssisələri, istintaq təcridxanaları Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılaraq, Ədliyyə Nazirliyinin tabeçiliyinə veril-

mişdir. Bu təcrübə keçmiş SSRİ məkanında ilk dəfə Azərbaycanda tətbiq edilmişdir.

Penitensiar sistemdə aparılan islahatların məqsədi həbs olunmuş şəxslərin humanist şəraitdə saxlanılmasını təmin etmək və məhkum olunmuş şəxslər üçün müasir və mütərəqqi sistem çərçivəsində islah təsiri göstərə bilən ümumi davranış qaydalarını müəyyən etmək idi. Bununla əlaqədar islah-əmək qanunvericiliyinin beynəlxalq standartlara və demokratik cəmiyyətin prinsiplərinə uyğunlaşdırılması üçün Cəzaların İcrası Məcəlləsi hazırlanarkən BMT-nin «Məhkumların davranış qaydalarının minimum standartları», Avropa Şurası tərəfindən qəbul edilmiş «Avropa penitensiar qaydaları» və digər beynəlxalq aktlar nəzərə alınmışdır. Yeni qanunvericiliklə məhbusların hüquqları gücləndirilir, şəxsi təhlükəsizlik, vicdan və din azadlıqlarına təminat verilir, onların sağlamlığı, tibbi xidmət, sanitar-gigiyena məsələləri və qidalanmaları üçün imkan yaradılır və onlara bir sıra yeni imtiyazlar verilir. Penitensiar müəssisələrin islah-təsir sistemində əsaslı dəyişikliklər baş vermişdir.

Qanun məhkum olunmuş şəxslərin vəkillə senzura olmadan yazışmasına və görüşməsinə, istirahət, mətbuat vasitələrindən məlumat almaq hüququna təminat verir.

«Beynəlxalq Qızıl Xaç Komitəsinin azadlıqdan məhrumetmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə» Azərbaycan Respublikası Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci ildə saziş imzalanmışdır və onun müddəti vaxtaşırı uzadılır. Bununla hüquq müdafiəçilərinin və qeyri-hökumət təşkilatlarının penitensiar müəssisələrdə məhbuslarla görüşmələrinə bütün imkanlar yaradılır.

Dövlət adından çıxarılmış məhkəmə qərarlarının icrası isə «Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında» qanunla təmin edilir. Məhkəmə qərarlarının, habelə cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasını təmin edən məhkəmə icraçıları xidməti yaradılmışdır.

Ölkəmizdə aparılan hüquq islahatlarının mühüm tərkib hissəsi olaraq, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi məqsədilə 2001-ci ildə demokratik dövlətlərin hüquq sistemində mühüm rol oy-

nayan qeyri-məhkəmə müdafiə mexanizmi – Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) təsisatı yaradılmışdır. İnsan hüquqları üzrə müvəkkil ölkədə insan hüquqlarının müdafiə olunması vəziyyətini öyrənir və təhlil edir.

Qanunvericilik tədbirləri çərçivəsində yeni hüquq sisteminin fəaliyyət göstərməsi üçün Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual məcəllələr, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi məcəllələri və digər məcəllələr, «Notariat haqqında», «Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında», «Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında», «Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında» və digər qanunlar qəbul edilmişdir.

1998-ci il Dövlət Proqramına əsasən, insan hüquqları sahəsində milli qanunvericiliyin beynəlxalq hüquq öhdəliklərinə uyğunlaşdırılması nəzərdə tutulur. Bu məqsədlə qanunvericilik və institusional islahatlar həyata keçirilmiş, ölkəmizin Avropa Şurasına üzvlüyü ərəfəsində milli qanunvericiliyin Avropa insan hüquqları Konvensiyası ilə müqayisəli təhlili aparılmışdır. Azərbaycan Respublikasında demokratikləşmə və insan hüquqlarına riayət istiqamətində aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi kimi, ölkəmiz 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv qəbul edilmişdir.

İndiyədək Azərbaycan Respublikası Avropa Şurasının 50-dən artıq sənədinə, o cümlədən «İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında», «Ekstradisiya haqqında», «Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında», «Zorakı cinayətlərin qurbanlarına vurulmuş ziyanın ödənilməsi haqqında», «Məhkum şəxslərin verilməsi haqqında», «Nikahdankənar doğulmuş uşaqların hüquqi statusu haqqında» konvensiyalara, «Milli azlıqların müdafiəsi haqqında» Çərçivə Konvensiyasına, «Yerli özünüidarə haqqında» Avropa Xartiyasına qoşulmuşdur.

2001-ci il dekabrın 25-də Azərbaycan Respublikası «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyasını və onun 1, 4, 6 və 7 saylı protokollarını ratifikasiya etmiş, bununla ölkə vətəndaşlarının hüquq və azadlıqlarına daha bir təminat verilmişdir. Ölkəmiz həm də Avropa İnsan Hüquqları Məhkəməsinin

yurisdiksiyasına daxil olmuşdur. Azərbaycan Respublikasının Avropa Şurasına qəbulundan cəmi bir il sonra hüquqlarının pozulduğunu iddia edən hər bir Azərbaycan Respublikasının vətəndaşı öz hüquqlarının bərpası üçün bütün dövlətdaxili prosedurlar tükəndikdən sonra Avropa Məhkəməsinə müraciət etmək hüququ əldə etmişdir.

Azərbaycan Respublikasının Avropa Şurasının sənədlərinə qoşulması milli qanunvericiliyin təkmilləşməsi, insan hüquqlarına dair beynəlxalq konvensiyalara uyğunlaşdırılması, Avropa standartlarına cavab verən yeni qanunların qəbulu və qüvvədə olan qanunvericiliyə müvafiq dəyişiklik və əlavələr edilməsi prosesini daha da sürətləndirmişdir.

İqtisadiyyatın inkişafı üçün əlverişli şəraitin yaradılması, dövlət və yerli idarə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması, korrupsiyaya qarşı mübarizənin normativ və institusional əsaslarının təkmilləşdirilməsi, eləcə də korrupsiyaya qarşı mübarizə ilə əlaqədar götürülmüş öhdəliklərin yerinə yetirilməsi məqsədilə də tədbirlər görülür.

«Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi haqqında» Azərbaycan Prezidentinin 2000-ci il 8 iyun tarixli fərmanına əsasən, ali dövlət və hüquq mühafizə orqanlarında çalışan təcrübəli mütəxəssislərin, hüquqşünas alimlər iştirakı ilə işçi qrupu yaradılmışdı. Qrupun hazırladığı «Korrupsiya ilə mübarizə haqqında» qanun layihəsi Avropa Şurasının ekspertizasından keçirilmişdir. 2004-cü il yanvarın 13-də «Korrupsiyaya qarşı mübarizə haqqında» qanun, eyni zamanda dövlətin siyasi iradəsi nümayiş etdirilərək, Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı qəbul olunmuşdur. Dövlət Proqramı normativ-hüquqi aktların qəbul olunması, dövlət qulluğuna qəbul və dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, o cümlədən iqtisadi və sosial sahədə, dövlət orqanları, o cümlədən hüquq mühafizə orqanlarının fəaliyyəti sahəsində tədbirlərin, maarifləndirmə və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi və s. məsələləri nəzərdə tutur. Bu məqsədlə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya və Baş prokurorun yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsi yaradılmışdır.

İctimai birliklərin qeydiyyatı və müraciət prosedurlarını nizamlayan qaydaların yenidən nəzərdən keçirilməsi və təkmilləşdirilməsi-

nə dair də əsaslı tədbirlər görülür. 2003-cü il dekabrın 12-də Avropa Şurasının ekspertləri və yerli qeyri-hökumət təşkilatları ilə əməkdaşlıqda hazırlanmış «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

İşgəncələrin qarşısının alınması üçün beynəlxalq təşkilatlar tərəfindən təklif edilmiş tövsiyələrin Azərbaycan Respublikası tərəfindən yerinə yetirilməsi üçün konkret tədbirlər görülür. Qəbul edilmiş yeni Cinayət Məcəlləsinə işgəncəyə görə cinayət məsuliyyətini nəzərdə tutan 132 və 133-cü maddələr daxil edilmişdir. Həmin maddələrə əsasən, şəxsdən məlumat almaq və ya onu etirafa məcbur etmək, yaxud törətdiyi və ya törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədilə öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə şəxsə işgəncə vermək, yəni onu mütəmadi olaraq döymə və sair zorakı hərəkətlərlə güclü fiziki ağrı və ya psixi iztirablar vermək cinayət məsuliyyətinə səbəb olur və beş ildən on ilədək müddətə azadlıqdan məhrumetmə növündə cəza müəyyən edilir.

Azərbaycan Respublikasının Prezidenti «Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə Qarşı Komitəsinin və Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatı ilə əlaqədar tədbirlər haqqında» sərəncam imzalamış və hesabatda göstərilən faktların yoxlanılması və tədbir görülməsi, bu sahədə insan hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlarla işin səmərəli təşkil edilməsi məqsədi ilə işçi qrupu yaradılmış və ona respublikanın hüquq mühafizə orqanları tərəfindən müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır.

Ümumiyyətlə, dövlətin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətindəki tədbirlər sırasında 2002-ci il 24 avqust referendumunda 1995-ci il Konstitusiyasına dəyişikliklərin edilməsi, habelə «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya Qanununun qəbul olunması müstəsna əhəmiyyətə malikdir. Bu tədbirlərin həyata keçirilməsi, əsasən, insan hüquqlarının daha etibarlı təminatı mexanizminin yaradılması, Azərbaycan Respublikasının Avropa Şurası qarşısında öhdəliklərinin yerinə yetirilməsi, məhkəmə

islahatları ilə bağlı dəyişikliklərin təsbit olunması, hakimiyyət bölgüsü, dövlətin idarə edilməsi ilə əlaqədar mövcud qaydaların təkmilləşdirilməsi ilə bağlıdır.

Bundan əlavə, hər kəsin, habelə ümumi yurisdiksiya məhkəmələrinin, Ombudsmanın Konstitusiya Məhkəməsinə müraciət hüququ müəyyən edilir. Bununla Konstitusiya Məhkəməsinin səlahiyyətləri artırılır. Eyni zamanda insanlara onların pozulmuş hüquq və azadlıqları ilə əlaqədar ölkədaxili prosedurlardan daha geniş istifadə etməyin hüquqi əsasları yaradılır. Artıq hər bir vətəndaş onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Konstitusiya Məhkəməsinə şikayət verə bilər. Bu qaydanın müəyyən edilməsi insan hüquq və azadlıqlarının müdafiəsinin daha bir təminatıdır.

Konstitusiyadan siyasi partiyaların, ictimai birliklərin ləğv edilməsi məsələsinə baxılması ilə bağlı Konstitusiya Məhkəməsinin səlahiyyətinə dair müddəa çıxarılmışdır. Həmin məsələyə baxılması ümumi məhkəmələrə aid edilərək, siyasi partiyalara və ictimai birliklərə apelyasiya və kassasiya şikayəti vermək, ölkənin vahid məhkəmə sisteminin bütün instansiyalarına müraciət etmək imkanı verilmişdir. Siyasi partiyaların, ictimai birliklərin Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ da məhdudlaşdırılmır.

Bütövlükdə qeyd edilməlidir ki, milli qanunvericiliyin beynəlxalq standartlara, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılması və dövlətin öz üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi istiqamətində görülmüş işlər ölkədə insan hüquqlarının təmin edilməsi, ictimai-siyasi durumun sabitləşməsi, iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmaqla, Azərbaycan Respublikasının demokratik və hüquqi dövlət kimi təşəkkülünə xidmət edir.

Beləliklə, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda həyata keçirilən hüquq islahatlarının birinci mərhələsində demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni üçpilləli məhkəmə sistemi, Konstitusiya nəzarəti, İnsan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi in-

formasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində səmərəli müdafiə mexanizmləri formalaşdırılmışdır. Beynəlxalq prinsiplərə və müasir tələblərə uyğun mütərəqqi qanunlar və məcəllələr qəbul edilmişdir.

Ölkəmizin hüquq sistemindəki bu dəyişikliklər hər bir Azərbaycan Respublikası vətəndaşının hüquq və azadlıqlarının daha dolğun təmin edilməsinə yönəldilmişdir. Məhz hər bir vətəndaşın azad cəmiyyətdə yaşaması, hüquq və azadlıqlarının müdafiəsi kimi məqsədlərin reallaşması həyata keçirilən islahatların mahiyyətini təşkil edir.

Tam əsasla demək olar ki, Ümummilli lider Heydər Əliyevin təşəbbüskarı olduğu hüquq islahatları, onun rəhbərliyi ilə həyata keçirilən tədbirlər ölkəmizdə demokratik, hüquqi dövlətin möhkəm əsaslarını yaratmışdır.

Ölkəmizin sürətli sosial-iqtisadi inkişafı və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurması, Avropa hüquq məkanına daxil olması Konstitusiyaya, bir sıra qanunvericilik aktlarına müvafiq əlavə və dəyişikliklərin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində yeni qanunların qəbulu, onları həyata keçirəcək yeni təsisatların yaradılması, məhkəmələrin və digər aidiyyəti orqanların fəaliyyətinin təkmilləşdirilməsi, qanunların tətbiqində yaranan bəzi problemlərin aradan qaldırılması, hüquqi maarifləndirmə işinin gücləndirilməsi, müasirləşdirilməsi zərurətini doğurur və islahatların davam etdirilməsini şərtləndirir.

Əsasları Ümummilli liderimiz tərəfindən qoyulan demokratik hüquqi dövlət quruculuğu prosesi hazırda onun dövlətçilik ənənələrinin davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir. Onun rəhbərliyi altında regional əhəmiyyət kəsb edən böyük enerji və nəqliyyat-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi layihələri, regionların sosial-iqtisadi inkişaf proqramları həyata keçirilir, liberal bazar münasibətlərinə keçidlə əlaqədar sahibkarlığın fəallaşması müşahidə olunur.

Prezidentin iqtisadi siyasət xəttinin əsas məqsədi iqtisadi inkişaf templərini daha da artırmaq, sosial-iqtisadi islahatları sürətləndirmək, xarici ölkələrlə iqtisadi əməkdaşlığı daha da dərinləşdirmək, yeni texnologiyaların ölkəmizə gətirilməsi ilə onun müasirləşməsinə nail olmaq və bu inkişafa mane ola biləcək amilləri aradan qaldırmaqdır.

İqtisadiyyatın sürətli inkişafı, eyni zamanda mülki və iqtisadi mübahisələrin sayının artmasına, institusional dəyişikliklərin dərinləşməsinə gətirib çıxarır. İqtisadi islahatlar prosesində yaranan yeni mülkiyyət münasibətlərinin tənzimlənməsi və mülkiyyət hüquqlarının müdafiəsi hüquq sisteminin də təkmilləşdirilməsini tələb edir.

Azərbaycan Prezidenti hüquq sisteminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılması məqsədilə bir sıra mühüm təşəbbüslərlə çıxış edir. Qanunvericilik və institusional islahatlar daha da dərinləşdirilir. Praktik tədbirlərin dairəsi isə genişləndirilir. Ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş verir.

Bu məqsədlə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan–Avropa Şurası birgə işçi qrupu yaradılmışdır, hakimlərin müstəqilliyi, seçilməsi, təyin edilməsi, ixtisasının artırılması və fəaliyyətinin qiymətləndirilməsi məsələlərinə dair müvafiq Fəaliyyət planı hazırlanır. Avropa Şurası ekspertlərinin iştirakı ilə bir sıra normativ-hüquqi sənədlər hazırlanır, məhkəmələrin işinin təkmilləşdirilməsi və onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə «Məhkəmə–Hüquq Şurası haqqında» qanun qəbul olunmuş, «Məhkəmələr və hakimlər haqqında» qanuna əsaslı dəyişikliklər edilmişdir.

Hakimlərin özünüidarə orqanı kimi nəzərdə tutulan və demokratik əsaslarla formalaşdırılan Məhkəmə–Hüquq Şurası ölkəmizdə məhkəmə sisteminin təşkilini təmin edir, vakant hakim vəzifələrinə namizədlərin seçilməsinin təşkili, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, vəzifədə irəli çəkilməsi, intizam məsuliyyətinə cəlb olunması, habelə məhkəmələr və hakimlərlə bağlı digər məsələləri səlahiyyəti daxilində həll edir.

Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə, vakant hakim vəzifələrinə namizədlərin seçilməsi qaydaları təsdiq olunmuşdur. Ölkəmizdə ilk dəfə olaraq, əsasən, hakimlərdən, habelə, prokurorluq, vəkillik, müvafiq icra hakimiyyəti və qanunvericilik orqanının nümayəndələrindən və hüquqşünas alimlərdən ibarət olan Hakimlərin Seçki Komitəsi vakant hakim vəzifələrini tutmaq istəyən şəxslərə hakim peşəsinə yiyələnmək üçün şəffaf surətdə yazılı və şifahi imtahan təşkil edir, hakim vəzifəsinə namizədləri ilkin uzunmüddətli tədris kurslarına cəlb edir, müsahibə yolu ilə onların peşə yararlılığını müəyyən edir.

2005-ci ildən etibarən hakimlərin yeni prosedurlara əsasən seçilməsi qaydası tətbiq olunmuşdur və bu sahədə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edilir.

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli fərmanı ölkəmizin məhkəmə sisteminin müasirləşdirilməsi və inkişafında böyük əhəmiyyət kəsb edir. Məhkəmə sisteminin müasirləşdirilməsinin başlıca məqsədi regionların sosial-iqtisadi inkişafı şəraitində əhalinin hüquq təsisatlarına və hüquqi yardıma tələbatının ödənilməsi üçün regionlarda yeni apelyasiya və iqtisad məhkəmələrinin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik, korrupsiya hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin, məhkəmə qərarlarının icra vəziyyətinin yaxşılaşdırılması və vətəndaşların məhkəmələrə inamının artırılması, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həll olunmasıdır.

Hazırda yüksək tələblərə cavab verən yeni nəsil hüquqşünaslarından ibarət hakim korpusunun formalaşdırılması üçün kompleks tədbirlər görülür. Hakim korpusunun genişləndirilməsi, məhkəmələrin ərazi yurisdiksiyalarının müəyyən olunması və yeni məhkəmələrin fəaliyyətinin təmin edilməsi məqsədilə hakimlərin sayı artırılmışdır.

2005-ci il oktyabrın 21-də «İnzibati icraat haqqında» qanun, 2009-cu il iyunun 30-da isə İnzibati Prosessual Məcəllə qəbul olundu. Qanun və Məcəllə 2010-cu il sentyabrın 1-də qüvvəyə mindi. Qanun inzibati hüquq sahəsində vətəndaşlar ilə dövlət arasında münasibətləri tənzimləyən çoxsaylı qanunvericilik aktlarını əvəz etməklə, inzibati icraat çərçivəsində vətəndaşların hüquqlarının daha dəqiq şəkildə təsbit olunmasına, inzibati idarəçiliyin sadələşdirilməsinə, eyni zamanda onun səmərəliliyinin artırılmasına xidmət edir.

Bu qanunla inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğvi ilə bağlı inzibati orqanların fəaliyyətinin hüquqi əsasları, prinsipləri müəyyənləşdirilir, habelə inzibati şikayətlər üzrə icraat, inzibati orqanların və vəzifəli şəxslərin məsuliyyətinə dair məsələlər nizama salınır.

İnzibati Prosessual Məcəllə inzibati mübahisələrin məhkəmə aidiyyətini, həmin mübahisələrə məhkəmələrdə baxılmasının və həllinin prosessual prinsiplərini və qaydalarını müəyyən edir.

Məcəllədə inzibati mübahisələrə dair işlərə birinci instansiya məhkəmələri qismində inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmələr tərəfindən, yuxarı instansiyalarda isə apelyasiya məhkəmələrinin və Ali Məhkəmənin inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyaları tərəfindən baxılması nəzərdə tutulur.

Regionlarda hüquq infrastrukturunun inkişafı ilə əlaqədar yeni məhkəmələrin yaradılmasını nəzərə alaraq, Respublika Prokurorluğuna məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin təşkilində müvafiq dəyişikliklər etmək, Vəkillər Kollegiyasına vəkillərin sayını və regionlarda əhaliyə göstərilən hüquqi yardımın səmərəliliyini artırmaq üçün tədbirlər görmək, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, apelyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkili və məhkəmə təcrübəsində ondan istifadə etmək tövsiyə olunmuşdur.

Ölkəmizdə baş verən sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını zəruri edir. Son illər hüquq sistemində aparılan islahatlar, qəbul edilmiş qanunvericilik aktları ədliyyə orqanlarının fəaliyyət istiqamətlərini genişləndirərək, onların qarşısında yeni vəzifələr qoyur və məsuliyyətini əhəmiyyətli dərəcədə artırır. Ədliyyə sahəsində dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi keyfiyyətcə yeni dəyişikliklərin həyata keçirilməsini, ədliyyə orqanlarının fəaliyyətinin şəffaflıq və aşkarlıq prinsipi əsasında qurulmasını, Ədliyyə Nazirliyinin işinin və strukturunun daha səmərəli təşkil edilməsini, yeni regional və yerli qurumların yaradılmasını şərtləndirir. Bunları nəzərə alaraq, ədliyyə orqanlarının inkişafı məqsədilə Azərbaycan Respublikasının Prezidenti 2006-cı il avqustun 17-də fərman imzalamışdır.

2006-cı ildə dövlət reyestrinin formalaşdırılması üçün böyük əhəmiyyəti olan «Əhalinin Dövlət Reyestri haqqında» qanun qəbul edilmişdir. Respublika əhalisinin dövlət reyestrini aparmaq üçün

Ədliyyə Nazirliyi yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti yaradılmışdır. Dövlət reyestrinin formalaşdırılması işinin mürəkkəbliyini nəzərə alaraq, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində böyük təcrübəsi olan BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq edilir.

Vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının genişləndirilməsi, hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının, notariat və müvafiq sahələrdə göstərilən hüquqi xidmətlərin müasir tələblər səviyyəsində qurulması, penitensiar müəssisələrin və məhkəmə icraçılarının işinin, qanunyaradıcı fəaliyyətin təkmilləşdirilməsi, məhkəmə ekspertizalarının keyfiyyətinin artırılması, hüquqi maarifləndirmənin və yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması, yüksək peşəkar mütəxəssislərin hazırlanması, işçilərin fəaliyyətinin qiymətləndirilməsi, qəbulun şəffaf prosedurlarla həyata keçirilməsi və digər istiqamətlər üzrə ədliyyə orqanlarının inkişafını təmin etmək məqsədilə ədliyyə sistemində müvafiq tədbirlər görülür.

Eyni zamanda yüksək peşəkar kadr korpusunun formalaşdırılması, ədliyyə və prokurorluq orqanları, vəkillik fəaliyyəti üçün ixtisaslı kadrların hazırlanması, ali hüquq təhsili olmayan ədliyyə işçilərinin hüquqi hazırlığının təmin edilməsi, ədliyyə və prokurorluq orqanlarının, vəkilliyin inkişafı naminə konseptual problemlərin tədqiq edilməsi, hüquq elminin müxtəlif sahələrinə dair fundamental və tətbiqi elmi araşdırmaların aparılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası yaradılmışdır.

Müasir dövrdə prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsəd dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, məsuliyyətlərini dərk edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə və yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Bunun üçün prokurorluğa işə qəbulun yeni şəffaf qaydaları müəyyənləşdirilmiş, hüquq tədris mərkəzi yaradılmış, prokurorluğun strukturunun təkmilləşdirilməsi, onun fəaliyyətində beynəlxalq təcrübənin, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə prokurorluq orqanlarının fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı qəbul edilmişdir.

Daxili İşlər Nazirliyinin fəaliyyətində də irəliləyişlər vardır. Polis orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı çərçivəsində əhalinin təhlükəsizliyinin, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması məqsədilə müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini nəzərdə tutan «Təhlükəsiz şəhər» sistemi layihəsi həyata keçirilir, «Giriş-çıxış və qeydiyyat» İdarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin fəaliyyəti təkmilləşdirilir. Bundan əlavə, cinayətlərin qeydiyyatında bir sıra nöqsanlar və çatışmazlıqlar aradan qaldırılır, işə qəbul prosesi müsabiqəyə əsaslanan yeni şəffaf qaydalara uyğun aparılmağa başlanılır.

Nazirliyin maddi-texniki bazası gücləndirilir, onun fəaliyyətində müasir texnologiyaların geniş tətbiqinə başlanılır, operativ fəaliyyətin daha səmərəli təmin edilməsi üçün yeni maşınlar və avadanlıqlar alınır.

Milli təhlükəsizliyin təmin edilməsi sahəsində qanunvericilik bazası təkmilləşdirilir. Suveren, demokratik dövlət kimi Azərbaycan Respublikasının inkişafını təmin etmək məqsədi ilə milli təhlükəsizlik siyasətinin hüquqi əsaslarını müəyyən edən, milli maraqların müdafiəsi ilə bağlı kəşfiyyat və əks-kəşfiyyat münasibətlərinin tənzimlənməsinə yönəlmiş qanunlar qəbul olunur. Azərbaycan Respublikasının Prezidenti 2007-ci ildə milli təhlükəsizlik prioritetlərini müəyyən edən milli təhlükəsizlik konsepsiyasını təsdiq etmişdir. Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, habelə təcavüzkar separatizm, terrorizm və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə və milli maraqların digər təhdidlərdən qorunması sahəsində təhlükəsizlik orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək, maddi-texniki bazasını və əməkdaşların sosial müdafiəsini gücləndirmək məqsədilə milli təhlükəsizlik orqanlarının fəaliyyətinin təkmilləşdirilməsinə dair 2007–2011-ci illər üçün Dövlət Proqramı qəbul olunmuşdur.

Azərbaycan Respublikasında əhalinin yaşayış səviyyəsinin yüksəlməsi, ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi, cəmiyyətdə mövcud olan tolerantlıq respublikamızı əcnəbilər üçün cəlbedici etməklə ölkəmizdə miqrasiya proseslərinin intensivləşməsinə gətirib çıxarır. Bu isə ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, miqrasiya proseslərinin tənzimlənməsinin təkmilləşdirilməsini, dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri edir.

2006-cı ildə qəbul olunmuş Dövlət Miqrasiya Proqramında miqrasiya siyasətinin prioritet istiqamətləri müəyyən edilmişdir. Proqramın icrası ilə bağlı bir sıra qanunvericilik, institusional və təşkilati tədbirlər görülür. Miqrasiya sahəsində dövlət siyasətini həyata keçirən Dövlət Miqrasiya Xidməti yaradılmışdır. Miqrasiya idarəetmə mexanizminin təkmilləşdirilməsi, Azərbaycan Respublikasına gələn əcnəbilərə ölkə ərazisində qanuni əsaslarla yaşamaları və əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələrin verilməsi, onların yaşayış yeri üzrə qeydiyyata alınması prosedurunun sadələşdirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə 2009-cu il iyulun 1-dən miqrasiya proseslərinin idarə olunmasında «bir pəncərə» prinsipi tətbiq edilir. Miqrasiya sahəsində uçot və nəzarətin etibarlı təşkili məqsədilə Vahid informasiya sistemi formalaşdırılır.

Bu sahədə mühüm tədbirlərdən biri də Biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007–2012-ci illər üçün Dövlət Proqramının təsdiq olunmasıdır. Proqram ənənəvi eyniləşdirmə üsulları ilə müqayisədə daha səmərəli olan biometrik eyniləşdirmə texnologiyalarının yaradılmasını, beynəlxalq standartlara uyğun yeni nəsil biometrik sənədlərin istehsalını və tətbiqini nəzərdə tutur. Dövlət proqramının həyata keçirilməsi milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi, o cümlədən terrorçuluğa, qeyri-qanuni miqrasiyaya, insan alverinə və cinayətkarlığın doğurduğu digər təhdidlərə qarşı mübarizənin informasiya təminatının gücləndirilməsinə xidmət edir.

Ötən illər ərzində Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirir, beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edir.

Eyni zamanda normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun, dövlət orqanlarının, insan hüquqlarının müdafiə mexanizmlərinin səmərəli fəaliyyətinin təmin olunması, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilir. İnsan hüquqlarının müdafiəsi sahəsində tədbirləri genişləndirmək məqsədilə Azərbaycan Respublikası Prezi-

dentinin 2006-cı il 28 dekabr tarixli sərəncamı ilə Milli fəaliyyət Planı təsdiq olunmuşdur.

2009-cu il martın 18-də keçirilən referendum nəticəsində Konstitusiyaya edilən əlavə və dəyişikliklər hüquqi təminatları daha da gücləndirir. Konstitusiyanın 12-ci maddəsinə edilmiş əlavəyə görə, dövlətin ali məqsədləri sırasına insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi ilə yanaşı, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin olunması daxil edilir. Sosial dövlət quruculuğu konstitusion səviyyədə təsbit olunur. Seçki hüququ olan 40 min vətəndaşın qanunvericilik təşəbbüsü hüququ təsbit edilir, hamının qanun qarşısında bərabərlik prinsipi bir daha təsdiqlənir. Şəxsi toxunulmazlıq hüququnun, əqidə və söz azadlığının səmərəli müdafiəsi ilə bağlı əlavə müddəalar daxil edilir. Ədalət mühakiməsi ilə bağlı bəzi normalara konstitusion status verilir.

İnsan hüquqları sahəsində qanunvericilik tədbirləri davam etdirilir. Hazırda Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada tutulmuş və ya barəsində həbs qətimkan tədbiri seçilmiş şəxslərin həbs yerlərində hüquq və azadlıqlarının təmin olunması sahəsində yaranan münasibətlərinin hərtərəfli tənzimlənməsi məqsədiilə «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» qanunun layihəsi hazırlanmışdır. Qanun layihəsində Konstitusiyanın, Cinayət-Prosessual Məcəlləsinin, Avropa Penitensiar Qaydalarının, hüquq pozuntusu törədən yetkinlik yaşına çatmayan şəxslər barədə Avropa Qaydalarının müddəaları, Avropa Məhkəməsinin presedent hüququ, İşgəncələrə Qarşı Komitənin rəyləri nəzərə alınmışdır.

Dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən proqram və layihələrin həyata keçirilməsində dövlət orqanları ilə qeyri-hökumət təşkilatlarının əməkdaşlığını təmin etmək üçün Azərbaycan Respublikasının Prezidenti qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasını təsdiq etmişdir. Konsepsiyaya əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf tempinin qorunub saxlanmasına və bu inkişafa mane olan amillərin aradan qaldırılmasına yönəlmiş korrupsiyaya qarşı mübarizə tədbirlərinin

davam etdirilməsi məqsədilə 2007-ci ilin iyulunda «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli strategiya» qəbul edilmişdir. Milli strategiya dövlət idarəçiliyində şəffaflığın artırılmasını əsas vəzifə kimi müəyyən edir, vətəndaş cəmiyyəti təsisatları ilə əməkdaşlığa və tərəfdaşlığa xüsusi önəm verir.

Eyni zamanda dövlət və bələdiyyə əmlakının və maliyyə vəsaitlərinin idarə olunmasında nöqsanların və korrupsiya hallarının nəzərə çarpması müşahidə olunur. Bu isə maliyyə vəsaitlərinin səmərəli xərclənməsində ciddi nəzarətin həyata keçirilməsini, korrupsiya halları ilə mübarizənin gücləndirilməsini, hüquqpozmalar barədə müraciətlərdə göstərilən halların yoxlanılmasına diqqətin artırılmasını zəruri edir. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 iyun tarixli fərmanı dövlət orqanları, xüsusilə prokurorluq və Ədliyyə Nazirliyi qarşısında mühüm vəzifələr qoyur.

2009-cu il fevralın 23-də isə Azərbaycan Respublikasının Prezidenti «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» qanunun tətbiq edilməsi barədə fərman imzalamışdır. Bu fərman əsasında Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2009-cu ilin sonunda ölkə iqtisadiyyatında keçid dövrünün başa çatdığını elan etmişdir. Keçid dövrünün başa çatması həm iqtisadiyyatda, həm də həyatın digər sahələrində yeni mərhələnin başlanğıcıdır. Yeni mərhələnin isə öz hədəfləri və vəzifələri var. Bu baxımdan, dövlət başçısı insan amilini ön plana çəkərək demişdir: «Bizim bütün siyasətimizin başında Azərbaycan vətəndaşı dayanır. Mən başda olmaqla, bütün məmurlar xalqın xidmətçiləridir. ... Prezident kimi həm mən, həm bütün dövlət məmurları, bütün icra hakimiyyəti başçıları, bütün nazirlər həmişə insanlara xidmət göstərməliyik. Xüsusilə o insanlara ki, onların bu diqqətə, bu yardıma daha da böyük ehtiyacları vardır. ...Azərbaycan dövləti sosial məsələlərin həlli istiqamətində öz siyasətini davam etdirəcək və bu yolda qarşıda duran bütün məsələlər tezliklə həllini tapacaqdır».

Ümummilli lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz belə demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmişdir və hazırda Azərbaycan Respub-

likasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Şübhə yoxdur ki, Azərbaycan Respublikası Prezidentinin hüquqi siyasət xətti qısa müddətdə ədalət mühakiməsini və hüquq mühafizə fəaliyyətini keyfiyyətcə yeni səviyyəyə qaldıracaq, hüquq sisteminin müasirləşməsinə gətirib çıxaracaqdır.

1.2. İnsan hüquqları və azadlıqlarının təmin edilməsi

«Müstəqilliyi əldə etmək asandır, onu qoruyub saxlamaq isə çox çətindir. Biz bütün bu çətinliklərdən keçdik, bütün maneələrin qarşısını aldıq, Azərbaycanın düşmənlərinə layiqli cavab verdik, ölkəmizin dövlət müstəqilliyini qoruduq, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etdik. Azərbaycanın dövlət müstəqilliyini yaşadırıq və bundan sonra da yaşadacağıq!»

Heydər Əliyev

Azərbaycan xalqı əsrlər boyu milli azadlıq hüququnu təmin etmək, müstəqil yaşamaq haqqına nail olmaq arzusu ilə yaşamışdır. XX əsrin əvvəllərində əldə olunmuş suverenliyin qorunub saxlanması kimi tarixi vəzifə məlum səbəblər üzündən Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən gerçəkləşdirilə bilməmişdir. Müstəqilliyin təmin edilməsi və qorunub saxlanmasının nə qədər çətin olduğunu dəfələrlə bəyan etmiş ulu öndər Heydər Əliyev ötən yüzilliyin sonunda Azərbaycan xalqının bu fundamental haqqını gerçəkliyə çevirdi.

Hər il xalqımız çoxəsrlik tarixinin ən parlaq səhifələrindən biri olan Dövlət müstəqilliyi gününü qeyd edərkən həmin kəşməkəşli zamanda milyonlarla azərbaycanlının təməl hüququnu – müstəqil məmləkətdə yaşamaq, azad ölkənin vətəndaşı olmaq hüququnu təmin edən Ümummilli liderin ruhu qarşısında baş əyir. Ancaq bu gün azadlıq və hüquq sözlərini bol-bol işlədən bəzi insanlar 1991-ci ildə belə bir fürsət yarandığı vaxt, Ulu öndərin sözləri ilə desək, bundan nəinki istifadə etməmişdilər, hətta istifadə etməkdən imtina etmişdilər.

1993–1995-ci illər Azərbaycan Respublikasının ən yeni tarixində ən ağrılı illər kimi yadda qalmışdır. Ölkəmizin daim inkişaf etdiyi in-

diki vaxtda hər bir azərbaycanlı tarixi müstəqillik arzusunun həmin illərdə ən çətin, bəlkə də artıq sonuncu dəfə sınaqdan çıxdığını tam dərk etməlidir. Bunun üçün, daha doğrusu, Ulu öndərin dövlətçilik qarşısında xidmətlərini başa düşmək və müstəqilliyin bir də heç vaxt təhlükə qarşısında qalmasına yol verməmək üçün biz həmin tarixə ən həssas münasibət bəsləməliyik.

Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti tərəfindən «Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında» Konstitusiya aktı qəbul edilmiş və həmin vaxtdan Azərbaycan müstəqil dövlət kimi rəsmən tanınmışdır. Lakin az sonra Xalq Cəbhəsinin qısamüddətli hakimiyyəti ölkəmizi vətəndaş müharibəsi həddinə gətirib çıxarmış, sərişdəsizlik, özbaşınalıq, daxili didişmələr, ayrı-ayrı «liderlərin» mənəm-mənəmlik iddiası yenicə müstəqillik qazanmış Azərbaycan Respublikası dövlətini, sözün tam mənasında, sarsıtmışdı. Respublikada bu xaosu, hərc-mərcliyi görən daxili və xarici düşmənlərimiz münaqişəni daha da dərinləşdirirdilər. Azərbaycan Respublikası bölgələrə parçalanmaq həddinə gəlib çatmışdı və ölkənin taleyini düşünməyən ayrı-ayrı silahlı dəstələrin başçıları bu hərc-mərclikdən istifadə edərək, hakimiyyət uğrunda mübarizə apararaq torpaqları döyüşsüz təhvil verirdilər. Ölkə başsız, ordu isə sərkərdəsiz qalmışdı. Azərbaycan Respublikasında baş qaldırmış mənfi meyillər ölkəni uçuruma aparırdı və Azərbaycan Respublikası dağılmaq, parçalanmaq ərəfəsində idi.

Azərbaycan Respublikası beynəlxalq aləmdə olan-qalan nüfuzunu da tamamilə itirmişdi. Xalq ümidsizlik və təlaş içərisində idi, sabaha inam qalmamışdı. Ən təhlükəlisi isə o idi ki, Azərbaycan xalqının xaricdəki düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Daşnakların «Böyük Ermənistan» yaratmaq niyyətləri, tarixi düşmənlərimizin paytaxtlarında hazırlanmış və Azərbaycan Respublikasını Cənubi Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan Respublikası ərazisi etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bakı yaxınlığında – Navahı kəndində vətəndaş müharibəsinin ilk güllələri atılmış, qardaş qanı axıdılmışdı.

1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilən Heydər Əliyev iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçir-

məyə başladı və 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində dövlət başçısı seçildi.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdığı 15 iyun – Qurtuluş günü tariximizə Azərbaycan xalqının fəlakətlərdən xilas olmasının, hər cür qarşıdurmaya son qoyulmasının, separatçılıq meyillərinin aradan qaldırılmasının, müstəqil milli dövlətçiliyin qorunub saxlanması və möhkəmləndirilməsinin başlanğıcı kimi daxil olmuşdur.

Heydər Əliyevin Azərbaycan Respublikası rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, müstəqil demokratik, hüquqi dövlət quruculuğu prosesi başlandı, 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, ictimai-siyasi sabitlik bərqərar edildi. Bir qədər irəli gedərək xatırladaq ki, dövlətçiliyin qorunması və xarici siyasətin, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələrin milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə qurulması nəticəsində Ulu öndər demokratik, hüquqi dövlət quruculuğu yönündə ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaradılmasını təmin etdi. 1995-ci və 2000-ci illərdə çoxpartiyalılıq əsasında parlament seçkiləri keçirildi; Konstitusiya Məhkəməsi fəaliyyətə başladı; Azərbaycan Respublikasında ölüm cəzası, mətbuat üzərində senzura ləğv olundu; 1995-ci ilin mayında əfvetmə institutu bərpa edildi, minlərlə məhbus müxtəlif cəzalardan tam və ya qismən azad olundu; Azərbaycan Respublikası 1996-cı ilin iyunundan Avropa Şurasında «xüsusi qonaq» statusu aldı, 2001-ci il yanvarın 25-də isə qurumun tamhüquqlu üzvü oldu. Bütün bunların təməlində isə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi dururdu.

Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra cəmiyyətin əsas prinsiplərini özündə əks etdirən yeni Konstitusiyanın – Əsas Qanunun qəbul olunmasına zərurət yaranmışdı. Lakin AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə bu məsələ sanki yada düşmür, respublikamız keçmiş SSRİ-nin qanunları ilə idarə olunurdu.

Suveren dövlətin ilk Konstitusiyasının yaradıcısı Heydər Əliyev bu məsələyə toxunaraq demişdir: «Oktyabrın 18-də müstəqillik

haqqında Konstitusiya aktı qəbul edildi ... Lakin, Azərbaycan xalqının iradəsinə zidd olaraq, o zaman Azərbaycan Respublikasının rəhbərliyi müstəqilliyə getmək istəmirdi ... Güman edirəm, o vaxt Azərbaycan rəhbərliyində bəziləri ümid bəsləyirdilər ki, Sovetlər İttifaqı hələ yaşayacaqdır... Çünki 1991-ci ilin martında Azərbaycan rəhbərliyi bir referendum keçirib qərar qəbul etdi ki, Sovetlər İttifaqı saxlanmalıdır. Onlar bu siyasətdən, yəni bu istiqamətdən, görünür ki, əl çəkə bilmirdilər. Avqustun 30-da müstəqillik haqqında bəyanat qəbul ediləndən sonra yalnız oktyabrın 18-də dövlət müstəqilliyi haqqında Konstitusiya aktı da referendumdan keçməli idi. Bu, təbiidir. Çünki 1991-ci ilin martında Sovetlər İttifaqının saxlanması haqqında referendum təşkil olunmuşdu. Əgər oktyabrın 18-də Konstitusiya aktı qəbul olunmuşdusa, bir aydan sonra, noyabrın 18-də referendum keçirilə bilərdi. Çünki bir ay müddətində elan edib referendum keçirmək olar. Ancaq, nədənsə, bu referendumu noyabrın 18-nə də yox, dekabrın 18-nə də yox, dekabrın 29-na salmışdılar və referendum həmin gün keçirildi» [12, 316].

Yeni Konstitusiyanın yaradılması ideyasının irəli sürülməsində, onun layihəsinin hazırlanması və qəbul olunmasında dünya şöhrətli siyasi və ictimai, dövlət xadimi Heydər Əliyevin müstəsna rolu və əməyi olmuşdur. Məhz buna görə də haqlı olaraq Azərbaycan Respublikasının Konstitusiyasını xalq arasında «Heydər Əliyev Konstitusiyası» adlandırırlar.

Ümummilli liderin rəhbərliyi ilə Konstitusiyanın hazırlanması ilə əlaqədar komissiya təşkil olundu. Komissiyanın əsas vəzifəsi müstəqil Azərbaycan Respublikasının Konstitusiyasını və parlamentinin səlahiyyətlərinin sona çatması ilə əlaqədar Milli Məclisə seçkilər haqqında qanun layihəsini hazırlamaq idi. Komissiya seçki qanununun layihəsini hazırlayıb Milli Məclisin müzakirəsinə təqdim etdi. Milli Məclis qanun layihəsini müzakirə edərək qəbul etdi və müstəqil Azərbaycan Respublikasının birinci parlamentinə seçkilərin günü təyin olundu.

Ümummilli lider Heydər Əliyev komissiyanın iclasındakı tarixi çıxışında demişdir: «İndiyə qədər Azərbaycan Respublikası 1978-ci ildə qəbul olunmuş Konstitusiya ilə yaşayır, işləyir. Biz müstəqil Azərbaycan Respublikasının, demək olar, ilk Konstitusiyasını yaradırıq. Çünki 1919-cu ildə qəbul olunmuş müstəqillik haqqında Akt, – biz onu konstitusiya xarakterli bir sənəd kimi qəbul edirik, – konstitusiya olmayıbdır. Bizim

yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq. Demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu proseslərini və bunu təmin etmək üçün bütün şərtləri, müddəaları konstitusiya özündə əks etdirməlidir. Demokratiya prinsipləri geniş məfhumdur. Əgər bu, bir tərəfdən, insanların, vətəndaşların hüquqlarının təmin edilməsi prinsipləridirsə, ikinci tərəfdən, dövlətçiliyin qurulmasını, dövlət quruculuğu prosesinin aparılmasını, inkişaf etdirilməsini və Azərbaycanda həm dövlətin, həm xalqın, həm də hər bir vətəndaşın hüquqlarının qorunmasına təminat verə bilən dövlətin qurulub yaranmasını təmin edən prinsiplər olmalıdır.

Konstitusiyada dövlətin, Azərbaycanın bu ağır keçid dövründə, bir də qeyd edirəm, vətəndaşların hüquqlarını qorumaq, dövlətçiliyi qorumaq üçün təminatlar olmalıdır. Bu iki il müddətində biz sizinlə birlikdə, Azərbaycanın dövlətçiliyini dağıtmaq, pozmaq cəhdlərinin dəfələrlə şahidi olmuşuq. Bax buna görə də bizim bu gün və gələcəkdə qəbul edəcəyimiz qanunlar və xüsusən əsas qanunumuz – Konstitusiya gərək elə bir konstitusiya olsun ki, bir tərəfdən, insanların hüquqlarını qorusun, insan azadlıqlarını, demokratiyanı təmin etsin, siyasi plüralizmi təmin etsin, mətbuat, söz, din, dil azadlığını təmin etsin, ikinci tərəfdən isə dövləti, cəmiyyəti idarə etmək üçün təsisatların yaranmasını təmin etsin ki, bu cür hallara yol verilməsin. Ona görə də, güman edirəm, biz elə bir konstitusiya yaradacağıq ki, bu Konstitusiya Azərbaycan Respublikasının nəinki qısa müddətdə, həm də uzun müddətdə müstəqillik yolu ilə getməsini təmin edəcəkdir, Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını təmin edəcəkdir və ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir» [12, 317-318].

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının referendum yolu ilə qəbulu müasir milli tariximizin mötəbər hadisələrindən biri olmaqla, Ümummilli liderin Azərbaycan milli dövlətçiliyi qarşısındakı ən mühüm xidmətlərindən sayılır. Məhz elə buna görə də əminliklə deyə bilərik ki, 1993-cü ildən sonrakı dövr Azərbaycan Respublikası tarixinə hüquqi dövlət quruculuğu, insan hüquqları və azadlıqlarının inkişaf tarixində dönüş mərhələsi kimi qiymətləndirilir. Demokratiya və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin siyasi-hüquqi strukturu, habelə ictimai münasibətlər sistemi ümumxalq iradəsi əsasında müəyyənləşən, beynəlxalq hüquq normaları ilə uzlaşan fundamental təməl prinsiplərinə söykənir. Hüquqi dövlətin mahiyyəti isə cəmiyyətin əsas qanunu, bazisi qismində çıxış edən konstitusiyanın bəşəri demokratik dəyərlərə nə dərəcədə uyğun olub-olmaması ilə şərtlənir. Zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı da müstəqil dövlətçiliyin mühüm atributu olan Konstitusiyasını qəbul etməklə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu, eləcə də insan hüquqları və azadlıqlarının prioritetliyini özü üçün tam yəqinləşdirmişdir.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası nəinki ölkənin, habelə xalqın dövlətçilik iradəsini, suverenliyini ifadə edən Əsas Qanun olmaqla, cəmiyyətin ictimai-siyasi təsisatlarının fəaliyyətini, dövlətin özünüidarə sistemini tənzimləyərək, vətəndaş cəmiyyətinin formalaşması və inkişafının hüquqi təminatçısı qismində çıxış edir. Konstitusiyanın yüksək məziyyətləri insan və vətəndaş hüquqlarının kifayət qədər aydın və sadə şəkildə təsbit olunması və bunun dövlətin ali məqsədi elan edilməsidir. İnsan hüquqlarına belə həssas münasibət inkişaf etmiş bir sıra dövlətlərin konstitusiyalarında da bu qədər aydın və geniş göstərilməmişdir.

Konstitusiyada əksini tapmış mühüm müddəalardan biri də xalqın hüquq və mənafeləri ilə bağlı bütün məsələlərin referendum yolu ilə həllinin nəzərdə tutulmasıdır. Konkret olaraq 3-cü maddədə göstərilir ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu və ona dəyişikliklər edilməsi, habelə Azərbaycan Respublikasının dövlət sərhədlərinin dəyişdirilməsi məsələləri yalnız ümumxalq referendumu yolu ilə həll oluna bilər.

Demokratik, hüquqi dövlət quruculuğu, insan hüquqları və azadlıqlarının fundamental prinsiplərinin bərqərar olmasına zəmin yaradan ardıcıl, məqsədyönlü tədbirlərin həyata keçirilməsinə doğru aparan islahatlar Heydər Əliyev siyasi xəttinin əsasını təşkil etmişdir. Humanizm, sosial ədalət prinsiplərinin möhkəmlənməsi, demokratik islahatların aparılmasında müsbət dünya təcrübəsinin mənimsənilməsi, insan hüquqları və azadlıqlarının qorunması onun rəhbərliyinin bütün dövrlərində fəaliyyətinin mahiyyətini təşkil edən dəyərlər olmuşdur.

Konstitusiyanın 7-ci maddəsində deyilir: «Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar, suveren respublikadır».

Bu gün həmin maddəni hər bir vətəndaş, demək olar ki, əzbər bilir. Lakin burada vurğulanan hər bir kəlmənin arxasında nə qədər möhtəşəm quruculuq işlərinin durduğunu hamının dərk etməsi çətindir. Ən azı ona görə ki, Azərbaycan Respublikası dövləti müstəqilliyin əldə edilməsi ilə paralel şəkildə tarixdə ilk dəfə olaraq milli dövlət, müstəqil, demokratik, hüquqi dövlət quruculuğu vəzifələrini eyni vaxtda və qısa bir müddətdə həyata keçirmək tələbləri ilə üz-üzə qalmışdı. Əgər tarixə nəzər salsaq, dövlət quruculuğunun müxtəlif dövrlərinə müvafiq gələn bu mərhələlərin hər birini dünya ölkələri çox böyük bir zaman müddətində, tədricən keçmiş, təkamül yolu ilə onları ardıcıl qət etmişdir.

«Azərbaycan dövləti hüquqi respublikadır» – ifadəsi dövlətimizin konstitusion xarakteristikalarından biridir. Hüquqi dövlət – dövlətin təşkili və fəaliyyətinin elə bir formasıdır ki, burada insan və vətəndaş hüquqları və azadlıqları təmin olunur, dövlət hakimiyyətinin fiziki şəxslər və onların müxtəlif birlikləri ilə əlaqələri hüquq əsasında qurulur. Belə dövlət quruculuğunun əsas cəhətləri aşağıdakılardır:

– hakimiyyətin bölünməsi prinsipi;

– ictimai həyatın bütün sahələrində konstitusiya qanunlarının aliliyi;

– insanların və vətəndaşların hüquqları və azadlıqlarının həyata keçirilməsinin təmin edilməsi;

– Konstitusiya və qanunlar çərçivəsində dövlətin fəaliyyət göstərməsi;

– beynəlxalq hüququn hamılıqla tanınmış prinsiplərinin və normalarının üstünlüyü;

– dövlət tərəfindən insan və vətəndaş hüquqları və azadlıqlarının tanınması, onlara əməl olunması və onların müdafiə edilməsi;

– dövlətlə şəxsiyyət arasında qarşılıqlı məsuliyyət;

– məhkəmənin müstəqilliyi, hakimiyyət üzərində və konstitusiyaya əməl olunması üzərində məhkəmə nəzarəti;

– qanunçuluğun, şəxsi təhlükəsizliyin, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmini;

– siyasi və ideoloji plüralizm.

Hüquqi dövlət anlayışı özündə konstitusion əsaslı demokratik dövlət anlayışında mövcud olan əlamətləri birləşdirir. Lakin hüquqi dövlətin özünəməxsus əlamətlərinin üzərində dayansaq, hüquqi dövlət haqqında daha geniş, aydın təsəvvür yaratmış olarıq. Bu prinsiplər, əsasən, aşağıdakılardır:

– hüququn aliliyi;

– hakimiyyətin bölünməsi;

– hamının qanun qarşısında bərabərliyi;

– hüquq və azadlıqların üstünlüyü;

– insan və vətəndaş hüquqları və azadlıqlarının real təminatı;

– qarşılıqlı məsuliyyət, yəni şəxsin dövlət qarşısında və dövlətin şəxs qarşısında məsuliyyəti;

– məhkəmə hakimiyyətinin müstəqilliyi.

İnsan hüquqları və azadlıqlarının təmin edilməsi, hüquqi, demokratik və dünyəvi dövlət yaradılması, vətəndaş cəmiyyətinin qurulması həmişə bəşəriyyəti düşündürən problemlərdən olmuşdur. Tarixə nəzər salsaq, hələ qədim Roma dövründə qanunun aliliyinin təmin edilməsi ilə yanaşı, hüquqi dövlətin digər mühüm əlaməti olan hakimiyyətin bölünməsi prinsipinin rüşeyminə rast gələrik. Həmin dövrün mütəfəkkirləri insanların qanun qarşısında bərabərliyini və şəxsiyyətin azadlıqlarını, ictimai həyatın hüquqi nizama salınmasını tələb edirdilər.

Hüquqi dövlət bir ideya, elm, nəzəriyyə, siyasi konsepsiya və praktika kimi bəşəriyyətin azadlıq, ədalət uğrunda mübarizəsi nəticəsində əldə etdiyi nailiyyətlərin ən mühümüdür. Məhz hüquqi dövlət şəraitində əsas insan və vətəndaş hüquqları və azadlıqları, hamının qanun və məhkəmə qarşısında bərabərliyi, vətəndaş cəmiyyətinin bərqərar olunması təmin edilə bilər. Hazırda qabaqcıl ölkələrdə

artıq dövlətin tarixi tiplərindən daha biri – sosial dövlət quruculuğu mərhələsi əsas mövzudur.

Ölkədə hüquq islahatlarının ardıcıl və davamlı həyata keçirilməsi məqsədilə ümummilli lider Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli sərəncamı ilə Hüquq İslahatları Komissiyası yaradılmışdır. Həmin Komissiyanın beynəlxalq ekspertlərin iştirakı ilə hazırladığı, Avropa standartlarına uyğun bütöv bir qanunvericilik sisteminin – Cinayət Məcəlləsinin, Cinayət-Prosessual Məcəllənin, Mülki-Prosessual Məcəllənin, «Prokurorluq haqqında», «Vəkillik haqqında», «Polis haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında», eləcə də «Notariat haqqında», «Bələdiyyələrin seçkiləri haqqında» və digər qanunların qəbul edilməsi ilə milli qanunvericiliyin köklü şəkildə yeniləşdirilməsinə və müasirləşdirilməsinə nail olunmuşdur.

Bu gün «islahatlar» ən çox işlənən sözlərdəndir və onun mahiyyəti, prinsipləri, meyarları, qabaqcıl təcrübənin resepsiyası (qəbulu və ondan bəhrələnmə), islahatların infrastrukturu, subyekti və obyekti və s. xüsusiyyətlərin mənası da bəzən bu çoxluğun arxasında kölgədə qalır. Buna görə də Ümummilli liderin hüquq islahatları strategiyasından danışanda, bu prosesin Azərbaycan Respublikasında özünəməxsus cəhətlərinə nəzər salmaq çox önəmlidir. «Hüquq islahatları» anlayışı bir çox mənalarda işlənə bilər. Bəzən mövcud qanunvericiliyə edilən bir neçə əlavə və dəyişiklik də islahatlar mənasını verə bilər. Hüquq İslahatları Komissiyasının yaradılması Ulu öndərin nəzərdə tutduğu hüquqi dövlət quruculuğu istiqamətində görüləcək işlərin miqyas və sanbalının nə qədər ciddi və geniş olduğunu, əsaslı konsepsiyaya söykəndiyini göstərirdi. Burada həmin fəaliyyətin aşağıdakı əsas cəhətlərini qısa xatırlatmaq yerinə düşərdi:

– müstəqillik tariximizin torpaqlarımızın işğalı, ərazi bütövlüyümüzün pozulması ilə paralel şəkildə başlanması, bütün səviyyələrdə xalqımızın və beynəlxalq hüququn pozulmuş fundamental prinsiplərinin bərpasının tələb olunması mövqeyindən çıxış etmək həm daxili qanunvericiliyin, həm də beynəlxalq hüquq məkanına inteqrasiyanın ana xəttini təşkil etmişdir;

– ölkəmizdə hüquq islahatları qabaqcıl dünyanın demokratik hüquq məkanına inteqrasiya xəttini bəyan edən milli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi olmuşdur;

– Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi, hüquqi dövlət quruculuğunda da Heydər Əliyevin rəhbərliyi ilə görülən işlərin ən mühüm xüsusiyyətindən biri islahatlara «yuxarıdan təşəbbüslə» təkan verilməsi, dövlət başçısının siyasi iradəsindən qaynaqlanması olmuşdur. İslahatların ideoloqu, təşəbbüskarı, aparıcı qüvvəsi və subyekti kimi Ulu öndərin, onun başçılıq etdiyi siyasi elitanın çıxış etməsi olmuşdur. Bu, ölkə rəhbərinin missiyası, irəli sürdüyü siyasi xətt idi. Həm də o demək idi ki, islahatlar prosesinin uğuru və uğursuzluğu üçün ən böyük məsuliyyəti də məhz dövlət başçısı öz üzərinə götürmüşdü;

– hüquq islahatları dövlətçiliyin bütün - milli, demokratik, siyasi və s. formalarının təməlidir. Məhz buna görə də bu sahə strateji xarakter daşıyır. Bəzən təsəvvür və izah edildiyi kimi, sadəcə, yeni qanunların qəbul edilməsi demək deyildir. Dövlətin siyasəti hər bir addımda hüquqi əsaslar üzərində bərqərar olur;

– Azərbaycanda hüquqi islahatlar dövlət tarixində köklü transformasiyalarla, dəyişikliklərlə bağlı olmuş, müstəqil, demokratik, hüquqi dövlət quruculuğu ilə əlaqəli proses kimi başlanğıcını götürmüşdür;

– bütün dövrlərdə və ya bütün ölkələrdə hüquq islahatları birmənalı qarşılanmır. Əksər hallarda qeyri-adekvat reaksiya müşahidə edilir, onun tərəfdarları da, əleyhdarları da olur;

– suveren dövlət kimi Azərbaycan Respublikasında islahatların gedişində qabaqcıl dünya təcrübəsindən optimal bəhrələnmə, ən yaxşı olanın qəbul edilməsi və seçilməsi, milli qanunvericiliyin beynəlxalq hüquqi prinsiplər və normalarla ahənginin nəzərə alınması son dərəcə həssaslıq tələb edən məsələ olmuşdur. Bu, milli təhlükəsizlik məsələləri ilə sıx bağlıdır;

– yeni hüquqi dövlətin təşəkkülü məsələlərinin geniş ictimaiyyətin hüquq mədəniyyəti və maariflənməsi ilə paralel aparılması həyati vacib məsələ kimi nəzərə alınmışdır;

– islahatların mövcud bütün hüquqi infrastruktura nüfuz etməsi və yeni infrastrukturun yaranması ən mühüm məsələ kimi diqqət mərkəzində olmuşdur;

– bu gündən baxanda, Ümummilli liderin islahatlar siyasətində bütün dünyada diqqət yetirilən varislik, komplekslilik, tətbiq edilən

dünya təcrübəsinə tənqidi yanaşma, milli reallığın və hüquq məkanının özünəməxsus cəhətlərinin nəzərə alınması kimi prinsiplərin rəhbər tutulduğunu görə bilərik.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikası əsl dövlət müstəqilliyini əldə etməklə yanaşı, insan hüquqlarının təmini, inkişaf etdirilməsi, qorunması sahəsində mühüm nailiyyətlər qazandı. Məhz onun qayıdışı ilə ölkəmizdə hüquqi dövlət quruculuğuna başlandı, söz, fikir və mətbuat azadlığı etibarlı şəkildə təmin edildi, insanların sərbəst toplaşmasına, öz fikirlərini azad ifadə etmələrinə şərait yaradıldı, digər demokratik prinsiplərin cəmiyyətdə təşəkkül tapması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi, bu sahədə demokratik prinsiplərə tam cavab verən qanunvericilik bazası yaradıldı.

Söz və fikir azadlığının təmin edilməsini 1995-ci ildə qəbul edilən Konstitusiya hüquqi baxımdan təsdiqlədi, bir sıra normaları və beynəlxalq öhdəlikləri qabaqlayan əsas hüquqlar və azadlıqlar təsbit olundu.

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul etdiyi birinci Konstitusiya milli dövlətçilik tarixində həm bütün qabaqcıl demokratik ölkələrin qanunvericiliyində təsbit olunan, həm də beynəlxalq hüquq və normalarda nəzərdə tutulan insan hüquq və azadlıqlarının geniş əhatəsini özündə əks etdirən ilk hüquqi sənəd olmuşdur. O vaxtadək tariximizdə hüquqi dövlətin və qanunun aliliyinin prioritetliyi, demokratik ənənələr olmamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 48 maddəsinin və yaxud üçdə birinin sırf insan hüquq və azadlıqları ilə bağlı olması Ümummilli liderin yüksək daxili demokratizmini, insanpərvərliyini bir daha təsdiqləyir. Konstitusiyada əksini tapmış strateji məqsədlər, ilk növbədə, hüquq islahatlarının və insan hüquqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir.

Əsas Qanunun birinci maddəsində göstərilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Azərbaycan Respublikası BMT-yə üzv olduqdan sonra dünya birliyinin tamhüquqlu subyekti kimi 120-dən artıq beynəlxalq konvensiyaya, o cümlədən 1996-cı ildə BMT-nin «İşgəncələrə və digər qəddar,

qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı» Konvensiyasına qoşuldu. Bununla yanaşı, Ulu öndər Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərmanı ilə ölkəmizdə senzuranın birdəfəlik ləğvi milli mətbuatımızın tarixində ən mühüm hadisələrdən biri olmaqla yanaşı, demokratik dövlət quruculuğu istiqamətində ən vacib hadisələrdən birinə çevrildi. Təsadüfi deyil ki, azad sözün təmin olunmasında tutduğu mövqeyə və xidmətlərinə görə Ulu öndər 2001-ci ildə «Jurnalistlərin dostu» mükafatına layiq görüldü. 1998-ci il fevralın 10-da ölkəmizdə ölüm hökmünün ləğv edilməsi ilə Azərbaycan bütövlükdə Şərqdə belə bir qətiyyətli qərar verən ilk dövlət oldu. Yüksək insanpərvərliyin əyani təcəssümü olan bu qərar Azərbaycan Respublikasında insan hüquqlarına prioritet əhəmiyyət verildiyini göstərməklə yanaşı, ölkəmizin Avropa Şurasına tamhüquqlu üzvlüyünün reallaşmasına da əsaslı töhfə oldu. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilən Azərbaycan Respublikası demokratik dövlətlər sırasında özünə layiq yer tutduğunu bir daha sübuta yetirərək, milli qanunvericiliyin Avropa standartları səviyyəsinə yüksəldilməsi istiqamətində fəal işlər gördü.

Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqlarının daha dolğun, hərtərəfli təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» 1998-ci il 22 fevral tarixli fərmanı ölkəmizin dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə və demokratiyanın inkişaf etdirilməsinə geniş imkanlar yaratdı, insan hüquqları sahəsində görüləcək işlərin istiqamətləri və konsepsiyasını müəyyən edərək, onu dövlət siyasəti səviyyəsinə qaldırdı.

Bu fərmandan irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq, Azərbaycan Respublikası konkret inkişaf mərhələsinə uyğun olaraq, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Prezident 1998-ci il 18 iyun tarixli Sərəncamla «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramını» təsdiq etdi. Dövlət Proqramında insan hüquqları üzrə müvəkkil təsisatının yaradılması, Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, insan hüquqları sahəsində fəaliyyət göstərən

beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi və s. mühüm məsələlər nəzərdə tutulmuşdur.

Ölüm hökmünün ləğvi ilə ölkəmiz Mülki və siyasi hüquqlar haqqında beynəlxalq paktın 2-ci protokoluna qoşuldu. Azərbaycan Respublikası BMT-nin İnsan hüquqlarının qorunmasına dair Bəyannaməsinə və digər konvensiyalara da qoşulmaqla, insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirdi.

İnsan hüquqları və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquq islahatlarının məntiqi davamı kimi, 2002-ci il dekabrın 24-də qəbul edilən «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi» haqqında Konstitusiya Qanunu əhatə etdiyi məsələlərin dairəsinə görə mühüm yer tutur.

Hər bir ölkədə insan hüquqları milli normalara əsasən müdafiə olunur və pozulmuş hüquqların bərpası üçün ən səmərəli mexanizmlər dövlətdaxili mexanizmlərdir. Milli normalar insan hüquqlarının tənzimlənməsində daha çevik mexanizmə malikdir. Beynəlxalq normaların əhəmiyyəti isə ondadır ki, bu normalar insan hüquq və azadlıqlarına dair minimum standartları müəyyən edir. Beynəlxalq normalara tərəfdar çıxmış dövlət öz milli normalarında bu sənədlərdə əks olunan hüquq və azadlıqlardan daha üstün hüquq və azadlıqlar nəzərdə tuta bilər. Bu baxımdan, Prezident Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilən hüquq islahatları və məhkəmə orqanlarının təkmilləşdirilməsi xatırlatdığımız prinsiplər üçün hüquqi bazaya çevrilmişdir.

Hər bir insanın həyatında və cəmiyyətdə insan hüquqlarının reallığa çevrilməsi amalı ilə yaşayan Azərbaycan Respublikası dövləti insan hüquqları və azadlıqları sahəsində 220 beynəlxalq konvensiyaya və sazişə qoşulmuşdur.

İnsan hüquq və azadlıqları sahəsində həyata keçirilən tədbirlərin təməlində insana qayğı və insan ləyaqətinə hörmət prinsipi dayanır. Ölkəmizin Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq, 2002-ci ildə Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkil (Ombudsman) institutunun yaradılması, vətəndaşların Konstitusiya Məhkəməsinə, habelə Avropa İnsan Hüquqları Məhkəməsinə

birbaşa müraciət imkanı əldə etmələri demokratik dəyərlərin əsasını təşkil edən insan hüquqları və azadlıqlarının təsbit olunması istiqamətində növbəti uğurlu addımlardan idi.

Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan Respublikasında insan hüquqları və azadlıqlarının inkişafı istiqamətində yeni mərhələ başlandı. Ölkəmiz ötən illər ərzində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək istiqamətində mühüm uğurlar qazandı. AŞ ilə əməkdaşlıq çərçivəsində ölkəmizdə insan hüquqlarının inkişafı ilə yanaşı, məhkəmə sisteminin islahatı, vəkillik fəaliyyətinin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mübarizə və ictimai televiziyanın fəaliyyətə başlaması ilə bağlı mühüm tədbirlər görüldü.

Azadlıq, müstəqillik hüququ hər bir insan üçün, xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə qurbanlar vermişik. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillikdən danışmaq əbəsdir. Dövləti olmayan xalq isə tarixdən silinməyə məhkumdur. Prezident Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, o, ən kəskin geosiyasi ziddiyyətlərin olduğu bir şəraitdə Azərbaycan milli dövlətçiliyini xilas etdi, ölkəni parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Dövlətimizin qorunub saxlanması üçün müstəqilliyimizin qanuni-hüquqi təməllərini təmin etdi.

Bu gün tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycan Respublikası dövlətinin müstəqilliyinin qorunması, möhkəmləndirilməsi Ulu öndər, uzaqgörən siyasətçi Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Məhz onun sayəsində Azərbaycan dünya birliyinin tamhüquqlu üzvü kimi demokratik hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçmiş, bu xətt əsas tutularaq, ölkədə insan və vətəndaş hüquqlarına hörmət, onların qorunması, demokratik təsisatların yaradılması və inkişafı ön plana çəkilmişdir.

Azərbaycan xalqının əbədi lideri Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə ardıcıl hüquqi siyasət həyata keçirilməklə ölkənin siyasi, iqtisadi və sosial həyatında böyük dəyişikliklər baş vermiş, hüquqi dövlət quruculuğunda önəmli işlər görülmüş, məhkəmə-hüquq islahatı başa çatmış, xeyli mühüm qanunvericilik aktları, xüsusilə də insan hüquqları və azadlıqlarının müdafiəsinə yönəlmiş qanunlar qəbul

edilmiş, Azərbaycan Respublikası bir sıra demokratik qurumlara bərabərhüquqlu üzv seçilmiş, beynəlxalq konvensiyalara qoşulmuşdur.

Müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının ənənəvi düşmənlərinin bütün tarixi dövrlərdə Azərbaycan Respublikasını diz çökdürmək üçün istifadə etdikləri məkrli siyasətə qarşı müstəqil Azərbaycan Respublikasının inkişaf strategiyasını işləyib hazırladı və sübut etdi ki, artıq XXI əsrdə Azərbaycan Respublikasının parçalanmasına heç zaman yol verilməyəcək, artan siyasi və iqtisadi qüdrətimizlə ərazi bütövlüyünün təmin olunması həyata keçiriləcəkdir. Müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən olduğunu zaman özü göstərir və göstərəcəkdir.

1.3. Milli təhlükəsizliyin təmin olunması. Ordu quruculuğunun davam etdirilməsi

Milli təhlükəsizliklə bağlı məsələlər dövlətlərin siyasətində mərkəzi problemlərdən ən önəmlisi sayılır. Xarici təhlükələrin mənbələrini və bunlara qarşı tədbirləri necə müəyyən etmək kimi suallar müstəqilliyini yenicə qazanmış, lakin müdafiə və təhlükəsizlik sistemi zəif olan Azərbaycan Respublikasının siyasi rəhbərliyinə qayıdan Ümummilli lider Heydər Əliyevin qarşısında həyati vacib məsələ kimi dururdu. Onun Azərbaycan Respublikasının milli və beynəlxalq təhlükəsizliyinin təminatı ilə bağlı nəzəri-metodoloji əsas kimi qəbul edilən baxışları və zəngin təcrübəsi təhlükəsizlik sahəsində dövlət siyasətinin formalaşmasında, müvafiq təhlükəsizlik orqanlarının təşəkkülündə əvəzsiz rol oynadı. Azərbaycan Respublikası dövlətinin, cəmiyyətinin və hər bir vətəndaşının təhlükəsizliyinin təmin olunması Ümummilli lider Heydər Əliyevin təhlükəsizlik strategiyasının əsas elementini təşkil etmişdir. Onun təhlükəsizlik strategiyasında başlıca

məqsəd mükəmməl milli təhlükəsizlik sisteminin yaradılması idi. Bu məqsədə nail olmaq üçün Heydər Əliyev milli təhlükəsizlik strategiyasında aşağıdakı vəzifələrin həyata keçirilməsini ön plana çəkmişdi:

– milli və beynəlxalq təhlükəsizlik sahəsində milli maraqların müəyyən edilməsi;

– milli və beynəlxalq təhlükəsizliyin vəhdətinə nail olunması;

– təhlükəsizliyin müxtəlif sahələri ilə bağlı mükəmməl hüquqi bazanın yaradılması;

– təhlükəsizlik sahəsində dövlət siyasətinin prinsiplərinin müəyyən olunması;

– təhlükəsizliyin təminatı ilə bağlı mükəmməl dövlət mexanizmlərinin, struktur və qurumlarının yaradılması və təkmilləşdirilməsi;

– yüksək peşəkar kadr potensialının hazırlanması və təkmilləşdirilməsi;

– təhlükəsizlik sisteminə daxil olan dövlət qurumları arasında mükəmməl əlaqələndirmə mexanizminin yaradılması;

– ölkənin malik olduğu resursların səmərəli qaydada milli təhlükəsizliyin təminatına yönəldilməsi;

– hərbi qüvvələrin təkmilləşdirilməsi, müasir standartlara cavab verən milli ordunun formalaşdırılması.

Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik məsələsinə dair baxışları aşağıdakı prinsiplərə söykənirdi:

– təhlükəsizlik məsələsi daimi problem kimi dövlətlərin mövcudluğu ilə birbaşa əlaqəlidir;

– dövlətin, cəmiyyətin sabitliyi və inkişafı, hər bir vətəndaşın rifahı milli təhlükəsizlik sisteminin formalaşmasından, onun təmin olunması səviyyəsindən bilavasitə asılıdır;

– milli və beynəlxalq təhlükəsizliyin təmin olunması, xarici təhlükə mənbələrinin qiymətləndirilməsi, millətin beynəlxalq mühitə uyğunlaşma prosesində özünəməxsusluğunun saxlanılması, milli dəyərlərin qorunması Azərbaycan Respublikası dövlətinin xüsusi diqqət mərkəzində olmalıdır;

– Azərbaycan Respublikasının təhlükəsizliyi onun əsas milli mənafeyi kimi qəbul edilməlidir.

1992-ci ildən beynəlxalq birliyin, dövlətlərarası münasibətlər sisteminin bərabərhüquqlu üzvü olan Azərbaycan Respublikası dövlətçi-

liyin möhkəmləndirilməsi və beynəlxalq sistemdə öz layiqli yerini tutmaq üçün milli maraqlarını müəyyən etmək və onların təmin olunması üçün təhlükəsizlik üsullarını aydınlaşdırmaq problemi ilə üzləşmişdi. Əfsuslar olsun ki, 1992-1993-cü illərdə Azərbaycan Respublikasında siyasi hakimiyyətdə olanlar bu problemin həlli yollarına düzgün yanaşmadılar. Milli maraqlar nisbətini, dövlətin siyasi potensialını, məqsədlərini, taktika və strategiyasını düzgün müəyyənləşdirməyi bacarmadılar. Nəticədə dövlətin malik olduğu bütün imkanlara etinasızlıq göstərərək, milli ideologiyanı müəyyən edə bilmədilər. Milli ideologiyanı müəyyən etmədən isə milli təhlükəsizliyin çoxşaxəli aspektləri haqqında tam təsəvvürə malik olmaq, təhlükəsizlik sahəsində dövlət siyasətini həyata keçirmək mümkün deyildir. Təhlükə mənbələrinin (siyasi, hərbi, iqtisadi, sosial və s.) müəyyənləşdirilməsi milli təhlükəsizliyi təmin edən mexanizmin qurulmaması, onun milli və beynəlxalq aspektlərinin müəyyən olunmaması Azərbaycan xalqına çox baha başa gəldi. Azərbaycan xalqının hamıya bəlli olan itkiləri məhz milli təhlükəsizliyin təmin edilməsinin nəzəri və əməli məsələlərinə düzgün yanaşmanın olmamasının nəticəsi idi. Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının bu itkilərinin səbəbini dərin məntiqlə açıqlamışdı: «Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir və bu sərvətin ayrı-ayrı qurumların, şəxslərin inhisarına alınması heç cür yolverilməzdir».

Özünün müasir milli tarixinin sürətli inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin milli maraqlara uyğun həlli, Azərbaycan xalqının rifahının və təhlükəsizliyinin təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar düşünülmüş, ardıcıl, məqsədyönlu daxili siyasətlə yanaşı, xarici siyasətin də həyata keçirilməsini, milli inkişafın xarici siyasi təminatına nail olunmasını tələb edirdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ilk öncə Azərbaycan Respublikasının əsas milli dövlət maraqları düzgün müəyyən olundu. Milli suverenlik, Azərbaycan Respublikasının ərazi bütövlüyü, xalqın bütövlüyü, qorunması və inkişafı, əmin-amanlıq milli dövlət maraqlarının ilkin elementləri kimi qəbul edildi. Milli təh-

lükəsizlik Azərbaycan Respublikasının milli dövlət maraqlarını təmin edən strategiyaya çevrildi.

Azərbaycan Respublikasının milli və bəşəri dəyərlərin sintezi əsasında formalaşan dövlət siyasətinin əsas müsbət xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, Azərbaycan dövlətinin, xalqının milli təhlükəsizliyi beynəlxalq təhlükəsizliyin tərkib hissəsi kimi qəbul edilirdi. Məhz bu amil Azərbaycan Respublikasının regional təhlükəsizlik sisteminin formalaşması konsepsiyasını səciyyələndirən göstəricidir. Azərbaycanın regional təhlükəsizlik sisteminin formalaşmasına üstünlük verməsi milli təhlükəsizlik strategiyasında təhlükəsizliyin müdafiə xarakteri kimi qəbul edilməsidir, yəni Ümummilli lider Heydər Əliyevin yanaşmasında təhlükəsizlik təhlükələrin olmadığı vəziyyət kimi səciyyələndirilirdi.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında milli-dövlət təhlükəsizliyinin təmin olunmasının regional və qlobal təhlükəsizlik sistemlərinin formalaşması əsasında həyata keçirilməsi haqqında müddəalar aşağıdakı şərtlərlə əsaslandırıla bilər:

– kütləvi qırğın silahlarının yayılması təhlükəsi;

– beynəlxalq sistemdə dövlətlərin hərbi, siyasi, iqtisadi, ekoloji və s. qarşılıqlı asılılığının artması;

– hərbi qüvvələrdən istifadə olunmasının yolverilməzliyi;

– milli təhlükəsizliyin yalnız qarşılıqlı təhlükəsizliyin təmin olunması nəticəsində həyata keçirilməsi ideyası;

– beynəlxalq təhlükəsizliyin bölünməzliyi;

– beynəlxalq əməkdaşlıq prinsipinin universallığı;

– bəşəri dəyərlərə söykənilməsi;

– müasir beynəlxalq təhlükələrin, təhdidlərin xarakteri nəticəsində bütün dövlətlərin birgə fəaliyyətinin zəruriliyi.

Heydər Əliyev milli təhlükəsizliyin təminatını Qafqazda təhlükəsizliklə birbaşa əlaqələndirirdi. Azərbaycan Respublikasının dövlət siyasətində regional təhlükəsizlik sisteminin formalaşmasına diqqətin əsas məqsədlərindən biri də bu sistemin qlobal təhlükəsizlik sisteminin tərkib hissəsinə çevrilməsinə nail olmaqdan ibarətdir. «Mədəni inteqrasiya və qloballaşma dünya inkişafının müasir mərhələsinin əsas meyilləri kimi çıxış edir» – deyən Ümummilli lider 2000-ci ildə xalqa etdiyi müraciətində müasir dünyanın inkişaf meyil-

lərini və onların beynəlxalq sülh və təhlükəsizlik məsələləri ilə sıx bağlı olduğunu vurğulayırdı.

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının milli təhlükəsizlik strategiyasının üç elementini müəyyən etmiş, onların birbirindən asılılığı və qarşılıqlı surətdə təmin olunması prinsipi ideyasını irəli sürmüşdür: milli, regional və qlobal təhlükəsizliyin bütövlüyü. O, Avropa Şurası nümayəndələri qarşısında etdiyi çıxışda xüsusi olaraq vurğulamışdı: «Cənubi Qafqaz regionuna bütövlük və bitərəflik statusu verilməlidir. ...Cənubi Qafqaz regionunun Avropa məkanına daxil edilməsi çox mühüm amildir və bu, regionda münaqişələrə son qoyulmasına, dövlətlər arasında münasibətlərin normallaşdırılmasına, beləliklə də Cənubi Qafqazda və Avropada təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət etməlidir». Azərbaycan Respublikası dövləti özünün milli maraqları ilə siyasi resursları, potensialı arasında düzgün nisbəti müəyyən edərək, regional təhlükəsizlik sisteminin formalaşmasını qarşıya məqsəd qoydu. Qafqazda təhlükəsizlik sisteminin formalaşmasına üstünlük verilməsi aşağıdakı şərtlərlə əsaslandırıla bilər:

– milli təhlükəsizliyin təmin olunması region dövlətlərinin təhlükəsizliyi ilə sıx surətdə bağlıdır;

– Qafqazda təhlükəsizlik sisteminin yaradılması milli təhlükəsizliyi daha artıq təmin edir, regional təhdidlərin qarşısını alır;

– Qafqazda təhlükəsizlik sisteminin formalaşması qlobal təhlükəsizlik sisteminin formalaşması üçün zəmin yaratmış olur.

Heydər Əliyev Qafqazda təhlükəsizlik sisteminin formalaşması üçün əsas dayaq prinsiplərini müəyyən etdi. Region dövlətlərinin hərbsizləşdirilməsi, kollektiv təhlükəsizlik və insan hüquqlarının aliliyi bu ideyanın dayaq nöqtələridir. Ümummilli liderin müəyyən etdiyi dövlət siyasətində kollektiv təhlükəsizlik yanaşması xüsusi xətt kimi formalaşdı. Regional qurumların yaradılması və möhkəmləndirilməsi, beynəlxalq hüququn regional aspektlərinin təkmilləşdirilməsi, beynəlxalq əxlaq normalarının region dövlətləri tərəfindən hamılıqla qəbul olunması yolu ilə Qafqazda təhlükəsizlik dilemmasının həll oluna bilməsi Heydər Əliyevin milli təhlükəsizlik strategiyasının əsas müddəalarından biridir. Onun regional və universal beynəlxalq təşkilatlarda irəli sürdüyü təhlükəsizlik təşəbbüsləri məhz bu məqsədlərin həyata keçirilməsinə yönəldilmişdi.

Ümummilli liderin baxışlarında və fəaliyyətində milli təhlükəsizlik sisteminin formalaşmasını təmin etmək üçün bütün zəruri şərtlərdən – əxlaqi, institusional, hüquqi, sistemli və situasiyalı şərtlərdən istifadə olunmasına xüsusi əhəmiyyət verilirdi. Bu şərtlərin həyata keçirilməsi sabit və mükəmməl milli təhlükəsizlik sisteminin yaradılmasını təmin etməyə yönəlmişdi.

Heydər Əliyevin təhlükəsizlik sisteminin formalaşmasına yönələn milli təhlükəsizlik strategiyasında xarici təhdidlər düzgün müəyyən olunmuş və təsnifləşdirilmişdir. Ermənistanın işğalçılıq siyasətinin, obyektiv meyil olan qloballaşmanın yarada biləcəyi fəsadların, hərbi, iqtisadi, sosial, ekoloji və s. təhlükələrin dəqiq müəyyənləşdirilməsi onların qarşısının alınmasına yönələn strategiyanın mükəmməlliyini göstərir. Heydər Əliyev milli təhlükəsizlik sisteminin formalaşmasında ən böyük maneə kimi Ermənistanın təcavüzkar siyasəti nəticəsində yaranmış Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini görürdü. O, «Ermənistan–Azərbaycan münaqişəsini həll etmədən və digər münaqişələrə son qoymadan regionumuzda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir» fikrini müxtəlif dövlət müşavirələrində, beynəlxalq forumlarda dəfələrlə vurğulamışdı.

Ümummilli liderin milli təhlükəsizlik strategiyasının nəzəri əsası bəşəriyyətin yeni ideyalarını özündə əks etdirməsi ilə müəyyən olunur. Beynəlxalq təhlükəsizlik, insan təhlükəsizliyi və demokratik sülh ideyaları Heydər Əliyev strategiyasının özülünü təşkil edirdi. Bütün regional dövlətlərin təhlükəsizliyini qəbul edən Ümummilli lider milli təhlükəsizliyin təminatını beynəlxalq kollektiv təhlükəsizlik tədbirlərinin həyata keçirilməsində görürdü. O, regional təhlükəsizliyin təmin olunmasının zəruriliyini regionda hər bir insanın əmin-amanlıq şəraitində yaşamaq hüququnun tanınması, qorunması və həyata keçirilməsində görürdü. Heydər Əliyevin müəyyən etdiyi təhlükəsizlik strategiyasına görə, nəinki Azərbaycan Respublikasında, eləcə də regionda demokratik təsisatların inkişafı, hüquqi dövlətlərin və vətəndaş cəmiyyətlərinin formalaşması dövlətlər arasında qarşılıqlı inam, etimad və hörmətin yaradılmasına, regional sülhün və təhlükəsizliyin bərqərar olmasına zəmin yaradacaqdır. Ümummilli liderin baxışları və təcrübəsi sübut edirdi ki, hegemon dövlətlər arasında münaqişələr olmur, mübahisələr dinc yolla aradan qaldırılır və sülh, əmin-amanlıq

daha artıq təmin edilir. Bu ideya onun 2001-ci il yanvarın 26-da Strasburqda Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı nitqində daha məntiqli şəkildə əsaslandırılmışdı: «Azərbaycan qonşu dövlətlərdə də demokratiyanın inkişaf etməsində maraqlıdır. Zənnimizcə, bu, regional təhlükəsizliyin və sabitliyin təminatıdır. Hesab edirəm ki, təcavüzkar millətçilik ideologiyasının, milli təkəbbür hissinin, qonşu dövlətlərə qarşı ərazi iddialarının hökm sürdüyü cəmiyyətdə demokratiya inkişaf edə bilməz».

Milli təhlükəsizlik sisteminin formalaşması strategiyası Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülən milli ideologiyada da öz əksini tapmışdır. Məlumdur ki, hər bir dövlətin milli ideologiyası milli dəyərlərin, dünyəvi baxışların üzərində qurulur. Azadlıq, bərabərlik, təhlükəsizlik, ədalətlilik, inkişaf, hörmət və tanınma, sülh, milli şərəf, vətənpərvərlik kimi dəyərlər Azərbaycan Respublikasının Heydər Əliyev tərəfindən formalaşdırılan milli ideologiyasında önəmli yer tutur. Milli təhlükəsizlik Azərbaycan Respublikasının milli ideologiyasının əsas və mərkəzi elementlərindən biridir, bəşəri xarakterə malik milli dəyər kimi qəbul edilir. Ümummilli liderin strategiyasına görə, təhlükəsizlik digər iki milli dəyərin – müstəqillik və suverenlik dəyərlərinin həyata keçirilməsini təmin edir. O, 1999-cu ilin sentyabrında «Əsrin müqaviləsi»nin 5 illiyinə həsr olunmuş tədbirdəki nitqində bu prinsipi xüsusi vurğulamışdır: «Azərbaycan Prezidenti kimi mənim borcum ondan ibarətdir ki, Azərbaycan Respublikasının dövlət quruculuğu o qədər möhkəmlənsin, Azərbaycan dövləti o qədər qüdrətlənsin ki, ölkəmiz daim müstəqil olsun». Təhlükəsizlik, müstəqillik və suverenlik – bu üç milli dəyər fundamental, universal xarakterə malik dəyərlərdən sayılır. Digər milli dəyərlər – inam, hörmət, inkişaf, rifah və s. universal dəyərlərdən törəmə dəyərlər kimi qəbul edilir. Bütün bu ali dəyərlər azərbaycançılıq ideologiyasında cəmləşir, Azərbaycan Respublikası dövlət ideologiyasının tərkib hissəsi olaraq əsas siyasi məqsədlər kimi qarşıya qoyulur.

Milli təhlükəsizlik strategiyasının əsas müddəalarından biri də ondan ibarətdir ki, Ümummilli lider Heydər Əliyev region məkanı anlayışını təkcə Cənubi Qafqaz anlayışı ilə məhdudlaşdırmır. Onun strategiyasına görə, regional təhlükəsizlik sisteminin əhatə məkanı daha genişdir. Bu məkan bütün Avropanı, MDB–Slavyan dünyasını,

Mərkəzi Asiyanı, hətta Yaxın Şərqi əhatə edir. Heydər Əliyevin 1993–2003-cü illərdə müxtəlif beynəlxalq təşkilatların (BMT, ATƏT, AŞ, NATO, MDB, GUAM, İƏT, İKT, QİƏT və b.) toplantılarında, forumlarında, habelə görüşlərdə dəfələrlə irəli sürdüyü sülh təklifləri, təşəbbüsləri regional təhlükəsizlik sisteminin əhatə məkanının daha geniş olması fikrini əyani şəkildə sübut edir. Ümummilli lider bu böyük siyasi və coğrafi məkanda təhlükəsizlik sisteminin formalaşması üçün bütün region dövlətlərinin səylərini yüksək qiymətləndirir, onların xarici siyasətlərinin əlaqələndirilməsi sayəsində regional sülh və təhlükəsizlik sisteminin formalaşacağına inanırdı. Heydər Əliyevin strategiyasına görə, bu sistemi formalaşdırmaq üçün, ilk növbədə, münaqişələr həll olunmalıdır. O, 2002-ci ilin iyununda Rusiyaya səfəri zamanı bu vacib məsələ ilə bağlı fikrini belə əsaslandırmışdı: «Regionda sabitlik, təhlükəsizlik və tərəqqi, beynəlxalq layihələrin, o cümlədən tarixi İpək yolunun bərpasının və Şimal-Cənub layihəsinin gerçəkləşdirilməsi, şübhəsiz ki, burada mövcud olan münaqişələrin həlli ilə bağlıdır».

Heydər Əliyevin milli təhlükəsizlik strategiyasında ən mühüm və əhəmiyyətli yerlərdən birini dövlət siyasətinin formalaşmasına dair müddəalar tutur. Ümummilli lider hesab edirdi ki, milli təhlükəsizliyin təminatında əsas rol dövlətə məxsus olsa da, cəmiyyətin və hər bir vətəndaşın iştirakı da zəruridir. O, hesab edirdi ki, hər bir azərbaycanlı üçün həyati əhəmiyyət kəsb etdiyinə görə milli təhlükəsizlik dövlət, cəmiyyət və hər bir vətəndaşın birgə fəaliyyəti nəticəsində təmin oluna bilər.

Təhlükəsizlik sahəsində mükəmməl dövlət siyasətini formalaşdırmaq üçün Ümummilli lider Heydər Əliyev milli təhlükəsizliyin təminatının aşağıdakı prinsiplərini bəyan etmişdir:

- qanunçuluq;
- milli mənafelərin aliliyi;
- milli təhlükəsizliyin təmin olunmasında dövlətin məsuliyyəti;
- bütün təhlükəsizlik növlərinin vəhdəti, qarşılıqlı əlaqəsi və tarazlığı.

Bu prinsipləri rəhbər tutaraq Ümummilli lider Heydər Əliyev təhlükəsizlik sahəsində xüsusi qanunların qəbul edilməsinə, onların mükəmməlliyinə, səmərəli şəkildə həyata keçirilmə mexanizmlərinin

yaradılmasına xüsusi əhəmiyyət verirdi. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası, Milli Məclis tərəfindən qəbul edilən qanunlar, Prezident Heydər Əliyevin imzaladığı fərmanlar, digər müvafiq normativ aktlar, imzalanmış və ya ratifikasiya olunmuş beynəlxalq müqavilələr milli təhlükəsizlik sahəsində dövlət siyasətinin mükəmməl hüquqi bazasını təşkil etdi. Heydər Əliyev bütün bu hüquqi bazada bir prinsipə xüsusi əhəmiyyət verirdi: qanunda birbaşa göstərilmiş hallar istisna olmaqla, milli təhlükəsizliyin təminatında vətəndaş hüquq və azadlıqlarının məhdudlaşdırılmasına yol verilmir. Bu, Azərbaycan Respublikasının dövlət və hüquq tarixində yeni bir yanaşma idi.

Heydər Əliyevin milli təhlükəsizlik strategiyasında milli maraqları qorumaq üçün hüquqi normalar sistemi ilə yanaşı, dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin əsas istiqamətləri də müəyyən olunmuş, xüsusi təhlükəsizlik strukturlarının formalaşdırılması və ya dəyişdirilməsi, onların fəaliyyətinə nəzarət mexanizminin təkmilləşdirilməsi məsələlərinə də xüsusi diqqət yetirilmişdir.

Ümummilli liderin milli təhlükəsizlik strategiyasının əsas prinsipləri dövlət sirri haqqında, müdafiə haqqında, kəşfiyyat və əks-kəşfiyyat haqqında qanunlarda, Milli Təhlükəsizlik Nazirliyi yanında Akademiyanın təsis olunması haqqında fərmanda və s. hüquqi sənədlərdə öz əksini tapmışdır. Bu mühüm sənədlər təhlükəsizlik haqqında ən yeni nəzəri biliklər və təcrübələr nəzərə alınmaqla, Ümummilli liderin bilavasitə iştirakı və rəhbərliyi ilə qəbul edilmişdi.

Heydər Əliyevin dövlət təhlükəsizlik strukturlarının yaradılmasında və fəaliyyətində rolu əvəzsizdir. Azərbaycan Respublikası Prezidenti yanında Təhlükəsizlik Şurası, Milli Təhlükəsizlik Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi kimi dövlət strukturlarının formalaşmasında, kadrların hazırlanması strategiyasının müəyyən olunmasında onun təcrübəsinin xüsusi əhəmiyyəti olmuşdur.

1997-ci il aprelin 10-da Prezidentin Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurası təhlükəsizliyin təmin olunması sahəsində vahid dövlət siyasətini həyata keçirən çox mühüm bir qurumdur. Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 27-ci bəndinə uyğun olaraq Prezident tərəfindən yaradılır. Təhlükəsizlik Şurasının

Prezidentin sədrliyi ilə keçirilən iclaslarında milli təhlükəsizlik məsələləri müzakirə edilir, dövlət siyasətinin əsas istiqamətləri müəyyən olunur, Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə, dövlətə, cəmiyyətə və vətəndaşlara qarşı yönələn daxili və xarici təhdidlərin qarşısının alınması və ya aradan qaldırılması üçün dövlət orqanları qarşısında konkret vəzifələr qoyulur. Təhlükəsizlik Şurası vətəndaşların hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması sahəsində Prezidentin öz Konstitusiya səlahiyyətlərini həyata keçirməsinə şərait yaradılmasını təmin edir.

Heydər Əliyevin sülhyaratma və milli təhlükəsizlik sisteminin formalaşması istiqamətində fəaliyyəti xaricdə də yüksək dəyərləndirilirdi. 1999-cu il noyabrın 1-də Ankarada ona Beynəlxalq Atatürk Sülh Mükafatının təqdim olunması Ulu öndərin, ümumilikdə Azərbaycan Respublikasının regional təhlükəsizlik sisteminin yaradılması sahəsində tədbirlərinin dünya dövlətləri tərəfindən tanınması və dəstəklənməsinin bariz nümunəsi idi. Heydər Əliyev mükafatın təqdim olunması mərasimində Azərbaycan Respublikası dövlətinin sülh və təhlükəsizlik məsələlərinə dair baxışlarını belə açıqlamışdı: «...Mənim qarşımda böyük vəzifələr durur. Mən bunu hiss edirəm. Mən həm məsuliyyətimi hiss edirəm, həm də vəzifələrimi bilirəm. Vəzifələrim bundan ibarətdir: Azərbaycanın Prezidenti kimi, Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq və inkişaf etdirmək. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini inkişaf etdirmək və Azərbaycanda demokratiyanı, hürriyyəti, insan hüquqlarının təmin olunmasını bərqərar etmək. ... Ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı ilə inteqrasiya etmək. ... Sülh uğrunda mübarizə aparmaq. ... Biz Azərbaycanda sülhü təmin etmək istəyirik və daxili istiqrarın saxlanması üçün lazımi tədbirlər görürük. Həm Qafqazda və həm də cahanda, dünyada sülhün tamamilə yaranmasına çalışırıq».

Təhlükəsizlik Şurasına Milli Məclisin Sədri, Baş nazir, Prezident Administrasiyasının rəhbəri, Prezidentin müdafiə məsələləri üzrə köməkçisi, Baş Prokuror, xarici işlər, müdafiə, milli təhlükəsizlik, daxili işlər nazirləri daxildir. Şuranın katibi funksiyalarını Prezident Administrasiyasının rəhbəri yerinə yetirir. O, Təhlükəsizlik Şurasının fəaliyyətini təmin edir, onun iclaslarının hazırlanmasına rəhbərlik edir.

İclasların gündəliyi və məsələlərin müzakirəsi qaydası Prezident Administrasiyasının rəhbərinin təqdimatı əsasında Prezident tərəfindən müəyyənləşdirilir.

Ümummilli lider Heydər Əliyevin milli təhlükəsizlik strategiyasında silahlı qüvvələrin yaradılması və inkişafı məsələləri də xüsusi yer tutur. Milli ordunun formalaşması, onun ən yeni silahlarla və texnika ilə təchizi, qabaqcıl hərbi taktika və strategiyaya yiyələnmiş milli hərbi kadrların hazırlanması Heydər Əliyevin dövlətçilik fəaliyyətində xüsusi əhəmiyyət kəsb edən istiqamət olmuşdur. Onun yaratdığı vahid silahlı qüvvələr milli təhlükəsizliyə, dövlətə və xalqa qarşı yönələn istənilən təhlükəni aradan qaldırmağa qadir olan bir orduya çevrilmişdir.

Heydər Əliyev milli ordunun şərəfli tarixi yoluna hörmət əlaməti olaraq, keçmiş ənənələri yaşatmaq naminə, hər bir azərbaycanlıda milli orduya məhəbbət hissi aşılamaq məqsədilə 1998-ci il 22 may tarixli fərmanı ilə iyunun 26-nı Azərbaycan Respublikasının Silahlı Qüvvələr günü elan etdi. Bu qərar Azərbaycanda milli silahlı qüvvələrə dövlət diqqətinin yüksək səviyyədə olmasının bariz nümunəsi idi. Azərbaycan Respublikası Milli Ordusunun yaradılmasının 80 illiyi münasibətilə iyunun 25-də keçirilmiş təntənəli mərasimdə bu günün əhəmiyyətini vurğulayaraq demişdi: «Biz 26 iyun gününü bayram elan etmişik. Bu, tam əsaslıdır, məqsədəuyğun, qanunauyğundur. Çünki 80 il bundan öncə məhz bu gün Azərbaycan Xalq Cümhuriyyətinin – ölkəmizin müstəqilliyini elan edən xalq cümhuriyyətinin, müstəqil Azərbaycanı qurub-yaradan, hələ Gəncədə fəaliyyət göstərən hökumətin ilk addımlarından biri Azərbaycanın Milli Ordusunun yaranması haqqında verdiyi qərar olmuşdur. Həmin qərara, addıma böyük hörmət əlaməti olaraq biz 26 iyun gününü Azərbaycanın Silahlı Qüvvələri, ordusu günü elan etmişik».

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 16 avqust tarixli sərəncamı ilə 18 avqust Sərhəd Qoşunları əməkdaşlarının peşə bayramı günü elan olundu.

Heydər Əliyevin milli təhlükəsizlik strategiyasında silahlı qüvvələrə böyük diqqət göstərilməsinin obyektiv səbəbləri var idi. Təhlükəsizlik sahəsində peşəkar general olan Ümummilli lider çox yaxşı bilirdi ki, güclü ordusu olmayan dövlət öz müstəqilliyini qoruya,

vətəndaşlarının, cəmiyyətin təhlükəsizliyini təmin edə bilməz. Onun ordu quruculuğu siyasətinin məqsədi bir neçə istiqamətə yönəlmişdi: güclü ordu güclü dövlət deməkdir, güclü ordu xalqın inkişafının təmin olunması deməkdir, güclü ordu dünya dövlətləri arasında xüsusi çəkiyə və nüfuza malik olmaq deməkdir.

Milli liderin gərgin və məqsədyönlü səyləri sayəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunlar qəbul edildi, silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı. Ali Baş Komandan Heydər Əliyev beynəlxalq hərbi təhsil standartlarına cavab verən milli hərbi təhsil sisteminin formalaşdırılmasına xüsusi diqqət yetirirdi. O, əmin idi ki, milli hərbçi kadrlar olmadan, sözün əsl mənasında, milli dirçəlişə ümid bəsləmək mümkün deyildir. Bu işin təməli isə hələ onun respublikaya rəhbərliyinin birinci dövründə Bakıda Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəbinin yaradılması ilə qoyulmuşdu. Moskvada nəşr edilən «Komsomolskaya pravda» qəzeti bundan təxminən iyirmi il sonra, 1993-cü il 26 iyun tarixli nömrəsindəki «70-ci illərdə H.Əliyev bilirdimi ki, SSRİ dağılacaq?» sərlövhəli məqaləsində yazırdı: «70-ci illərdə Sovet Ordusunda azərbaycanlılar, yumşaq desək, az idi. Polkovniklər, generallar bir əlin barmaqları ilə sayılardı. Əliyevin rəhbərliyi ilə azərbaycanlı müdavimlər ölkənin hərbi məktəblərində görünməyə başladılar. Rayonlardan gələn, rus dilini bilməyən uşaqlar gələcəkdə təhsillərini ali hərbi məktəbdə davam etdirmək üçün əvvəlcə Naxçıvanski adına məktəbə daxil olurdular».

Ümummilli lider özünün vurğuladığı kimi, «Azərbaycanda heç vaxt oxşarı, analoqu olmayan» bu məktəbin, indiki hərbi liseyin 30 illik yubileyində iftixarla demişdi: «Mən Cəmşid Naxçıvanski adına məktəbi yaradarkən həsrətində olduğum arzuma çatmışam, ona görə də özümü çox xoşbəxt hesab edirəm».

Fəaliyyət göstərdiyi dövr ərzində liseyin məzunları arasından yetişən generallar, xeyli sayda yüksək rütbəli zabitlər Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, Daxili Qoşunlarında, Sərhəd Qoşunlarında, milli təhlükəsizlik sistemində dövlətə, vətənə xidmət edir, öz hərbi biliklərini gənc nəsillərə ötürürlər.

1997-ci ildə Heydər Əliyevin milli ali hərbi təhsil sisteminin formalaşdırılması ilə bağlı ideyaları praktik şəkildə həllini tapmağa başladı. Azərbaycan Ali Hərbi Məktəbinin yaradılması ordu quruculuğunda, milli zabit kadrlarının hazırlanması tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanması demək idi. Əlbəttə, Azərbaycan Respublikasında bu məktəbin yaradılması və fəaliyyəti üçün böyük imkanlar, resurslar və təcrübə tələb edirdi. Ümummilli liderin təşəbbüsü sayəsində Türkiyə Cümhuruyyəti ilə Azərbaycan Respublikası arasında imzalanmış protokola əsasən, qardaş ölkənin təcrübəsindən və dəstəyindən istifadə olundu, Azərbaycan Ali Hərbi Məktəbi müvafiq dünya standartlarına cavab verən təhsil ocağına çevrildi. Azərbaycan Ali Hərbi Məktəbinə Ümummilli lider Heydər Əliyevin adının verilməsi Azərbaycan Respublikası Milli Ordusunun çoxsaylı zabit-əsgər heyətinin, bütün xalqın bu dahi şəxsiyyətə olan dərin məhəbbətinin bariz nümunəsi, onun ordu quruculuğunda əvəzsiz xidmətlərinin bir daha təsdiqi idi. 2001-ci ildən bu məktəb Azərbaycan Respublikası Milli Ordusunu müasir hərbi peşə standartına uyğun təhsil proqramı əsasında hazırlanmış zabitlərlə təmin edir.

Ümummilli lider Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzaladı. Onun 2001-ci il 20 avqust tarixli fərmanı ilə isə Silahlı Qüvvələr üçün kadr hazırlığının təkmilləşdirilməsindən ötrü Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzi təşkil edildi.

Milli kadrların hazırlanması istiqamətində görülən işlər Ümummilli lider Heydər Əliyevin ideyalarının həyata keçməsinə böyük təkan verdi. Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinin, Tibb Universitetində hərbi tibb fakültəsinin yaradılması milli müdafiə və təhlükəsizlik sahəsində dövlət siyasətinin vahid sistem halında mövcudluğunu bir daha təsdiqlədi. Bütün bu hərbi təlim-təhsil ocaqları Azərbaycanın Silahlı Qüvvələrinin tərkibinə daxil olan müxtəlif qoşun növlərini ən müasir hərbi biliklərə yiyələnən peşəkar zabitlərlə təmin edir, eyni zamanda bir sıra ölkələr üçün də kadrlar hazırlayır.

Yüksək kadr potensialı və geniş maddi-texniki bazası olan yerli hərbi məktəblərlə yanaşı, Azərbaycan Respublikası hərbçiləri bir sıra

zəruri və mühüm ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə Cümhuriyyəti, Rusiya Federasiyası, Ukrayna, Pakistan İslam Respublikası, Çin Xalq Respublikası və digər ölkələrə göndərildi.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri də genişlənmiş, NATO, MDB çərçivəsində, habelə bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyulmuşdur. Ölkəmizin 1994-cü ilin mayında qoşulduğu NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının həyata keçirilməsini, gələcək zabitlərin müasir standartlara uyğun təhsil almasını və perspektivdə onların beynəlxalq hərbi tədbirlərdə daha fəal iştirakını təmin etmək məqsədilə Azərbaycan Ali Hərbi Məktəbində «Sülh naminə tərəfdaşlıq» kafedrası açılmışdı. NATO ilə tərəfdaşlıq proqramı çərçivəsində Azərbaycan Respublikasında müxtəlif təlimlər keçirilmişdir. Azərbaycan Respublikasının hərbçiləri NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində təşkil olunan müxtəlif ixtisasartırma və təlim kurslarında da yaxından iştirak etmişlər. Hazırda Azərbaycan Respublikasının NATO ilə əlaqələri artıq «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində inkişaf edir. Bu isə Azərbaycan Respublikasının beynəlxalq təhlükəsizlik strukturlarına inteqrasiya olunmasını təmin edən amillərdəndir. Sülhyaratma və antiterror əməliyyatlarında iştirak edən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin kontingenti beynəlxalq səviyyədə təcrübə toplamaları ilə yanaşı, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasına da töhfə vermiş olurlar.

Həyatını xalqının təhlükəsizliyinə və inkişafına həsr etmiş Ümummilli lider Heydər Əliyevin ordu quruculuğu, bütövlükdə dövlət quruculuğu sahəsində fəaliyyəti nəticəsində Azərbaycan Respublikası regionda ən güclü orduya malik olan dövlətə çevrilmişdir.

Milli təhlükəsizlik sisteminin və silahlı qüvvələrin formalaşması məsələsinin Ümummilli lider Heydər Əliyevin təhlükəsizlik strategiyasında yeri ilə bağlı fikirlərimizi Azərbaycan Respublikasının təhlükəsizlik tarixində əvəzsiz rol oynamış bu dahi və müdrik şəxsiyyətin öz sözləri ilə yekunlaşdırmaq istərdik: «Azərbaycan sülhsevər dövlətdir. Azərbaycan həm ölkədə, həm bölgədə, həm də dünyada sülh istəyir. Ona görə də biz Qafqazda, dünyada sülh istəyirik. Əminəm ki, biz sülhə, əmin-amanlığa nail olacağıq. Hamımızın arzusu ondan ibarətdir ki, Azərbaycan bundan sonra da sülh, əmin-amanlıq, rahatlıq şəraitində yaşasın.

Mən Azərbaycan dövlətinə, xalqına, millətinə gələcək uğurlar arzulayıram. Tam əminəm ki, bizim bu gün gördüyümüz işlər Azərbaycanı günü-gündən irəliyə aparacaq, Azərbaycanın bayrağını yüksəldəcək, yüksəldəcək, yüksəldəcək!».

1.4. Çoxpartiyalı siyasi sistem və demokratik seçkilər

XX əsrin ortalarında politoloq D.İstenin elmi ədəbiyyata daxil etdiyi «siyasi sistem» anlayışı hər bir dövlətin daxili aləminin göstəricisi, başqa dövlətlərlə əlaqəsinə təsir edən obyekt kimi politoloqların tədqiqat mövzusuna çevrilmişdir. Siyasi sistem konkret məkan və zaman çərçivəsində yaranır və inkişaf edir. Siyasi sistemin strukturunu cəmiyyətin əsas təsisatları sayılan dövlət, siyasi partiyalar, ictimai hərəkatlar və təşkilatlar təşkil edir [250, 12-13].

Hər bir ölkənin siyasi sistemində hakim yer dövlətə və onun orqanlarına məxsusdur. O, bütün cəmiyyətin təşkilat çərçivələrini müəyyən edir, hüquqi normaların köməyi ilə vətəndaşların və mülki təşkilatların davranışını formalaşdırır, təşəbbüslərini dəstəkləyir.

Demokratik dövlətlərdə siyasi sistemin əsas tərkib hissələrindən olan siyasi partiyalar siyasi hakimiyyətə gəlmək, yaxud ona təsir etmək yolu ilə özlərinin, tərəfdaşlarının və təmsil etdikləri digər qrupların marağını reallaşdırmaq məqsədi daşıyır.

Siyasi sistemin digər əsas tərkib hissəsi olan ictimai qurumlar, qeyri-hökumət təşkilatları və azad mətbuat orqanları öz qarşılarına bilavasitə siyasətlə məşğul olmaq, hakimiyyətə gəlmək məqsədi qoymur. Lakin onlar yürüdülən siyasətə təsir etmək, bu və ya başqa vəzifələri reallaşdırmaq məqsədilə aktiv fəaliyyətlə məşğul olur [250, 15].

Azərbaycan Respublikasında çoxpartiyalı siyasi sistemin ilk nümunəsi Azərbaycan Xalq Cümhuriyyəti dövründə meydana gəlmiş, lakin məlum səbəblər üzündən gənc respublikanın süqutu ilə ona da son qoyulmuşdur.

Azərbaycan Respublikasında ikinci dəfə çoxpartiyalı siyasi sistemin yaranması milli dövlət müstəqilliyinin bərpasından əvvəlki illərə təsadüf edir. 1980-ci illərin axırında respublikadakı böhran vəziyyətinin, ölkənin Dağlıq Qarabağ bölgəsində genişlənən erməni separatizminin ictimai-siyasi təşkilatların təşəkkülünə mühüm təsiri olmuşdu [363, 46].

Akademik Ramiz Mehdiyev yazır ki, «Azərbaycanın siyasi təşkilatlarının yaranma tarixi yenidənqurma, «Qorbaçovsayağı aşkarlıq» dövrü ilə, sovet iqtisadiyyatının bazar münasibətləri və kapitalizm qurmaq məcrasına keçməyə başlaması ilə sıx bağlıdır. Zərərli formada olsa da, demokratikləşmə 1980-ci illərin axırlarında xalq hərəkatının, sonra isə mili azadlıq hərəkatının güclənməsinə, ictimai-siyasi meydana yeni simaların gəlməsinə... səbəb oldu» [301, 289]. Azərbaycan Kommunist Partiyasının hələ hakimiyyətdə olduğu vaxtda Azərbaycan Xalq Cəbhəsinin yaranması respublikada çoxpartiyalılığın formalaşması yolunda ilk addım oldu. Ancaq AXC-nin təşkilində və sonrakı fəaliyyətində buraxılan səhvlər onun qarşısına qoyduğu strateji məsələlərin həllinə maneçilik törətdi, o, getdikcə yekdil fikirlilər birliyinə deyil, ümumi marağı olanların koalisiyasına çevrildi. Məhz yekdilliyin olmaması AXC-nin kiçik bir qrup tərəfindən tələsik və ciddi hazırlıq olmadan təsis edilməsinə gətirib çıxarmışdı [336, 98].

Sonradan «Yeni Müsavat», «Sosial Demokrat», «Ana Vətən», «Milli İstiqlal» partiyaları və s. siyasi təşkilatlar yarandı. 1992-ci ilin ortalarında Azərbaycan Respublikasında hakimiyyətdə olan AXC-dən savayı, 26 siyasi partiya var idi.

Azərbaycan Respublikasında siyasi proseslərin genişlənməsinə və dərinləşməsinə baxmayaraq, bir-iki az əhəmiyyətli partiyanı çıxmaq şərtilə, siyasi səhnəyə heç bir siyasi partiya gəlməmişdi. Bu baxımdan, 1992-ci il noyabrın 21-də Naxçıvanda Heydər Əliyev kimi təcrübəli dövlət xadiminin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması nəinki ölkənin ictimai-siyasi həyatında, həm də bütövlükdə gənc müstəqil dövlətin gələcək fəaliyyətində mühüm rol oynayacaq tarixi hadisə oldu. Azərbaycanda demokratik, hüquqi dövlət qurulması, mətbuat və söz azadlığı olan demokratik cəmiyyətin təşəkkül tapması istiqamətində fəaliyyət göstərməyi qarşıya məqsəd qoyan partiya uzun bir dövr üçün özünün dəqiq strategiyasını müəyyənləşdirən «Yeni müstəqil Azərbaycan uğrunda!» şüarını irəli sürdü.

Ümummilli lider Heydər Əliyev partiyanın yaradılmasının beşinci ildönümü mərasimindəki nitqində demişdi: «Yaranandan onun ən

üstün müsbət cəhəti ondan ibarətdir ki, Yeni Azərbaycan Partiyasının amalı, məqsədləri, qəbul etdiyi proqram müstəqil Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, Azərbaycanda demokratik prinsipləri bərqərar etmək, Azərbaycanı dünya iqtisadiyyatına bağlamaq, Azərbaycanda iqtisadi-siyasi islahatlar həyata keçirmək və Azərbaycanı inkişaf etdirmək olubdur».

Heydər Əliyev «Azərbaycanda geniş xalq kütlələrini əhatə edəcək nüfuzlu və işlək bir partiyanın» yaradılmasını təklif edən «91-lərin» müraciətinə cavabında partiyaların fəaliyyəti üçün Azərbaycan dövlətinin gələcək həyatında demokratiya və siyasi plüralizmin olmasını əsas şərt kimi vurğulamışdı.

Yeni Azərbaycan Partiyası ölkədə daha bir müxalifət təşkilatı kimi yaranmamışdı. Onun meydana gəlməsi həmin dövrdə ağır və mürəkkəb günlərini yaşayan Azərbaycanın xaos və anarxiyadan xilas edilməsi, dövlətçiliyin itirilməsi təhlükəsinin qarşısının alınması zərurətindən doğmuşdu. Heydər Əliyev sonralar bu barədə demişdi: «Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdı... Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, Azərbaycandakı çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirlər...

...Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra mən Xalq Cəbhəsinə müxalifətdə olmamışam. Amma onlar, sadəcə olaraq, Azərbaycanı idarə etmək iqtidarında olmadılar, buna qadir olmadılar».

Beləliklə, güclü sosial bazası, praqramatik proqramı, güclü təşkilati strukturu və nüfuzlu lideri olan Yeni Azərbaycan Partiyasının yaranması ilə 1992-ci ilin sonunda ölkəmizdə çoxpartiyalı siyasi sistem əsasən formalaşmış oldu [336, 153].

İnkişaf etmiş ölkələrin siyasi məkanından fərqli olaraq, Azərbaycan Respublikasında çoxpartiyalı siyasi sistemin formalaşması prosesi özünəməxsus məcrada inkişaf etmişdir. Avropa ölkələrində partiyalar uzun dövr ərzində təkmilləşmiş, sosial diferensiasiya və sertifikasiya prosesi isə siyasi formaların inkişafı ilə paralel getmişdir. Lakin Azərbaycan Respublikasında bu cür keçid tarixi baxımdan çox qısa bir vaxtda olmuşdur. «Əgər Avropada siyasi təşkilatlar siyasi prosesə təbii şəkildə qatılırdısa, Azərbaycanda siyasi təşkilatlar ümumən sabit və inkişaf etmiş siyasi sistemdən kənarda meydana gəlmiş və fəaliyyətə

başlamışdır. Bunun nəticəsində Azərbaycanın partiya sistemi «bətndaxili formalaşma»nın tam silsiləsini keçməmiş və inkişaf ləngliyinə məruz qalmışdır ki, bu da əslində, vətəndaş cəmiyyəti yaradılması proseslərini də ləngidir» [301, 299–301].

Bəzi tədqiqatçılar Azərbaycanda partiyalaşma prosesini şərti olaraq beş dövrə bölürlər [336, 158].

Akademik R.Mehdiyev isə Azərbaycan Respublikasında siyasi təşkilatların təşəkkülünün dörd mərhələdən keçdiyini vurğulayır [301, 300].

Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra ötən müddətdə mili siyasət özünün əsas komponenti olan sabit hakimiyyət strukturunu və ona opponentlik edən qüvvələr üçün əlverişli şəraiti formalaşdırmışdır. Ona görə də qətiyyətlə deyə bilərik ki, Azərbaycan Respublikasının müasir siyasi sisteminin banisi Ümummilli lider Heydər Əliyevdir. Məhz onun rəhbərliyi ilə işlənib hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında siyasi sistemin yaradılması öz əksini tapmışdır.

Azərbaycan Respublikasının siyasi sistemində ən müxtəlif ideoloji istiqamətlərə mənsub (liberal, mühafizəkar, millətçi, iqtidaryönlü və s.) partiyalar təmsil olunmuşdur. Bunların əksəriyyəti özlərini müxalifət partiyaları elan etmişdir. Məhdud sosial bazaya malik olan bu partiyalar mövcud iqtidara qarşı mübarizə aparsa da, strategiya və taktikalarına görə bir-birindən kəskin şəkildə fərqlənirlər. Onların bir qismi bütün narazıları, cəmiyyətə inteqrasiya olunmayan dağıdıcı ünsürləri birləşdirməyə çalışan barışmaz, destruktiv müxalifəti təmsil edir [115, 212].

«İndiyədək müxalifət partiyalarından heç biri respublika miqyasında elə bir iqtisadi inkişaf proqramı irəli sürə bilməmişdir ki, ondan dövlətin və cəmiyyətin rifahı naminə istifadə etmək mümkün olsun və bu proqram digər müxalif qüvvələr tərəfindən dəstəklənsin. Müxalifət yönümlü partiyaların ən mühüm problemlərindən, uğursuzluqlarından biri Azərbaycan Respublikasının siyasi həyatında lazımınca iştirak etməməsi ilə bağlıdır.

Sağlara, mərkəzçilərə və ya sollara mənsubluq barədə quru bəyanatlar bu partiyaların liderləri öz siyasi və ya iqtisadi baxışlarını

açıqlamağa azacıq da olsa cəhd göstərən kimi tam uğursuzluğa məruz qalır» [301, 329-330].

Ölkədə sabit siyasi sistemin formalaşmasının mühüm aspekti olan siyasi mədəniyyətin keyfiyyətli transformasiyası həm də iqtidarla müxalifət arasında qarşılıqlı münasibətlərin səmərəli modelinin qurulmasının bir elementi kimi çıxış edir, siyasi prosesin bütün faktorlarının iştirakını təmin edir və buna uyğun olaraq siyasi və ictimai təsisatların inkişafına şərait yaradır. Dözümsüzlüyü, barışmazlığı, dialoqdan imtinanı sağlam rəqabət, tolerant qarşılıqlı münasibətlər, indiki və gələcək dövlət barədə konstruktiv ictimai diskussiyalar formalaşdırmaq cəhdi əvəz etməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məhz bu tezisə əsaslanaraq, siyasi prosesin amillərinə müraciət edərək, onları ölkədə həyata keçirilən ümummilli layihələrə və təşəbbüslərə münasibətdə rasional mövqe tutmağa, sonradan davamlı siyasi məkan formalaşdırmaq məqsədilə iqtidarlarla əks-elitanın dialoqunun tərkib hissəsinə çevrilməyə çağırmışdır [308, 40–45].

Azərbaycan müxalifətində konstruktivliyin olmaması onun bəlasına çevrilmişdir. Bu isə onun davranışının ciddi təshihə ehtiyacı olduğunu göstərir. Belə təshih zamanın tələbi, həm müxalifətin özünün, həm də bütövlükdə cəmiyyətin problemidir. Zaman ölkəmizdə siyasi məkanın xarakterinə və mahiyyətinə hissediləcək təsir göstərir. Bu məkanda isə siyasi mənzərənin, partiyaların və onların fəaliyyət formalarının, metodlarının təzələnməsinə daim meyil edilməsi istisna deyildir. Bu siyasi məkanda rəqabətə davamlılıq və ictimai maraqların real təcəssümü uğrunda bəhsləşmə siyasi qüvvələrin öncül vəzifəsi olacaqdır.

Akademik Ramiz Mehdiyev Azərbaycan Respublikasında demokratiyanın inkişafından bəhs edərkən vurğulayır ki, «müasir dövrdə siyasi partiyaların yeni dövrə qədəm qoyması mütləqdir... Artıq cəmiyyətimizin inkişafı siyasi məkanda çoxsaylı xırda, cılız partiyaların süni mövcudluğunu qəbul etmir və konstruktiv, özünəməxsus ideologiyası olan bir neçə siyasi partiyanın fəaliyyətini zərurətə çevirir... Yeni dövr partiyaların ideoloji xəttinin – sağ, sol və mərkəz meyillərinin Azərbaycan cəmiyyətinə gətirilməsini önə çəkir... bu gün siyasi partiyaların dövlət tərəfindən maliyyələşdirilməsi Azərbaycan üçün də aktuallıq kəsb etməyə başlamışdır.

.... Keçən əsrin 90-cı illərinin əvvəlində qəbul edilmiş «Siyasi partiyalar haqqında» qanun Azərbaycanın bugünkü reallığına cavab vermədiyindən, demokratik inkişafımıza müəyyən çətinliklər yaradır» [300, 33-34].

Müəllif son tədqiqatlarından olan monoqrafiyasında bu məsələni bir qədər də konkretləşdirərək yazır ki, «Azərbaycanın siyasi məkanında partiyaların yeni rol oynadığı və ictimai iradənin real ifadəçilərinə çevrildiyi yeni siyasi paradiqmanın formalaşdırılmasına ehtiyac doğur. Müasir dövrün siyasi prosesi yalançı partiya fəallığını qəbul etmir, siyasi fəallığın konkret məzmununun olmasını tələb edir. Tədricən inkişaf edərək, hakimiyyət və müxalifətin səmərəli dualizminin yanaşı mövcud olduğu möhkəm siyasi infrastruktur yaradılmasının vacibliyini dərk edərək, əsassız siyasi hücumları və qarşılıqlı iradları, yersiz ittihamları və ziddiyyətli tənələri aradan qaldıran müasir Azərbaycan cəmiyyətinin məhz buna ehtiyacı var. Belə bir sistemin olması Azərbaycana sosial siyasət baxımından sabit inkişafı davam etdirməyə imkan verəcəkdir. Bu isə ölkənin partiya sisteminin güclü hakim partiya, heç də zəif olmayan müxalifət partiyası və cəmiyyətdə orta mövqe tutan mərkəzçi partiya arasında rəqabətin getdiyi iki və ya üçpartiyalı struktura transformasiyanı təmin edəcəkdir. Belə bir strukturun yaradılmasına zərurət majoritar qaydada keçirilən və səmərəli dövlətçilik şəraitində milli radikal müxalifətin bacarıqsızlığını nümayiş etdirən 2005-ci il parlament seçkilərindən sonra yaranmışdır» [306, 514-515].

Şübhəsiz ki, müəllifin yazdığı kimi, bütün bunlar əsas amalın gerçəkləşməsinə – Azərbaycanı inkişaf etmiş, rəqabətə davamlı, vətəndaş cəmiyyətinin bərqərar olduğu, demokratik təsisatların azad fəaliyyət göstərdiyi müasir məkana çevirməyə kömək edəcəkdir.

Demokratik cəmiyyətin ən mühüm əlamətlərindən biri seçkilərdir. Seçki anlayışının və hakimiyyətin seçkilər yolu ilə formalaşması qaydasının tarixi qədimdir. İnsan cəmiyyəti inkişaf etdikcə dövlətin yaranması və dövlət hakimiyyətinin formalaşmasını müəyyən edən qaydalar (seçmək və seçilmək qaydaları) da təşəkkül tapmışdır. Müasir dünyanın əksər ölkələrində hakimiyyət demokratik seçkilər yolu ilə formalaşır və faktik olaraq indi demokratiya və demokratik seçki sistemi universal xarakter daşıyır. Hər bir ölkədə hakimiyyətin, siyasi reji-

min mahiyyəti bu ölkədə demokratik qaydalara nə dərəcədə əməl olunması ilə müəyyən edilir.

Azərbaycan Respublikasında müasir mənada seçki sisteminin tətbiqinin təxminən bir əsrlik tarixi vardır. Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətində demokratik respublika idarə üsulu tətbiq edilmişdi. Avropanın əksər ölkələrindən və ABŞ-dan daha əvvəl Azərbaycan Respublikasında qadınlara seçki hüququ verilmişdi. Lakin Xalq Cümhuriyyətinin süqutu ilə bu uğurlu işlərə də son qoyuldu.

Doğrudur, sovet hakimiyyəti dövründə bütün İttifaqda olduğu kimi, Azərbaycan SSR-də də seçkilər keçirilirdi. Ancaq bu seçkilər və əhalinin həmin prosesdə iştirakı büsbütün formal xarakter daşıyırdı və həmin seçkiləri demokratik seçkilər adlandırmaq olmazdı.

1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildikdən sonra, A. Mütəllibov və AXC iqtidarı dövründə seçkilər xaos və silahlı dəstələrin özbaşınalığı şəraitində keçirilmişdir. Hətta A.N.Mütəllibovun hakimiyyəti dövründə, Azərbaycan Respublikasının o vaxtkı Konstitusiyasına zidd olaraq, seçki qanununa prezidentliyə namizədlər üçün yaş həddinin (65 yaş) müəyyənləşdirilməsi barədə əlavə də edilmişdi. Heç bir hüquqi əsası olmayan bu əlavənin qanuna daxil edilməsində məqsəd o vaxt Heydər Əliyevin prezidentliyə mümkün namizədliyinin qarşısını almaq idi.

Müstəqil Azərbaycan Respublikasında azad, demokratik seçkilərin keçirilməsi üçün əlverişli ictimai-siyasi şəraitin yaranması və beynəlxalq təcrübəyə əsaslanan qanunvericilik bazasının formalaşdırılması Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin yayında siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Müasir demokratik cəmiyyətlərdə seçkilər əhalinin öz iradəsini ifadə etməsinin əsas formasıdır. Seçkidə iştirak etməklə seçicilər dövlətin istər qanunverici, istərsə də icraedici orqanlarının formalaşdırılması və fəaliyyəti üzərində nəzarət etmək imkanı və hüququ əldə edir.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasda səs çoxluğu ilə respublika Prezidenti seçdi. Beləliklə, ölkədə zorakılıqla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Azərbaycan Respublikasının Konstitusiyasına görə, ölkədə dövlət hakimiyyətinin yeganə mənbəyi xalqdır və o öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi (referendum) və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir. Konstitusiyada seçki hüququ haqqında ayrıca maddə də vardır. Həmin maddədə Azərbaycan Respublikası vətəndaşlarının seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ təsbit olunmuşdur.

Referendumla bir gündə, noyabrın 12-də müstəqil Azərbaycan Respublikasında ilk parlament seçkiləri keçirildi. Çoxpartiyalılıq, majoritar və proporsional seçki sistemi əsasında formalaşmış ilk parlament Konstitusiyada təsbit edilmiş prinsiplərin gerçəkləşməsi yolunda mühüm hadisə idi.

Konstitusiyada təsbit olunmuş prinsiplərin reallaşması vətəndaş cəmiyyətinin təməlini təşkil edən seçki qanunvericiliyinin mükəmməlliyindən asılıdır. Məhz buna görə də Azərbaycan hökuməti ölkənin seçki qanunvericiliyinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirir. 1998-ci ildə prezident seçkiləri, 1999-cu ildə bələdiyyələrə, 2000-ci ildə isə Milli Məclisə seçkilər haqqında qanunlar parlamentdə geniş müzakirə olunmuş, ictimai-siyasi qurumların, o cümlədən müxalifət partiyalarının qeyd və təklifləri nəzərə alınmış və son nəticədə nüfuzlu beynəlxalq təşkilatların müsbət rəyi ilə qəbul edilmişdir.

1999-cu ildə bələdiyyələrə, 2000-ci ildə isə Azərbaycan Respublikasının Milli Məclisə keçirilən seçkilərdə namizədlərin hamısına bərabər şəraitin yaradılması, siyasi partiyaların seçkilərdə iştirakına mane olan bütün sədlərin aradan qaldırılması, seçicilərin öz iradəsini azad, demokratik və obyektiv ifadə etməsi üçün zəruri tədbirlərin görülməsi Azərbaycanın demokratiya və vətəndaş cəmiyyəti yolunda ardıcıl surətdə irəliləməsinin təzahürü oldu [115, 204].

Lakin bəzi müxalifət partiyalarının bələdiyyə seçkilərində iştirakdan, ümumiyyətlə, imtina etməsi, bütövlükdə müxalifətin ölkə parlamentində daha çox yer almağa müvəffəq olmaması göstərdi ki, iqtisadiyyat inkişaf etdikcə, əhalinin həyat səviyyəsi yaxşılaşdıqca insanların müxalifət düşərgəsindən qanunauyğun axını baş verir, par-

tiyaların onsuz da az olan intellektual və insan resursları tamamilə tükənir [301, 331].

2002-ci il avqustun 24-də keçirilən referendum nəticəsində Konstitusiyaya edilən dəyişikliklərə görə, Milli Məclisə deputatlar qarışıq (majoritar və proporsional) deyil, majoritar seçki sistemi əsasında seçilirlər. 2003-cü il noyabrın 11-də qəbul olunmuş Azərbaycan Respublikasının Seçki Məcəlləsi seçki qanunvericiliyinin təkmilləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi. 1995-ci ildəki parlament seçkilərində seçicilərin 50 faizi, 2000-ci ilin parlament seçkilərində isə 25 faizi iştirak etdiyi halda seçkilər baş tutmuş hesab olunurdu. Yəni Seçki Məcəlləsində yetərsay sistemi ləğv edilmişdir, seçkidə iştirak edənlərin sayından asılı olmayaraq, seçkinin baş tutması əsas götürülmüşdür. Deputatlığa namizədlərin irəli sürülməsi qaydasındakı dəyişikliklər isə proporsional seçki sisteminin ləğv olunmasına baxmayaraq, siyasi partiyaların seçki prosesində iştirakına tam şərait yaradır. Yeni Məcəlləyə əsasən, majoritar seçki sisteminin mütləq yox, nisbi əksəriyyət sistemindən istifadə olunur. Yəni hər hansı dairədən yalnız bir nəfər deputatlığa namizəd irəli sürülmüşsə və seçkidə hətta bir seçici – namizədin özü iştirak edərək öz lehinə səs versə, o, seçilmiş hesab edilir.

2003-cü ilin prezident seçkiləri Azərbaycan Respublikasının müasir tarixinə çox mühüm hadisə, dönüş nöqtəsi kimi daxil olmuşdur. Akademik Ramiz Mehdiyevin yazdığı kimi, Prezident Heydər Əliyevin xəstələnməsi cəmiyyətdə narahatlıq yaratmışdı. Təkcə dövlətin gələcəyi məsələsi deyil, həm də siyasi rejimin xarakteri, Azərbaycan Respublikasının gələcək inkişaf yolları məsələsi həll edilirdi. Lakin seçicilərin tam əksəriyyətinin İlham Əliyevə səs verməsi göstərdi ki, xalq ölkəni yenidən anarxiyaya sürükləmək istəyənlərin əleyhinədir. Seçkilərin nəticələri elektoratın belə fəallığını gözləməyən və seçkiləri tənqid etmək sifarişini yerinə yetirməyə qabaqcadan hazırlaşan bəzi beynəlxalq müşahidəçilərlə yanaşı, bu cür ictimai etirazı dərk edə bilməyən və seçicilərin səsvermə məntəqələrinə gəlməyəcəyinə, seçkini boykot edəcəyinə ümid bəsləyən müxalifət liderlərini də sarsıtdı. Azərbaycan Respublikasının seçiciləri Heydər Əliyev siyasətini, onun müəyyən etdiyi inkişaf xəttini dəstəklədi. Bu, o demək idi ki, siyasətdə varislik xətti saxlanır, ölkə demokratiya və liberal iqtisadiyyat yolu ilə inkişafını davam etdirəcəkdir [301, 337].

Seçkilərdə məğlubiyyətin labüdlüyünü bilən radikal müxalifətin liderləri səsvermənin nəticələri hələ elan olunmamış, oktyabrın 15-də axşam idarəolunmaz kütlənin qabağına düşərək, paytaxtda xaos və anarxiya yaratdılar. Ertəsi gün gündüz də davam edən bu vəziyyətə dövlətin qətiyyətli tədbirləri sayəsində son qoyuldu. Bu seçkilərdə Azərbaycan Respublikasında hakimiyyət dəyişikliyinin yüksək siyasi mədəniyyət prinsipi əsasında həyata keçirilməsi ilə dövlətçiliyin, elitar sirkulyasiyanın, sivil tranzit ənənəsinin təməli qoyulmuş oldu.

2005-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə idi. Keçmiş sovet respublikalarında – Ukrayna, Gürcüstan və Qırğızıstanda baş vermiş «rəngli inqilab»lardan sonra beynəlxalq ictimaiyyətin və dünyanın aparıcı xəbər ağentliklərinin diqqəti Azərbaycana yönəlmişdi. Çoxları müxalifətin «inqilabi arzularının» son nəticəsi kimi «məxməri» transformasiyanın baş verəcəyini gözləyirdi.

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasında keçirilən hər bir seçki əvvəlkinə nisbətən beynəlxalq standartlara uyğunlaşdırılması baxımından irəliləyiş olmuşdur və beynəlxalq təşkilatların seçkilərə dair rəyləri də bunu təsdiq edir. Bununla belə, Azərbaycan hakimiyyəti ölkədə seçki təcrübəsinin təkmilləşdirilməsi, demokratik standartlara uyğunlaşdırılması yönündə səylərini davam etdirir, bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığı gücləndirirdi. 2005-ci ilin parlament seçkilərindən əvvəl də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) və Avropa Şurası Venesiya Komissiyasının ekspertləri ilə geniş müzakirələr aparılmışdı. Bu müzakirələrin yekunu kimi, Milli Məclis Seçki Məcəlləsinin 43 maddəsində əlavə və dəyişiklik etmişdi.

Parlament seçkilərinə hazırlıq və seçkilər zamanı baş verə biləcək əyintilərin və qanun pozuntularının qarşısını almaq, seçkiləri qanunvericiliyin müddəalarına tam uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev mayın 11-də «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» sərəncam imzalamışdı. Azərbaycan Respublikasının demokratik imicinin daha da yüksəldilməsi baxımından çox mühüm olan və həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə böyük rəğbətlə qarşılanan bu sə-

nəddə azad və ədalətli seçkilərin keçirilməsinə mane olan amillərin aradan qaldırılması yolları birmənalı şəkildə göstərilmiş, seçkiqabağı mühitin demokratikləşdirilməsi ilə bağlı konkret vəzifələr öz əksini tapmışdı.

Prezident İlham Əliyevin oktyabrın 25-də, seçkiqabağı təşviqat kampaniyasının həlledici mərhələsində icra strukturlarının rəhbərləri ilə keçirdiyi müşavirənin yekunu kimi imzaladığı «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» sərəncamın seçki praktikasının təkmilləşdirilməsi sahəsində tədbirlərin səmərəliliyinin artırılması, Seçki Məcəlləsinin müddəalarının şərtsiz yerinə yetirilməsi, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi baxımından böyük əhəmiyyəti vardı və beynəlxalq təşkilatlar, aparıcı demokratik dövlətlər tərəfindən müsbət qarşılanmışdı [309, 18, 47–50].

Seçkiləri 45 ölkədən 1586 beynəlxalq müşahidəçi, habelə 17 mindən çox yerli müşahidəçi, 80 ölkədən 310 jurnalist izləmiş, Azərbaycan Respublikası tarixində ilk dəfə olaraq, bu seçkilərdə «exit-poll» keçirilmişdi [309, 55–61].

2005-ci il noyabrın 6-da keçirilmiş seçkilərdə 1541 nəfər deputat mandatı uğrunda mübarizə aparmışdı. Səsvermənin nəticələrinə görə seçilmiş 115 deputatdan 56-sı Yeni Azərbaycan Partiyasının namizədləri, 41-i müstəqil namizədlər idi. Digər 12 partiyanın namizədləri 17 mandat qazanmışdı. Mərkəzi Seçki Komissiyası 4, Konstitusiya Məhkəməsi isə 6 seçki dairəsində seçkilərin nəticələrini ləğv etmişdi.

Radikal müxalifətin bu seçkilərdə «narıncı inqilab» ssenarisini həyata keçirmək ümidləri boşa çıxdı. Seçkilərdən bir həftə sonra Vaşinqtondakı Nikson Mərkəzində bu seçkilərə həsr olunmuş konfransda vurğulanmışdı ki, Azərbaycan Respublikasında gələcəyə istiqamət götürmüş prezident və keçmişə nəzər salmaqla hərəkət edən müxalifət liderləri var [309, 94].

Prezident İlham Əliyev noyabrın 7-də seçkilərin nəticələri ilə bağlı Azərbaycan Dövlət Televiziyasına müsahibəsində xalqın seçkilərdə öz sözünü dediyini, istədiyi namizədə səs verdiyini vurğulayaraq demişdir: «... Seçkilərin normal, ədalətli keçirilməsi üçün bütün şərait yaradılmışdı. Seçki günü də bütövlükdə çox sakit keçdi, seçkilər azad, ədalətli şəkildə keçirildi ... Seçkilərin demokratik şəkildə keçirilməsi

Azərbaycanın qarşısında yeni imkanlar açır. Biz bundan sonra da demokratikləşmə prosesinə diqqət göstərəcəyik. Azərbaycanda siyasi proseslərin sürətlənməsi, demokratik inkişafın möhkəmlənməsi ölkəmizin hərtərəfli inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir... Bizim güclü iqtisadi perspektivlərimiz bilavasitə Azərbaycanda demokratiyanın inkişafı ilə bağlıdır. Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması bizim başlıca vəzifəmizdir» [392, 2005, 8 noyabr].

2008-ci il müstəqil Azərbaycan Respublikası tarixinə növbəti prezident seçkiləri ili kimi daxil olmuşdur. Əvvəlki seçkilər ərəfəsində olduğu kimi, bu dəfə də Milli Məclis beynəlxalq təşkilatların və yerli vətəndaş cəmiyyəti qurumlarının tövsiyələrini nəzərə alaraq, Seçki Məcəlləsinə əlavə və dəyişikliklər etmişdir. Məcəllənin 145 maddəsinə edilmiş 91 əlavə və dəyişiklik seçki təsisatlarının daha səmərəli fəaliyyət göstərməsinə, seçki prosesi ilə bağlı şikayətlərin daha çevik, operativ araşdırılmasına, seçici siyahılarının dəqiqləşdirilməsinə, seçkiləri müşahidə prosesinin asanlaşdırılmasına, seçkilərin monitorinqi, namizədlərin təbliğat-təşviqat, vətəndaşların seçki hüququnun reallaşdırılması imkanlarının yaxşılaşdırılmasına xidmət etmişdir.

Mərkəzi Seçki Komissiyası tələb olunan 40 min imzanı toplayaraq müəyyən olunmuş müddət ərzində təqdim etmiş 9 nəfərdən 7-ni prezidentliyə namizəd kimi qeydiyyata almışdı ki, onlardan da 6 nəfəri müxalifət partiyalarını təmsil edirdi.

Oktyabrın 15-də keçirilən seçkiləri 1200 beynəlxalq, 47 min yerli müşahidəçi, 30 xarici KİV-dən 92 jurnalist izləmişdi. Bu dəfə «exit-poll»u xarici yox, yerli təşkilatlar keçirmişdi. Onlar 1788 seçki məntəqəsində «exit-roll» təşkil etmişdi.

Seçkilərin nəticələrinə görə İlham Əliyev 88,73 faiz, İqbal Ağazadə 2,86 faiz, Fazil Mustafayev 2,47 faiz, Qüdrət Həsənquliyev 2,28 faiz, Qulamhüseyn Əlibəyli 2,23 faiz, Fuad Əliyev 0,78 faiz, Hafiz Hacıyev 0,5 faiz səs toplamışdı.

Beynəlxalq müşahidəçilər seçkilərin yaxşı təşkil olunduğunu, seçkilərin sakit və dinc şəraitdə keçdiyini bildirmiş, səsvermə prosesini yaxşı və çox yaxşı kimi qiymətləndirmişdilər. Eyni zamanda onlar bəzi müxalifət partiyalarının seçkilərdə iştirak etməməsini elektoratın seçim etmək miqyasını məhdudlaşdıran uğursuz qərar kimi vurğulamışdılar.

Dünya birliyi 2008-ci ildə ölkəmizdə keçirilən prezident seçkilərində qeyri-konkret texnologiyanın, fals-piarların tətbiq olunmadığını etiraf etdi. Azərbaycan xalqı siyasi yetkinliyə doğru daha bir çox önəmli addım atdı. Seçkilərin nəticəsi müstəqil Azərbaycanın tarixində yeni dövrün başlanmasının göstəricisi oldu. Qazanılmış uğurlar gələcək inkişaf perspektivlərini, yeni siyasi məkanı və mədəniyyəti, siyasi və iqtisadi strukturu təkmilləşdirməyə, cəmiyyətin növbəti illər üçün inkişaf istiqamətlərinin əsas cizgilərini nəzərdən keçirməyə, vətəndaşların azad və firavan ölkədə, ədalətli cəmiyyətdə yaşayacaqlarına inamının artmasına imkan verir [300, 18, 32].

2008-ci ilin dekabrında Yeni Azərbaycan Partiyası Konstitusiyaya əlavə və dəyişikliklər olunması ilə bağlı Milli Məclisdə təşəbbüs irəli sürdü. Parlament bu təşəbbüsü dəstəklədi və 2009-cu il martın 18-də Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişikliyi nəzərdə tutan təklif referenduma çıxarıldı. Konstitusiyanın 101-ci maddəsinin 5-ci bəndinə edilmiş dəyişikliyə əsasən, bir şəxsin iki dəfədən artıq prezident seçilməsinə qoyulan məhdudiyyət aradan götürüldü.

Bundan əlavə, Konstitusiya islahatı seçki hüququ olan 40 min vətəndaşa qanunvericilik təşəbbüsü ilə çıxış etmək hüququ verdi. Bu, vətəndaşların qanunvericilik prosesində iştirakı üçün əlavə demokratik mexanizm yaradır və onların dövlət idarəçiliyində iştirakının hüquqi zəminini genişləndirir.

2010-cu il Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm hadisə – dördüncü çağırış Milli Məclisə seçkilərlə əlamətdar olmuşdur.

Noyabrın 7-də keçirilmiş seçkiləri 1029 beynəlxalq və 50 mindən çox yerli müşahidəçi izləmişdir. Səsvermənin nəticələrinə görə parlamentə 10 siyasi partiyanın təmsilçiləri, habelə bitərəf namizədlər seçilmişdir. Noyabrın 29-da Konstitusiya Məhkəməsinin Plenumu seçkilərin nəticələrini təsdiq etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev dördüncü çağırış Milli Məclisin çox azad, ədalətli, şəffaf şəkildə və rəqabət şəraitində keçirilmiş parlament seçkilərinin ölkəmizdə demokratik inkişaf istiqamətində növbəti mühüm uğur olduğunu, Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirdiyini bildirmişdir. Dövlət başçısı xüsusi vurğulamışdır ki, biz Azərbaycanda güclü siyasi sistemin formalaşmasını

istəyirik. «Hesab edirəm ki, Milli Məclisin indiki tərkibi bu məqsədə xidmət göstərəcək, siyasi opponentlər bir-biri ilə fikir-ideya mübarizəsi aparacaqlar. Artıq Azərbaycan cəmiyyətində, xüsusilə siyasi müstəvidə bu meyillər güclənir» [440, 2010, 30 noyabr].

1.5. YAP Azərbaycan cəmiyyətinin aparıcı siyasi qüvvəsidir

XX əsrin son onilliyində ölkəmizdə cərəyan edən ictimai-siyasi proseslərin birbaşa məntiqi nəticəsi və başlıca siyasi hadisələri sırasında Yeni Azərbaycan Partiyasının yaranması özünəməxsus yer tutur. Onun yaranması hər şeydən əvvəl zamanın çağırışlarına və ölkəni real təhlükələrdən xilas etməyə qadir olan lider axtarışlarına cavab reaksiyası kimi qiymətləndirilməlidir. Gələcəyin ən güclü siyasi partiyasının meydana çıxması, əslində, bir sosial sifariş, tarixi zərurət idi.

Dövlət müstəqilliyinin əldə edilməsi ölkəmiz qarşısında geniş inkişaf perspektivləri açmış, Azərbaycan xalqı öz həyatını sərbəst və müstəqil qurmaq imkanı qazanmışdı. Müstəqil dövlət qurmaq üçün vacib olan milli iradədən tutmuş iqtisadi imkanlar və beynəlxalq dəstək də daxil olmaqla, bütün şərtlər, demək olar ki, mövcud idi. Ölkənin sərvətləri, iqtisadi, siyasi və mədəni potensialı, əlverişli geosiyasi vəziyyəti, zəngin neft-qaz yataqları və digər resursları həm müstəqil dövlət quruculuğunu, həm də Azərbaycanın regionda və dünyada özünə layiq yerini tutmasını şərtləndirirdi.

Azərbaycanın yerləşdiyi regionun geostrateji üstünlükləri, ölkəmizin Şərqlə Qərbin qovuşuğunda qərarlaşması zəruri beynəlxalq əlaqələrin yaradılmasına və dinamik inkişafa meydan açaraq, müstəqil dövlət quruculuğu baxımından əlavə təminatlar verirdi.

Ölkəmizin qədim və zəngin dövlətçilik tarixi və ənənələri müstəqil Azərbaycan dövlətinin qurulmasına bəslənilən daxili və xarici inamı artıran daha bir amil idi.

Beləliklə, keçmiş SSRİ-nin süqutu Azərbaycanın müstəqil dövlətçilik ənənələrinin bərpası qarşısında geniş imkanlar açmışdı və bu imkanların xalqın siyasi iradəsi ilə birləşməsi müstəqil Azərbaycan dövlətinin yaranmasını şərtləndirirdi.

Lakin bu real imkanlara baxmayaraq, müstəqillik qazanıldıqdan sonra gözlənilən dövlət quruculuğu prosesi ciddi problemlər və çətinliklərlə müşayiət olunmağa başladı. Bunların bir qismi Ermənistanın ölkəmizə ərazi iddiaları irəli sürməsi və bu məqsədlə hərbi təcavüz nəticəsində Azərbaycan Respublikası ərazilərini işğal etməsi ilə bağlı idi. Mövcud hakimiyyət nəinki erməni təcavüzünün qarşısını almaqda acizlik göstərir, habelə zəruri xalq müqavimətini təşkil etməkdə, təcavüzkara qarşı təsirli beynəlxalq təpkinin təşkilində inanılmaz sərişтəsizlik və bacarıqsızlıq nümayiş etdirirdi.

Dövlət müstəqilliyin ilk illərinin doğurduğu digər ciddi problem ölkədə yaşanan siyasi böhranla əlaqədar idi. Tez-tez baş verən hakimiyyət dəyişikliyi böhranı daha da gücləndirir, xalqla hakimiyyət arasında uçurumu dərinləşdirirdi. Böhrandan çıxmaq üçün hakimiyyət tərəfindən ya təsirli tədbirlər görülmür, ya da görülənlər lazımi nəticə vermirdi. Hakimiyyətə etimadın artırılması baxımından vacib olan milli maraqların qorunması lazımi səviyyədə deyildi və hətta iqtidara gəlmək üçün hakimiyyət dəyişiklikləri bir sıra hallarda milli maraqlara xəyanət sayəsində mümkün olurdu.

İfrat həddə çatmış siyasi böhran təbii olaraq açıq surətdə ifadə olunan hakimiyyətdaxili qarşıdurmalar, siyasi xaos və anarxiyanın tüğyanı ilə müşayiət edilirdi. Bunun fonunda ölkədə separatizm meylləri güclənir, Azərbaycan Respublikasını parçalamağa yönəlmiş hərəkatlar geniş vüsət alırdı. Nəinki, əldə olunan müstəqillik, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyü ciddi təhlükə qarşısında idi.

Ölkənin başının üstünü almış təhlükənin ciddiliyi onun hərtərəfli xarakterində ifadə olunurdu. Siyasi böhran meyillərini dərin və şiddətli iqtisadi tənəzzül tamamlayırdı. İqtisadiyyat iflic vəziyyətə düşmüş, ən mühüm müəssisələr, demək olar ki, işləmirdi. İnsanların ərzaq, ilk növbədə, çörək təminatı sanki taleyin hökmünə buraxılmışdı. Xaos, anarxiya, dərəbəylik, özbaşınalıqla yanaşı, ərzaq qıtlığı problemi cəmiyyətdə ciddi inamsızlıq və narahatlıq əhval-ruhiyyəsinin kök salmasına səbəb olmuşdu.

Beləliklə, siyasi boşboğazlıq və Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünün yaratdığı xalq narazılığı dalğası üzərində hakimiyyətə gələn Xalq Cəbhəsi hökuməti çox qısa zamanda milli etimadı tamamilə itirdi. Artıq 1992-ci ilin sonlarından etibarən köklü siya-

si dəyişiklik əhval-ruhiyyəsi qəti surətdə ictimai düşüncəyə hakim kəsilmişdi. Eyni zamanda bu dəyişiklik bilavasitə Heydər Əliyev fenomeni ilə əlaqələndirilirdi.

Yeni Azərbaycan Partiyasının yaranmasının cəmiyyətdə Heydər Əliyev fenomeninin yeni tarixi şərait və dəyərlər prizmasından qiymətləndirilməsindən ayrılıqda düzgün və ədalətli qavranılması qeyri-mümkündür. Başqa sözlə, etiraf edilməlidir ki, Azərbaycan Respublikasının siyasi həyatında yeni güc mərkəzinin yaranması yalnız Heydər Əliyev şəxsiyyətinə ümumxalq etimadının açıq təzahürü nəticəsində mümkün ola bilərdi. Çağdaş tariximizin bu iki fundamental hadisəsi arasındakı sıx bağlılıq təsadüfi deyildi.

Azərbaycan Respublikasına uzun illər rəhbərlik etmiş Heydər Əliyevə ölkənin inkişafında müstəsna irəliləyişlərin birbaşa təminatçısı kimi həmişə xalqın qəlbində dərin rəğbət bəslənilirdi. O, eyni zamanda keçmiş SSRİ kimi nəhəng dövlətdə yüksək siyasi vəzifəyə irəli çəkilən ilk və yeganə azərbaycanlı olduğundan, sözün həqiqi mənasında, milli qürur mənbəyi sayılırdı. İnsanlar onunla, onun şəxsiyyəti və əməlləri ilə fəxr edir, ona dərin hörmət və etimadını heç zaman gizlətmirdilər. Sağlığında canlı əfsanəyə çevrilən Heydər Əliyevə dahi şəxsiyyət, Azərbaycan xalqının yetişdirdiyi ən böyük tarixi sima kimi yanaşılırdı. Bu mənada istər Azərbaycan SSR-də və Moskvada yüksək dövlət vəzifələrində çalışdığı, istərsə də istefada olduğu vaxtlarda ölkənin ictimai-siyasi həyatına ən güclü təsir göstərə bilən yeganə şəxs Heydər Əliyev idi.

Qeyd olunan tarixi reallıqla yanaşı, SSRİ-nin süqutundan sonra hakimiyyət uğrunda çəkişmələrdə kommunist ideologiyası ilə mübarizə adı altında Azərbaycanın bütün tarixi keçmişini şübhə altına almaq, reallıqlarını kommunist libasında təqdim etmək zəminində ölkənin siyasi elitasına və bütün kadr potensialına qarşı təqiblər geniş tətbiq edilirdi. Sovet keçmişinə qarşı mübarizə bəhanəsi ilə Azərbaycanın 70 illik tarixi bütövlükdə inkar olunurdu. Ən dəhşətlisi isə o idi ki, bu təhlükəli və ziyanlı meyil insanlara da şamil edilirdi. Belə bir vəziyyətdə cəmiyyətdə Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətinə yeni, müasir dəyərlər əsasında yanaşılmasına və qiymətləndirilməsinə xüsusi ehtiyac hiss olunurdu. Açıq-aydın duyulurdu ki, xalqın Heydər Əliyevə qayıdışa ehtiyacı var. Bunsuz

Azərbaycan Respublikasının siyasi həyatında və taleyində ən qüdrətli şəxsiyyətin yeni tarixi missiyasını təmin etmək mümkün deyildi. Yalnız Heydər Əliyevə qayıtmaqla cəmiyyət siyasi iradəsini və birliyini nümayiş etdirmək şansı qazana bilərdi. Çünki qeyd edilən tarixi rolu yalnız o yerinə yetirməyə hazır idi. Buna görə də Heydər Əliyevin qayıdışından əvvəl Heydər Əliyevə qayıdış baş verməli idi və təbii ki, baş verdi.

Heydər Əliyevə qayıdış onun şəxsiyyətinə və ideyalarına inamın müstəqillik dövrünün milli məfkurəsinin vacib tərkib hissəsinə çevrilməsini nəzərdə tuturdu. Ötən əsrin 70-ci illərindən etibarən ölkəmizin ictimai-siyasi həyatının hərəkətverici qüvvəsi kimi çıxış edən Heydər Əliyev ideyaları Azərbaycan xalqının milli inkişafının məfkurə əsasları rolunu oynayırdı. Məhz bu məfkurə əsasında Azərbaycan Respublikası həmin dövrdə sürətli yüksəlişi təmin edə bilmiş, gələcək müstəqilliyin, bir növ, iqtisadi təməli qoyulmuşdu. Digər tərəfdən, Azərbaycan xalqının milli inkişafının Heydər Əliyev ideyalarında ifadə olunan məfkurə əsasları onun müstəqillik ideyaları ilə daxili bağlılığını əks etdirirdi. Buna görə də müstəqilliyin ilk dönəmində məqsədli şəkildə hakimiyyətin kommunist rejimi ilə bağlı olan hər kəsə qarşı təzyiq və təqiblərinin tüğyan etdiyi bir vaxtda cəmiyyətin Heydər Əliyevə qayıdışı onun milli müstəqillik ideyalarının formalaşması və gerçəyə çevrilməsində müstəsna xidmətlərinə xalqın verdiyi tarixi qiymət sayılır.

Heydər Əliyevə qayıdış onun hüquqlarını müdafiə komitəsinin yaradılmasından tutmuş yaş senzinin ləğv edilməsi tələbi ilə mitinqlərin keçirilməsinə qədər müxtəlif inkişaf mərhələsindən keçmişdi. Bu, həm də Heydər Əliyevin rəhbərliyi atında yeni siyasi partiya yaradılması ideyasının meydana gəlib formalaşması mərhələləri hesab oluna bilər. Nəticə etibarilə Heydər Əliyevə qayıdış özünün tam ifadəsini Yeni Azərbaycan Partiyasının yaranmasında və Heydər Əliyevin tarixi qayıdışında tapdı.

Gündən-günə dərinləşən böhran şəraitində Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması ideyası ictimai düşüncəyə daha dərindən nüfuz edirdi. Artıq 1992-ci ilin ortalarından bu ideya cəmiyyətə hakim kəsilmiş, Heydər Əliyevə qayıdış qəti olaraq baş vermişdi: Azərbaycanın böhrandan xilas olmaq ümidlərini hamı bilavasitə onun adı ilə

əlaqələndirirdi. 1993-cü ilin iyununda baş verəcək qayıdış ideyası ictimai rəydə artıq mövcud idi. Həmin dövrdə insanları əsas etibarilə bu qayıdışın necə və nə zaman baş verəcəyi düşündürürdü. O vaxtkı rəhbərliyin hakimiyyətinin hər günü ölkənin itirilmiş şansı hesab edilirdi. Ona görə də hamı Heydər Əliyevin qayıdışını səbirsizliklə gözləməkdə idi. Azərbaycan Respublikasının hər bir guşəsindən Heydər Əliyevə ünvanlanan saysız-hesabsız məktublar, Naxçıvana onu görməyə gedən çoxsaylı nümayəndələr cəmiyyətdə Heydər Əliyevin qayıdışına nə qədər böyük ümidlər bəsləndiyindən xəbər verirdi.

Yeni Azərbaycan Partiyasının yaradılması ideyasının meydana gəlməsi, əslində, Heydər Əliyevin hakimiyyətə qayıtması zərurətinin qəti şəkildə dərk edilməsi ilə əlaqədar olmuşdur. Ümidlərini Heydər Əliyevin qayıdışına bağlayan insanlar həm də bu qayıdışın həyata keçirilməsi yolları haqqında düşünürdülər. Xüsusilə Heydər Əliyevin qayıtması ideyasının sadəcə daşıyıcısı deyil, habelə fəal təşviqatçısı olanlar bu istiqamətdə ayrıca fəaliyyət göstərməyin zəruriliyini aydın dərk edirdilər. Bu, heç də səbəbsiz deyildi.

SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikasında tez-tez baş verən hakimiyyət dəyişiklikləri cəmiyyətdə böhran meyillərinin dərinləşməsində başlıca amillərdən biri kimi qavranılırdı. Digər tərəfdən, hər bir hakimiyyət dəyişikliyi nəinki qeyri-qanuni üsullarla, həm də bir qayda olaraq, zorakılıq və hakimiyyət çevrilişi amilləri ilə müşayiət olunduğundan daxili qarşıdurmaları və siyasi gərginliyi artırır, eyni zamanda insanlarda müvafiq antizorakılıq stereotiplərinin formalaşmasına gətirib çıxarırdı. O da nəzərdən qaçırıla bilməzdi ki, sovet rejiminin süqutu bütün postsovet məkanında olduğu kimi, Azərbaycanda da demokratik ab-havanın meydana gəlməsinə təkan verdiyindən, ictimai düşüncədə hakimiyyətin demokratik şəkildə dəyişdirilməsinə üstünlük verilirdi. Bu baxımdan, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra qısa vaxtda bir neçə hakimiyyət dəyişikliyindən sonra 1992-ci ilin yayında prezident seçkilərinin keçirilməsi faktı nəzərdən qaçırıla bilməzdi.

Sadalananların fonunda Heydər Əliyevin hakimiyyətə qayıtmasını sosial sifariş, tarixi zərurət sayan insanlar ölkədə yenicə formalaşmağa başlayan demokratik əhval-ruhiyyəyə uyğun gələn yollar axtarmaq məcburiyyətində idilər. Əvvəla, hər kəs aydın dərk edirdi ki,

hakimiyyətin taleyi onun formalaşması vasitələrindən bilavasitə asılı olur. Ən azı bunu Azərbaycan Respublikasının o vaxtkı–tez-tez hakimiyyət dəyişikliyi ilə müşayiət olunan siyasi tarixi əyani surətdə sübuta yetirirdi. Digər tərəfdən, Heydər Əliyev kimi zəngin və əfsanəvi siyasi bioqrafiyası olan şəxsiyyətin hakimiyyətə gəlməsi üçün demokratik yoldan savayı vasitə təsəvvür edilə bilməzdi. Nəhayət, Heydər Əliyev dəfələrlə hakimiyyətə gəlmək istəyində olmadığını bəyan etdiyinə görə, onun qayıdışı üçün başlıca və yeganə səbəb xalqın inamı və çağırışı ola bilərdi. Bu isə arzu olunan qayıdışın demokratik üsul və formasından savayı, digər bütün vasitələri birdəfəlik istisna edirdi.

Deməli, xalq Heydər Əliyevin hakimiyyətə qayıdışının zəruriliyini dərk etdiyi qədər, həm də bu tarixi hadisənin yalnız və yalnız demokratik normalara istinad etməsinin fərqində idi.

Beləliklə, Heydər Əliyevin hakimiyyətə artıq dərk edilmiş zərurətə çevrilmiş qayıdışının demokratik yollarının axtarışı onun rəhbərliyi altında yeni siyasi güc mərkəzinin – partiyanın yaranması ideyasının meydana gəlməsi ilə nəticələndi.

Xalqın istəyi əsasında Heydər Əliyevin hakimiyyətə qayıdışının təmin edilməsi üçün siyasi partiya yaradılması yolunun seçilməsinin demokratiya normalarına tam uyğunluğu ilə yanaşı, digər bir neçə üstünlüyü də vardı.

Birincisi, Heydər Əliyevin rəhbərliyi altında siyasi partiyanın təşkili yeni şəraitdə onun ideya və fikirlərini cəmiyyətə transfer etməsinə əlverişli şərait yaradırdı. Həm Heydər Əliyev, həm də onun tərəfdarları Azərbaycanda mövcud ictimai-siyasi durumu əhatəli təhlil etmək, ölkəni böhrandan çıxarmaqla bağlı fikir və düşüncələrini xalqa çatdırmaq imkanı qazanmış olurdular. Partiya tribunası Heydər Əliyevin siyasi proqramını və platformasını insanlar arasında təbliğ etmək baxımından əvəzedilməz imkan idi.

İkincisi, partiyanın yaranması ilə Heydər Əliyevin ölkənin bütün bölgələrində olan çoxsaylı tərəfdarları birləşmək və təşkilatlanmaq imkanı qazanırdılar. Bu isə cəmiyyətdə siyasi qüvvələrin yeni konstruksiyasının yaranması demək idi. Heydər Əliyevin rəhbərliyi altında özündə böyük siyasi gücü ehtiva edən partiyanın yaranması onun tərəfdarlarına qarşı o vaxtkı hakimiyyətin təzyiqlərinin qarşısını al-

mağa imkan verirdi ki, bu da tərəfdarların sırasının artması və birliyinin möhkəmlənməsi baxımından əhəmiyyətli məqam kimi qiymətləndirilməlidir.

Üçüncüsü, yeni partiyanın yaranması Heydər Əliyevin və onun tərəfdarlarının ölkənin ictimai və siyasi həyatında iştirakına əhəmiyyətli dinamika verməkdə, onun davamlı və sistemli xarakter almasını stimullaşdırmaqda mühüm rol oynaya bilərdi. Doğrudur, Naxçıvanda yaşamasına baxmayaraq, Heydər Əliyev ölkədəki bütün siyasi proseslərə öz nüfuzu ilə həlledici təsir göstərirdi. O, Azərbaycanın siyasi həyatının mərkəzində dayanırdı. Bununla belə, yeni partiyanın yaranması siyasi proseslərdə Heydər Əliyevin iştirakını istər-istəməz əhəmiyyətli dərəcədə artıracaq, onun fəal tərəfdarları və əhali ilə əlaqələrini daha da gücləndirəcəkdi. Başqa sözlə, Heydər Əliyev və onun tərəfdarları Azərbaycanda siyasi sistemin və siyasi prosesin legitim, demokratik prosedurlara uyğun tamhüquqlu üzvü statusunu qazanırdılar.

Dördüncüsü, yeni partiyanın yaradılması ilə Heydər Əliyevin tərəfdarları, ilk növbədə isə xalq onun hakimiyyətə qayıtması uğrunda demokratik normalara uyğun mübarizə aparmaq imkanı əldə etmiş olurdu. Digər tərəfdən, partiyanın yaranması Heydər Əliyevin Azərbaycanı təhlükəli böhrandan xilas etmək naminə xalqın tələbi ilə hakimiyyətə gəlməyə razılıq verməsinə işarə kimi başa düşüldüyünə görə, onun qayıdışı naminə ümumxalq hərəkatı ciddi stimul əldə etmiş olurdu.

Yeni Azərbaycan Partiyasının yaradılması ideyasının kökləri Azərbaycan xalqının Heydər Əliyevə olan dərin inamına və etimadına gedib çıxır. XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərinin ictimai-siyasi böhranı Heydər Əliyev fenomeninə birdəfəlik qayıdışı təmin etməklə bu ideyanın meydana gəlməsini qəti şəkildə şərtləndirmiş oldu.

Ədalət naminə deyək ki, həm Heydər Əliyevə qayıdışda, həm də onun rəhbərliyi altında siyasi təşkilatın yaradılması ideyasının meydana çıxmasında Azərbaycanın bir qrup ziyalısının müstəsna xidmətləri olmuşdur. Bunlar xalqın taleyini düşünən, onun nicatının Heydər Əliyev şəxsiyyəti ilə bağlı olduğunu duyan, habelə düşüncələrini xalqa çatdırmaqdan çəkinməyən əsl ziyalı, əsl vətənpərvərlər

idilər. Onların ziyalı adı, hörmət və nüfuzu ölkənin əsas intellektual potensialının Heydər Əliyev uğrunda ümumxalq hərəkatına qoşularaq, onun ön sırasında dayanmasında nümunə rolunu oynadı. O vaxtkı hakimiyyətin Heydər Əliyev tərəfdarlarına ağlasığmaz təzyiqlər və hədə-qorxularla cəmiyyətdə vahimə yaratmaq cəhdlərinin qarşısı alındı, qorxu əhval-ruhiyyəsi sındırıldı. Məhz bu ziyalıların uzaqgörənliyi, fədakarlığı və ictimai-siyasi fəallığı nəticəsində yüz minlərlə insanın Heydər Əliyev şəxsiyyətinə olan hörməti və inamı, sözün həqiqi mənasında, əzəmətli xalq hərəkatına çevrildi.

Heydər Əliyev sonralar Yeni Azərbaycan Partiyasının yaranmasında, ümumiyyətlə, Heydər Əliyevin hakimiyyətə qayıtması naminə ümumxalq hərəkatında fədakarcasına iştirak etmiş ziyalıların və bütün vətəndaşların hərəkətlərini böyük qəhrəmanlıq kimi səciyyələndirirdi. Yeni Azərbaycan Partiyasının 10 illiyinə həsr olunmuş təntənəli tədbirdə deyirdi: «Partiyanın yaranmasına təşəbbüs göstərənlərin hamısı, o cümlədən məşhur 91 ziyalı böyük cəsarət göstəribdir. Təkcə mənə görə yox, Azərbaycan xalqının gələcəyinə görə cəsarət göstəriblər, böyük qəhrəmanlıq göstəriblər».

Bu hərəkatda Heydər Əliyevin hüquqlarını müdafiə komitəsinin, «Əlincə» Cəmiyyətinin, yaş senzinin götürülməsi ilə əlaqədar keçirilən mitinqlərin təşkilatçılarının, Heydər Əliyevə məşhur 91-lərin məktubunu imzalamış ziyalıların fədakarlığı və vətəndaş mövqeyi xüsusi vurğulanmalıdır. Azərbaycanın tanınmış ziyalılarının, görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin, parlament üzvlərinin bu sırada olması bir yandan Heydər Əliyevin hakimiyyətə qayıtmasının böyük tarixi əhəmiyyətinə dəlalət edirdisə, digər tərəfdən, Heydər Əliyev tərəfdarlarının ictimai nüfuzundan xəbər verirdi ki, bu da öz növbəsində, Heydər Əliyev uğrunda hərəkatın geniş vüsət almasında özünəməxsus rol oynamışdır.

Yeni Azərbaycan Partiyasının yaranmasında məqsəd Azərbaycan Respublikasını içəridən didib-parçalayan böhrandan xilas etmək olmuşdur. O vaxta qədər olan və ölkənin həyatında rəhbər mövqelərə yiyələnən heç bir siyasi qüvvə, təşkilat və ya vəzifəli şəxs bu işin öhdəsindən gələ bilmədi. Xalq özünün və Azərbaycan Respublikasının taleyini Heydər Əliyevə və onun rəhbərliyi altında yaradılan partiyaya bağlamalı oldu. İnsanların Heydər Əliyevə inamı Yeni Azərbaycan Partiyasına bəslənən böyük ümidlərin əsasını təşkil edirdi. Həyat göstərdi ki, xalq bu ümidlərində yanılmayıbdır.

91 nəfər ziyalının Heydər Əliyevə məşhur müraciətinin mətbuatda dərc olunması onun rəhbərliyi altında yeni siyasi təşkilatın yaranmasına, əslində, start vermiş oldu. 1992-ci il oktyabrın 16-da «Səs» qəzetində və bir neçə başqa qəzetdə dərc olunan müraciətdəki imzalar ona ilk gündən böyük ictimai inamın yaranmasını təmin edirdi. Azərbaycanın ən böyük ziyalılarının yeni siyasi təşkilatın yaradılması xahişi ilə Heydər Əliyevə müraciəti cəmiyyətdə ictimai ab-havanın tamamilə yeni mənzərəsini yaradır, Heydər Əliyevin arxasında nə qədər böyük siyasi və intellektual gücün dayandığını sübut edirdi. Digər tərəfdən, ölkənin hörmətli insanlarından ibarət belə bir mötəbər intellektual qrupun yeni siyasi təşkilat yaratmaq niyyəti onun gələcək taleyini qabaqcadan müəyyən etmiş olurdu. Qoyulan bünövrə yetərincə möhkəm və etibarlı olduğundan, onun üzərində ucaldılacaq binanın əzəmətinə şübhə yeri qalmırdı.

Məşhur 91-lərin müraciəti yalnız onların deyil, xalqın mütləq əksəriyyətinin rəyi kimi qavranılırdı. Onu imzalamaq imkanı olmayan yüz minlərlə insan müraciətin müəllifləri ilə həmfikir idi. Qətiyyətlə demək olar ki, həmin məşhur müraciət, əslində, xalqın Heydər Əliyevə ünvanlanan çağırışını ifadə edirdi. Bu çağırış əvvəllər çox müxtəlif formalarda dəfələrlə səslənmişdi və ziyalıların belə bir müraciəti imzalaması əksəriyyət tərəfindən ümumxalq çağırışı kimi qəbul olundu. Ziyalıların müraciətinə «Xalq sizin sözünüzü gözləyir» başlığının qoyulması onun məhz ümumxalq çağırışı mənasını daşıdığına bilavasitə işarə edirdi.

Müraciətdə Azərbaycan xalqının düçar olduğu vəziyyət dərindən təhlil edilərək belə bir obyektiv qənaət ifadə olunmuşdu ki, «Azərbaycan, sözün əsl mənasında, siyasi, iqtisadi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır».

Ölkədə baş verən təhlükəli meyillərin və hərtərəfli böhranın meydana gəlməsinin əsas səbəbini siyasi rəhbərliyin səriştəsizliyində, təcrübəsizliyində, qətiyyətsizliyində və mənəvi keyfiyyətlərinin yetərli olmamasında görən ziyalılar Heydər Əliyevə müraciət edərək yazırdılar: «İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada

öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq, Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə biləcək. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşərək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar. Biz Yeni Azərbaycan Partiyasını yeni düşüncə tərzli insanların Sizin ətrafınızda sıx birləşdiyi mütəşəkkil, güclü aparıcı qüvvəyə malik bir partiya kimi görürük».

Ziyalılar imzaladıqları müraciətin təkcə onların deyil, əslində, bütün xalqın iradəsini ifadə etdiyini vurğulayaraq bildirirdilər: «Bizim bu müraciətimizə minlərlə Azərbaycan Respublikası vətəndaşı məmnuniyyətlə qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalılar adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan xalqı Sizin sözünüzü və qəti qərarınızı gözləyir».

1992-ci il noyabrın 6-da «Səs» qəzetində Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə «Yeni müstəqil Azərbaycan uğrunda» başlığı altında cavabı dərc olundu.

Ölkədəki hərtərəfli böhranla əlaqədar ziyalıların narahatlığını bölüşən Heydər Əliyev öz məktubunda baş verən hadisələrin dərin tarixi-obyektiv təhlilini verdikdən sonra mövcud şəraitdə qarşıda duran vəzifələri vurğulamışdır. Bu, əslində, Azərbaycan xalqını düçar

olduğu hərtərəfli böhrandan çıxarmağın Heydər Əliyev konsepsiyası sayılmalıdır. Xatırladaq ki, həmin konsepsiyada müəyyənləşdirilən bütün vəzifələr Heydər Əliyevin qayıdışından sonra onun siyasətinin əsasını təşkil etmiş və ardıcıl surətdə yerinə yetirilmişdir.

Ölkənin qarşısında duran təxirəsalınmaz vəzifələr Heydər Əliyevin ziyalılara məktubunda belə müəyyən edilmişdi:

«Birinci. Azərbaycanın müharibə vəziyyətindən çıxması və Qarabağ probleminin tezliklə həll olunması. Artıq beş ildir ki, Azərbaycanla Ermənistan arasında müharibə gedir, ərazimizin bir hissəsini itirmişik, Ermənistanla həmsərhəd bölgələrin bir çox yaşayış məntəqələri dağılmış, minlərlə insan həlak olmuş, yaralanmış, şikəst və əlil olmuşlar. Respublikada yüz minlərlə yurdlarından didərgin düşmüş, ağır vəziyyətdə yaşayan qaçqın var. Respublikaya misli görünməmiş hədsiz maddi və mənəvi ziyan dəyir. Ən dəhşətlisi budur ki, bütün bu faciələrin hələ də sonu görünmür. Bir il bundan əvvəl olduğu kimi, bu gün də Azərbaycanın rəhbər dövlət orqanlarının Qarabağ problemi haqqında dəqiq, aydın konsepsiyası və lazımi hərbi-siyasi strategiyası yoxdur. Belə təsəvvür yaranır ki, Qarabağda və başqa sərhəd zonalarında hərbi əməliyyatlar özbaşına gedir.

İkinci. Azərbaycanda sosial-iqtisadi böhranın dərinləşməsi, xalqın güzəranının gündən-günə ağırlaşması böyük həyəcan doğurur. Respublika iqtisadiyyatının cari ilin doqquz ayındakı vəziyyəti barədə statistik məlumatlar insanı dəhşətə gətirir. Milli gəlirin istehsalı 25 faiz, sənaye məhsullarının istehsalı 25 faiz aşağı düşmüşdür. Kənd təsərrüfatında və əsaslı tikintidə vəziyyət daha da ağırdır. Əgər Azərbaycanın iqtisadiyyatının səviyyəsinin son 5-6 il ərzində dayanmadan aşağı düşməsini nəzərə alsaq, o zaman respublikanın necə böyük fəlakətlə üzləşdiyini təsəvvür etmək çətin deyil.

Azərbaycan tükənməz təbii sərvətlərə, zəngin sənaye, aqrar və sosial ehtiyatlarına, lazımi intellektual potensiala, əsaslı istehsal fondlarına, istənilən qədər işçi qüvvəsinə malikdir. Bütün bunlardan respublikanın müstəqilliyini möhkəmlətmək və insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün səmərəli istifadə olunmalıdır. Aqrar sahədə təkcə bir il ərzində istehsalı yüksəltməklə kənd təsərrüfatı məhsullarını xeyli artırmaq mümkündür. Təəssüf ki, respublikanın belə zəngin daxili imkanlarından lazımi səviyyədə istifadə olunmur.

Belə qənaətə gəlmək olur ki, dövlət və hökumət orqanlarının respublikanı ağır vəziyyətdən çıxarmağa yönəldilən aydın iqtisadi proqramı, strategiyası, əhalinin həyat səviyyəsini günü-gündən yaxşılaşdırmaq üçün konkret tədbirləri yoxdur. Müşahidələr göstərir ki, bu sahədə də çox işlər kortəbii aparılır.

Üçüncü. Bu gün respublikada aparılan kadr siyasəti çox haqlı olaraq geniş xalq kütləsinin etiraz və narazılıqlarına səbəb olur. Rəhbər vəzifələrə irəli çəkilənlərin iş qabiliyyəti, biliyi, bacarığı, təsərrüfat və idarəetmə işlərindəki təcrübəsi nəzərə alınmadan, yalnız Xalq Cəbhəsinə mənsubiyyətinin əsas götürülməsi hüquq normalarına uyğun deyil, ağır nəticələr verə bilər. Xalq, Xalq Cəbhəsinə heç zaman belə müstəsna hüquq və səlahiyyət verməmişdir. Ötən illər və onilliklər ərzində respublikada dövlət idarəetmə, iqtisadiyyat, elm, mədəniyyət və sosial sahələrdə kifayət qədər bilikli, təcrübəli, səriştəli, yüksək mədəniyyətə malik kadrlar hazırlanmışdır. Onların hamısı ictimai-siyasi təşkilatlara, partiyalara mənsubiyyətindən asılı olmayaraq, fəal quruculuğa cəlb edilməlidirlər.

Azərbaycandan kənarda, Rusiyada, Ukraynada və başqa respublikalarda ölkənin mötəbər, nüfuzlu ali məktəblərində, elm mərkəzlərində, ali hərbi məktəblərdə təhsil almış və böyük təcrübə toplamış azərbaycanlılar yaşayır. Onları öz vətənlərində müstəqil Azərbaycanın həyatının müxtəlif sahələrində çalışmağa cəlb etmək üçün tədbirlər görmək lazımdır. Yeniləşən, demokratikləşən müstəqil Azərbaycana onlar öz səmərəli fəaliyyətləri ilə çox böyük fayda verə bilər.

Bu gün bolşeviklərin və kommunistlərin özünü doğrultmayan təcrübələrindən yenidən istifadə olunmasına yol verilməməlidir. Təəssüf ki, son aylar bu təcrübə respublikada geniş tətbiq edilir.

Dördüncü. Müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi hər şeydən əvvəl respublikada qanunların toxunulmazlığından, qanunun aliliyindən asılıdır. Totalitarizmdən tamamilə xilas olmaq yalnız demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizm, insan azadlığı şəraitində mümkündür. Söhbət söz, vicdan, din, təşəbbüskarlıq və sahibkarlıq, mülkiyyətçilik, seçib-seçilmək azadlığından gedir.

Azərbaycanda yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, dilindən, siyasi əqidəsindən asılı olmayaraq, bu demokratik azadlıqlara və hüquqlara malik olmalıdır. Əfsuslar olsun ki, bu sahədə də res-

publikada ötən yarım ildə heç bir dəyişiklik baş verməmişdir.

Fikrimcə, yeni müstəqil dövlətin quruculuğu prosesinə vətəndaşların hamısı, əhalinin bütün təbəqələri cəlb olunmalıdır. Yeni müstəqil Azərbaycan bütün Azərbaycan xalqınındır. Hamı onun tərəqqisinə çalışmalıdır. Bu işdə heç kəsə məhdudiyyət qoyulmamalıdır.

Beşinci. Son zamanlar Azərbaycanın parçalanmasına yönəldilmiş meyillərin təzahürü böyük təhlükə yaradır. Belə meyillərin qarşısı qətiyyətlə alınmalıdır. Yaranan problemlər sivil və demokratik yollarla həll edilməlidir.

Azərbaycan onilliklərlə, yüzilliklərlə onun ərazisində yaşayan bütün insanların vətəni olmuşdur. Yaranmış vahid, bütöv Azərbaycanın demokratik prinsiplər əsasında qorunub-saxlanılması və inkişaf etdirilməsi müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi üçün mühüm vəzifə və əsas şərtdir».

Heydər Əliyev öz məktubunda daha sonra yazırdı: «Azərbaycanın bugünkü həyatı və gələcək taleyinə dair digər problemlər də məni narahat edir. Lakin Sizin müraciətinizə cavab verərkən yuxarıda göstərilən məsələlərə daha öncə diqqət yetirməyi lazım bilirəm. Zənnimcə, onların ən qısa müddətdə həlli müstəqil Azərbaycan dövləti üçün son dərəcə vacibdir. Azərbaycanın çağdaş və gələcək taleyi ilə bağlı bu problemlərinə biganə qalmağa heç kəsin haqqı yoxdur.

Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən yeni Azərbaycan siyasi partiyasının yaradılması obyektiv zəruriyyətdən doğulur.

Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək, yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram».

Heydər Əliyevin 91-lərin məktubuna cavabı, xüsusilə də onun rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının yaranmasına razılıq verməsi artıq ölkədə yeni siyasi qüvvənin meydana gəlməsi demək idi. Dahi liderin razılığından sonra partiyanın təsis edilməsi yönündə konkret işlər görülməyə başlandı.

Heydər Əliyevin yaradılacaq yeni siyasi təşkilata rəhbərlik etməyə razılıq verməsi ölkənin siyasi həyatında vəziyyəti kökündən dəyişdirdi. Onun tərəfdarları daha da fəallaşdılar. Partiyanın yaranması prosesi sürətləndi və geniş vüsət aldı.

Heydər Əliyevin rəhbərliyi altında partiyanın yaranmasını özlərinin siyasi hakimiyyətinə birbaşa təhlükə hesab edən mövcud iqtidar prosesi əngəlləmək üçün hər cür vasitəyə əl atmağa başladı. Əsas etibarilə Heydər Əliyevin tərəfdarlarının təqib edilməsi, həbə və birbaşa fiziki və mənəvi təzyiqlər kimi o vaxtkı hakimiyyətin mahiyyətini əks etdirən vasitələr işə salındı. Meydana gəlməkdə olan partiyanın tərəfdarları və bütünlükdə Heydər Əliyev ideyalarının daşıyıcıları arasında vahimə yaratmaq məqsədilə onun ən fəal təşkilatçılarından birinə – tanınmış ziyalı, professor Murtuz Ələsgərova qarşı amansız qəsd təşkil edildi. Sözün əsl mənasında, təqiblər və repressiyalara əl atıldı. SSRİ-nin süqutunun meydana gətirdiyi demokratiya dalğasında hakimiyyətə yiyələnən Azərbaycan Xalq Cəbhəsi iqtidarı xalqın mütləq əksəriyyətinin dəstəklədiyi lider Heydər Əliyevin rəhbərliyi altında siyasi partiyanın yaradılmasına nəinki icazə vermədi, hətta onu əngəlləmək üçün heç nədən çəkinmədi. Bu, o vaxtkı hakimiyyətin qeyri-demokratik mahiyyətini bir daha və qabarıq şəkildə nümayiş etdirirdi.

İqtidarın törətdiyi bütün maneələrə baxmayaraq, partiyanın yaranmasını əngəlləmək mümkün deyildi. Xalqın Heydər Əliyevə inamı və yaradılan partiyaya ümidi bütün maneələrdən və təqiblərdən güclü idi. Azərbaycan Respublikasının bütün bölgələrindən Yeni Azərbaycan Partiyasının konfransına nümayəndələr seçilmişdi. Lakin onun təsis konfransını ölkənin paytaxtı və siyasi mərkəzində – Bakıda keçirmək mümkün olmadı. Nəticədə YAP respublikanın tarixində yeganə partiya oldu ki, paytaxtda deyil, Naxçıvanda təsis edildi.

Azərbaycan Respublikasının bütün bölgələrini təmsil edən 500 nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı Heydər Əliyevin sədrliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi. Konfransda Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsi qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi, partiya sədrinin müavinləri, Siyasi Şura və İdarə Heyəti təsdiq olundu. Beləliklə, müstəqil Azər-

baycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

YAP Azərbaycanın Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərərək hüquqi dövlət, sabit və sosial yönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti ideyaları uğrunda sivil və demokratik mübarizə aparmaq niyyətini bəyan etdi.

Partiyanın Proqramında irəli sürülmüş dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi kimi fundamental vəzifələr onun ideyalarının xalqın arzuları ilə üst-üstə düşdüyündən xəbər verirdi. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq, mahiyyətcə Azərbaycanın siyasi gələcəyinə zəmanət verirdi.

Yeni Azərbaycan Partiyasının təsis edilməsi Heydər Əliyevin fəal tərəfdarlarının onun ətrafında sıx birləşməsinə təkan verdi. Bütün ölkədə partiyanın təşkilatlanması geniş vüsət aldı. Qısa vaxtda əksər bölgələrdə partiyanın yerli bölmələri yaradıldı, on minlərlə vətəndaş Yeni Azərbaycan Partiyasının sıralarına daxil olaraq, Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışını sürətləndirən təşkilatlanmış ictimai dəstəyi təmin etmiş oldu.

Artıq bu partiya ölkənin ən güclü siyasi təşkilatına çevrilmişdi. Onun yaranması və böyük sürətlə gücünü artırması, əslində, Azərbaycanın böhranlarla müşayiət olunan tarixində əsaslı dönüşün başlanğıcı idi. Bunu artıq hamı dərk edirdi, eyni zamanda aydın başa düşürdü ki, ölkənin siyasi tarixində və taleyində hər kəsin səbirsizliklə gözlədiyi növbəti əzəmətli hadisə – Heydər Əliyevin qayıdışı uzaqda deyildir. Çünki Yeni Azərbaycan Partiyasının yaradılması xalqın Heydər Əliyevin hakimiyyətə dəvət edilməsi ilə əlaqədar çoxdan səsləndirilən çağırışlarına onun müsbət cavabı kimi başa düşülürdü. Bu isə öz növbəsində həmin çağırışları daha sistemli edir, Heydər Əliyevin hakimiyyətə qayıdışını təxirəsalınmaz sosial sifarişə çevirirdi. Artıq hamı onun tezliklə Bakıya dönüşünü gözləyirdi.

Göründüyü kimi, XX əsrin son onilliyində cərəyan edən siyasi, iqtisadi, sosial və mədəni böhranın yaratdığı obyektiv tarixi zərurət Yeni Azərbaycan Partiyasını meydana gətirdi və ölkənin yeni siyasi qüvvəsi roluna iddialı olan bu partiya

a) Heydər Əliyevin hakimiyyətə qayıdışının zəruriliyi ideyasının müdafiə edilməsi və yayılması;

b) xalqın Heydər Əliyevə dərin inamının və etimadının təşkilatlanmış ifadəsi rolunun yerinə yetirilməsi;

c) xalqın çağırışı əsasında Heydər Əliyevin hakimiyyətə gəlişinin demokratik mexanizminin formalaşdırılması və təmin edilməsi;

ç) Heydər Əliyevin xilaskarlıq missiyasının təbliğ edilməsi və dəstəklənməsi;

d) Heydər Əliyevin ətrafında və onun ideyaları əsasında ümummilli maraqları və demokratik dəyərləri özündə ehtiva edən təşkilatlanmış siyasi gücün yaradılması kimi şərəfli missiyanı üzərinə götürməli oldu.

Yeni Azərbaycan Partiyasının yaranması özünü təkcə ölkədə siyasi qüvvələr nisbətində kəskin dəyişikliyin meydana çıxmasında göstərmədi. Azərbaycanın siyasi həyatında həqiqətən əlamətdar tarixi hadisə olan bu partiyanın təsis edilməsi həm də yeni siyasi mədəniyyətin formalaşmasının əsasını qoydu, müxalifətçilik anlayışına tamamilə fərqli çalarlar gətirdi.

YAP-ın siyasi səhnəyə çıxması ilə cəmiyyətə «hər şey hakimiyyət naminə» fəlsəfəsinə alternativ siyasi mədəniyyət təqdim edildi. Onun əsasında hakimiyyət məsələsinə tamam fərqli yanaşma dayanırdı. Heydər Əliyevin və onun partiyasının məqsədi «nəyin bahasına olursa-olsun, hakimiyyət» deyil, əksinə, xalqa xidmət etmək, xüsusilə də Azərbaycanı düçar olduğu böhrandan çıxarmaq üçün bütün qüvvələri səfərbər etmək və birləşdirmək idi. Yeni Azərbaycan Partiyasının siyasi əxlaqına görə hakimiyyət məqsəd yox, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün vasitə hesab edilirdi. Demokratik siyasi mədəniyyət hakimiyyət və siyasi mübarizə məsələsini yalnız bu kontekstdə nəzərdən keçirir. Təəssüf ki, Yeni Azərbaycan Partiyasının yaranması dövründə siyasi səhnənin, demək olar ki, bütün iştirakçıları hakimiyyətə gəlməyi əsas məqsəd saydığına görə, demokratik dəyərlər siyasi mədəniyyətə sirayət edə bilməmişdi. O, daha çox anarxist,

hərbi zorakılıq ünsürlərinə əsaslanırdı. Ona görə də hakimiyyət uğrunda mübarizə mütləq şəkildə zorakılıqla müşayiət olunur, əsas etibarilə çevrilişlər formasında həyata keçirilirdi. Bunun da nəticəsində müxalifətçilik məfhumu hərbiləşmiş zorakı qüvvə anlamında başa düşülürdü. Ona görə də ölkədə hakimiyyət dəyişikliyinin yalnız bir forması – zorakılığa əsaslanan çevrilişlər ənənəsi mövcud idi. Bu ənənəyə son qoymadan siyasi sabitliyin təmin edilməsi mümkün deyildi. Sonuncu isə öz növbəsində, müxalifətçilik anlayışının kökündən dəyişdirilməsi, yeni siyasi mədəniyyətin bərqərar edilməsi tələbini irəli sürürdü. Heydər Əliyevin o illərdəki çıxışlarında müxalifətçilik, iqtidar-müxalifət məsələlərinə böyük önəm verilməsi, ilk növbədə, bununla əlaqədar idi.

Yeni Azərbaycan Partiyası öz fəaliyyətində Heydər Əliyevin siyasi konsepsiyası ilə bərabər, demokratiya baxışlarını da nümayiş etdirirdi. Bütün digər xidmətləri ilə yanaşı, ruhən demokrat olan Heydər Əliyev müxalifətçilikdə də «milli demokratlara» böyük dərs keçməli oldu. O, sonralar deyirdi: «Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdır. Bu həqiqət məlumdur. Partiyanın nə proqramında, nə qarşıya qoyduğu məsələlərdə hakimiyyətə, o vaxtkı iqtidara müxalif fikirləri olmamışdır. Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, sadəcə, Azərbaycandakı çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirdilər».

Bu fikirlər, əslində, yeni siyasi mədəniyyətin cücərtiləri, «hər şey hakimiyyət naminə» fəlsəfəsinə alternativ baxışların ortaya qoyulması demək idi. YAP təsis olunanda AXC-Müsavat hakimiyyətinə konkret münasibətini müəyyənləşdirərək, həmin dövrdə siyasi hakimiyyətə gəlməyi heç də əsas məqsəd hesab etmirdi. Partiyanın ən böyük amalı Azərbaycanın müstəqil dövlətçiliyini qoruyub saxlamaq, cəmiyyətdə demokratik prinsiplərin bərqərar olmasını təmin etməkdən ibarət idi. Partiyanın proqramında ifadə olunan bu yanaşma dəfələrlə Heydər Əliyevin özü tərəfindən də səsləndirilirdi. Partiyanın yaranmasından bir qədər sonra Heydər Əliyev deyirdi: «YAP-ın əsas məqsədi Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxarmaqdır... Azərbaycanın müstəqil dövlət olması böyük tarixi hadisədir... Lakin müstəqillik əldə etmək nə qədər çətindirsə, onu saxlamaq daha çətindir... Bu dövlətin

müstəqilliyini qorumağa çalışmalıyıq. YAP-ın başlıca məqsədi budur. Bizə qarşıdurma lazım deyil. Mən hər cür qarşıdurmanın əleyhinəyəm».

Ölkədə daxili siyasi ziddiyyətlərin əsas səbəbləri kimi qeyri-sağlam siyasi rəqabətin, qeyri-demokratik mübarizə metodlarının aradan qaldırılmasının böyük əhəmiyyəti vardı. Məhz bu cür siyasi davranış formalarının bərqərar olmasının nəticəsi idi ki, siyasi partiyalar və qüvvələr hakimiyyətə gəlmək üçün istənilən mübarizə üsulunu məqbul sayırdı. Fasiləsiz və qaydasız siyasi mübarizələr isə daxili siyasi sabitliyi pozur, sonsuz hakimiyyət çevrilişlərinə meydan açırdı. Bütün bunların nəticəsində milli həmrəylik pozulmuş, cəmiyyətin birliyi ciddi təhlükə qarşısında qalmışdı. Buna görə də Yeni Azərbaycan Partiyası cəmiyyətin bütün vətənpərvər, demokratik qüvvələrinin birliyinin təmin edilməsini özünün ən mühüm vəzifələrindən hesab edirdi. Partiyanın Proqramında deyilirdi ki, «milli birliyə gedən yol həm də bütün ictimai təşkilatlarla və partiyalarla fəal əməkdaşlıq etməkdən, partiyalararası bloklar yaratmaq və bütün səviyyələrdə ümumi mənafeləri razılaşdırmaqdan, başqa əqidədə olanlarla vicdanlı və açıq dialoqa hazır olmaqdan ibarətdir».

Beləliklə, yarandığı gündən Yeni Azərbaycan Partiyasının ardıcıl həyata keçirdiyi ən mühüm siyasi vəzifələr sırasında yeni tipli müxalifətçilik ənənələrinin əsasının qoyulması ayrıca vurğulanmalıdır. Bütün digər siyasi qüvvələrdən fərqli olaraq, o, hakimiyyətə gəlməyi və ya hakimiyyətdə təmsil olunmağı yeganə məqsədi hesab etmirdi və bu səbəbdən də qarşısına qoyduğu ali məqsədlər, əslində, hakimiyyət uğrunda siyasi mübarizənin fövqündə dayanırdı. Heydər Əliyev partiyanın I qurultayındakı nitqində bu missiyanı belə təsvir edirdi: «Bu partiya hakimiyyət uğrunda mübarizə aparan bir partiya kimi yaranmadı. Biz partiyanın Nizamnaməsində yazdıq ki, partiya Azərbaycanın bu ağır dövründə ölkəmizin ictimai-siyasi həyatında iştirak etmək və Azərbaycanı bu ağır vəziyyətdən çıxarmaq üçün yaranır, bu partiya parlament tipli partiyadır. Yəni biz tamamilə demokratik yolla gedirik.

Partiyanı yaradarkən heç kəs qarşıya məqsəd qoymurdu ki, biz hakimiyyəti devirəcəyik, necə ki, ayrı-ayrı müxalifət qüvvələri hakimiyyəti devirmək haqqında, yaxud da hakimiyyət uğrunda mübarizə aparacaqları barədə ayda bir dəfə bəyanatlar verirlər. Bizim

partiya sağlam düşüncə, sağlam fikir – xalqı birləşdirmək və Azərbaycanın o mürəkkəb həyatında ölkənin problemlərinin həll olunmasında iştirak etmək, öz xidmətlərini göstərmək məqsədilə yarandı».

Yeni tipli müxalifətçilik ənənələrini cəmiyyətə gətirməklə Yeni Azərbaycan Partiyası özünün ictimai dayaqlarını möhkəmləndirirdi. Xalq adət etdiyi partiyalardan tamam fərqli məqsədlər qarşıya qoyan partiyanın yarandığının şahidi oldu. Yeni Azərbaycan Partiyası öz nümunəsi ilə müstəqillik dövrünün formalaşdırdığı partiya və siyasi fəaliyyət anlayışını büsbütün alt-üst etdi.

Vurğulamaq yerinə düşər ki, xalqın Yeni Azərbaycan Partiyasına inamının formalaşmasında yuxarıda xatırladılan həlledici səbəblərlə yanaşı, onun nümayiş etdirdiyi yeni siyasi mədəniyyətin də rolu az olmamışdır. İnsanlar onun timsalında ölkənin siyasi səhnəsində olan partiyalar arasında milli maraqları hər şeydən üstün tutan yeganə siyasi təşkilatı görürdü.

Yeni Azərbaycan Partiyasının tarixi kimi, taleyi də özünün bənzərsizliyi ilə seçilir. Yəqin ki, dünya təcrübəsində yaranmasından cəmi 6 ay sonra liderinin siyasi zəfərini qeyd etmək şərəfinə nail olan partiyaların nümunəsinə nadir hallarda rast gəlmək mümkündür. Sübut etməyə ehtiyac yoxdur ki, bu qeyri-adi hadisə, ilk növbədə, Heydər Əliyevə və onun yaratdığı partiyaya yüksək ictimai etimadı nümayiş etdirirdi.

Yeni Azərbaycan Partiyasının hakim partiyaya çevrilməsi prosesinin əsasında dayanan Heydər Əliyevin qayıdışı öz nadirliyi ilə yanaşı, demokratik qaydaların gözlənilməsi baxımından da diqqəti çəkir. Məlum olduğu kimi, bu qayıdış ölkəni real təhlükələrdən xilas etmək məqsədilə xalqın təkidli çağırışlarına əsaslanırdı və deməli, mahiyyətcə xalqın iradəsinin birbaşa ifadəsi sayılmalıdır. Bununla yanaşı, Heydər Əliyevin hakimiyyətə gəlməsi bütün zəruri demokratik normalar və qaydalar gözlənilməklə baş vermişdi. O, Azərbaycan Respublikası Milli Məclisinin (o vaxt Ali Sovetin) deputatı kimi, ilk növbədə, 1993-cü il iyunun 15-də ali qanunverici orqanın sədri seçilir. Sonra isə, avqust ayında ölkə prezidenti öz vəzifə səlahiyyətlərini icra etməkdən faktik olaraq imtina etdiyinə görə, keçirilən referendum nəticəsində vəzifədən kənarlaşdırılır və prezident səlahiyyətlərinin yerinə yetirilməsi qanuni əsasda Heydər Əliyevə həvalə edilir. Həmin

ilin oktyabr ayında keçirilən prezident seçkilərində xalqın yekdil iradəsi ilə Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilir.

Heydər Əliyevin möhtəşəm qayıdışı və prezident seçilməsi Yeni Azərbaycan Partiyasının tarixində yeni mərhələnin əsasını qoydu. O, indi ölkənin siyasi həyatında daha yaxından və fəal surətdə iştirak edir, ağır sosial-iqtisadi durumun, təhlükəli qarşıdurmaların, qeyri-sabitliyin və sair böhran hallarının aradan qaldırılması kimi əzəmətli və çətin vəzifələrin yerinə yetirilməsində xalqın Heydər Əliyevin ətrafında vahid qüvvə kimi birləşməsinə layiqli töhfəsini verirdi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında qəti mövqeyi, Heydər Əliyevin ətrafında monolit şəkildə birləşməsi partiyanın tarixinin şanlı səhifəsini təşkil edir.

Yeni Azərbaycan Partiyasının hakim partiya kimi qəti şəkildə özünütəsdiqində 1995-ci ilin parlament seçkiləri mühüm yer tutur. Mövcud qanunvericiliyə uyğun olaraq, qarışıq sistem əsasında keçirilən seçkilərdə YAP seçici səslərinin çoxluğunu qazanmağa müvəffəq oldu, çoxmandatlı dairələr üzrə 19, təkmandatlı dairələr üzrə 44 deputat yeri qazandı. Beləliklə də, Yeni Azərbaycan Partiyası iştirak etdiyi ilk parlament seçkilərindən şəksiz qalib çıxaraq, hakim partiya kimi mövqelərini möhkəmləndirdi.

Qürur hissi ilə vurğulamaq olar ki, xalqın istəyindən qaynaqlanan və onun mənafeyini əks etdirən ideyalar, milli maraqların uca tutulması, xalqa təmənnasız xidmət nümunələri, ölkənin sosial-iqtisadi inkişafı və beynəlxalq həyatda mövqelərinin möhkəmləndirilməsi sahəsində əldə edilən möhtəşəm irəliləyişlər hakim partiya kimi YAP-ın siyasi taleyinin uzunömürlülüyünü təmin edən əsas səbəblərdir. Belə bir şərəfli və zəngin tale yaşadığına görə Yeni Azərbaycan Partiyası, ilk növbədə Ümummilli lider Heydər Əliyevə, onun ideyalarına minnətdardır. YAP-ın bugünkü uğurları isə partiyanın sədri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasəti və onun möhtəşəm nailiyyətləri ilə bilavasitə əlaqədardır.

Yeni Azərbaycan Partiyasının I qurultayı onun təsis edilməsindən 7 il keçəndən sonra çağırıldı. O vaxta qədər partiya böyük inkişaf yolu keçmiş, iqtidar partiyasına çevrilmiş, ölkənin ictimai-siyasi həyatında müstəsna yer tuta bilmişdi.

Qurultayın gec çağırılmasına baxmayaraq, ötən müddətdə 6 ümumrespublika partiya konfransı keçirilmiş, partiya həyatının aktual problemlərinə dair geniş və əhatəli müzakirələr aparılmışdı. Partiya sədrinin konfranslarda iştirakı təşkilatın möhkəmlənməsinə xüsusi təkan verir, partiyadaxili müzakirələrin yüksək statusunu təmin edirdi. Bu konfransların hər biri partiyanın ictimai dayaqlarının möhkəmlənməsinə, nüfuzunun artmasına həlledici təsir göstərir, eyni zamanda partiyanın siyasi cəhətdən kamilləşməsinə xidmət edirdi.

YAP-ın I qurultayı 1999-cu il dekabrın 21-22-də Bakı şəhərində, Respublika Sarayında (indiki Heydər Əliyev Saray) keçirildi. Qurultayda partiyanın bütün regional təşkilatlarını təmsil edən 2000-dən çox nümayəndə iştirak edirdi.

Təşkilatın ali forumu Yeni Azərbaycan Partiyasının təsis konfransında qəbul etdiyi Proqram və Nizamnaməsini geniş müzakirələrdən sonra müəyyən əlavə və dəyişikliklərlə təsdiq etdi. Habelə, partiyanın Proqram və Nizamnaməsinə uyğun olaraq, təşkilatın strateji xətti təsbit olundu, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, onun müasir beynəlxalq sistemdə layiqli yer tutması, ölkəmizdə hüquqi dövlət quruculuğu istiqamətində əsas məqsəd və vəzifələri müəyyənləşdirildi. Heydər Əliyev yenidən partiyanın sədri seçildi. Qurultay habelə Siyasi Şuranın yeni tərkibini, YAP sədrinin təqdimatı ilə sədrin müavinlərini, İdarə Heyətinin üzvlərini, icraçı katibi və onun müavinlərini təsdiq etdi.

Qurultayın tarixi əhəmiyyətindən danışarkən onun partiya həyatına, xüsusilə də partiya idarəçiliyinə, mühüm yenilik gətirməsi ayrıca vurğulanmalıdır. Qurultayda ilk dəfə olaraq operativ partiya rəhbərliyini həyata keçirmək məqsədilə İcraçı Katibliyin yaradılması haqqında qərar qəbul edildi. Yeni yaranan quruma qurultayın və Siyasi Şuranın qərarlarının yerinə yetirilməsində, partiyanın yerli təşkilatlarına operativ rəhbərliyin həyata keçirilməsində geniş səlahiyyətlər verildi.

Yeni Azərbaycan Partiyasının I qurultayının keçirilməsi nəinki partiyanın, eləcə də ölkəmizin həyatında mühüm siyasi hadisəyə çevrildi. Partiyanın artıq formalaşmış, təşkilati və siyasi baxımdan güclənmiş qurum kimi cəmiyyətdə özünütəsdiqi bir daha nümayiş etdirildi. Qurultayın qəbul etdiyi qərarlar, xüsusilə partiya idarəçiliyinin təkmilləşdirilməsi sahəsindəki tədbirlər, cəmiyyətə ünvanlanmış

mesajlar təşkilatın daha da möhkəmlənməsinə, sıralarının artmasına, ictimai mövqelərinin güclənməsinə əhəmiyyətli təkan verdi. Təkcə onu demək kifayətdir ki, I qurultaya 160 min nəfər üzvlə gələn partiyanın sıraları sonrakı bir il ərzində 46 min nəfər artdı. 2001-ci ilin noyabrında keçirilən II qurultaya qədər isə partiya üzvlərinin sayı 250 min nəfərə çatmışdı. Fərəhli haldır ki, partiyaya qəbulun bu yüksək dinamikası indiyə qədər davam etməkdədir. Bu sadə statistikanın arxasında partiyanın lideri Heydər Əliyevin yeritdiyi siyasətin uğurları, xalqın ona dərin inamı kimi fundamental səbəblərlə yanaşı, ilk qurultayın təşkilatın həyatına gətirdiyi canlanma, dinamika və idarəetmə çevikliyi kimi yeniliklər də dayanırdı. Həyat göstərdi ki, I qurultayın qəbul etdiyi strateji qərarlar partiyanın tarixində əhəmiyyətli dönüşün əsasını qoymuş oldu.

2005-ci ilin mart ayında Yeni Azərbaycan Partiyasının III qurultayında Prezident İlham Əliyev partiyanın sədri seçildi. Partiyanın yeni liderinin statusu təşkilatın ali forumu tərəfindən təsbit olundu, YAP-ın tarixində yeni mərhələnin əsası qoyuldu.

İlham Əliyevin ölkənin ən güclü partiyasının liderliyinə doğru irəliləməsinin maraqlı tarixi var və bu, müxtəlif mərhələlərdən keçmişdir. Bu tarixin ilk mərhələsi onun I qurultayda sədrin müavini seçilməsindən başlayır. Zaman göstərdi ki, İlham Əliyevin partiya sədrinin müavini seçilməsi, sadəcə, kadr məsələsi dairəsi ilə məhdudlaşan hadisə olmadı. Partiyanın həmin qərarı təşkilatın həyatına yeni, əhəmiyyətli canlanma gətirdi, bəlkə də, demək olar ki, yeni mərhələnin başlanğıcını qoydu.

Hər şeydən əvvəl, İlham Əliyevin timsalında Yeni Azərbaycan Partiyasının rəhbərliyinə gənc nəslin layiqli nümayəndəsi seçilmiş oldu. Digər tərəfdən, bu seçim bütövlükdə Azərbaycan Respublikası gəncliyinə ünvanlanmış mesaj idi. Təsadüfi deyil ki, İlham Əliyevin sədr müavini seçilməsindən sonra Yeni Azərbaycan Partiyasının sıralarına daxil olan gənclərin sayı sürətlə artmağa başladı. Partiya həyatında gənclərin fəallıq əmsalında müşahidə olunan irəliləyişləri də əlavə etsək, qurultayın sözügedən qərarının mənası və tarixi əhəmiyyəti daha aydın dərk edilər.

İlham Əliyevin partiya sədrinin müavini seçilməsi haqlı olaraq ölkənin siyasi həyatına yeni, böyük perspektivə malik gənc siyasətçinin

gəlməsindən xəbər verən mesaj kimi qiymətləndirilirdi. Onun siyasi səhnəyə ölkənin ən güclü partiyasının yüksək rəhbərliyində təmsil olunan siyasətçi kimi daxil olması siyasi proseslərin mövcud və gələcək ssenarisinə ciddi dəyişiklikləri zəruri edirdi. Bu zərurət İlham Əliyevin artıq o vaxt müşahidə olunan siyasi liderlik resurslarından qaynaqlanırdı. Partiya elitasının məlum seçimi böyük perspektivlər vəd edirdi və zaman bu inamı bütünlüklə təsdiqlədi.

İlham Əliyevin liderlik resurslarına hamıdan daha yaxşı bələd olan ümummilli lider Heydər Əliyev ona qiymət verərək bildirmişdi ki, İlham Əliyev «yüksək intellekti, praqmatik düşüncəsi, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İlham Əliyev ... xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. ... Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

İlham Əliyevin partiya sədrinin müavini seçilməsi ilə təşkilatın həyatında bir sıra çox mühüm yeniliklərin əsası qoyuldu. Partiyanın fəaliyyətində dinamizm artdı, novatorçuluq əhval-ruhiyyəsi gücləndi, ən başlıcası isə, gələcəyə bağlılıq ovqatı özünü daha qabarıq şəkildə büruzə verməyə başladı. Partiyanın güclənməsi, sıralarının sürətlə artması açıq müşahidə olunurdu.

Partiyanın 2001-ci ilin noyabr ayında çağırılan II qurultayı İlham Əliyevin siyasi karyerasında yeni mərhələni müəyyənləşdirdi. I qurultaydan ötən dövr ərzində səmərəli fəaliyyətini, partiyanın ictimai-siyasi nüfuzunun yüksəlməsinə şəxsi töhvəsini layiqincə qiymətləndirən II qurultayın nümayəndələri İlham Əliyevə daha yüksək etimad göstərərək, onu partiya sədrinin birinci müavini seçdilər. Eyni zamanda partiyanın Nizamnaməsində müvafiq dəyişiklik edilərək, sədrin birinci müavininə daha geniş səlahiyyətlər verilməsi qərara alındı. Beləliklə, İlham Əliyevin partiyanın liderliyinə doğru yüksəlişində yeni bir mərhələ başladı. O, artıq 2000-ci ildə keçirilən parlament seçkilərində Milli Məclisə deputat seçilmişdi və ölkəmiz Avropa Şurasına qəbul olunandan sonra Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası nümayəndə heyətinə rəhbərlik edirdi.

AŞPA-dakı fəaliyyəti İlham Əliyevə Avropa siyasi məkanında böyük uğurlar və nüfuz gətirdi. O, AŞPA-nın vitse-prezidenti seçildi,

Avropanın ən nüfuzlu təşkilatının rəhbərlərindən biri oldu. Heç şübhəsiz, bütün bu uğurlar onu ölkənin ən perspektivli və gənc siyasətçisinə, YAP-ın siyasi xəttinin müəyyən olunmasında böyük nüfuz sahibi olan aparıcı siyasi xadiminə çevirmişdi. Onun bəyanatları artıq partiyanın və hakimiyyətin gələcək perspektivləri kimi səslənirdi. Bu baxımdan İlham Əliyevin partiyanın II qurultayındakı nitqi xüsusilə diqqətəlayiqdir: «1993-cü ildən biz iqtidardayıq. Mən inamla deyə bilərəm ki, bundan sonra biz heç vaxt müxalifətdə olmayacağıq, biz daim iqtidarda olacağıq. ... Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır. Azərbaycanın gələcəyi Heydər Əliyev və onun siyasəti ilə bağlıdır.»

2003-cü ildə keçirilən prezident seçkiləri İlham Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlərin ən bariz ifadəsi oldu. Heydər Əliyev səhhəti ilə əlaqədar növbəti prezident seçkilərində iştirak edə bilməsə də, Azərbaycan xalqı onun siyasətinin davam etdirilməsinə səs verdi – seçkilərə Yeni Azərbaycan Partiyasının namizədi kimi qatılan İlham Əliyev yüksək səs çoxluğu ilə dövlət başçısı seçildi.

İlham Əliyevin seçkilərin böyük etimadını qazanması bir yandan xalqın Heydər Əliyev siyasətinə dərindən sədaqətindən irəli gəlirdisə, digər tərəfdən, onun gənc lider kimi perspektivlərinə olan böyük ümidlərlə bağlı idi.

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti vəzifəsində özünün liderlik qabiliyyətini və imkanlarını daha geniş şəkildə reallaşdırmaq fürsəti qazandı. Qısa vaxtda ölkə həyatında yeni canlanma müşahidə olunmağa başladı. Heydər Əliyev siyasətinin həyata keçirilməsi yeni, daha yüksək mərhələyə qədəm qoydu. İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında Azərbaycan nəhəng miqyaslı islahatların, regionların sürətli sosial-iqtisadi inkişafı, işsizliyin ləğvi və yoxsulluğun aradan qaldırılması kimi layihələrin meydanına çevrildi. Azərbaycanı regionda hər cəhətdən lider ölkəyə çevirmək, beynəlxalq aləmdə mövqeləri möhkəmlətmək, yüksək iqtisadi inkişaf dinamikası nümayiş etdirmək kimi əzəmətli hədəflər seçildi.

İlham Əliyevin liderlik keyfiyyətləri qarşıya qoyulan bütün bu vəzifələrin vaxtında və yüksək səviyyədə yerinə yetirilməsini təmin etdi. Qısa vaxtda regionların sosial-iqtisadi inkişafı proqramının icrası sayəsində 700 mindən çox iş yerləri açıldı, yoxsulluğun səviyyəsi 49

faizdən təxminən 16 faizə endirildi, Azərbaycan Respublikasının dövlət büdcəsini 10 dəfəyədək artırmaq mümkün oldu. İnsanların həyat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəldi. Ölkədə genişmiqyaslı yeniləşmə xəttinə start verildi, nəhəng infrastruktur layihələri reallaşmağa başladı. Azərbaycan Respublikasının siması kökündən dəyişdi.

Azərbaycan beynəlxalq və regional müstəvidə mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi, bir sıra regional iqtisadi, enerji və infrastruktur layihələrinin təşəbbüsçüsü kimi çıxış etdi.

Bütün bu dəyişikliklər Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının inkişafında yeni mərhələnin əsasını qoydu.

Ölkənin inkişafındakı böyük uğurları və gələcək perspektivləri layiqincə qiymətləndirən Azərbaycan xalqı 2008-ci ilin prezident seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülən İlham Əliyevi qətiyyətlə dəstəklədi. Seçicilərin 82 faizinin səsi ilə o, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı sahəsində qazanılan nailiyyətlər, beynəlxalq və regional müstəvidə rolunun və əhəmiyyətinin artması cəmiyyətdə Yeni Azərbaycan Partiyasının mövqelərinin xeyli dərəcədə güclənməsi ilə müşayiət olunur. Ölkədə tam demokratik dəyərlərin, siyasi plüralizmin mövcudluğu şəraitində siyasi səhnədə Yeni Azərbaycan Partiyasının nüfuzunun ardıcıl surətdə artması ona ictimai etimadın böyüklüyündən xəbər verir. Azərbaycan Respublikasında keçirilən bütün seçkilərdə, o cümlədən 2008-ci ilin prezident, 2005-ci ilin parlament, 2004 və 2009-cu illərin bələdiyyə seçkilərində YAP-ın şəksiz qələbələri buna təkzibedilməz sübutdur.

Yeni Azərbaycan Partiyasının ictimai nüfuzu və siyasi çəkisinin yüksəlməsinin digər özünəməxsus göstəricisi onun sıralarının sürətlə və durmadan artması hesab oluna bilər. Son 5 ildə partiya sıralarına 200 mindən çox yeni üzv qəbul edilmişdir. İndi partiya üzvlərinin sayı 500 minə çatmışdır. Sevindirici haldır ki, Azərbaycan Respublikası tarixində heç vaxt heç bir siyasi təşkilatın bu qədər böyük ictimai dəstəyi olmamışdır.

YAP-ın sıralarında yarım milyon fəal vətəndaşın təmsil edilməsi, partiya sıralarına daxil olanların sayının sabit və dinamik artımı hər

şeydən əvvəl xalqın bu təşkilata dərin inamından xəbər verir. Partiyanın sıralarının sürətli artımı ilə yanaşı, onun tərkibində əhəmiyyətli keyfiyyət dəyişiklikləri də ayrıca vurğulanmalıdır. Hər şeydən əvvəl, partiya sıralarında gənclərin xüsusi çəkisinin artması mütərəqqi meyil sayıla bilər. Bu, Yeni Azərbaycan Partiyasına həm gənc nəslin inamının əhəmiyyətli dərəcədə artmasından xəbər verir, həm də ölkənin ən güclü təşkilatının perspektivlərini təmin edən ən vacib amil rolunu oynayır.

Cəmiyyətin bütün təbəqələri və zümrələri arasında Yeni Azərbaycan Partiyasının şəksiz nüfuzunun artması onun həqiqətən ümumxalq partiyasına çevrilməsini təmin etmişdir. İlham Əliyev YAP-ın böyük ictimai nüfuzunu və siyasi gücünü xarakterizə edərkən haqlı olaraq bildirmişdir ki, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycan Respublikasının, hətta regionun ən güclü siyasi təşkilatıdır.

Yeni Azərbaycan Partiyasının nüfuzu və siyasi gücü ona daim çox mühüm siyasi təşəbbüslərlə çıxış etməyə əsas verir. Belə təşəbbüslərdən biri 2009-cu ilin martında Azərbaycan Respublikasının Konstitusiyasına bəzi dəyişikliklərlə əlaqədar keçirilən referendum sayıla bilər. YAP-ın təşəbbüsünün dəstəklənməsi, Konstitusiyaya bir sıra mühüm dəyişiklərin edilməsi ilə bağlı referendumun təyin olunması partiyanın ictimai nüfuzunun bariz ifadəsidir. Referenduma çıxarılan təkliflərin bütünlüklə seçicilər tərəfindən dəstəklənməsi partiyanın ictimai mövqelərinin real mənzərəsini əks etdirir.

Yeni Azərbaycan Partiyası öz lideri, Azərbaycan Respubilkasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında inkişaf edir, yeni uğurlara doğru inamla irəliləyir və xalqın etimadını doğrultmağa hazır olduğunu daim nümayiş etdirir.

Azərbaycan Respublikasının müstəqil dövlət kimi dinamik inkişafı, iqtisadi yüksəlişi və dünya iqtisadi və siyasi strukturlarına yaxından inteqrasiyası onun beynəlxalq əlaqələrinin durmadan genişlənməsinə əlverişli zəmin hazırlamışdır. Azərbaycan indi nəinki ən mötəbər beynəlxalq təşkilatların fəaliyyətində yaxından iştirak edir, həm də beynəlxalq həyatın ayrılmaz tərkib hissəsinə çevrilib, əhəmiyyətli iqtisadi, kommunikasiya və digər layihələrin həyata keçirilməsində təşəbbüsçü kimi çıxış edir. Bütün bunlar Azərbaycan Respublikasının regionda və beynəlxalq aləmdə günü-gündən artan əhəmiyyətindən xəbər verir.

Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişafı və dünyanın aparıcı ictimai təşkilatlarına inteqrasiyasının dərinləşməsi ölkədə fəaliyyət göstərən iqtisadi, siyasi və ictimai qurumların beynəlxalq inteqrasiyasına da əlverişli zəmin hazırlayır. Belə əlverişli mühit Yeni Azərbaycan Partiyasının beynəlxalq inkişafına təkan verən əhəmiyyətli amil olmuşdur. Hazırda partiyanın genişlənən əlaqələri Azərbaycan Respublikasının artan beynəlxalq əhəmiyyətinin məntiqi nəticəsi kimi qavranılır və qiymətləndirilir. Digər tərəfdən, YAP özünün beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti ilə ölkəmizin bu istiqamətdəki uğurlu işlərinə imkan daxilində dəstək verir. Təsadüfi deyil ki, partiyanın beynəlxalq əlaqələrinin inkişafı onun fəaliyyətinin aparıcı istiqamətlərindəndir. Müxtəlif ölkələrin partiyaları və demokratik təsisatları ilə Yeni Azərbaycan Partiyası arasında işgüzar və səmimi münasibətlər qurulmasına, qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirilməsinə xüsusi önəm verilir. YAP-ın beynəlxalq əlaqələrinin inkişafı istiqamətində həyata keçirilən layihələrin vüsəti artır. Eyni zamanda beynəlxalq əməkdaşlığın coğrafiyasının genişlənməsi meyli getdikcə güclənir.

Yeni Azərbaycan Partiyası Avropa, Asiya, Amerika qitələrinin bir sıra ölkələrinin aparıcı siyasi partiyaları ilə ikitərəfli əlaqələr qurmuş, əməkdaşlıq barədə razılığa gəlmişdir. İkitərəfli əməkdaşlıq çərçivəsində təcrübə mübadiləsinin aparılması, məsləhətləşmələrin keçirilməsi, qarşılıqlı maraq doğuran məsələlər ətrafında diskussiyaların təşkili kimi faydalı ünsiyyət formaları meydana gəlmişdir.

Avropa və Asiya ölkələri siyasi partiyalarının beynəlxalq təşkilatlarında iştirak Yeni Azərbaycan Partiyasının önəm verdiyi mühüm istiqamətlərdəndir. Avropanın aparıcı sağ təmayüllü partiyalarının cəmləşdiyi Avropa Xalq Partiyaları ilə əməkdaşlıq, ilk növbədə, Azərbaycan Respublikasının Avratlantik məkana inteqrasiyası prioritetlərindən qaynaqlanır və onun reallaşmasına əlavə dəstək vermək məqsədi daşıyır. Eyni zamanda bu əməkdaşlığa Yeni Azərbaycan Partiyasının Avropa məkanında tanınması, Avropa siyasi dəyərlərinin dərindən mənimsənilməsi və gələcəkdə Avropa siyasi qurumlarına yaxından inteqrasiya imkanı kimi qiymət vermək mümkündür.

Eyni fikirləri 54 ölkənin təmsil olunduğu Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ASPBK) ilə əməkdaşlığa da şamil etmək

mümkündür. Yeni Azərbaycan Partiyası bu qurumun fəaliyyətində yaxından iştirakına və verdiyi töhfələrə görə ASPBK Daimi Komitəsinə üzv seçilmişdir. Dünyanın böyük bir bölgəsinin siyasi elitasını birləşdirən qurum regionun və beynəlxalq aləmin demokratik inkişaf, gənclərin və qadınların siyasi proseslərdə iştirakı, qlobal maliyyə böhranı və regional iqtisadi tərəqqi, yoxsulluq və korrupsiya ilə mübarizə kimi aktual problemlərinin müzakirəsini prioritet hesab edir. Bu qurumla əməkdaşlıq partiyanın Şərq və Asiya istiqamətində beynəlxalq əlaqələrinin təmin edilməsində mühüm rol oynayır.

Eyni zamanda YAP partiyaların beynəlxalq əməkdaşlığına töhfə verməyə çalışır. Bu baxımdan, onun təşəbbüsü ilə Bakıda keçirilən iki beynəlxalq konfransı göstərmək olar. Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə 2007-ci il sentyabrın 27-də Bakı şəhərində «Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu» mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransda 22 ölkədən, o cümlədən ABŞ, Fransa, Almaniya, Rusiya, Çin, Hindistan və digər nüfuzlu dövlətlərdən 39 nümayəndə iştirak edirdi. Ölkənin siyasi həyatında geniş ictimai rezonansa səbəb olmuş bu konfrans YAP-ın beynəlxalq nüfuzunun yüksəlməsi baxımından mühüm və əlamətdar hadisə hesab oluna bilər. Beynəlxalq konfransda iştirakçı ölkələrin ictimai-siyasi həyatında aparıcı yer tutan partiyaların rəhbər şəxslərinin, nazir və deputatların təmsil olunması ölkəmizin ildən-ilə artan beynəlxalq nüfuzuna, sabit və dinamik yüksələn müsbət imicinə dəlalət edir.

Konfransda sivilizasiyalararası dialoqda siyasi partiyaların mühüm yer tutması, partiyalararası əlaqələrin dərinləşdirilməsinin zəruriliyi vurğulanmışdır. Diqqətəlayiq haldır ki, belə aktual mövzuda siyasi partiyalar səviyyəsində geniş müzakirələr aparılması təşəbbüsü ilk dəfə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüşdür. Müzakirələrin yekununda Bakı Bəyannaməsi qəbul edilmiş, sivilizasiyaların dialoqunun güclənməsinə siyasi partiyaların töhfələrinin artırılması tövsiyə edilmişdir. Konfransın materialları kitab halında nəşr olunmuşdur.

Yeni Azərbaycan Partiyasının bu beynəlxalq konfrans, keçirmək təşəbbüsü iştirakçılar tərəfindən yüksək qiymətləndirilmişdir. Onların ümumi əhval-ruhiyyəsini iştirakçılardan Hindistanın yerli özünüidarə, gənclər, idman və şimal-şərq regionunun inkişafı naziri cənab Mani

Şankar Aiyar dolğun ifadə etmişdir: «Biz, YAP-ın rəhbəri Zati-aliləri cənab İlham Əliyevin çoxpartiyalı daxili demokratiyanın inkişafını və çoxqütblü qlobal demokratiyanı sivilizasiyaların dialoqu adı altında eyni platformada birləşdirmək kimi tarixi təşəbbüsünü alqışlayırıq».

YAP-ın təşəbbüsü ilə keçirilən konfransın mühüm ictimai-siyasi və beynəlxalq əhəmiyyəti Azərbaycan Respublikasının Prezidenti, partiyanın sədri İlham Əliyevin konfrans iştirakçılarına təbrikində aydın göstərilmişdir: «Müxtəlif ölkələrin siyasi elitalarının iştirakı ilə keçirilən konfrans həm partiyalar arasında əlaqələrin genişlənməsi, qlobal və regional xarakterli problemlərin həlli ətrafında müzakirələrin aparılması, həm də planetimizdə ümumbəşəri dəyərlərin qorunub saxlanması üçün sivilizasiyalararası dialoqun canlandırılması baxımından təqdirəlayiqdir».

Beynəlxalq miqyasda partiyalararası əməkdaşlığın genişləndirilməsinə xidmət edən digər böyük tədbir Ümummilli lider Heydər Əliyevin 85 illik yubiley təntənələri çərçivəsində 2008-ci il mayın 7-də YAP-ın təşəbbüsü ilə Bakıda təşkil edilən «Demokratiya və sabitlik naminə: əməkdaşlığın yeni imkanları» mövzusunda beynəlxalq konfrans oldu. Konfransda 33 ölkədən, o cümlədən ABŞ, Fransa, Almaniya, Rusiya, Çin, Hindistan və digər dövlətlərdən 60-dan çox nümayəndə iştirak edirdi.

Konfransda müasir dünyada demokratiya və sabitlik anlayışlarının vəhdətinə dair ciddi və əhatəli diskussiyalara geniş meydan verildi. Əməkdaşlığın yeni imkanları çərçivəsində siyasi partiyaların üzərinə mühüm vəzifələr düşdüyü partiyalararası əlaqələrin dərinləşdirilməsinin zəruriliyi vurğulandı.

YAP-ın təşəbbüsü ilə keçirilən hər iki beynəlxalq konfrans, bunlarda çoxsaylı ölkələrin siyasi elitasının nüfuzlu nümayəndələrinin iştirakı Azərbaycan Respublikasının artan beynəlxalq əhəmiyyəti ilə yanaşı, partiyamızın aktual beynəlxalq problemə həssaslığını, onun təşəbbüsünə müxtəlif ölkələrin siyasi partiyalarının diqqətlə yanaşdığını göstərirdi. Ən əsası isə Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin coğrafiyasının genişlənməsinə, formalarının zənginləşməsinə güclü təkan verdi.

1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyini əldə etdikdən sonra respublikada gənclərin müxtəlif təşkilatları mey-

dana çıxmağa başladı. O vaxt ölkədə hökm sürən hərc-mərclik şəraitində yaranan gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü göstərirdi. Buna görə də onların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycan Respublikasının dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunmasını, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsini obyektiv zərurətə çevirmişdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra dövlət siyasətinin digər sahələrində olduğu kimi, gənclər siyasətində də mühüm dönüş nöqtəsi başladı. Dünyada, o cümlədən Azərbaycan Respublikasında baş verən ictimai-siyasi hadisələr inkişaf etdikcə, gənclərin qarşısında duran problemlər və onların həlli yollarına dair baxışlarda da ciddi dəyişikliklər baş verirdi. Məhz buna görə də yeni şəraitdə gənclərin problemlərini müasir dünya tələbləri kontekstində həll edə bilmək üçün 1994-cü il iyulun 26-da Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Prezidentin dövlət gənclər siyasəti haqqında fərmanı (29.07.1999), fevralın 2-nin Gənclər gününün elan edilməsi ilə bağlı sərəncamı (09.04.2002) və nəhayət, «2005–2009-cu illər üçün Azərbaycan Respublikasında gənclər siyasətinin inkişafı Dövlət Proqramı» gənclər siyasətinin əsaslarını hazırlayan sənədlər oldu. 1996-cı ildən gənclərin ümumrespublika forumları keçirilməyə başladı. Beləliklə, ölkəmizdə dövlət gənclər siyasəti keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. Hazırda bu siyasət uğurla və məqsədyönlü şəkildə davam etdirilir. Gənclərə yönələn diqqət və qayğı bütün aparıcı sahələrdə özünü aydın şəkildə göstərir.

Əsası Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin həyata keçirilməsində Yeni Azərbaycan Partiyası xüsusi rol oynayır. Partiyanın 1995-ci ildə yaradılmış Gənclər Birliyinin bu sahədə xidmətləri xüsusilə diqqəti çəkir. Hazırda 200 mindən çox üzvü olan Gənclər Birliyi Azərbaycan Respublikası gənclərini öz ətrafında birləşdirən kütləvi təşkilata çevrilə bilmişdir. Gənc oğlan və qızlar bu təşkilatda öz maraqlarına uyğun disputlar keçirmək, diskussiyalar aparmaq, ən

başlıcası isə, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmək imkanı qazanırlar. Gənclərin birləşmək və siyasi təcrübə məktəbi keçmək kimi ehtiyaclarının ödənilməsində Yeni Azərbaycan Partiyası və onun Gənclər Birliyi özünü mühüm vəsilə kimi qəti şəkildə təsdiq etmişdir. Gənclər Birliyi minlərlə gənc üçün siyasi məktəb rolunu oynayır, onların gələcək karyerasının formalaşmasına əvəzolunmaz imkanlar açır.

YAP-ın Gənclər Birliyi mütəmadi olaraq oğlan və qızların vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, siyasi və mədəni dünyagörüşünün genişlənməsinə yönəlmiş tədbirlər keçirir. «Tariximizə sahib çıxaq» devizi altında 20 Yanvar, 31 Mart soyqırımı hadisələrinin, Xocalı faciəsinin ildönümlərinə həsr olunmuş kütləvi və digər tədbirlərin keçirilməsi ənənə şəklini almışdır. Xalqımız üçün əlamətdar bayram günlərində – Qurtuluş günündə, Novruz və Yeni il bayramlarında, Azərbaycan Xalq Cümhuriyyətinin və silahlı qüvvələrimizin yaranmasının ildönümlərində gənclər üçün xüsusi konsert proqramları təşkil olunur, əyləncəli tədbirlər, müxtəlif viktorinalar və intellektual yarışlar keçirilir. Yaşlılara, kimsəsizlərə yardım Gənclər Birliyinin mənəvi tərbiyə yüklü tədbirlərinin sırasında xüsusi yer tutur. Gənc YAP-çıların təşəbbüsü ilə mərhəmət aksiyalarının təşkili, əlillərə və kimsəsizlərə bayram sovqatlarının aparılması, maddi yardım göstərilməsi bu nəcib məqsədə xidmət edir.

YAP Gənclər Birliyi geniş beynəlxalq əlaqələr quraraq, ölkəmizdən kənarda Azərbaycan Respublikası gəncliyinin təmsil olunmasına böyük töhfə verir. Gənclər Birliyinin nümayəndələri dəfələrlə Türkiyə Cümhuriyyətində, Qazaxıstan Respublikasında, Rusiya Federasiyasında, Fransa Respublikasında, Almaniya FR-də, Kiprdə işgüzar səfərlərdə olmuş, ikitərəfli əməkdaşlığa dair faydalı fikir mübadilələri aparmışlar.

Gənclər Birliyi «Gənc liderlər dünyada sülhün və təhlükəsizliyin tərəfdarıdır» devizi altında beynəlxalq hərəkatın əsasını qoymuş və təsis toplantısı olaraq 2009-cu il aprelin 17-də Bakıda «Avratlantik məkanda enerji təhlükəsizliyi» mövzusunda beynəlxalq konfrans keçirmişdir. Konfransda 8 ölkəni – Rusiya Federasiyası, Belarus və Qazaxıstan respublikaları, Türkiyə Cümhuriyyəti, Makedoniya, Moldova respublikalarını və Kanadanı təmsil edən gənclər iştirak etmişlər.

Yeni Azərbaycan Partiyası yarandığı gündən aydın ideya əsaslarına istinad edərək fəaliyyət göstərir. Onun söykəndiyi məfkurə hər şeydən əvvəl Heydər Əliyevin baxışlarını əks etdirir və milli maraqların ifadə olunması kimi başlıca xüsusiyyətə malikdir. Partiyanın fəaliyyətinin ideya əsaslarının formalaşması və məqsədlərinin müəyyənləşməsində onun meydana gəldiyi tarixi şəraitin birbaşa təsiri olmuşdur. Əslində, Yeni Azərbaycan Partiyasının yaranması və ideya əsaslarının müəyyənləşməsi onun meydana gəldiyi dövrün çağırışlarına cavab idi. Elə bunun sayəsində o, zamanın ağır sınaqlarından çıxa bildi, davamlı siyasi ömür yaşamağa müvəffəq oldu.

Üzərinə götürdüyü tarixi missiya Yeni Azərbaycan Partiyasının azərbaycançılıq, dövlətçilik və müstəqillik kimi fundamental dəyərlərə istinad etməsini obyektiv zərurətə çevirmişdi.

Azərbaycançılıq müstəqillik qazanmış xalqın özünüdərkindən tutmuş, dövlət halında özünüifadəsinə və özünütəsdiqinə doğru gedən çətin inkişaf, kamilləşmə və toplumlaşma mərhələsini uğurla keçməyi şərtləndirən ideoloji amil kimi qavranılmaqdadır. Azərbaycançılıq məfkurəsinə milli – birləşdirici əlamət xasdır ki, toplumun vahid milli maraqlarının, dəyərləri sisteminin və məqsədlərinin müəyyənləşməsi birbaşa onun düzgün qavranılması və tətbiqi sayəsində mümkündür. Yeni Azərbaycan Partiyasının yarandığı dövrdə vahid Vətən, vahid dövlət, müstəqil Azərbaycan anlayışları yalnız azərbaycançılıq məfkurəsi əsasında formalaşa bilərdi. Heydər Əliyev elə bunu nəzərdə tutaraq vurğulayırdı: «Azərbaycan dövlətinin milli ideyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır. Dövlətçilik, milli mənəvi dəyərlər, ümumbəşəri dəyərlər – bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissəsidir».

Yeni Azərbaycan Partiyasının ideya əsaslarından olan azərbaycançılıq toplumun milli mənəvi vəhdətini təmin etmək vəzifəsinə xidmət göstərirsə, onun digər ideya əsası olan dövlətçilik xalqın siyasi birliyi və həmrəyliyinin təmin edilməsinə yönəlmişdir.

Dövlətçilik xalqın siyasi iradəsinin ifadə olunmasında, onun siyasi maraqlarının formalaşmasında və həyata keçirilməsində öz ifadəsini tapır. Eyni zamanda dövlətçilik məfkurəsi milli birliyin ifadə forması, milli maraqların təmin olunması mexanizmi kimi təsisatların yaranması və fəaliyyət göstərməsi üçün həlledici şərt sayılır. Dövlətçi-

lik məfkurəsindən kənarda xalqın siyasi birliyinin və mənafeləri sisteminin meydana gəlməsi mövcud deyil və bu mənada yenicə qovuşduğu müstəqilliyi ciddi təhlükələrlə üzləşən xalq üçün dövlətçilik məfkurəsinin gücləndirilməsindən vacib ikinci bir vəzifə təsəvvür edilə bilməzdi. Elə buna görə də Heydər Əliyev YAP-ın 6-cı ildönümünə həsr olunmuş təntənəli yığıncaqda demişdir: «Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası...Yeni Azərbaycan Partiyasının Məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətimizdə, həm də ictimai-siyasi və sosial-iqtisadi sahədə gördüyümüz işlər həmin milli ideologiyanın üzərində qurulur. Bu milli ideologiya nədən ibarətdir? Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Milli dövlətçiliyin qorunması ideyası hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız, bütün dövlət orqanları, bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşa o qədər əziz olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, hər şeydən üstün tutsun».

Yeni Azərbaycan Partiyasının digər ideya əsası olan milli müstəqillik məfkurəsi də, təbii ki, onun yarandığı dövrün xüsusiyyətindən irəli gəlir. Müstəqillik xalqın özünüdərk və özünüifadə prosesində mühüm vasitə olduğundan, partiyanın belə bir təməl prinsipinə istinad etməsi tamamilə qanunauyğundur. Yalnız müstəqil dövlətçilik ideyası Azərbaycan xalqının arzuları və ideallarının tam şəkildə gerçəkləşməsini təmin edə bilər. Xalqın arzularından yaranan və onların həyata keçməsinə xidmət göstərən siyasi təşkilatın müstəqillik ideyalarına sədaqəti və həmin ideyalara istinad etməsi onun öz üzərinə götürdüyü missiyadan irəli gəlir. Təsadüfi deyil ki, Yeni Azərbaycan Partiyası «Yeni müstəqil Azərbaycan uğrunda!» devizi atında fəaliyyətə başlamışdır.

YAP-ın siyasi ideyası onun məfkurəsinin təməlində dayanan prinsiplərdən qaynaqlanaraq formalaşıbdır. Ölkənin üzləşdiyi problemlərin həllinin etibarlı yolunu əsaslı siyasi və iqtisadi islahatlarda görən

Yeni Azərbaycan Partiyası liberal, sağçı dəyərlərlə dərin sosial yönümlü siyasəti üzvi surətdə əlaqələndirməli oldu və sağ mərkəzçilik ideologiyasını qəbul etdi.

Yeni Azərbaycan Partiyasının ideya əsasları onun məqsədlərinin ən dolğun ifadəsidir. Partiyanın tarixinin müxtəlif mərhələlərində təkamülə məruz qalan həmin məqsədlər vahid amalın ayrı-ayrı tərkib hissələri kimi qavranılmalıdır.

Yeni Azərbaycan Partiyası ölkəni hərtərəfli böhrandan çıxarmaq məqsədilə yaradıldığına görə, onun dəyərləri və amalları sisteminin mahiyyəti də məhz bu tarixi missiya prizmasından nəzərdən keçirilə bilər. Yeni müstəqil Azərbaycan uğrunda mübarizəyə başlayan partiya, onun yaradıcısı Heydər Əliyevin tarixi xidmətləri nəticəsində Azərbaycanın dövlət müstəqilliyi əbədi, daimi və dönməz xarakter aldıqdan sonra özünün fəaliyyətində keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. İndi onun qarşısında qüdrətli və zəngin Azərbaycan qurmaq kimi şərəfli məqsəd dayanır.

Yeni Azərbaycan Partiyasının yarandığı vaxtdan bu günədək qələbələr silsiləsi onun cəmiyyətdə aparıcı siyasi qüvvə kimi özünütəsdiqinin başlıca ifadəsi sayıla bilər. O, ölkəmizin həyatında yeganə siyasi təşkilatdır ki, üzərinə götürdüyü tarixi missiyanı layiqincə və şərəflə yerinə yetirməyə müvəffəq olmuşdur. Əvvəla, Heydər Əliyevin siyasi hakimiyyətə qayıtması ümidləri ilə yaranan bu partiyanın yaranmasından cəmi 6 ay sonra Heydər Əliyevin möhtəşəm tarixi qayıdışı baş verdi. İkincisi, xalqın dərin etimadı və dəstəyi sayəsində ölkənin ən aparıcı siyasi təşkilatına çevrilə bildi və bu şərəfli statusunu indiyədək qoruyub saxlayır. Üçüncüsü, yarandığı 1992-ci ildən sonra Azərbaycan Respublikasında keçirilən bütün seçkilərin qalibi kimi ləyaqətli ömür taleyi yaşayıb. 1993, 1998, 2003 və 2008-ci illərin prezident, 1995, 2000 və 2005-ci illərin parlament, 1999, 2004 və 2009-cu illərin bələdiyyə seçkilərində mütləq seçici dəstəyi Yeni Azərbaycan Partiyasının zəngin tarixinin unudulmaz səhifələridir.

Partiyanın qələbələrinin əsasında, ilk növbədə, Heydər Əliyev amili dayanır. Onun yaranması kimi, fəaliyyəti də Heydər Əliyev ideyalarının real həyatda təcəssümünə əyani misaldır. Partiya nəinki dahi liderin ideyalarından qaynaqlanır, həm də bu ideyalar əsasında fəaliyyət göstərir, uğurlar qazanır. Həmişə qalib gələn Heydər Əliyev

ideyaları Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsasını təşkil edərək, onun qələbələrinin də ilkin səbəbi olmuşdur. Yalnız həmin ideyaların əsasında YAP cəmiyyətin qüdrətli aparıcı siyasi qüvvəsi kimi tanınır. O bu gün də Heydər Əliyev irsinin daşıyıcısı olaraq, əslində, ölkənin davamlı inkişafının təmin olunmasına böyük töhfələr verir. Təsadüfi deyil ki, Heydər Əliyev ideyaları Azərbaycan Respublikasının müasir inkişafının mənbəyi, Yeni Azərbaycan Partiyası isə bu inkişafın aparıcı siyasi qüvvəsi kimi ictimai düşüncəyə birdəfəlik həkk olunmuşdur.

Yeni Azərbaycan Partiyasının qələbələrinin digər mənbəyi xalqın inamındadır. Yarandığı vaxtdan bütün fəaliyyəti dövründə amalı xalqa şərəflə xidmət olduğuna və bu missiyasını layiqincə yerinə yetirdiyinə görə xalq daim ona etimad göstərmiş və onu dəstəkləmişdir.

Azərbaycan Respublikasının ən güclü siyasi təşkilatının davamlı qələbələrinin mənbələri sırasında cəmiyyətin siyasi gücünü və intellektini özündə birləşdirməsi ayrıca vurğulanmalıdır. Yeni Azərbaycan Partiyası Azərbaycan cəmiyyətinin 500 min ən fəal üzvünü əhatə edir. Ölkənin ən yüksək intellekt sahibləri, nüfuzlu və tanınan şəxsləri, ictimaiyyətin böyük hörmət bəslədiyi insanlar YAP-ın həlledici resurslarıdır. Onları birləşdirən vətənə ləyaqətlə xidmət amalı, partiyaya, onun ideyalarına və liderinə sədaqət kimi dəyərlər, əslində, bu təşkilatı monolit, sarsılmaz, möhtəşəm siyasi gücə çevirmişdir.

Nəhayət, Yeni Azərbaycan Partiyasının güc mərkəzi onun liderində olduğundan, partiyanın qələbələri də lider amilinə söykənir. İlham Əliyevin müasir Azərbaycan Respublikasının dinamik inkişafının başlıca təminatçısı olduğunu sübut etməyə heç bir ehtiyac yoxdur. Onun rəhbərliyi altında Azərbaycan Respublikası iqtisadiyyatının sürətli artımı, regionların dinamik inkişafı, insanların yaşayış səviyyəsinin əsaslı surətdə yüksəlməsi və sair müsbət dəyişikliklər müasir həyatımızın əlamətdar hadisələridir. İlham Əliyevin milli lider kimi siyasi gücü təbii şəkildə rəhbərlik etdiyi partiyanın potensialına transfer edərək, onun qələbələrinin rəhnini təşkil edir.

Həyat inandırıcı şəkildə sübut etmişdir ki, Yeni Azərbaycan Partiyasının qələbələri tükənməz və sarsılmaz mənbələrə istinad edir. 17 il dalbadal sınaqlardan keçən, çətinlikləri dəf edən, xalqın etimadını qazanmaq üçün hər cür fədakarlıq göstərməyə hazır olan Yeni Azər-

baycan Partiyasının uğurlarının əsasında xalqın etimadı kimi tükənməyən güc dayanır. Partiyanın hər bir üzvü bu etimadı ən böyük sərvət kimi yüksək qiymətləndirir və göz bəbəyi kimi qoruyur. İnanırıq ki, Yeni Azərbaycan Partiyası Heydər Əliyevin ölməz ideyaları əsasında və İlham Əliyevin rəhbərliyi ilə xalqın dəstəyinə və dərin etimadına söykənərək, yeni-yeni qələbələrə doğru inamla irəliləyəcəkdir.

1.6. Azərbaycan Respublikasında üçüncü sektorun inkişafı

1991-ci ildə Azərbaycan xalqının uzun illər boyu arzusunda olduğu dövlət müstəqilliyini əldə etməsi şərəfli və qürur mənbəyi olmaqla yanaşı, qarşıda nəhəng vəzifələrin dayandığı çətin və məsuliyyətli bir dövrün başlanması demək idi. Gənc dövlət ölkənin bəyan edilmiş müstəqilliyini reallıqda təsdiq etməli idi. Xalqın müstəqilliyi ilə barışa bilməyən qüvvələrin müqavimətini qısa bir müddətdə qırmaq, erməni təcavüzünün qarşısını almaq, ölkə daxilində sabitliyi bərqərar etmək, beynəlxalq aləmdə təklənmiş Azərbaycan Respublikasını bu ağır vəziyyətdən çıxarmaq və digər problemlərin həlli ilə yanaşı, işlək mexanizmlərə malik demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğuna başlamaq kimi vəzifələrin yerinə yetirilməsi tələb olunurdu.

Müstəqillik qazanmış Azərbaycan Respublikasının milli və ümumbəşəri dəyərlərə əsaslanan demokratik cəmiyyət quruculuğu yolunu tutması təsadüfi deyildi. Azərbaycan Respublikasında milli demokratik hərəkatın yüz ildən artıq bir tarixi vardır. Onun demokratik ənənələrinin əsası hələ XIX əsrin ikinci yarısında çar Rusiyasının müstəmləkə rejiminə qarşı milli demokratik hərəkatın formalaşdığı zaman qoyulmuş və daim yüksələn xətlə inkişaf etmişdi. Bu mübarizənin gedişində, xüsusən də 1918–20-ci illərdə Xalq Cümhuriyyəti dövründə Azərbaycan xalqı demokratiyaya sadiqliyini və onun ölkədə bərqərar edilməsinə olan iradəsini praktik şəkildə sübut etmişdi.

Şimali Azərbaycan Sovet İttifaqının tərkibində olduğu dövrdə bu ideallar nəinki itirilməmişdi, əksinə, daha da möhkəmlənərək öz məqamını gözləmişdi. Sovet imperiyasının iflasa uğradığı dövrdə

Azərbaycan xalqının ədalətli demokratik quruluşa can atması, onun bu siyasətə təbii reaksiyası idi. Xalq yeganə çıxış yolunu yalançı və avantürist ideyalara əsaslanan kommunist rejimindən imtina etməkdə, müstəqilliyə nail olaraq demokratik dəyərlərə söykənən bir cəmiyyət qurmaqda görürdü.

Bu seçim xalqın siyasi iradəsi olmaqla yanaşı, dünyada gedən demokratikləşmə meyilləri ilə də sıx şəkildə bağlı idi. Bütövlükdə dünyada demokratikləşmə istiqamətində gedən proseslərin genişlənməsi, daha çox ölkələri əhatə etməsi bu seçimdə əhəmiyyətli rol oynamışdı. İmperiya əsarətindən azad olaraq müstəqillik əldə etmiş yeni dövlətlərə daha çox şey vəd edən, daha çox cəzbedici olan demokratiya idi.

İkinci dəfə müstəqillik qazanmış Azərbaycan Respublikasında da demokratiyanın alternativi yox idi. Ulu öndər Heydər Əliyevin bu sözlərində Azərbaycan xalqının illərlə qəlbində saxladığı arzusu və onu həyata keçirmək əzmi ifadə olunmuşdu: «Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğunu təşkil etməkdir. Bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan Respublikası dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir».

Lakin ölkə əhalisinin dövlət müstəqilliyi qazanılması və müasir tipli müstəqil dövlətçiliyin formalaşdırılması məqamında demokratiyaya can atması onun problemlərinin həlli üçün kifayət deyildi. Bunun üçün mövcud maneələri dəf etmək, demokratik dövlət quruculuğunu ardıcıl və məqsədyönlü şəkildə, elmi və praktik cəhətdən sınaqdan çıxmış proqram əsasında reallaşdırmaq və həyati əhəmiyyət kəsb edən digər çoxsaylı problemləri həll etmək lazım idi.

Azərbaycan Respublikası bir neçə qlobal vəzifəni eyni vaxtda yerinə yetirmək məcburiyyətində idi. Bir tərəfdən, imperiya asılılığından qurtarmış Azərbaycan Respublikasında müstəqil dövlətçiliyin əsasları bərpa olunmalı, ölkənin təhlükəsizliyi təmin edilməli idi. Digər tərəfdən, Azərbaycan Respublikası keçmiş ictimai-iqtisadi sistemdən

– sosializmdən imtina edərək, bazar iqtisadiyyatına əsaslanan demokratik quruluşlu vətəndaş cəmiyyətinə istiqamət götürmüşdü. Hər biri ayrılıqda nəhəng olan bu məsələlərin mürəkkəb beynəlxalq və daxili vəziyyət şəraitində eyni vaxtda həll edilməsi zərurəti bunun son dərəcə mürəkkəb olduğunu bir daha sübut edir. Ölkənin xarici hərbi müdaxiləyə və daxildə vəziyyətin gərginliyindən istifadə edən separatçı qüvvələrin təzyiqinə məruz qaldığı bir şəraitdə bunu etmək son dərəcə çətin idi.

Dövlət müstəqilliyinin ilk illərində vətəndaş cəmiyyətinin qurulması bir məqsəd kimi qarşıya qoyulsa da, bu barədə təsəvvürlər kifayət qədər aydın deyildi. Belə bir cəmiyyətin qurulmasına ehtiyac bütün Azərbaycan cəmiyyəti tərəfindən dərk edilsə də, onu peşəkar şəkildə həyata keçirən siyasi qüvvə və ən başlıcası, bu vəzifələrin məsuliyyətini və ağırlığını dərindən dərk edərək, onları elmi və praktik cəhətdən əlaqələndirən, bütün cəmiyyəti öz ətrafında səfərbər edərək bu məqsədlər yolunda birləşdirən lider çatışmırdı. O dövrdə Azərbaycan Respublikası qarşısında duran müstəqil dövlət quruculuğu vəzifəsini yerinə yetirmək üçün bütün məsələlərə peşəkar yanaşma və möhkəm iradə tələb olunurdu.

Demokratik vətəndaş cəmiyyətinin modelini hər hansı bir qabaqcıl ölkədən götürərək tətbiq etmək onun düzgün işləyəcəyinə və səmərəli fəaliyyət göstərəcəyinə heç də təminat vermir. Bu işdə qabaqcıl ölkələrin nümunəsinin böyük əhəmiyyəti olsa da, demokratik cəmiyyətin təsisatlarının normal, öz daxili işlək mexanizmləri vasitəsilə səmərəli işləməsi üçün onun tətbiq edildiyi cəmiyyətə üzvi şəkildə bağlanmasına, ictimai mühitlə vəhdətinə böyük ehtiyac duyulur. Əks halda, bu model həmin cəmiyyətin tələblərinə cavab vermir, səmərəli işləyə bilmir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı ilin oktyabrında Milli Məclisin payız sessiyasının açılışında dediyi bir fikri xatırlatmaq yerinə düşür: «...Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq, bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycan Respublikasının hərtərəfli inkişafı üçün başlıca şərtdir» [392, 2006, 3 oktyabr].

Müasir dünyada demokratik dövlətlərin çoxunda ictimai-iqtisadi və siyasi məqsəd kimi qarşıya qoyulmuş və bir sıra ölkələrdə kon-

turları müşahidə edilən hüquqi dövlətin bərqərar olması şəraitində mövcud vətəndaş cəmiyyəti və dövlət bir-biri ilə əməkdaşlıq edən, cəmiyyətin problemlərinin həll edilməsində səylərini birləşdirən subyektlər kimi çıxış edir. Azərbaycan Respublikasının qurmaq əzmində olduğu məhz bu cür cəmiyyətdir və dövlətin gördüyü tədbirlər buna yönəlmişdir.

Azərbaycan Respublikasında da vətəndaş cəmiyyətinin vacib elementlərindən biri olan qeyri-hökumət təşkilatlarına münasibət müstəqilliyin ilk illərində heç də birmənalı deyildi. Həm qeyri-hökumət təşkilatlarının cəmiyyətdə tutduğu yer və oynaya biləcəyi rolun cəmiyyətdə düzgün dərk olunmasında, həm də bu təşkilatlarla bəzi hakimiyyət strukturları arasında münasibətlərdə problemlər olmuşdur. Bunların aradan qaldırılması isə müəyyən vaxt tələb edirdi.

Vətəndaş cəmiyyətinin başlıca prinsiplərindən biri ictimai həyatın bütün sahələrində vətəndaş təşəbbüskarlığının olmasıdır. Dövlətin gördüyü işlər cəmiyyət tərəfindən qəbul edilərək dərk olunmalı və dəstəklənməlidir. Bunun üçün isə ictimai şüurun səviyyəsi, onun ölkədə gedən ictimai-iqtisadi, siyasi və mənəvi prosesləri dərk edərək fəal münasibət bildirməsi və mövcud problemlərin həllində iştirakı vacibdir. Digər tərəfdən, demokratiya cəmiyyətin hər bir üzvünün öz hüquq və vəzifələrini dərindən bilərək onların reallaşmasında təşəbbüskarlıqla çıxış etməsini tələb edir. Yalnız bu yolla Azərbaycan Respublikasının öz Əsas Qanununda ifadə olunmuş məqsədini – demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti qurmaq məqsədini reallaşdırmaq mümkündür.

Vətəndaş cəmiyyətinin mühüm elementlərindən biri müasir dünyada qeyri-hökumət təşkilatları ilə təmsil olunan üçüncü sektordur. Bu sektor dövlət-cəmiyyət-şəxsiyyət münasibətləri sistemində özünəməxsus yer tutur və bir sıra mürəkkəb funksiyaları yerinə yetirir. Yeni yaranmaqda olan demokratik cəmiyyətdə ictimai sektorun uğurla formalaşdırılmasına nail olmaq, cəmiyyətin rifahı naminə sərbəst fəaliyyətinə dəstək vermək, onun zərərli təsirlər altına düşməsinin qarşısını almaq və mənfi meyillərdən azad olmasına kömək etmək, cəmiyyətdə gördüyü işlərin səmərəliliyinin artırılmasına təkan vermək üçün bu sektorun mahiyyətinin, fəaliyyətinin nəzəri və praktik cəhətlərinin araşdırılması və dərk edilməsi, ölkənin

xüsusiyyətləri nəzərə alınaraq onun milli modelinin konseptual şəkildə işlənib hazırlanması dövlətin və Azərbaycan cəmiyyətinin mühüm vəzifələrindən idi.

Azərbaycan Respublikasında «qeyri-hökumət təşkilatı» (QHT) anlayışı, əsasən, 1990-cı illərin ortalarından geniş işlənməyə başlamışdır, baxmayaraq ki, bu kateqoriyaya aid ola biləcək ictimai təşkilatlar xeyli əvvəl təşəkkül tapmış və fəaliyyət göstərmişdir.

QHT-lər öz tarixi missiyasına görə ölkənin ictimai-iqtisadi, siyasi və mənəvi həyatında geniş kütlələrin iradəsinin reallaşması, onların cəmiyyətin bütün problemlərinin həllində bilavasitə iştirakının təmin edilməsi, vətəndaş təşəbbüskarlığının artırılması, ictimai şüurun yüksəldilməsi, hakimiyyət orqanları üzərində ictimai nəzarətin təmin olunması, ictimai məsuliyyətin dərk edilməsi vasitələrindən biridir. Cəmiyyətdə bu mürəkkəb və vacib funksiyaları yerinə yetirən QHT-lər birdən-birə yarana və mükəmməl ola bilməzdi.

Şimali Azərbaycanda sovet hakimiyyətinə qədər bu kateqoriyaya aid ola biləcək təşkilatlar – yaradıcılıq birlikləri, həmkarlar təşkilatları, ictimai birliklər, xeyriyyə cəmiyyətləri olmuş və ölkə tarixində özünəməxsus iz qoymuşdur. Lakin sovet hakimiyyətinin qurulması ilə bu ənənə qırılmış, az-çox saxlanılmış təşkilatlar isə öz mahiyyətindən uzaqlaşdırılaraq, sovet imperiyasının maraqlarına xidmət edən qurumlara çevrilmişdi. Bu tipli təşkilatların yaranmasının yeni dalğası 1980-ci illərin axırı – 90-cı illərin əvvəllərinə təsadüf edir. Əhalinin ən müxtəlif qruplarının konkret problemlər və məqsədlər ətrafında birləşməsinin yeni mərhələsi 1988-ci ildə Qarabağ probleminin açıq şəkildə ortaya çıxması ilə bağlı oldu. Lakin o vaxt əhalinin fəallığı yüksək olsa da, təcrübəsizlik, kortəbiilik, qeyri-mütəşəkkillik öz mənfi təsirini göstərmişdir.

Dövlət müstəqilliyinin ilk illərində bu və ya digər formada fəaliyyət göstərmiş qeyri-hökumət təşkilatı hesab edilə biləcək təşkilat az idi. Bunlara müxtəlif yaradıcılıq təşkilatlarını, müharibə veteranları birliyini və bu tipli digər təşkilatları göstərmək olar. Dövlət müstəqilliyinin bərpasının ilk dövründə rəsmi olaraq ilk qeyri-hökumət təşkilatları, əsasən, 1992-ci ildə «İctimai təşkilatlar haqqında» qanun qəbul edildikdən sonra yaranmağa başladı. Həmin qanunun ictimai təşkilatları hüquqi cəhətdən dəqiq xarakterizə etməsi və onun fəaliyyət çərçi-

vələrini müəyyənləşdirməsi əhəmiyyətli hadisə idi. Lakin qanunda müəyyən boşluqların olması, xüsusən bu təşkilatların fəaliyyətinə ictimai və dövlət nəzarəti mexanizmlərinin zəifliyi praktikada çoxsaylı problemlərin üzə çıxmasına səbəb olurdu.

Həmin dövrdə cəmiyyətin problemlərinin kifayət qədər çox olması və müstəqil dövlətçiliyin yeni formalaşdığı bir şəraitdə dövlətin bu sahəyə diqqət ayırmaq imkanının məhdudluğu pərakəndəlik və qarışıqlıq üçün zəmin yaradırdı. O illərin ən böyük problemlərindən biri Azərbaycan Respublikasının müxtəlif dövlətlərin təsir dairəsi uğrunda mübarizə mərkəzlərindən birinə çevrilməsi idi. Bu proses güclü təsir vasitəsi olan QHT-lərdən də yan keçmirdi. Mövcud şərait Azərbaycan Respublikasında müxtəlif maraqları olan qüvvələrə vəziyyətdən istifadə etməyə, formalaşmaqda olan QHT-lərin fəaliyyətini özlərinə sərf edən məcraya yönəltməyə və onlardan öz məqsədlərinə çatmaq üçün istifadə etməyə imkan verirdi. O vaxt sağlam məqsədli təşkilatlarla yanaşı, ölkənin milli maraqlarının əleyhinə fəaliyyət göstərən xeyli təşkilat da yaranmışdı. Onlar xeyriyyəçilik və digər ictimai əhəmiyyətli fəaliyyət pərdəsi altında əhalinin müxtəlif kateqoriyalarını öz tərəflərinə çəkmək, sabitliyi pozmaq, təxribatlar törətmək, ölkədə gedən quruculuq işini pozmaq kimi məqsədlərə xidmət edirdilər. Dövlət müstəqilliyinin ilk illərində ölkə əleyhinə xaricdən və daxildən törədilmiş təxribatlarda bu istiqamətdə aparılan işin təsiri müşahidə edilirdi. Ölkədə fəaliyyət göstərən qanunsuz silahlı birləşmələr, separatçı qüvvələr, təxribatçı qurumlar çox vaxt yaratdıqları ictimai birliklərin arxasında pərdələnir, onların vasitəsilə xaricdən və daxildən maliyyə yardımları alırdılar. Həmin illərdə Azərbaycan Respublikası ərazisində törədilmiş təxribatlarda, terror hadisələrində, separatçı qiyamlarda bir sıra yerli və xarici təşkilatların yaxından iştirakı aşkar edilmişdi.

Ümumiyyətlə, 1991–1995-ci illərdə öz missiyasından uzaqlaşaraq, təsir altına düşmüş ictimai təşkilatları iki tipə bölmək mümkündür. Bu təşkilatların bir qismi məqsədyönlü şəkildə siyasi qruplaşmaların aləti kimi yaradılırdısa, onların xeyli hissəsi mövcud vəziyyətin qarışıqlığı şəraitində sərişdəsizlikdən və sadəlövhlükdən bu və ya digər siyasi qüvvənin təsiri altına düşürdü.

1993-1994-cü illərdən etibarən Azərbaycan Respublikasının ictimai həyatının bütün sahələrində olduğu kimi, QHT-lərin həyatında da

yeni bir mərhələ başlanır. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi həyatında baş vermiş köklü dəyişiklik, onun rəhbərliyi altında məqsədyönlü və ardıcıl dövlət quruculuğu işinin başlanması, dağıdıcı qüvvələrin qarşısının alınması sayəsində vətəndaş cəmiyyətinin də əsaslarının qurulması üçün zəmin yarandı.

Bütövlükdə, dövlət quruculuğu işinin, ayrılıqda isə cəmiyyətin xarakterinin, ideallarının, prioritetlərinin dəqiqləşdirilməsi, münasibətlər sisteminin formalaşdırılmasının zirvəsi 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi oldu. Konstitusiya Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi dövlət xarakterini, onun vətəndaş cəmiyyəti və hüquqi dövlət qurmaq əzmini bəyan edərək təsbit etdi. Mükəmməlliyi ilə dünyanın ən demokratik ölkələrinin konstitusiyaları ilə müqayisə oluna bilən belə bir konstitusiyanın qəbul edilməsi ictimai sektorun da maksimum inkişaf etməsi, öz missiyasını yüksək səviyyədə həyata keçirməsi üçün möhkəm hüquqi baza yaradırdı.

Konstitusiyanın qəbul edilməsi və bununla da bir sıra prinsipial məsələlərə aydınlıq gətirilməsi ilə QHT-lərin formalaşması və cəmiyyətdə öz hüquqi yerini tutması, onların normal fəaliyyət göstərməsi üçün fundamental hüquqi bazanın yaradılması və o vaxta qədər mövcud olan qeyri-müəyyənliklərin aradan qaldırılması baxımından ciddi irəliləyiş baş vermişdi. Lakin bu prosesin özü də obyektiv səbəblər üzündən çox da sürətlə getmirdi. Belə bir fundamental hüquqi əsasın olması da bu sahədə bütün problemlərin həll olunması demək deyildi. Şübhəsiz, keçid dövrünü yaşayan bir cəmiyyətin konstitusiyada nəzərdə tutulan ideal vəziyyətə gəlib çıxması üçün uzun illərin gərgin əməyi, cəmiyyətdə, onun münasibətlər sistemində, ictimai şüurda köklü irəliləyişlərin olması tələb edilirdi.

Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bütün tarixi boyu QHT-lərin inkişaf məntiqini və dövlətin bu sahədə müəyyənləşdirdiyi və yeritdiyi xəttin mahiyyətini daha dərindən dərk etmək üçün onların xarakterik cəhətlərinə diqqət yetirmək lazım idi. Bu reallıqlardan çıxış edən Azərbaycan Respublikası dövləti üçüncü sektorun təşəkkülünə və möhkəmləndirilməsinə nail olmaq üçün bu sahədə öz strategiyasını konkret istiqamətlərdə həyata keçirirdi. Onların sırasına aşağıdakılar daxildir:

– bu sahənin normal fəaliyyətini təmin edə biləcək mükəmməl hüquqi bazanın yaradılması;

– QHT-lərin mövcud vəziyyətinə və fəaliyyətinə milli dövlətçilik baxımından qiymət verərək, onların zərərli təsirlərdən qorunmasının dəstəklənməsi;

– onların iş təcrübəsinin artırılması və kadr təminatına kömək edilməsi;

– onların fəaliyyət istiqamətlərinin müəyyənləşməsinin və əhatə dairəsinin genişlənməsinin dəstəklənməsi;

– onlara metodik, texniki və təşkilati köməyin təşkil edilməsi;

– dövlət–QHT münasibətlərinin nəzəri və praktik əsaslarının işlənib hazırlanması;

– QHT-lərin üzləşdiyi problemlərin və çətinliklərin aradan qaldırılmasının davamlı şəkildə dəstəklənməsi;

– onların xaricdən maliyyə asılılığının aradan qaldırılması üçün daxili maliyyə mənbələrinin formalaşmasının dəstəklənməsi;

– QHT sektorunun genişlənməsi və gücləndirilməsi üçün əhali arasında geniş maarifləndirmə işlərinin dəstəklənməsi;

– üçüncü sektorun təkcə paytaxtda deyil, ölkənin bütün ərazisində, xüsusilə də regionlarda təşəkkül tapmasına və inkişafına nail olunması;

– QHT-lərin də Azərbaycan Respublikasının bütövlükdə üz tutduğu Qərbə inteqrasiyasının dəstəklənməsi;

– QHT-lərin fəaliyyətinin daha çox ictimai əhəmiyyət kəsb edən prioritet sahələrə yönəldilməsinə nail olunması və sair.

Dövlətin ictimai sektor sahəsində nəzərdə tutulan bu məqsəd və vəzifələri qəbul edilmiş bütün sənədlərdə öz əksini tapmışdır. Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyasında deyilir: «Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyinin məqsədləri cəmiyyətimizdə yeni münasibətlər modelinin formalaşdırılması, vətəndaş cəmiyyəti institutlarının müasirləşdirilməsi, vətəndaş təşəbbüsünün artırılması, milli maraqların qorunması sahəsində qeyri-hökumət təşkilatlarının fəaliyyətinin təşviq edilməsi, onların sosial əhəmiyyətli problemlərin həllinə cəlb olunması, dövlət və cəmiyyətin inkişafı üçün əhəmiyyət kəsb edən proqram və layihələrin maliyyələşdirilməsidir» [123, 4].

Azərbaycan Respublikasında QHT-lərin inkişafında onun qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Dövlət quruculuğu prosesində bir-birinin ardınca ayrı-ayrı sahələr üzrə hakimiyyət strukturlarının yaradılması və onların arasında səlahiyyət və məsuliyyət bölgüsünün dəqiqləşdirilməsi dövlət idarəçiliyini tənzimləməklə yanaşı, ictimai sektorun da müvafiq strukturlarla işbirliyinə şərait yaradırdı.

Azərbaycan Respublikasında QHT-lərin inkişaf dinamikasını nəzərdən keçirdikdə, artıq 1994–95-ci illərdən etibarən ictimai sektorun problemlərinə diqqət yetirilməsini və onların dövlət nəzarətinə götürülməsini müşahidə etmək olar. Həmin vaxt Heydər Əliyevin rəhbərliyi altında ölkədə sabitliyin təmin edilməsi, ictimai həyatın bütün sahələrində quruculuq işlərinin nizama salınması və sürətləndirilməsi sayəsində beynəlxalq humanitar təşkilatlar Azərbaycan Respublikasında fəaliyyətlərini genişləndirməyə və öz dayaq nöqtələrini yaratmağa başladı. Ümumilikdə isə beynəlxalq təşkilatların ölkədə fəaliyyət göstərməsi milli QHT-lərin bundan bəhrələnməsi üçün əlverişli şərait yaradırdı. Azərbaycan Respublikasında QHT-lərin yaradılması və dəstəklənməsi ilə bir sıra beynəlxalq təşkilatlar məşğul olurdu. Milli QHT-lərin gücləndirilməsi istiqamətində aparılan işin nəticələri də artıq 1994-cü ildə özünü göstərməyə başlayırdı.

Beynəlxalq təşkilatlardan Açıq Cəmiyyət İnstitutu Yardım Fondu (Soros Fondu), TASİS Fondu, Avrasiya Fondu, İSAR–Azərbaycan, BMT-nin İnkişaf Proqramı (UNDP), Dünya Bankı, Kanada Kooperasiya Fondu və digərləri müxtəlif proqramların maliyyələşdirilməsində yaxından iştirak edirdi.

Bunlardan əlavə, böyük dövlətlərin səfirlikləri qrantlar ayırmaqla QHT-lərin həyata keçirdikləri layihələri maliyyələşdirirdi. Təbiidir ki, bu dövlətlər həmin işdə öz konkret maraqlarından çıxış edirdi. Şübhəsiz, onların məqsədlərində Azərbaycan Respublikasının maraqları ilə uyğun gələn məqamlar çoxdur. Lakin bu fəaliyyətin saf-çürük edilməsinin böyük əhəmiyyəti vardır. Buna görə də Azərbaycan Respublikası hökumətinin həmin münasibətləri tənzimləmək istiqamətində qanunvericiliyi təkmilləşdirməsi vacib idi.

Beynəlxalq donor təşkilatlarının maliyyə dəstəyi ilə 1995–1999-cu illərdə milli QHT-lər tərəfindən həyata keçirilən layihələrin əsas istiqamətləri [614, 4]:

№	Layihənin istiqaməti	1995	1996	1997	1998	1999
1.	Humanitar yardımların paylanması	5	4	4	3	3
2.	Qaçqın və köçkünlərin reabilitasiyası	8	8	5	5	1
3.	Əlillərin müdafiəsi	4	4	3	4	3
4.	Münaqişələrin həllinə dəstək layihələri	4	4	2	1	1
5.	Müxtəlif mövzulu seminar və konfransların keçirilməsi	3	6	8	11	7
6.	Nəşriyyat işləri	0	1	5	17	9
7.	Tədqiqat xarakterli layihələr	2	3	8	8	9

İctimai sektorun inkişaf etdirilməsində müəyyən nailiyyətlər olsa da, QHT-lərin üzləşdiyi müxtəlif xarakterli çətinliklər kifayət qədər çox idi. Bu, onların gündəlik fəaliyyətində və gördükləri işin həcmində və keyfiyyətində özünü qabarıq şəkildə göstərirdi.

Azərbaycan Respublikası hökuməti milli QHT-lərə hərtərəfli yardım etmək üçün yollar axtarır və bu istiqamətdə görülən işlərin miqyasını genişləndirirdi. Hökumətin ictimai sektorun formalaşdırılması və inkişaf etdirilməsi sahəsində siyasəti mövcud reallıqlara söykənirdi. Eyni zamanda, dövlətin həyata keçirdiyi zəruri, lakin qeyri-populyar tədbirlərin bəziləri, bu və ya digər konkret məsələdə mövqeyi heç də həmişə cəmiyyətdə, xüsusən də QHT-lərin bir qismi tərəfindən birmənalı qarşılanmır, bəzən isə müqavimətlərlə müşahidə olunurdu.

Azərbaycan Respublikasının milli qeyri-hökumət təşkilatlarının inkişafına güclü təkan verən tədbirlərdən biri 1997-ci ildə Azərbaycan Respublikası hökumətinin BMT-nin İnkişaf Proqramı ilə «Azərbaycanda qeyri-hökumət təşkilatlarının institusional inkişafı və vətəndaş cəmiyyəti quruculuğuna kömək» adlı birgə layihə çərçivəsində QHT-

lərin Resurs və Təlim Mərkəzinin yaradılması oldu. Fəaliyyət göstərdiyi dövrdə bu mərkəz QHT-lərin təcrübə qazanması, onların kadr potensialının gücləndirilməsi, fəaliyyət istiqamətlərinin formalaşdırılması, əhali arasında QHT-lərin cəmiyyətdə yeri, rolu və əhəmiyyəti barədə geniş maarifləndirmə işlərinin aparılması, QHT-lərin şəbəkələşməsi, daxili və xarici əlaqələrinin nizama salınması baxımından kifayət qədər işlər gördü [115, 217].

Mərkəzin dövlətlə bu sahədə birgə əməkdaşlığı sayəsində QHT-lərin fəaliyyət dairəsi və coğrafiyası genişləndi. Onların ayrı-ayrı fəaliyyət sahələri üzrə ixtisaslaşması daha məqsədyönlu və səmərəli işləməsinə kömək edirdi. Bu məqsədyönlü işin sayəsində artıq 1999-cu ildə QHT-lərin əksəriyyətinin yönümü daha dəqiq və qəti idi.

Təkcə paytaxtda deyil, ölkənin regionlarında da QHT-lər yaranırdı. Mərkəzin ayrı-ayrı regionlarda fəaliyyət göstərən yerli resurs mərkəzləri ictimai sektorun təşəkkülünə və möhkəmlənməsinə nail olurdu.

Mərkəzin məqsədyönlü işi ictimai sektorda QHT-lərin kooperasiyasının güclənməsində əhəmiyyətli nəticələr verməyə başladı. İlk QHT birliklərinin yaranması, bir tərəfdən, məşğul olduqları problemlərin həllində onların güclərinin birləşdirilməsinə xidmət edirdisə, digər tərəfdən, ictimai sektorun bütövləşərək daha da güclənməsinə kömək edirdi. Mərkəzin fəaliyyəti məhdud bir dövr üçün nəzərdə tutulmuşdu. Bu müddət başa çatdıqdan sonra onun funksiyasını milli QHT assosisiyaları yerinə yetirməyə başladı.

1990-cı illərin axırlarında qeyri-hökumət təşkilatlarının yaradılması, istiqamətləndirilməsi və möhkəmləndirilməsi sahəsində əldə olunmuş müsbət nəticələr uzun illər bu sahənin başlıca problemlərindən olan dövlət qeydiyyatı məsələsində əhəmiyyətli dəyişikliklərə şərait yaratdı. 1998-ci ildə «Qrant haqqında» qanunun qəbul edilməsini isə QHT-lərin əsas maliyyə mənbəyinin qanun çərçivəsində tənzimlənməsi baxımından müstəsna əhəmiyyəti oldu. Bu qanunun qəbulu həmin məsələni hüquqi məcraya salmağa, dövləti və cəmiyyəti narahat edən bir sıra məsələləri tənzimləməyə imkan verdi.

Qrant alınmasının və sərfinin dəqiq çərçivələrinin müəyyənləşdirilməsi ictimai sektorun hüquqi bazasının mükəmməlləşməsində növbəti vacib bir tədbir idi. Onun bəzi müddəaları birmənalı qarşılanmasa

da, onlar QHT-lərin fəaliyyətinin Azərbaycan cəmiyyətinin ictimai maraqlarının təmin edilməsinə yönəldilməsi və bu sahədəki mənfi meyillərin qarşısının alınması üçün böyük əhəmiyyət daşıyırdı. Çünki həmin vaxta qədər Azərbaycan Respublikası əleyhinə açıq şəkildə fəaliyyət göstərən qüvvələr ifşa edilərək neytrallaşdırılsa da, ictimai sektorda üstüörtülü şəkildə bu işi davam etdirən və maliyyə yardımları aldıqları bəzi xarici təşkilatların sifarişi ilə ölkəmizə qara yaxan, onun nailiyyətlərinə kölgə salmaq istəyən qüvvələr qalmaqda idi. Adını hüquq müdafiəçiləri qoyan, Azərbaycan Respublikasında qondarma siyasi məhbus siyahıları tərtib edərək, hüquqların pozulması haqqında dünyaya car çəkən, ölkənin xarici düşmənləri, o cümlədən erməni separatçıları ilə işbirliyi qurmağa cəhd edən qüvvələr qanunda olan boşluqlardan istifadə edərək istədikləri kimi fəaliyyət göstərirdilər. Haqqında danışılan qanunlar qəbul edildikcə, onların təsir imkanları da zəifləyirdi.

1999-cu ildə QHT-lərin dövlət qeydiyyatında sürətlənmə hiss olunmağa başladı. İlk baxışdan bu, birdən-birə başlayan proses təsiri bağışlasa da, ictimai sektorun formalaşması və möhkəmlənməsi sahəsində illər boyu görülən gərgin işin nəticəsi idi. Həmin ilin sentyabrında 1109 QHT qeydiyyata alınmışdı. Bu təşkilatlar, əsasən, cəmiyyətin dəstəyə ehtiyacı olan əhali qrupları ilə işlə məşğul olurdular. Qeydiyyatdan keçmiş QHT-lərin 20-si qadın təşkilatı, 40-ı gənclər təşkilatı, 8-i uşaq hüquqları komitəsi, 12-si insan hüquqları təşkilatı, 38-i mədəniyyət mərkəzi, 10-u ekologiya təşkilatı, 15-i yaradıcılıq cəmiyyəti, 27-si əlil və veteranlar assosiasiyası, 500-ü humanitar təşkilat, 30-u elmi cəmiyyət, 400-ü isə cəmiyyətin digər problemləri ilə məşğul olan qurum idi. Qeyri-rəsmi məlumata görə, o vaxt ölkədə 1250-yə qədər QHT var idi [253, v.17].

Hələ 1995-ci ildən QHT-lər müəyyən fəaliyyət istiqamətləri üzrə öz birliklərini yaratmağa cəhdlər edirdi. Lakin adətən, bu birliklər uzunömürlü olmurdu. 1999-cu ildə onların da fəaliyyətində müsbət irəliləyişlər müşahidə olunmağa başladı. Həmin dövrdə üçüncü sektorda daha çox diqqəti cəlb edən QHT birlikləri Milli QHT Forumu, QHT Konqresi, Azərbaycan Gənclər Təşkilatlarının Milli Şurası, Miqrasiya məsələləri ilə məşğul olan QHT-lərin Forumu və qadın təşkilatları birlikləri və s. idi.

QHT birlikləri üzvlərinin sayı [253, v.3]:

№	QHT birliyinin adı	Üzv təşkilatların sayı
1.	Azərbaycan Gənclər Təşkilatlarının Milli Şurası	47
2.	Miqrasiya məsələləri ilə məşğul olan QHT-lərin Forumu	23
3.	Milli QHT Forumu	240
4.	QHT Konqresi	135

QHT-lərin özləri kimi, onların birlikləri də da çoxsaylı çətinliklər və problemlərlə üzləşirdi. Lakin onların birləşməsi bu çətinliklərin öhdəsindən daha uğurla gəlməyə imkanı verirdi. Bu birliklərin ən parlaq nümunələrindən biri 1999-cu ildə yaradılmış Milli Qeyri-Hökumət Təşkilatları Forumu idi. Onun gərgin işi sayəsində QHT-lərin fəaliyyətini cəmiyyətin daha çox ehtiyac hiss etdiyi istiqamətə yönəltmək, regionlarda QHT-lərin təbliği və onun dayaqlarının yaradılması, ictimai sektorunun gücünün və təsirinin artırılması və digər vacib məsələlərdə əhəmiyyətli nəticələr əldə edildi.

QHT Forumunun Azərbaycan Respublikasının regionlarındakı geniş maarifləndirmə və təşkilatlandırma işi diqqəti xüsusilə cəlb edir. Onun səyi ilə 2002-ci ildə forumun 5 region mərkəzində – Əli Bayramlı (indiki Şirvan), Şəmkir, Mingəçevir, Qəbələ və Quba şəhərlərində QHT-lərin regional təlim və resurs mərkəzləri yaradılmışdı ki, bu da üçüncü sektorun bütün ölkə ərazisində inkişafına əhəmiyyətli kömək etmişdir.

QHT-lər dövlət əhəmiyyətli işlərin, yeni qanunların müzakirələrinə daha fəal şəkildə cəlb olundular. Onlar ictimai sektora aid olan bir sıra qanun layihələrinin hazırlanmasında yaxından iştirak etmiş və qanunvericilik təşəbbüsü ilə Milli Məclisə müraciət etmişdilər [99, 14-15].

Sonrakı illərdə qəbul edilmiş qanunlar QHT-lərin normal fəaliyyəti üçün yaradılmış hüquqi bazanı gücləndirdi. 2000-ci ildə «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» qanunun qəbul edilməsinin ictimai sektorun inkişafında böyük əhəmiyyəti var

idi. QHT-lərin qanunvericilik bazasında mühüm yer tutan bu qanun 1992-ci ildə qəbul edilmiş qanunla müqayisədə daha mükəmməl və mütərəqqi bir sənəd idi. İlk dəfə olaraq qeyri-hökumət təşkilatları kimi təqdim edilən bu təşkilatların cəmiyyətdə yeri daha dəqiq şəkildə ifadə olunmuş, onların hüquqi müstəvidə fəaliyyəti və məsuliyyətinin çərçivələri yeni şəraitə və ictimai-siyasi reallıqlara uyğun olaraq müəyyənləşdirilmişdir. Bu qanun həm də QHT-lərin yeni bir səviyyəyə yüksəlməsini və yeni şəraitdə dövlətin strateji xəttini özündə əks etdirirdi. Qanunda QHT-lərin fəaliyyətinə bir sıra məhdudiyyətlərin qoyulması bu sahədəki xeyli problemlərin dərinliyindən xəbər verirdi. Konkret olaraq, qanunun 2.4-cü maddəsində QHT-lərin seçkilərdə müşahidəçi qismində iştirakı qaydaları müəyyənləşdirilərkən xarici fiziki və hüquqi şəxslərlə yanaşı, nizamnamə kapitalında xarici fiziki və hüquqi şəxslərin payı 30 faizdən artıq olan Azərbaycan Respublikasının QHT-lərinə də məhdudiyyət tətbiq edilmişdi. 2005-ci ildə həmin məhdudiyyətin ləğv edilməsi Azərbarcan QHT-lərinin mahiyyətində bu cəhətdən müsbət irəliləyişlərin göstəricisi kimi qiymətləndirilə bilər.

2004-cü ildə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» qanunun qəbul edilməsindən sonra QHT-lərin dövlət qeydiyyatı məsələsinin həllində əsaslı irəliləyiş müşahidə olunmuş, bir sıra bürokratik əngəllər aradan qalxmışdır. Bu vaxta qədər QHT-lərin üzləşdiyi çoxsaylı problemlər və maneələrin, o cümlədən dövlət qeydiyyatı problemlərinin kökündə dayanan amillər müxtəlif xarakterli idi. Onların xeyli hissəsi isə QHT-lərin özlərinin mükəmməl olmaması, təcrübə bazalarının zəifliyi, cəmiyyətdə öz yerlərini tutmaması, təşkilatlanma, fəaliyyət sahəsində qeyri-müəyyənliklər, daxili maliyyələşmə məsələlərində olan çətinliklər və sair ilə bağlı idi. Yeni qanunun qəbul edilməsi həmin problemlərin qismən aradan qalxmasına və bu sahədə işlərin keyfiyyətinin yüksəlməsinə dəlalət edirdi.

2003-cü ildə Azərbaycan Respublikasında QHT-lərin sayı 2000-i keçmiş, onlardan 1605-i dövlət qeydiyyatına alınmışdı. Lakin o vaxt ölkədə real fəaliyyət göstərən QHT-lərin sayı 400–450-dən artıq deyildi [99, 174].

Yuxarıdakı rəqəmlərdən göründüyü kimi, QHT-lərin bir hissəsinin dövlət qeydiyyatı məsələsi həll edilməmişdi. Araşdırmalar

göstərir ki, hələ əvvəlki illərdə də real fəaliyyət göstərən təşkilatların böyük əksəriyyəti dövlət qeydiyyatına alınmışdı. Fəaliyyəti bu və ya digər dərəcədə hiss olunan, lakin qeydiyyatdan keçə bilməyən təşkilatların isə problemləri daha çox fəaliyyətlərinin cəmiyyətin maraqları ilə ziddiyyət təşkil etməsi, siyasiləşmə və sair bu tipli məsələlərlə bağlı idi.

Dövlətin ictimai sektora münasibətdə Heydər Əliyev xəttinin diqqəti cəlb edən və böyük əhəmiyyət kəsb edən cəhətlərindən biri QHT-lərin müstəqilliyinə, onların fərqli mövqeyinə diqqətlə yanaşılması və hörmət edilməsi olmuşdur. QHT-lərə kömək edilsə də, onların işlərinə qarışmamaq, onların sərbəst fəaliyyətinə müdaxilə etməmək Heydər Əliyev siyasətinin xarakterik cəhətlərindəndir. Dövlətin QHT-lərlə iş prinsipi direktivlər, diktələr metoduna deyil, əməkdaşlıq, tövsiyələr vermək, stimullaşdırmaq metodlarına əsaslanırdı. Dövlət–QHT münasibətləri ciddi olaraq qanun çərçivəsində qurulurdu.

Vətəndaş cəmiyyətinin vacib tərkib hissələrindən biri olan QHT-lərin fəaliyyətinə müstəqil Azərbaycan Respublikası dövlətinin bütün tarixi kontekstindən baxdıqda, bu sahədə olan dinamikanı daha qabarıq şəkildə müşahidə etmək mümkündür. Həmin dövrün başlanğıcında pərakəndə şəkildə yaranmağa başlayan QHT-lər mürəkkəb bir inkişaf yolu keçmişdir. Dövlətin bu sahədə həyata keçirdiyi tədbirlər zaman keçdikcə daha güclü şəkildə hiss olunmuş və öz səmərəsini vermişdir. Heydər Əliyevin rəhbərliyi altında aparılan dövlət quruculuğu işləri, ictimai-siyasi həyatda, iqtisadiyyatda sabitliyin təmin edilməsi, müharibədə atəşkəsin əldə edilməsi, daxildəki təxribatçı qruplaşmaların müqavimətinin qırılması QHT-lərin də keyfiyyətcə yeni bir səviyyəyə yüksəlməsinə gətirib çıxarmışdır. İlk baxışdan nəticəsi o qədər də tez gözə çarpmayan bu proses, əslində, gələcək hüquqi dövlətin və vətəndaş cəmiyyətinin konturlarını müəyyənləşdirir, onun möhkəm bünövrəsini qoyurdu.

QHT-lərin mövcud olduğu bütün dövrlərdə dövlətin onlara dəstəyinin məntiqi yekunu ölkə Prezidentinin «Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası»nı imzalaması və «Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının» yaradılması barədə sərəncam verməsi oldu.

2007-ci il iyulun 27-də qəbul edilmiş həmin Konsepsiyada ictimai sektorun yaradılması və möhkəmləndirilməsi sahəsində dövlətin yeritdiyi xəttə, bu vaxta qədər əldə edilmiş nəticələrə qiymət verilir və dövrlərin mövqeyi bir daha təsdiqlənməklə bundan sonrakı fəaliyyət proqramını və onun məqsədlərini açıqlayır. Əslində, bu sənəddə QHT-lərə münasibətdə dövlətin bəyan edilən mövqeyi, bu sahədə qoyulan məqsəd və vəzifələr, rəhbər tutulan prinsiplər, prioritetlər dəyişməmiş, sadəcə olaraq, sistemləşdirilmiş və bir daha təsdiq edilmişdir [123, 4–9].

Ulu öndər Heydər Əliyevin siyasətindən qaynaqlanan bu məqamlar 1993-cü ildən bəri dövlətin mövqeyi və praktik fəaliyyətinin əsasını təşkil etmiş, tarixin sınağından uğurla çıxaraq dövlətin qəbul etdiyi qanunlarda, normativ sənədlərində və fəaliyyət proqramlarında öz ifadəsini tapmışdır.

Sənəddə bu vaxta qədər QHT-ləri daha çox narahat edən və onların fəaliyyətinə başlıca maneə olan problemlərin qəti şəkildə qoyulması və həlli mexanizmlərinin dəqiq müəyyənləşdirilməsi, xüsusən onların daxili maliyyələşmə mənbələrinin həllinə başlanması bu sahənin güclənməsi üçün möhkəm zəmindir. Konsepsiyada dövlətin QHT-lərə dövlət dəstəyinin prinsip və formalarının, prioritet istiqamətlərinin və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi bu sahədəki boşluqları aradan qaldırmağa və problemləri həll etməyə şərait yaradır.

Azərbaycan Respublikasında müstəqillik dövründə üçüncü sektorun inkişafının indiyə olan yekunlarına nəzər salarkən onun keyfiyyətcə yeni bir mərhələyə qalxması faktını vurğulamalıyıq. Konsepsiyada göstərildiyi kimi, QHT-lər vətəndaş cəmiyyəti quruculuğunun və ölkənin demokratikləşməsi prosesinin vacib təsisatlarından birinə çevrilmişdir. Ölkədə konkret istiqamətlər üzrə sabit fəaliyyət göstərən QHT-lər təşəkkül tapmışdır. Hazırda dövlət qeydiyyatından keçmiş 73 təşkilat qaçqın, məcburi köçkün, əlil və veteranların, 121 təşkilat hüquq müdafiəsi, 191 təşkilat uşaq və gənclərin, 79 təşkilat gender, 68 təşkilat səhiyyə, 77 təşkilat ekologiya, 218 təşkilat iqtisadiyyat, 63 təşkilat sahibkarlıq, 176 təşkilat təhsil, elm və texnika, 43 təşkilat jurnalistika, 113 təşkilat mədəniyyət və incəsənət problemləri ilə məşğul olur [123, 4–9].

Azərbaycan Respublikasında QHT-lərin formalaşması prosesi indi də davam edir, onlara aid olan qanunlar və digər normativ-hüquqi sənəd-

lər daim təkmilləşdirilir. Bu sənədlərdə QHT-lərin qanunverici bazalarının yeniləşməsi və təkmilləşməsi ilə yanaşı, onların özlərinin də güclənməsini, fəaliyyətlərinin genişlənməsini müşahidə etməmək mümkün deyildir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında vətəndaş cəmiyyətinin qurulması və inkişaf etdirilməsi sahəsində Ümummilli lider Heydər Əliyevin xəttinin davam etdirilməsi üçüncü sektorun ölkənin tərəqqisi yolunda uğurlu fəaliyyətinə möhkəm təminat verir.

II FƏSİL

HEYDƏR ƏLİYEV və AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFI

2.1. Yeni iqtisadi sistemə keçid və iqtisadi siyasətin formalaşması

Dövlət müstəqilliyinin bərpasının ilk illərində Azərbaycan Respublikası özünün ağır günlərini yaşayırdı. Ölkə ictimai-siyasi, iqtisadi böhran vəziyyətində idi. Anarxist meyillər, separatçılıq meylləri güclənmişdi. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsi və Ermənistanın açıq hərbi təcavüzə başlaması vəziyyəti daha da gərginləşdirirdi. 1992-ci ilin yekunlarına görə sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı istehsalı 47 faiz azalmış, əhalinin yaşayış səviyyəsi 3,6 dəfə aşağı düşmüşdü. Vəsait çatışmadığına görə 1991-ci ildən ölkə büdcəsi Milli Bankın kreditləri hesabına formalaşırdı. 1993-cü ildə büdcə kəsiri ümumi daxili məhsulun 14,4 faizinə bərabər idi [301, 85].

Cəmiyyətdə sabahkı günə inamsızlıq hökm sürürdü, ümidsizliyə qapılmış insanlar vahimə işində idilər. 1993-cü ilin iyununda vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmiş Azərbaycan Respublikası, əslində, dünyanın siyasi xəritəsindən silinmək həddində idi.

1990-cı illərin əvvəllərində Azərbaycan Respublikası hökuməti iqtisadiyyatın böhrandan çıxarılması istiqamətində bir sıra tədbirlər görmüşdü. Lakin suveren dövlətin bu cəsarətsiz tədbirləri heç də səmərəli deyildi və tezliklə müsbət nəticələr verə bilməzdi. Yaranmış vəziyyət yeni iqtisadi münasibətlərə keçid üçün strateji istiqamətlərin hazırlanmasını və həyata keçirilməsini tələb edirdi.

İctimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərc-mərclik yarandığı bir vaxtda Ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdı.

Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Heydər Əliyev yaxşı bilirdi ki, ölkənin zəngin təbii ehtiyatları, əlverişli coğrafi mövqeyi iqtisadiyyatı dirçəltmək və onu inkişaf yoluna çıxarmaq üçün kifayət deyildir. Buna görə də təbii ehtiyatlardan və əmək ehtiyatlarından tam və səmərəli istifadə, iqtisadiyyatın strukturunun yenidən qurulması və sosial-iqtisadi idarəetmənin təkmilləşdirilməsi, dünya birliyinə ahəngdar inteqrasiya əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsi müstəqil Azərbaycan Respublikaiqtisadi inkişafının başlıca istiqaməti kimi müəyyən olunmuşdu. Bu konseptual vəzifələri yerinə yetirməyin əsas vasitələri isə iqtisadiyyatın sərbəstləşdirilməsi, dövlət mülkiyyətinin özəlləşdirilməsi, iqtisadi tarazlığın bazar mexanizmlərinin inkişaf etdirilməsi, kiçik və orta biznesə önəm verilməsi, sahibkarlığın bütün formaları üçün əlverişli şərait yaradılması idi [301, 270].

Ümummilli lider vurğulayırdı ki, Azərbaycan Respublikası dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat və sahibkarlıq yoludur. Biz demokratik dövlət qururuq, iqtisadi islahatlar həyata keçirməklə bazar iqtisadiyyatının inkişafına şərait yaradırıq, ancaq bu, uzun müddət totalitar rejim şəraitində qalmış ölkəmiz üçün asan iş deyildir.

Lakin çətinliklər və maneələr təkcə bundan ibarət deyildi. Ölkədə ictimai-siyasi sabitliyi bərpa etmək, kəskin geosiyasi ziddiyyətlər şəraitində dövlətçiliyi qoruyub saxlamaq, dinc quruculuq üçün əlverişli imkan yaratmaq lazım idi. Bu baxımdan 1994-cü ilin mayında Ermənistan–Azərbaycan müharibəsində atəşkəsin əldə olunması xüsusi vurğulanmalıdır. Heydər Əliyev münaqişədə real vəziyyəti, güclü ordunun yaradılmasının mühüm şərti olan iqtisadiyyatın dirçəldilməsi və ümumən ölkənin gələcək inkişafı üçün müharibənin dayandırılmasının vacibliyini çox yaxşı bilirdi. Ölkəmizin sonrakı inkişafı Ulu öndərin bu qərarının düzgünlüyünü sübut etdi.

Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul edilmiş Konstitusiyası ölkəmizdə yeni iqtisadi sistemə keçidin hüququ əsası oldu.

Azərbaycan Respublikasının iqtisadi inkişaf konsepsiyasının təməlini təşkil edən, «Əsrin müqaviləsi»nin imzalanması ilə həyata keçirilməyə başlayan yeni neft strategiyası ölkəmizdə yeni iqtisadi sis-

temə keçidin lokomotivi oldu. 1997-ci ildə neft sənayesində azalma sürəti 0,3 faizə endi, 1998-ci ildə hasilat tam sabitləşdi və sonrakı illərdə isə artmağa başladı. Yeni neft strategiyası ölkənin valyuta ehtiyatlarını 1994-cü ildəki 10 milyon dollardan 2003-cü ildə 1,4 milyard dollara çatdırmağa, 800 milyon dollar vəsaiti olan Dövlət Neft Fondunu yaratmağa imkan verdi. Azərbaycan Respublikasının bir çox beynəlxalq iqtisadi və maliyyə qurumlarına daxil olmasına, kənd təsərrüfatının səmərəliliyinin yüksəldilməsi, kiçik və orta biznesin inkişafı, geriləmənin azaldılması, inflyasiyanın aşağı salınması və Azərbaycan Respublikası dövlətinin beynəlxalq iqtisadi münasibətlərdə bərabərhüquqlu tərəfdaş imicinin yaxşılaşdırılması da daxil olmaqla, milli iqtisadiyyatın təkmilləşdirilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsinə təminat yaratdı [301, 275].

Prezident Heydər Əliyev «Əsrin müqaviləsi»nin beş illiyinə həsr olunmuş mərasimdə demişdir. «Biz ölkəmizi iqtisadi cəhətdən inkişaf edən ölkə etmək istəyirik. Biz ölkəmizin vətəndaşlarına firavan həyat yaratmaq istəyirik. Biz müstəqil dövlət kimi daim yaşamaq istəyirik. Bütün bu işlər – təkcə neft sahəsində deyil, Azərbaycan iqtisadiyyatının, həyatının bütün başqa sahələrində də gördüyümüz işlər məhz bu məqsədi daşıyır [29, 414].

İqtisadçı mütəxəssislər Azərbaycan Respublikasında bazar iqtisadiyyatının inkişafını müxtəlif mərhələlərə bölürlər. Bir qrup bunun iki dövrü (1991–1995-ci illəri, 1996-cı ili və sonrakı illəri) əhatə etdiyini [552; 507] bildirir, digərləri isə bu prosesi üç dövrə (1991–1993-cü illər, 1993–1995-ci illər, 1996-cı il və sonrakı illər) bölürlər [572].

Akademik Ramiz Mehdiyev XX əsrin son qərinəsində Azərbaycan Respublikasında modernləşmə proseslərindən bəhs edərkən dörd mərhələni vurğulayır: 1970-ci illər – 1980-ci illərin əvvəli; 1980-ci illərin ikinci yarısı – 1990-cı il; 1991–1993-cü ilin birinci yarısı; 1993-cü ilin ikinci yarısından sonrakı dövr. O, dövlət müstəqilliyinin bərpası ilə başlayan üçüncü mərhələni həyat fəaliyyətinin sovet dövründəki modernlərinin böhranı kimi səciyyələndirir. Dördüncü mərhələyə gəldikdə isə bildirir ki, onun mahiyyəti Azərbaycan Respublikasının tənzimlənən bazar iqtisadiyyatına keçməsində və demokratik islahatların aparılmasında idi ki, bu da beynəlxalq aləmdə ölkənin dünya siyasətinin subyekti kimi tanınması ilə nəticələndi [301, 77, 85].

Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdə ölkədəki ictimai-siyasi və iqtisadi vəziyyət islahatlara dərhal başlamağa imkan vermirdi. Sabitlik bərqərar olunduqdan, Qarabağ müharibəsində hərbi əməliyyatlar dayandırıldıqdan sonra vəziyyət tədricən dəyişməyə başladı. 1994-cü ildə 1600 faiz təşkil edən inflyasiya bir il sonra 84 faizə düşdü. Sənaye istehsalında ilk artım nəzərə çarpırdı. 1995-ci ildə xarici ticarət 40 faiz artmışdı.

Lakin bütövlükdə 1991–1995-ci illərdə ümumi daxili məhsul 58 faiz, sənaye istehsalı 67 faiz, kənd təsərrüfatı istehsalı 48 faiz, kapital qoyuluşunun həcmi 43 faiz azalmışdı [301, 271-272].

1996-cı ildə ölkə iqtisadiyyatında sabitlik təmin edildi, sonrakı ildə isə artıq sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başladı. 1996-cı ildə əhalinin əməkhaqqı 50 faiz, pensiya, müavinətlər və büdcə təşkilatlarında əməkhaqqı 70 faiz artmışdı.

Heydər Əliyev tərəfindən işlənib hazırlanan yeni proqramın əsas amillərindən biri Azərbaycan Respublikasının Cənubi Qafqazda iqtisadi cəhətdən lider bir dövlətə çevrilməsini, qloballaşma şəraitində ölkənin dünya iqtisadi sistemində layiqli yer tutmasını təmin etməkdən ibarət idi. Bu isə fəal xarici siyasət aparılmadan mümkün deyildi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin ilk iki ilini, əslində, tam beynəlxalq təcrid şəraitində yaşamışdı ki, bu da bütün xarici siyasət fəaliyyətində durğunluğa gətirib çıxarmışdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan Respublikası xarici siyasət strategiyası kökündən dəyişməyə başladı. Prezident Heydər Əliyevin xarici siyasət xətti istər qonşu dövlətlərlə, istərsə də beynəlxalq münasibətlərin subyekti olan, əslində, bütün ölkələrlə münasibətlərin inkişafına və möhkəmləndirilməsinə yönəldilmişdi. Eyni zamanda Azərbaycan Respublikasının regional siyasi, hərbi-siyasi və iqtisadi strukturlarda iştirakına da böyük əhəmiyyət verilirdi [301, 227-228].

Prezident Heydər Əliyevin Fransa, Türkiyə Cümhuriyyəti, ABŞ, İngiltərə, Rusiya, Almaniya, İran, Çin, Yaponiya və digər ölkələrə rəsmi səfərləri Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində həlledici rol oynamışdır. Həmin səfərlərin gedişində dövlət və hökumət başçıları ilə aparılan danışıqların, işgüzar dairələrin nümayəndələri ilə keçirilən görüşlərin Azərbaycan Respublikasının

dünyaya tanıdılması, ölkəmizdə investiya imkanları haqqında geniş məlumatın verilməsi və respublika iqtisadiyyatının gələcək inkişafı üçün çox ehtiyac duyulan xarici sərmayələrin cəlb edilməsi baxımından xüsusi əhəmiyyəti olmuşdur.

İqtisadi islahatların həyata keçirilməsində beynəlxalq qurumlarla əməkdaşlığa da böyük əhəmiyyət verilirdi. Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya Bankı, Avropa İttifaqı, İslam Konfransı təşkilatı və s. ilə sıx işgüzar və tərəfdaşlıq münasibətləri yaradılmışdı. Məsələn, İslam Konfransı Təşkilatı sosial-iqtisadi layihələrin texniki-iqtisadi əsaslandırılmasını hazırlamaq üçün Azərbaycana təməmnasız olaraq 1,424 milyon dollar ayırmışdı. Bundan əlavə, İKT qaçqınlar və məcburi köçkünlər üçün 500 min dollar və yeni iş yerlərinin yaradılmasına 1 milyon dollar vəsait vermişdi [301, 244].

Avropa Yenidənqurma və İnkişaf Bankı isə Azərbaycanda dəmir yolunun infrastrukturunun təkmilləşdirilməsi üçün 20,2 milyon dollar güzəştli kredit ayırmışdı [260, 308].

Avropa İttifaqı ilə əməkdaşlıq iqtisadi inteqrasiya proseslərinin gücləndirilməsinə və yeni müstəqil dövlətlərin iqtisadi məkanlarının təkmilləşdirilməsinə yönəldilmiş layihələrin gerçəkləşdirilməsi formatında həyata keçirilirdi.

Bu baxımdan, TRASEKA proqramının Azərbaycan Respublikası üçün əhəmiyyəti xüsusi vurğulanmalıdır. 1993-cü ildə Avropa Birliyinin təşəbbüsü ilə bu proqram qəbul olunduqda Avropa–Asiya nəqliyyat dəhlizi üstündəki ölkələrdən biri kimi Azərbaycana da müəyyən maliyyə ayrılmışdı. Lakin sonrakı illərdə Prezident Heydər Əliyevin səyləri sayəsində Azərbaycan Respublikasının proqramda daha fəal iştirakı təmin olundu. Ümummilli lider digər dövlətlərlə iqtisadi əməkdaşlıqda ölkəmizin əlverişli coğrafi mövqeyinin üstünlüklərindən danışarkən deyirdi: «Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşir... Coğrafi mövqeyinə görə Azərbaycanın əhəmiyyəti böyükdür. Hesab edirəm ki, onun coğrafi mövqeyi təkcə bizim özümüzdən ötrü deyil, həm də dünya birliyi üçün əhəmiyyətlidir».

TRASEKA proqramının tam mənada reallaşdırılmasında Heydər Əliyevin çox böyük rolu var. Məhz onun sayəsində Azərbaycan Respublikası tarixi Böyük İpək yolunun bərpası prosesində

təşəbbüsü ilə aldı. 1998-ci il sentyabrın 7-8-də Bakıda 32 dövlətin və 13 beynəlxalq təşkilatın iştirakı ilə İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçirildi. Çoxtərəfli sazişin imzalanması ilə başa çatan konfransda TRASEKA proqramı Daimi katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul edildi. 1998-ci il sentyabrın 26-da Prezident Heydər Əliyev «Böyük İpək yolunun bərpası üzrə beynəlxalq Bakı konfransının qərarlarının həyata keçirilməsinə dair tədbirlər haqqında» fərman imzaladı. 2001-ci il fevralın 21-də Bakıda Daimi katibliyin ofisi açıldı. Beləliklə, Azərbaycan Respublikası Böyük İpək yolu üstündə yerləşən ölkələr üçün mühüm tranzit yolu oldu.

TRASEKA proqramı Azərbaycan Respublikasının dəniz, dəmir yolu nəqliyyatının, avtomobil yollarının modernləşdirilməsi ilə yanaşı, yükdaşımalardan birbaşa mənfəət götürülməsi baxımından da faydalıdır. Məsələn, dəmir yolu ilə daşınan beynəlxalq yüklərin hər tonuna görə Azərbaycan Respublikasının büdcəsinə 15 dollar vəsait daxil olur. Yükdaşımalar isə ilbəil artırdı. 1996-cı ildə dəmir yolu ilə Azərbaycan Resublikası ərazisinin keçməklə 650 min ton, 1997-ci ildə 2 milyon ton, 1999-cu ildə 3,5 milyon ton, 2000-ci ildə 5,2 milyon ton yük daşınmışdı [260, 308–309].

Prezident Heydər Əliyev bu cür nəqliyyat kommunikasiyalarına sırf iqtisadi layihə kimi yox, daha geniş mənada baxırdı: «Dövlətlərarası, ölkələrarası nə qədər belə kommunikasiyalar yaransa və bu, Avropa ilə Mərkəzi Asiyanı birləşdirən kommunikasiyalar olsa, həm Qafqazda, həm də Mərkəzi Asiyada sülhün yaranmasına, təhlükəsizliyin təmin olunmasına o qədər təminat yaradacaqdır. Bizim üçün isə bu, hər şeydən əhəmiyyətlidir, hər şeydən önəmlidir».

Azərbaycan dövlətinin iqtisadi siyasətində xarici ticarət münasibətlərinin sərbəstləşdirilməsi ilə bağlı tədbirlər də görülürdü. Bunun da nəticəsində ixrac edilən mallara norma, lisenziyalaşdırma tətbiq olunmurdu. Gömrük rüsumlarının maksimum səviyyəsi isə 15 faizdən çox deyildi. 1997-ci ildə Azərbaycan 84 ölkə ilə ticarət edirdisə, 2000-ci ildə xarici ticarət tərəfdaşlarının sayı 120-dən çox idi. 1995–2003-cü illərdə ixrac 4,1 dəfə, idxal isə 3,9 dəfə artmışdı. Bu müddətdə ölkənin xarici ticarət dövriyyəsi 4 dəfə artaraq, 1,3 milyard dollardan 5,2 milyard dollara çatmışdı [301, 273].

Yeni iqtisadi sistemə keçid ölkənin maliyyə-bank sistemində də köklü islahatlar aparılmasını tələb edirdi. Azərbaycan hökuməti bu sahəyə də böyük diqqət yetirir və müvafiq tədbirlər görürdü. Ölkə iqtisadiyyatı üçün mühüm olan bu sahədə ikisəviyyəli bank sistemi (Milli Bank və kommersiya bankları) yaradılmışdı. Dövlət kommersiya banklarının sağlamlaşdırılması və yenidən strukturlaşdırılması sahəsində də tədbirlər həyata keçirilirdi.

2000-ci ilin yanvarında respublikada 71 bank fəaliyyət göstərirdi. Onlardan ikisi dövlət bankı idi, 14-ü xarici kapitalın iştirakı ilə, 3-ü isə bütünlüklə xarici kapital əsasında yaradılmışdı. Respublika banklarının nizamnamə kapitalı 693 milyard 235 milyon manat təşkil edirdi. Əmanətlərin ümumi məbləği isə 259,4 milyard manat idi.

Büdcə vəsaitlərindən səmərəli istifadə edilməsi məqsədi ilə respublikada xəzinədarlıq sistemi yaradılmışdı. Fiskal sistemdə islahatın əsas prinsipləri vergi dərəcələrinin ardıcıl olaraq azaldılması, verginin ağırlığının istehsalçıdan istehlakçının üzərinə keçirilməsi, sərmayəçilik fəaliyyətinin həvəsləndirilməsi idi. 2001-ci ildən qüvvəyə minmiş Vergi Məcəlləsinin əsasını da bu prinsiplər təşkil edirdi. Ölkədə çoxsəviyyəli valyuta məzənnəsi ləğv olunmuş, bazar iqtisadiyyatının prinsiplərinə əsaslanan vahid valyuta məzənnəsi formalaşdırılmışdı. Manatın xarici valyutalara və əksinə, dönərliliyinə qoyulan məhdudiyyətlər tamamilə aradan qaldırılmışdı.

İqtisadi inkişafın ən mühüm və mürəkkəb problemlərindən biri dövlət büdcəsinin formalaşdırılması və icrası idi. Büdcə gəlirlərinin getdikcə artması, büdcə kəsirinin isə ilbəil azalması iqtisadiyyatda və sosial sahədə yeni mərhələyə keçilməsində tərəqqi olduğunu göstərirdi. 1996–2003-cü illərdə işləyən vətəndaşların orta aylıq əməkhaqqı 6,2 dəfə, pensiyaların orta aylıq məbləği 5,3 dəfə artmışdı [301, 272].

Azərbaycan Respublikası dövlətinin yeni iqtisadi siyasətinin əsas istiqamətlərindən birini sərmayə qoyuluşu təşkil edirdi. Bu baxımdan, Prezident Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında ölkədə əlverişli sərmayə mühitinin yaradılmasına, sərmayə qoyuluşunun səmərəli təşviqinə böyük əhəmiyyət verilirdi. Bu, Azərbaycan Respublikasına xarici sərmayələrin cəlb olunması üçün xüsusilə vacib idi. Prezident Heydər Əliyevin 1995-ci ilin noyabrında Böyük Britaniyaya

səfəri zamanı Londonda «Azərbaycanda sərmayə imkanları» mövzusunda beynəlxalq konfransda çıxışı Avropa ölkələrinin biznes dairələrində ölkəmizlə əməkdaşlıq əlaqələrinin qurulması baxımından böyük maraq doğurmuşdu.

Azərbaycan Respublikasında sərmayə siyasətində möhkəm hüquqi bazanın yaradılması sahəsində mühüm tədbirlər görülürdü. «İnvestisiya fəaliyyəti haqqında», «Banklar və bank fəaliyyəti haqqında», «Gömrük siyasəti haqqında», «Yerli hüquqi şəxslərin iştirakı ilə birgə müəssisələrin və onların filiallarının qeydiyyata alınması qaydalarının sadələşdirilməsi haqqında» və digər aktların qəbul olunması müsbət nəticələrini verirdi.

Xarici sərmayədarların Azərbaycan Respublikası iqtisadiyyatında iştirakı istehsalatları müasir texnologiyalarla təchiz etmək və xarici bazarda məhsulların rəqabətə davamlılığını təmin etmək üçün real imkanlar yaradırdı. 1995–2003-cü illərdə ölkə iqtisadiyyatına 16 milyard dollardan çox sərmayə qoyulmuşdu. Bunun 12,3 milyard dolları və ya 77 faizi xarici sərmayələr idi. Qalanını isə milli iqtisadiyyatın inkişafı üçün müsbət amil olan daxili sərmayələr təşkil edirdi. Təkcə 2000–2003-cü illərdə Azərbaycan Respublikası iqtisadiyyatına 7,5 milyard dollardan çox xarici sərmayə qoyulmuşdu [301, 269].

Adambaşına düşən sərmayələrin həcminə görə bu, MDB məkanında ən yüksək göstərici idi.

Xarici sərmayələrin əksəriyyəti ölkə iqtisadiyyatının inkişafında xüsusi yeri olan neft sənayesinə və elektrik energetikası sahəsinin yenidən qurulmasına yönəldilirdi.

Azərbaycan Respublikasında metallurgiyanın kompleks inkişafına dair proqramın həyata keçirilməsində görülən işlər çərçivəsində qara metallurgiya müəssisələrinə 920 milyon dollar, əlvan metallurgiya müəssisələrinə 700 milyon dollar sərmayə qoyulmuşdu [538, 2007, 19 dekabr].

Kimya və neft kimyası, maşınqayırma sənayesi müəssisələrinin yenidən qurulması və modernləşdirilməsinə xeyli məbləğdə xarici sərmayə cəlb olunurdu.

Yeni iqtisadi münasibətlərin təşəkkülü iqtisadiyyatın dövlət tərəfindən idarə olunmasında da köklü islahat aparılmasını tələb edirdi. Çünki dövlətin iqtisadi proseslərdə üstün rol oynadığı bir çox ölkədə iqtisadi inkişaf strategiyası iflasa uğramışdır.

Cəmiyyətin inkişafı, ictimai istehsalın strukturunda, onun texniki bazasında irəliləyişlər baş verməsi dövlətin iqtisadi funksiyalarında yeni cəhətlərin meydana gəlməsi ilə nəticələnir. Bazar münasibətləri şəraitində dövlət istehsalın texnologiyasına, əmək və istehsal proseslərinin idarə olunmasına və s. müdaxilə etmir. Dövlətin tənzimləyici rolunun mərkəzi məsələsi sosial-iqtisadi yenidənqurmanın istiqamətlərini, mərhələlərini, üstün cəhətlərini və son məqsədini müəyyənləşdirməkdən, bundan ötrü lazım olan qanunların hazırlanması və həyata keçirilməsindən ibarətdir [480, 2010, 9 may].

İqtisadiyyatın dövlət tərəfindən idarə olunmasında islahatlar çərçivəsində 20-dən çox dövlət konserni ləğv edilmiş, bir sıra nazirlik və komitə təsərrüfat fəaliyyəti funksiyalarından məhrum olunmuşdu və onlar yalnız siyasi tənzimləmə ilə məşğul idi. Yeni iqtisadi sistemin formalaşdırılması üçün 500-dən çox qanun qəbul olunmuş, dövlət başçısı tərəfindən yüzlərlə fərman və sərəncam imzalanmışdı. Bütün bu aktların praktikada həyata keçirilməsi iqtisadi münasibətlərin və mexanizmlərin əhəmiyyətli dərəcədə liberallaşmasına, iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin azalmasına gətirib çıxarmışdı [301, 267, 270].

Yeni iqtisadi sistemə keçid prosesində islahatların dərinləşməsində özəlləşdirmənin həlledici rolu vardı. Dövlət mülkiyyətinin özəlləşdirilməsinə, respublikada kiçik və orta sahibkarlığın inkişafına dair Dövlət proqramlarının, müvafiq qanunların, ölkə Prezidentinin fərman və sərəncamlarının həyata keçirilməsi Azərbaycan Respublikasında bazar iqtisadiyyatı meyarlarının formalaşmasına, qeyri-neft sektorunun inkişafına zəmin yaratdı. Ölkənin ümumi daxili məhsulunda özəl bölmənin payı 1994-cü ildəki 9 faizdən 2003-cü ildə 73,3 faizə çatmışdı.

Torpaq islahatının aparılması tezliklə müsbət nəticələrini vermişdi və 1996-cı ildən etibarən əsas kənd təsərrüfatı məhsullarının istehsalında dinamik inkişaf müşahidə edilirdi. 2003-cü ilin əvvəllərində aqrar islahatın birinci mərhələsi ümumən başa çatmış, əhaliyə 1 milyon 350 min hektardan artıq torpaq verilmişdi [301, 269].

Yeni iqtisadi sistemə keçidlə bağlı Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər ölkənin sosial-iqtisadi inkişafı

yolunda öz bəhrələrini verirdi. 1996-cı ildə ümumi daxili məhsul istehsalında ilk dəfə artım (1,3 faiz) qeydə alınmış, 1997-ci ildə artım 5,8 faiz, 1999-cu ildə 7,4 faiz, 2000-ci ildə 11,1 faiz, 2001-ci ildə 9,9 faiz, 2002-ci ildə 19,6 faiz, 2003-cü ildə isə 11,2 faiz olmuşdu [577, 175]. Bütövlükdə 1996–2003-cü illərdə ÜDM 89 faiz artmışdı.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan Respublikasına rəhbərliyi dövründə ölkəmizin sosial-iqtisadi inkişafının strateji xəttini, onun həyata keçirilməsinin istiqamətlərini müəyyənləşdirmişdir. Bu illər ərzində Azərbaycanda siyasi sabitlik və davamlı iqtisadi inkişaf təmin olunmuşdur. Bu strategiyanın uğurla reallaşdırılmasının davam etdirilməsi nəticəsində milli iqtisadiyyatın formalaşması prosesi – keçid dövrü başa çatmış və ölkəmiz iqtisadi tərəqqinin yeni mərhələsinə qədəm qoymuşdur. Azərbaycan Respublikası iqtisadi gücünə və potensialına görə regionun şəksiz lider dövlətinə çevrilmişdir.

2.2. Dövlət əmlakının özəlləşdirilməsi və sahibkarlığın inkişafı

Dövlət müstəqilliyi bərpa edildikdən sonra bazar tənzimlənməsi mexanizminə, çoxukladlı iqtisadiyyata və müxtəlif mülkiyyət formalarına əsaslanan iqtisadi sistemin qurulması Azərbaycan Respublikasının iqtisadi siyasətinin başlıca istiqaməti oldu. Lakin Ermənistanın hərbi təcavüzü, daxili siyasi böhran üzündən Azərbaycan Respublikasında iqtisadi islahatlar keçmiş SSRİ respublikalarından xeyli gec başladı [301, 267].

Azərbaycan Respublikasında dövlət əmlakının və mülkiyyətin özəlləşdirilməsi prosesi öz başlanğıcını 1992-ci ildən götürür. Həmin ildə Dövlət Əmlak Komitəsi yaradıldı, ona dövlət mülkiyyətinin özəlləşdirilməsinin təşkili tapşırıldı. Bu dövrdə ölkədə özəlləşdirməni ləngidən bir çox səbəblər vardı.

1993-cü il yanvarın 7-də Milli Məclis «Azərbaycan Respublikasının dövlət əmlakının özəlləşdirilməsi haqqında» qanun qəbul etdi. Lakin bu, özəlləşdirmə üçün yalnız hüquqi baza yaradırdı, prosesin inkişafına dair dəqiq düşünülmüş plan yox idi.

1993-cü ilin fevralında Milli Məclis «Dövlət avtonəqliyyat vasitələrinin özəlləşdirilməsi haqqında» qərar qəbul etdi. Bu qərarın həyata keçirilməsi Dövlət Əmlak Komitəsinə həvalə olunmuşdu.

Respublikada özəlləşdirmənin real şəkildə həyata keçirilməsinə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra başlandı. Təcrübəli dövlət xadimi yaxşı bilirdi ki, iqtisadi islahatlar Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyasına əlverişli şəraiti yaradacaqdır. Bunun üçün isə, ilk növbədə Azərbaycan Respublikasında azad bazar iqtisadiyyatının inkişafını təmin edən normativ-hüquqi baza yaradılmalı idi. Təkcə 1997-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən özəlləşdirmə prosesinin tez bir zamanda reallaşdırılması üçün 30-dan artıq fərman imzalanmışdı. Heydər Əliyev deyirdi ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik. Bu yolun daha da intensiv olması üçün özəlləşdirmə proqramının, torpaq islahatının və başqa iqtisadi islahatların həyata keçirilməsi lazımdır.

1993-cü ilin sonunda Bakı şəhərində qeydiyyatda olan vətəndaşlara yaşadıqları mənzillərin özəlləşdirilməsinə icazə verən qanun qəbul edildi və nəticədə 1994-cü ildə şəhərdə 64000 ev və mənzil özəlləşdirilmişdi ki, bu da mövcud olan yaşayış sahələrinin 30% faizini təşkil edirdi. Ölkədə ictimai-siyasi sabitliyin bərpa edilməsi özəlləşdirmənin həyata keçirilməsi üçün əlverişli zəmin yaradırdı.

1995-ci ildə Azərbaycan Respublikasında 10 mindən çox kiçik müəssisə, 80 minədək özəl kommersiya strukturu, 10-dan artıq bank, 3,5 min kooperativ və xarici investorların iştirak etdiyi 765 birgə müəssisə fəaliyyət göstərirdi. Lakin özəlləşdirmə sahəsindəki ilk işlər gözlənilən nəticələri vermirdi.

1995-ci ilin əvvəlindən ölkədə demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatına keçid xətti müəyyənləşdirilmiş və onun ardıcıl şəkildə reallaşdırılmasına başlanmışdır. Burada strateji istiqamət yeni iqtisadi sistemə transformasiyanı sürətləndirməklə ölkənin təbii ehtiyatlarından və mövcud iqtisadi potensialından istifadənin səmərəsini artırmaq olmuşdur. Bunun üçün iqtisadiyyatın liberallaşdırılması ilə yanaşı, keçid dövründə əhalinin sosial müdafiəsinin təmin edilməsi ən ümdə vəzifələr hesab olunurdu. Bu məqsədlə həyata keçirilən xəttin əsasını aşağıdakı prinsiplər təşkil etmişdir:

– müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin yaradılması;

– azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi;

– iqtisadiyyatın sağlam rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi;

– iqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması və haqsız rəqabətə yol verilməməsi;

– əhalinin rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin olunması.

Prezident Heydər Əliyev 1995-ci ildə özəlləşdirmə məsələlərinə həsr olunmuş müşavirədə bu sahədəki ləngitmələrin dərin təhlilini vermiş, özəlləşdirmənin Azərbaycan Respublikasının həm iqtisadi, həm də siyasi inkişafı üçün əhəmiyyətini vurğulamışdı. Dövlət başçısı çıxışında demişdi ki: «Mən özəlləşdirmənin, iqtisadi islahatların tərəfdarı olmuşam, nəinki tərəfdarı olmuşam, hətta həddindən ziyadə zəruri olduğunu bildirmişəm. Onların Azərbaycan Respublikasında həyata keçirilməsi lazımdır. **Azərbaycan Respublikasının iqtisadi siyasəti, iqtisadi islahatların ardıcıl şəkildə aparılmasına əsaslanır.** Bu islahatların əsas istiqamətlərini isə dövlət mülkiyyətinin özəlləşdirilməsi, istehsalın səmərəliliyinin artırılması və iqtisadiyyatın dirçəldilməsinin sürətləndirilməsi təşkil edir.»

1995-ci il martın 8-də «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi sahəsində təsirli tədbirlər haqqında» Prezident Fərmanı imzalandı. Bu sənəd ölkədə özəlləşdirmənin həyata keçirilməsinə dair kompleks proqramın işlənib hazırlanmasını nəzərdə tuturdu.

Prezident Heydər Əliyev 1995-ci il martın 15-də radio və televiziya ilə çıxışında özəlləşdirmə məsələlərinə toxunarkən, öz müraciətində özəlləşdirmənin, bütün vətəndaşların mülkiyyət hüquqlarının tam qorunması şərtini qeyd edərək, bütün bunların ölkənin iqtisadi inkişafının təmin edilməsini və onun dünya iqtisadiyyatına inteqrasiya olunmasını tövsiyə etdi.

1995-ci il iyunun 30-da özəlləşdirmə proqramının layihəsi Milli Məclisdə müzakirə olundu. Layihəni yüksək qiymətləndirən Dünya Bankı Azərbaycan Respublikasına 6 milyon dollar məbləğində reabilitasiya krediti üçün vəsait ayırdı.

1995-ci il sentyabrın 29-da «Azərbaycan Respublikasında 1995–1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» qəbul edildi ki, bu da sonradan qanun şəkli alaraq, özəlləşdirmənin həyata keçirilməsində əsas rol oynadı. Yeni proqrama əsasən, özəlləşdiriləcək dövlət müəssisələri kiçik, orta və iri müəssisələr kimi müəyyən olunurdu. Özəlləşdirilən bütün orta və iri müəssisələr əvvəlcə səhmdar cəmiyyətlərinə çevrilməli, sonradan isə özəlləşdirilməli idi. Proqramda dövlət müəssisələrinin özəlləşdirmə qaydaları da nəzərdə tutulmuşdu. Proqramla bağlı bütün vəzifələrin həyata keçirilməsi Dövlət Əmlak Komitəsinə həvalə edilmişdi. Özəlləşdirmə proqramında əhalinin, xüsusilə də şəhid ailələrinin və qaçqın–köçkünlərin sosial müdafiəsi mühüm yer tuturdu.

1995-ci ilin noyabrında qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkədə yeni iqtisadi sistemə keçidin hüquqi əsası oldu. Əsas Qanunda ölkədə mülkiyyətin üç əsas növü – dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti təsbit edildi. Konstitusiyanın 15-ci maddəsinə görə, ölkədə iqtisadiyyatın inkişafı həmin mülkiyyət formalarına əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Dövlət bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir.

Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında qəbul edilmiş qanunda, dövlət mülkiyyətinin 70 faizinin özəlləşdirilməyə çıxarılması nəzərdə tutulmuşdu. Proqrama əsasən, Azərbaycan Respublikasının bütün vətəndaşları dövlət mülkiyyətinin bərabər paylar əsasında özəlləşdirilməsi prosesində iştirak etmək hüququ qazandılar.

Ölkədə aparılan iqtisadi islahatların müsbət cəhətlərindən biri də özəlləşdirmə prosesində iştirak edən xarici sərmayədarlar üçün əlverişli şərait yaradılması idi. 1997-ci ildə Prezident Heydər Əliyevin fərmanları ilə ölkədə 20 nazirlik, dövlət konserni, şirkət ləğv edildi, onların müəssisələri özəlləşdirmə üçün Dövlət Əmlak Komitəsinin sərəncamına verildi.

Yeni iqtisadi münasibətlərin təşəkkülü iqtisadiyyatın dövlət tərəfindən idarə olunmasında köklü dəyişikliklər edilməsini nəzərdə tuturdu. 1997-ci ilin iyununda respublikada özəlləşdirmə prosesində

iştirak edənlərin 70 min nəfəri mülkiyyət sahibi olmuşdu. Kütləvi özəlləşdirmə nəticəsində ölkə əhalisinin 50 min nəfəri səhmlərin sahibinə çevrilmişdi.

1996-cı il martın 22-də Prezident «Azərbaycan Respublikasında dövlət özəlləşdirmə paylarının (çeklərinin) dövriyyəyə buraxılması haqqında» Fərman imzaladı. Özəlləşdirmə proqramına uyğun olaraq, 1997-ci il avqustun 1-dən oktyabrın 1-dək ölkə əhalisinə 32 milyon çek verilmişdi ki, bu da 8 milyon pay təşkil edirdi (1 pay 4 çekə bərabər idi). 1997-ci il yanvarın 1-nə qeydə alınmış hər bir ölkə vətəndaşı 1 dövlət özəlləşdirmə payı almışdı və bundan istədiyi kimi istifadə edə bilərdi.

1997-ci il mayın 18-də respublikada Auksion Mərkəzi fəaliyyətə başladı. Özəlləşdirilmiş müəssisələr və obyektlər burada satışa çıxarılırdı. Paytaxtdan əlavə, Naxçıvan, Sumqayıt, Gəncə, Lənkəran, Şirvan şəhərlərində də auksion mərkəzləri yaradılmışdı.

1998-ci ilin sonunda Dövlət Əmlak Komitəsi respublikada 1600 orta və iri dövlət müəssissəinin bazasında səhmdar cəmiyyətlərinin yaradılması haqqında qərar qəbul etdi. Səhmdar cəmiyyətləri 1998-ci ilin iyunundan fəal işləyirdi. Onların fəaliyyətində həm yerli, həm də xarici sərmayəçilər iştirak edirdilər. Özəlləşdirmə çeklərinin 95 faizi xaricilər tərəfindən alınmışdı. İlk auksionlar nəticəsində ölkədə 18000 kiçik dövlət müəssisəsi (məişət xidməti, ticarət obyektləri, yanacaqdoldurma stansiyaları və sair) özəlləşdirilmişdi.

1996–1999-cu illərdə ölkədə 28, 4 min müəssisə və obyekt özəlləşdirilmiş və 110-dan artıq dövlət müəssisəsi açıqtipli səhmdar cəmiyyətinə çevrilmişdi. 1999-cu il yanvarın 1-nə olan məlumata görə, orta və iri müəssisələr əsasında 967 səhmdar cəmiyyəti yaradılmış, onların sayı xeyli artmışdır. Kiçik müəssisələrin özəlləşdirilməsindən dövlət xəzinəsinə 40 milyon dollar daxil olmuş, 100 mindən artıq respublika vətəndaşı isə mülkiyyətçiyə çevrilmişdi.

Özəlləşdirilmə proqramının birinci mərhələsinin həyata keçirilməsi müəyyən müsbət nəticələr verdi. 1997-ci ilin əvvəlinə sənaye məhsulunun istehsalı 0,4% artdı. Lakin Dövlət Əmlak Komitəsinin dəqiq düşünülmüş proqramının olmaması və bir çox çətinliklər bu prosesə mənfi təsir göstərirdi. Buna görə də Prezident Heydər Əliyev müvafiq dövlət orqanlarından proqramın lazımınca reallaşdırılmasını

tələb edirdi. Çünki bu, Azərbaycan Respublikasında iqtisadi islahatların keçirilməsi üçün son dərəcə vacib idi.

1998-ci ilin sentyabrında «İnvestisiya müsabiqələri haqqında» Əsasnamə təsdiq edildikdən sonra ölkədə orta və iri müəssisələrin özəlləşdirilməsinin yeni mərhələsi başlandı.

1998-ci ildə Əmlak Komitəsi «1999–2000-ci illərdə Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında Dövlət Proqramı» layihəsinin hazırlanmasına başladı (1999-cu ilin dekabrında Komitə ləğv olundu və Dövlət Əmlakı Nazirliyi yaradıldı. Bu, ikinci özəlləşdirmə proqramı idi və Azərbaycan Respublikasının iqtisadiyyatına sərmayə qoyuluşu üçün maksimum əlverişli şəraitin yaradılmasına yönəldilmişdi. Bu prosesə hüquqi əsas vermək üçün 2000-ci il mayın 16-da Azərbaycan Milli Məclisi «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» qanun qəbul etdi.

Yeni özəlləşdirmə modelinin əsasında iki ümdə prinsip dayanırdı: satışların sərmayə yönümü və sərmayəçinin müəssisə səhmlərinə nəzarət paketini ala bilmək imkanının təmin olunması [301, 268].

Beləliklə, Azərbaycan Respublikasında özəlləşdirmənin ikinci mərhələsi 1996-cı ildə deyil, 2000-ci ildə başladı. Bu, əvvəlki proqramın məntiqi davamı olmaqla yanaşı, özəlləşdirmə prosesində yeni mərhələ idi və ölkə iqtisadiyyatının strateji əhəmiyyətli sahələrinin özəlləşdirilməsini nəzərdə tuturdu. İkinci özəlləşdirmə proqramının reallaşdırılması müxtəlif sənaye sahələrində bir sıra iri müəssisələrin yeni şəraitdə işləməsinə imkan yaratdı. Məsələn, «Azərikimya» şirkətinə daxil olan 23 müəssisədən 17-si özəlləşdirmə məqsədilə səhmdar cəmiyyətlərinə çevrilmişdi. Yaponiya şirkətləri Azərbaycan Respublikasının kimya və neft kimyası sənayesi müəssisələrini yenidən qurur və modernləşdirirdi. Böyük Britaniya şirkətləri tərəfindən özəlləşdirilən Sumqayıt boru-prokat zavodunda Avropada ən böyük – 150 tonluq marten sobası istifadəyə verildi. Sumqayıt aşqarlar zavodu özəlləşdirilmədən sonra açıq səhmdar cəmiyyətinə çevrildi və burada KU-2 qurğuşunun yenidən qurulması həyata keçirildi. Beynəlxalq «Saybol» laboratoriyası ilə əməkdaşlıq nəticəsində buraxılan məhsulun keyfiyyəti yüksəldi. 2004-cü ildə bu müəssisə MDB-də ən yaxşı keyfiyyətə görə priz almışdı.

2001-ci ildə maşınqayırma sənayesində açıqtipli səhmdar cəmiyyəti yaradıldı, 35 müəssisə özəlləşdirilməyə çıxarıldı. Respublika

Nazirlər Kabineti 2001-ci ildə «2002–2005-ci illər üçün maşınqayırmanın inkişafı proqramı»nı təsdiq etdi. Bu sahədə yeni layihələrin həyata keçirilməsinə və kadrların hazırlanmasına Yaponiyanın Əmək Resursları Fondu kömək edirdi.

«Çinar» Açıq Səhmdar Cəmiyyəti, Sumqayıt kompressor zavodu və Bakı kondisioner zavodu müasir tələblərə cavab verən, rəqabətə davamlı məhsullar istehsal etməyə başladı. 2000-ci ilin aprelində Prezident Heydər Əliyevin Fərmanı ilə metallurgiya sahəsində «Azərbaycan alüminiumu» holdinqi yaradıldı. Bu da bu sahəyə aid müəssisələrin işində çox mühüm rol oynadı. Bu sahəyə bağlı müəssisələr 25 il müddətinə Hollandiyanın Fondelmetal» şirkətinə idarəetməyə verildi. Bu şirkət müəssisələrdə bir sıra ekoloji və sosial proqramların həyata keçirilməsinə təxminən 100 milyon dollar sərmayə qoydu. Nəticədə, ölkənin metallurgiya sahəsində istehsalın həcmi 2 dəfə artdı və 2002-ci ildə 225 milyard manat təşkil etdi, 7 mindən çox iş yeri yaradıldı. Sumqayıt alüminium zavodu Böyük Britaniyanın «Marqol İnveqtmerq» şirkəti tərəfindən özəlləşdirildi Fransanın və digər Avropa dövlətlərinin şirkətləri yüngül və yeyinti sənayesi müəssisələrinin özəlləşdirilməsində böyük kömək göstərdi. Beləliklə, ölkədə 2000-ci ilə qədər ilkin dəyəri 396,5 milyard manat (98 milyon dollar) olan 6640 özəlləşdirilmiş müəssisə və obyektin 499-u sənaye sahəsinə aid idi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il 30 aprel tarixli fərmanı ilə bir sıra iqtisadi qurumlar ləğv edilərək, onların bazasında İqtisadi İnkişaf Nazirliyi yaradıldı.

Dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı qəbul olunan normativ sənədlər özəlləşdirmə prosesində iştirak edən xarici şirkətlərlə birlikdə çoxsaylı müştərək müəssisələrin təşkilinə və onların inkişafına şərait yaradırdı. Əgər 1997-ci ildə ölkədə 500 birgə müəssisə qeydə alınmışdısa, 2000-ci ilin sonunda onların sayı 1695-ə çatmışdı. Bu müəssisələr iqtisadiyyatın, demək olar, bütün sahələrində yaradılmışdı.

İqtisadi islahatların dərinləşməsində həlledici rol oynayan özəlləşdirməni ləngidən, çətinliklər yaradan amillər də var idi. Məsələn, bəzi hallarda özəlləşdirməyə çıxarılan dövlət müəssisələrinin dəyərinin əsassız olaraq artırılması sərmayəçiləri həvəsdən salır, onlar öz öhdəliklərini yerinə yetirmirdilər. Çek hərraclarına çıxarılmış müəssisələrin bəzilərinin avadanlığı talan olunmuş, satılmışdı. Səhmdar

cəmiyyətlərinə tamamilə kənar şəxslərin rəhbərlik etməsi halları da vardı. Lakin bütün bunlara baxmayaraq, özəlləşdirmə proqramlarının həyata keçirilməsi ölkədə xüsusi mülkiyyət əsasında özünü tənzimləyən iqtisadi məkanın formalaşmasına şərait yaradırdı. 2000-ci ildə Azərbaycan Respublikasının ümumi daxili məhsulunda özəl bölmənin payı 9 faiz idisə, 2003-cü ildə 73,3 faizə, o cümlədən sənayedə 53,4 faizə, ticarətdə 98 faizə yüksəlmişdi.

2003-cü ilin əvvəllərində respublikada qeydiyyatdan keçmiş müəssisələrin 35 faizə qədəri və ya təxminən 4 mini, sənaye sahəsində fəaliyyət göstərən 5200-dən çox müəssisənin 556-sı orta və iri müəssisə idi.

Ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən birini sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi, insanların fəal yaradıcı potensialından istifadə və bunun nəticəsində ölkənin iqtisadi inkişafının təmin olunması təşkil edirdi.

Azərbaycan Respublikasının iqtisadiyyatında qeyri-dövlət sektoru mühüm yer tutur, onun iqtisadi qüdrətinin tərkib hissəsidir və ümumi daxili məhsulun formalaşmasında mühüm rol oynayır. Belə ki, «.... Müstəqil Azərbaycanın iqtisadiyyatda strateji istiqaməti və strateji xətti ondan ibarətdir ki, tədricən mülkiyyət formasını dəyişdirmək, bizim iqtisadiyyatımızı bazar münasibətləri formasında qurmaq, sahibkar üçün geniş imkanlar açmaq».

Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası Heydər Əliyev tərəfindən belə müəyyənləşdirilmişdir. O qeyd edirdi ki: «Bizim əsas vəzifəmiz insanlara azadlıq vermək, sahibkarlıq və təşəbbüskarlıq üçün şərait yaratmaqdır».

Respublikada sahibkarlığın formalaşmasında özəlləşdirmənin birinci mərhələsi mühüm rol oynamışdır. Ölkədə sahibkarlığın inkişafı üçün hüquqi baza yaradıldı. Antiinhisar Siyasəti Sahibkarlığa Kömək Komitəsi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Sahibkarlığa Kömək Milli Fondu, Auditor Palatası və sair qurumalar yaradıldı. Avropa İttifaqı İqtisadi Komissiyasının TASİS proqramı çərçivəsində kiçik və orta biznes şirkətlərinin rəhbərləri və əməkdaşları üçün Avropa mütəxəssislərinin iştirakı ilə seminarlar və kurslar keçirilir, onların Avropa İttifaqı ölkələrinə səfərləri təşkil olunurdu.

Sahibkarlığın inkişafında bank kapitalı mühüm rol oynayırdı. Maliyyə-bank sistemində köklü islahatlar aparılmış, ölkədə ikisəviyyəli bank sistemi (Milli Bank və kommersiya bankları) yaradılmışdı. Kommersiya banklarının sağlamlaşdırılması və yenidən qurulması üçün dövlət tərəfindən əməli tədbirlər görülmüşdü.

«Banklar və bank fəaliyyəti haqqında» qanun qəbul edildi. 1996-cı ildə Azərbaycan Respublikasında 100-dən artıq kommersiya bankı vardısa, 2000-ci ildə 71 bank fəaliyyət göstərirdi. Onlardan 14-ü xarici kapitalın iştirakı ilə yaradılmışdı.

Sahibkarlıq fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyasında öz hüquqi təsbitini tapmışdı. Konstitusiyanın 59-cu maddəsində göstərilir ki, «... Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər». Bu prinsip Azərbaycan Respublikasının Mülki Məcəlləsində və başqa qanunvericilik aktlarında da öz əksini tapmışdır.

1996-cı il iyunun 17-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən «İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması, əsassız yoxlamaların qadağan edilməsi barədə» Fərman imzaladı.

Müəssisələrin qeydiyyata alınmasını sadələşdirmək üçün xüsusi Qeydiyyat Mərkəzi yaradıldı. Lakin görülən tədbirlərə baxmayaraq, sahibkarlıq fəaliyyətini ləngidən amillər hələ də qalmaqda idi. Prezident Heydər Əliyev bunların aradan qaldırılmasına və Dövlət Proqramının həyata keçirilməsinə xüsusi diqqət yetirirdi. Bu məqsədlə sahibkarlığın inkişafına maneələri aradan qaldıran yeni hüquqi sənədlər qəbul edildi. 1999-cu il yanvarın 7-də Prezidentin imzaladığı «Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında» fərman özəl bölmənin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edirdi. 1996–2000-ci illərdə respublikada 2103 yeni sənaye müəssisəsi açılmış, 2001-ci ilin əvvəllərində isə onların sayı 4835-ə çatmışdı. Onlardan tam əksəriyyəti – 89,9 faizi özəl müəssisələr idi. 1999-cu ildə «Kiçik sahibkarlığa dövlət yardımı haqqında» qanun qəbul edildi.

Prezident Heydər Əliyevin 2002-ci il aprelin 25-də yerli sahibkarlarla görüşünün Azərbaycanda kiçik və orta biznesin, ümumiyyətlə, sahibkarlığın inkişafında böyük əhəmiyyəti olmuşdur. Müstəqillik illəri ərzində ilk dəfə olaraq bu görüşdə özəl sahibkarlığın inkişafı sahəsindəki vəziyyət müzakirə edilmişdi [301, 275].

Qeyd etmək lazımdır ki, ölkə Prezidenti Heydər Əliyev sahibkarlığın inkişafını çox böyük diqqətlə izləyirdi. Yerli sahibkarlarla görüşündə Prezident Heydər Əliyev qeyd edirdi ki: «Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlığın inkişafı ilə bağlayırıq və ondan sonra da bu sahənin inkişafı üçün bütün tədbirləri həyata keçiririk.

Ölkədə sahibkarlığın inkişafında aqrar islahatların həyata keçirilməsinin, ilk növbədə, torpağın şəxsi mülkiyyətə verilməsinin də mühüm rolu olmuşdur. 2003-cü ilin əvvəllərindən torpaq islahatının birinci mərhələsi başa çatmış, 1 milyon 350 min hektar torpaq şəxsi mülkiyyətə verilmişdi.

Sahibkarlığa Kömək Milli Fondu yarandığı vaxtdan ötən yeddi il ərzində 1000-dən çox sərmayə layihəsinə güzəştli kreditlər ayırmışdı. 1999–2001-ci illər üçün dövlət büdcəsində sahibkarlığın ehtiyaclarına 37,3 milyard manat vəsait ayrılması nəzərdə tutulmuşdu. Sahibkarların vergi yükünün azaldılması üçün görülən tədbirlər – vergilərin sayının azaldılması, əlavə dəyər vergisi, mənfəət vergisi, fiziki şəxslərdən gəlir vergisi dərəcələrinin və s. aşağı salınması Azərbaycanda orta sinfin formalaşmasının ümdə vasitəsi olan kiçik və orta biznesin inkişafı üçün böyük əhəmiyyətə malik idi və öz müsbət nəticələrini verirdi [301, 275].

2000-ci ilin əvvəlinə olan məlumata görə, dövlət büdcəsinin gəlirlərində özəl bölmənin payı 40 faizdən yuxarı idi ki, bunun da 60 faizindən çoxu sahibkarlıq fəaliyyətindən əldə olunmuşdu [586, 92].

2002-ci il avqustun 17-də Prezident Heydər Əliyevin fərmanı ilə «Azərbaycan Respublikasında kiçik və orta sahibkar»lığın inkişafının dövlət proqramı təsdiq olundu. Proqram Azərbaycan Respublikasında sahibkarlığın daha da inkişaf etdirilməsi, investisiyaların cəlb edilməsi üçün çox böyük imkanlar yaradırdı. Bu isə ümumi iqtisadi inkişafın möhkəmlənməsinə kömək edirdi.

Ölkə ərazisində 40 mindən artıq təsərrüfat subyekti hüquqi şəxs statusu alaraq qeydiyyatdan keçmişdi, 100 min nəfərdən çox adam

fiziki şəxs kimi sahibkarlıqla məşğul idi. Kiçik sahibkarlıq ilk vaxtlar Bakı şəhərində daha sürətlə inkişaf edirdi. 1995-ci ildə kiçik biznes müəssisələrinin 59,9 faizi, 2000-ci ildə isə 69,5 faizi paytaxtda cəmləşmişdi. Lakin 2002-ci ildə belə müəssisələrin 63,3 faizi Sumqayıt, Naxçıvan, Gəncə, Abşeron, Sabirabad, Şəki, Yevlax və digər bölgələrdə fəaliyyət göstərirdi.

Sahibkarlığın inkişafındakı uğurlar Azərbaycan Respublikasına ərzaq məhsulları idxalının azalmasında da özünü göstərirdi. Əgər 1995-ci ildə idxalın həcmində ərzaq məhsulları 41 faiz təşkil edirdisə, 2001-ci ildən başlayaraq bu rəqəm 2 dəfədən çox azalmışdı [301, 275].

2002-ci il sentyabrın 28-də ölkə Prezidenti «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» fərman imzaladı. İqtisadiyyatda cinayətkarlıqla mübarizə idarəsi ləğv olundu, vergi sistemində ümumi işə maneə törədən yoxlamaların sayı məhdudlaşdırıldı. Həmin il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən özəl bölməyə 12,3 milyard manat kredit verilmişdi.

Beləliklə, Prezident Heydər Əliyevin həyata keçirdiyi siyasi və iqtisadi islahatlar əvvəlki bir neçə ildə ölkədə real şəkildə mövcud olmuş hakimiyyətsizliyin ağır sosial nəticələrini bir qədər yumşaltmağa imkan verdi. Azərbaycan Respublikası həm siyasi həyatın sabitləşməsində, həm də iqtisadiyyatda ciddi uğurlar qazandı. Ümummilli lider müasir dövlət yaratmaqla bərabər, onun gələcək illərə hesablanmış inkişaf strategiyasını da müəyyən etdi. 2003-cü ildən etibarən isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar bir qədər başqa çalar almışdır və ölkənin inkişafında artıq yeni mərhələdir. Bu baxımdan, iqtisadi islahatların ünvanı da yeni məna kəsb etmişdir və onların məqsədi postindustrial cəmiyyətin səciyyəvi cəhətlərini mənimsəməkdən ibarətdir [301, 15-16].

2.3. Aqrar islahatlar

Heydər Əliyev 1969-cu ildə Azərbaycan SSR-in siyasi rəhbərliyinə gələndə respublika sosial-iqtisadi həyatın bütün sahələrində geridə qalırdı, onun haqqında SSRİ-nin perspektivsiz bir ucqarı kimi fikir formalaşmışdı. Respublikanı bu ağır vəziyyətdən çıxarmaq, dinamik

inkişafı təmin etmək üçün yeni konseptual səviyyədə yanaşma əsasında kompleks proqramlar hazırlamaq, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparmaq lazım idi. Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində sosial-iqtisadi sahədə bu islahatlar aparıldı, onun təşəbbüsü ilə SSRİ hökuməti Azərbaycan SSR iqtisadiyyatının intensiv inkişafını nəzərdə tutan beş qərar qəbul etdi. Respublikada aparılan məqsədyönlü siyasət nəticəsində sənaye və kənd təsərrüfatının sürətli inkişafına nail olundu. 1970–1982-ci illərdə 213 yeni sənaye müəssisəsi istifadəyə verilmiş, əmək məhsuldarlığı 2,1 dəfə yüksəlmişdi. Kənd təsərrüfatı istehsalı 2,6 dəfə, əmək məhsuldarlığı 2,2 dəfə, respublikanın milli gəliri 2,6 dəfə artmışdı.

Bu dövr müstəqil Azərbaycan Respublikası dövlətinin yaranması salnaməsinin ən parlaq səhifələri idi. Tam inamla demək olar ki, müasir mərhələdə Azərbaycan Respublikasının dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici iqtisadi əlaqələrin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadiyyatına daha dərin inteqrasiyası prosesi 1970–1982-ci illərdə təməli qoyulmuş potensiala əsaslanır [307, 22].

Lakin 1982-ci ildə Heydər Əliyev SSRİ rəhbərliyində yüksək vəzifəyə getdikdən sonra respublikanın iqtisadiyyatında, o cümlədən kənd təsərrüfatında durğunluq yaranmağa başladı. Qorbaçovsayağı «yenidənqurma», Ermənistanın Azərbaycan SSR-ə qarşı hərbi təcavüzü, SSRİ-nin dağılması və uzun illər ərzində qurulmuş iqtisadi əlaqələrin pozulması, respublikada baş alıb gedən hərc-mərclik Azərbaycan SSR-də iqtisadiyyatı, eləcə də başlı-başına buraxılmış aqrar sahəni dərin böhrana sürüklədi.

Azərbaycan SSR rəhbərliyi dağılan iqtisadiyyatın xilas yolları haqqında düşünmür, dövlətin iqtisadi əsaslarının möhkəmləndirilməsi üçün heç bir əməli tədbir görmürdü. Yalnız 1993-cü ildə Ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtmasından sonra bu sahədə məqsədyönlü tədbirlərə başlanmışdır.

İqtisadiyyatın əsas sahələrindən biri olan aqrar bölmənin vəziyyəti heç də başqalarından yaxşı deyildi. Ölkədə kənd təsərrüfatı məhsullarının kəskin qıtlığı əhalinin ərzaqla təmin edilməsində böyük çətinliklər törədirdi.

İqtisadi islahatlar keçirmək, yeni siyasi xəttə uyğun və bazar iqtisadiyyatının tələblərinə cavab verən iqtisadi sistem yaradılması prob-

lemləri ölkə rəhbərliyi qarşısında bütün kəskinliyi ilə dururdu. İqtisadi islahatların mühüm vəsiləsini təşkil edən aqrar islahatların tərkib hissəsi kimi torpaq islahatının keçirilməsi vacib problemlərdən biri idi və bunun həlli yalnız Heydər Əliyevin təşəbbüsü, onun rəhbərliyi və daimi nəzarəti sayəsində mümkün oldu.

Əvvəlcədən deyək ki, Azərbaycan Respublikasında torpaq islahatı MDB məkanında bənzəri olmayan çoxyönlü bir proses idi. Azərbaycan Respublikasının kənd təsərrüfatının inkişafında böyük uğurlarla nəticələnən bu islahatları başqa ölkələrdə aparılan islahatlardan fərqləndirən üç mühüm xüsusiyyəti göstərmək olar:

1. Dövlət başçısının təşəbbüsü ilə Azərbaycan Respublikasında torpaq vətəndaşlara pulsuz verilmişdir. Bunun nəticəsində 3 milyon 300 min adam torpaq mülkiyyətçisinə çevrilmişdir. Bu isə güclü mülkiyyətçilər sinfinin yaranmasına və yeni əkinçilik münasibətlərinin formalaşmasına gətirib çıxarmış, torpaqdan rasional və məhsuldar istifadə edilməsini şərtləndirmiş, torpağa qayğıkeş münasibəti zəruri etmişdir.

2. Ən yararlı və keyfiyyətli torpaqlar özəlləşdirilmişdir. Başqa MDB ölkələrindən fərqli olaraq, vətəndaşlara azyararlı və yararsız torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verilmişdir. Eyni zamanda torpaq sahiblərinə onların mülkiyyətində olan torpaq sahələrinə müstəsna hüquqlar (alqı-satqı, bağışlama, icarəyə və ya istifadəyə vermə, vəsiyyət etmə, girov qoyma və sair) verilmişdir ki, bu da Azərbaycan Respublikasında torpaq islahatlarının SSRİ-nin başqa respublikalarında olduğu kimi formal şəkildə deyil, əsaslı, fundamental şəkildə aparıldığını sübut edir.

3. Yaşayış yerindən və şəxsiyyətindən asılı olmayaraq, ölkə ərazisində yaşayan bütün vətəndaşlara torpaqdan istifadə və torpağı icarəyə götürmək hüququ verilir, Azərbaycan Respublikasının istənilən vətəndaşı torpağın alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilə və bağlaşmalarda iştirak edə bilər. Başqa sözlə, torpaq mülkiyyətçisinə çevrilmiş 3 milyon 300 min subyektlə yanaşı, əhalinin qalan hissəsi də torpaq-vətəndaşlıq münasibətlərindən kənarlaşdırılmır.

Xüsusi vurğulamaq lazımdır ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası vətəndaşlığı olmayan fiziki və hüquqi

şəxslərə respublikada torpaq mülkiyyəti hüququ verilməmişdir. Bunun isə təkcə mühüm iqtisadi deyil, həm də ciddi siyasi mənası vardır.

Bütövlükdə, Azərbaycan Respublikasında aqrar sektorun inkişafı üçün möhkəm əsas yaradılması, ölkə iqtisadiyyatının bazar iqtisadiyyatına uyğunlaşdırılması və bu istiqamətdə inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsulları istehsalında ciddi dönüş yaradılması ilə yanaşı, torpaq islahatları, torpaqdan rasional istifadənin təşkili, torpaqların münbitliyinin və ekoloji saflığının qorunması, eləcə də əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması və torpağın əsl sahibinə verilməsində irəliyə doğru mühüm addım olmuşdur. Heydər Əliyevin müdrikliyi bir də ondadır ki, torpaqların qorunması məsələsi mülkiyyətçilərin şəxsi maraqları dairəsinə daxil edilmiş, bu isə həmin sahədə nəzarətin həyata keçirilməsini xeyli asanlaşdırmışdır.

Torpaq islahatlarının keçirilməsi üçün müvafiq hərtərəfli qanunlardan ibarət möhkəm hüquqi baza, bu qanunların gerçəkləşdirilməsi üçün çevik, fəal mexanizm lazım idi. Xatırladaq ki, hələ 1992-ci ilin əvvəlində Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Şurut və Gal kəndlərində torpaq islahatı keçirilmişdi. Təəssüf ki, bu mütərəqqi iş Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyi tərəfindən düzgün qiymətləndirilmədi. Yalnız 1993-cü ildən sonra ölkədə bu sahədə işlək tədbirlər görülməyə başlandı.

Prezident Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin müzakirəsinə çıxarılmış «Torpaq islahatı haqqında» qanunun 1996-cı il iyulun 16-da qəbul edilməsi respublikada torpaq islahatlarının başlanğıcı oldu. Bunun ardınca «Torpaq vergisi haqqında», «Torpaq icarəsi haqqında», «Torpaq bazarı haqqında», «Torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında» qanunların, Azərbaycan Respublikasının Torpaq Kodeksinin, «Torpaqların münbitliyi haqqında», «Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan kolxoz, sovxoz və başqa hüquqi və fiziki şəxslərin (istehsal müəssisələrindən başqa) vergi borclarının ləğv edilməsi haqqında» qanunların qəbulu, Azərbaycan Respublikası Prezidentinin «Aqrar islahatların sürətləndirilməsi haqqında bəzi tədbirlər haqqında» fərmanı və 30-dan artıq başqa göstəriş və normativ-hüquqi aktlar torpaq islahatlarının keçirilməsi üçün möhkəm hüquqi baza yaratdı.

Bu baza əsasında keçirilən torpaq islahatları 2003-cü ildə, demək olar ki, başa çatdı. Respublikanın 8,6 mln. ha vahid torpaq fondundan 44,2%-i (3,8 mln. ha) dövlət mülkiyyətində saxlandı, 31,4%-i (2,7 mln. ha) bələdiyyə mülkiyyətinə, 24,4%-i (2,1 mln. ha) isə şəxsi mülkiyyətə verildi. Başqa sözlə, 830 min azərbaycanlı ailəsi, yəni 3 300 000 vətəndaş torpaq mülkiyyətçisi oldu [324, 11].

Bu məhsuldar və çoxtərəfli fəaliyyətin zirvəsi olan, Prezident Heydər Əliyevin 1999-cu il 25 iyun tarixli fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Kodeksinin qüvvəyə minməsi nəinki torpaq hüququ münasibətlərində yeni dövrün başlanğıcını qoymuş, həm də torpaqdan istifadə sahəsində bu və ya başqa dərəcədə maraqlı olan digər ölkələr, ilk növbədə, MDB dövlətləri üçün bir növ örnək olmuşdur. Kodeksdə dünyada məlum olan ən demokratik torpaq mülkiyyəti prinsipləri dəqiq hüquqi əksini tapmışdır. Kodeks Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri əsasında qurulmuş yeni torpaq münasibətlərinin normativ-hüquqi bazasını yaratmaq üzrə mürəkkəb və çətin işin uğurlu yekunu oldu.

Vətəndaşların torpağa mülkiyyət hüququ barədə dövlət aktları ilə təmin edilməsi və özəlləşdirilən torpaqların qanuni sahiblərinə verilməsi ilə torpaq islahatlarının birinci mərhələsi başa çatdı. Bunun ardınca ikinci mərhələnin həyata keçirilməsinə başlanıldı. Bu mərhələyə bələdiyyə torpaqlarının ayrılıb bələdiyyələrə təhvil verilməsi, həyətyanı sahələrin və bağ sahələrinin islahatlara cəlb edilərək onların sahiblərinə müvafiq hüquqi sənədlərin verilməsi, torpaq-bazar münasibətləri, yəni torpaqların alqı-satqısı, icarəsi, girov qoyulması və s. ilə bağlı məsələlərin həlli, vahid torpaq kadastrının, şəhər kadastrı məlumat bankının yaradılması və başqa məsələlər daxil idi. Bunlardan birincisi və başlıcası bələdiyyə torpaqlarının ayrılıb bələdiyyələrə təhvil verilməsi idi.

«Bələdiyyələrin əraziləri və torpaqları haqqında» qanuna və başqa qanunvericilik aktlarına uyğun olaraq, Azərbaycan Respublikasının bütün rayonlarında bələdiyyə torpaqlarının sərhədlərinin və sahələrinin müəyyən edilməsi üçün böyük iş görülmüşdür.

Torpaq-bazar münasibətlərinin tənzimlənməsi bazar iqtisadiyyatı şəraitinə uyğun normal bazar yaratmağa kömək etmiş, torpaq sahiblərinə torpağa qanuni hüquqlarından istifadə etməyə imkan vermişdir.

Vahid torpaq kadastrının yaradılması və vahid torpaq fonduna mərkəzləşdirilmiş nəzarətin keçirilməsi məqsədilə şəhərlərin balansındakı torpaqların da islahata cəlb olunması məsələsi həll edilmişdir. Beləliklə, Azərbaycan Respublikası əhalisinin daha çox hissəsinin torpaq mülkiyyəti hüququ almasına səbəb olmuşdur.

Torpaqların xüsusi mülkiyyətə verilməsi adamların torpağa münasibətini kökündən dəyişdirmişdir. 2000-ci ildə istehsal edilmiş kənd təsərrüfatı məhsullarının 98% -i özəl sektorun payına düşürdü [324, 13].

Respublikada kənd təsərrüfatı istehsalının artımı bazar iqtisadiyyatının əsas barometri olan ixrac-idxal əməliyyatlarına da təsir göstərmişdi. Belə ki, əvvəlki illərlə müqayisədə 1999-cu ildə idxal 2,6 dəfə azalmış, ixrac isə 2 dəfədən çox artmışdı.

Bir ailə hesabı ilə dövlət aktlarının hazırlanması dinamikası (1997–2002-ci illər)[1]

Aylar	1997	1998	1999	2000	2001	2002
yanvar	3848	12819	26973	6215	3488	963
fevral	0	12804	25185	2159	1871	2230
mart	2636	13867	2535	1609	3182	2769
aprel	188	14931	11214	1206	1131	2056
may	2068	25905	2755	841	4748	3205
iyun	1517	31467	3673	4983	2276	3523
iyul	2054	60285	2118	4884	559	2438
avqust	2240	73776	6317	4910	1990	38
sentyabr	5368	79234	4479	1302	0	0
oktyabr	6540	83548	5856	1603	449	
noyabr	7991	83630	13828	0	0	
dekabr	11559	84285	9513	3491	2123	
Cəmi:	46009	576551	114446	33203	21817	17222
Ümumi:						**809248**

1 Cədvəl Dövlət Torpaq Komitəsinin mətbuat xidməti və analitik informasiya mərkəzinin və Dövlət Statistika Komitəsinin materialları əsasında tərtib olunmuşdur.

Respublikada aparılan torpaq islahatları digər MDB ölkələrində böyük maraqla qarşılanmışdır. Moldova, Ukrayna, Tacikistan və s. ölkələrin nümayəndə heyətləri respublikamıza gəlmiş, Azərbaycanın təcrübəsini öyrənmişdilər. Müstəqil Azərbaycan Respublikası tarixinə «Heydər Əliyevin aqrar islahatları» kimi daxil olmuş torpaq islahatlarının həyata keçirilməsi prosesi və metodları digər MDB ölkələri üçün də optimal model kimi qəbul edilmişdir.

Torpaq islahatlarının birinci mərhələsinin başa çatması ilə kolxoz və sovxozların 1391716 ha torpaq fondu özəlləşdirilərək vətəndaşların xüsusi mülkiyyətinə verilmişdir.

Azərbaycan Respublikasının rayonları üzrə torpaq payı alınmış ailələrin tərkibinin orta sayı və özəlləşdirilmiş torpaq sahələri

№	Rayon	Ailə	Nəfər	Özəlləşdirilən torpaq (ha)
1	2	3	4	5
1.	Abşeron	5671	20997	4046
2.	Ağcabədi	16962	78808	43818
3.	Ağdam	6631	27340	12415
4.	Ağdaş	14896	56659	29381
5.	Ağstafa	15620	59793	16717
6.	Ağsu	11102	43662	34383
7.	Astara	16895	71509	8623
8.	Balakən	20817	67888	15607
9.	Beyləqan	15702	65452	38895
10.	Bərdə	24977	91806	42774
11.	Biləsuvar	12796	60777	30547
12.	Cəlilabad	30386	137242	51233
13.	Daşkəsən	4591	17323	10589
14.	Dəvəçi	6858	27340	18891
15.	Füzuli	4263	17958	7308
16.	Gədəbəy	21790	74418	18451
17.	Goranboy	20329	68944	39645
18.	Göyçay	17166	62577	23210
19.	Hacıqabul	5139	26163	19972
20.	Xaçmaz	24986	85667	39337

1	2	3	4	5
21.	Xanlar	10662	33173	12547
22.	Xızı	2143	10058	5521
23.	İmişli	14616	72503	31579
24.	İsmayıllı	14335	49978	25056
25.	Kürdəmir	15770	63784	40818
26.	Qax	10204	34106	18751
27.	Qazax	15558	54813	21367
28.	Qəbələ	18373	74838	25716
29.	Qobustan	6069	27983	33056
30.	Quba	27386	95805	39115
31.	Qusar	16783	54563	43193
32.	Lerik	9523	49300	13502
33.	Lənkəran	28194	124012	12291
34.	Masallı	30729	149510	27996
35.	Neftçala	6617	27939	34446
36.	Oğuz	9352	35056	18022
37.	Saatlı	14896	68908	33721
38.	Sabirabad	22696	97644	44209
39.	Salyan	19080	68943	33418
40.	Samux	11897	41481	15986
41.	Siyəzən	2438	10350	9775
42.	Şamaxı	11432	45118	34082
43.	Şəki	22967	95636	50756
44.	Şəmkir	36472	131946	42937
45.	Tərtər	10155	44859	19680
46.	Tovuz	32867	120763	20054
47.	Ucar	12281	51208	17901
48.	Yardımlı	9102	44340	10787
49.	Yevlax	11802	46918	29890
50.	Zaqatala	22047	79367	37938
51.	Zərdab	8706	36413	26908
	Cəmi	**782729**	**3103638**	**1336860**

Naxçıvan Muxtar Respublikası üzrə

52.	Babək	17329	62423	15652
53.	Culfa	7617	24439	8028
54.	Ordubad	8909	28002	4424
55.	Sədərək	4156	12184	3278
56.	Şahbuz	4575	16771	4780
57	Şərur	28949	99626	18694
Naxçıvan MR üzrə		**71535**	**243445**	**54856**
Azərbaycan üzrə cəmi		**854264**	**3347083**	**1391716**

Cədvəldən göründüyü kimi, Azərbaycan Respublikasının müxtəlif regionlarında əhalinin torpaq ehtiyatları ilə təmin olunmasından və inzibati rayonların demoqrafik xüsusiyyətlərindən – əhalinin sayından asılı olaraq, orta hesabla bir nəfərə düşən torpaq sahəsi (hektarla) çox fərqlidir. Torpaqla təmin olunmaya görə ən aşağı göstərici Lənkəran (0,10), Astara (0,12), Ordubad (0,16), Tovuz (0,17), Şahbuz (0,19), Masallı (0,19), Abşeron (0,19), ən yüksək göstərici isə Neftçala (1,23) Qobustan (1,18), Siyəzən (0,94) rayonlarında müşahidə olunmuşdur. Bütövlükdə, ölkə üzrə hər adama orta hesabla 0,42 ha torpaq sahəsi düşmüşdür.

Ermənistanın hərbi təcavüzü nəticəsində müvəqqəti işğal olunmuş bölgələrdə torpaq islahatları həmin ərazilər azad olunduqdan sonra həyata keçiriləcəkdir.

Sonrakı mərhələdə Dövlət Torpaq Komitəsinin qarşısında torpaqların alqı-satqısı, girov qoyulması, torpaq ehtiyatlarından, dövlət, bələdiyyə torpaqlarından istifadəyə nəzarət edilməsi, qışlaq, yaylaq və çəmənlik kimi dövlət fondu torpaqlarından səmərəli istifadənin təşkili, həyətyanı sahələrin islahata cəlb olunması, həyətyanı və bağ sahələrinə şəhadətnamələrin verilməsi, rayonlar üzrə torpaq balanslarının təşkili, torpaq birjası mexanizminin təşkil edilməsi və işlək vəziyyətə gətirilməsi, rayon və şəhərlərdə torpaq kadastrı üzrə işlərin təşkili, torpaqların monitorinqinin keçirilməsi və sair mühüm vəzifələr dururdu. Bu məqsədlər üçün Dövlət Torpaq Komitəsində Azərbaycan Respublikası ərazisində elmi əsasda vahid torpaq kadastrı aparmağa imkan verən məlumat sisteminin yaradılması və tətbiqi ilə bağlı proqram hazırlanmış və onun əsasında aşağıdakı tədbirlər görülmüşdür:

– ən müasir geoinformasiya əsasında dövlət torpaq kadastrı aparmağa imkan verən sistem qurulmuş;

– torpaq birjası, alqı-satqı prosesləri, torpaqların girov qoyulması və s. proseslərin çevik, dəqiq və normal fəaliyyəti üçün zəruri olan məlumat bazası yaradılmış;

– torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin hüquqlarının dövlət tərəfindən müdafiəsinin təmin olunmasına şərait yaradılmış;

– torpaq münasibətləri üzrə maliyyə, bank, vergi, məhkəmə və başqa orqanlarla operativ əməkdaşlıq üçün potensial yaradılmış;

– torpaq ehtiyatlarının ölçüsü və vəziyyətinə dair məlumat bankı yaradılmış və idarə edilməyə başlamış;

– torpaqdan istifadə, torpaqların monitorinqi və yer quruluşu işləri üçün zəruri olan informasiya təminatı yaradılmışdır.

Aqrar islahatların birinci mərhələsinin başa çatması tədricən müsbət nəticəsini vermişdir. Belə ki, 2003-cü ildə əkin sahələri 88,1 min hektar artaraq 1292,5 min hektara çatmış və ya 1995-ci ildəkinə nisbətən 107% təşkil etmişdir. 1995-ci ilə nisbətən 2004-cü ildə dənli bitkilərin əkin sahəsi 1,3 dəfə artaraq 814,9 min hektara, günəbaxan əkinləri 7,1 dəfə artaraq 11,3 min hektara, tərəvəz əkinləri 2,9 dəfə artaraq 77,2 min hektara, bostan bitkiləri əkinləri 5,3 dəfə artaraq 30,5 min hektara, kartof əkinləri 4,1 dəfə artaraq 65,8 min hektara çatmışdı.

2003-cü ildə 2158,2 min ton taxıl, 135,6 min ton pambıq, 930,4 min ton kartof, 1076,2 min ton tərəvəz, 354,8 min ton bostan məhsulları istehsal edilmişdi. Bu, 1995-ci ildəkindən bir neçə dəfə yüksək idi.

2003-cü il oktyabrın 15-də keçirilmiş prezident seçkilərində xalq böyük səs çoxluğu ilə Heydər Əliyev siyasətinə səs verdi, İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Dövlət başçısı kimi fəaliyyətə başladığı ilk aylardan Prezident İlham Əliyev aqrar bölmənin xalq təsərrüfatında yerini və rolunu çox düzgün qiymətləndirərək, bu sahənin dinamik inkişafının təmin edilməsinə xüsusi diqqət və qayğı göstərir. O, dövlət başçısı seçildikdən bir az sonra – 2003-cü ilin noyabr ayında Nazirlər Kabinetinin iclasında demişdir: «Kənd təsərrüfatında aparılan islahatların nəticəsində böyük uğurlar qazanılmışdır. Torpaq özəl mülkiyyətə verilmişdir... Bu ənənə davam etməlidir və kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlanmalıdır. Dövlətin öhdəsinə nə düşürsə, biz bunu edəcəyik».

Azərbaycan Respublikasında 1995 – 2004-cü illərdə bitkiçilik məhsulları istehsalı

Məhsulların adı	Ölçü vahidi	1995	1998	1999	2000	2001	2002	2003	01 dekabr 2004-cü il
Taxıl									
Əkin sahəsi	min.ha	609,4	585,0	518,9	648,0	760	821	774	814.9
İstehsal	min.ton	921,4	950,3	1098,3	1540,0	2016,1	2195,8	2057,8	2158,2
Məhsuldarlıq	ha.sent	15,1	16,2	21,2	23,8	26,5	26,7	26,6	26,5
Pambıq									
Əkin sahəsi	min.ha	210,4	153,6	94,1	100,1	83,3	60,9	66,2	77,9
İstehsal	min.ton	274,1	112,9	96,8	91,5	83,6	80,4	99,5	135,7
Məhsuldarlıq	ha.sent	13,0	7,3	10,3	9,1	10,0	13,2	15,0	17,4
Tütün									
Əkin sahəsi	min.ha	8,0	8,2	4,4	7,8	6,3	1,6	2,1	2,55
İstehsal	min.ton	11,7	14,6	8,6	17,3	12,7	3,3	4,7	6,5
Məhsuldarlıq	ha.sent	14,6	17,8	19,4	22,2	20,3	20,9	22,4	25,5
Kartof									
Əkin sahəsi	min.ha	16,0	32,8	38,0	52,5	55,2	57,4	59,3	65,8
İstehsal	min.ton	155,5	312,5	394,1	469,0	605,8	694,9	769	930,4
Məhsuldarlıq	ha.sent	97,0	95,3	95,2	83,5	104,2	115,7	124,3	136,6
Tərəvəz									
Əkin sahəsi	min.ha	26,8	31	46,3	56,6	66,4	69,7	72,6	77,2
İstehsal	min.ton	424,1	502,3	670,8	780,8	916,4	974,6	1046,3	1076,2
Məhsuldarlıq	ha.sent	157,0	140,1	136,3	133,1	134,8	135,6	140,4	135,0
Bostan bitkiləri									
Əkin sahəsi	min.ha	5,8	11,7	22,4	26,7	28,9	30,3	31,8	30,5
İstehsal	min.ton	41,9	78,8	206,3	260,9	290,9	330,3	356,7	354,8
Məhsuldarlıq	ha.sent	73,0	67,7	92,2	97,6	100,7	109,1	112.3	116,3

Məhsulların adı	Ölçü vahidi	1995	1998	1999	2000	2001	2002	2003	01 dekabr 2004-cü il
Şəkər çuğunduru									
Əkin sahəsi	min.ha	5,1	2,7	2,2	2,2	1,5	2,6	3,5	3,2
İstehsal	min.ton	28,1	41,4	42,2	46,7	41,3	115,8	129,0	56,8
Məhsuldarlıq	ha.sent	54,8	153,3	192,1	210,4	280,7	444,1	364,3	177,5
Meyvə									
Əkin sahəsi	min.ha	117,8	79,6	82,5	83,2	84,2	87,5	88,4	X
Bar verən Sahə	min.ton	103,9	71,2	75,1	76,8	78,6	81,2	81,5	X
İstehsal	min.ton	324,4	390,6	436,5	477,0	497,5	516,8	572,1	420,4
Məhsuldarlıq	ha.sent	31,2	54,7	58,1	61,9	63,1	63,5	70,0	X
Üzüm									
Əkin sahəsi	min.ha	97,7	34,1	20,5	14,2	11,5	8,9	7,7	X
Bar verən Sahə	min.ton	94,7	33,5	20,3	13,9	11,4	8,8	7,4	X
İstehsal	min.ton	308,7	144,2	112,5	76,9	68,0	62,1	65,0	54,9
Məhsuldarlıq	ha.sent	32,6	32,3	35,6	35,8	40,0	43,8	50,9	X
Çay yarpağı									
Əkin sahəsi	min.ha	11,4	6,5	5,4	5,4	3,9	3,7	3,7	X
İstehsal	min.ton	9,4	0,9	2,7	1,1	1,4	1,44	0,944	1,05
Məhsuldarlıq	ha.sent	10,3	1,3	5,1	2,0	3,6	3,9	2,6	X
Dən üçün günəbaxan									
Əkin sahəsi	min ha	2,9	1,6	2,5	3,9	5,3	9,4	13,6	11,3
İstehsal	min ton	0,7	1,13	2,4	3,86	5,28	11,2	18,9	14,5
Məhsuldarlıq	ha sent	2,3	6,9	9,5	9,6	9,7	11,6	13,9	12,8

Azərbaycan Respublikasının bütün kateqoriyalardan olan təsərrüfatlarında 1969–2003-cü illərdə mal-qaranın, quşların sayı və heyvandarlıq məhsullarının istehsalı haqqında məlumat

	İLLƏR											
	1969	1970	1975	1980	1982	1995	1998	1999	2000	2001	2002	2003
Mal-qara – min başla												
Qaramal	1560,3	1576,8	1666,9	1806,2	1887,1	1681,7	1913,2	1961,4	2021,6	2097,9	2178,6	2241,8
O cümlədən: İnək və camışlar	615,0	605,1	621,9	675,8	723,1	772,5	895,0	925,8	858,9	1001,7	1042,3	1075,4
Qoyun və keçilər	3960,6	4371,2	5128,4	5361,6	5332,4	4644,4	5511,9	5773,8	6086,0	6558,9	6886,4	7280,1
Donuzlar	89,8	113,1	135,3	183,1	184,4	30,4	26,1	19,7	18,6	16,9	19,8	20,4
Quşlar (mln. başla)	8,6	8,8	12,8	20,7	24,5	13,3	12,5	13,2	14,7	15,3	17,1	17,5
Heyvandarlıq məhsullarının istehsalı – min tonla												
Ət (diri çəkidə)	170,5	163,3	200,3	227,4	246,0	135,0	179,3	188,4	195,8	205,4	225,3	239,9
Süd	425,4	478,1	658,1	796,1	870,7	826,5	946,5	993,4	1031,1	1073,4	1119,8	1167,8
Yun	7,0	7,6	9,5	10,7	11,4	9,0	10,3	10,5	10,9	11,2	11,8	12,1
Yumurta mln. ədədlə	356,5	412,5	577,9	721,2	835,2	455,8	509,0	526,3	542,6	554,0	561,6	670,6

2.4. Azərbaycan Respublikasının neft siyasəti

Sovet imperiyasının dağılması və keçmiş müttəfiq respublikaların müstəqillik əldə etməsi prosesi ilk baxışda asan görünsə də, həlli çox ağır olan iqtisadi problemlər yaratdı. Sovet hakimiyyəti illərində yaradılmış ümumittifaq xalq təsərrüfatı kompleksi iflic vəziyyətinə düşdü. Siyasi münasibətlərin kəsilməsi iqtisadi əlaqələrin qırılmasına və keçmiş postsovet məkanında ağır iqtisadi böhranın yaranmasına səbəb oldu.

1941–1945-ci illər müharibəsi dövründə alman faşizmi üzərində qələbədə və XX əsrin ikinci yarısında Rusiya Federasiyasında, Ukrayna, Qazaxıstan, Türkmənistan, Özbəkistan respublikalarında, habelə dünyanın bir çox ölkəsində milli neft sənayesinin yaradılmasında müstəsna rol oynamış Azərbaycanın özünün neft sənayesi 1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində respublikaya rəhbərlik edənlərin bacarıqsızlığı ucbatından ağır vəziyyətə düşmüşdü. Belə ki, 1985–1990-cı illər ərzində neftçıxarma sənayesində ümumi məhsulun həcmi 89 faiz təşkil edirdi. Bu da bir tarixi həqiqətdir ki, XX əsrin 40-cı illərinin sonu – 50-ci illərinin əvvəlində və 60-cı illərin sonunda Azərbaycan neft sənayesinin məhv edilməsi üçün mərkəzi hökumətin bəzi yüksək rütbəli məmurları ermənilərin təhriki ilə cinayətkar məsələlərə əl atmağa cəhdlər də göstərmişdilər. Lakin xalqımıza qarşı düşünülmüş bu düşmənçilik niyyətləri M.C.Bağırovun, İ.D.Mustafayevin və xüsusilə də Ümummilli lider Heydər Əliyevin həyata keçirdikləri məqsədyönlü tədbirlər nəticəsində baş tutmamışdı.

1992-1993-cü illərdə respublikada neft hasilatı 12,5 mln. tondan 9,6 mln. tona, qaz hasilatı isə 9,9 mlrd. kubmetrdən 6,5 mlrd. kubmetrə enmişdi. Bakının neftayırma zavodlarında il ərzində cəmi 9 mln. ton neft emal olunurdu.

Müstəqillik əldə etmiş keçmiş müttəfiq respublikalardan fərqli olaraq, 1991–1993-cü illərdə Azərbaycan Respublikası iqtisadi böhranla bərabər, siyasi böhranla da üzləşmişdi. Bir tərəfdən, Rusiya Federasiyasının siyasi-hərbi yardımına arxalanan Ermənistanın hərbi təcavüzü, digər tərəfdən isə ölkə daxilində hakimiyyət uğrunda gedən amansız mübarizə Azərbaycan Respublikasını vətəndaş müharibəsi və parçalanma həddinə gətirib çıxarmışdı. Yaranmış ağır siyasi və iqtisadi

böhrandan çıxmaq üçün həmin dövrdə respublikada cəmiyyətin bütün sağlam qüvvələrini öz ətrafında birləşdirə bilən, son dərəcə mürəkkəb hərbi-siyasi vəziyyətdən çıxış yolu tapmaq iqtidarında olan və ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesinə sərmayə cəlb edə bilən qüvvə yox idi. Bu daxili amillərlə yanaşı, özünün geosiyasi vəziyyətinə görə Azərbaycan Respublikası keçmiş SSRİ-nin süqutundan sonra dünya dövlətləri üçün kəskin mübarizə və maraq obyektinə çevrilmişdi. Belə bir vəziyyətin yaranmasının əsas səbəblərindən biri Azərbaycan Respublikasının zəngin neft ehtiyatlarının olması idi. Hələ XIX əsrin ikinci yarısından Şimali Azərbaycanın «qara qızıl»ının əsl qiymətini bilən xarici ölkə şirkətləri artıq 1990-cı ildən respublika hökuməti ilə Xəzər dənizindəki zəngin neft yataqlarının birgə işlənilməsi haqqında danışıqlara başlamışdılar. Azərbaycan SSRİ neftinə olan bu marağın artmasında 1989-cu ildə Bakıya səfər edən Şotlandiyanın «Remko» şirkətinin prezidenti S.Rampın Böyük Britaniyaya qayıtdıqdan sonra BP şirkəti ilə apardığı danışıqların böyük rolu olmuşdu.

Hələ 1991-ci ilin qışında Abşeron yarımadasında neftçıxarma üçün əlverişli şəraitin yaradılması istiqamətində konkret işlər görülmüşdü. Yanvarın 18-də SSRİ hökumətinin və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı ilə Xəzərin Azərbaycan SSR sektorundakı «Azəri» yatağının birgə kəşfiyyatı və işlənilməsinə dair «Xəzərdənizneftqaz» birliyinin və xarici neft şirkətlərinin iştirakı ilə birgə müəssisənin yaradılması üçün müsabiqə keçirilməsi qərara alınmışdı. 1991-ci ilin iyununda keçirilən müsabiqənin qalibi ABŞ-ın məşhur «Amoko» şirkəti elan edildi. Bundan sonra isə layihədə iştirak etmək üçün «BP/Statoyl» alyansı, «Yunokal», «MakDermott» və «Remko» şirkətləri də cəlb olundular. Ancaq layihədə 45 faiz paya malik olan «Amoko» öz liderliyini saxlayırdı. Müəyyən edilmiş ümumi payın 85 faizi Azərbaycan Respublikasına, qalan 15 faizi isə Qərb şirkətlərinə çatmalı idi.

Lakin 1992-ci ilin birinci yarısında başlanan hakimiyyət uğrunda mübarizə və Xalq Cəbhəsi-Müsavat cütlüyünün hakimiyyətə gəlməsi xarici şirkətlərlə nəzərdə tutulan müqavilənin imzalanmasını təxirə saldı. AXC-Müsavat hökuməti öz iqtisadi planında neft məsələsini ön plana çəkdi. 1992-ci ilin sentyabrında Dövlət Neft Şirkəti (ARDNŞ) yaradıldı və o, xarici şirkətlərlə danışıqları davam etdirdi. 1992-ci ilin sonuna yaxın Xəzərin Azərbaycan sektorundakı dörd ən böyük

yataqda – «Azəri», «Şahdəniz», «Çıraq» və «Günəşli» yataqlarında kəşfiyyat və başqa işlərin birgə aparılmasına dair beş niyyət protokolu imzalandı. «Amoko», «Penzoyl» və BP şirkətləri ilə yanaşı, layihəyə Türkiyənin «TPAO» şirkəti də cəlb edildi. Rusiyanın «LUKoyl» şirkətinə və İran şirkətlərinə isə layihədə iştirakda imtina olundu. Bu isə onsuz da o dövrdə çox ağır siyasi vəziyyətdə olan Azərbaycan Respublikasına qonşu dövlətlər – Rusiya və İran tərəfindən göstərilən təzyiqlərin artmasına səbəb oldu. Rusiyanın əlində oyuncaq olan Ermənistan «dövləti» 1992-ci ilin mayında öz təcavüzünü genişləndirərək, rus ordusunun birbaşa hərbi yardımı ilə Azərbaycanın böyük hərbi-strateji əhəmiyyət kəsb edən Şuşa və Laçın, 1993-cü ilin aprelində isə Kəlbəcər rayonlarını işğal etdi.

1993-cü ilin iyununda imzalanması nəzərdə tutulan müqavilənin şərtləri Azərbaycan Respublikasının maraqlarına heç də tam şəkildə cavab vermirdi. Müqavilənin şərtlərinə görə ARDNŞ-in payı 70 faiz, xarici şirkətlərin payı isə 30 faiz təşkil edirdi. 1993-cü ilin mayında ARDNŞ ilə xarici şirkətlər arasında «Azəri», «Günəşli» və «Çıraq» yataqlarında birgə fəaliyyət haqqında 6-cı memorandum imzalandı və iyunun 4-də ARDNŞ-in Direktorlar Şurası birgə fəaliyyət haqqında Bəyannamə qəbul etdi.

AXC-Müsavat rəhbərliyinin daxili və xarici siyasətdəki kobud səhvləri, səriştəsizlik və təcrübəsizliyi 1993-cü ilin iyununda ölkədə ağır siyasi-ictimai və hərbi böhranın yaranmasına səbəb oldu. Ölkə daxilində vətəndaş müharibəsinin başlanması təhlükəsinin artmasını görən xalqın görkəmli ziyalıları təcrübəli dövlət xadimi Heydər Əliyevi Bakıya dəvət etdilər. 1993-cü il iyulun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilən Heydər Əliyev elə ilk günlərdən çox ağır və həlli çətin olan məsələləri öz üzərinə götürdü. Ölkə tədricən siyasi və hərbi böhrandan çıxmağa başladı. Heydər Əliyev 1993-cü ilin ikinci yarısında respublikada yaranmış siyasi-iqtisadi və hərbi böhran şəraitində AXC-Müsavat hakimiyyətinin hazırladığı neft müqavilələsinin imzalanmasını təxirə saldı. Bir il müddətində gedən danışıqlar zamanı Prezident Heydər Əliyev bütün təzyiqlərə baxmayaraq, Azərbaycan xalqının mənafeyinə xələl gətirə biləcək hər hansı bir müqavilənin imzalanmaması üçün yeni müqavilənin hazırlanması ilə bağlı işlərə nəzarəti öz əlində saxlayaraq, bu işə yüksəkixtisaslı mütəxəssis-

ləri cəlb etdi. Bundan əlavə o, hazırlanmış yeni müqavilənin çox böyük dəqiqliklə yoxlanılması üçün xarici ölkələrdən də ekspertlərin daxil olduğu komissiya yaratdı. Prezidentin göstərişi ilə ARDNŞ-in rəhbərliyinə də təcrübəli mütəxəssislər cəlb olundu. Aparılan danışıqlarda əvvəlkindən fərqli olaraq, üç deyil, iki neft yatağı – «Azəri» və «Çıraq» yataqlarından söhbət gedir, pay bölgüsündə isə Azərbaycanın payı 80 faiz nəzərdə tutulurdu. Xarici şirkətlər tərəfindən ödəniləcək bonusun həcmi 500 mln. dollar müəyyən olundu ki, bu məbləğin də yarısı müqaviləni imzalayan şirkətlərin ölkələrinin parlamentində ratifikasiya edildikdən sonra dərhal ödənilməli idi.

Azərbaycan Respublikasının müstəqil xarici və daxili siyasət yeridəcəyini yəqin edən Rusiya Federasiyasının militarist qüvvələri Ermənistan «dövlətinə» hərbi yardımı gücləndirərək, 1993-cü ilin yaypayızında Azərbaycan Respublikasının Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğal olunmasına şərait yaratdı. Rusiyanın bu təcavüzkar dairələri 1991-ci ildə SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş keçmiş sovet respublikalarında siyasi nəzarəti itirsələr də, hərbi və strateji mövqeni itirmək istəmirdilər. Bu baxımdan, həmin dövrdə Rusiya Federasiyasının Müdafiə Nazirliyi yanında təşkil edilmiş Müdafiə Tədqiqatları İnstitutunda hazırlanmış «Rusiya Federasiyasının milli təhlükəsizliyi üçün yaranan əsas xarici təhlükələrə qarşı müqavimət strategiyasının konseptual qaydaları» adlı sənəd diqqəti cəlb edir. Bu sənəddə açıq-aydın deyilirdi: «Mühüm vəzifə «Xəzər neft müqaviləsi»nin hazırkı şəkildə reallaşmasına imkan verməməkdir. Bunun üçün aşağıdakı bir sıra kompleks tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

– Xəzərin Azərbaycana məxsus hissəsini rəsmi olaraq hüquqi cəhətdən tanımaqdan imtina etmək;

– praktik olaraq bir sıra tədbirlər görmək, lazım gələrsə, Xəzərin statusu müəyyən olunanadək onun keçmiş sovet hissəsində xarici neft şirkətlərinin fəaliyyətinə imkan verməmək üçün güc tətbiq etmək;

– Azərbaycan Respublikasının əsas ərazisi ilə Türkiyə Respublikasının ərazisi arasında birbaşa əlaqənin yaradılmasına imkan verməmək;

– erməni hərbi hücumunu Gəncə və Yevlax istiqamətində gücləndirmək yolu ilə Bakıdakı rejimə təzyiq göstərmək».

Göründüyü kimi, Dağlıq Qarabağı əhatə edən rayonların işğalı sənəddə göstərilən tədbirlərin tərkib hissəsi idi. Çünki onların həyata keçirilmədiyi təqdirdə Azərbaycan Respublikasının Cənubi Qafqaz regionunda nüfuzunun artacağı və tezliklə Dağlıq Qarabağ məsələsini öz xeyrinə həll edəcəyi aydın idi. Digər tərəfdən, o vaxt Türkiyə Bosfor və Dardanel boğazlarından keçən neftdaşıyan tankerlərin sayının azaldılması tələbi ilə çıxış edərək, tez-tez baş verən qəzalar nəticəsində İstanbul şəhəri və digər yaşayış məntəqələri üçün təhlükə törətdiyini bəyan etmişdi. Türkiyə Cümhuriyyəti hökuməti 1994-cü ilin martında boğazlardan gəmilərin keçməsi üçün yeni cədvəl tərtib edərək, Beynəlxalq Dəniz Təşkilatına təqdim etdi və onun qəbuluna nail oldu. Bu isə Orta Asiya və Azərbaycan neftinin Novorossiysk vasitəsilə ixrac olunması ehtimalını heçə endirirdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü il mayın 12-də Ermənistanla müharibədə atəşkəs əldə edilməsinə nail oldu. Bu, Azərbaycan Respublikasının ağır sosial-iqtisadi böhrandan çıxmağa başlamasının təsdiqi idi.

Qərb ölkələrinin neft şirkətləri ilə 1994-cü ilin mayında Türkiyənin İstanbul şəhərində aparılan danışıqlar çox ağır gedirdi. Prezident Heydər Əliyevin gərgin siyasi və diplomatik səyləri nəticəsində daxili ictimai-siyasi sabitliyin bərpası ölkənin milli mənafelərini təmin edə biləcək müqavilənin imzalanması üçün danışıqlar prosesini sürətləndirdi. Aparılan danışıqların daha nəticəli olması üçün Prezident Heydər Əliyevin fərmanı ilə 1994-cü il martın 1-də İlham Əliyev ARDNŞ-in birinci vitse-prezidenti təyin edildi. İlham Əliyev sonralar «Caspian energy» jurnalına verdiyi müsahibəsində deyirdi: «Bu zaman bizim qarşımızda üç əsas vəzifə dayanmışdı: birincisi, müqavilənin imzalanmasına nail olmaq. İkincisi, müqavilədə Azərbaycan üçün ən əlverişli həm hüquqi, həm də iqtisadi şərtlər yaratmaq. Üçüncüsü isə müqavilənin işləməsinə nail olmaq».

O vaxt çox ağır vəziyyətdə olan Azərbaycan Respublikası üçün bu vəzifələri yerinə yetirmək heç də asan deyildi. Danışıqların son mərhələsində xarici şirkətlərin nümayəndələri müqavilənin qüvvəyə minməsini onun imzalanmasından və ölkə parlamentində ratifikasiyasından sonra deyil, yalnız Xəzər dənizinin statusunun həll olunmasından sonra qəbul edəcəklərini söylədilər. Təbii ki, Azərbaycan

Respublikası hökuməti buna razı ola bilməzdi. Çünki bu şərtin qəbul edilməsi müqavilənin kağız üzərində qalacağı demək idi. Buna görə də Prezident Heydər Əliyevin tapşırığı ilə ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ABŞ-ın hökumət nümayəndələri ilə danışıqlar aparmaq üçün Vaşinqtona yollandı və danışıqlar öz müsbət nəticəsini verdi.

Yuxarıda deyildiyi kimi, Rusiya Federasiyasının təcavüzkar dairələri Azərbaycan Respublikasının Xəzər dənizində xarici şirkətlərlə neft hasilatına dair müqavilə imzalamasına yol vermək istəmirdi. Xəzərin Azərbaycan Respublikası sektorunda neft yataqlarının xarici neft şirkətlərilə birgə işlədilməsinə dair müqavilənin imzalanmasında müəyyən irəliləyişlər nəzərə çarpmağa başlayanda Moskva Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan Respublikasının dövlət müstəqilliyinə zərbə vura biləcək təkliflər irəli sürərək, onun iqtisadi maraqlarının dənizin yalnız 12 millik zonası ilə məhdudlaşacağını bildirdi. Bu isə Azərbaycan Respublikasının öz sektorunda yerləşən «Azəri», «Çıraq» və «Günəşli» neft yataqları üzərində nəzarətini itirməsi demək idi. 1994-cü ilin yazında RF bu məsələ ilə bağlı çox fəal diplomatik addımlar atmağa başladı. Həmin il aprel ayının 27-də RF XİN Böyük Britaniya XİN-ə nota göndərərək, Azərbaycan Respublikasının Xəzər dənizində yerləşən neft yataqları ilə bağlı müstəqil olaraq hər hansı bir müqavilə imzalamaq hüququ olmadığını bildirdi. 1994-cü ilin yazında isə RF XİN-in təqdimatı əsasında Prezident B.Yeltsin Azərbaycan Respublikasına qarşı sanksiyalar nəzərdə tutan 396 RPS saylı sərəncam imzaladı. Rusiya hökuməti Xəzər dənizinin statusu məsələsini ortaya ataraq, Azərbaycan Respublikası ilə İngiltərə arasında 1994-cü ildə imzalanmış «Energetika sahəsində əməkdaşlıq haqqında» memorandumda «Xəzər dənizinin Azərbaycan sektoru» ifadəsinin işlədilməsini qəbul etmədiyini bəyan etdi. Böyük Britaniya səfiri Brayan Folla verilən notada həmçinin Xəzər dənizində neft yataqlarının işlədilməsinə dair hər hansı bir müqavilənin Rusiya Federasiyası hökuməti tərəfindən tanınmayacağı bildirilirdi. Böyük Britaniyanın energetika naziri Tim Eqqar Bakıya səfər edərək, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə, Xarici İşlər Nazirliyinin və ARDNŞ-in rəhbərliyi ilə apardığı danışıqlardan sonra «RF XİN-in notasına əhəmiyyət verməmək» və əməkdaşlığın davam

etdirilməsi haqqında qərar qəbul edildi. Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində İngiltərə, ABŞ, Türkiyə, Rusiya Federasiyası və başqa ölkələrin neft şirkətləri ilə aparılan intensiv danışıqlar 1994-cü il sentyabrın 20-də Azərbaycanın iqtisadi və siyasi həyatında mühüm bir hadisə ilə başa çatdı. ARDNŞ ilə neft hasilatında böyük təcrübəsi olan ABŞ, İngiltərə, Rusiya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanının iri neft şirkətləri («Amoko», «Penzoyl», «Yunokal», «Ekson», «Remko», «MakDemott», «LUKoyl», «Britiş-Petroleum», «Stat-Oyl», «Türkiyə Petrolleri AO», «Delta») arasında 30 il müddətinə ilk müqavilə imzalandı. Sonralar «Əsrin müqaviləsi» adlandırılan bu müqavilənin şərtlərinə görə, 30 il ərzində Xəzər dənizinin «Günəşli», «Çıraq», «Azəri» neft yataqlarından 511 mln. ton neft çıxarılması, bunun həyata keçirilməsi üçün 7,4 milyard dollar sərmayə qoyulması nəzərdə tutulurdu. Təkcə Azərbaycan Respublikasının payına düşəcək neftin satışından əldə olunacaq gəlirin təqribən 34 milyard dollar olacağı hesablanmışdı. Müqavilənin şərtlərinə uyğun olaraq Azərbaycan Respublikasının əldə edəcəyi gəlirin üç mənbədən olduğunu nəzərə alsaq, təqribi hesablamalara görə, ölkənin gələcəkdə 70-80 mlrd. dollar həcmində gəlir götürəcəyi ehtimalı vardır.

1994-cü il dekabrın 12-də «Əsrin müqaviləsi» Milli Məclis tərəfindən ratifikasiya olunduqdan sonra Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının qanunu kimi qüvvəyə mindi. «Əsrin müqaviləsi»nin minlərlə yeni iş yerlərinin açılması və Azərbaycan Respublikası vətəndaşlarının işlə təmin olunması üçün geniş imkan yaradacağı artıq reallığa çevrilmişdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev müsahibələrinin birində milli neft strategiyası işini belə qiymətləndirmişdir: «Mən neft strategiyasını yaratdım və bunu həyata keçirirəm. Axı bilirəm ki, neft sənayesi nədir. Mən Azərbaycanın neft sənayesi ilə 40 il məşğul olmuşam. Nəinki buradakı sənaye ilə, SSRİ-nin bütün neft regionlarının hamısı ilə məşğul olmuşam. Mən bilirəm ki, nə lazımdır. Bilirdim ki, bizim bundan başqa yolumuz yoxdur».

Məhz buna görə də, 1995-ci il oktyabrın 9-da müqavilə iştirakçılarının Rəhbər komitəsinin iclasında iştirak edən Prezident Heydər Əliyev müqavilənin ölkəmiz üçün əhəmiyyətini belə qiymətləndirmişdi: «...

lıqlı əlaqədə olan iki amillə şərtlənirdi: 1) inzibati-amirlik sistemindən tənzimlənən bazar iqtisadiyyatına keçid; 2) bu keçidin reallaşdığı sosial-iqtisadi və siyasi şərait.

İnzibati-amirlik sistemindən qarışıq iqtisadiyyata keçid şəraitində iqtisadi siyasətin xüsusiyyətləri onunla əlaqədardır ki, hələ özünütənzimləmə və özünü inkişaf etdirmə mexanizminə malik olan sabit bir sistem formalaşmamışdı. Bu halda isə dövlət tərəfindən tənzimləmə ilə bazar tənzimləməsi vahid mexanizm əmələ gətirir və onlar biri-birini tamamlamaqla, bütövlükdə iqtisadi sistemin fəaliyyət göstərməsini təmin edir.

Pul-kredit sferasında ciddi dövlət tənzimləmələrinə yalnız 1995-ci ildən, yəni Ümummilli lider Heydər Əliyevin uzaqgörənliyi ilə siyasi və iqtisadi sabitlik təmin edildikdən sonra, birbaşa dahi şəxsiyyətin öz rəhbərliyi ilə başlandı.

Azərbaycan Respublikasının mövcud qanunvericiliyi ilə pul-kredit siyasətini Milli Bank həyata keçirirdi. Milli Bank haqqında qanunla yanaşı, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatda maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında» 1994-cü il 15 iyun tarixli fərmanı və Milli Məclisin 1994-cü il 28 iyun tarixli «1994-cü il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri haqqında» qərarı pul-kredit siyasətinin uzun bir dövr üçün yeni mərhələsinin başlanğıcını qoydu.

Mövcud xaotikliyi aradan qaldırmaq, pul-kredit sahəsində ciddi və səmərəli dövlət tənzimləməsinə nail olmaq normativ-hüquqi bazanın tələblərinin sərtləşdirilməsini zəruri edirdi. Məhz bu baxımdan yeni pul-kredit siyasətinin mahiyyətini də ölkədə kredit siyasətini sərtləşdirmək, əsassız və ucuz pul-kredit emissiyasının qarşısını almaq, nəticə etibarilə pul kütləsinə nəzarəti gücləndirmək, maliyyə sabitliyinin əsas göstəricisi olan inflyasiya tempinin minimuma endirilməsinə və xarici dönərli valyutalara nisbətdə milli valyutanın məzənnəsinin möhkəmlənməsinə nail olmaq təşkil etmişdir.

Əsas məqsədi milli valyutanın möhkəmləndirilməsi və ölkədə valyuta sabitliyinin təmin edilməsi olan «Sabitləşdirmə proqramı» BVF-du ilə birlikdə hazırlanmışdı. 1993-cü ilin əvvəllərində manatın məzənnəsi: 1 dollar = 118 manat idi. İnflyasiyanın dərinləşməsi nəticə-

sində 1995-ci ilin əvvəllərində paritet 4326 manata yüksəlmişdi. Görülən tədbirlər nəticəsində 1998-ci ilin əvvəlində 1 dollar = 3906 manat ətrafında sabitləşməyə başladı, inflyasiya isə 4,2 faizə qədər aşağı salındı.

Araşdırmalar göstərir ki, bütün bunlara Prezident Heydər Əliyevin birbaşa nəzarəti və göstərişləri ilə Milli Bank tərəfindən 1995-ci ildən sonra həyata keçirilən sərt pul-kredit siyasəti vasitəsilə nail olunmuşdu. Eyni zamanda, müşahidələrdən aydın olur ki, ölkədə maliyyə sabitliyinin təmin olunmasında manatın məzənnəsinə müdaxilə mühüm rol oynamışdır. Həmin dövrdə ölkə idxaldan asılı olduğuna görə və iqtisadi böhranın tezliklə aradan qaldırılması mümkün olmadığı üçün nisbi sabit məzənnə siyasəti dəstəklənirdi. Hətta manatın məzənnəsi inflyasiya tempindən nisbi yüksək səviyyədə saxlandı. Bu siyasət ölkəyə mal axınını artırdı, bolluq oldu, qiymətləri sürətlə aşağı saldı və nəticədə sabitlik yarandı.

1998-ci ildən sonra isə pul-kredit siyasətinin başlıca istiqamətləri 1994-cü ildən başlayaraq həyata keçirilən yeni pul-kredit siyasətinin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi irsini saxlayaraq yeni reallıqları, iqtisadiyyatda, xüsusilə maliyyə-kredit sferasında baş verən dəyişiklikləri, əldə olunmuş nailiyyətləri nəzərə almaqla yeni konkret tədbirlərlə bu siyasətin daha da təkmilləşməsinə yönəlmişdi.

1998-ci ildən sonra respublikada həyata keçirilən pul-kredit siyasətinin əsas məqsədi davamlı maliyyə sabitliyinə və bank sisteminin inkişafına nail olmaq, milli valyutanın məzənnəsini çevik tənzimləməklə onun sabitliyini qorumaq, beynəlxalq normalara uyğun xarici valyuta ehtiyatları yaratmaqdan ibarət idi. Bütün bunlar isə ÜDM-in artımının davamlı xarakter almasına, iqtisadiyyatda struktur dəyişikliklərinə nail olunmasına yönəlmiş genişmiqyaslı iqtisadi islahatların uğurlu aparılmasına daha əlverişli şərait yaradılmasına xidmət edirdi.

1994-cü ilin əvvəllərindən milli valyuta respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu, dövlət başçısının 1994-cü il 14 may tarixli fərmanı ilə kredit siyasətində ciddi dönüş yarandı və respublika banklararası valyuta birjasının fəaliyyəti formalaşdırıldı. 1995-ci ilin fevralında Prezident Heydər Əliyev ölkədə valyuta bazarının təşkili haqqında fərman verdi və bundan sonra valyuta ehtiyatları bazar va-

sitəsilə tənzimlənməyə başlandı. Ölkə daxilində aparılan çoxsaylı islahatlarla yanaşı, Azərbaycan Respublikası dünyanın nüfuzlu maliyyə təşkilatları olan Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və s. ilə əməkdaşlığın təşkili və digər istiqamətlərdə də ardıcıl tədbirlər həyata keçirirdi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ardıcıl və qətiyyətlə görülən işlər, qəbul edilən qərarlar, yüksək uzaqgörənliklə həyata keçirilən daxili və xarici siyasət büdcə kəsirinin qarşısının alınmasına, manatın dollara nisbətən dəyərinin möhkəmlənməsinə, istehlak qiymətlərinin sabitləşməsinə imkan verdi ki, bu da inflyasiyanın cilovlanmasına şərait yaratdı. Təbii ki, bütün bunlar mühüm makroiqtisadi göstərici kimi iqtisadi tərəqqiyə, investorların cəlb olunmasına münasib imkanlar yaradırdı.

1997-ci ildən etibarən dövlət büdcəsi xərclərinin səmərəli təşkili, iqtisadi idarəetmədə şəffaflığın təmin edilməsi, maliyyə vəsaitlərinin məqsədli istifadəsi üçün xəzinədarlıq sistemi qurulmağa başlandı.

Dövlətin pul-kredit metodları ilə iqtisadiyyata təsiri pul tədavülü dairəsi ilə əmtəə və xidmətlərin istehsalı dairəsinin qarşılıqlı əlaqədə fəaliyyət göstərməsini nəzərdə tutur. Burada bazar iqtisadiyyatı infrastrukturunun hərəkətverici amili olan kredit-bank sistemi xüsusi rol oynayır.

Tarixi təcrübə göstərir ki, yeni iqtisadi sistemə keçən ölkələrin əksəriyyəti üçün pul-kredit siyasətinin məqsədi və tənzimləmə vasitələrinin düzgün seçilməsi mühüm və mürəkkəb məsələlərdən biridir. Bu ölkələrin, demək olar, hamısı üçün pul-kredit siyasəti antiinflyasiya yönümlüdür ki, bu da mövcud iqtisadi şəraitlə əlaqədardır. Antiinflyasiya siyasəti, bir qayda olaraq, bazar münasibətləri əsasında iqtisadiyyatın yenidən qurulmasının ilk dövrlərində sabitləşdirmə proqramının əsasını təşkil edir. İqtisadiyyatın sabitləşdirilməsinə isə iki yolla nail olmaq mümkündür.

Əvvəla, müxtəlif inflyasiya mexanizmləri mövcuddur və bunlara uyğun olaraq pul tənzimləməsinin metod və vasitələrindən istifadə edilir. Azərbaycan Respublikasında inflyasiya prosesini xarakterizə etmək üçün yalnız tələbin və xərclərin inflyasiyası ilə kifayətlənmək olmaz. Çünki ölkədə inflyasiyanın səbəblərindən danışarkən iqtisadi strukturun təkmil olmaması nəzərdən qaçırılmamalıdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişinin ilk illərindən başlayaraq,

struktur islahatları istiqamətində müvafiq qərar və qanunların qəbul edilməsi də məhz bu məqsədə xidmət edirdi. Ulu öndər dəfələrlə öz çıxışlarında demişdir ki, ölkədə iqtisadi sabitliyin təmin olunmasının, inflyasiya, işsizlik və s. kimi inkişafı ləngidən ciddi problemlərin qarşının alınmasının ən qısa yolu səmərəli formada həyata keçirilən struktur islahatlarıdır.

Pul-kredit siyasəti sahəsində nailiyyətlərin qazanılması həm də seçilmiş prinsiplərdən asılıdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə bazar iqtisadiyyatına keçid dövrünün əvvəllərində ağır iqtisadi böhranın aradan qaldırılması üçün bir sıra tədbirlər görülmüşdür. Artıq 1990-cı illərin ikinci yarısından etibarən pul-kredit siyasətinin formalaşdırılmasının əsasında aşağıdakı makroiqtisadi məqsədlərə nail olunması dururdu:

– maliyyə sabitliyinin yaradılması və bu sahədə əldə edilmiş nəticələrin möhkəmləndirilməsi;

– inflyasiyanın sürətinin azaldılması;

– iqtisadi subyektlərin formalaşmaqda olan yeni şəraitə uyğunlaşdırılması üçün əlverişli mühitin yaradılması;

– milli valyutanın məzənnəsinin möhkəmləndirilməsi;

– iqtisadiyyatda nominal və real faiz dərəcələrinin azaldılması;

– ölkənin ödəmə balansının müsbət saldosunun təmin edilməsi;

– qeyri-inflyasiya iqtisadi artım meylinə nail olunması və onun möhkəmləndirilməsi.

Bu məqsədlərə xidmət edən Azərbaycan Respublikasının Milli Bankı qarşısında əsas vəzifəsi kimi milli valyutanın – manatın sabitliyini təmin etmək və onu qoruyub saxlamaq kimi mühüm məsələ qoyulmuşdur ki, bütün bunlar da aşağıdakı zəruri şərtlərdən asılı idi:

– pul emissiyası üzərində sərt nəzarətin həyata keçirilməsi;

– çevik idarə olunan valyuta məzənnəsi siyasətinin yeridilməsi;

– bazar mexanizmlərinin daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi;

– pul-kredit siyasətinin başlıca vasitələrindən olan Milli Bankın apardığı əməliyyatlara görə faiz dərəcələrindən məqsədyönlü istifadə edilməsi.

Bu istiqamətdə əsas tədbirlərdən biri də maliyyə siyasətinin mühüm tərkib hissəsi olan ölkənin sərmayə siyasəti ilə, daha doğrusu, öl-

kənin sərmayə cəlbediciliyinin təmin olunması ilə əlaqədardır. Əksər dünya təşkilatları və ölkələri yenicə müstəqillik qazanmış keçmiş postsovet ölkələrinə riskli, sərmayə qoyuluşu üçün o qədər də əlverişli olmayan bir məkan kimi yanaşırdı. Ona görə də ölkədə müvafiq normativ hüquqi bazanın formalaşdırılması, xarici və yerli sərmayələrin etibarlılığının təmin edilməsinin xüsusi əhəmiyyəti vardı. Bu baxımdan da Prezident Heydər Əliyev xarici sərmayəçilərə və kreditorlara təminat verən, onları müdafiə edən qanunların hazırlanıb qəbul edilməsi üçün müvafiq tapşırıqlar verdi. Qəbul edilmiş qanunlara görə, fiziki və ya hüquqi şəxslər respublikada on il müddətində sərmayəni qoyduğu şərtlərlə işləmək hüququ əldə etdi. Xarici səhmdarların gəlirlərinin repatriasiya olunması haqqında da qanun qəbul olundu.

Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, mühüm iqtisadi tədbirlərin həyata keçirilməsinə, eləcə də SSRİ-nin süqutundan sonra böhran vəziyyətinə düşmüş müəssisələrin dirçəldilməsinə əvəzsiz kömək etdi. Təkcə 1995-ci ildə Dünya Bankı Azərbaycan Respublikasına reabilitasiya layihəsi üçün 65 milyon dollar kredit ayırmışdı ki, bunun da o dövrdə öz potensialını hələ tam və səmərəli reallaşdıra bilməyən müstəqil Azərbaycan Respublikası üçün böyük əhəmiyyəti vardı. Əməkdaşlığın genişləndirilməsi və ikitərəfli münasibətlərin daha da səmərələşdirilməsi istiqamətində Heydər Əliyev tərəfindən görülən tədbirlərin nəticəsi idi ki, 1997-ci ildə təkcə Dünya Bankı Azərbaycan Respublikasında 195 milyon dollar dəyəri olan altı böyük layihəni maliyyələşdirirdi. Artıq Azərbaycan Respublikası haqqında formalaşmış riskli və təhlükəli, xarici sərmayədarların marağını cəlb etməyən, geridə qalmış bir ölkə imici əlverişli sərmayə mühiti olan, etibarlı və təhlükəsiz, sürətlə inkişaf edən və ən əsası isə güclü siyasi-iqtisadi sabitliyə malik bir ölkə imici ilə əvəz olunmuşdu. Təbii ki, bütün bunların başlıca amili Ümummilli lider Heydər Əliyevin beynəlxalq təşkilatlarda olan böyük nüfuzu, dahi şəxsiyyətin bütün sahələrdə inkişafa aparan tarazlı siyasəti və ən əsası, Ulu öndərin, milli maraqları, dövlətçilik ənənələrini hər şeydən üstün tutması idi.

Ölkə iqtisadiyyatının dirçəldilməsi və inkişaf etdirilməsi üçün xarici sərmayələr cəlb etmək olduqca vacib idi. Respublikanın geniş iqti-

sadi, təsərrüfat və sənaye potensialı, eyni zamanda böyük sərmayə qoyuluşu imkanlarını təbliğ etmək məqsədilə 1995-2004-cü illərdə Bakıda və Böyük Britaniya, Fransa, Türkiyə, Avstriya və digər ölkələrdə beynəlxalq biznes konfransları keçirilmiş, Azərbaycan Respublikasının iqtisadi imkanları, ölkədə sərmayədar fəaliyyəti üçün əlverişli mühitin olduğu bəyan edilmiş, dünyanın aparıcı iş adamları, təşkilatlar və nüfuzlu şirkətlər ölkəyə dəvət olunmuşdu.

Sərmayə mühiti dedikdə, kapitalın tətbiq olunduğu ölkədəki mövcud şərait nəzərdə tutulur. Bu şəraitə siyasi, iqtisadi, maliyyə, sosial, təşkilati-inzibati və digər amillər təsir edir. Ölkənin və ya regionun sərmayə qoyuluşu potensialını müəyyən edərkən makroiqtisadi, sosial-demoqrafik və digər amillər də nəzərə alınır.

Azərbaycan Respublikasında böyük sərmayə imkanları var və respublika özünün əlverişli coğrafi mövqeyi sayəsində Avropa ilə Asiya ölkələri arasında ticarət-iqtisadi və mədəni əlaqələrin həyata keçirilməsində mühüm rol oynayır. Ölkəmizin həm də zəngin təbii ehtiyatları və böyük iqtisadi potensialı var. Bu imkanların reallaşdırılması və milli iqtisadiyyatın dünya iqtisadiyyatına əlverişli inteqrasiya olunması isə bütün tələblərə cavab verən sağlam sərmayə mühitinin yaradılması əsasında mümkündür.

Ölkəmizdə maliyyə sisteminin sabitləşdirilməsi və möhkəmləndirilməsi, əlverişli pul-kredit siyasətinin həyata keçirilməsi, milli valyutanın etibarlılığının və dönərliliyinin təmin edilməsi, ilk növbədə, bank sisteminin fəaliyyətinin nizamlanmasını və beynəlxalq standartlara uyğunlaşdırılmasını tələb edirdi. Ona görə də 1992-ci ildə tələmtələsik qəbul edilmiş «Azərbaycan Respublikasının Milli Bankı haqqında», «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» və digər qanunlar 1996-cı ildə beynəlxalq standartlara uyğunlaşdırılaraq, yeni redaksiyada qəbul olunmuşdur. Bütün bunlar isə ölkədə pul-kredit siyasətini həyata keçirən mərkəzi icra orqanı kimi Milli Banka respublikada bank islahatlarının aparılmasını sürətləndirmək, daha fəal və çevik pul-kredit siyasəti yeritmək imkanı verdi. Nəticədə bankların kapital bazası 22 dəfə, əhalinin banklardakı əmanətləri 8 dəfə, kredit qoyuluşu 3 dəfə artmışdı.

1995-ci ildən etibarən ölkədə həyata keçirilən pul-kredit siyasətinin mühüm qollarından birini də ölkədə bank infrastrukturunun tək-

milləşdirilməsi təşkil etmiş və bu sahədə də mühüm işlər görülmüşdür. Belə ki, 2000-ci ildə Milli Bankın özündə aparılmış struktur dəyişiklikləri bank nəzarəti funksiyalarını daha səmərəli yerinə yetirməyə şərait yaratmış, elektron ödəniş sisteminə keçid respublika daxilində banklararası ödəniş sistemini köklü şəkildə yaxınlaşdırmış və ödənişlərin bir neçə saniyə ərzində həyata keçirilməsini mümkün etmişdir.

Araşdırmalar göstərir ki, milli maliyyə bazarının əsaslı inkişafında Bakı Fond Birjasının fəaliyyətə başlamasının böyük əhəmiyyəti olmuşdur. Hazırda burada qısamüddətli dövlət istiqrazlarının ilkin yerləşdirilməsi ilə yanaşı, respublikanın bir sıra aparıcı korporasiya, cəmiyyət və banklarının səhmləri və digər qiymətli kağızları da alınıb-satılır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazanandan sonra ölkədə daxili maliyyə bazarının bərpası prosesi başlanmışdı. Bu iş çox mürəkkəb və genişmiqyaslı olduğuna görə vaxt tələb edirdi. Buna baxmayaraq, tarixi baxımdan qısa bir vaxtda qanunverici hüquqi aktlar və normativ sənədlər əsasında milli maliyyə bazarının əsas iştirakçıları olan maliyyə-kredit təsisatları kapitalın paylanması və yenidən paylanması üzrə xidmətlərin müasir mexanizmini yarada bildilər. Azərbaycanın maliyyə bazarı çətinliklərlə dolu formalaşma mərhələsini geridə qoyaraq inkişaf dövrünü yaşayır. Məhz buna görə də gələcək inkişaf strategiyasının işlənib hazırlanması, istifadə olunan alətlərin geniş çeşidi və beynəlxalq maliyyə bazarına öz alətləri ilə, o cümlədən qiymətli kağızlarla inteqrasiya etməyə qadir olan, habelə beynəlxalq miqyasda xidmət göstərə bilən maliyyə xidmətləri kompleksi, eləcə də yeni iştirakçıların – emitent (bələdiyyələr, korporasiyalar) və sərmayədarların cəlb edilməsi ilə universal maliyyə bazarının yaradılması əsas məsələdir.

1995-ci ildən etibarən istər dövlət büdcəsinin gəlir və xərcləri, istər milli iqtisadiyyata sərmayə qoyuluşlarının, istərsə də kreditlərin həcmi və miqyası xeyli artmışdır. Bu isə ölkədə daha genişmiqyaslı və əhatəli sosial islahatların həyata keçirilməsinə imkan yaratmışdır. Ona görə ki, sosial islahatların başlıca maliyyə mənbəyi dövlət büdcəsidir ki, bu səbəbdən də büdcə daxilolmalarının artımı iqtisadiyyatın sosial yönümlülüyünün təmin olunmasına kömək edir.

Dövlət büdcəsinin gəlir və xərcləri

	1999	2000	2001	2002	2003	2004	2004/2003 %-lə
Gəlirlər-cəmi, mlrd. manat	2797.6	3573.2	3924.0	4551.2	6104.5	7405.8	+21.3
o cümlədən:							
əlavə dəyər vergisi	790.6	954.2	1266.4	1674.4	2048.6	2263.5	+10.5
aksizlər	114.4	112.2	554.6	433.3	335.2	362.2	+8.1
Mənfəətdən vergi	366.9	629.6	588.2	739.1	891.5	1117.2	+25.3
mədən vergisi (royaltı)	179.6	251.8	237.5	250.1	283.5	489.2	+72.6
əhalidən gəlir vergisi	450.4	469.9	473.6	548.3	752.1	1107.9	+47.3
xarici iqtisadi fəaliyyətdən vergi	317.6	316.9	299.6	376.0	463.5	507.5	+9.5
rüsumlar və qeyri vergi ödənişləri	397.5	589.6	326.3	316.9	1048.7	1244.8	+18.7
torpaq vergisi	42.3	33.4	52.1	44.0	56.6	70.7	+24.9
sair	138.3	215.6	125.7	169.0	224.8	242.8	+8.0
Xərclər-cəmi, mlrd.manat	3257.2	3819.8	4037.5	4658.8	6172.7	7505.0	+21.6
o cümlədən:							
iqtisadiyyata	331.3	447.2	512.2	685.0	1214.6	1454.6	+19.8
sosial-mədəni tədbirlərə	1674.3	1913.3	1981.8	2248.0	2676.0	3211.3	+20.0
onlardan:							
təhsilə	795.1	909.2	931.1	956.2	1174.2	1469.9	+25.2
mədəniyyət və kütləvi informasiya vasitələri və idmana	89.1	102.7	109.9	116.6	155.2	191.5	+23.4
səhiyyəyə	186.2	204.7	210.1	224.1	276.6	367.6	+32.9
sosial-müdafiə və sosial təminat fonduna	603.9	696.7	730.7	951.1	1070.0	1182.3	+10.5
hüquq mühafizə orqanlarına	344.4	372.1	427.4	472.8	602.8	779.8	+29.4
dövlət hakimiyyəti və idarəetmə orqanlarının saxlanması xərcləri	178.2	185.0	241.3	272.6	343.8	448.1	+30.3
sair	729.0	902.2	874.8	980.4	1335.5	1611.2	+20.6

Cədvəldən göründüyü kimi, büdcə gəlirlərinin əsasını təşkil edən müxtəlif təyinatlı vergilərin həcmində ilbəil artımın olması məhz həyata keçirilən səmərəli və düşünülmüş iqtisadi siyasətin, o cümlədən maliyyə-kredit siyasətinin nəticəsidir. Başqa sözlə, səmərəli maliyyə və pul-kredit siyasəti sərmayə və kreditlər üçün əlverişli mühit formalaşdırmışdır ki, bu da özəl sektorun, sahibkarlığın inkişafını və nəticədə büdcə gəlirlərinin artımını təmin edir.

Azərbaycan Respublikası iqtisadiyyatına kredit qoyuluşları 1993-cü illə müqayisədə 1994-cü ildə 7,5 dəfə, 1995-ci ildə 2,3 dəfə, 1996-cı ildə 1,3 dəfə, 1997-ci ildə 6,7 faiz, 1998-ci ildə isə 9,8 faiz çox olmuşdur.

İqtisadiyyata kredit qoyuluşları (ilin axırına, mlrd. manat) [637].

	1995	1998	1999	2000	2001	2002	2003
İqtisadiyyata kredit qoyuluşları	1449.0	2133.6	2215.5	2321.8	2431.3	2592.9	3339.1
onlardan:							
qısamüddətli	1264.8	2087.7	2160.5	1672.0	1769.9	1861.8	2425.0
yekuna görə, faizlə	87.3	97.8	97.5	72.0	72.8	71.8	72.6
uzunmüddətli	184.2	45.9	55.0	649.8	661.4	731.1	914.1
yekuna görə, faizlə	12.7	2.2	2.5	28.0	27.2	28.2	27.4

1995-ci ildən etibarən Azərbaycan Respublikasının maliyyə sistemində yaranmış sabitlik sərmayə qoyuluşlarında da özünü göstərmişdir. Belə ki, 1995-ci ildən başlayaraq kredit qoyuluşlarında olduğu kimi, sərmayə yatırımlarında da ciddi artıma nail olunmuşdur. Təbii ki, ölkənin yeni inkişaf yollarının müəyyən edildiyi, bu istiqamətdə müvafiq tədbirlərin görüldüyü ilk illərdə, eləcə də «Əsrin müqaviləsi»nin və digər layihələrin icrası bu dövrə təsadüf etdiyi üçün iqtisadiyyatda xarici sərmayələr üstün yer tuturdu.

İqtisadiyyata yönəldilən sərmayələr [637].

	1995	1999	2000	2001	2002	2003
Bütün mənbələr üzrə sərmayə qoyuluşları (xarici sərmayələr nəzərə alınmaqla):						
Mlrd.manat	2403.4	6469.2	6448.9	7272.5	13590.1	20729.7
Mln.dollar	544.0	1571.0	1441.4	1561.8	2796.6	4221.3
Xarici sərmayələr:						
Mlrd.manat	1657.0	4493.0	4147.5	5083.9	10859.9	16074.5
Mln.dollar	375.1	1091.1	927.0	1091.8	2234.9	3273.3
Ümumi həcmdə payı, %-lə	68.9	69.5	64.3	69.9	79.9	77.5
Daxili sərmayələr						
Mlrd.manat	746.4	1976.1	2301.4	2188.6	2730.2	4655.2
Mln.dollar	168.9	479.9	514.4	470.0	561.7	948.0
Ümumi həcmdə payı, %-lə	31.1	30.5	35.7	30.1	20.1	22.5

Ümumilikdə 1993–2003-cü illəri Azərbaycan Respublikasına xarici sərmayələrin axın dövrü hesab etmək olar. Çünki bu dövrdə xarici investisiyalar ilbəil nəzərəçarpacaq həddə çoxalmışdı. 2003-cü ildən sonra isə yerli mənbələr hesabına reallaşdırılan layihələr daha çox olmuşdur.

Xarici sərmayələr (mln. ABŞ dollar) [637].

	1995	1999	2000	2001	2002	2003
Cəmi xarici investisiya	375,1	1091,1	927,0	1091,8	2234,9	3273,3
Ondan:						
Maliyyə kreditləri	220,4	336,2	262,9	192	223,0	213,0
Ümumi həcmdə %-lə	58,8	30,8	28,4	17,6	9,8	6,5
Neft sənayesinə	139,8	544,5	546,1	820,5	1693,0	2810,2
Ümumi həcmdə %-lə	37,3	49,9	58,9	75,2	72,9	85,9
Birgə müəssisə və xarici firma	14,9	210,4	118	79,3	318,9	250,1
Ümumi həcmdə %-lə	3,9	19,3	12,7	7,2	17,3	7,6

Azərbaycan Respublikasının milli iqtisadiyyatı neft və qeyri-neft sektoru olmaqla iki böyük istiqamətə ayrılır ki, bu da hər iki sektorun tarazlı inkişafını tələb edir. Eyni zamanda maliyyə və pul-kredit siyasətinin də başlıca məqsədlərindən biri milli iqtisadiyyatın tarazlı inkişafını təmin etməkdir. Statistik məlumatlar göstərir ki, 1993–2000-ci illər ərzində dövlətin iqtisadi siyasətinin əsas istiqamətini neft sektorunun inkişafı təşkil edirdisə, 2000-ci ildən sonrakı illərdə də qeyri-neft sektoruna üstünlük verilmişdir.

Neft sektoru və qeyri-neft sektorunda əsas kapitala yönəldilmiş sərmayələr [637].

	Cəmi		o cümlədən:					
			neft sektoru			qeyri-neft sektoru		
	min manat	xüsusi çəkisi, faizlə	min manat	əvvəlki ilə nisbətən, %-lə	xüsusi çəkisi, faizlə	min manat	əvvəlki ilə nisbətən, faizlə	xüsusi çəkisi, faizlə
1995	227977.2	100	92456.8	...	40.6	135520.4	...	59.4
1996	644453.5	100	429305.0	...	66.6	215148.5	...	33.4
1997	910237.4	100	535826.0	...	58.9	374411.4	...	41.1
1998	1102425.6	100	770340.5	...	69.9	332085.1	...	30.1
1999	928547.9	100	398599.4	...	42.9	529948.5	...	57.1
2000	967821.1	100	501907.9	...	51.9	465913.2	...	48.1
2001	1170820.3	100	686551.4	137.7	58.7	484268.9	102.6	41.3
2002	2106976.7	100	1448392.4	2.1 d.	68.8	658584.3	147.2	31.2
2003	3786366.7	100	2771092.1	192.2	73.2	1015274.6	137.9	26.8
2004	4922755.9	100	3708138.4	133.8	75.3	1214617.5	140.3	24.7

Beləliklə, aparılan təhlil və araşdırmalardan aydın olur ki, 1993–2003-cü illər ərzində Azərbaycan Respublikasının iqtisadiyyatı, o cümlədən maliyyə və pul-kredit sistemi Ümummilli lider Heydər Əliyevin rəhbərliyi və uzaqgörənliyi sayəsində çətin, lakin uğurlu bir formalaşma dövrü keçmişdir. Məhz bu dövrdə həyata keçirilən məqsədyönlü tədbirlər istər ölkənin sərmayə cəlbediciliyinin qorunub saxlanması, istər büdcə gəlirlərinin artırılması, istərsə də Azərbaycan Respublikasının təhlükəsiz, sabit və əlverişli sərmayə mühiti olaraq dünyada və beynəlxalq təşkilatlarda özünü təsdiq etməsi kimi vacib məsələlərin həllinə imkan yaratmışdır.

2.6. Xarici iqtisadi əlaqələr

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra inkişaf etməkdə olan digər ölkələr kimi, bazar iqtisadiyyatına keçidlə əlaqədar milli iqtisadiyyatı struktur cəhətdən təkmilləşdirməklə yanaşı, dünya təsərrüfat sisteminə inteqrasiyaya da nail olmalı idi. Bütün bunlar isə milli maraqlara uyğun daxili və xarici siyasət strategiyasının hazırlanmasını, iqtisadi inkişaf konsepsiyasının müəyyən edilməsini, ölkənin bütün potensialının səfərbər olunmasını tələb edirdi. Lakin respublikada hökm sürən hərc-mərclik, tez-tez baş verən hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzül, əhalinin həyat səviyyəsinin kəskin surətdə aşağı düşməsi Azərbaycan Respublikasının dövlət suverenliyini təhlükə qarşısında qoymuşdu.

Ölkəni bürümüş böhran Azərbaycan Respublikasının beynəlxalq iqtisadi inteqrasiyada fəal iştirakına da imkan vermirdi. Bəzi dövlət müəssisələri və kommersiya strukturları tərəfindən strateji xammalların və maliyyə vəsaitinin respublikadan kənara aparılması hallarının çoxalması, xarici iqtisadi əlaqələrdən əldə edilən gəlirlərin heç də tam geri qayıtmaması iqtisadiyyata dağıdıcı təsir göstərirdi. Barter müqavilələri bağlanarkən daha çox şəxsi maraqlar nəzərə alınırdı, respublikadan ixrac edilən sərvətlərin müqabilində bahalı minik avtomobilləri, məişət texnikası və zinət əşyaları gətirilirdi.

Ölkə daxilində xarici iqtisadi fəaliyyətin düşünülmüş konsepsiyasının və idarəetmə mexanizminin yaradılmaması, xarici ticarətin tələsik liberallaşdırılması əlaqələrdə xaos yaratmış, xoşagəlməz meylləri gücləndirmişdi. Dünya təsərrüfat sisteminin və iqtisadi inteqrasiya prosesinin üstünlüklərindən və imkanlarından istifadə cəhdləri yox dərəcəsində idi.

Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinə aşağıdakı amillər mənfi təsir edirdi:

– qanunvericilik bazanın qeyri-sabitliyi;

– dövlət qurumlarında hökm sürən cinayətkarlıq və korrupsiya;

– yüksək gömrük rüsumları və gömrük nəzarəti orqanlarının infrastrukturunun geriliyi;

– biznes üzrə tərəfdaşların etibarlı olmaması və ixracla bağlı maliyyə vəsaitlərinin vaxtında ödənilməməsi;

– dövlətin qeyri-qənaətbəxş və zəif sığorta təminatı;

– mal və xidmət bazarlarının inhisara alınması, xarici bazarlara aid informasiyanın azlığı;

– ixtisaslı mütəxəssislərin çatışmaması, milli valyutanın dəyərdən düşməsi və sair.

Yeni iqtisadi inkişaf strategiyasının işlənilib hazırlanması, idxal-ixrac əməliyyatlarına dövlət nəzarətinin gücləndirilməsi, ölkənin iqtisadi maraqlarını qorumağa qabil milli gömrük nəzarəti xidmətinin formalaşdırılması, sərhədlərimizin iqtisadi təhlükəsizliyinin təmin edilməsi taleyüklü vəzifələrdən idi.

Yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra ölkənin iqtisadi siyasət strategiyasının başlıca konturlarını müəyyənləşdirmək mümkün oldu. Ölkədə vətəndaş həmrəyliyi və sabitlik təmin edildi, çoxsaylı sosial-iqtisadi problemlərin həlli sahəsində ardıcıl işlərin görülməsinə başlanıldı. İqtisadi sistemin transformasiyasını təmin edən islahatlar və özəlləşdirmənin həyata keçirilməsi nəticəsində sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradıldı.

Heydər Əliyev ölkənin xarici iqtisadi əlaqələrinin beynəlxalq iqtisadi və siyasi mühitdən birbaşa asılı olması və dünya ticarəti sistemində inkişaf etməkdə olan bütün ölkələrə qarşı sərt tələblər irəli sürülməsi kimi amilləri nəzərə alaraq, müvafiq dövlət qurumları qarşısında xarici ticarətin tənzimlənməsi sahəsində ardıcıl tədbirlər görülməsini tələb edirdi. Dövlət başçısı 1993-cü il noyabrın 19-da iqtisadi məsələlərə həsr olunmuş ümumrespublika müşavirəsindəki çıxışında demişdi: «İndi Azərbaycan müstəqil dövlət kimi, bir çox ölkələrlə iqtisadi əlaqələr qurmağa başlamışdır. Ancaq bu əlaqələrin respublika iqtisadiyyatına nə qədər mənfəət gətirdiyi hələ məlum deyil. İqtisadi əlaqələrimizin təşkilində, qurulmasında qüsurlar, səhvlər vardır...eyni zamanda idxal-ixrac əməliyyatlarının səviyyəsi məsələlərini aydınlaşdırmaq lazımdır. Respublikada istehsal olunan bir sıra məhsulların xaricə satılması, əvəzində lazımi mallar alınması və ölkəmizin ehtiyaclarının təmin olunması əsas məsələlərdən biridir. Ancaq bu sahədə də qarışıqlıq, qanun pozuntuları vardır. Bəzən ayrı-ayrı qrupların, dairələrin mənafeyi ümumrespublika, ümumxalq mənafeyindən üstün tutulur. Ona görə də biz bu sahələrdə istənilən nəticəni əldə edə bilmirik» [120 ,257].

Milli iqtisadiyyatın dünya iqtisadi məkanına uyğunlaşdırılması xarici iqtisadi siyasət doktrinasının və onun həyata keçirilməsi strategiyasının hazırlanmasını tələb edirdi. Heydər Əliyev 1994-cü il fevralın 22-də Böyük Britaniya Sənayeçiləri Konfederasiyasındakı nitqində, «Sahibkarlığın strategiyası və iqtisadiyyatın yenidən qurulması» mövzusunda 1994-cü il sentyabrın 13-də Bakıda və Adam Smit İnstitutunun «Azərbaycanda investisiya imkanları» mövzusunda 1995-ci il noyabrın 29-da Londonda keçirilən beynəlxalq konfranslardakı nitqlərində ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası sahəsində Azərbaycan Respublikası dövlətinin qarşısında duran vəzifələrdən danışaraq sahibkarlığa, təşəbbüskarlığa və iqtisadiyyatda sərbəstliyə geniş meydan açmaq niyyətini açıqlamışdı.

Prezidentin imzaladığı «Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması haqqında» 1994-cü il 10 yanvar və «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» 1994-cü il 5 aprel tarixli fərmanların xarici ticarətin genişləndirilməsi baxımından böyük əhəmiyyəti vardı.

Ölkənin iqtisadi təhlükəsizliyinin keşiyində durmalı olan gömrük xidmətində yaranmış böhranlı vəziyyət Azərbaycan Respublikasının iqtisadi əsaslarına son dərəcə sarsıdıcı təsir göstərməklə, bazar iqtisadiyyatına keçid dövründə mövcud çətinlikləri daha da dərinləşdirir, xarici iqtisadi əlaqələrin inkişafına ciddi əngəl törədirdi. Ölkə Prezidentinin «Azərbaycan Respublikası Gömrük Komitəsinin işi haqqında» 1995-ci il 9 yanvar tarixli Fərmanında Nazirlər Kabinetinə vahid gömrük siyasətinin iqtisadi, təşkilati və hüquqi mexanizmi ilə bağlı təklifləri hazırlamaq tapşırıldı [110].

Xarici iqtisadi siyasətin düzgün həyata keçirilməsi üçün aşağıdakı kompleks tədbirlərin görülməsi zəruri idi:

– Azərbaycan Respublikasında istehsal olunan malların dünya bazarına çıxarılmasına əlverişli şəraitin yaradılması, yerli məhsulların keyfiyyətinin yaxşılaşdırılması və beynəlxalq standartlara uyğunlaşdırılması, müəssisələrdə rəqabət qabiliyyətli məhsul istehsalının təmin edilməsi yolu ilə ixrac potensialının artırılması və stimullaşdırılması;

– milli iqtisadiyyatın xarici rəqabətin təsirindən etibarlı surətdə qorunması üçün düşünülmüş gömrük siyasətinin aparılması;

– gömrük və vergi məcəllələrinin təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatlarının lisenziyalaşdırılma və kvota üsulu ilə tənzimlənməsinin məhdudlaşdırılması;

– idxal vergiləri və rüsumlarını vaxtaşırı nəzərdən keçirməklə, mövsümi dəyişikliklər aparılması;

– gömrük orqanları tərəfindən strateji xammalın ixracına və valyuta əməliyyatlarına nəzarət etməklə, ölkənin iqtisadi təhlükəsizliyinin daha etibarlı surətdə təmin olunması;

– ölkədə əlverişli iqtisadi mühit yaratmaqla xarici sərmayələrin cəlbinə nail olunması, istehsal potensialının genişləndirilməsi və onun texniki modernləşdirilməsinə nail olmaq üçün xarici kapitalın milli bazara cəlb edilməsinin kompleks sisteminin formalaşdırılması;

- xarici sərmayə, kredit və yardımlardan istifadə olunmasının səmərəli mexanizminin yaradılması və tətbiq edilməsi.

1996–2003-cü illər ərzində xarici ticarət fəaliyyətinin tənzimlənməsi sahəsində «Azərbaycan Respublikasının Gömrük Məcəlləsi», «Gömrük tarifi haqqında», «Valyuta tənzimi haqqında», «Xarici investisiyanın qorunması haqqında», «İnvestisiya fəaliyyəti haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Mülkiyyət haqqında», «Antiinhisar fəaliyyəti haqqında», «Haqsız rəqabət haqqında» qanunlar və digər hüquqi aktlar qəbul edildi.

1996-cı ildən başlayaraq Azərbaycan Respublikası bir sıra MDB ölkələri ilə azad ticarət rejimi qurdu və bunun üçün hüquqi baza yaradıldı. Həmin dövrdə Birlik dövlətləri arasında həll edilməmiş əsas məsələ azad ticarət zonaları və gömrük rüsumlarının eyniləşdirilməsi haqqında müqavilənin bütün ölkələr tərəfindən ratifikasiya edilməməsi idi. MDB ölkələri ilə iqtisadi əlaqələrin təhlili göstərir ki, 2000-ci ildə Azərbaycan Respublikasından idxal olunan məhsulların 90 faizi Rusiya Federasiyası, Ukrayna və Qazaxıstan Respublikasının, ixracın 92 faizi isə Rusiya Federasiyası, Gürcüstan və Ukraynanın payına düşürdü. MDB ölkələrinə ixrac olunan mal və məhsulların həcminə görə ikinci tərəfdaş ölkə Gürcüstan idi və bu ölkənin payı ixracda 33, 41 faiz olsa da, idxalda cəmi 1, 20 faiz təşkil edirdi [421,19, 38; 15, 29–32].

1996-cı ildə iqtisadi əlaqələrin genişləndirilməsi və əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası – Rusiya Federasiyası Hökumətlərarası Daimi Komissiyası yaradıldı. Rusiya Federasiyasının Moskva, Sankt-Peterburq şəhərləri, Tatarıstan və Dağıstan respublikaları, Sverdlovsk, Saratov, Həştərxan vilayətləri ilə sıx iqtisadi-ticarət əlaqələri quruldu. Azərbaycan Respublikası ilə Başqırdıstan hökuməti, Sankt-Peterburq, Novosibirsk, Kemerovo, Tomsk və Voronej vilayət administrasiyaları arasında ticarət-iqtisadi əlaqələrin genişləndirilməsi haqqında sazişlərin layihələri razılaşdırıldı. 2000-ci ildə respublikanın Rusiya Federasiyasından idxal etdiyi məhsulun həcmi 249,3 mln. ABŞ dolları, həmin ölkəyə ixrac edilən məhsulun həcmi isə 98,3 mln. ABŞ dolları təşkil edirdi. 2003-cü ildə isə iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 532, 9 mln. ABŞ dolları təşkil etdi ki, bu da 2000-ci ilin səviyyəsindən 1,5 dəfə çox idi [9, 115; 26, 22,23].

Azərbaycan Respublikası GUAM çərçivəsində əməkdaşlığa da böyük əhəmiyyət verirdi. GUAM ölkələri MDB-də reallaşdıra bilmədikləri məqsədlərini həmin təşkilat çərçivəsində həyata keçirirdi. Bu ölkələr arasında, əsasən, siyasi xarakter daşıyan əməkdaşlıq getdikcə daha çox iqtisadi inteqrasiyanın konkret çərçivələrinin müəyyənləşdirilməsinə yönəldilirdi.

Azərbaycan Respublikası İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində regional iqtisadiyyatın liberallaşdırılması, iqtisadi əlaqələrin möhkəmləndirilməsi, nəqliyyat, energetika, ticarət və investisiya üzrə əməkdaşlığı zəruri sayırdı. Ulu öndər 1996-cı il mayın 14-də İƏT üzvü olan ölkələrin dövlət başçılarının Aşqabadda keçirilən IV zirvə toplantısındakı çıxışında demişdi: «Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də təşkilatımızda fəal iştirak etmək təkcə iqtisadi maraqlarda deyil, həm də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir» [402, 279].

Azərbaycan Respublikasının Qərblə əməkdaşlığı Avropa İttifaqı (Aİ) və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) ölkələrini əhatə edirdi. 1996-cı il aprelin 22-də Lüksemburq şəhərində «Avropa İttifaqı və onun üzvü olan dövlətlərlə Azərbaycan Respublikası arasında imzalanmış tərəfdaşlıq və əməkdaşlıq sazişi» bu münasibətləri hüquqi

cəhətdən əsaslandırdı. Bu sazişə Azərbaycan ilə Aİ arasında əməkdaşlığın həm siyasi, həm də ticarət sahələri daxil idi. Aİ TASİS proqramı, Fövqəladə Yardım Proqramı, ECNO Humanitar Təşkilatı, FEOGA Ərzaq Yardımı Proqramı, Ərzaq Təhlükəsizliyi Proqramı, Bərpa Proqramı çərçivəsində Azərbaycan Respublikasında müxtəlif layihələrin həyata keçirilməsinə vəsait ayırmağa başladı.

«Bir millət, iki dövlət» arasındakı strateji əməkdaşlığın vəziyyəti və perspektivləri hələ 1991-ci ildən Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Ulu öndər 1994-cü ilin fevralında Türkiyədə rəsmi səfərdə olarkən türk iş adamlarının böyük bir qrupu ilə görüşündə bu əməkdaşlığın məqsədini bir daha vurğulayaraq demişdi: «... Məqsədimiz Azərbaycan iqtisadiyyatının Türkiyə iqtisadiyyatı ilə daha sıx əlaqədə olmasından ibarətdir. Bunun həm iqtisadi, həm mənəvi, həm də siyasi əhəmiyyəti var» [392, 1994, 11 fevral].

1996–2003-cü illər Azərbaycan Respublikası – Türkiyə Cümhuriyyəti iqtisadi əməkdaşlığında keyfiyyətcə yeni bir mərhələni təşkil etdi. İlk illər Türkiyə ilə xarici ticarətimizdə ixracın əsas hissəsi kimya məhsulları, metal və pambıq idisə, sonralar Azərbaycan Respublikasından Türkiyə Cümhuriyyətinə ixracın 70 faizini neft məhsulları təşkil edirdi. 1996-cı ildə Azərbaycanın xarici ticarətində ixracın 6,2 faizi, idxalın isə 22,5 faizi Türkiyə Cümhuriyyətinin payına düşürdü. Lakin 1999-cu ildən başlayaraq Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində Türkiyə Cümhuriyyətinin payı azalmağa başladı. Həmin ildə Türkiyə Cümhuriyyətinin payı idxalda 13,8 faiz, ixracda 7,4 faiz, 2003-cü ildə müvafiq olaraq idxalda 6,4 faiz, ixracda isə 5,1 faiz olmuşdur. Ticarət əlaqələri ilə bərabər, qarşılıqlı investisiya və elmi-texniki əməkdaşlıq da güclənirdi [402, 675, 720; 26, 29; 438, 40-41].

Ötən yüzilliyin sonlarında Prezident Heydər Əliyevin tarixi İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə bu yolun üstündə yerləşən ölkələr tərəfindən ciddi maraqla qarşılandı. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakı şəhərində tarixi İpək yolunun bərpasına dair keçirilmiş beynəlxalq konfransın və imzalanmış sənədlərin mühüm siyasi və iqtisadi əhəmiyyəti oldu. Respublika Prezidentinin «Tarixi İpək yolunun bərpasına dair beynəlxalq Bakı konfransının qərarlarının yerinə yetirilməsi ilə əlaqədar tədbirlər

haqqında» 1998-ci il 26 oktyabr tarixli fərmanında TRASEKA proqramı çərçivəsində imzalanmış çoxtərəfli əsas sazişin həyata keçirilməsi üçün Nazirlər Kabineti və müvafiq icra strukturları qarşısında duran vəzifələr müəyyənləşdirildi [26, 89–92]. 2000-ci ildən bu layihənin hökumətlərarası komissiyasının Katibliyinin Bakıda yerləşməsi Azərbaycan Respublikasının TRASEKA layihəsində Aİ-nin əsas tərəfdaşlarından biri olmasını sübut edir.

Azərbaycan Respublikasının əlverişli geosiyasi mövqeyi, zəngin təbii ehtiyatları, investisiya cəlbediciliyi ABŞ iş adamlarının Azərbaycan Respublikasına marağını artırırdı. Heydər Əliyevin xarici iqtisadi siyasət xətti ABŞ Konqresində Azərbaycan Respublikasını dəstəkləyən qüvvələrin də fəaliyyətini canlandırdı. Hələ 1994-cü il iyulun 16-da Senatın büdcə komissiyası 1995-ci il üçün MDB ölkələrinə maliyyə yardımı məsələlərini müzakirə edərkən Azərbaycana da humanitar yardımın göstərilməsini təmin etmək məqsədilə 907-ci düzəlişi yumşaltmağı təklif etmişdi.

1997-ci il fevralın 18-də Vaşinqtonda «Azərbaycan: kommunizmdən demokratiyaya, neft hasilatının artmasına doğru» mövzusunda keçirilən konfransın böyük əhəmiyyəti oldu. Konfransda Azərbaycan Respublikasını ARDNŞ-in vitse-prezidenti İlham Əliyev və Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Hafiz Paşayev təmsil edirdilər. Konfransda ABŞ tərəfindən isə keçmiş müdafiə naziri R.Çeyni, habelə «Yunokal», «Britiş eyryerz», «Amerikən Telefon ənd Teleqraf», «Ekson», «Oksidental», «Şevron», «Boinq» və digər iri şirkətlərin rəhbərləri iştirak edirdilər [392 ,1997, 27 iyul].

1997-ci ilin iyulunda Prezident Heydər Əliyevin ABŞ-a ilk rəsmi səfəri çərçivəsində Prezident Bill Klintonla, yüksək səviyyəli dövlət rəsmiləri, konqresmen və senatorlarla, aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri bütövlükdə bu ölkə ilə münasibətlərdə, eləcə də iqtisadi əlaqələrin inkişafında əsaslı dönüşün başlanğıcı oldu.

Heydər Əliyev Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QİƏT) iştirakına böyük əhəmiyyət verir, bu əməkdaşlığı xalqlar arasında qarşılıqlı etimadın və anlaşmanın möhkəmlənməsi üçün ən mühüm vasitə hesab edirdi. O deyirdi: «Dünyada mürəkkəb proseslər getdiyi bir dövrdə bizim hamımız, bütün ölkələrimiz, xalqlarımız bir-birimizlə daha sıx münasibətlər

yaratmağa, bütün sahələrdə əməkdaşlığı möhkəmləndirməyə ehtiyac duyuruq» [14, 425].

Azərbaycan Respublikasının iqtisadi əlaqələrinin inkişafı baxımından BMT-nin İnkişaf Proqramını (BMTİP), BMT-nin Sənaye və İnkişaf Təşkilatını (BMSİT) və BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramını (SPECA Proqramı) qeyd etmək olar. Azərbaycan Respublikası 2000-ci ildə BMSİT çərçivəsində «Sənaye inkişafı sahəsində əməkdaşlıq haqqında memorandum» imzaladı. 2002-ci ilin noyabrında isə Azərbaycan Respublikası SPECA-ya üzv qəbul edildi. Bu proqramın əsas məqsədi region ölkələrinin inteqrasiyasının dəstəklənməsi və dünya iqtisadiyyatına fəal qoşulması üçün prioritet məsələlərin maliyyələşdirilməsi idi.

Xarici ticarətin beynəlxalq normalar səviyyəsində təşkili üçün Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatının (DTT) tamhüquqlu üzvü olmasına hazırlıq üçün də işlər görülürdü. Həmin təşkilata üzv qəbul edilən ölkələrin xarici ticarət sahəsində apardıqları dəyişikliklər və islahatların strateji istiqamətləri ticarətin liberallaşması, əsassız məhdudiyyətlərin aradan qaldırılması və inzibati idarəetmə sisteminin iqtisadi metodlarla əvəz olunmasını tələb edir. Respublika hökuməti xarici ticarət rejimi haqqında memorandum hazırlayıb DTT-yə təqdim etdi. Bu sənədə respublikanın xarici iqtisadi fəaliyyətinə aid bütün qanunvericilik aktları daxil olunmuşdu. 1998-ci ilin iyul ayında Azərbaycan Respublikası DTT-də müşahidəçi statusu aldı.

Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər Azərbaycan Respublikasında xarici ticarətin, o cümlədən ixracın inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə geniş tətbiq olunan vasitə və üsullara əsaslanan liberal dövlət tənzimlənməsi sistemini formalaşdırdı. Beynəlxalq iqtisadi əməkdaşlıq sahəsində qarşıda duran əsas vəzifələrdən biri, xarici iqtisadi fəaliyyətin, o cümlədən ixracın milli iqtisadiyyatın maraqlarına səmərəli uzlaşdırılmasına şərait yaradan tənzimləmə mexanizmini formalaşdırmaq idi.

Heydər Əliyev 1990-cı illərin birinci yarısında ticarətdə idxalla ixracın fərqini təhlil edərək, iqtisadi əlaqələrimizin təşkilində, qurulmasında qüsurların aradan qaldırılmasını tələb edirdi. O, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 11-ci ildönümünə həsr edilmiş təntənəli mərasimdəki nitqində isə xarici ticarət sahəsindəki uğurların

iqtisadiyyatımızın inkişafında böyük rolunu, xarici ticarətin liberallaşmasının müsbət nəticəsini vurğulamışdır: «... 5-6 il bundan öncə Azərbaycan Respublikasına hər şey xaricdən gətirilirdi. Biz xarici ticarət sahəsində daha çox idxal edirdik, nəinki ixrac... 1996–2001-ci illərdə xarici ticarət dövriyyəsi 2,4 dəfə artaraq 2,2 milyard dollara çatıbdır. Həm də ixracın həcminin daha sürətlə artması müşahidə olunur» [475, 2002, 18 oktyabr].

Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi
(min ABŞ dolları)

İllər	Dövriyyə	İdxal	İxrac	Saldo
1991	4002234,3	1881266,2	2120968,1	239701,9
1992	2423835,0	939862,0	1483973,0	544111,0
1993	1353467,1	628806,0	724661,1	95855,1
1994	1430644,7	777910,5	652734,2	-125176,3
1995	1304856,5	667657,2	637199,3	-30457,9
1996	1591881,8	960636,3	631245,5	-329390,8
1997	1575652,9	794343,2	781309,7	-13033,5
1998	1682647,9	1076497,4	606150,5	-470346,9
1999	1965552,4	1035888,8	929663,6	-106225,2
2000	2917291,1	1172071,2	1745219,9	573148,7
2001	3745313,5	1431107,4	2314206,1	883098,7
2002	3832883,7	1665484,0	2167399,7	501915,7
2003	5216558,9	2626181,1	2590377,8	-35803,3

Cədvəldən göründüyü kimi, 2003-cü ildə ticarət dövriyyəsi 5216 mln. ABŞ dolları, o cümlədən ixrac 2591,7 mln., idxal isə 2626,4 mln. ABŞ dolları təşkil etmişdi. Xarici ticarət dövriyyəsi 1993-cü ilə nisbətən

3,9 dəfə, o cümlədən ixrac 3,6 dəfə, idxal əməliyyatları üzrə isə 3,9 dəfə artmışdı. Bu illər ərzində xarici ticarət əlaqələrinin strukturu da dəyişmişdi: idxalın ümumi həcmində respublikaya gətirilən ərzaq məhsullarının xüsusi çəkisi 1993-cü ildə 21,2 faiz, 1995-ci ildə 41,6 faiz olduğu halda, 2000-ci ildə bu göstərici azalaraq 19 faizə, 2003-cü ildə isə 16 faizə düşmüşdü. 2003-cü ildə xarici ticarət dövriyyəsinin 77,3 faizi uzaq xarici dövlətlərin, 22,7 faizi isə MDB ölkələrinin payına düşürdü. Azərbaycanın xarici ticarət əlaqələrində İtaliya (27,2 faiz), Rusiya Federasiyası (7 faiz), Fransa (5,8 faiz), Türkiyə Cümhuriyyəti (5,6 faiz), İngiltərə (3,8 faiz), ABŞ (3,7 faiz) və Almaniya Federativ Respublikası (2,9 faiz) öncül yer tuturdu. İdxal-ixrac əməliyyatlarında İran, İsrail, İsveçrə, Gürcüstan, Qazaxıstan və Türkmənistan respublikalarının da xüsusi çəkisi yüksək idi. Azərbaycan Respublikasından ixrac olunan məhsulların 65,7 faizi, idxalın isə 32 faizi Avropa İttifaqı ölkələrinin payına düşürdü. Bütövlükdə, Azərbaycan Respublikası 124 ölkə ilə ticarət əlaqələri yaratmışdı, halbuki 1996-cı ildə bu ölkələrin sayı cəmi 55 idi [402, 666–675].

Qısa zaman kəsiyində Azərbaycan Respublikası dövlətinin dünya ölkələri ilə ticarətinin inkişafında irəliləyiş özünü göstərdi, iqtisadi əlaqələrin coğrafiyası genişləndi. Əgər müstəqillik əldə etdikdən sonrakı ilk illərdə idxal və ixracın böyük hissəsi Türkiyə, İran və MDB ölkələri ilə aparılırdısa, sonrakı illərdə inkişaf etmiş ölkələr üstünlük təşkil etdi. Azərbaycan Respublikası ilə ticarət əməliyyatlarına cəlb edilən ölkələrin sayı daha da artdı. Daha çox ixrac potensialı olan, məhsullarımız üçün yüksək qiymət ödəyən, çoxsaylı ticarət əlaqələri aparan və çatdırılma prosesinə əlverişli şəraiti təmin edən ölkələri seçmək imkanımız yarandı.

Prezident Heydər Əliyev ölkə iqtisadiyyatına yerli və xarici sərmayələrin cəlb olunmasına xüsusi əhəmiyyət verir, buna əngəl törədən məmurlara ciddi xəbərdarlıq edirdi. Eyni zamanda xarici iş adamlarını daim dəstəkləyəcəyini vurğulayırdı. Dövlət başçısı 2002-ci il mayın 14-də xarici sahibkarlarla keçirdiyi görüşdə demişdir: «Biznes indi iqtisadiyyatın aparıcı qüvvəsidir. Ona görə də mən bu sahəyə daim diqqət yetirmişəm, yetirirəm və bundan sonra da yetirəcəyəm. Hər bir iş adamı, – xarici ölkədən gəlmiş, yaxud Azərbaycan vətəndaşı, – bilsin ki, Azərbaycan Prezidenti kimi mən onun sağlam iş gör-

məsinin himayədarıyam. Bu himayədarlığı daim edəcəyəm» [392, 2002, 16 may].

Heydər Əliyevin bu sahədə verdiyi tövsiyə və tapşırıqları əsasında Azərbaycan Respublikasında azad bazar iqtisadiyyatının təşəkkül tapması üçün sərbəst rəqabəti təmin edən normativ-hüquqi aktlar qəbul edildi, xarici investisiya haqqında qanunvericilik bazası formalaşdırıldı. Buna misal olaraq «İnvestisiya fəaliyyəti haqqında» 1995-ci il 13 yanvar, «İnvestisiya müsabiqəsi haqqında» 1997-ci il 16 may, «Əmtəə nişanları və coğrafi göstəricilər haqqında» 1998-ci il 12 iyun, «İnvestisiya fondları haqqında» 1999-cu il 30 noyabr, «Kommersiya sirri haqqında» 2001-ci il 4 dekabr, «Tənzimlənən qiymətlər haqqında» 2003-cü il 30 may tarixli və sair qanunları göstərmək olar.

1995–2003-cü illər ərzində ölkə iqtisadiyyatına bütövlükdə 16640,2 mln. ABŞ dolları həcmində sərmayə qoyulmuşdur ki, bunun da 12393 mln. ABŞ dolları, yəni 74,5 faizi xarici ölkələrlə bağlanmış sazişlər nəticəsində yönəldilmişdi. 2001–2003-cü illərdə ölkəyə xarici sərmayə axınında sürətlənmə meyli müşahidə olunmuşdur. Belə ki, həmin illərdə ölkə iqtisadiyyatına 6600 mln. ABŞ dolları həcmində xarici sərmayə qoyulmuşdu ki, bu da bütövlükdə 1995–2003-cü illərdə iqtisadiyyata cəlb olunan xarici investisiyaların 53,3 faizinə bərabər idi. 1995–2003-cü illər ərzində təkcə neft sənayesinə 8642,2 mln. ABŞ dolları həcmində xarici sərmayə cəlb olunmuşdu.

2002-ci il aprelin 1-nə olan məlumata görə, respublikada tamamilə xarici kapitalla işləyən müəssisələrin sayı 1946-ya, müştərək müəssisələrin sayı isə 435-ə çatmışdı [392, 2002, 15 may].

Birgə müəssisələr Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsində, yeni müəssisələrin, iş yerlərinin açılmasında mühüm rol oynayırdı. Onlar respublikamıza dünya standartlarına cavab verən ən müasir texnika və texnologiya ilə bərabər, həm də yeni idarəçilik, təsərrüfatçılıq metodları və üsullarını gətirdilər. Bu müəssisələrdə istehsal edilən məhsullar yüksəkkeyfiyyətli və rəqabət qabiliyyətli olduğundan dünya bazarına çıxarılması imkanı da genişləndi.

Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri
(əvvəlki ilə nisbətən, faizlə)

İllər	Dövriyyə	İdxal	İxrac
1992	60,6	50,0	70,0
1993	55,8	66,9	48,8
1994	105,7	123,7	90,1
1995	91,2	85,8	97,6
1996	122,0	143,9	99,1
1997	99,0	82,7	123,8
1998	106,8	135,5	77,6
1999	116,8	96,2	153,4
2000	148,4	113,1	187,7
2001	128,4	122,1	132,6
2002	102,3	116,4	93,7
2003	136,1	157,7	119,5

Beləliklə, müstəqil Azərbaycan Respublikasında milli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici iqtisadi siyasətin formalaşması prosesini 4 əsas dövr kontekstində qiymətləndirmək olar:

1) 1991–1993-cü illər – iqtisadi böhran və xarici ticarət əlaqələrində «anarxiya» dövrü;

2) 1994-1995-ci illər – iqtisadi islahatlara hazırlıq və dəyişikliklər dövrü;

3) 1996–2000-ci illər – xarici iqtisadi əlaqələr sahəsində hüquqi islahatların həyata keçirilməsi və sabitləşmə dövrü;

4) 2001–2003-cü illər – xarici iqtisadi-ticarət əlaqələrinin yüksəlişi dövrü. Bu mərhələni iki əsas inkişaf meyli müəyyənləşdirirdi: ölkənin ixrac potensialının xeyli artması və xarici ticarətin tənzimlənməsinə yönəlmiş tədbirlər sisteminin və gömrük nəzarətinin gücləndirilməsi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyin ilk illərində Azərbaycan Respublikası üçün xarici iqtisadi siyasət konsepsiyasını hazırlayarkən aşağıdakı xüsusiyyətləri nəzərə alırdı: müstəqil milli iqtisadiyyatın formalaşdırılması zəruriyyəti; bazar münasibətlərinə əsaslanan açıq iqtisadi sistemə keçid; iqtisadiyyatın liberallaşdırılması

və dünya təsərrüfat sisteminə əlaqələrin açılması; daha sonra makroiqtisadi sabitliyin təmin olunması; maliyyə vəsaitlərinin artırılması; özəl sektorun gücləndirilməsi; ölkə iqtisadiyyatına xarici sərmayələrin cəlbinin stimullaşdırılması; ixrac yönümlü istehsal sahələrinə vergi, kredit və gömrük güzəştlərinin tətbiqi və sair.

Müstəqil Azərbaycan dövlətinin xarici iqtisadi siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və xüsusiyyətləri Prezident Heydər Əliyevin müxtəlif çıxış və nitqlərində də öz əksini tapmışdır. Xalqın mənafeyinə tabe edilmiş iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünyaya inteqrasiyası üçün bütün xarici və daxili amillərdən faydalanmaqla əməkdaşlıq, tərəfdaş ölkələrlə iqtisadi maraqların uzlaşdırılması, qarşılıqlı təminat mexanizminin yaradılması və qorunması onun strategiyasının ən vacib prioritetləri idi.

Ulu öndər Heydər Əliyev xarici ölkə rəhbərləri və beynəlxalq qurumların nümayəndələri, xarici iş adamları və yerli sahibkarlarla görüşlərində, müxtəlif beynəlxalq tədbirlərdəki çıxışlarında iqtisadi əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əməkdaşlığın, ortaq maraq və mənafelərin qorunmasının, faydalı əməkdaşlıq üçün perspektivli yollar axtarılması və həyata keçirilməsinin, qarşılıqlı təhlükəsizliyə riayət edilməsinin zəruriliyini göstərirdi.

1996–2003-cü illərin təcrübəsi bir daha təsdiq etdi ki, xarici iqtisadi siyasət dövlətin beynəlxalq iqtisadi əlaqələr sahəsində qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə yönəldilmiş tədbirlər sistemi və ümumi iqtisadi siyasətin tərkib hissəsi olmaqla bərabər, bu sahədə qəbul edilən qərarlar ölkənin sosial-iqtisadi həyatının bütün sahələrinə öz təsirini göstərir.

Ulu öndərin xarici iqtisadi əlaqələr sahəsində irəli sürdüyü strategiya yalnız təsərrüfat-ticarət fəaliyyətinin və ölkələr arasında kommunikasiyaların genişləndirilməsi demək deyildi. Bu strategiyanın əsas xüsusiyyətlərindən biri də Azərbaycan dövlətinin bu sahəyə yeni yanaşma tərzinin, xarici iqtisadi fəaliyyətin iqtisadi və hüquqi mühitinin yaxşılaşması, dünya ticarətində rolumuzun yeni prinsipləri əsasında dəqiqləşdirilməsi idi. Ulu öndər tərəfindən işlənib hazırlanmış iqtisadi strategiyanın ardıcıl surətdə həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünya iqtisadi birliyinin mühüm həlqəsinə çevrildi, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirmiş müstəqil dövlət kimi dünya siyasətində fəallığı ilə seçilməyə başladı.

III FƏSİL

HEYDƏR ƏLİYEV
və
AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL SİYASƏT

3.1. Əhalinin rifahının yaxşılaşdırılması

Ulu öndər Heydər Əliyevin dövlətçilik baxışlarının əsas mənbələrindən biri onun yaradıcısı olduğu Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Azərbaycan Respublikasının Konstitusiyasında ayrıca «Sosial inkişaf və dövlət» maddəsi vardır. Həmin maddədə deyilir ki, Azərbaycan Respublikası xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır. Beləliklə, Heydər Əliyevin dövlətçilik baxışlarında əhalinin rifahının yüksəldilməsi və sosial müdafiəsi də xüsusi yer tutur.

Əhalinin sosial müdafiəsi sosial siyasətin əsas vəzifələrindəndir. Azərbaycanda sosial siyasət məsələlərinin öyrənilməsi SSRİ-nin dağılması ərəfəsində diqqət mərkəzinə keçmişdi. Lakin o dövrdə də bu məsələlər Sov. İKP sənədləri əsasında araşdırılırdı.

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra sosial siyasətə dair tədqiqatlar genişlənməyə başladı. Bu tədqiqatların aparıcı istiqamətini Azərbaycan Respublikasında sosial siyasətin, onun bütün tərkib hissələrinin transformasiyasının komparativ təhlili təşkil edir [353]. Elmi araşdırmalar göstərir ki, Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan Respublikasının sosial siyasətini bitkin bir şəkildə formalaşdırmış, onun əsas istiqamət və perspektivlərini müəyyən etmiş, mükəmməl qanunvericilik bazasının yaradılmasına nail olmuşdur [479; 476; 11].

Ümummilli liderin sosial siyasətində əhalinin sosial müdafiəsi və rifah halının yaxşılaşdırılması mərkəzi yer tutur. Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi (1969–1982) və SSRİ-nin dövlət rəhbərlərindən

biri olarkən (1982–1987) sosial sahəyə, xüsusilə əhalinin həyat səviyyəsinin yüksəlməsini təmin edən məsələlərə xüsusi fikir vermişdir. Statistik məlumatlardan aydın olur ki, Azərbaycan SSR-də əhalinin pul gəlirləri 1969-cu ildəki 234,5 milyon manatdan 1982-ci ildə 574,1 milyon manata çatmış, yaxud 244,5 faiz çoxalmışdı. Hər nəfərə düşən pul gəlirləri müvafiq olaraq 46,3 və 90,4 manat olmuş, yaxud 195 faiz artmışdı. Əhalinin pul gəlirlərinin strukturunda əsas yeri əməkhaqqı tuturdu.

Heydər Əliyev SSRİ-nin rəhbərlərindən biri kimi bütün ölkə miqyasında dövlətin sosial siyasətinin hazırlanması və həyata keçirilməsində də mühüm rol oynamışdı. Məhz bunun nəticəsi idi ki, Sov.İKP MK və SSRİ Nazirlər Soveti yenidənqurma siyasətinin həyata keçirilməsi ilə əlaqədar olaraq 1986-cı il oktyabrın 16-da SSRİ Nazirlər Sovetində sosial inkişaf üzrə büro yaratdıqda, Heydər Əliyev onun sədri təsdiq edilmişdi. Bu büro 12 nazirlik, idarə və komitəyə rəhbərlik edirdi.

Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından istifadə edən ermənilərin Azərbaycana qarşı ərazi iddiaları genişləndi və respublikanın Dağlıq Qarabağ Muxtar Vilayətində separatizm baş qaldırdı. Azərbaycan Respublikası keçmiş Sovet İttifaqı respublikaları arasında qaçqın və məcburi köçkün problemi ilə üzləşən ilk dövlət oldu. Yüz minlərlə soydaşımız Ermənistan SSR-dən, öz tarixi-etnik torpaqlarından qovuldu. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafındakı yeddi rayonu işğal etməsi nəticəsində həmin ərazilərdə yaşayan azərbaycanlılar öz yurdlarından didərgin salındılar. Beləliklə, Azərbaycan Respublikası kəskin sosial problemlərlə üzləşdi.

Dövlət müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasında sosial siyasətə biganə münasibət vəziyyəti daha da gərginləşdirmişdi. 1991-ci ildən 1993-cü ilin may ayınadək olan dövrdə respublikada sosial siyasətlə bağlı bəzi qanunlar qəbul olunsa da, onlarda nəzərdə tutulanların büdcənin real vəziyyəti ilə uzlaşmaması, tənzimləməli olduğu ictimai münasibətləri tam əhatə etməməsi bu aktları ölü normativ sənədlərə çevirmişdi. Qaçqın və məcburi köçkünlərin düşdüyü ağır sosial vəziyyətin yüngülləşdirilməsində əsas yardım beynəlxalq təşkilatların payına düşürdü. Ölkədə aztəminatlı ailələrin, əlillərin,

pensiyaçıların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində, demək olar ki, heç bir iş görülmürdü.

Belə bir ağır vəziyyətdə dahi siyasətçi Heydər Əliyevin yenidən xalqın tələbi ilə respublika rəhbərliyinə qayıtmasından sonra ölkənin bütün sahələrdə düşdüyü çətinliklərlə əsaslı və ardıcıl şəkildə mübarizə başlandı. Müstəqil Azərbaycan dövlətinin sosial inkişafı da məhz bu dövrlə bağlıdır.

1995-ci ilin yanvarında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yaradıldı. Qaçqın və məcburi köçkünlərin üzləşdiyi mənəvi və maddi iztirabların azaldılmasının onların məskunlaşmasında və məşğulluğunun təmin edilməsində olduğunu dəfələrlə vurğulayan Heydər Əliyev bu sahədə çox əhəmiyyətli işlər görmüşdür. Qaçqın və məcburi köçkünlərin problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiəsini gücləndirmək üçün 1998-ci il sentyabrın 17-də Dövlət Proqramı qəbul olunmuşdur. Həmin proqrama uyğun olaraq, 1998-2001-ci illərdə Füzuli, Bərdə, Ağdam, Tərtər və başqa rayonlarda onlar üçün qəsəbələrin salınması, infrastrukturun yenidən qurulması və s. müvafiq tədbirlər həyata keçirilmişdir. 1999-cu il dekabrın 6-da isə qaçqın və məcburi köçkünlərin mənzil-kommunal şəraitini yaxşılaşdırmaq və məşğulluğunu artırmaq məqsədilə Dünya Bankının, digər beynəlxalq və qeyri-hökumət, kredit təşkilatlarının maliyyə dəstəyi əsasında Sosial İnkişaf Fondu yaradılmışdır [115, 197-198].

Əhalinin aztəminatlı hissəsinin digər kateqoriyalarını təşkil edən əlillərin, şəhid ailələrinin, müharibə veteranlarının, pensiyaçıların və başqalarının sosial rifahının yaxşılaşdırılması da Heydər Əliyevin ciddi önəm verdiyi sosial məsələlərdən idi. Bazar siyasətinin tələblərinə cavab verməyən və bu səbəbdən də müxtəlif problemlər yaradan sosializm təmayüllü sosial güzəştlərin məhz Ümummilli liderin təklifi ilə məqsədli kompensasiyalarla əvəzlənməsi öz uğurlarını verdi. Aparılan islahatların fonunda yeni iş yerlərinin açılması, əməkhaqlarının, təqaüdlərin və digər sosial ödəmələrin həcminin artırılması həmin islahatların daha ağrısız və səmərəli həyata keçirilməsinə şərait yaratmışdır.

Belə ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra fəaliyyəti güclənən məşğulluq xidməti orqanları tərəfindən 200 minə yaxın vətəndaş münasib iş yerlərinə göndərilmiş, 72,5 min nəfərə işsizlik statusu verilmiş, 81,9 min nəfərə işsizliyə görə müavinət ödənilmişdi.

Bundan əlavə, 1,2 min nəfər işsiz vətəndaşın peşə hazırlığı həyata keçirilmiş, 22,5 min nəfər qeydiyyatda olan işsiz isə haqqı ödənilən ictimai işlərə cəlb edilmişdi.

Heydər Əliyevin yeritdiyi düzgün və məqsədyönlü sosial siyasət nəticəsində 1993-cü ildə dövlət büdcəsindən sosial sahəyə ayrılan xərclər 35 faizdən 62,5 faizə çatmışdı, beləliklə, büdcə sosial yönümlü olmuşdur. 1995–2002-ci illərdə işləyənlərin orta aylıq əməkhaqqı 3 dəfə, orta aylıq pensiyanın məbləği 4 dəfə artmışdı. Görülən işlər eksperiment xarakteri daşımır, hərtərəfli hazırlanmış və mərhələ-mərhələ uğurla həyata keçirilən bütöv bir proqramın tərkib hissələri idi.

2003-cü ildə sosial pensiyaların artırılmasına 9 mlrd. manat ayrılmışdı. Müavinət xərclərinə 7 trilyon 111 mlrd. manat yönəldilmişdi ki, bu da büdcə ilində nəzərdə tutulandan 92,8 mlrd. manat və ya 15 faiz çox idi. Bütövlükdə, 2003-cü ildə pensiya və müavinətlərin artırılmasına 224 mlrd. manat vəsait ayrılmışdı.

Məşğulluq tədbirlərinin həyata keçirilməsinə yönəldilən vəsait 14,3 mlrd. manat təşkil etmiş, əlillərin sosial müdafiəsi ilə əlaqədar işlərə 23,3 mlrd. manat vəsait ayrılmışdı. Sanatoriya-kurort müalicəsi üçün xərclər 0,5 mlrd. manat artırılaraq 19,5 mlrd. manata çatdırılmışdı.

Heydər Əliyevin bilavasitə rəhbərliyi, diqqəti və dəstəyi ilə Səhiyyə Nazirliyi sistemində ardıcıl və məqsədyönlü islahatlar aparılmışdır. Səhiyyə sistemində özünümaliyyələşdirmə Azərbaycan Prezidentinin 1994-cü il 7 aprel tarixli sərəncamına və Milli Məclisin 1997-ci il mart tarixli qərarına əsasən daha da inkişaf etdirilmişdir. Müvafiq tədbirlər proqramının həyata keçirilməsi nəticəsində Səhiyyə Nazirliyi sistemində əldə edilmiş büdcədənkənar vəsait 1994-cü ildəki 53,2 milyon manatdan 2002-ci ildə 61 milyard manata çatmışdı.

Səhiyyə sistemində aparılan islahatlar çərçivəsində əsas nailiyyətlərdən biri də özəl səhiyyə sisteminin tətbiqi idi. Belə ki, səhiyyəyə dair paket qanunvericilik aktlarının qəbulu dövlət səhiyyəsi ilə yanaşı, özəl tibb müəssisələrinin də uğurlu inkişafına şərait yaratmış, əlavə iş yerlərinin açılması nəticəsində səhiyyə işçilərinin məşğulluğu sahəsində müsbət irəliləyiş olmuşdur [479].

Heydər Əliyev dünyanın qabaqcıl ölkələrində formalaşmış mütərəqqi sosial müdafiə sisteminin nailiyyətlərini və Azərbaycan re-

allıqlarını özündə ehtiva edən müasir tipli sosial müdafiə sisteminin təşəkkülünə nail oldu. Azərbaycan Respublikası kimi keçid dövrünü yaşayan bir dövlətdə bu sahədə ilk addım sosial təminatlar və onların baza standartlarının qanunla müəyyənləşdirilməsi və reallaşdırılmasının təmin edilməsi idi. Buna uyğun olaraq, geniş qanun yaradıcılığı işləri görüldü, Milli Məclisdə sosial siyasətin bütün məsələlərini əhatə edən 50-yə yaxın qanun qəbul edildi.

Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi uğurlu sosial siyasət nəticəsində xalqın rifahının yaxşılaşdırılmasının əsas göstəricisi olan əhalinin pul gəlirləri artmağa başladı, ən başlıcası isə yeni dövrün tələblərinə uyğun olaraq, pul gəlirlərinin mənbələrinin strukturunda ciddi dəyişikliklər baş verdi.

Azərbaycan Respublikası əhalisinin pul gəlirləri, onun mənbələrinin strukturu üzrə göstəriciləri (1993–2002-ci illər)

Pul gəlirlərinin strukturu (mlrd.man.)	1993		1995		2000		2002	
	məbləğ	%	məbləğ	%	məbləğ	%	məbləğ	%
Cəmi	135,5	100	6702,7	100	17.556,8	100	21.169,9	100
Sahibkarlıq fəaliyyətindən gəlirlər	36,5	26,9	3927,3	58,6	11.196,5	63,8	13.442,0	63,5
əməkhaqqı	56,5	41,7	1.512,8	22,6	3.062,6	17,4	3.208,7	15,2
əməkhaqqından başqa gəlirlər	4,8	3,6	55,4	0,8	171,2	1,0	230,3	1,1
Sosial transferlər	22,1	16,3	561,7	8,4	1329,4	7,6	1.442,6	6,8
Mülkiyyətdən gələn gəlirlər	15,6	11,5	95,7	1,4	7,0	-	7,3	-
Xarici valyutanın dəyişdirilməsindən gələn gəlirlər	-	-	229,9	3,4	852,6	4,9	1.529,7	7,2
Köçürmələr və akkreditivlər	-	-	0,6	-	-	-	-	-
Sair gəlirlər	-	-	319,3	4,8	937,5	5,3	1.309,3	6,2

Əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsini gücləndirmək məqsədilə aylıq minimum əməkhaqqının məbləği 2001-ci il yanvar ayının 1-dən beş dəfə artırılmışdı. Dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda işləyənlərin əmək- haqqı da bir neçə dəfə artırılmışdı.

Əhalinin sosial müdafiəsi sistemində mərkəzi yeri sosial sığorta tutur. İnkişaf etmiş ölkələrdə təkmil sosial sığorta sistemi formalaşdırılmışdır. Sosial sığorta pensiya, tibbi, bədbəxt hadisələrə görə və işsizliyə görə sığortanı əhatə edir. Azərbaycan Respublikasında bədbəxt hadisələrə görə sığortalanmanın müəyyən tarixi olsa da, pensiya, tibbi və işsizliyə görə sığorta yeni dövrün tələbi kimi təşəkkül tapmağa başlamış, Milli Məclis «Sosial sığorta haqqında», «Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında» qanunlar qəbul etmişdir.

Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsində sosial yardımlar, sosial xidmətlər və məqsədli sosial proqramlar da özünəməxsus yer tutur.

Bazar iqtisadiyyatına keçid sosial siyasətin digər sahələri kimi, pensiya sistemində də dərin islahatlar aparılmasını irəli sürdü. Bu, pensiyaçıların yaşayış minimumunun təmin edilməsi, pensiya məbləğlərinin ödənilən sosial sığorta ilə əlaqəsinin yaxşılaşdırılması kimi vəzifələrin həyata keçirilməsi məqsədini daşıyırdı. Pensiya sistemi sahəsində islahat Ümummilli lider Heydər Əliyevin 2001 ci il 17 iyul tarixli sərəncamı ilə təsdiq olunan «Azərbaycan Respublikasında pensiya sisteminin islahatı konsepsiyası»nda əks olunmuşdur. Konsepsiya pensiya islahatının məqsəd və prinsiplərini, pensiya sisteminin idarə olunması əsaslarını, islahatın həyata keçirilmə mərhələlərini, onun əsas istiqamətlərini müəyyənləşdirir. Pensiya islahatının məqsədi vətəndaşların pensiya ödənişlərinin etibarlı maliyyə təminatına nail olmaqdan, pensiya təminatı sistemini bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmaqla əhalinin rifahının yaxşılaşdırılmasında onun rolunu artırmaqdan, pensiya və müavinət ödənişləri üçün nəzərdə tutulan vəsaitin tam yığılmasını və məqsədyönlü istifadəsini təmin etməkdən, pensiya təminatı sisteminin idarə olunmasını təkmilləşdirməklə onun səmərəliliyini artırmaqdan, sosial sığorta haqları ilə ödənişlər arasındakı əlaqəni uzlaşdırmaqdan ibarətdir. Pensiya islahatı siyasəti ortamüddətli perspektivdə üçnövlü pensiya təminatı sisteminin (əmək pensiyası, əmək pensiyası almayanlara dövlət büdcəsinin vəsaiti

hesabına sosial kömək göstərilməsi, qeyri-dövlət pensiyaları) təşkilinə yönəlmişdir. Belə bir sistemin yaradılması üçün islahatın dörd mərhələdə həyata keçirilməsi müəyyənləşdirilmişdir. Birinci mərhələ pensiya təminatının qanunvericilik bazasının yaradılmasını nəzərdə tuturdu. İkinci mərhələ pensiya sisteminin əsasını təşkil edən fərdi uçotun yaradılmasına dair işlərin görülməsi, o cümlədən pensiya hesablamaları, vəsaitin yığımı və bütövlükdə pensiyaların müəyyənləşdirilməsi sahəsində avtomatlaşdırılmış sistemin hazırlanması və tətbiqini əhatə edirdi. Üçüncü mərhələdə fərdi uçotun yaradılması ilə bağlı əmək qabiliyyətli işçilərin gəlirləri və pensiyaların təyin edilməsi üçün lazım olan digər göstəricilər barədə məlumat toplanılmalı, dördüncü mərhələdə pensiyaların fərdi uçot sənədləri əsasında hesablanmasına başlanmalı idi. İnkişaf etmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da pensiya sisteminin fərdi uçot sistemi əsasında qurulması mühüm hadisə idi. Bu «Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında» qanunla tənzimlənirdi.

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycan Respublikasında yoxsulluğun azaldılması sahəsindəki fəaliyyəti ilə bağlıdır. Bütün dünyada həlli vacib sayılan, o cümlədən Azərbaycan Respublikasında böyük əhəmiyyət kəsb edən problemlərdən biri də yoxsulluğun aradan qaldırılmasıdır. Azərbaycan hökuməti bu istiqamətdə də beynəlxalq maliyyə təsisatları ilə sıx əməkdaşlıq edərək, müvafiq proqram hazırlamış və onun mərhələlərlə icrasına başlamışdır. «Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı»nda yoxsulluq anlayışına kompleks şəkildə yanaşılır. Əgər əvvəllər yoxsulluq, əsasən, əhalinin gəlirlərinin səviyyəsi və onun ərzaqla təminatı ilə ölçülürdüsə, hazırda bu məfhum daha geniş məna kəsb edir. İndi yoxsulluğun azaldılması, eyni zamanda əhalinin istehsal resurslarından, o cümlədən torpaqdan, su ehtiyatlarından istifadə etməsi, habelə işlə təmin olunması, təhsil almaq, səhiyyə xidmətlərindən faydalanmaq imkanlarının genişləndirilməsi, bütün səviyyələrdə kişilərlə qadınların hüquq bərabərliyinin təmin edilməsi, infrastruktur və kommunal xidmətlərə olan ehtiyacın ödənilməsi, sanitariya və gigiyena şəraitinin, ətraf mühitin yaxşılaşdırılması, insan üçün layiqli həyat şəraitinin təmin edilməsi deməkdir [375, 11].

Yeddi bölmədən ibarət olan Dövlət Proqramı Azərbaycan Respublikasında yoxsulluğun azaldılmasının məxsusi modeli adlandırıla bilər. Burada Azərbaycanda yoxsulluğun azaldılmasına nail olmaq üçün həm konkret olaraq bu sahədəki, eyni zamanda iqtisadiyyatdakı vəziyyət hərtərəfli təhlil edilmişdi. Sosial sığorta və sosial yardım islahatları, əhalinin ən həssas qruplarının sosial müdafiəsi, əmək bazarı, əməkhaqqı və məşğulluq siyasəti, təhsil islahatları, mədəniyyətin inkişaf etdirilməsi və mədəni irsin qorunması, səhiyyə islahatları, idmanın və bədən tərbiyəsinin inkişaf etdirilməsi, gender siyasəti və s. onun əsas istiqamətlərini təşkil edirdi.

Yoxsulluğun azaldılmasına dair «Dövlət Proqramı» 2003-cü ildə qəbul olunduğuna görə, müvafiq istiqamətlər üzrə əvvəllər həyata keçirilmiş tədbirlər və qanunvericilik bazası da ümumiləşdirilmiş, nəticələr çıxarılmış, görüləcək işlər müəyyənləşdirilmişdi. Beləliklə, Heydər Əliyevin göstərişi və rəhbərliyi ilə hazırlanmış proqramın həyata keçirilməsi bu sahədə ciddi dəyişikliklərin əsasını qoymuş, ölkədə yoxsulluğun səviyyəsi getdikcə azalmağa başlamışdı.

Akademik Ramiz Mehdiyev Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin ikinci dövrünün (1993–2003) yekunlarından bəhs edərkən yazmışdır: «2003-cü il milli transformasiyanın yeni mərhələsinin başlanğıcı oldu, səlis qurulmuş sabit siyasi sistemi tərəqqi etməkdə olan iqtisadi strukturun intensiv formalaşması məkanına yönəltdi» [308, 13].

Heydər Əliyevin dövlətçilik siyasəti, o cümlədən əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi sahəsindəki xətti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasında əhalinin rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi həlledici yerini saxlamışdır. Prezident İlham Əliyevin dediyi kimi, «... sosial məsələlər həmişə prioritet olaraq qalır və qalacaqdır» [443]. Bu sahədə görülən ən əsas işlərdən biri yeni iş yerlərinin açılması olmuşdur. 2003–2009-cu illərdə 840 min iş yeri açılmış, yoxsulluğun səviyyəsi 49 faizdən 11 faizə enmişdir.

3.2. Səhiyyənin inkişafı

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının ilk illərində respublikanın üzləşdiyi problemlər həyatın bütün sahələri kimi, səhiyyə sistemində də özünü göstərirdi. Bir çox yoluxucu xəstəliklərin ocaqları közərməyə başlamış, tibb müəssisələrinin maddi-texniki bazası zəifləmişdi. Həmin illərdə səhiyyə sahəsində müəyyən işlər görülməsinə cəhdlər edilsə də, bunlar nəzəri müstəvidən kənara çıxa bilməmiş, əməli nəticələr verməmişdi. Yalnız Ümummilli lider Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışından sonra səhiyyə sahəsinə də diqqət artırıldı, milli səhiyyənin qabaqcıl dünya səhiyyəsi səviyyəsinə yaxınlaşdırılması üçün genişmiqyaslı iş görüldü. Məhz Heydər Əliyevin bilavasitə göstərişi ilə səhiyyə sistemində ciddi yenidənqurma və islahat işləri aparılmış, nəticədə tibb ocaqlarının maddi-texniki bazası möhkəmlənmiş, əhaliyə tibb xidmətinin yeni keyfiyyət mərhələsinə qalxması təmin edilmiş, özəl səhiyyə obyektləri istifadəyə verilmiş, səhiyyənin ən müxtəlif sahələrinə aid dövlət proqramları qəbul edilmişdir.

Səhiyyə sistemindəki islahatların uğurla həyata keçirilməsi üçün hər şeydən əvvəl onun hüquqi bazasının yaradılması tələb olunurdu.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq, 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiyasının «Sağlamlığın qorunması hüququ» adlı 41-ci maddəsi, «Qan və onun komponentlərinin donorluğu haqqında» 1996-cı il 29 mart tarixli qanun birbaşa səhiyyə islahatlarının hüquqi bazasına aid idi. Bu istiqamətdə qəbul edilmiş sənədlərdən biri də 1996-cı il 16 aprel tarixli «Əczaçılıq fəaliyyəti haqqında» qanun olmuşdur. Bu qanunda dərman vasitələri ilə davranış, dərman vasitələrinin keyfiyyətinə nəzarət, əhaliyə dərman yardımının maliyyələşdirilməsi kimi məsələlər öz əksini tapmışdır.

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1997-ci il iyunun 26-da qəbul olunan və respublika səhiyyə sistemində keçirilən islahatların güclü hüquq bazası rolunu oynayan «Əhalinin sağlamlığının qorunması haqqında» qanun təkcə səhiyyə işçiləri üçün deyil, eyni zamanda bütün xalqımız üçün əlamətdar bir hadisə idi.

Qanunda sağlamlığın qorunması sahəsində dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi, səhiyyə sisteminin təşkili qaydalarının və fəaliyyətinin müəyyənləşdirilməsi, əhalinin xüsusi

qruplarına tibbi-sosial yardım göstərilməsinə təminat verilməsi, ailənin, valideyn və uşaqların qorunması kimi vəzifələrin həyata keçirilməsi nəzərdə tutulurdu.

Bu qanun yeni bazar iqtisadi münasibətlərinə keçid şəraitində ilk dəfə olaraq dövlət səhiyyə sistemi ilə yanaşı, müxtəlif mülkiyyət formalarına əsaslanan digər səhiyyə növlərinin – qeyri-dövlət hüquqi və fiziki şəxslərə aid tibbi fəaliyyətin inkişaf etdirilməsi üçün zəmin yaratmış, tibb müəssisələrinin özəlləşdirilməsi, icarəyə verilməsi və tibbi sığortanın təşkili kimi çox mühüm məsələləri özündə əks etdirmişdir. Qanunun icrasını təmin etmək üçün dövlət başçısının şəxsi təşəbbüsü ilə 1998-ci il martın 3-də sağlamlıq haqqında qanunun icra mexanizmini əks etdirməklə, «Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında» Prezident fərmanı imzalandı.

Səhiyyə sistemində islahatların uğurla həyata keçirilməsində «Tibbi sığorta haqqında», «İnsan orqan toxumalarının transplantasiyası haqqında», «Özəl tibb fəaliyyəti haqqında», «Əhalinin radiasiya təhlükəsizliyi haqqında», «Psixiatriya yardımı haqqında», «Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında», «Yoluxucu xəstəliklərin immun-profilaktikası haqqında», «Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında», «Ruhi sağlamlığın qorunması haqqında», «Vətəndaşlara vərəm əleyhinə kömək və bu köməyin göstərilməsi zamanı təminatlar haqqında», «Narkoloji xidmət və nəzarət haqqında» qanunlar əhəmiyyətli rol oynamış və səhiyyənin normativ-hüquqi bazasının təkmilləşməsinə, dünya standartları səviyyəsinə yaxınlaşmasına töhfə vermişdir. Ümumiyyətlə, Heydər Əliyevin tövsiyəsi və qayğısı ilə 1993–2002-ci illərdə səhiyyəyə aid 15-dək qanun qəbul edilmişdir [322, 13].

1988-ci ildən başlayaraq, respublika səhiyyə sistemində yeganə maliyyələşmə mənbəyi olan dövlət büdcəsindən ayrılan vəsaitin ildənilə azalması bu sahədəki böhranı daha da dərinləşdirmişdi. Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin bazar iqtisadiyyatına keçid şəraitində səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı 1992-ci il 25 noyabr tarixli fərmanı da real təsdiqini tapmadı.

Heydər Əliyevin Azərbaycan Respublikası rəhbərliyinə qayıdışından sonra 1994-cü ildən başlayaraq, hər il dövlət büdcəsindən səhiyyəyə vəsait artırılırdı.

Azərbaycan Respublikası səhiyyəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onun maliyyə vəziyyətinin yaxşılaşdırılması məsələləri 1994-cü ilin dekabrında qəbul olunmuş «Yeni ictimai keçid dövrü üçün Azərbaycan Respublikasının səhiyyə sahəsində milli siyasətinin konsepsiyası»nda öz parlaq əksini tapmışdı.

Səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi büdcədənkənar mənbələrin axtarılması və tətbiq edilməsi zərurətini yaradırdı. Belə mənbələrdən biri də səhiyyə ocaqlarının tam və ya qismən özünümaliyyələşdirməyə keçirilməsi oldu. Nəticədə Səhiyyə Nazirliyi sistemində 1994-cü ildə 536,2 milyon manat büdcədənkənar vəsait əldə edilmişdisə, sonrakı illərdə artaraq, 2000-ci ildə 64 milyard manata çatmışdı.

2001-ci ilin sonuna olan məlumata görə, Səhiyyə Nazirliyi sistemində fəaliyyət göstərən 4310 idarə və müəssisənin 414-ü əhaliyə pullu xidmət göstərmişdi.

Özünümaliyyələşdirməyə keçidlə bağlı aparılan idarəetmə və struktur dəyişiklikləri nəzərəçarpacaq keyfiyyət dəyişikliyinə səbəb olmuşdu. İlk növbədə, pullu xidmət göstərən tibb müəssisələrində çalışanların əməkhaqqı bir neçə dəfə artmış, göstərilən xidmətin keyfiyyət və kəmiyyətindən asılı olaraq, əməkhaqqının miqdarındakı məhdudiyyətlər aradan qaldırılmış, yeni mükafat sistemi yaradılmışdı. Digər tərəfdən, əhaliyə göstərilən ixtisaslaşdırılmış tibbi xidmətin də səviyyəsi yüksəlmişdi.

Heydər Əliyevin bütünlükdə iqtisadi və sosial münasibətlər sisteminə inqilabi təfəkkür tərzi ilə yanaşmasının bariz təzahürlərindən biri də başqa sahələrdə olduğu kimi, səhiyyədə də özəl sektorun yaranması və inkişaf etdirilməsi olmuşdur. «Özəl tibb fəaliyyəti haqqında» qanunun qüvvəyə minməsindən sonra respublikamızda özəl tibb müəssisələri fəaliyyətə başlamışdı. Özəl tibb xidmətinin tətbiqi nəticəsində 10000 nəfər, o cümlədən 2500 həkim və 4000 orta tibb işçisi işlə təmin edilmiş, əhaliyə göstərilən tibbi xidmətin qiyməti 2 dəfəyədək aşağı salınmışdı. Özəl səhiyyə sisteminin tətbiqi nəticəsində təkcə 2000-ci ildə dövlət büdcəsinə 5 milyard manata qədər vəsait daxil olmuşdu. Ümumiyyətlə, səhiyyədən gələn gəlirlər hesabına Azərbaycanda 2003-cü ilədək 300-dən artıq tibb müəssisəsində əsaslı təmir işləri aparılmış, yeni müasir tibb texnikası və avadanlıqlar alınmışdı.

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində doğma yurdlarını tərk etməyə məcbur olmuş bir milyondan artıq qaçqın və məcburi köçkünün tibbi təminatı ilə bağlı problemlərin həlli də Prezident Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Məhz onun tövsiyəsi ilə Səhiyyə Nazirliyinin baş mütəxəssisləri, klinik xəstəxanaların və elmi tədqiqat institutlarının əməkdaşlarından ibarət ixtisaslaşdırılmış briqadalar qaçqın-köçkünlərin kütləvi məskunlaşdığı yerlərə gedərək kompleks müayinələr aparır, xəstələrə mütəmadi olaraq tibbi yardım göstərirdilər.

Heydər Əliyevin rəhbərliyi ilə səhiyyə sistemində keçirilən islahatların gedişində Azərbaycan Respublikasında əhalinin tarixən əziyyət çəkdiyi malyariya, difteriya, poliomielit, vərəm, brusellyoz, traxoma, qarın yatalağı kimi bir sıra xəstəliklərə qarşı mübarizə davam etdirilmiş və mühüm nəticələr əldə olunmuşdu.

Respublikada malyariya xəstəliyi ilə bağlı epidemioloji vəziyyətin xeyli kəskinləşməsi səbəbindən Prezident Heydər Əliyev 1997-ci il iyulun 19-da keçirilən respublika müşavirəsində yoluxucu xəstəliklərlə, o cümlədən malyariya ilə mübarizəni ümumdövlət siyasəti səviyyəsinə qaldıraraq, bu genişmiqyaslı işin əlaqələndirilməsini və yüksək səviyyədə təşkilini mühüm vəzifə kimi irəli sürmüşdü. Dövlət başçısının məsələni çox kəskin şəkildə qoyması tezliklə daxildə və beynəlxalq səhiyyə təşkilatlarında ciddi əks-səda doğurdu, bu sahədə görülən işlər intensivləşdirildi. Nəticədə müşavirədən keçən beş il ərzində malyariya xəstəliyi 10 dəfə azaldı və onun bir xəstəlik kimi ləğv edilməsi məsələsi aktuallaşdı. Yeri gəlmişkən, Azərbaycan malyariyaya qarşı mübarizə sahəsində qısa müddət ərzində o qədər böyük uğur və təcrübə əldə etmişdi ki, bu təcrübəni öyrənmək və daha da təkmilləşdirmək məqsədilə 2001-ci ilin noyabrında Bakıda malyariya üzrə beynəlxalq konfrans keçirilmişdi.

Təhlükəli yoluxucu xəstəliklərdən olan difteriya və poliomielitin 1994-cü ilin ikinci yarısından kəskin şəkildə artması təhlükəli vəziyyət yaradırdı. Heydər Əliyevin şəxsi qayğısı sayəsində Dünya Səhiyyə Təşkilatının və BMT-nin Uşaq Fondunun (YUNİSEF) xətti ilə respublikaya vaksinlərin vaxtında çatdırılması, ilk növbədə, uşaqların kütləvi peyvəndə cəlb olunmasına imkan verdi. 1995-ci ilin may ayında bütün məktəblilərin 97-98 faizi, 1995-ci ilin sonu və 1996-cı ildə isə respub-

lika əhalisinin 95,6 faizi difteriyaya qarşı peyvənd olunmuşdu [115, 250] Nəticədə 1995-ci illə müqayisədə 1996-cı ildə xəstəlik 6 dəfə azalmış, sonrakı illərdə isə minimuma endirilmişdi (məsələn, 2000-ci ildə 24 hadisə qeydə alınmışdı).

Respublikada geniş yayılmış poliomielit xəstəliyinin aradan qaldırılması sahəsində də uğurlu nəticələr vardı. Poliomielitə qarşı peyvənd tədbirlərində və Ümumdünya sağlamlıq günündə Heydər Əliyevin şəxsən iştirakı bu xəstəliklə mübarizəyə xüsusi bir impuls verməklə, bu işin dövlət əhəmiyyəti daşıdığını da təsdiq edirdi.

Əsas nailiyyətlərdən biri də qızılca ilə xəstələnənlərin sayının kəskin şəkildə azalması idi. 2001-ci ildə 1997-ci illə müqayisədə xəstəlik 30 dəfə azalmışdı [115, 250]. Vərəmlə mübarizə problemi də səhiyyə sisteminin prioritet sahəsi idi. 2000-ci il vərəmlə mübarizə ili elan olunmuş, həyata keçirilmiş mühüm tədbirlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdi.

Ana və uşaqların mühafizəsi dövlətin cəmiyyətin sağlamlığının möhkəmləndirilməsi sahəsindəki fəaliyyətində xüsusi yer tutur. Bu məsələ Heydər Əliyevin daim diqqət mərkəzində olmuş, onun respublikaya rəhbərliyinin sovet dövründə olduğu kimi, müstəqillik illərində də ana və uşaqların sağlamlığının mühafizəsi sahəsində xeyli iş görülmüşdü. BMT-nin Əhali Fondu öncül istiqamətlərdən biri kimi, 1996-cı ildə «Azərbaycanda reproduktiv sağlamlıq və ailə planlaşdırması sahəsində» Milli proqramın işlənib hazırlanması təşəbbüsünü irəli sürmüş və onu maliyyələşdirmişdi. Proqramın müvəffəqiyyətlə həyata keçirilməsi öz müsbət nəticəsini verdi. Bakı, Gəncə, Naxçıvan, Masallı, Şəki və Qusarda regional mərkəzlər təşkil edildi. Ana və uşaq ölümünün azaldılması istiqamətində görülən tədbirlər iki mərhələdə həyata keçirilirdi. Birinci mərhələ 1996–1999-cu illəri, ikinci mərhələ isə 2000–2004-cü illəri əhatə etmişdir. Aparılan tibbi maarifləndirmə və profilaktik işlər nəticəsində 2002-ci ildə körpə uşaq ölümü təxminən 4 dəfə azalmışdı [441, 34].

Narkomaniyaya qarşı dövlət səhiyyəsində mübarizənin təşkili də Heydər Əliyevin daim nəzarətində olmuşdur. 2001-ci ilin mayında «Narkoloji nəzarət haqqında» qanunun qəbul edilməsi əhalinin sağlamlığının qorunması, «əsrin bəlası»na qarşı mübarizədə mühüm tədbirlərdən biri idi. Respublikada bu sahədə 9 dispanser fəaliyyət göstərirdi.

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən səhiyyə islahatları Səhiyyə Nazirliyinin aparatını, elmi tədqiqat institutlarının fəaliyyətini, tibbi kadrların hazırlanması sistemini də əhatə etmişdir. Nazirlikdə bir-birini təkrarlayan strukturlar ləğv edilmiş, 9 idarə saxlanmışdı.

Səhiyyə islahatları çərçivəsində tibb universitetində də mühüm işlər görülmüşdür. Müasir təbabətin tələbləri nəzərə alınaraq, universitetin sanitariya-gigiyena fakültəsi tibbi profilaktika fakültəsinə çevrilmiş, burada profilaktik yönümlü ixtisaslarla yanaşı, biokimyaçı, biofizik və kibernetik həkimlər hazırlığı da təşkil edilmişdir. Azərbaycan ordusunun hərbi həkimlərə olan ehtiyacı nəzərə alınaraq, 2000-ci ildə universitetdə hərbi fakültə fəaliyyətə başladı. Bütün bunlarla yanaşı, universitetin 10 kafedra, kitabxana və informatika mərkəzi yerləşən tədris binası da istifadəyə verilmişdir. Kafedralar kompyuterləşdirilmiş, maddi-texniki baza möhkəmləndirilmişdir. Universitetin beynəlxalq əlaqələri də genişlənmiş, 2002-ci ildə Avropa Universitetlər Assosiasiyasına tamhüquqlu üzv qəbul edilmişdir.

Səhiyyə sahəsində çalışanların ixtisaslarının artırılması, səhiyyə sisteminin orta tibb işçiləri ilə təminatı məsələləri də respublika rəhbərliyinin diqqət mərkəzində olmuşdur. Görkəmli dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin adını daşıyan Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və tibb məktəbləri bu sahədə səmərəli fəaliyyət göstərirdi.

Prezident Heydər Əliyev səhiyyə obyektlərinin yenidən qurulmasını da diqqətdə saxlayır, bir sıra səhiyyə ocaqlarının açılışında isə şəxsən iştirak edirdi.

Heydər Əliyevin səyləri və tövsiyələri ilə Azərbaycan Respublikası Dünya Səhiyyə Təşkilatının müxtəlif layihələrinə cəlb edilmiş, bir çox proqramların fəal iştirakçısına çevrilmişdir. 1997-ci ildə Bakıda keçirilən Pediatrların IV beynəlxalq Konqresi pediatriya elmi sahəsində, eləcə də respublikamızın səhiyyə tarixində mühüm hadisə oldu. Dünya şöhrətli alim İhsan Doğramacının sədrlik etdiyi həmin konqresdə Heydər Əliyev şəxsən iştirak edərək nitq söyləmişdi.

Beləliklə, Ümummilli lider Heydər Əliyev respublika həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də yeni iqtisadi sistemə uyğun olaraq həyata keçirilən islahatların əsas ideya müəllifi və

təşkilatçısı olmuşdur. Ulu öndər tərəfindən əsası qoyulan islahatlar hazırda səhiyyə sahəsində əldə edilmiş çox böyük uğurların təməlini qoymuşdur.

3.3. İdmanın inkişafı

Xalqımızın Ümummilli lideri Heydər Əliyev istər sovet dövründə, istərsə də suveren Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə idmanın inkişafına daim diqqət və qayğı göstərmişdir. O, idman və Olimpiya hərəkatını dövlət siyasətinin mühüm qollarından biri, mədəniyyətin tərkib hissəsi kimi dəyərləndirirdi. Heydər Əliyevin müxtəlif çıxışlarında səslənmiş «İdman, bədən tərbiyəsi, eyni zamanda mədəniyyətdir», «İdman hər bir xalqın mədəniyyətinin hansı səviyyədə olduğunu göstərir», «Bizim idmanımızın səviyyəsi qalxdıqca, onunla bərabər Azərbaycan xalqının, Azərbaycanın mədəniyyəti də yüksəlir» kimi fikirləri bunu bir daha təsdiq edir.

Heydər Əliyev idmanın hər bir ölkə, xüsusən suverenlik qazanmış yeni dövlətlər üçün beynəlxalq miqyasda böyük siyasi əhəmiyyət kəsb etdiyini həmişə ön plana çəkmişdir. O, 1995-ci ildə yüksək nəticələr göstərmiş idmançılarla görüşündə demişdir: «Xalqımızı, millətimizi, dövlətimizi tanıtmaq üçün mühüm vasitələrdən biri də idmandır, idman yarışlarıdır və şübhəsiz ki, idman yarışlarında yüksək adlar əldə etməkdir.

...Azərbaycanın bayrağı dünyada rəsmən, demək olar ki, iki dəfə qaldırılır. Azərbaycanın dövlət başçısı hər hansı bir ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən Azərbaycanın Himni səsləndirilir, Azərbaycanın Dövlət Bayrağı qaldırılır. Ona görə də mən qeyd edirəm ki, sizin nailiyyətləriniz, eyni zamanda böyük siyasi xarakter daşıyır, dövlətçiliyimizin nailiyyətləri kimi qiymətləndirilməlidir».

«Ölkəni idman qədər tanıtdıran ikinci vasitə yoxdur» deyən Ulu öndərin Azərbaycanda idmanın, Olimpiya hərəkatının inkişafına diqqət və qayğısının mühüm səbəblərindən biri bu vasitədən gərəyincə istifadə etmək idi. Bu yalnız bir səbəb idi. İdmanın inkişafının vacibliyini doğuran başqa səbəblər də vardı. Ümummilli lider idman və

bədən tərbiyəsini həm də «hər bir sivilizasiyalı xalqda, ölkədə vətəndaşların həyat tərzinin mühüm hissəsi» sayırdı. O, hər bir Azərbaycan vətəndaşının bədən tərbiyəsi və idmanla məşğul olmasını istəyirdi. Bəlkə də bu arzunun onun qəlbində dərin kök salmasından idi ki, idmanla, gəncliklə bağlı çıxışlarında hamını bədən tərbiyəsi və idmanla məşğul olmağa dəvət edən çağırışları dönə-dönə səslənirdi.

Heydər Əliyev xalqın və dövlətin həyatında idmanın necə böyük əhəmiyyət kəsb etdiyini, bu istiqamətdə iş görməyin vacibliyini daim xatırladaraq deyirdi: «Biz respublikamızda əhalimizin, millətimizin sağlamlığı haqqında, fiziki, mənəvi sağlamlığı haqqında düşünürük. Bu gün də düşünürük, xalqımızın gələcəyi üçün də düşünməliyik. Bu, bizim vəzifələrimizin içərisində ən böyük, ən əhəmiyyətli vəzifədir».

Azərbaycan Respublikası qədim idman ənənəsi olan ölkələrdən biridir. Burada tarixən idmanın müxtəlif növləri inkişaf etmişdir. Bu məsələyə münasibətdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev demişdir: «Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir. Amma bu xüsusiyyət həmişə bizim daxilimizdə qalıbdır. Keçmiş dövrlərdə də, əsrlərdən-əsrlərə pəhləvanlarımız da, güləşçilərimiz də, oxatanlarımız da, fiziki imkanlarını cürbəcür oyunlarda nümayiş etdirənlərimiz də olubdur. Ancaq məlum olan səbəblərə görə bunlar yalnız öz ölkəmizin çərçivəsində qalıb, dünya miqyasına çıxmayıbdır».

Milli lider Azərbaycan idmanının tarixi ənənələrindən bəhs edərkən ölkə idmançılarının bir zamanlar beynəlxalq miqyasa çıxa bilmədiyini ürəkağrısı ilə xatırlayırdı. Azərbaycan idmanının dünya idmanından bu cür təcrid edilməsi, beynəlxalq aləmdə layiqincə təmsil olunmaması siyasi səbəblərlə bağlı idi. Prezident Heydər Əliyev çıxışlarından birində bunu belə izah etmişdir: «Keçmiş dövrlərdə də Azərbaycanın nümayəndələri Olimpiya oyunlarında təmsil olunmuşdular. Bəziləri yüksək nailiyyətlər də əldə etmişlər. Ancaq onlar keçmiş Sovetlər İttifaqını təmsil etmişlər. Eyni zamanda Azərbaycan tam müstəqil olmadığına görə, keçmişdə Sovetlər İttifaqının ümumi komandasında Azərbaycanın idman ustaları istənilən qədər, istənilən miqdarda heç vaxt təmsil olunmamışdır».

Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi ölkə idmançılarının beynəlxalq yarışlarda layiqincə təmsil olunması üçün hüquqi status yaratdı. İndi hər hansı beynəlxalq yarışda iştirak etmək dövlətin və ölkənin idman qurumlarının ixtiyarında idi. Lakin burada da problemlər, çətinliklər vardı. Ancaq bunlar artıq daxili problemlər, daxili çətinliklər idi. Müstəqilliyin ilk illərində respublikada idmana münasibət son dərəcə aşağı səviyyədə idi. İdman unudulmuş sahələrdən birinə çevrilmişdi. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri vardı. Əgər əsas səbəbləri sadalamaq istəsək, ilk növbədə, aşağıdakıları göstərmək lazımdır: 1) idman dövlətin diqqət və qayğısından kənarda qalmışdı; 2) idman obyektləri və qurğularının əksəriyyəti təyinatı üzrə istifadə olunmurdu; 3) mövcud idman avadanlıqları dağıdılmışdı; 4) ölkədə beynəlxalq yarışların, turnirlərin keçirilməməsi bir yana, hətta yerli yarışların təşkilinə də biganə münasibət formalaşmışdı; 5) əksər klub və bölmələrdə məşqlər dayandırılmış, idmançıların yetişdirilməsi işi başlı-başına buraxılmışdı; 6) idmançıların beynəlxalq yarışlarda iştirakı, demək olar ki, təmin edilmirdi; 7) beynəlxalq yarışlarda yüksək nəticələr göstərmiş idmançıların əməyi qiymətləndirilmirdi; 8) beynəlxalq idman qurumları ilə əlaqələr yox idi.

Belə bir şəraitdə yüksək ustalığa malik idmançılar, ixtisaslı və istedadlı məşqçilər ölkədən çıxıb gedirdilər. Ölkə idmanının inkişaf etdirilməsi üçün, şübhəsiz ki, ilk növbədə dövlətin idmana münasibətində dəyişiklik yaranmalı idi. Belə dəyişiklik 1993-cü ilin ikinci yarısında Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə başlandı.

Ümummilli lider 1990-cı illərin əvvəlində geniş idmana münasibətdə yaranmış vəziyyətdən bəhs edərkən demişdir: «... 1990-92-93-cü illərdə Azərbaycanda bütün idman qurğuları dağıdılmışdı. Azərbaycanın ən böyük stadionu bərbad vəziyyətə salınmışdı. Ayrı-ayrı adamlar orada müxtəlif bazarlar, dükanlar açmışdılar, oranı kababxanaya döndərmişdilər. Bilin! Azərbaycanda çox şeylər dağıdılmışdı. Amma Azərbaycanın gəncliyi, idmanı üçün ən vacib olan bu stadionun dağıdılması məni həddindən artıq incitdi».

Ulu öndər stadionu nəinki bərpa etmək, onu müasir, beynəlxalq standartlar səviyyəsinə qaldırmaq barədə göstəriş verdi və qısa bir müddətdə stadion beynəlxalq standartlara uyğun təmir olundu.

1993-cü il noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti dünya və Avropamiqyaslı yarışlarda yüksək nəticələr göstərmiş idmançılarımızı qəbul etdi. Bu tədbirin çox maraqlı və ibrətamiz tarixi var. O dövrdə idmançıların irimiqyaslı beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında iştirak etməyə imkanları yox idi. Onlar çox vaxt öz hesablarına, yaxud çox çətinliklə tapılan sponsorların sayəsində yarışlara gedə bilirdilər. Buna baxmayaraq, müəyyən nəticələr olurdu. Əksər hallarda bu, qeyri-olimpiya idman növlərində, xüsusən də Şərq döyüş növlərində baş verirdi. 1993–cü ildə - Azərbaycan Respublikasının ən çətin və qarışıq bir zamanında da bəzi idmançıların uğurları olmuşdu. İdmançıları dəstəkləmək üçün nəsə etmək vacib idi, onlarla hansısa bir səviyyədə görüş təşkil etmək zərurəti yaranmışdı. O vaxt yenicə Prezident seçilmiş, gecəsi-gündüzü olmadan bütün səylərini Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsinə, xarici və daxili düşmənlərin qurduqları tələlərin, maneələrin ləğvinə yönəltmiş Heydər Əliyevə bu barədə məruzə olunduqda, onun qərarı qəti oldu: «İdmançıları mən özüm qəbul edəcəyəm, onlarla özüm görüşüb söhbət edəcəyəm. İdmançılara respublika Prezidenti səviyyəsində diqqət göstərilməlidir». Noyabrın 24-dəki bu görüşdə Ümummilli lider öz idmançısının nailiyyətlərinə bütün xalqın, ölkənin sevindiyini, dövlətin bunu yüksək qiymətləndirdiyini xüsusi vurğulayaraq demişdir: «Əlimizdən gələn köməyi etməyə hazırıq ki, gənclərimiz həm təhsildə, əməkdə, Vətənin müdafiəsində, elmdə, mədəniyyətdə, həm də idmanda, bədən tərbiyəsində yaxşı nailiyyətlər qazansınlar. Müasir Azərbaycan Respublikası dövlətinin idmanını dünya miqyasında layiqincə təmsil edənlər, tanıdanlar, bayrağımızı yüksəklərə qaldıranlar bizim fəxrimizdir».

Ümummilli lider ölkə idmanında baş verən hər bir irəliləyişə, hər bir nailiyyətə sevinir, ölkədə idmanın inkişafına yeni-yeni imkanlar yaratmaq üçün bütün vasitələrdən istifadə edirdi. 1994-cü ildə Prezidentin fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Fərmanda ölkədə idmanın inkişafı üçün həyata keçirilməli əsas məsələlər dairəsinə aşağıdakılar daxil edilmişdi: mövcud idman bazalarının, stadionların, meydança və zalların qorunması, bərpası və təyinatı üzrə istifadəsinin təmin edilməsi; yeni idman bazalarının, meydançalarının, stadion və zalların tikilməsi, onların zəruri avadanlıqla təchizatı; idman bölmələri

və klublarının açılması; idman mütəxəssislərinin yetişdirilməsi; ölkə birinciliklərinin və digər yarışların keçirilməsi; idmançıların beynəlxalq yarışlarda iştirakının təmin edilməsi; yüksək idman nəticələri göstərmiş idmançılara diqqət və qayğı göstərilməsi; idmançıların təltif olunması; Azərbaycan Respublikasında beynəlxalq yarışların keçirilməsi; uşaq və yeniyetmələrin daha geniş miqyasda idmana cəlb edilməsi.

Heydər Əliyevin idmanın inkişafı sahəsində siyasətinin uğurunu təmin edən amillərdən biri də idmançıların psixologiyasını yaxşı bilməsi idi. İdmançının həyatı mübarizədən ibarətdir. Bu mübarizə mükafatlar uğrunda aparılır. İdmançının zəhmətinin bəhrəsi mükafatdır – medaldır, kubokdur. O, qazandığı bu mükafata görə cəmiyyətdən, xalqdan, dövlətdən də mükafat gözləyir. Çünki yarışdakı mükafatı xalqın və dövlətin naminə qazanılmışdır. Heydər Əliyev dəfələrlə deyirdi ki, idmançı beynəlxalq yarışlarda qazandığı mükafatlar müqabilində xalqın məhəbbəti, dövlətin qayğısı ilə mükafatlandırılmalıdır.

Bu fikrin təsdiqi kimi, 1995-ci ilin martında Prezident ölkə idmançılarının təltif edilməsi haqqında fərman imzaladı. Həmin fərmanla Olimpiya çempionu Nazim Hüseynov «Şöhrət» ordeni, daha on iki nəfər isə «Tərəqqi» medalı ilə təltif olundu. Elə həmin ayda indiki Bakı İdman sarayında idman oyunlarına baxış keçirildi. Azərbaycan Prezidenti bu tədbirdə çıxış edərək demişdir: «İndi müstəqil Azərbaycanda idmanın inkişafı üçün, bədən tərbiyəsinin geniş yayılması üçün daha çox imkan yaradılmışdır. Bu imkanlardan Azərbaycan vətəndaşları səmərəli istifadə etməlidirlər. ...Biz indi müstəqil bir dövlət kimi dünya miqyasında keçirilən bütün ictimai, mədəni, siyasi tədbirlərdə iştirak edirik və bu baxımdan, Azərbaycan idmançılarının müxtəlif beynəlxalq idman yarışlarında iştirak etməsi respublikamız üçün çox əhəmiyyətlidir».

İdmançıların dövlət mükafatları ilə təltif olunması bundan sonra ənənə şəklini aldı: məşhur futbolçular Ələkbər Məmmədov, Anatoli Banişevski və Kazbek Tuayev, məşhur güləşçi Muxtar Dadaşov, şahmat üzrə beynəlxalq dərəcəli hakim Faiq Həsənov «Şöhrət» ordeni ilə təltif olundular. Sidneydə qazanılan böyük qələbələrə görə Olimpiya çempionları Namiq Abdullayev, Zemfira Meftahətdinova, onların

məşqçiləri Vahid Məmmədov, Yaqub Məmmədov və Hafiz Cəfərov «Şöhrət» ordeni, Olimpiadanın bürünc mükafatçısı Vüqar Ələkbərov və onun məşqçiləri Rəşid Məmmədov, Rauf Cabbarov «Tərəqqi» medalı ilə təltif olundular. 2002-ci ildə Prezident Heydər Əliyev Milli Olimpiya Komitəsinin 10 illik yubileyi münasibətilə Ağayar Axundzadəni, Xəzər İsayevi, Yaşar Məmmədovu, İnna Rıskalı, Rəfiqə Şabanovanı və Lyudmila Şubinanı «Şöhrət» ordeni, daha 17 nəfəri isə «Tərəqqi» medalı ilə təltif etdi.

Heydər Əliyev təkcə böyük yarışlarda uğur qazanan idmançıların və onların məşqçilərinin deyil, müəllimlərin də əməyini yüksək qiymətləndirirdi. Prezidentin fərmanı ilə 2001-ci ildə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 70 illiyində akademiyanın müəllimləri orden və medallarla təltif olundular.

1995-ci ilin dekabrında beynəlxalq yarışlarda yüksək nailiyyətlər qazanmış idmançılarla görüşündə Heydər Əliyev demişdir: «Ötən illərdə bizim itkilərimiz çox olmuşdur. Ancaq nailiyyətlərimiz də az deyildir. Bu nailiyyətlər içərisində idman sahəsində, beynəlxalq yarışlarda əldə olunan nailiyyətlər çox qiymətlidir. Onların qiyməti Azərbaycan xalqının təkcə fiziki cəhətdən yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirməkdən ibarət deyildir, həm də müstəqil Azərbaycan Respublikasını dünyada tanıtdırmaqdan ibarətdir».

Ölkəni tanıtdıra biləcək idmançıların yetişdirilməsinin müxtəlif amillərdən asılı olduğunu vurğulayan dövlət başçısı bu işi təkcə idmançı və məşqçinin əməyi, səyi ilə bağlamaq istəyənlərlə, Azərbaycanda idman ənənəsinin olmamasına istinad edənlərlə, ölkədə bu və ya digər idman növünün inkişaf etdirilməsini mümkün saymayanlarla heç vaxt razılaşmamışdır. O, çıxışlarından birində demişdir: «Çox narahat olurdum ki, niyə bizim idmançılar yüksək adlar ala bilmirlər? Bizə cürbəcür izahatlar verirdilər. Bəzi adamlar hətta belə hesab edirdilər ki, guya Azərbaycan xalqının, Azərbaycan millətinin idman ənənəsi zəngin olmadığına görə, böyük olmadığına görə və onun böyük tarixi olmadığına görə bizim azərbaycanlılar bu yüksək adları ala bilmirlər. Bəzən belə deyirdilər ki, məsələn, güləşdə bizim azərbaycanlılar müəyyən bir çempion adı ala bilərlər, amma başqa idman növlərində ala bilməzlər.

Düzü, o illər mən bu fikirlərlə daxilən razı olmurdum və açıq da deyirdim ki, bunlar doğru fikirlər deyildir. Bizim xalqımız, millətimiz

fiziki cəhətdən, genetik cəhətdən çox sağlam xalqdır, çox sağlam millətdir. Buna görə də ola bilməz ki, bizim idmançılar yüksək nailiyyətlər qazana bilməsinlər».

1994-1995-ci illər Atlanta Olimpiya oyunlarının ərəfəsi idi. Heydər Əliyev Olimpiya oyunlarında iştiraka xüsusi əhəmiyyət verdiyinə görə, Azərbaycanda Olimpiya hərəkatının genişlənməsinin də təşəbbüskarı və ilhamçısı oldu. Olimpiya hərəkatında, Olimpiya oyunlarında Azərbaycanın layiqincə təmsil olunması üçün ölkə başçısı Atlanta Olimpiadasına hazırlıqla bağlı xüsusi sərəncam imzaladı. Bu sənəddə göstərilirdi ki, 1996-cı ildə keçiriləcək XXVI Yay Olimpiya Oyunlarında Azərbaycan Respublikası ilk dəfə müstəqil dövlət kimi təmsil olunacaqdır. Respublika Prezidenti beynəlxalq yarışlar sırasında Olimpiya oyunlarının ən mötəbər, ən yüksək yer tutduğunu həmişə diqqət mərkəzində saxlamış, bu sahə ilə məşğul olanlardan da belə bir münasibət və məsuliyyət tələb etmişdir. İdmançının Olimpiya oyunlarında iştirak etməsi faktının özünün böyük nailiyyət olduğunu vurğulayan Heydər Əliyev 1996-cı ildə Atlanta Oyunlarına yola düşən idman nümayəndə heyəti ilə görüşündə demişdir: «Bu, sadəcə bir nümayəndə heyəti deyil ki, neçə nəfər istəyirsən təyin et, müəyyən et, göndər. Dünyada yeganə haldır ki, bu toplantıya, dünya səviyyəli görüşə gedən nümayəndə heyəti nə dövlət, nə də xalq tərəfindən təyin oluna bilməz. Olimpiya oyunlarında iştirak etmək hüququ almaq üçün lazımi göstəricilər əldə etmək gərəkdir. Əgər bunlar olmazsa, Azərbaycan dövləti, Azərbaycan Prezidenti də nə qədər çalışsa, o nailiyyəti əldə etməyən adam yığma komandanın tərkibinə düşə bilməz. Ona görə də 23 nəfərdən ibarət olan bu nümayəndə heyəti Azərbaycan Respublikasının idman sahəsindəki imkanını nümayiş etdirir. ... Sizin, yəni Azərbaycan Respublikası komandasının XXVI Olimpiya Oyunlarında iştirak etməsi özü əlamətdar bir hadisədir. Siz oradan hansı nailiyyətlə qayıdacaqsınızsa, bu, məsələnin ikinci tərəfidir».

Atlanta Olimpiadasında Azərbaycan idmançılarından cəmi bir nəfər – sərbəst güləşçi Namiq Abdullayev gümüş medal qazanmışdı. Onun bolqar güləşçisi, 7 dəfə dünya çempionu İordanov ilə final görüşü Azərbaycanda böyük əks-səda doğurmuşdu. Heydər Əliyev də onu televiziya ilə izləmiş, Namiq Abdullayevin finalda da cəsarətlə güləşdiyini, əslində rəqibinə məğlub olmadığını, bəlkə də ondan üstün olduğunu öz gözləri ilə görmüşdü. Ancaq hakimlərin subyektiv fikrinə görə, qələbə İordanova verilmişdi. Olimpiya çempionu adını ala bilməyən Namiq əvəzində böyük mənəvi zərbə almışdı. Prezident Heydər Əliyev isə Namiq Abdullayevin Olimpiya oyunlarındakı çıxışını çox yüksək qiymətləndirərək, onun gümüş medalının Azərbaycan üçün qızıla bərabər olduğunu bəyan etdi. Prezidentin sərəncamı ilə ona Olimpiya çempionu üçün nəzərdə tutulmuş mükafat verildi. Heydər Əliyev Atlantadan qayıtmış olimpiyaçılarımızla 1996-cı ilin avqustunda keçirdiyi görüşdə demişdir: «Sizi Atlantaya, Olimpiya oyunlarına çox böyük ümidlərlə, arzularla yola saldıq və şübhəsiz ki, daha yüksək nailiyyətlər gözləyirdik. ... Bir də qeyd edirəm, biz çox şey gözləyirdik. Amma hər bir hadisəyə reallıqdan baxmaq, hər bir hadisəni reallıq əsasında qiymətləndirmək lazımdır. Hesab edirəm ki, reallığa görə sizin nailiyyətiniz görkəmli nailiyyətdir».

Eyni zamanda dövlət başçısı həmin görüşdə növbəti Olimpiya oyunlarına hazırlığa indidən başlamağın vacibliyini vurğulamış, bu hazırlığın xüsusi sənəd əsasında aparılması haqqında göstəriş vermişdir: «O sənəddə dörd il müddətində sizin hansı işlər görəcəyiniz müəyyən edilməlidir. Mən bu barədə sizdən təklif gözləyirəm və əmin ola bilərsiniz ki, lazımi sərəncamlar veriləcək, qərarlar qəbul olunacaq və bunun üçün də lazımi vəsait ayrılacaqdır».

Azərbaycan Respublikası Prezidentinin idmana göstərdiyi diqqət və qayğı beynəlxalq idman və olimpiya təşkilatlarında da böyük əks-səda doğurdu. Milli Olimpiya Komitələri Assosiasiyasının 1997-ci ildə İslandiyanın Reykyavik şəhərində keçirilən Baş Məclisi Olimpiya hərəkatı və idman sahəsində böyük xidmətlərinə görə Azərbaycan Prezidentini görkəmli dövlət xadimlərinə verilən «Olimpiya ləyaqəti» mükafatı ilə təltif etdi. Artıq bütün dünyada, beynəlxalq idman qurumlarında bilirdilər ki, Azərbaycan Respublikasının Prezidenti idmanı dəyərləndirir, onun cəmiyyətdəki rolunu başa düşür, öz ölkəsində idmanın, Olimpiya hərəkatının inkişafı üçün əlindən gələni edir. Bu sahədə görülən işlər, əldə olunan uğurlar idmana dövlət səviyyəsində qayğının, diqqətin, nəzarətin nəticəsi idi.

Heydər Əliyev Milli Olimpiya Komitəsinin (MOK) yaradılmasını müstəqilliyimizi təsdiq edən hadisə kimi qiymətləndirirdi. Bu qurum ölkədə idmanın, Olimpiya hərəkatının inkişafında fəal olmalı, öndə

getməli idi. Lakin Azərbaycan Respublikasında Milli Olimpiya Komitəsinin fəaliyyəti hiss olunmurdu, ölkədə çoxlarının onun varlığından xəbəri yox idi. Azərbaycan Respublikasının idman ictimaiyyəti MOK-un fəaliyyətini gücləndirməyi tələb edirdi. MOK-un işindəki ətalət, fəaliyyətsizlik isə ona rəhbərlik edənlərin işindən irəli gəlirdi.

Milli Olimpiya Komitəsində yaranmış acınacaqlı vəziyyət, rəhbərliyin fəaliyyətsizliyi, işi təşkil edə bilməməsi, Azərbaycan Respublikasında idmanın, Olimpiya hərəkatının inkişafına laqeyd münasibəti hamıdan çox Heydər Əliyevi düşündürürdü. O bilirdi ki, bu sahədə köklü dəyişikliklər etmək lazımdır, bunu təkcə qərarlar, sərəncamlar, göstərişlər və tapşırıqlarla etmək mümkün deyildir. MOK-a, Azərbaycan Respublikasında Olimpiya hərəkatının və idmanın inkişafı prosesinə elə bir adam rəhbərlik etməlidir ki, o, yüksək intellektual səviyyəsi, güclü təşkilatçılıq qabiliyyəti, geniş, müasir dünyagörüşü ilə seçilməli, idmanı sevməli, ölkə idmanı üçün qəlbən yanmalıdır, idmançıları, idman mütəxəssislərini öz ətrafında birləşdirmək istedadı olmalıdır.

İdman ictimaiyyəti belə bir rəhbər kimi İlham Əliyevi görürdü. Müxtəlif yerlərdə, görüşlər, müzakirələr zamanı İlham Əliyevin adı səslənir, məhz onun Milli Olimpiya Komitəsinin prezidenti olacağı təqdirdə Azərbaycan idmanının sürətli inkişafı üçün zəmin yaranacağı bildirilirdi.

Prezident Heydər Əliyev də bu haqda düşünürdü, idmançıların, idmansevərlərin arzusundan onun da xəbəri var idi və o, İlham Əliyevin xalqın ümidlərini doğruldacağına, idmansevərlərin arzularını həyata keçirəcəyinə, Azərbaycan idmanının nüfuzunu yüksəklərə qaldıracağına inanırdı.

1997-ci ilin iyul ayında Milli Olimpiya Komitəsinin Baş Məclisi toplandı. Məhz bu Baş Məclisdə İlham Əliyev yekdilliklə MOK-un prezidenti seçildi. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin fəaliyyətində dönüşün başlanğıcı oldu. Heydər Əliyev də inkişafına son dərəcə böyük əhəmiyyət verdiyi bu sahəni məhz İlham Əliyevin qısa bir zaman kəsiyində irəli apara biləcəyinə, onu düşdüyü ağır vəziyyətdən çıxaracağına qadir olduğuna ürəkdən əmin idi. Bundan beş il sonra, MOK-un onillik yubiley mərasimində dediyi sözlər onun

yanılmadığını bir daha təsdiqlədi: «Müstəqillik, milli azadlıq Azərbaycan xalqına çox şeylər veribdir. Dünyada gedən Olimpiya hərəkatına azad, sərbəst qoşulmaq, orada özünü göstərmək və bununla da Azərbaycanda idmanın, bədən tərbiyəsinin inkişafını daha da sürətləndirmək də bizim məqsədimiz olubdur. Ancaq təəssüflər olsun ki, bu sahədə on ilin hamısı səmərəli istifadə edilməyibdir. Artıq burada deyildi ki, siz bu dövrü iki yerə bölürsünüz. Birinci beş ildə, demək olar ki, biz Olimpiya hərəkatının Azərbaycanda mövcud olduğunu o qədər də bilməmişik. 1997-ci ildən sonra isə Azərbaycanda Olimpiya hərəkatı birdən-birə çox böyük vüsət alıb, təbliğ olunub və bu sahədə çox işlər görülübdür».

Ölkədə idmanın və Olimpiya hərəkatının inkişaf etdirilməsi ilə bağlı dövlət səviyyəsində görülən işlər bir-birini əvəz edirdi. 1998-ci ilin fevralında Azərbaycan Respublikasının Prezidenti «XXVII Yay Olimpiya Oyunlarına hazırlıq haqqında» sərəncam imzaladı. Həmin ilin mayında Prezident yeniyetmələrin I Respublika oyunlarının final mərhələsinin təntənəli açılışında iştirak etdi. İlin sonunda «Dinamo» cəmiyyətinin idman kompleksinin açılış mərasimi oldu. Mərasimdə iştirak edən dövlət başçısı demişdir: «İdmanın, bədən tərbiyəsinin inkişafı üçün görülən işlər və gələcəkdə görəcəyimiz işlər bizim dövlət, hökumət siyasətimizin əsas istiqamətlərindən biridir».

Beləliklə, yeni minilliyin astanasında Azərbaycan Respublikasında idmana dövlət səviyyəsində diqqət və qayğı günbəgün artırdı.

Bəşər tarixinin yeni əsrinin, yeni minilliyinin başlanması münasibətilə Beynəlxalq Olimpiya Komitəsi (BOK), öz ölkələrində Olimpiya hərəkatının inkişafına, Olimpiya ideallarının yayılmasına rəvac verən, onu dəstəkləyən dövlət başçılarını təbrik etmək üçün xüsusi hədiyyə hazırlamışdı. BOK-un prezidenti Xuan Antonio Samarançın Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevə ünvanladığı məktubda deyilirdi ki, BOK Azərbaycan dövlətinin başçısına məşhur heykəltəraş Naq Arnoldinin «2000-ci ilin Olimpiya qapıları» adlı əsərini hədiyyə edir. 2000-ci il fevralın 2-də Prezident Sarayında keçirilən mərasimdə Azərbaycanın görkəmli idmançıları, Olimpiya çempionları Rəfiqə Şabanova və Nazim Hüseynov BOK-un xüsusi rəmzi hədiyyəsini dövlətimizin başçısına təqdim etdilər.

Milli Olimpiya Komitəsinin apardığı gərgin iş, dövlət başçısı tərəfindən idmana dəstək növbəti Olimpiadada Azərbaycan idmançılarının tərkibcə daha çox olmasına imkan yaratdı.

2000-ci il avqustun 25-də Zuğulbada XXVII Yay Olimpiya Oyunlarına gedən idmançılarla Prezidentin görüşü oldu. Ölkə başçısı dörd il əvvəl olduğu kimi, bu dəfə də olimpiyaçılara xeyir-duasını, tövsiyələrini verdi, onlara uğurlar arzuladı. Olimpiya oyunlarına gedən hər bir idmançı Azərbaycan Respublikasının Dövlət Bayrağı qarşısında diz çökərək müqəddəs bayrağı öpdü, Azərbaycanın şərəfini layiqincə qoruyacağına and içərək, Azərbaycan Respublikası Prezidentinin əlini sıxıb, üzündən öpdü. Sonralar Azərbaycanda Olimpiya hərəkatı haqqında, Heydər Əliyev haqqında çəkilmiş video-filmlərdə bu möhtəşəm olduğu qədər həyəcanlı, təmtəraqlı olduğu qədər təsirli epizodları görən beynəlxalq, Avropa və müxtəlif milli olimpiya komitələrinin rəhbərləri buna heyran olduqlarını və mütləq öz ölkələrində bunu tətbiq edəcəklərini dəfələrlə söyləmişlər.

Olimpiyaçılar ölkə başçısına verdikləri vədə Sidneydə əməl edə bildilər. İki qızıl, bir bürünc medal qazanmış Azərbaycan komandası 199 ölkə arasında 34-cü yeri tutdu.

Azərbaycan Respublikasının Prezidenti Sidney yarışlarından sonra, oktyabrın 17-də olimpiyaçıları qəbul etdi, onların nəticələrini yüksək qiymətləndirdi. Yüksək nəticə göstərmiş idmançılar və onların məşqçiləri orden və medallarla, qiymətli hədiyyələrlə mükafatlandırıldılar. Olimpiyaçıların hər biri Prezidentdən mükafat aldı. Prezident Heydər Əliyev görüşdə söylədiyi geniş nitqində demişdir: «Sizin hər biriniz böyük zəhmət çəkmisiniz, yarışda iştirak etmisiniz. Siz dövlətin idmançılara qayğısı haqqında burada danışdınız, bizə öz təşəkkürlərinizi bildirdiniz. Ancaq bu, bizim borcumuzdur. Bu, dövlətin borcudur. Dövlətin, hökumətin hər bir sahədə çox böyük vəzifələri vardır. Əgər biz hansı sahədə nəyəsə nail ola biliriksə, demək, biz öz borcumuzu yerinə yetirə bilirik. Mən bu gün böyük qürur hissi ilə deyirəm ki, biz idmana, bədən tərbiyəsinə qayğı göstərərək millət, xalq, vətən qarşısında öz borcumuzu yerinə yetiririk.

...Milli Olimpiya Komitəsinin böyük planları vardır. İlham Əliyev burada dedi ki, Milli Olimpiya Komitəsi üçün böyük bir kompleks tikilibdir. Biz bir neçə gündən sonra onun açılışında iştirak edəcəyik.

Güclü maddi-texniki bazanın yaranması əsas şərtlərdən biridir. Milli Olimpiya Komitəsinin böyük xidmətlərindən biridir ki, komitə bu işlə ciddi məşğul olur və dövlətdən heç bir vəsait almadan, öz imkanları ilə idman üçün, olimpiyaçılar üçün yeni-yeni böyük müəssisələr yaradır. Biz bunu alqışlayırıq, dəstəkləyirik. Biz lazım olan köməyi bundan sonra da edəcəyik. Yenə də deyirəm, ümidvaram ki, siz bu nailiyyətlə qane olmayacaqsınız, çalışacaqsınız, gələn Olimpiya oyunlarına qədər olan müddətdə müxtəlif dünya yarışlarında iştirak edəcəksiniz və böyük nailiyyətlərinizlə bizi daha da sevindirəcəksiniz».

2000-ci il oktyabrın 21-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin tikdirdiyi idman kompleksi istifadəyə verildi. O vaxt Avropa Olimpiya Komitəsinin prezidenti olan Jak Roqq və həmin qurumun baş katibi Mario Peskante hələ Sidney Olimpiadasında İlham Əliyevlə görüşləri zamanı Bakıya dəvət olunmuşdular və kompleksin açılış mərasimində iştirak etdilər. Mərasimdə çıxış edən Prezident Heydər Əliyev MOK-un işini yüksək qiymətləndirdi, komitənin gələcək fəaliyyəti ilə bağlı tövsiyələrini də verdi: «Hesab edirəm ki, bu, Milli Olimpiya Komitəsinin işinin hələ başlanğıcıdır. Milli Olimpiya Komitəsi əldə etdiyi təcrübədən, təbiidir ki, ictimaiyyətin bu işlərə verdiyi yüksək qiymətdən ruhlanaraq, bundan sonra öz iş dairəsini genişləndirəcək, maddi-texniki baza yaratmaq sahəsində çox işlər görüləcəkdir. Hesab edirəm ki, gələn Olimpiya oyunlarına qədər Azərbaycanda idman daha da yüksələcək, daha da inkişaf edəcəkdir».

2001-ci il martın 26-da isə Prezidentin iştirakı ilə MOK-un yeni inzibati binasının açılış mərasimi keçirildi. Heydər Əliyev istifadəyə verilən hər bir obyektin vacibliyini həmişə vurğulayır, onun bir nəfərin deyil, xalqın malına çevrilməsinə böyük dəyər verirdi. Bu mərasimdəki nitqində də o, MOK-un yeni idman qurğuları tikib gənclərin istifadəsinə vermək təcrübəsini yada saldı, onun əhəmiyyətindən danışdı: «Biz bu gün buraya Milli Olimpiya Komitəsinin inzibati binasının açılışına gəlmişik. Əgər düzünü desək, mən heç təsəvvür edə bilməzdim ki, gözəl, müasir tipli və Milli Olimpiya Komitəsinin işinin daha da səmərəli aparılması üçün lazımi imkanlara malik olan belə binanı Milli Olimpiya Komitəsi öz daxili vəsaitindən istifadə edərək bir il müddətində tikib, yaradıbdır. Bu, çox təqdirəlayiq hadisədir.

Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev bəyan edibdir ki, Gəncədə də, Naxçıvanda da olimpiya kompleksləri tikilir. Amma güman edirəm ki, bu da son həddi deyildir. Bir halda ki, bu işi başlamısınız, bunu genişləndirmək lazımdır. Bir, iki, üçlə iş qurtara bilməz. Ya gərək başlamayaydınız, ya da başlayıb insanları həvəsləndirmisinizsə, gərək onların hamısı üçün şərait yaradasınız. ...Mən bu işlərdə Milli Olimpiya Komitəsinin aparıcı bir təşkilat olmasını nəzərə alıram. Ancaq, eyni zamanda bütün bu işləri yalnız Milli Olimpiya Komitəsinin üzərinə qoymaq fikrində deyiləm. Görürəm, burada bir çox nazirlər, başqa sanballı adamlar oturublar. Azərbaycanca bir söz var: imkanlı adamlardır. Ona görə hərə öz təşkilatının imkanlarından istifadə etməlidir. ...

...Ona görə də mən sizi dəvət edirəm ki, Milli Olimpiya Komitəsinin bu təşəbbüsünə qoşulasınız. Təbiidir ki, təkcə burada oturanlar yox, – bizim televiziya mənim bu çıxışımı respublikaya çatdıracaqdır, – hamını dəvət edirəm, hamını çağırıram.

...Heç kəs dünyada əbədi deyildir. Ancaq bu dünyaya gəlib, həyatını sürüb gedən insan əgər iz qoyursa, demək, o, daha da qiymətlidir. Bu, bəzilərinə nəsib olmur. Bəziləri bunu edə bilərlər, amma onların dərrakəsi çatmır. Amma kim ki, edə bilir və bunu qiymətləndirir, özünün şəxsi imici naminə yox, sadəcə, şəhərimizin, ölkəmizin, xalqımızın inkişafı naminə edirsə, bu, təbiidir ki, əsl vətəndaşlıqdır, əsl yüksək insani keyfiyyətdir».

MOK-un inzibati binasının açılışı Afina Olimpiya Oyunlarına hazırlığın başlanğıc dövrünün lap əvvəlinə təsadüf edirdi. Hələ ötən Olimpiya oyunlarının nəticələri təhlil olunur, hazırlıq konsepsiyası dəqiqləşdirilirdi. Ümummilli lider 2004-cü il Olimpiadasına planlı şəkildə hazırlaşmağı tövsiyə edir, bu hazırlığın konturlarını cızır, yollarını göstərir, bu və ya digər qurumun vəzifələrini müəyyənləşdirirdi. O deyirdi: «Qarşıda Afina Olimpiya Oyunları var. Artıq ona ciddi hazırlıq işləri aparmaq lazımdır və İlham Əliyevin mənə verdiyi məlumata görə, bu işlər aparılır. Amma bir o deyildir. Gərək Azərbaycan nümayəndələri bütün başqa beynəlxalq yarışlarda iştirak etsinlər. Ola bilər, bir dəfə qalib olsun, bir dəfə məğlub olsunlar. Bu, bizi narahat etməməlidir. Azərbaycan gəncləri, Azərbaycan nümayəndələri beynəlxalq yarışlarda nə qədər çox iştirak etsələr, o qədər çox təcrübə toplayacaqlar. Onlar

o yarışların bütün incəliklərini öyrənəcəklər. O qədər həvəslənəcəklər ki, bu yarışlarda yenidən iştirak edib, yeni nailiyyətlər qazanmağa çalışacaqlar ki, nəhayət, istədikləri zirvəyə qalxa bilsinlər. Bu, bizim Milli Olimpiya Komitəsinin qarşısında duran vəzifədir».

Azərbaycan Respublikasının Prezidenti respublikada idmanın, bədən tərbiyəsinin kütləviləşdirilməsinə çox böyük əhəmiyyət verirdi: «Biz idmanı, bədən tərbiyəsini kütləvi etməliyik. Gənclərin tam əksəriyyətini buna cəlb etməliyik, bu, Azərbaycan vətəndaşının hərtərəfli gələcəyi üçün təməldir. Buna nail olmaq üçün təbiidir ki, lazımi imkanlar da yaratmalıyıq, lazımi şərait də yaratmalıyıq.

.... Mən bütün təşkilatları – həm dövlət, həm də qeyri-dövlət təşkilatlarını, biznes aləmini, hamını Azərbaycanın gələcəyi üçün vacib olan bu böyük işə dəvət edirəm, çağırıram. Güman edirəm ki, mənim səsim eşidiləcək və biz gələcək illərdə bunların nəticəsini görəcəyik. Artıq nümunə vardır. Nümunə ondan ibarətdir ki, Milli Olimpiya Komitəsi son illərdə Olimpiya hərəkatının inkişaf etdirilməsi üçün müxtəlif təşkilati tədbirlər, təbliğatı tədbirlər həyata keçirib, Azərbaycan Milli Olimpiya Komitəsini lazımi səviyyəyə qaldırıbdır. Ancaq bu, məsələnin bir hissəsidir. Eyni zamanda Milli Olimpiya Komitəsi qısa bir müddətdə öz daxili imkanlarından istifadə edərək idman, bədən tərbiyəsi işinin maddi-texniki bazasını yaratmaqla məşğul olubdur. Bu, çox sevindirici haldır».

2001-ci il dekabrın 29-da Bakının Maştağa qəsəbəsində Olimpiya idman kompleksinin açılış mərasimi oldu. Heydər Əliyev bütün işlərdə ən vacib, ən zəruri olanı, ilk növbədə, həyata keçirməyi lazım bilir, bunu tövsiyə edirdi. O, Maştağada keçirilən açılış mərasimində də ənənəsinə sadiq qalaraq belə tövsiyələr verdi: «Müstəqilliyimizin ilk illərində, Azərbaycanda din azadlığı veriləndən sonra xeyriyyəçilərin bir hissəsi məscidlərin tikilməsi ilə məşğul oldular və çox faydalı işlər gördülər. Məscid tikdilər, xalqa xidmət etdilər və beləliklə, öz adlarını da məscidin üzərinə yazdılar ki, bu məscidi filan xeyriyyəçi tikibdir. Bu, çox gözəldir. İndi Azərbaycanda yetərli qədər məscid var. Mənə belə gəlir ki, bundan artığına ehtiyac yoxdur. Amma gənclər üçün idman komplekslərinə, yaxud məktəblərə ehtiyac olduqca çoxdur. Bizim gənclərin hamısı oxumalıdır. Məktəblərimiz var, amma biz indi dövlət vəsaiti hesabına məktəb tikintisi ilə istənilən səviyyədə məşğul ola bil-

mirik. Demək, əgər bu xeyriyyəçilər öz vəsaitlərini, xeyriyyəçiliklərini məktəb tikintisinə yönəltsələr, yaxud müxtəlif qəsəbələrdə, kəndlərdə, rayonlarda idman müəssisələri, idman kompleksləri, idman salonları, idman meydançaları yaratsalar, - hökm deyil ki, belə böyük, möhtəşəm olsun, – bu bizim millətimiz üçün çox xeyirli olacaqdır, gənclərin idmanla, bədən tərbiyəsi ilə məşğul olması üçün şərait yaradacaqdır. Bunlar hamısı Azərbaycan gəncliyinin gələcəyinə gözəl təminat verəcəkdir».

Ölkədə idmanın maddi-texniki bazasını inkişaf etdirməyi qarşısına məqsəd qoymuş Milli Olimpiya Komitəsi Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvan şəhərində də universal idman kompleksinin inşasını bütün çətinliklərə baxmayaraq, 2002-ci ilin mayında başa çatdırdı. 2002-ci il iyunun 15-də Naxçıvan şəhərində yeni idman kompleksinin təntənəli açılış mərasimi keçirildi. Mərasimdə geniş nitq söyləyən ölkə başçısı bu hadisəni çox yüksək qiymətləndirmişdir: «Burada, Naxçıvanda Olimpiya idman kompleksinin inşa edilməsi və bu gün istifadəyə verilməsi adi bir hadisə deyildir. Mən o illər Naxçıvanda yaşayarkən heç düşünə bilməzdim ki, gün gələcək, işlərimiz yaxşılaşacaq, yaşayış düzələcək, əmin-amanlıq olacaq, iqtisadiyyatımız inkişaf edəcəkdir. Mən o vaxt heç bilmirdim ki, belə bir Olimpiya Komitəsi var və o, fəaliyyətə başlayacaq, bu cür komplekslər tikib Azərbaycan gənclərinin istifadəsinə verəcəklər.

İlham, mən təşəkkür edirəm ki, sən Naxçıvana belə bir hədiyyə vermisən. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Naxçıvan gəncləri bu kompleksdən səmərəli istifadə edəcəklər və bu kompleksi idarə edənlər də çalışacaqlar ki, o, həmişə yüksək səviyyədə olsun. Xeyirli olsun, uğurlu olsun!

... İndi Azərbaycanda idmanın, bədən tərbiyəsinin böyük maddi-texniki bazası yaranır. Biz bu bazanı yaratmaq istəyirik. Ancaq bizim Milli Olimpiya Komitəsinə büdcədən vəsait ayırmağa imkanımız yoxdur. Onlar öz imkanlarından istifadə edirlər. İndi görün, bu işə nə qədər sədaqətlidirlər, bu işi nə qədər sevirlər. Hər şeyi kənara qoyub bunları edirlər».

Naxçıvan şəhərində yeni idman kompleksinin açılışından iki ay keçməmiş respublikanın başqa bir şəhərində, Gəncədə də yeni idman

qurğusu istifadəyə verildi. Təntənəli açılış mərasimi yenə də ölkə başçısının iştirakı ilə keçdi.

2002-ci ildə Şəki şəhərində yeni Olimpiya kompleksinin təntənəli açılışı oldu. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak etdi və geniş nitq söylədi. Onda heç kim bilmirdi ki, bu, onun yeni idman obyektlərinin açılışında söylədiyi son nitqidir. Heydər Əliyev isə çıxış edir, hamını qurub-yaratmağa, tərəqqiyə, inkişafa, irəliyə çağırırdı: «Bizim Milli Olimpiya Komitəsi son illərdə, doğrudan da, çox böyük işlər görür. Biz bu yaxınlarda Milli Olimpiya Komitəsinin 10 illik yubileyini qeyd etdik. Amma onun həqiqi fəaliyyəti son beş ildədir. İdmançılar İlham Əliyevi özlərinə başçı, prezident seçəndən sonra o elə böyük həvəslə, elə böyük ruh yüksəkliyi ilə, elə məhəbbətlə bu işdən yapışıbdır ki, onu bundan heç cür ayırmaq mümkün deyildir. Bu da təsadüfi deyildir.

Birincisi, cavan insan kimi o, gənclərin tələbatını yaxşı bilir. İkincisi də, gənc siyasətçi kimi yaxşı bilir ki, ölkəmizin gələcəyi, respublikamızın gələcək həyatı gənclərdən asılıdır və onlardan ötrü də şərait yaratmaq lazımdır. Müstəqil dövlətimiz üçün bunun çox böyük əhəmiyyəti var.

Mən Milli Olimpiya Komitəsinə təşəkkür edirəm ki, belə işlər görür və ümidvaram ki, bu iş bundan sonra da davam edəcək, Azərbaycanın başqa bölgələrinə də yayılacaqdır».

Onun çağırışları, tövsiyələri bəhrəsini verirdi. Azərbaycan Respublikasında daha böyük idman komplekslərinin, stadion, idman sarayı və salonlarının təntənəli açılışları olurdu. 2003-cü ildə Bərdə, Quba və Lənkəranda olimpiya idman kompleksləri, Bakıda Atıcılıq stendi kompleksi, Yaxt-klub, «Musado» taekvondo sarayı istifadəyə verildi. Xalqımızın Ümummilli lideri bu idman qurğularının açılış mərasimlərində iştirak edə bilməsə də, hər dəfə yeni idman obyektinin açılışına toplaşanlar bilirdilər ki, bütün bu quruculuq işləri onun yolunun davam etdirilməsi, göstərişlərinin həyata keçirilməsidir. Çünki Ulu öndər Heydər Əliyevin çağırışları, tövsiyə və göstərişləri ölkəmizdə idmanın gələcək inkişafının yolu idi.

Xalqımızın Ümummilli lideri yeni idman qurğularının tikilməsinin, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsinin və həmin qurğuların yalnız paytaxtda deyil, bütün bölgələrdə olmasının əhəmiyyətini,

hər şeydən əvvəl, idmanın ölkədə ahəngdar inkişafına təkan verəcəyində görürdü. Hər hansı bölgədə yeni idman obyektinin istifadəyə verilməsi orada idmana marağı daha da artırır, uşaqların və yeniyetmələrin idmanla məşğul olmasına təsir göstərirdi. Bölgələrdə müasir standartlara cavab verən komplekslərin tikilməsi yerli və beynəlxalq yarışların keçirilməsi üçün də imkan yaradırdı. Bu isə həm idmanın kütləviləşməsində, həm də rayon idmançılarının ustalıqlarını artırmalarında mühüm rol oynayırdı. Fəxrlə deyə bilərik ki, Heydər Əliyevin göstərdiyi bu yolda görülən işlər öz bəhrəsini verməkdədir. Azərbaycan Respublikasının bir sıra bölgələrində mötəbər beynəlxalq yarışlar keçirilmişdir. Naxçıvan, Gəncə, Quba, Şəki, Lənkəran, Qusar və başqa şəhər və rayonlarımızda keçirilən bu yarışlar dünyanın müxtəlif ölkələrindən gəlmiş idmançıların Azərbaycan Respublikasını daha yaxından tanımasına kömək etmişdir. Respublikanın rayon və şəhərlərinin sakinləri isə ilk dəfə öz doğma yaşayış məskənlərində mötəbər idman yarışlarını birbaşa izləmişlər.

Beynəlxalq idman əlaqələrinin qurulması, genişləndirilməsi və sıx əməkdaşlığa çevrilməsi də xüsusi əhəmiyyət daşıyırdı. Elə buna görə də Heydər Əliyev beynəlxalq idman qurumlarının Azərbaycan Respublikasına səfərə gəlmiş rəhbərlərini, yüksəkvəzifəli nümayəndələrini şəxsən özü qəbul edir, onlarla əməkdaşlıqla bağlı fikir mübadiləsi aparırdı.

1994-cü ilin aprelində ölkə başçısı BOK-un prezidenti Xuan Antonio Samarançı, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti Mario Vaskes Rananı, Avropa Olimpiya Komitəsinin prezidenti Jak Roqqu qəbul etmişdi. Qəbulda Azərbaycanda Olimpiya hərəkatının vəziyyəti və inkişaf perspektivləri haqqında geniş fikir mübadiləsi aparılmışdı.

Yeri gəlmişkən, bu səfərlə bağlı çox maraqlı bir məqamı xatırlatmaq istəyirəm. Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti cənab Mario Vaskes Rana dünyada ən varlı və tanınmış naşirlərdən biridir. O, Mərkəzi və Cənubi Amerikada 40-dan artıq nəşriyyatı birləşdirən ən böyük nəşriyyat evinin sahibi, 70-dən çox qəzet və jurnalın təsisçisidir. Qonaqlar Azərbaycan Respublikasına məhz onun şəxsi təyyarəsində gəlmişdilər. Ümummilli lider Heydər Əliyevlə görüşün ertəsi günü saat 12-də onlar Bakını tərk etməli idilər. Lakin cənab Mario Vaskes Rana Heydər Əliyevlə görüşdən böyük tə-

əssürat aldığını və onunla bir daha görüşmədən Bakıdan getməyəcəyini bildirmişdir. O, Samarançа demişdir: «Mən dünyanın dahi şəxsləri haqqında kitab yazıram. Bu kitabda Heydər Əliyevin məxsusi yeri olmalıdır. Odur ki, mən onunla təkbətək görüşməli və ondan müsahibə almalıyam. Mən onun ən çoxu yarım saat vaxtını alacağam». Prezident Heydər Əliyevə qonağın bu arzusunu çatdıranda o, məmnuniyyətlə onu bir daha qəbul edəcəyini bildirmişdi. Bu görüş 3 saata yaxın davam etmişdi.

Bu hadisə Ulu öndərin onunla ünsiyyətdə olan hər bir insanda böyük maraq doğurduğunu, Heydər Əliyev fenomeninin hamının diqqətini cəlb etdiyini bir daha sübut edir.

1995-ci il dekabrın 23-də Azərbaycan Prezidenti Beynəlxalq Həvəskar Boks Assosiasiyasının prezidenti Ənvər Çoudrini qəbul etmiş, Azərbaycan boksunun vəziyyəti, onun gələcək perspektivləri barədə ətraflı fikir mübadiləsi aparmışdı.

Azərbaycan boksunun yeni inkişaf mərhələsi də məhz bu dövrdən başlanmışdır. 1996-cı il Atlantada Azərbaycan boks məktəbinin yetirmələri ilk dəfə Olimpiya oyunlarında iştirak etmiş, onların ilk çıxışı medalla nəticələnməsə də, ümumən uğurlu olmuşdur. 1999-cu ildə ilk dəfə Azərbaycanda yeniyetmələr arasında boks üzrə növbəti Avropa çempionatı keçirildi. Yeniyetmə boksçularımız bu çempionatda böyük uğur qazandılar. Azərbaycan Prezidenti çempionatın iştirakçılarına təbrik məktubu göndərmiş, Avropa Həvəskar Boks Assosiasiyasının prezidenti Emil Jeçevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdi.

Heydər Əliyev 2001-ci ildə MOK-un ilk idman kompleksinin açılışında iştirak etmiş, o vaxt Avropa Olimpiya Komitəsinin prezidenti olan Jak Roqqu və komitənin baş katibi Mario Peskanteni qəbul etmiş, ölkəmizdə Olimpiya hərəkatının son bir neçə ildə inkişaf etdiyini və xüsusilə beynəlxalq olimpiya təşkilatları, o cümlədən Avropa Olimpiya Komitəsi ilə əlaqələrin yaradılmasını məmnunluqla vurğulamışdı.

Cənab Jak Roqq Azərbaycan Respublikası MOK-unum fəaliyyətini yüksək qiymətləndirərək demişdi ki, o, yeni yaranmış milli olimpiya komitələrinə nümunə ola bilər. Ölkəmizdə idmanın inkişaf etdirilməsinə göstərdiyi qayğıya görə minnətdarlıq əlaməti olaraq, Jak Roqq Prezident Heydər Əliyevə dövlət başçısı üçün xüsusi hazırlanmış

«Olimpiya Xartiyası»nı, üstündə Avropanın təsviri olan plaket və Avropa Olimpiya Komitəsinin bayrağını təqdim etmişdi.

Heydər Əliyev qonaqlara ölkəmiz və onun idman tarixi haqqında da yığcam məlumat verərək demişdir: «Azərbaycan çox qədim ölkədir. Yəqin ki, bizim qədim tariximizdən sizin xəbəriniz vardır. Ancaq müstəqil dövlət kimi çox gəncik. Azərbaycanın idmançıları keçmişdə, Sovetlər İttifaqının tərkibində olanda da SSRİ-nin yığma komandasının tərkibində müxtəlif beynəlxalq yarışlarda iştirak edirdilər. Ancaq onlar bu səviyyəyə gəlib çata bilmirdilər. Ona görə yox ki, onlar idman sahəsində bu səviyyəyə çatmağa qabil deyildilər. Ona görə ki, biz müstəqil deyildik. SSRİ yığma komandasının başçıları da müəyyən edirdilər ki, hansı idmançı harada hansı nailiyyət əldə edə bilər. Ona görə də mən bizim görüşümüzdə dedim ki, Azərbaycanın Milli Olimpiya Komitəsinin yaranması və bu komitənin XXVII Yay Olimpiya Oyunlarında əldə etdiyi nailiyyət Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bəhrəsidir. Buna görə də bizim beynəlxalq dəstəyə ehtiyacımız vardır.

Bizim idmançılarımız güclüdürlər. İndi onlara şərait yaradandan sonra öz güclərini daha da çox göstərəcəklər. Ancaq beynəlxalq əlaqələr, təbiidir, hər bir ölkənin idmançılarını yeni-yeni təcrübələrlə tanış edir. Bu baxımdan, mən Avropa Olimpiya Komitəsi ilə Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi arasında yaranmış əlaqələri yüksək qiymətləndirirəm. İnanıram ki, bu əlaqələr daim genişlənəcək».

2001-ci ilin aprelində Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsi Bakıda öz iclasını keçirdi. İcraiyyə Komitəsinin bütün üzvləri MOK-un inzibati binasına heyran qalmış, Avropanın bir çox ölkəsində olimpiya komitələrinin belə gözəl iqamətgahının olmadığını bildirmişdilər.

Ümummilli lider Heydər Əliyevin idman sahəsində beynəlxalq əlaqələrin möhkəmlənməsində, inkişafında, nəhayət, dostluq əlaqələrinə çevrilməsində xidmətləri böyükdür. O, Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə qitə və dünya miqyaslı beynəlxalq idman qurumları rəhbərlərinin ölkəmizə gəlişi zamanı onları qəbul etməyə həmişə vaxt tapmış və sonralar da onlarla şəxsi əlaqələrini saxlamışdır.

2000-ci il Sidney Olimpiya oyunlarından sonra BOK-un prezidenti Xuan Antonio Samaranç Azərbaycan Respublikasının Prezidenti

Heydər Əliyevə teleqram göndərmişdi. Teleqramda deyilirdi: «Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri! Cənab Prezident və mənim dostum!

Yeni minilliyin ilk oyunları, Olimpiya tarixində ən yaxşı oyunlar hesab olunan XXVII Yay Olimpiya Oyunları Sidneydə bağlı elan edildi. Dünya idmançılarının, o cümlədən Azərbaycan idmançılarının əla çıxışları oyunların uğurla başa çatmasına səbəb oldu. Buna görə Sizə səmimi təbriklərimi və Milli Olimpiya Komitəsinə göstərdiyiniz dəstəyə görə öz minnətdarlığımı bildirirəm».

Bu teleqramda diqqəti cəlb edən bir cəhət də o idi ki, Xuan Antonio Samaranç «mənim dostum» sözlərini öz xətti ilə teleqramın mətninə daxil etmişdi. Bu onu göstərirdi ki, teleqram bütün dövlət başçılarına ünvanlanan bir teleqram deyildir.

Heydər Əliyev Azərbaycan idmanının beynəlxalq miqyasda layiqincə təmsil olunmasına, qitə və dünya səviyyəli yarışlarda uğurlar qazanılmasına böyük önəm verir, ölkədə beynəlxalq yarışların keçirilməsinə çox sevinir, belə yarışların iştirakçılarına təbrik məktubları ünvanlayır, yarışları canlı izləmək üçün tamaşaçılar arasında olur, gəlməyə imkan tapmadıqda yarışlara televiziyada baxırdı.

Ümummilli liderin tövsiyə və göstərişlərinə əməl edərək, Milli Olimpiya Komitəsi, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, milli idman federasiyaları ilbəil beynəlxalq əlaqələrini gücləndirdilər və bunun sayəsində ölkədə beynəlxalq yarışların keçirilməsində irəliləyişə nail oldular. İlk dəfə olaraq, Azərbaycanda komanda idman növlərində beynəlxalq turnirlər təşkil olundu. Voleybolçu qızlarımız Avropa qadın voleybol komandaları arasında «Top-komanda kuboku»nun finalına çıxdılar. Bu kubok uğrunda yarışların final mərhələsi Bakıda keçirildi və idmançılarımız kuboka sahib oldular. Beynəlxalq yarışların Azərbaycanda təşkili təcrübəsinin əsası 1997-ci ildə qoyulmuşdu. Əvvəllər beynəlxalq turnir səviyyəsində olan bu yarışların illər keçdikcə mötəbərlik dərəcəsi artdı. 1999-cu ildə Bakıda yeniyetmələr arasında boks üzrə Avropa, 2001-ci ildə dünya çempionatları, 2002-ci ilin mayında isə kişilər arasında sərbəst güləş üzrə 45-ci Avropa çempionatı keçirildi. Heydər Əliyev 45-ci Avropa çempionatının mötəbər açılış mərasimində iştirak etdi, güləşçilərimizin çıxışlarını həyəcanla izlədi. İdmançılarımız respublika Prezidentinin gəlişini öz qələbələri

ilə qeyd etdilər, Nazim Əlicanov və Arif Abdullayev Avropa çempionu adını qazandılar.

Dövlət başçısı respublikada idmanın inkişafını yalnız dörd ildən bir keçirilən Olimpiya oyunlarında iştirak etməkdə və orada hansısa nailiyyətlər əldə etməkdə, respublikada beynəlxalq yarışların keçirilməsində görməməyi, bunlarla yanaşı, ölkədə idmanın geniş yayılmasının təmin olunmasını, kütləvi idmanı inkişaf etdirməyi tövsiyə edirdi. Heydər Əliyev idman obyektlərinin bütünlüklə gənclərin istifadəsinə verilməsini tələb edir, idman qurğularının bərpasını, yeni obyektlərin tikilməsini, idmanın bütün növlərinin, o cümlədən qeyri-olimpiya növlərinin də inkişaf etdirilməsini ön plana çəkirdi.

Azərbaycan Respublikasının Prezidenti insanı yalnız fiziki cəhətdən sağlamlaşdıran idman növlərinin deyil, həm də əqli inkişafa, analitik düşüncə tərzini formalaşdırmağa, yaradıcılıq qabiliyyətinə müsbət təsir göstərən şahmatın da inkişafını həmişə diqqət mərkəzində saxlamışdır. Onun təşəbbüsü ilə hələ 1970-ci illərinin axırları – 1980-ci illərin əvvəllərində ölkənin bütün bölgələrində şahmat məktəbləri, şahmat klubları açılmışdı. Nəticədə respublikada şahmat böyük sürətlə inkişaf etməyə başlamış, müxtəlif yaş dərəcələri üzrə qrossmeysterlər, dünya çempionları yetişmişdi. Həmin dövrdə şahmata verilmiş təkanın nəticəsi idi ki, ölkə şahmat məktəbi keçid dövründə, müstəqilliyin ilk illərində ətalət içərisində olsa da, özünü qoruya bilmişdi. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasına rəhbərlik etməyə başlayandan sonra bu sahədə yeni dirçəliş başlandı. 1997-ci ilin yanvarında ölkə başçısı şahmat üzrə dünya çempionu Anatoli Karpovu qəbul etdi. Bu görüşdə Azərbaycan şahmatının vəziyyəti, onun inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparıldı.

Ölkənin şahmat məktəbləri fəaliyyətlərini yenidən genişləndirməkdə, uşaq şahmatçılar arasından yeni-yeni istedadlar üzə çıxmaqda idi. Prezident Heydər Əliyev 1998-ci ilin fevralında «Azərbaycanın uşaq şahmatçıları Teymur Rəcəbov və Vüqar Həşimova dövlət qayğısının artırılması haqqında» Sərəncam imzaladı. Həmin ilin sonunda isə «Azərbaycanın uşaq şahmatçılarına dövlət qayğısının artırılması haqqında» sərəncam verdi. Şahmatçılara göstərilən bu qayğı çox keçməmiş öz bəhrəsini verməyə başladı. Hazırda Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov və Vüqar Həşimov dünyanın ən güclü şahmatçıları sırasındadırlar.

İndi Azərbaycan Respublikası dünyanın idman ölkələrindən biri sayılır. Dünya idman aləmində tutduğumuz bu yer Ulu öndərin idman siyasətinin bəhrəsidir. Ümummilli liderin bu siyasətini hazırda Prezident İlham Əliyev böyük inam və qətiyyətlə davam etdirir. Dövlətimizin başçısı 2008-ci ildə Pekin Olimpiadasında iştirak etmiş idmançılarla görüşdəki nitqində ölkənin Olimpiya oyunlarındakı nailiyyətlərinin artması ilə bağlı demişdir: «Olimpiya oyunları kimi çox böyük və dünyanın ən mötəbər, birinci idman yarışında 7 medal qazanmaq çox böyük nailiyyətdir, böyük uğurdur və bizim hamımızı çox sevindirir. Müstəqil dövlət kimi Azərbaycan Yay Olimpiya Oyunlarında dörd dəfə iştirak etmişdir və hər dəfə daha da böyük nailiyyətlər qazanmışdır. İlk dəfə Atlantada 1 gümüş medal qazanılmışdı, sonra Sidneydə 2 qızıl, 1 bürünc, ondan sonra Afinada 1 qızıl, 4 bürünc və bu dəfə Pekində 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıldı. Bu, doğrudan da, böyük nailiyyətdir və onu göstərir ki, idmançılarımızın çox böyük potensialı, çox böyük peşəkarlığı var.

... Müstəqilliyi şərtləndirən müxtəlif amillər var. Həm müstəqil siyasət aparmaq imkanlarımız, güclü iqtisadiyyat, güclü sosial siyasət, ölkəmizdə sabitliyin, əmin-amanlığın bərqərar olunması, Azərbaycanda təhlükəsizliyin təmin olunması - yalnız belə şəraitdə idmanın inkişafı mümkündür. Ümumiyyətlə, idmanın inkişafı hər bir ölkənin potensialının əlamətidir, onun təzahürüdür. Təsadüfi deyil ki, Azərbaycan dinamik inkişaf edən ölkə, çox sürətlə inkişaf edən ölkədir və güclü idman imkanlarına da malikdir».

Respublikada idman infrastrukturunun sürətlə inkişaf etməsi, Olimpiya hərəkatı və idman sahəsində beynəlxalq əlaqələrin genişlənməsi, mötəbər yarışların respublikamızda təşkilində əldə olunan nailiyyətlər Azərbaycan Respublikasının paytaxtında Olimpiya oyunlarının keçirilməsi üçün müəyyən imkanların yaranmasına səbəb oldu. Azərbaycan Respublikasının Prezidenti 2006-cı ildə Milli Olimpiya Komitəsində keçirilən toplantıdakı çıxışında demişdir: «2016-cı il on ildən sonra gələcək, əlbəttə, o vaxta qədər Azərbaycanda oyunları ən yüksək səviyyədə keçirmək mümkün olacaqdır. Biz nəyə görə belə əminik?! Ona görə ki, ölkəmizin imkanları artır, beynəlxalq mövqeləri

möhkəmlənir, Azərbaycan regional çərçivədə lider dövlətdir və bizim gələcəyimiz də çox parlaq olacaqdır. ...Əgər 2016-cı ildə bu oyunların keçirilməsi başqa şəhərə həvalə olunarsa, ondan sonra 2020-ci il gəlir. Mən şübhə etmirəm ki, bizim belə təşəbbüsümüz və bu işə sədaqətimiz uğura gətirib çıxaracaqdır». 2007-ci ildə MOK-un 15 illik yubileyində isə Azərbaycan Prezidenti demişdir: «Azərbaycan artıq özünü o qədər arxayın, o qədər inamlı hiss edir ki, bildiyimiz kimi, 2016-cı ildə Olimpiya oyunlarının ölkəmizdə keçirilməsi haqqında rəsmi müraciət göndərmişik. Azərbaycanın paytaxtı yeddi ən inkişaf etmiş şəhərlərin arasındadır və biz bununla, bir tərəfdən, onu göstəririk ki, ölkəmizdə idmana çox böyük diqqət göstərilir və idmanın inkişafına çalışacağıq. Digər tərəfdən, bu onu göstərir ki, gənc müstəqil dövlət, cəmi 16 il müstəqil dövlət kimi yaşayan Azərbaycan artıq özünü o qədər güclü hesab edir ki, Olimpiya oyunları kimi dünya miqyaslı beynəlxalq yarışların keçirilməsinə də cəhd edir».

Bakı Olimpiya oyunlarını keçirməyə iddiaçı olan 7 şəhərdən biri oldu. Onun Çikaqo, Rio-de-Janeyro, Doha, Madrid, Praqa, Tokio kimi iri şəhərlərlə bir siyahıya daxil edilməsi, onlarla birgə namizəd şəhər statusu almaq uğrunda mübarizəyə qoşulması ölkəmizin beynəlxalq idman aləmindəki böyük nüfuzundan xəbər verirdi.

Azərbaycan idmanı ilbəil inkişaf edir. İdmançılarımızın beynəlxalq yarışlarda qazandıqları medalların sayı da artır. 2008-ci ildə 550 medal qazanılmışdısa, 2009-cu ildə bu rəqəm 619-a çatmışdır. Bu medalların 174-ü (64 qızıl, 46 gümüş, 64 bürünc) Olimpiya idman növlərində əldə olunmuşdur.

İdman nailiyyətlərimiz sırasında 2009-cu ildə Ermənistanda keçirilmiş Avropa çempionatındakı uğur xüsusi yer tutur. Bu yarışda iştirak etmiş idmançılarla görüşündə Azərbaycan Prezidenti demişdir: «Bu qələbənin çox böyük mənası vardır. Birinci növbədə, bu qələbə onu göstərir ki, Azərbaycanda çox güclü gənc nəsil, gənc idmançılar yetişir. O idmançılar ki, gənc yaşlarından doğma Vətənimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər. Bu qələbə onu göstərir ki, gənclərimiz vətənpərvərlik ruhunda böyüyürlər, tərbiyə alırlar, dəyərli vətəndaşlar kimi Azərbaycanın şöhrətini ucaldırlar. Bu qələbənin böyük mənası ondan ibarətdir ki, yarışda beş idmançı iştirak edib, beşi də Vətənə medalla qayıdıbdır.

Şübhəsiz ki, bu qələbənin Azərbaycanın idman tarixində xüsusi yeri vardır. Ona görə ki, bu qələbə Ermənistanda, İrəvanda keçirilən Avropa çempionatında qazanılmışdır. Bu, böyük qələbədir. İrəvanda beş dəfə Azərbaycanın Dövlət Bayrağı qaldırılmışdır, bir dəfə Azərbaycanın dövlət himni səsləndirilmişdir. Ona görə bu qələbənin çox böyük mənası vardır. Bu qələbə Azərbaycanın idman tarixində əbədi yaşayacaqdır.... İlk dəfədir ki, idmançılarımız Ermənistanda keçirilən beynəlxalq yarışda Azərbaycanı təmsil ediblər, ölkəmizin gücünü, müasir Azərbaycanın nəyə qadir olduğunu göstəriblər. Bu qələbə Azərbaycan gəncliyinin, Azərbaycan xalqının qələbəsidir».

Azərbaycan idmanı sürətli inkişafını, tarixi qələbələrini davam etdirir. Bütün bunlar xalqımızın Ümummilli lideri Heydər Əliyevin idman siyasətinin təntənəsi, bu siyasətin uğurla davam etdirilməsinin təzahürüdür. Ulu öndər Azərbaycan idmanı və Olimpiya hərəkatı üçün nə mümkündürsə, hətta mümkün olduğundan da çox etmişdir. Onun etdikləri təkcə Azərbaycan idmanı üçün deyil, dövlət siyasəti təcrübəsi və nəzəriyyəsi üçün də əhəmiyyətlidir. İdman və bədən tərbiyəsinin, Olimpiya hərəkatının mahiyyəti, funksiyaları, cəmiyyətdəki rolu haqqında onun fikirləri, gördüyü işlər hələ çox-çox illər təhlil, tədqiqat obyekti olacaq və bundan sonra da bəhrəsini verəcəkdir.

3.4. Ekoloji tarazlığın təmin edilməsi

Cəmiyyət təbiətlə dialektik vəhdətdədir. Təbiətin qorunmasının qənaətbəxş olmadığı yerlərdə sağlam cəmiyyətdən, xoşbəxt həyatdan və mənəvi prinsiplərə istinad edən normal sosial-məişət münasibətlərindən söhbət gedə bilməz.

Bu gün də ekologiya və təbiətin mühafizəsi həyatın ən aktual problemi kimi qalmaqdadır.

Müasir dövrdə dünyada gedən qloballaşma prosesi, iqtisadiyyatın sürətli inkişafı, əhalinin çoxalması ilə əlaqədar təbii sərvətlərə tələbatın artması, inkişaf etməkdə olan ölkələrdə müasir texnologiyalardan istifadə imkanlarının məhdud olması, qlobal iqlim dəyişiklikləri və digər amillər nəticəsində yaranmış ekoloji problemlər bəşəriyyəti daha çox narahat etməyə başlamışdır. Bu problemlər Azər-

baycandan da yan keçməmiş, uzun illər ərzində iqtisadiyyatın inkişafında ekoloji amillərin nəzərə alınmaması, təbii sərvətlərdən kortəbii istifadə, xüsusilə son iki əsrə yaxın müddətdə – çar Rusiyası və Sovet İttifaqı dövründə Abşeronun neft yataqlarının yalnız hasilatın artırılmasına hesablanmış istismarı nəticəsində ölkə ərazisində ciddi ekoloji problemlər yaranmış, su hövzələri və torpaqlar çirklənmiş, bioloji müxtəliflik tükənmək təhlükəsi qarşısında qalmışdı.

Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövrünə qədər respublikada təbiətin qorunması sahəsində həyata keçirilən tədbirlər sistemli xarakter almamışdır. Yalnız ötən əsrin 70-ci illərindən etibarən təbiətin mühafizəsinə diqqət artmışdır. Sovet inzibati-amirlik sisteminin verdiyi imkanların məhdud çərçivəsinə baxmayaraq, o illərdə ekologiya və təbiəti mühafizə tədbirləri də Heydər Əliyev üçün öncül məsələlərdən olmuşdur. Məhz onun rəhbərliyi dövründə Azərbaycanın ekoloji siyasəti, sonra da ekoloji konsepsiyası formalaşdı. Həmin dövrdə təbiəti mühafizəyə və təbii ehtiyatlardan səmərəli istifadəyə dair 8 qanun, Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 32 qərarı qəbul edilmişdi [344, 3]. 45 min hektar ərazidə 6 dövlət təbiət qoruğu yaradılmışdı. Xəzər dənizinin ekoloji problemləri də Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Onun səyi ilə Xəzərin ekoloji problemlərinin həlli üçün 1978–1981-ci illərdə həyata keçirilən tədbirlərin maliyyələşdirilməsinə o vaxtkı qiymətlərlə 114,8 mln. manat (rubl) ayrılmışdı.

Ulu öndər Heydər Əliyevin ekologiya sahəsindəki mühüm işlərindən biri də Bakının və Abşeron yarımadasının yaşıllaşdırılması idi. Abşeron ərazisinin 1321 hektarı yaşıllaşdırılmış, 1 milyondan çox ağac, 2 milyondan çox kol əkilmişdi. Həmin dövrdə Azərbaycanda yaşıllaşdırma sahəsindəki uğurlar ittifaqda da böyük əks-səda doğurmuş, SSRİ-də yaşıllaşdırmaya dair ilk elmi-praktik konfrans məhz Bakıda keçirilmişdi [115, 255]. 1993-cü ildə yenidən ölkəyə rəhbərlik etməyə başlamış Ümummilli lider Heydər Əliyev ekoloji problemlərin həllini də diqqətdən kənarda qoymurdu. 1997-ci il mayın 10-da Bakının Nizami rayonunun 8-ci Kilometr yaşayış sahəsində parkın açılışında söylədiyi nitqindəki aşağıdakı sözlər onun ekoloji məsələlərə xüsusi həssaslıqla yanaşdığını, eyni zamanda respublikanın keçmiş rəhbərlərinin bu vacib sahəyə laqeydliyini çox aydın ifadə edir: «...

Bakıda şəhərin yaşıllaşdırılma problemi, burada ağac əkilməsi problemi mənim üçün ən əsas problemlərdən biri olubdur. Çünki, bildiyimiz kimi, keçmiş zamanlarda Bakıda su çatışmazlığına görə, şəhərin sərt iqlimi və xüsusən Xəzərin küləyi ağacların inkişaf etməsi üçün çətinliklər yaratdığına görə Bakıda ağac, yaşıllıq çox az idi.

... Mən ilk dəfə Bakıda yaşıllıq işləri aparılması təklifini irəli sürdüm, böyük bir proqram hazırladıq və Bakını sürətlə, ilbəil yaşıllaşdırmağa başladıq. ...Mən bunlar üçün fəxr edirəm. Ancaq bunların arasında ən çox fəxr etdiyim odur ki, mən Bakının geniş mənada yaşıllaşdırılmasının bünövrəsini qoymuşam. Uzun illər, yəni 70-ci ildən indiyə qədər bu proqramın həyata keçirilməsinə nail olmuşam. İndi Bakıya gələn xarici qonaqlar Bakını yaşıl şəhər və gözəl bağlar şəhəri kimi görürlər. Əgər onlar 30–40 il bundan əvvəl Bakıya gəlsəydilər, o vaxt tamam başqa bir mənzərə ilə rastlaşardılar... Amma indi, XX əsrin sonunda Bakı bağ-bağça, yaşıllıq şəhəri olubdur. Doğrudur, mən Azərbaycandan gedəndən sonra və xüsusən 1987–1988-ci illərdə çox nadan adamların respublikaya rəhbərlik etdikləri dövrdə, bundan sonra Azərbaycanda, o cümlədən Bakıda hərc-mərclik, özbaşınalıq hökm sürdüyü bir zamanda cinayətkar adamların, dəstələrin böyük vəzifə tutduğu, hakimiyyətə gəldikləri dövrdə Azərbaycan, Bakı üçün əziz olan bu sahə nəinki unuduldu, hətta bizim böyük əziyyətlərlə əkdiyimiz, becərdiyimiz, boya-başa gətirdiyimiz ağacları kəsməyə başladılar. Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsildiyini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm – kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir» [392, 1997, 11 may].

Ekoloji problemlərin həlli, ətraf mühitin qorunması işinin səmərəli təşkili və aparılması üçün vahid idarəetmə sisteminin olmasına ehtiyac vardı. 2001-ci il may ayının 23-də Prezident Heydər Əliyevin sərəncamı ilə müxtəlif sahələr üzrə fəaliyyət göstərən ayrı-ayrı dövlət qurumları birləşdirilərək, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldı. Nazirliyin qarşısında ölkədə ekoloji vəziyyətin sağlamlaşdırılması və təbii sərvətlərdən istifadənin tənzimlənməsi sahəsində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi kimi vəzifələr qoyuldu. Bu, ətraf mühit sahəsində də aparılan məqsədyönlü, uzaqgörən dövlət

siyasətinin nəticəsi idi, eyni zamanda bu sahəyə göstərilən xüsusi diqqət və qayğıdan irəli gəlirdi.

Ölkədə ətraf mühitlə bağlı qanunvericiliyin Avropa İttifaqı qanunvericiliyinə uyğunlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, ictimaiyyətin ekoloji biliklərinin və ətraf mühit haqqında məlumatlılığının artırılmasına, ovçuluğun və ovçuluq təsərrüfatlarının fəaliyyətinin müasir tələblərə uyğun təşkili və tənzimlənməsinə dair, habelə dövlət və özəl əmlak mənafelərinin qorunmasına təminat verən qanunlar qəbul edilmiş, 50-dən artıq digər normativ-hüquqi sənəd hazırlanmış və hökumət qərarları ilə təsdiq edilmişdir.

2003-cü ildə «Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair», «Meşələrin bərpa edilməsi və artırılmasına dair» milli proqramlar və «Abşeron yarımadasında təbii daş yataqlarının səmərəli istifadəsi və inkişafı» proqramı hazırlanaraq təsdiqlənmişdir. Proqramların icrası ilə əlaqədar konkret tədbirlər müəyyənləşdirilmiş və həyata keçirilmişdir. Ümumiyyətlə, 2001-ci ilin may ayından 2003-cü ilin iyul ayınadək Prezident Heydər Əliyev tərəfindən ekomühitin ən müxtəlif məsələləri ilə bağlı 27 fərman və sərəncam imzalanmışdı.

Ümummilli lider Heydər Əliyevin xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, o cümlədən ekologiya sahəsindəki mövcud problemlərin həllinə göstərdiyi xüsusi diqqət və qayğı ölkədə ətraf mühitin sağlamlaşdırılmasına, əhalinin rifah halının yaxşılaşdırılmasına, ekoturizmin inkişaf etdirilməsinə yönəlmiş irimiqyaslı tədbirlərin həyata keçirilməsini daha da sürətləndirmişdir. Bunun bariz nümunəsi kimi dövlət başçısının 2004-cü il 26 yanvar tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında hidrometeorologiyanın inkişaf proqramı»nın, 2004-cü il 22 may tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında yay-qış otlaqlarının, biçənəklərin səmərəli istifadə olunması və səhralaşmanın qarşısının alınmasına dair» və 2004-cü il 21 oktyabr tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə» dövlət proqramlarının təsdiq edilməsini, 2010-cu ilin Azərbaycanda Ekologiya ili elan olunmasını və bu sahələrdə konkret tədbirlərin həyata keçirilməsini göstərmək olar.

Respublikada ətraf mühitin mühafizəsi sahəsində idarəetmə sistemi təkmilləşdirilmiş, ekoloji təbliğat və monitorinq fəaliyyəti gücləndirilmiş, «çirkləndirən ödəyir» prinsipindən geniş istifadə edilməyə başlanmışdır. Ətraf mühitin mühafizəsi tədbirlərinə ictimaiyyətin cəlb olunması istiqamətində işlər görülür, ətraf mühitlə əlaqəli nəzarət şəbəkəsi yaradılmışdır.

Ulu öndərin tövsiyələrinə və Prezident İlham Əliyevin tapşırığına əsasən Abşeron yarımadasının antropogen təsir nəticəsində yararsız vəziyyətə düşmüş torpaq sahələrinin, o cümlədən Heydər Əliyev adına beynəlxalq hava limanının ətrafının, Bibiheybət ərazisinin, Abşeron göllərinin ekoloji vəziyyətinin bərpa edilməsi məqsədilə irimiqyaslı tədqiqat işləri aparılmış, layihə təklifləri hazırlanmışdır. Bu işlər böyük miqdarda maliyyə vəsaiti tələb etdiyindən onların mərhələlərlə görülməsi təklif olunmuşdur.

Respublikada ətraf mühitin keyfiyyət göstəricilərinə daimi nəzarətin həyata keçirilməsi məqsədilə ətraf mühit üzrə monitorinq sistemi təkmilləşdirilmiş, əvvəllər mövcud olmuş 8 analitik tədqiqat laboratoriyası müasir tələblərə cavab verən ən yeni cihaz və avadanlıqla təchiz edilmişdir. Əvvəllər laboratoriyalardakı cihazlarla havada, suda və torpaqda olan yalnız 30 üzvi çirkləndiricini təyin etmək mümkün idisə, ABŞ istehsalı olan və avtomatik sistemdə işləyən cihazların alınıb quraşdırılması 3 mindən artıq üzvi çirkləndiricini təyin etməyə imkan verir.

Ölkənin işğal olunmuş ərazilərindən keçən çaylarda suyun keyfiyyətinin daim nəzarətdə saxlanması məqsədilə Qazax və Beyləqan rayonlarında analitik tədqiqat laboratoriyaları yaradılmış, ən müasir cihazlarla təchiz olunmuşdur.

Ölkədə bioloji müxtəlifliyin qorunub saxlanması və daha da inkişaf etdirilməsi fəaliyyətin əsas istiqamətlərindən biridir. Bu məqsədlə yeni xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması, mövcud təbiət ərazilərinin genişləndirilməsi, onlarda mühafizə rejiminin gücləndirilməsi və müvafiq infrastrukturun yaradılması ilə bağlı tədbirlər həyata keçirilir. Respublikada 8 milli park, 4 dövlət təbiət qoruğu, 1 dövlət təbiət yasaqlığı yaradılmış, 5 dövlət təbiət qoruğunun ərazisi genişləndirilmişdir. Beləliklə də, xüsusi mühafizə olunan təbiət ərazilərinin ümumi sahəsi iki dəfədən çox artırılaraq ölkənin ümumi ərazisinin 4 faizindən 9 faizinə, yəni 748,4 min hektara çatdırılmışdır. Bu da respublikada azalmaq təhlükəsi qarşısında olan bioloji müxtəlif-

liyin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi üçün zəmin yaradır.

Hirkan dövlət təbiət qoruğunun YUNESKO-nun dünya mədəni və təbii irs fondu siyahısına daxil edilməsi üçün müvafiq sənədlər işlənib hazırlanmışdır.

Eyni zamanda Almaniya hökumətinin dəstəyi ilə «Qafqaz təşəbbüsü» proqramı çərçivəsində «Samur-Yalama» milli parkının layihəsi işlənilmişdir.

Respublika ərazisində təbiət abidələrinin, o cümlədən palçıq vulkanlarının pasportlaşdırılması, ovçuluq təsərrüfatlarının yenidən təşkili, ekoturizmin inkişafı istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir. «Təbiət abidələri» siyahısına 30 xüsusi əhəmiyyətli meşə əraziləri, yaşı 100 ildən artıq olan 2083 ağac, 73 geoloji və paleontoloji obyekt daxil edilmişdir.

Heydər Əliyevin gördüyü tədbirlər nəticəsində balıq ehtiyatlarının artırılması və mühafizəsində köklü dəyişikliklər baş vermiş, uzun illər ərzində yığılıb qalmış problemlər, əsasən, öz həllini tapmışdır. Belə ki, SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikasının ərazi sularında balıq ehtiyatlarının və onun yem bazasının öyrənilməsi Rusiya Federasiyası tərəfindən həyata keçirildiyi halda, 2001-ci ildən etibarən respublikamız bu işləri müstəqil görməyə başlamışdır. Son illər xarici ölkə nümayəndələrinin iştirakı ilə aparılmış elmi tədqiqatlar nəticəsində Azərbaycan Respublikasının ərazi sularında bioloji resursların göstəriciləri dəqiqləşdirilmiş və əvvəllər bu göstəricilərin süni surətdə kəskin aşağı salındığı aydınlaşdırılmışdır. Nəticədə Azərbaycan Respublikası üçün ayrılan nərə cinsli balıqların ov normasının artırılmasına nail olunmuşdur.

Balıq ehtiyatlarının çoxaldılması üçün 3 köhnə nərə balıqartırma zavodu əsaslı təmir edilərək istehsal gücü 1,5-1,7 dəfə artırılmış, regionda ən müasir, ildə 15 milyon balıq körpəsi yetişdirə bilən Xıllı nərə balıqartırma zavodu istifadəyə verilmişdir. Təkcə 2005-ci ildə balıqartırma müəssisələri tərəfindən 450,4 milyon ədəd vətəgə əhəmiyyətli, o cümlədən 16,9 milyon nərə cinsli balıq körpələri Xəzər dənizinə, Kür çayına və digər daxili su hövzələrinə buraxılmışdır.

Atmosfer havasının keyfiyyətinin yaxşılaşdırılmasında, su ehtiyatlarının tənzimlənməsində, torpaq eroziyasının və sellərin qarşısının

alınmasında xüsusi əhəmiyyəti olan meşələrimizin mühafizəsi, bərpası, yeni meşə sahələrinin salınması, şəhər və qəsəbələrin, magistral yolların kənarlarının yaşıllaşdırılması Heydər Əliyev siyasətinin prioritet sahələrindən biri olmuşdur. Vaxtilə onun imzaladığı, «Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram»a uyğun olaraq, 2005-ci ildə ölkə ərazisində 3810 hektar sahədə yeni meşə salınmış, 5910 hektarda təbii bərpaya kömək tədbirləri həyata keçirilmişdir. Əkin materialına olan tələbatın ödənilməsi məqsədilə 38 milyon ədəd ting yetişdirilmişdir.

Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının digər yaşayış məntəqələrinin əhalisinin təmiz içməli suya olan tələbatının yaxşılaşdırılması məqsədilə Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilişinə başlanmışdır. Respublikanın aran rayonlarında içməli suya tələbatın ödənilməsi üçün sutəmizləyici qurğular istifadəyə verilmişdir və bu iş davam etdirilir.

Təhlükəli tullantıların yerləşdirilməsi üçün Dünya Bankının ayırdığı kredit hesabına Bakının yaxınlığında regionda ən müasir poliqon tikilərək istifadəyə verilmiş və artıq 40 min kubmetr civə tərkibli zəhərli tullantının burada saxlanılması təmin edilmişdir.

Ölkədə, xüsusilə respublikanın iri şəhərlərində bərk məişət tullantılarının idarə olunması ilə bağlı ciddi problemlər vardır. Tullantıların standartlara uyğun olaraq çeşidlənməsi, daşınması, yerləşdirilməsi qaydalarına riayət olunmaması və utilizasiya edilməməsi ətraf mühiti çirkləndirməklə bərabər, əhalinin sağlamlığı üçün də təhlükə mənbəyinə çevrilmişdir. Həmin problemin həlli üçün, ilk növbədə, iri şəhərlərdə müasir tələblərə cavab verən bərk məişət tullantılarının kompleks emalı zavodlarının yaradılmasına böyük ehtiyac var və bu sahədə konkret tədbirlər görülür.

«Azərbaycan Respublikasında hidrometeorologiyanın inkişaf proqramı»nın icrası uğurla davam etdirilmiş, dövlət hidrometeoroloji müşahidə şəbəkəsinin modernləşdirilməsi, onun müasir cihaz və avadanlıqlarla təchiz edilməsi, informasiya mübadiləsi sisteminin təkmilləşdirilməsi, proqnoz və xəbərdarlıqların dəqiqliyinin artırılması ilə hidrometeoroloji xidmətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Əvvəllər hava proqnozlarının hazırlanmasında beynəlxalq şəbəkədən alınmış 2 sinoptik

xəritədən istifadə edilirdisə, indi 3 şəbəkədən (Avropa, Türkiyə və Rusiya) alınan 52 xəritə vasitəsilə verilən proqnozların dəqiqliyi xeyli artırılmışdır .

Dünyada enerji təhlükəsizliyi, ətraf mühitin çirklənməsi və s. problemlərin həlli yollarından biri hazırda ən aktual olan alternativ enerji mənbələrindən istifadədir. Prezidentin 2004-cü ildə imzaladığı «Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı» haqqında sərəncamının böyük əhəmiyyəti vardır. Ölkəmiz böyük neft və qaz ehtiyatları ilə yanaşı, alternativ enerji mənbələri ilə də zəngin olduğundan bu sahədə geniş imkanlara malikdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Sənaye və Energetika Nazirliyi ilə birgə BMT-nin İnkişaf Proqramı vasitəsilə Qlobal Ekologiya Fonduna «Respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə texniki-iqtisadi qiymətləndirmə» layihəsi təqdim olunmuş və razılıq alınaraq işə başlanılmışdır. Danimarkanın Ətraf Mühit Nazirliyi ilə birgə Gəncə və Sumqayıt şəhərlərində məişət tullantılarından bioqaz (metan) alınması layihələri hazırlanmışdır.

Ətraf mühitin idarə olunmasında beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi sahəsində beynəlxalq əməkdaşlıq uğurla davam etdirilmişdir. Azərbaycan Respublikası beynəlxalq ekoloji konvensiyalara qoşulmuş, bir çox beynəlxalq ekoloji təşkilata daxil olmuşdur. Eyni zamanda bir sıra region ölkələri və inkişaf etmiş dövlətlərlə ikitərəfli əməkdaşlıq sazişləri imzalanmışdır.

Mövcud ekoloji problemlərdən biri də torpaqların eroziyası və deqradasiyaya məruz qalmasıdır. Problemin əsas səbəbləri respublikanın təbii iqlim şəraiti, uzun müddət davam edən təsərrüfatsızlıq, regionlarda mal-qaranın sayının torpaqların ekoloji tutumundan artıq olması və sistemsiz otarılması, əkinçilik qaydalarına əməl edilməməsi, meşələrin qırılması, kollektor-drenaj sistemlərinin bərbad vəziyyətə düşməsi və digər antropogen amillərlə bağlı olmuşdur.

Problemin aradan qaldırılması məqsədilə regionlarda mal-qaranın sayının torpaqların tutumuna uyğun olaraq tənzimlənməsi istiqamətində tədbirlərin həyata keçirilməsi, bu məqsədlə kəndətrafı örüşlərin inventarlaşdırılması, daha məhsuldar cinslərdən istifadə etməklə davarın tədricən qara mal ilə əvəz edilməsini stimullaşdıran tədbirlərin görülməsi və mal-qaranın qapalı sistemə keçirilməsi təklif olunmuşdur.

Narahatlıq doğuran problemlərdən biri də ətraf mühitin çirkləndirilməsi və təbii sərvətlərdən istifadənin iqtisadi tənzimlənməsinin müasir tələblərə cavab verməməsidir. Belə ki, ətraf mühitə vurulmuş zərərə və təbii sərvətlərdən səmərəsiz istifadəyə görə tətbiq olunan ödəmə və iddia məbləğlərinin həddindən artıq aşağı olması təbiət istifadəçilərini ətraf mühitin mühafizəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsində maraqlı etmir. İqtisadi tənzimləmə mexanizminin təkmilləşdirilməsi, o cümlədən ödəmə və iddia məbləğlərinin artırılması ətraf mühitin sağlamlaşdırılması tədbirlərinin həyata keçirilməsinə kömək etmiş olardı.

Respublikanın siyasi rəhbərliyinin ekoloji problemlərin həll olunmasına xüsusi qayğısı, büdcə gəlirləri artdıqca, bu sahəyə daha çox maliyyə vəsaitinin ayrılması sadalanan problemlərin yaxın gələcəkdə öz həllini tapacağına zəmin yaradır.

Əsası Ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə olunması siyasətinin uğurla davam etdirilməsi respublikamızda ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji tarazlığın təmin edilməsinə nail olmağa imkan verəcəkdir.

3.5. Demoqrafik vəziyyət

Müasir dövrdə bəşəriyyəti narahat edən problemlər arasında demoqrafik problemlər əsas yerlərdən birini tutur. Yer kürəsində əhalinin sürətlə artması və demoqrafik proseslərdə baş verən dəyişikliklər ayrı-ayrı dövlətlərin daxili və xarici siyasətinə daha çox təsir edir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, hər bir konkret tarixi inkişaf mərhələsində ölkədə baş verən demoqrafik proseslər onun sosial-iqtisadi vəziyyətini müəyyən edən başlıca amillərdəndir. Bir çox sosial-iqtisadi və demoqrafik proseslərin qarşılıqlı əlaqələrini özündə əks etdirən demoqrafik inkişaf çoxtərəfli xarakter daşıyır. Lakin iqtisadi həyatın elə bir sahəsi yoxdur ki, orada demoqrafik proseslərin dəyişməsi nəzərə alınmasın. Digər tərəfdən, əhalinin tərkibi, məskunlaşma

vəziyyəti, təhsil səviyyəsi və s. müəyyən sosial-iqtisadi problemlər yaradır və onların həllini tələb edir. Ona görə də mövcud demoqrafik vəziyyətin, onun regional xüsusiyyətlərinin və sosial-iqtisadi proseslərlə qarşılıqlı əlaqəsinin öyrənilməsinin, habelə gələcək vəziyyətin proqnozlandırılmasının səmərəli demoqrafik siyasətin həyata keçirilməsində böyük əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının gələcək iqtisadi və sosial inkişaf strategiyasının müəyyənləşdirilməsi, birinci növbədə, əhalinin və onun müxtəlif sosial-demoqrafik qruplarının gözlənilən dəyişikliklərə nə dərəcədə hazır olub-olmaması imkanlarının ölçülüb-biçilməsinə əsaslanmalı, bu zaman onların malik olduğu dəyərlər, mənafe və istəkləri nəzərə alınmalı, mövcud insan potensialının kəmiyyət və keyfiyyəti obyektiv qiymətləndirilməlidir [360, 7]. Hazırda insan potensialı cəmiyyətin başlıca milli sərvəti və iqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab edilir. Azərbaycanda iqtisadi artıma məqsəd kimi deyil, insanların həyat səviyyəsinin yüksəldilməsi, insan potensialının müntəzəm inkişafı üçün zəruri olan vəsait kimi baxılır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra ölkədə baş vermiş siyasi, sosial-iqtisadi dəyişikliklər demoqrafik vəziyyətə də öz təsirini göstərmiş, lakin bu təsir lazımi səviyyədə öyrənilməmiş və demoqrafik proseslərin inkişafı proqnozlaşdırılmamışdır. Ailə-nikah, doğum, ölüm, təbii artım, əhalinin sağlamlığının qorunması, məşğulluq və həyat səviyyəsinin yaxşılaşdırılması, ömrün uzadılması, miqrasiya və sair prosesləri özündə birləşdirən demoqrafiya siyasətində başlıca məqsəd demoqrafik hadisələrə təsir göstərən ən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan, əhalinin normal təkrar istehsalı prosesini təmin edən şəraitin yaradılmasına nail olmaqdır [397, 736].

Azərbaycan Respublikasının bazar iqtisadiyyatına keçməsi, habelə Ermənistanın hərbi təcavüzü nəticəsində demoqrafik proseslərdə baş verən mənfi hallar daha kəskin xarakter almışdı və getdikcə güclənməkdə idi. Eyni zamanda ölkədə demoqrafiya sahəsində həyata keçirilən ayrı-ayrı tədbirlər sistem halında olmadığından lazımi səmərə vermirdi. Reallıq isə demoqrafiya siyasətinin və əhali məskunluğu sisteminin ölkənin sosial-iqtisadi inkişafının məqsəd və vəzifələrinə uyğun olaraq ciddi şəkildə yenidən qurulmasını tələb edirdi.

Heydər Əliyev Azərbaycan Respublikasında ikinci dəfə siyasi hakimiyyətə gəldikdən sonra insan amilinin dövlət siyasətinin başlıca istiqamətlərindən biri olduğunu vurğulayaraq, ölkədə demoqrafik proseslərin lazımi məcrada inkişaf etməsinə böyük diqqət yetirirdi. Ümummilli lider hələ 1993-cü il oktyabrın 1-də respublikada yaşayan milli azlıqların və etnik qrupların nümayəndələri ilə görüşərkən demişdiki, Azərbaycanın ən başlıca sərvətlərindən biri, bəlkə də, ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar [392, 1993, 7 oktyabr].

Azərbaycan Respublikasında əhalinin sayı 1897–1997-ci illəri əhatə edən 100 il ərzində dünya əhalisinə nisbətən daha sürətlə – 4,3 dəfə artaraq, 1807 min nəfərdən 7847,5 min nəfərə çatmışdı. Bu dövrdə Azərbaycan Respublikası dörd dəfə kəskin demoqrafik çətinliklə üzləşmişdir:

– 1913–1920-ci illərdə baş verən hadisələr – Birinci Dünya müharibəsi, ermənilər tərəfindən azərbaycanlıların soyqırımı və s. nəticəsində Azərbaycan Respublikası əhalisinin sayı 387,0 min nəfər (16,6%) azalaraq, 2339,0 min nəfərdən 1952,0 min nəfərə düşmüşdür;

– 1941–1945-ci illərdə əhalinin sayı 568,4 min nəfər (17,4 faiz) azalaraq, 1940-cı ilin əvvəlindəki 3274,3 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüş və yalnız 10 il sonra, yəni 1955-ci ildə müharibədən əvvəlki səviyyəyə çatmışdır;

– 1948–1953-cü illərdə Ermənistan ərazisindən 150 mindən çox azərbaycanlı öz əzəli torpaqlarından deportasiya olunmuşdur;

– Ermənistanın hərbi təcavüzü nəticəsində 250 min nəfərdən artıq soydaşımız Ermənistan SSR-dən qovulmuş və beləliklə, iki əsr ərzində 1,5 milyondan çox azərbaycanlı öz tarixi torpaqlarından deportasiya edilmişdir [397, m. 736].

Azərbaycan Respublikası əhalisinin ən sürətli artımı 1960-cı illərin əvvəllərinə təsadüf edir. 1960-cı ildə SSRİ-də əhalinin doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17,8 nəfər idisə, Azərbaycan Respublikasında bu göstəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər olmuşdur. 1959–1989-cu illərdə SSRİ-də əhalinin orta illik artımı 1,24 faiz, Azərbaycan Respublikasında isə 3 faiz və ya 2,4 dəfə yüksək idi.

Lakin 1965-ci ildən başlayaraq respublikada doğum və təbii artım tədricən aşağı düşmüş, 1999-cu ildə doğum səviyyəsi 17,4 nəfər, təbii artım səviyyəsi isə 11,2 nəfər təşkil etmişdir.

1999-cu ildə müstəqil Azərbaycan Respublikasında əhalinin ilk milli siyahıyaalınması keçirildi. Siyahıyaalmanın nəticələrinə görə, müstəqillik dövründə (1991–1998-ci illərdə) ölkə əhalisinin sayı 10,7 faiz artaraq, 7186,6 min nəfərdən 7952,5 min nəfərə, o cümlədən şəhər əhalisi 3864,9 min nəfərdən 4112,3 min nəfərə, kənd əhalisi isə 3321,7 min nəfərə çatmışdır. Respublika əhalisinin 51,7 faizi şəhərlərdə, 48,3 faizi kənd yerlərində yaşayırdı. Ölkə əhalisinin 50,9 faizi qadınlar, 49,1 faizi kişilər idi [397, m. 736].

Hazırda Azərbaycan Respublikasında 100-dən çox milləti, xalqı və etnosu təmsil edən insanlar yaşayır. Bu insan qruplarının isə hər birinin özünəməxsus milli xüsusiyyətləri və adət-ənənələri olduğu kimi, həm də fərqli demoqrafik inkişaf və məşğuliyyət xüsusiyyətləri və bunlardan irəli gələn müəyyən demoqrafik problemləri vardır.

1999-cu il siyahıyaalmasının məlumatlarına görə, respublikamızda qeydə alınmış 7953,4 min nəfər əhalinin 7205,5 mini (90,6 faiz) azərbaycanlılar, 141,7 mini (1,8 faiz) ruslar, 178 mini (2,2 faiz) ləzgilər, 120,7 mini (1,5 faiz) ermənilər, 76,8 mini (1 faiz) talışlar, 50,9 mini (0,6 faiz) avarlar, 43,4 mini (0,5 faiz) türklər, 30,3 mini (0,4 faiz) tatarlar, 14,9 mini (0,2 faiz) gürcülər, 13,1 mini (0,2 faiz) kürdlər, 8,9 mini (0,4 faiz) yəhudilər, 10,9 mini (0,13 faiz) tatlar, 15,9 mini (0,2 faiz) saxurlar, 4,1 mini (0,05 faiz) udinlər, 29 mini (0,4 faiz) ukraynalılar və 9,6 mini (0,12 faiz) digər xalqlar idi [111, 151-152]. Son siyahıyaalmaya görə, hər min qadına doğulan uşaqların orta sayı türklər (2835), kürdlər (2603), ləzgilər (2565), talışlar (2555), avarlar (2603) və azərbaycanlılar (2237) arasında nisbətən yüksək olmuşdur.

Fertil yaşında (18–44) qadınların tərkibində doğan qadınların xüsusi çəkisinə görə ukraynalılar (69,1 faiz), türklər (69,2 faiz) və ləzgilər (67,6 faiz), hər min nəfər qadına doğulan uşaqların orta sayına görə isə türklər (2251 uşaq), ləzgilər (1833) və azərbaycanlılar (1698) yüksək göstərişlərə malikdirlər. Respublika üzrə bu göstərici 1692 və ya 64,2 faiz təşkil edir. Ən yüksək nikah və ən aşağı boşanma səviyyəsi türklər, azərbaycanlılar, talışlar və avarlar arasında müşahidə olunur.

Demoqrafik hadisələr hər şeydən əvvəl əhalinin kəmiyyət göstəricisinə və sosial strukturuna təsir göstərir. Əhalinin yaş-cins strukturu üç əsas prosesin təsiri altında formalaşır; doğum, ölüm və qocalma. Əhalinin sayının və yaş strukturunun dəyişilməsi ümumi əmək yükünün yenidən bölüşdürülməsinə və yaş-cins qrupları üzrə məşğulluq səviyyəsinin dəyişilməsinə səbəb olur. Belə ki, əhalinin ümumi sayında cavanların və ortayaşlıların xüsusi çəkisinin azalması nəticəsində ən böyük əmək yükü yuxarı yaşlı əhali qrupunun üzərinə düşür. Demoqrafik proseslər arasında mühüm problemlərdən biri də əhalinin qocalmasıdır. «Qocalma» prosesi dedikdə, əhalinin yaş tərkibində yaşlı adamların xüsusi çəkisinin sürətli və dinamik artımı başa düşülür. BMT ekspertlərinin təsnifatına görə, ölkə əhalisinin tərkibində 65 və yuxarı yaşlı adamların xüsusi çəkisi 4 faizdən aşağı olduqda, bu, gənc, 4-7 faiz təşkil etdikdə, qocalma ərəfəsində olan, 7 və yuxarı faiz təşkil etdikdə isə qocalmış əhali hesab edilir [360, 122-123]. Azərbaycan demoqrafik cəhətdən qocalma ərəfəsində olan ölkələr sırasına daxildir. Hazırda bütün dünyada olduğu kimi, Azərbaycanda da qadınların orta ömür müddəti kişilərdən yüksəkdir və bu fərq 7 yaş təşkil edir.

Azərbaycan Respublikası əhalisinin yaş tərkibində baş verən ən mühüm dəyişikliklərdən biri 29 yaşınadək olanların xüsusi çəkisinin tədricən azalmağa doğru meyil etməsidir. 1979-cu ildə əhalinin ümumi tərkibində onların xüsusi çəkisi 65,8 faiz, 1989-cu ildə 62,6 faiz, 1999-cu ildə 57,4 faiz, 2002-ci ildə 55,3 faiz təşkil etmişdir. Əhalinin ümumi sayında əmək qabiliyyətli yaşından kiçik olanların da (0–15 yaş) xüsusi çəkisi azalaraq, 2002-ci ildə 28,7 faizə düşmüşdür.

Azərbaycan əhalisinin demoqrafik quruluşunda baş verən digər mühüm amil əhalinin cins quruluşundakı dəyişikliklərlə əlaqədardır. İkinci Dünya müharibəsinədək olan dövrdə ölkəmizdə kişilərin sayı qadınların sayını üstələdiyi halda, sonrakı illərdə əksinə olmuş və bu proses indi də davam etməkdədir. Əgər 1938-ci ildə hər 1000 min kişiyə 951,3 qadın düşürdüsə, 1998-ci ildə bu göstərici 1028,4, 1999-cu ildə 1048, 2003-cü ildə isə 1038,9 nəfər təşkil etmişdir [407, 21].

Qadınlar və kişilər arasında say nisbətinin pozulması nikahların səviyyəsinə, bu isə, öz növbəsində, həm əhalinin ümumi sayına, həm də əmək ehtiyatlarının artımına öz mənfi təsirini göstərir. 1992-ci ildən etibarən nikahların sayı azalmağa başlayaraq, 1999-cu ildə ən aşağı

səviyyəyə enmiş və 2000-ci ildən sonra isə artım müşahidə olunmuşdur [477, 88-89]. Ümumi nikah əmsalının dinamikası da sübut edir ki, son illərdə qeydə alınmış nikahların sayının azalmasının intensivliyi xeyli aşağı düşmüşdür. 1990-cı ildə Azərbaycanda 73119, 1993-cü ildə 60028, 1995-ci ildə 43130, 1998-ci ildə 40851, 2000-ci ildə 39611, 2003-cü ildə 56091 nikah bağlanmışdır [404]. Boşanmaların sayının ümumi meylində azalma müşahidə olunmuşdur: 1990-cı ildə 14040, 1993-cü ildə 6564, 1995-ci ildə 5669, 2000-ci ildə 5478, 2003-cü ildə 6671. Tədqiqatlar göstərir ki, şəhər yerlərində boşanmaların intensivliyi bir qədər azalsa da, kənd yerləri ilə müqayisədə üstün olmuşdur. 1990-cı ildə şəhər yerlərində əhalinin hər 1000 nəfərinə boşanmaların sayı 3,5, kənd yerində 0,2 təşkil edirdi. Kənd yerlərində boşanma əmsalının artması, əsasən, evli cavan kişilərin respublikadan kənara miqrasiya etməsi ilə əlaqədardır. Belə ki, uzun müddət ailədən kənarda yaşamaq bir sıra hallarda kişilərin yeni ailə qurmasına və əvvəlki nikahların pozulmasına gətirib çıxarır.

Nikahların təhlili zamanı cinslər üzrə orta nikah yaşı böyük əhəmiyyət daşıyır. Ölkəmizdə kişi və qadınların orta nikah yaşı sabit olaraq qalır: kişilərdə bu göstərici 1990-cı ildə 27,4, qadınlarda 24,3, 1995-ci ildə müvafiq olaraq 27,5 və 23, 2000-ci ildə 28,4 və 23,6, 2003-cü ildə 28,6 və 23,7 yaş təşkil etmişdir [407, 28]. Birinci dəfə nikaha daxil olan kişilərin orta yaşı artmışdır: 1990-cı ildə bu göstərici 25,7 yaş, 1995-ci ildə 26,5, 2000-ci ildə 27,3, 2003-cü ildə 27,6 yaş təşkil etmişdir. Bu göstərici üzrə qadınlarda da yaş artımı müşahidə olunmuşdur: 1992-ci ildə 22,7 yaşdan 1995-ci ildə 22,9, 2000-ci ildə 23,1, 2002-ci ildə 23,4 yaşa çatmışdır [407, 28]. Birinci dəfə nikaha daxil olanların orta yaşının artmasının əsas səbəblərindən biri cavanların təhsilini davam etdirməsi olmuşdur.

1999-cu il siyahıyaalmasının məlumatlarına görə, respublikada yaşayan 30–44 yaşlı 918,1 min kişinin 7,6 faizi, 25–29 yaşlı 297,4 min oğlanın 43 faizi, 20–24 yaşlı 313,1 min nəfər oğlanın 83,2 faizi, 20–25 yaşlı 334,9 min qızın 51 faizi, 25–29 yaşlı 331,7 min qızın 23,9 faizi nikaha daxil olmamışdı [111, 101-102; 360, 576-577]. 25–29 yaşlı gənclər arasında subayların sayına görə Azərbaycan Respublikası MDB ölkələri arasında ilk yerlərdən birini tuturdu [397].

1999-cu il siyahıyaalmasının məlumatları göstərir ki, ölkə üzrə bütün ailələrin 41,7 faizini 2–4 nəfərdən ibarət, 50,6 faizini isə 5 və daha

çox nəfərdən ibarət ailələr təşkil etmişdir. Demoqrafların hesablamalarına görə, əhalinin normal təkrar istehsalı üçün ailələrin 65 faizi 2–3 uşaqlı, 10–15 faizi 4-5 uşaqlı olmalıdır. Azərbaycan Respublikasında bu göstəricilər müvafiq olaraq 60,7 və 14,4 faiz idi [477, 174].

Azərbaycan xalqının mənəviyyatına xas olmayan bir hal nikahdankənar doğulan uşaqların sayının xeyli artmasıdır. 1990-cı ildə onların sayı 2,6 faiz idisə, 1995-ci ildə 5,8, 2000-ci ildə 5,4 faiz olmuşdur.

1990-cı illərdən başlayaraq dünyanın bir sıra ölkələrinin demoqrafik inkişaf göstəricilərində təzahür edən bəzi mənfi dəyişikliklər Azərbaycan Respublikasında da meydana çıxmağa başlamış və indi də davam etməkdədir. Belə ki, doğum səviyyəsi aşağı düşmüş, uşaq ölümü artmış, əhalinin orta illik artım göstəricisi azalmış, şəhərlərə axın güclənmiş, nikahların sayı azalmışdır. 1990–2002-ci illər ərzində ölkə əhalisinin hər 1000 nəfərə düşən doğum səviyyəsi 46,7 faiz azalaraq, 23,5 nəfərdən 12,2 nəfərə, kənd yerlərində isə 49 faiz azalaraq, 30,2 nəfərdən 15,4 nəfərə düşmüşdür.

Bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsinin yüksək olması xeyli narahatlıq doğururdu. 1997-ci ildə hər 1000 nəfər doğulan uşaqdan bir yaşadək ölənlərin sayı 19,6 nəfər təşkil etmişdir. 2002-ci ilin məlumatına görə, hər 1000 nəfərə düşən doğum səviyyəsi 13,3 nəfər, bir yaşınadək uşaqların ölüm səviyyəsi isə 12,8 nəfər olmuşdur. Sonuncu göstərici ölkənin bir çox kənd rayonlarında xeyli yüksək idi.

Azərbaycan Respublikasında həyata keçirilən uğurlu sosial, iqtisadi, demoqrafik siyasət nəticəsində 1990-cı illə müqayisədə bir yaşa qədər uşaq ölümü əmsalı xeyli azalmış, 2001-ci ildə 1,8 dəfə azalaraq 12,5 nəfərə düşmüşdür.

1990-cı ilədək Azərbaycan Respublikası əhalinin təbii artım əmsalı yüksək olan ölkələr sırasına daxil idisə, 1991-ci ildən bu əmsal tədricən azalmağa başlamış və nəticədə ölkəmiz həmin göstəricinin nisbətən aşağı olduğu regionlar sırasına düşmüşdür. Əhalinin hər 1000 nəfərinə düşən təbii artım göstəricisi 2,5 dəfə azalaraq, 1991-ci ildəki 20,3 nəfərdən 2002-ci ildə 8 nəfərə enmişdir.

Azərbaycan Respublikasında demoqrafik inkişaf sahəsində baş verən mühüm hadisələrdən biri də 3 və daha çox uşaqlı ailələrin sayının azalmasıdır. 1991-ci ildə ölkədə doğulan uşaqların 46,6 faizini birinci, 31 faizini ikinci, 17,1 faizini üçüncü, 17,3 faizini dördüncü və

sonrakı uşaqlar təşkil edirdisə, bu göstərici 2001-ci ildə müvafiq olaraq 45; 32,4, 15,8 və 6,8 faiz olmuşdur [409, 191].

Əhalinin təhsil səviyyəsinin yüksəlməsi doğumun aşağı düşməsinə sosial amil kimi təsir edir. Belə ki, təhsil səviyyəsinin yüksəlməsi nəticəsində insanların mənəvi tələbatı artır. Buna görə də qadınların çoxu özlərinin analıq funksiyalarının yerinə yetirilməsini az uşaqla məhdudlaşdırır. İqtisadçıların hesablamalarına görə, ölkəmizdə qadınların ümumi say tərkibində doğumun 49,6 faizdən çoxu orta təhsillilərin, 7,5 faizi isə ali və natamam ali təhsili olanların payına düşür [360, 586-587].

1999-cu il siyahıyaalmasının məlumatlarına görə, ölkəmizdə yaşı 70-dən yuxarı olan 236,2 min nəfərin 150,4 mini qadın, 85,8 mini kişi, 100 yaşdan yuxarı olan 1664 nəfərin isə 1441-i qadın və 223 nəfəri kişi idi [111, 37, 35]. 2000-ci ildə yüksək insan inkişafı olan ölkələrdə doğulanların gözlənilən ömür müddəti indeksi orta hesabla 77 yaş, o cümlədən qadınlarda 80,3, kişilərdə 73,8 yaş təşkil edirdisə, Azərbaycan Respublikasında bu göstərici müvafiq surətdə 70,1, 74,3 və 65,8 yaş olmuşdur. Bu baxımdan, Azərbaycan Respublikası orta dünya göstəricisini (müvafiq olaraq 66,9, 69,1, 64) və Şərqi Avropa və MDB ölkələrini (müvafiq olaraq 68,9, 73,8, 64,1) üstələyirdi [119, 17].

Əhalinin miqrasiyası sosial-iqtisadi inkişafın mühüm amillərindən biridir. Müstəqilliyin ilk dövrlərində miqrasiya proseslərinin tənzimlənməməsi, keçid dövründə yaranmış çətinliklər, MDB ölkələri ilə sərhədlərin şəffaf olması və s. nəticəsində respublikada əhali miqrasiyasının saldosu mənfi olaraq, 1990–1997-ci illərdə 84,9 min və 28 min nəfər arasında tərəddüd etmişdir. Əsasən, reproduktiv yaşda olan kişilərin miqrasiyası nəticəsində ölkə əhalisinin yaş-cins strukturu pozulmuşdu. Əgər 1990-cı illərin əvvəllərində respublikanın ağır sosial-iqtisadi-siyasi vəziyyəti, Qarabağ müharibəsinin davam etməsi şəraitində miqrasiya prosesləri ölkə vətəndaşlarının xarici ölkələrə axını ilə şərtlənirdisə, sonrakı illərdə Heydər Əliyevin həyata keçirdiyi uğurlu islahatların nəticəsi kimi xarici miqrasiya kəskin surətdə azalmışdır. Belə ki, 1990-cı ildə ölkədən 137,9 min, 1993-cü ildə 285 min, 1995-ci ildə 16 min, 2000-ci ildə 9947 nəfər getmiş, həmin illərdə Azərbaycana müvafiq surətdə 84,3 min, 15,2 min, 62,2 min, 4351 adam qayıtmışdı.

Əhali miqrasiyasının başlıca səbəbləri insanların özləri üçün daha yaxşı yaşayış yeri, təhsil almaq, daimi və ya müvəqqəti yaşayış yeri tapmaq və sair səbəblərlə bağlıdır. Xarici ölkələrə miqrasiya edən əhalinin 17,7 faizi əmək-qabiliyyətli yaş qrupuna aid idi. Miqrantların 70,7 faizini gənc, xüsusən də reproduktiv yaşda (20–30) olan kişilər təşkil edirdi.

Azərbaycan Respublikası keçmiş SSRİ məkanında qaçqın problemi ilə üzləşmiş ilk ölkədir. Qaçqınların ilk axını 1987-ci ildə başlayaraq Ermənistandan olmuşdur. Bundan əlavə, əvvəllər Gürcüstandan Orta Asiyaya deportasiya edilmiş məhsəti türkləri 1989-cu ildə Özbəkistanda baş vermiş milli münaqişə nəticəsində Azərbaycana pənah gətirmişdilər. Onların sayı 51649 nəfər idi.

Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan tərəfindən işğalı nəticəsində həmin bölgələrin əhalisi öz yerlərindən didərgin düşərək, respublikanın müxtəlif rayonlarında yaşamağa məcbur olmuşdur.

Ölkəmizdə müstəqil dövlətin miqrasiya siyasətinin əsasları, strateji hədəfləri və istiqamətləri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmişdir. Məhz onun siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq düşünülmüş, ölkənin milli maraqlarına uyğun miqrasiya siyasəti həyata keçirilməyə başlandı. Ulu öndərin rəhbərliyi altında hazırlanmış və qəbul edilmiş Konstitusiyada miqrasiya siyasətinin strateji əsasları, insanların bu sahədə hüquq və azadlıqları öz əksini tapmışdır. Konstitusiyanın 28 maddəsində Azərbaycan Respublikası ərazisində olan hər kəsin sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək və ölkə ərazisini tərk etmək hüququ təsbit olunmuşdur.

Eyni zamanda miqrasiya proseslərinin tənzimlənməsinə dair bir sıra normativ-hüquqi aktlar, o cümlədən «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında», «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında», «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında», «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında», «İmmiqrasiya haqqında», «Əmək miqrasiyası haqqında» və sair qanunlar qəbul edilmişdir.

Heydər Əliyev tərəfindən 1999-cu il dekabrın 9-da təsdiq edilmiş «Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası»nda miqrasiya proseslərinin tənzimlənməsi ayrıca istiqamət kimi nəzərdə tutulmuşdur.

2000-ci ilin dekabrında Azərbaycan Respublikası tənzimlənməyən miqrasiya ilə mübarizə üzrə MDB ölkələri arasında əməkdaşlıq sazişinə qoşulmuşdur. 2001-ci ildə ölkəmizin Beynəlxalq Miqrasiya Təşkilatına üzv qəbul olunması bu sahədə beynəlxalq əməkdaşlığın genişlənməsinə, miqrasiya problemlərinin beynəlxalq səviyyədə həllinə geniş imkanlar açmışdır.

Beləliklə, müstəqilliyin ilk illərində Azərbaycan Respublikasında demoqrafik inkişafın ümumi vəziyyəti sağlamlığın pisləşməsi, doğum səviyyəsinin aşağı düşməsi, əhalinin (əsasən, əməkqabiliyyətli yaşda) ölüm səviyyəsinin yüksək olaraq qalması, gözlənilən ömür müddətinin (əsasən, kişilərdə) aşağı olması, ana və uşaq ölümünün yüksəkliyi və əhalinin artım sürətinin azalması və s. problemlərlə səciyyələnirdi. Bu vəziyyətin kəskinləşməsinə təsir edən mühüm amillər aşağıdakılardan ibarət idi: bazar münasibətlərinə keçid və ölkədə yaranmış sosial-iqtisadi böhranla əlaqədar əhalinin əksər sosial-demoqrafik qruplarından və təbəqələrindən olan hissəsinin yaşayış səviyyəsinin pisləşməsi, onların arasında kəskin fərqlərin olması, sosial infrastruktur sahələrinin son dərəcə zəif inkişafı və əhalinin əksər hissəsinin onların xidmətindən lazımi səviyyədə istifadə etmək imkanının olmaması; Ermənistanın hərbi təcavüzü nəticəsində əhalinin ölüm səviyyəsinin artması, respublika ərazisinin 20 faizinin işğalı, 1 milyon nəfərədək qaçqın və məcburi köçkünün olması, işğal edilmiş ərazilərdə 300 mindən çox iş yerinin itirilməsi, ölkə əhalisi arasında xəstəliklərin artması; əhali tərəfindən istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin zəif olması; ekoloji tarazlığın pozulmasının sürətlənməsi və ona nəzarətin zəifliyi; sağlam yaşayış tərzinin ləng formalaşması və onun təbliğinin aşağı səviyyədə olması; ölkədə miqrasiya proseslərinin tənzimlənməməsi; demoqrafik inkişaf sahəsində dövlət siyasətinin olmaması.

Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyasında göstərildiyi kimi, bu amillərin nəzərə alınmaması ölkədə demoqrafik vəziyyəti daha da kəskinləşdirməklə yanaşı, iqtisadi və sosial-demoqrafik vəziyyətin də nəzərəçarpacaq dərəcədə dəyişməsinə, dövlət tərəfindən sosial sığortanın və pensiya təminatının maliyyələşdirilməsinin gərginləşməsinə səbəb olur, əmək potensialının kəmiyyət-keyfiyyət tərkibinin dəyişməsinə, gənclərin sayının

azalmasına və nəticə etibarilə ölkənin milli təhlükəsizliyinə mənfi təsir göstərirdi. Bunu nəzərə alaraq, konsepsiyada demoqrafiya sahəsində dövlət siyasətinin aşağıdakı milli prioritetləri müəyyənləşdirilmişdi: əhalinin, xüsusilə ana və uşaqların və əməkqabiliyyətli yaşda olanların ölüm səviyyəsinin ardıcıl surətdə azaldılması yolu ilə cinslər və yaşlar üzrə ömür müddətinin uzadılması; aztəminatlı uşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi köçkünlərə ünvanlı sosial yardımın göstərilməsi, əhalinin bütün sosial-demoqrafik qrupları və təbəqələri üçün sağlam həyat tərzinin təmin edilməsi; ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi; əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması (qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, suyun, havanın çirklənməsinin qarşısının alınması, ətraf mühitin sağlamlaşdırılması, yoluxucu xəstəliklərin qarşısının alınması və tədricən ləğv edilməsi və s.); əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsində ailənin planlaşdırılması xidmətinin inkişafı, bu barədə əhalinin məlumatlandırılmasının təmin edilməsi; tam məhsuldar və dəyərli həyat tərzinin təmin edilməsi məqsədilə təhsil və məşğulluq sisteminin inkişaf etdirilməsi; aztəminatlı əhaliyə, o cümlədən çoxuşaqlı ailələrə, qaçqın və məcburi köçkünlərə və s. pulsuz səhiyyə xidməti; əhalinin demoqrafiya sahəsində biliklərinin yüksəldilməsi, təhsil müəssisələrində demoqrafiyanın tədris olunması və demoqrafiya sahəsində elmi tədqiqat işlərinin yeniləşdirilməsi; miqrasiya proseslərinin tənzimlənməsi.

Demoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi mexanizminin əsas tərkib hissələrini demoqrafik proseslərin monitorinqi və kompleks qiymətləndirilməsi, müxtəlif sosial-iqtisadi inkişaf proqramları hazırlanarkən demoqrafiya siyasətinin prioritet istiqamətlərinin nəzərə alınması, demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dövlət proqramının hazırlanması təşkil edir.

Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini sürətləndirmək məqsədilə Prezident Heydər Əliyev 2003-cü il iyunun 23-də «Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı hazırlanması üzrə Dövlət Komissiyasının tərkibi barədə» sərəncam imzalamış, komissiya müvafiq proqramı hazırlayaraq təqdim etmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 noyabr 2004-cü il tarixli sərəncamı ilə «Demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı» təsdiq olunmuşdur.

Bu proqramda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi ölkəmizdə əhalinin normal təkrar istehsalının təmin edilməsinə imkan yaradacaq və onun dinamik inkişafına kömək göstərəcəkdir. Proqramın həyata keçirilməsi Azərbaycanda insan potensialının qorunub saxlanması, inkişaf etdirilməsi və ondan ölkəmizin tərəqqisi, xalqımızın rifahının daha da yaxşılaşdırılması naminə səmərəli istifadə olunmasına inam yaradır.

IV FƏSİL

HEYDƏR ƏLİYEV və AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏT STRATEGİYASI

4.1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri

XX yüzilin sonunda dünyada baş verən qlobal proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, «soyuq müharibə»nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni nizamının formalaşmasına gətirib çıxardı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnirdisə, digər tərəfdən, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və maraqların kəsişdiyi məntəqələrə çevrilən bir sıra məhəlli mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdu.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 1980-ci illərin sonu – 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər ölkədə milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət xəttinin formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmən tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-yə üzv qəbul edildi.

Azərbaycan Respublikası dövlətinin xarici siyasət fəaliyyətinin Dağlıq Qarabağ bölgəsində erməni separatizmi və Ermənistanın hərbi

təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayiət olunması onun diplomatiyası qarşısında çox mühüm vəzifələr qoyurdu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi və iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl və fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan maraqları ilə uzlaşdırmaq, Azərbaycan Respublikasının müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər göstərilməli və gərgin iş görülməli idi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçilik maraqlarının qorunmasında ölkənin zəngin iqtisadi potensialı və əlverişli geosiyasi mövqeyi böyük əhəmiyyət kəsb edirdi. Bu amillər Azərbaycan Respublikasının milli dövlətçilik maraqlarına cavab verən səmərəli və məqsədyönlü xarici siyasət xəttinin həyata keçirilməsi üçün əlverişli ilkin zəmin yaradırdı. Lakin mövcud potensialı və əlverişli zəmini reallaşdırmaq, onlardan maksimum bəhrələnmək beynəlxalq aləmdə cərəyan edən proseslərin ciddi araşdırılmasını, Azərbaycan Respublikasının milli maraqlarına uyğun düşünülmüş, hərtərəfli əsaslandırılmış və bütün incəlikləri nəzərə alan tədbirlərin görülməsini tələb edirdi.

Ümumiyyətlə, müstəqil Azərbaycan Respublikasının xarici siyasət tarixinə qısa nəzər salsaq, görərik ki, 1991-ci il və 1992-ci ilin birinci yarısında dövlətin xarici siyasətinin əsasını Rusiya Federasiyası – Azərbaycan Respublikasının əlaqələri və bütövlükdə Rusiyaya meyillilik strategiyası təşkil edirdi.

Əslində, xalqın təzyiqi və ictimai-siyasi proseslərin təsiri ilə 1991-ci il avqustun 30-da qəbul edilmiş «Müstəqillik haqqında Bəyannamə» və 1991-ci il 18 oktyabr tarixli «Müstəqillik haqqında Konstitusiya Aktı» da SSRİ-nin tam dağılmasını təsdiqləyən 1991-ci il 8 dekabr tarixli Belovejsk sazişinə qədər hüquqi sənəd qüvvəsi almadı. Onların hüquqi sənəd qüvvəsi almasını təmin edəcək «Müstəqillik haqqında» referendum yalnız 1991-ci il dekabrın 29-da keçirildi və SSRİ-nin saxlanması haqqında 1991-ci il mart referendumunun nəticələri qüv-

vədən salındı [288, 244]. Bütün bunlar göstərir ki, Azərbaycan hökuməti o dövrdə nəinki müstəqil siyasət yeritmirdi, əksinə, respublikanın o vaxtkı müstəqillik imkanlarına hər vasitə ilə mane olmağa çalışırdı.

Azərbaycan Respublikasının siyasi hakimiyyətində dəyişiklik baş verdikdən sonra, yəni 1992-ci ilin mart ayından 1993-cü ilin iyun ayına qədər olan müddətdə yeni iqtidar da xarici siyasət sahəsində dövlətin qarşısında duran strateji məqsədlərə nail olmaq baxımından əvvəlki dövrdən uzağa gedə bilmədi. Əgər birinci mərhələdə məqsəd və məramı bilinməyən xarici siyasət birbaşa Moskvadan diktə olunurdusa və hər şey Rusiya Federasiyasına, onun rəhbərlərinin mövqeyinə bağlı idisə, ikinci mərhələdə bunun əksinə, lakin yenə də birtərəfli qaydada, beynəlxalq siyasətin obyektiv gerçəkliyi, dövlətin real vəziyyəti və mənafeləri nəzərə alınmadan yalnız Türkiyə Cümhuriyyəti ilə münasibətlərə üstünlük verilməsi, başqa dövlətlərlə əsassız gərginliyin yaradılmasına səbəb olan addımların atılması və s. ziyanlı hallar açıq müşahidə olunan ənənəyə çevrilirdi. Bunu isə Azərbaycan Respublikasının milli dövlətçilik maraqlarına cavab verməyən, düşünülməmiş, təhlükəli, ağır və gözlənilməz nəticələr doğuran xarici siyasət xətti kimi qiymətləndirmək olar.

Həmin dövrdə Azərbaycan hökumətinin xarici siyasətini xarakterizə edən əsas cəhətlərdən biri vahid xətt üzrə aparılan ardıcıl və prinsipial siyasətin olmaması idi. Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji maraqların, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətinin əsas mahiyyətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə izah edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar.

Bütövlükdə, təsadüfi bəyanatlar, ziddiyyətli çıxışlar üzərində qurulmuş xarici siyasət Azərbaycan Respublikasının bir ilin içərisində regionda və beynəlxalq aləmdə tam təklənməsinə və respublika ətrafında antiazərbaycan koalisiyasının yaranmasına səbəb oldu.

Əlbəttə, bu siyahını istənilən qədər uzatmaq da olar. Əsas məsələ ondadır ki, 1992-1993-cü illərdə Azərbaycan Respublikası rəhbərliyi nəinki bu prioritet vəzifələri müəyyənləşdirib həyata keçirə bilmədi, əksinə, həm daxildə, həm də xaricdə çox ziyanlı bir siyasət yeridərək ölkəni çətin duruma saldı.

1993-cü ilin yayında Azərbaycan Respublikasında baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, ilk növbədə, sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış son dərəcə gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət xətti formalaşdırmaq zərurəti ilə üzləşdi.

Eyni zamanda Azərbaycan dövlətinin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region ölkələrinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmaq üçün silsilə tədbirlər düşünülüb həyata keçirilməli, respublikamızın mənafelərini qorumaq və reallaşdırmaq üçün hərtərəfli ölçülüb-biçilmiş tədbirlər görülməli idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi taktiki gedişlərlə Azərbaycanın dövlətçilik maraqlarını maksimum qorumaq idi.

Digər tərəfdən, geniş elmi və analitik təhlil əsasında Azərbaycanın geosiyasi vəziyyəti və dövlətin ona təsir etmək üçün real imkanları öyrənilməli, bütün diplomatik vasitələr səfərbər edilməli, müvafiq tədbirlər proqramı işlənib hazırlanmalı idi. Azərbaycan Respublikasının 1993-cü ilin ikinci yarısına qədər beynəlxalq aləmdə uğursuzluğa düçar olması, əsasən, məhz bu amillərin nəzərə alınmaması nəticəsində baş vermişdir.

Həmin dövrdən başlayaraq, Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsir imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət xəttində mövcud reallıqları nəzərə alan və ölkənin maraqlarının qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə, müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər müstəvisində yeri, Avropa ölkələri və ABŞ-la, keçmiş sovet respublikaları, o cümlədən Rusiya ilə, müsəlman dünyası və İranla, türkdilli dövlətlərlə, o cümlədən Türkiyə ilə, Cənubi Asiya dövlətləri

və başqa ölkələrlə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi, hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan sistemi yaradıldı.

Müstəqil Azərbaycan Respublikası dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyasında və Prezident Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır.

Konstitusiyanın 10-cu maddəsində göstərilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur [122, 7]. Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki nitqində demişdir ki, bizim xarici siyasətimiz, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaradılmalı, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə olunmalıdır [9, 205].

Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasətinin əsas vəzifələrini aşağıdakı istiqamətlər üzrə müəyyən etdi:

– ölkənin müstəqilliyini, suverenliyini və beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü qorumaq, onun təhlükəsizliyini regional və beynəlxalq təhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;

– Azərbaycan Respublikasının bütün beynəlxalq və regional təşkilatlarda təmsil olunması, sivil birgəyaşayış qaydaları ilə tənzimlənən böyük dünya siyasətinə qatılması, beynəlxalq və regional münasibətlərin həllində fəal iştirak etməsi zəminində dünyanın siyasi xəritəsində layiqli yer tutmasına nail olmaq;

– dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublikanın iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında səmərəli amil kimi istifadə etmək;

– maraqları Azərbaycan Respublikasının dövlətçilik və milli maraqları ilə uyğun gələn dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətləri yaratmaq, respublikanın beynəlxalq mövqelərinin möhkəmlənməsi üçün onların imkanlarından istifadə etmək;

– ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, müstəqil daxili və xarici siyasət yeritməsi üçün əlverişli beynəlxalq şəraitin bərqərar olmasına çalışmaq;

– əhalinin əsas hüquq və azadlıqlarının qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsinə şərait yaratmaq;

- regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək;

– Azərbaycan Respublikasına göstərilən xarici təzyiqlərin qarşısını alan və ya onları minimuma endirən beynəlxalq himayə mexanizminin yaradılmasına nail olmaq;

– dövlətin bütün beynəlxalq, regional, iqtisadi, elmi-texniki, mədəni, humanitar və s. təşkilatlarda fəal iştirakına çalışmaq;

– xalqın mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası üçün bütün xarici və daxili amillərdən bəhrələnmək;

– xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr və geniş informasiya mübadiləsi mexanizmləri yaratmaq [246, 34-35].

Bütün bu vəzifələr və onların həyata keçirilməsi ilə bağlı konkret səylər Azərbaycan Respublikası dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində atdığı praktiki addımlarda, bağlanan müqavilələrdə öz əksini tapmışdır.

Heydər Əliyevin formalaşdırdığı müstəqil Azərbaycan dövlətinin xarici siyasəti özünəməxsus xüsusiyyətləri ilə də seçilir:

– siyasi sahədə – Azərbaycan Respublikası dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivil dövlətlərarası münasibətlərə hörmət bəsləmək, beynəlxalq, regional və dövlətlərarası münaqişələri sülh və danışıqlar yolu ilə həll etmək, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaq;

– iqtisadi sahədə - qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək, iqtisadi maraqların uzlaşdırılması, uyğunlaşdırılması, qarşılıqlı təminat mexanizminin yaradılması və onun qorunması;

– mədəni sahədə - dövlətlərarası əlaqələrə və ünsiyyətlərə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaq, mənəvi sərvətlərin maneəsiz, azad və demokratik mübadiləsini və s.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin xüsusiyyətlərindən bəhs edərkən, beynəlxalq, regional və dövlətlərarası münasibətlərin inkişaf meylinə uyğun çevik, praqmatik və tarazlı siyasət yeridilməsini, qonşu ölkələrlə əlaqələr qurulmasına üstün yer verilməsini, dünya siyasətinə əhəmiyyətli təsir göstərən böyük dövlətlərlə tərəfdaşlıq münasibətlərinin yaradılmasının ön plana çıxarılmasını, onların maraqları ilə Azərbaycan Respublikasının strateji maraqlarının uzlaşdırılması zərurətini və s. mühüm amilləri də xüsusi vurğulamaq lazımdır.

Azərbaycan Respublikası demokratik və hüquqi dövlət quruculuğu yolu tutduğuna görə, onun xarici siyasəti də dünya təcrübəsinin bütün mütərəqqi nailiyyətlərini, beynəlxalq normaları özündə əks etdirir və hər cür etnik, dini məhdudiyyətləri inkar edir. Azərbaycanın müasir xarici siyasəti açıq və demokratik prinsiplər əsasında qurulmuş, xalqın və dövlətin mənafelərinə, mentalitetinə zidd olmayan bütün beynəlxalq normaları özündə birləşdirmişdir.

Məhz bu amillərlə səciyyələnən Azərbaycan Respublikasının xarici siyasət xəttinin əsası Heydər Əliyev tərəfindən qoyulmuş və 1993-cü ilin ikinci yarısından etibarən ardıcıl həyata keçirilmişdir. Ölkə Konstitusiyasının 7-ci maddəsində göstərilir ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır [122, 5]. Deməli, onun xarici siyasəti də bu prinsipləri özündə əks etdirməli, beynəlxalq münasibətlərin hüquqi və demokratik əsaslar üzərində qurulmasına istiqamətlənməlidir.

Bu mövqedən çıxış edən Azərbaycan Respublikasının xarici siyasəti xalqın və dövlətin strateji maraqlarını tam əks etdirməklə bərabər, həm də beynəlxalq hüquq normalarına, beynəlxalq təşkilatların əsas prinsiplərinə, bəşəri birgəyaşayış qaydalarına tam uyğunlaşdırılmışdır.

Ölkənin Əsas Qanununa görə, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına uyğun qurur [122,7]. Beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər isə Azərbaycanın da üzv olduğu BMT-nin Nizamnaməsində, ATƏT-in «Helsinki aktı»nda, Paris və İstanbul xar-

tiyalarında öz əksini tapmışdır. Azərbaycan dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində əsaslandığı başlıca prinsiplər aşağıdakılardır:

– hər bir dövlətin suveren hüquqlarına hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, ölkələrin dövlət quruluşu və sosial-siyasi inkişaf modelləri arasındakı fərqlərdən asılı olmayaraq, seçdiyi inkişaf yoluna hörmətlə yanaşmaq, dövlətlərarası münasibətlərdə beynəlxalq normaları və üzərinə götürdüyü öhdəlikləri vicdanla yerinə yetirmək;

– beynəlxalq hüquq normaları və prinsiplərinə uyğun olaraq, dövlətlərin ərazi bütövlüyünün pozulmasına, sərhədlərinin zorla dəyişdirilməsinə və dövlət müstəqilliyinin təhlükə altına alınmasına yol verməmək, mübahisəli məsələləri dinc yolla həll etmək;

– ictimai-siyasi, iqtisadi və mədəni əlaqələrdə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əməkdaşlıq, ortaq maraq və mənafeləri qorumaq, qarşılıqlı təhlükəsizliyə çalışmaq, dinc və faydalı əməkdaşlıq üçün perspektivli tədbirlər axtarmaq və həyata keçirmək;

– ikitərəfli əlaqələrdə beynəlxalq hüquq normalarını və sivil birgəyaşayış qaydalarını, başqa dövlətlərin, regional və beynəlxalq birliklərin maraqlarını nəzərə almaq;

– xalqların və millətlərin öz müqəddəratlarını təyin hüququna hörmət etmək, insan hüquqlarını və haqlarını qorumaq;

– separatizmə, terrorizmə, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mənəvi həyatına ziyan verə biləcək digər mənfi hallara qarşı birgə mübarizə aparmaq;

– bəşəriyyəti və ayrı-ayrı dövlətlərin xalqlarını narahat edən qlobal problemlərin həlli istiqamətində birgə çalışmaq, bütün səyləri birləşdirmək və sair [246, 39].

Beynəlxalq prinsiplər BMT, ATƏT və digər beynəlxalq təşkilatların üzvü olan bütün dövlətlər üçün məcburi xarakter daşıyır. Bəşər cəmiyyəti bu prinsipləri beynəlxalq münasibətlər sisteminin və sivil birgə yaşayışın əsas hüquq normasına çevirmək üçün yüz illərlə qanlı müharibə və dağıntılarla müşayiət olunan tarixi bir yol keçmişdir.

Azərbaycan Respublikasında müstəqil dövlət quruculuğu vəzifələri – müstəqilliyin möhkəmləndirilməsi, təhlükəsizliyin, ərazi bütövlüyünün və iqtisadi maraqların təmin olunması və s. özünəməxsus xüsusiyyətlərlə, vəzifə və taktiki gedişlərlə fərqlənən müxtəlif is-

tiqamətli xarici siyasət yeridilməsini tələb edirdi. Heydər Əliyev ölkənin müstəqilliyinin dönməzliyinə nail olmaq, onu tədricən ənənəvi siyasi təsir dairəsindən çıxarmaq, tarixən formalaşmış xarici iqtisadi, siyasi və mədəni əlaqələrdən müstəqillik mənafeləri üçün səmərəli istifadə etmək, Şərqlə Qərb arasındakı münasibətlər sistemində Azərbaycan Respublikasının özünəməxsus yer tutmasını təmin etmək üçün region dövlətlərinin köklü maraqlarına toxunmamaq şərtiilə çoxşaxəli və tarazlaşdırılmış siyasət həyata keçirirdi.

İlk növbədə, regionda böyük təsir gücünə malik olan Rusiya ilə qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlər qaydaya salındı. İki ölkə arasındakı münasibətləri normallaşdırmaq üçün bütün incəlikləri nəzərə alan yollar, vasitələr araşdırıldı, hər iki tərəfin mənafeyinə cavab verən iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı üçün bir sıra təsirli tədbirlər görüldü.

Müstəqil dövlət quruculuğu prosesində Rusiya ilə əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qurumları bitərəfləşdirmək taktikası Azərbaycan Respublikasının xarici siyasət xəttində müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı. 1993-cü il sentyabrın 6-da Heydər Əliyev Moskvada Rusiya Prezidenti Boris Yeltsinlə və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşüb iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması məsələlərini müzakirə etdi, sentyabrın 24-də isə Azərbaycan Respublikası MDB-yə daxil oldu [288, 500–507].

Eyni zamanda müstəqil dövlətçilik problemlərini həll etmək, bu yolda qarşıya çıxan təzyiqlərə birgə sinə gərmək, yeni iqtisadi və dövlətlərarası münasibətlərə uyğun ikitərəfli və çoxtərəfli əlaqələr yaratmaq məqsədilə digər MDB dövlətləri – Ukrayna, Belarus, Gürcüstan, Moldova və xüsusən 1993-cü ilin sonuna qədər Azərbaycan Respublikası ilə kəskin münasibətlərə malik olan Orta Asiya respublikaları ilə münasibətlərin köklü şəkildə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi.

Həmin dövr üçün Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində böyük əhəmiyyəti olan istiqamətlərdən biri də Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin yaradılması idi.

1993-cü ilin sonundan etibarən Azərbaycanın xarici siyasətində bu istiqamət xüsusilə aydın parametrlər kəsb etməyə başladı. 1994-cü ildə

Ermənistan–Azərbaycan müharibəsində atəşkəsin əldə olunması, 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı «Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında» Azərbaycan Respublikası – Gürcüstan Bəyannaməsinin imzalanması respublikamızın Qafqazda həyata keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət başçısının imzaladığı birgə Bəyannamə «Ümumi Qafqaz evi» ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoydu [90].

Azərbaycanın regiondakı sosial-iqtisadi inkişafı və siyasi təkamülə xidmət edən qlobal iqtisadi layihələrin gerçəkləşməsi istiqamətində gördüyü ardıcıl tədbirlər və sülhsevər siyasəti bu ideyanın reallaşmasına əlverişli zəmin yaratdı. Lakin Ermənistanın təcavüzkar siyasəti və regiondakı münaqişələrin həllinin uzanması «Ümumi Qafqaz evi» ideyasının həllini xeyli çətinləşdirdi. Azərbaycan dövlətinin «Ümumi Qafqaz evi» təşəbbüsü bu gün də aktual ideya kimi gündəlikdə durur və öz həllini gözləyir.

Azərbaycan dövləti özünün bütün inkişafı boyu Yaxın və Orta Şərqin ən nüfuzlu və aparıcı ölkələri və regionda xüsusi təsir gücü olan İran və Türkiyə ilə sıx qarşılıqlı münasibətlərdə olmuşdur. İstər Azərbaycanın hər iki dövlətlə ikitərəfli, istər birgə, istərsə də bu iki dövlətin öz aralarında mövcud olan əlaqələri hər zaman respublikamızın həm daxili həyatına, həm də beynəlxalq vəziyyətinə öz təsirini göstərmişdir. Ona görə də Azərbaycan diplomatiyası hər iki dövlətlə əlaqələri elə qurmalı idi ki, bir tərəfdən, onların imkanlarından və bölgədə kəsişən maraqlarından Azərbaycan dövlətçiliyinin mühüm problemlərinin həllində istifadə etsin, digər tərəfdən, respublikanın inkişafını və maraqlarını bu iki dövlət arasındakı münasibətlərin təsirindən qorusun.

Lakin 1993-cü ilin ortalarına qədər Azərbaycanın rəhbərləri xarici siyasət xəttində bu mühüm prinsipin əhəmiyyətini lazımınca qiymətləndirə bilmədilər. Tarazlaşdırılmamış xarici siyasət strategiyası Azərbaycanın cənub qonşusu olan İranla münasibətlərinin kəskin siyasi-ideoloji qarşıdurma vəziyyətinə gəlib çıxması ilə nəticələndi.

İran–Azərbaycan münasibətlərinin bütün dövrlərdə yalnız Azərbaycan Respublikasının beynəlxalq vəziyyətinə deyil, həm də respublikanın daxili həyatına əhəmiyyətli təsir göstərmək imkanlarını nəzərə

alan Prezident Heydər Əliyev İranla gərgin vəziyyətə çatdırılmış siyasi-ideoloji qarşıdurmanı dayandırmaq, münasibətləri mehriban qonşuluq və əməkdaşlıq prinsipləri üzərində yenidən qurmaq, iki ölkə arasındakı əlaqələri bütün mümkün yollar və vasitələrlə yaxşılaşdırmaq üçün 1993-cü ilin ortalarından başlayaraq gərgin və səmərəli iş apardı. Bunun nəticəsində, artıq 1993-cü ilin sonu – 1994-cü ilin əvvəlində bu qonşu dövlətlə əlaqələrdə dönüş yaratmaq mümkün oldu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkiyə Cümhuriyyəti ilə münasibətləri normal, sivil, qarşılıqlı surətdə faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq müstəvisi üzərinə keçirmək üçün çox ciddi və məqsədyönlü iş apararaq, tezliklə müsbət nəticələrə nail oldu. Hər şeydən əvvəl, region dövlətlərini və beynəlxalq qurumları iki ölkə arasındakı münasibətlərin əvvəlki dövrdə olduğu kimi sırf etnik amillər əsasında deyil, iki müstəqil dövlətin beynəlxalq birgəyaşayış normalarına söykənən qarşılıqlı maraqları üzərində qurulduğuna inandırmaq mümkün oldu. Bu da Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminə daha uğurlu inteqrasiyası qarşısında əlverişli imkanlar açdı.

Azərbaycan Respublikası dövlətinin xarici siyasətinin ən mühüm strateji istiqamətlərindən biri də Qərbin və Şərqin aparıcı ölkələri ilə münasibətlərin tənzimlənməsindən, həmin ölkələrlə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələrin qurulmasından ibarət idi. Bunun üçün, ilk növbədə, Azərbaycan Respublikasının geosiyasi mövqeyi və iqtisadi tərəfdaşlıq imkanları obyektiv qiymətləndirilməli, bu amillərin həmin ölkələrin iqtisadi və siyasi maraqları ilə uzlaşdırılması yönümündə təsirli tədbirlər görülməli idi.

Bu zərurəti tam aydınlığı ilə dərk edən Prezident Heydər Əliyev 1993-cü ilin axırlarından başlayaraq həm Şərq və Qərb, həm də region ölkələri ilə münasibətləri ayrı-ayrı təsadüfi əlaqələr səviyyəsindən sistemli xarici siyasət xətti səviyyəsinə qaldırmaq taktikası seçdi.

Müstəqillik və dövlətçilik mənafelərini qorumaq, bu sahədə qarşıya çıxan problemləri beynəlxalq aləmin dəstəyi ilə həll etmək üçün Azərbaycan diplomatiyası beynəlxalq və məhəlli təşkilatlarla sıx əlaqələr yaratmaq, beynəlxalq hüquq normaları və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri ilə tənzimlənən böyük dünya siyasətinə qatılmaq sahəsində

də mühüm işlər görmüşdür. Xüsusən BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, MDB, İslam dünyası ölkələrini birləşdirən İslam Konfransı Təşkilatı, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara dəniz ətrafı dövlətləri birləşdirən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatlarla sıx inteqrasiyanın, hərtərəfli münasibətlər qurulmasının yeni yolları və vasitələri müəyyənləşdirilmiş və həyata keçirilmişdir.

Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpa olunması və işğalçıların ölkə ərazisindən çıxarılması, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması Azərbaycan diplomatiyasının qarşısında dayanan ən mühüm vəzifələrdən idi. Dağlıq Qarabağ ətrafında yaranmış münaqişənin qanlı tarixi göstərdi ki, beynəlxalq rəyi nəzərə almadan, ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyinə nail olmadan, hərtərəfli düşünülmüş diplomatik iş aparmadan güc tətbiq etməklə bu məsələnin həllinə yönələn hər bir cəhd əvvəlcədən acı nəticəyə və uğursuzluğa məhkumdur. Ona görə də Heydər Əliyevin tapşırığı ilə bu problemin dünya səviyyəsinə çıxarılması və həlli ilə bağlı xüsusi bir konsepsiya hazırlanmış və bəzi konkret vəzifələrin həyata keçirilməsini nəzərdə tutan ardıcıl siyasi xətt yeridilmişdir.

Əvvəla, Ermənistanı dəstəkləyən ölkələrin bir qismi bitərəfləşdirilmiş, bu məsələdə əvvəlcədən bitərəf qalan dövlətlər Azərbaycan Respublikasının ədalətli mövqelərinin müdafiəsinə cəlb edilmiş, ölkəmizin müstəqil dövlətçiliyində marağı olan və onu müdafiə edən dövlətlərin, beynəlxalq təşkilatların bu işə qoşulması, Ermənistana təzyiq etməsi üçün məqsədyönlü diplomatik və siyasi iş aparılmışdır.

İkincisi, Dağlıq Qarabağın və bu bölgə ətrafında yaranmış problemlərin tarixi, mahiyyəti və kökləri hərtərəfli açıqlanmış, Azərbaycan Respublikasının haqq səsi bütün dünya ictimaiyyətinə çatdırılmış, mövcud informasiya boşluğu doldurulmuş və dünyada ictimai rəy respublikamızın xeyrinə dəyişdirilmişdir.

Üçüncüsü, Dağlıq Qarabağda yaşayan ermənilərin Azərbaycan Respublikası dövlətinə qarşı yönəlmiş çıxışlarının beynəlxalq separatizmin tərkib hissəsi kimi qorxulu, ağır nəticələr törədən və digər dövlətlərin də ərazisində oxşar problemlərin alovlanmasına təkan

verən təhlükəli proses olduğu sübut edilmiş, dünya ictimaiyyəti belə təhlükənin qarşısını almağın vacibliyinə inandırılmışdır.

Dördüncüsü, bu problemin Azərbaycan Respublikasının Avropaya inteqrasiyasının qarşısını almaq, ayrı-ayrı region dövlətlərinin təsir və nüfuz dairəsində saxlamaq üçün və xüsusi məqsədlə ortaya atılmış bir məsələ olduğu sübut edilmiş, beynəlxalq miqyasda bu istiqamətdə geniş təbliğat aparılmışdır [248, 234].

Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri də terrorizmə qarşı mübarizədə beynəlxalq proseslərə qoşulmaq və ABŞ-ın təşkil etdiyi antiterror koalisiyasında iştirak etməkdən ibarət olmuşdur. Azərbaycan Respublikasının terrorizmə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın dərinləşdirilməsini və təsirli tədbirlərin görülməsini həmişə zəruri hesab etmişdir. Lakin erməni terrorizmi ilə bağlı Azərbaycan Respublikası çağırışlarına beynəlxalq aləmdə uzun müddət adekvat münasibət göstərilməmişdir.

2001-ci ilin sentyabrında ABŞ-da törədilmiş terror aktından sonra beynəlxalq aləmdə antiterror koalisiyası formalaşmağa başladı. Azərbaycan Respublikası beynəlxalq terrorizmi pisləyən və ona qarşı fəal mübarizəyə qoşulan ilk ölkələrdən biri oldu. Azərbaycan Respublikasının hərbi kontingenti Kosovo, Əfqanıstan və İraqda beynəlxalq sülhməramlı qüvvələr tərkibində iştirak edərək, respublikamızın antiterror mübarizədə həmrəyliyini və prinsipial mövqeyini nümayiş etdirmişdir.

Beləliklə, müstəqillik dövründə mürəkkəb formalaşma mərhələlərindən keçmiş Azərbaycan Respublikasının xarici siyasəti 1993-cü ilin ikinci yarısından etibarən ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prioritetləri ilə seçilən, bitkin, ardıcıl və prinsipial xarakter kəsb etməyə başlamışdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, tarazlaşdırılmış, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır.

Hər bir dövlət özünün xarici siyasət vəzifələrini həyata keçirmək üçün uzunmüddətli strateji və operativ cari fəaliyyət proqramı hazırlayır. Uzunmüddətli strateji fəaliyyət proqramı dövlətin gücü, qüdrəti, resursları, dünya siyasətindəki rolu və yerindən asılı olaraq, müxtəlif məqsəd və vəzifələr üzərində qurulur. Bunların ən vacibləri və həyati əhəmiyyət kəsb edənləri sırasına ölkənin müstəqilliyinin qorunmasını, dünyaya uğurla inteqrasiyasını və beynəlxalq münasibətlər sistemində özünə layiq yer tutmasını, ərazi bütövlüyünün və suveren hüquqlarının təmin olunmasını, vətəndaşlarının firavan həyatını təmin etmək məqsədilə xarici aləmin imkanlarından istifadəni və s. aid edirlər.

Uzunmüddətli xarici siyasət strategiyası konkret zaman, məkan və şəraitə uyğun olaraq, dövlətlərin cari xarici siyasət proqramının hazırlanmasını və yürüdüləcək siyasətin, görüləcək işlərin prioritetlərinin (mövcud zaman, məkan və şəraitdə reallaşdıracağı birinci dərəcəli vəzifələrin) müəyyən olunmasını tələb edir. Əslində, xarici siyasət sahəsindəki prioritetlər dövlətin uzunmüddətli xarici fəaliyyətinin tərkib hissəsi, qarşısında duran vəzifələrin daha dəqiqləşdirilmiş, qruplaşdırılmış, təsnif edilmiş və mövcud zaman, məkan çərçivəsində önə çıxarılmış hissəsidir.

Hər bir dövlətin xarici siyasət prioritetlərinin düzgün müəyyən olunması onda öz milli maraqlarını, ölkəni əhatə edən qonşuların və region dövlətlərinin imkan və mövqelərini, dünya siyasətinin və beynəlxalq münasibətlərin mahiyyəti və reallıqlarını, planetin birgəyaşayış normalarını müəyyən edən böyük dövlətlərin, beynəlxalq təşkilatların, güc mərkəzlərinin maraq və mənafe çərçivələrini, onlara təsir imkanlarını dəqiq qiymətləndirə bilməsindən asılıdır. Eyni zamanda hakimiyyət dairələrində ölkənin xarici siyasət perspektivləri, dünya dövlətləri arasında qazanacağı uğurlar, beynəlxalq münasibətlər sistemində tutacağı yer haqqında eyforik deyil, real, praqmatik düşüncə olmalı, dövlətin mövcud xarici siyasət resursları, dünya dövlətləri üçün iqtisadi, siyasi və mədəni əhəmiyyəti düzgün dərk edilməli, beynəlxalq münasibətlərin axarı, meyilləri, ölkələrin real maraqları nəzərə alınmalıdır. Məsələn, 1992-ci ildə Azərbaycan Respublikasının siyasi rəhbərliyində belə bir fikir formalaşmışdı ki, SSRİ-nin tərkibindən çıxmaqla, demokratik inkişaf və Qərbə inteqrasiya xətti elan etməklə, bütün dünya ölkələrinin etimadına və dəstəyinə nail ola-

caq, Azərbaycan Respublikasını dərhal «Ümumavropa» evinə qəbul etdirəcək və ölkənin iqtisadi inkişafı üçün dünya dövlətlərindən hərtərəfli yardım alacaqlar. Əlbəttə, bu, meydan hərəkatından, Qərb dəyərləri və Qərb ölkələri haqqında müxtəlif təbliğat vasitələrinin ideoloji təsirindən doğan sərməstlikdən başqa bir şey deyildi.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin formalaşması və prioritet vəzifələrin müəyyənləşməsi Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun dövründə Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində iştirakı və özünəməxsus mövqelər qazanması üçün lazımi tədbirlər görüldü, ölkənin xarici aləm üçün kəsb etdiyi maraqlar dairəsi, geosiyasi və iqtisadi əhəmiyyəti düzgün dəyərləndirildi, beynəlxalq aləmin Cənubi Qafqazda, Xəzər regionunda və Azərbaycanda təmsil olunan, üst-üstə düşən, kəsişən maraqları müəyyənləşdirildi. Beynəlxalq münasibətlərin yeni nizami, dövlətlərarası əlaqələrin prinsipləri, beynəlxalq hüququn təsir gücü və dairəsi, dünyanın böyük dövlətlərinin, regionun aparıcı ölkələrinin və beynəlxalq təşkilatların Azərbaycan Respublikası ilə bağlı yürütdüyü və yürüdə biləcəyi siyasət təhlil edildi.

Dünyada baş verən qloballaşma, demokratikləşmə və beynəlxalq inteqrasiya fonunda gənc dövlətin birmənalı müstəqil xarici siyasət xəttinin müəyyən edilməsi o vaxt çox çətin idi. Xüsusilə də nəzərə alsaq ki, Rusiya Federasiyası və İran İslam Respublikası qərbyönümlü xarici siyasətə xüsusi qısqanclıq və həssaslıq nümayiş etdirirdi, qonşu Ermənistan ərazi iddiası ilə ölkəmizə hərbi təcavüz etmişdi və Azərbaycan Respublikası beynəlxalq təcridolunmaya məruz qalmışdı, onda Azərbaycanın xarici siyasət fəaliyyətinin hansı çətin şəraitdə həyata keçirildiyini təsəvvür etmək olardı. İlk növbədə, Azərbaycan Respublikasının bir dövlət kimi gələcək dünya nizamında yeri, daxili və xarici siyasətinin xarakteri və prioritetləri müəyyən edilməli, Qərbə, Şərqə, yoxsa Rusiya Federasiyasına və keçmiş SSRİ məkanında mövcud olan dövlətlərin birliyinə inteqrasiya xətti seçilməli, ölkənin təhlükəsizliyinin hansısa mövcud beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqədə, yoxsa müstəqil, bitərəf şəkildə təmin olunması kimi məsələlər həllini tapmalı idi. Bütün bu məsələlər ətrafında operativ, lakin düşünülmüş, hərtərəfli ölçülüb-biçilmiş qərarlar qəbul edilməli idi.

Beləliklə, 1993-cü ildə Heydər Əliyevin rəhbərliyə qayıdışı ilə Azərbaycan Respublikasının xarici siyasəti özündən müştəbehlik üzərində qurulmuş illüziyalardan, «demokratik utopizm»dən xilas olaraq, real və praqmatik məzmun kəsb etmişdir. İlk növbədə, ölkənin pozulmuş ərazi bütövlüyünün bərpası, işğalçıların Azərbaycan Respublikası ərazilərindən çıxarılması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi və onun təhlükəsizliyinin təmin edilməsi kimi vəzifələrin həllində beynəlxalq aləmin dəstəyi qazanılmışdır. Azərbaycanın düşmənləri səviyyəsinə qaldırılmış iri region dövlətləri – Rusiya və İranla, erməni lobbisinin təsiri ilə Azərbaycana qarşı sanksiyalar qəbul etmiş ABŞ-la, Fransa və İngiltərə ilə, Orta Asiyanın qonşu türkdilli respublikaları ilə və başqa dövlətlərlə münasibətlər sahmana salınmışdır. Beynəlxalq və regional təşkilatlarla əlaqələr intensivləşdirilmiş, Azərbaycan Respublikasının problemlərinin həllində onların imkanlarından istifadə etmək üçün tədbirlər görülmüşdür.

Azərbaycan Respublikasının yerləşdiyi Avrasiya bölgəsində dövlətlərin hərbi təhlükəsizliyini təmin edən iki sistem – Rusiya Federasiyasının rəhbərlik etdiyi «Kollektiv Təhlükəsizlik Müqaviləsi» və ABŞ-ın hegemon olduğu NATO bloku, eyni zamanda müstəqil olaraq öz təhlükəsizliyinin qeydinə qalan İran mövcuddur. Heydər Əliyev Avropa və aparıcı region ölkələrinin etibar etdiyi təhlükəsizlik sisteminin formalaşmasına qədər kənar təsir və təzyiqlərdən qorunmağı, öz hərbi təhlükəsizliyini təmin etməyi ölkənin xarici siyasət prioriteti olaraq müəyyən etmişdir.

Azərbaycan Respublikasının milli gəlirinin mühüm bir hissəsi və iqtisadiyyatının əsas qismi neft sənayesi ilə bağlıdır. Heydər Əliyevin işləyib hazırladığı yeni neft strategiyasının 1994-cü ildən başlayaraq reallaşdırılması dövlətin xarici siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Bu strategiyanın əsas mahiyyəti Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda olan karbohidrogen ehtiyatlarının qabaqcıl Qərb texnologiyası və investisiya imkanlarından səmərəli istifadə etməklə dövriyyəyə buraxılması, təhlükəsiz yollarla dünya bazarlarına çıxarılması, satışından əldə edilən vəsaitlə iqtisadiyyatın digər sahələrinin, qeyri-neft sektorunun inkişafına nail olunması, bugünkü və gələcək nəsillərin firavan həyatının təmin edilməsindən və s. ibarətdir. Bu sahədə Xəzərin sektor bölgüsü, neft kəmərlərinin

çəkilişi və təhlükəsizliyi, investisiya təminatı, dünya neft-qaz bazarında lazımi yeri tutmaq və s. çətinliklərin aradan qaldırılması və nəzərdə tutulan işlərin həyata keçirilməsi üçün xarici dövlətlərin imkanlarından maksimum yararlanmaq xarici siyasətin mühüm vəzifəsi olaraq qalır.

Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət prioritetləri sırasında Qərb ölkələrinin təmsil olunduğu Avropa İttifaqı sisteminə (iqtisadi, siyasi, sosial, mədəni sahədə) və qlobal dünya siyasəti məkanına inteqrasiya mühüm yer tutur. Bu sistemə daxil olmaqla Azərbaycan Respublikası həm özünün mövcud resurslarından xalqın firavan həyatının təmin edilməsi istiqamətində daha səmərəli, təhlükəsiz və itkisiz istifadə imkanı əldə etmiş, həm də qabaqcıl dünya texnologiyalarının, xarici kapitalın ölkə iqtisadiyyatına daha sürətlə daxil olması, qeyri-neft sektorunun inkişafı üçün əlverişli imkan qazanmışdır. Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi qurumlarla əməkdaşlıq nəticəsində onların, habelə ABŞ-ın maliyyə və texnoloji imkanlarından səmərəli istifadə edilmiş, ölkədə iqtisadi, sosial və struktur islahatları aparılmışdır.

Azərbaycan Respublikasının xarici siyasət prioritetləri sırasına, eyni zamanda dünyada beynəlxalq hüquqa əsaslanan sivil birgəyaşayış normalarının bərqərar olması, dövlətlərin beynəlxalq hüquqlarının qorunması üçün təsirli tədbirlərin görülməsi, beynəlxalq təşkilatların, xüsusən BMT, ATƏT, NATO kimi qurumların dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında daha yaxından iştirakının artırılması kimi məsələlər də daxildir [248, 246].

Azərbaycan Respublikası dövləti dünyada yaşayan bütün azərbaycanlıların istinad yeri, qürur mənbəyi və doğma Vətənidir. Odur ki, respublika daxilində olduğu kimi, bütün dünya ölkələrində yaşayan azərbaycanlıların, onlara məxsus əmlak və mülkiyyətin, soydaşlarımızın insan və vətəndaş hüquqlarının qorunması da xarici siyasətin prioritet istiqaməti kimi diqqət mərkəzindədir. Eyni zamanda xaricdə yaşayan azərbaycanlılar Azərbaycan Respublikası dövləti üçün dünyanın ayrı-ayrı ölkələrində, regionlarında və bütövlükdə beynəlxalq aləmdə baş verən hadisələrə təsir etmək anlamında xarici siyasət resursu kimi çıxış edirlər. Heydər Əliyev bu resursu qorumağı, onun imkanlarını artırmağı,

həm azərbaycanlıların öz hüquqlarının dolğun təmin olunmasında, həm də Vətənin mənafelərinin qorunmasında onlardan istifadə etməyi xarici siyasətin ən mühüm prioritetlərindən biri hesab edirdi.

Heydər Əliyevin müəyyən etdiyi Azərbaycan Respublikasının xarici siyasət prioritetləri sırasına region maraqlarının sistemləşdirilməsi və reallaşması istiqamətində görülən mühüm işləri də aid etmək olar. O, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə yanaşı, Azərbaycan Respublikasının İran İslam Respublikası, Türkmənistan və Rusiya Federasiyası ilə kəsişən və toqquşan maraqlarının ortaq nöqtəsini tapmaq və əlaqələri yaxşılaşdırmaq, Türkiyə, Ukrayna, Gürcüstanla və strateji maraqları ölkəmizlə üst-üstə düşən digər region ölkələri ilə müttəfiqlik əlaqələrini daha da inkişaf etdirmək, Xəzər dənizinin statusunun həllində, TRASEKA – Şərq-Qərb enerji-nəqliyyat-kommunikasiya layihəsinin həyata keçirilməsində müttəfiqlərlə birlikdə səy göstərmək kimi vəzifələrin də diqqət mərkəzində saxlanmasını əhəmiyyətli sayırdı.

Heydər Əliyev yaxşı başa düşürdü ki, Avrasiya məkanında həyata keçirilən beynəlxalq və regional inteqrasiyada öz layiqli yerini tutmaq, ölkənin milli maraqlarını maksimum qorumaq və təmin etmək vəzifəsi Azərbaycan Respublikasından düşünülmüş və dəqiq hesablanmış xüsusi siyasət tələb edir. Bu regionda Rusiya başda olmaqla, MDB, İran başda olmaqla, İƏT, Türkiyə Cümhuriyyəti başda olmaqla, Türkdilli Dövlətlər Birliyi, ayrıca Avropa İttifaqı, Çin, ABŞ və başqa ölkələrlə əlaqələr sistemi çox mürəkkəb və ziddiyyətlidir. Bütün bunlar Azərbaycanın xarici əlaqələrində tarazlaşdırılmış regional siyasət yürütməyi xüsusi bir prioritet kimi önə çıxarır. Zaman göstərdi ki, belə siyasət ölkənin bugünkü təhlükəsizliyi və müstəqil gələcəyi üçün ən mühüm təminat rolunu oynaya biləcək amildir.

4.2. Qloballaşma və onun milli xüsusiyyətləri

1993-cü ildə Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi və mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun olaraq müstəqil dövlət quruculuğu prosesi baş-

landı. Heydər Əliyev tamamilə dağılmış ictimai-siyasi, hərbi böhran, vətəndaş müharibəsi, parçalanmaq təhlükəsi, Ermənistanın hərbi təcavüzü nəticəsində qaçqın-köçkün problemi ilə üzləşmiş, əhalinin ümidsizliyə qapıldığı bir ölkənin rəhbərliyinə gəlmişdi. O, eyni vaxtda cəmiyyətin sosial-siyasi əsaslarının dəyişilməsi, maliyyə-iqtisadi mexanizmin struktur baxımından yenidən qurulması, Azərbaycan Respublikasının dünya təsərrüfat əlaqələri sisteminə inteqrasiyası kimi problemləri həll etməli oldu. Ölkənin həll olunmalı əsas problemləri dünya miqyasında qloballaşma prosesinin gücləndiyi dövrə təsadüf edirdi.

Ümumdünya tarixinin təşəkkülü planetin zaman və coğrafi ölçüləri olan müxtəlif ərazilərində qloballaşmanın güclənməsi və zəifləməsi ilə bağlı olan ziddiyyətli prosesdir. Qloballaşma həmişə birbirini əvəz edən tarixi formaların ardıcıllığı kimi özünü göstərib, ona sürəti, ardıcıllığı və uğurlu baxımdan fərqli olan müxtəlif yerlərdə və müxtəlif tarixi dövrlərdə cərəyan edən iqtisadi, siyasi və mədəni proseslərin məcmusu kimi baxmaq olar. Sosial-iqtisadi, sosial-siyasi və sosial-mədəni qloballaşma barədə söhbət açmaq olar. Sosial-iqtisadi qloballaşmanın əsas konsepti – dünya bazarı və korporasiyaların, beynəlxalq maliyyə-iqtisadi təsisatların ona uyğun olan strategiyasıdır.

Qloballaşma dedikdə, ilk növbədə, bazarların, texnologiyaların inteqrasiyası, əksərən kompyuter texnologiyaları əsasında vahid dünya maliyyə-iqtisadi məkanının formalaşması və inkişafı prosesi başa düşülür. Siyasi qloballaşma ümumdünya demokratik hökuməti, ümumi hüquqi prinsipləri və normaları olan qlobal vətəndaş cəmiyyəti perspektivlərinin təşəkkülü kimi konseptlərdən istifadə edilməklə dərk olunur. Mədəni qloballaşma ən müasir elmi-texnoloji və sosial yeniliklər ilə əlaqədar beynəlxalq kommunikasiya məsələlərini irəli sürür. Qloballaşma milli mədəniyyətlərin böhranına, insanların tarixi birliklərinin toqquşmasına səbəb ola bilər.

Yeni dünya nizamına geosiyasi yanaşma beynəlxalq aləmdə ən aktual məsələlərdən biri hesab olunur. Birmənalı şəkildə demək olar ki, XXI əsrdə dünya inkişafının strategiyasını xeyli dərəcədə məhz qloballaşma müəyyənləşdirəcəkdir. Qloballaşmadan bəşəriyyətin qlobal məsələlərinin həlli üçün istifadə edilə bilər, lakin o, kimlərinsə ayrı-ayrı maraqlarını ört-basdır edə və hər hansı bir dövlətin ekspan-

siyasına da haqq qazandıra bilər. Qloballaşmanın əsas ziddiyyətlərindən biri dünyanı unifaksiya etmək meylidir ki, bunu da yayan beynəlxalq təşkilatlar, transmilli korporasiyalar, kütləvi mədəniyyətdir. Qloballaşma, bütövlükdə, müasir dünya birliyinin inkişaf şərtlərinin məcmusunu əks etdirən obyektiv prosesdir. Qloballaşmanın müsbət tərəflərindən biri ayrı-ayrı ölkələrin daha sürətli sosial-iqtisadi inkişafı üçün imkanın yaranmasıdır. Onu da deyək ki, bu qaçılmaz mərhələ sonda müsbət nəticələr verir, lakin bununla belə, ciddi ziddiyyətlər də doğurur. Qloballaşmanın çoxamilliliyi belə təsirlərin aradan qaldırılmasını son dərəcə çətinləşdirir. Qloballaşmaya doğru transformasiya prosesi milli iqtisadiyyat üçün çox mürəkkəb və ağrılı dövrdür, lakin bu proses dünya inkişafının aparıcı meyillərinə uyğundur. Azərbaycanda bu yolun qəbul edilməsi kimi tarixi missiya Prezident Heydər Əliyevin üzərinə düşdü.

Heydər Əliyevin siyasi səriştəsi, ensiklopedik biliyi, analitik təfəkkürü, uzaqgörənliyi, hadisələrin gedişinə düzgün yanaşması onu belə bir qənaətə gətirdi ki, respublika yeni zamanın çağırışına diqqət yetirməyə bilməz, ölkənin bu proseslərdə iştirak dərəcəsi onun taleyini müəyyən edir və gələcəyinin əsasını qoyur. Bu prosesləri görən Prezident liberallaşdırma islahatlarının sabitliyinə, dünya iqtisadiyyatına inteqrasiyaya, demokratikləşməyə əsaslanan milli iqtisadiyyatın formalaşmasının başlıca prinsiplərini müəyyən etdi. Heydər Əliyev müasir cəmiyyətin xüsusiyyətləri, fövqəldövlətlərin maraqlarının toqquşduğu ölkədəki vəziyyəti nəzərə almaqla, ümumdünya oyun qaydalarından istifadə etdi, dövlət təsisatlarını dünya cəmiyyətinin sistemi ilə uyğunlaşdırdı, ona inteqrasiya etdi.

Heydər Əliyev hesab edirdi ki, qloballaşma sabit inkişafın təminatına, dövlətlərin bütövlüyünə və idarəçilik sistemlərinin sabitliyinə, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifahının yüksəlməsinə kömək etməlidir. Şübhəsiz ki, bu proses hər bir ölkəni səciyyələndirən milli xüsusiyyətləri nəzərə alınmaqla, beynəlxalq hüquq normaları prinsiplərinin aliliyini, baş verən dəyişikliklərin təkamül xarakterini, qarşılıqlı etimadı və ümumbəşəri dəyərlərə sadiqliyi əks etdirməlidir.

Qloballaşma milli və mədəni identiklik üçün ciddi sınaqdır. XIX əsr yapon mütəfəkkirlərinin «Yapon ruhu, Qərb texnologiyası» metafo-

rası Azərbaycan Respublikasının milli siyasətinin real təcəssümü oldu [573, 21].

Heydər Əliyev milli maraqların üstünlüyünün qəbul edilməsini, ölkənin sosiomədəni və siyasi ənənələrinə, resurslarına arxalanmaqla iqtisadiyyatın müasirləşdirilməsini təklif etdi. O, hesab edirdi ki, əməkdaşlığın zorakı şərtlərini obyektiv mövcudluq kimi qəbul etmək lazım deyil, çünki ona yalnız uyğunlaşmaq olar, hər hansı bir təsir etmək isə mümkün deyildir. Qloballaşmanın mənfi nəticələrindən ona dərk olunmuş şəkildə yanaşmaqla, buna uyğun qurumuş milli inkişaf strategiyasını aydın görməklə və başa düşməklə qaçmaq mümkündür.

Bu dövrdə qloballaşmanın milli forması hazırlanır. Prezident belə bir nəticəyə gəldi ki, inkişafda olan ölkələr və keçid iqtisadiyyatlı ölkələr özlərinin konkret üstünlüklərindən istifadəyə əsaslanaraq, qloballaşma yolu ilə getməlidir, qloballaşmanın və beynəlxalq iqtisadi inteqrasiyanın verdiyi imkanlardan yetərincə istifadə etmək bacarığından asılıdır.

Prezident Heydər Əliyev cəsarətli xarici siyasi təşəbbüslər və qlobal iqtisadi layihələrlə dəfələrlə beynəlxalq birliyə müraciət etmişdir. O, öz səylərini iqtisadiyyatın, ilk növbədə, tezliklə ölkəyə valyuta gətirilməsini təmin edə bilən neft sənayesinin inkişafı üçün xarici kapitalın cəlb edilməsinə yönəltmişdi, çünki hesab edirdi ki, təsərrüfat məqsədləri Azərbaycan Respublikasını dünya inteqrasiya prosesinə fəal qoşulmağa vadar edir. Dövlət başçısı əmin idi ki, hər bir milli iqtisadiyyat yalnız qlobal dünya iqtisadi sisteminin tərkib hissəsi kimi uğurlu inkişaf edə bilər.

Heydər Əliyev deyirdi ki, dünya təcrübəsi göstərir ki, heç bir ölkə sıx beynəlxalq əməkdaşlıq olmadan, təcrübə mübadiləsi, texnologiyalar, elmi proqramlar mübadiləsi olmadan tərəqqiyə nail ola bilməz. Biz hamıya, hər ölkəyə eyni dərəcədə xeyir gətirəcək qardaşlıq münasibətlərinin, bərabərhüquqlu münasibətlərin tərəfdarıyıq [596, 346].

Heydər Əliyev vurğulayırdı ki, Azərbaycan Respublikası qloballaşmanın müsbət mənada inkişafına öz töhfəsini verir. Dünya miqyasında geostrateji əhəmiyyəti olan coğrafi vəziyyətindən, ehtiyatları və potensialından istifadə edən Azərbaycan Respublikası zəngin tarixi keçmişindən gələn rolunu reallaşdırır və gələcəkdə Şərqin və Qərbin arasında körpü missiyasını istiqamətləndirir [513, 3-4]. Neft

amilindən istifadə edən Heydər Əliyev dünyanın aparıcı ölkələrinin diqqətini respublikamıza cəlb etdi. «Biz Xəzər dənizinin neft və qaz imkanlarından istifadə olunmasının yeni tarixini yaradırıq. Mən çox şadam ki, biz bu tarixi yaradanlardan biriyik. Bizim işimizin böyük gələcəyi var. Bu tarix bizdən sonra da yazılacaq və davam etdiriləcəkdir [525, 606].

Heydər Əliyev dəniz yataqlarının işlənilməsinin və bundan gələn gəlirin xarici qüvvələrdən asılı olmaması üçün maksimum dərəcədə etibarlı hüquqi təminat yaratdı. 1995-ci ilin oktyabrında Azərbaycan Respublikası Xəzərin hüquqi statusuna dair Konvensiyanın layihəsini hazırladı. Layihədə bildirilirdi ki, beynəlxalq göllərin bölünməsi təcrübəsinə uyğun olaraq, Xəzər beş hissəyə bölünməlidir və hər bir sahilyanı dövlət Xəzər dənizinin (gölünün) müvafiq sektoru və onun üstündəki hava məkanı üzərində müstəqillik hüququna malikdir. Azərbaycan Respublikası öz Konstitusiyasında layihənin bu müddəasını təsbit etdi [121, 8]. Prezident Heydər Əliyev Azərbaycan Respublikası qarşısında duran taktiki və strateji məsələlərin həlli üçün Xəzərin hüquqi statusu problemindən səmərəli şəkildə istifadə edirdi. 1994-cü ilin iyununda Bakıda 9 xarici neft şirkətinin başçıları ilə görüşündə Heydər Əliyev bəyan etdi ki, Xəzərin hüquqi statusu məsələsi uydurmadır və Qərbin neft şirkətləri ilə əməkdaşlığına mane olanlar tərəfindən qaldırılır [542, 1994, 15 iyun].

Aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi»nin imzalanması milli iqtisadiyyatın inkişafına güclü təkan verdi, əslində, onun keyfiyyətcə yeni məzmununu müəyyənləşdirdi [587, 2004, 9 dekabr]. Yeddi ölkənin 11 iri neft şirkəti konsorsium yaradaraq, 1994-cü il sentyabrın 20-də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı «Azəri», «Çıraq» yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin işlənilməsində birgə fəaliyyəti barəsində müqavilə imzaladı. Heydər Əliyev bu barədə deyirdi ki, mən həyatımda gördüyüm işlər arasında xüsusilə bu müqaviləni imzalamaqla bağlı atdığım addımı qeyd edirəm [578, 23].

Dünyada Heydər Əliyevi bu sənədin banisi və yaradıcısı hesab edirlər. Bu müqavilə ilə Azərbaycan Respublikası Xəzər dənizini və onun enerji ehtiyatlarını dünyaya açdı. «Əsrin müqaviləsi», əslində, dünyanı Azərbaycana və Azərbaycanı dünyaya açdı [594, 12]. Bu

müqavilə Azərbaycan Respublikasının XXI əsrə sürətli siyasi və iqtisadi çıxışı oldu.

Heydər Əliyev yeni neft strategiyasını işləyib hazırlayarkən, dünya təcrübəsini, neftlə zəngin ölkələrin keçdiyi yolu dərindən təhlil etmişdi. Almaniya Federativ Respublikasının Azərbaycan Respublikasındakı səfiri Klaus Qrevlixin dediyi kimi: «1994-cü ildə Heydər Əliyev «Əsrin müqaviləsi»nin imzalanması üçün özünün bütün nüfuzundan istifadə etdi, bununla da neft sektorunda canlanmaya nail oldu» [576, 8]. Heydər Əliyev uzaqgörənliyi ilə bildirirdi ki, Azərbaycan Respublikası öz inkişafındakı mənfi meyilləri yalnız neft layihələri vasitəsilə kökündən dəyişə bilər. Millət özünün təbii sərvətlərindən səmərəli surətdə istifadə etməklə uğurlar qazana bilər. Heydər Əliyev «Əsrin müqaviləsi»nin imzalanmasından sonra demişdir: «Mən bu müqavilənin hazırlanmasında və imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər» [10, 262].

Azərbaycan Respublikası və Qərb şirkətləri arasında imzalanmış bu müqavilə postsovet məkanında birinci idi. Prezident deyirdi: «Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk [525, 9-10]. «Əsrin müqaviləsi» Azərbaycana dünya enerji bazarında aparıcı yerlərdən birini tutmağa şərait yaratdı, bütün regionun siyasi-iqtisadi tərəqqisi üçün geniş imkanlar açıldı. Neft şirkətlərinin ardınca respublikaya neft hasilatında infrastruktur yaradılması sahəsində ixtisaslaşan şirkətlər gəldi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 2001-ci ildə Xəzərin Azərbaycan Respublikası sektorundakı yataqların işlənilməsinə dair 21 müqavilə imzalanmışdı. Bu layihələrə 14 ölkənin 33 şirkəti qoşulmuşdu.

1994-cü il dekabrın 12-də «Əsrin müqaviləsi» Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya ediləndən sonra qüvvəyə mindi. Tərəflərin iştirakı payından asılı olmayaraq, müqavilə üzrə Azərbaycan Respublikasının mənfəəti 80%-ə bərabərdir [582, 1].

Müqavilə 30 il müddətinə imzalanıb və ölkəyə 11 mlrd. dollardan artıq sərmayənin cəlb edilməsi nəzərdə tutulurdu. Bu müqavilə ilə Azərbaycanın yeni neft strategiyasının və ölkənin bazar iqtisadiyyatı əsasında dünya birliyinə inteqrasiyasının təməli qoyuldu.

Eyni zamanda bu layihə Şərq-Qərb enerji dəhlizinin yaradılmasının bünövrəsini qoydu. Azərbaycan Respublikasının yeni neft siyasəti nəticəsində, onun neft sahəsi beynəlxalq neft və qaz hasilatı sisteminə daxil oldu. Azərbaycan Respublikası «Əsrin müqaviləsi»ni imzalamaqla, dünyanın aparıcı dövlətlərinin, ilk növbədə, bu müqavilədə şirkətlərinin sərmayə paylarının təxminən yarısına malik olan ABŞ-ın iqtisadi maraqlarını özünə cəlb etdi. «Əsrin müqaviləsi»ni Azərbaycan Respublikasında qloballaşma prosesinin start nöqtəsi hesab etmək olar. Azərbaycan Respublikasının aparıcı dünya şirkətləri ilə imzaladığı neft kontraktları respublikanın qloballaşma proseslərini səciyyələndirən dövlətlərarası və qarşılıqlı surətdə asılı olan münasibətlər sisteminə daxil olmasına imkan yaratdı. Beləliklə, respublika qloballaşma prosesinə qoşuldu.

Heydər Əliyevin yeni neft strategiyası nəinki Azərbaycan Respublikasının inkişafının təminatçısı oldu, eyni zamanda Cənubi Qafqazda geostrateji və geosiyasi vəziyyəti kökündən dəyişdi.

«Əsrin müqaviləsi»nin ən mühüm məsələlərindən biri əsas ixrac boru kəmərinin marşrutunun müəyyən edilməsi idi. Azərbaycan Respublikası öz neftinin Avropa bazarlarına çıxmasında maraqlı idi və 1995-ci ildə Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəmərinin xeyrinə strateji seçimini etdi.

1999-cu il noyabrın 18-də, ATƏT-in İstanbul zirvə görüşündə Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti prezidentləri xam neftin Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəqli barədə hökumətlərarası müqavilə imzaladılar [424, 1999, 26 noyabr]. Eyni zamanda ABŞ prezidentinin iştirakı ilə Azərbaycan Respublikası, Qazaxıstan və Gürcüstan respublikaları, Türkiyə Cümhuriyyəti prezidentləri əsas ixrac boru kəməri layihəsinin qısa müddətdə həyata keçirilməsi haqqında Bəyannamə imzaladılar. 2000-ci il mayın 26-da Azərbaycan Respublikasının Milli Məclisi illik nəqletmə gücü 500 mln. ton olan Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəmərinə dair saziş layihəsini ratifikasiya etdi [557, m. 1647].

Əsas ixrac boru kəməri yalnız kommunikasiya sistemi deyil, Cənubi Qafqazın qloballaşmasında strateji siyasətdir. Heydər Əliyevin dediyi kimi, Bakı-Tbilisi-Ceyhan neft kəməri geosiyasi xarakter daşıyır və dünya proseslərinə təsir edəcəkdir [523, 2006, 1 avqust]. Bu kəmər bütün dünyanın energetika sahəsində yeni standartları cızdı. Boru kəmərinin inşasına 2003-cü ilin aprelində, neftlə doldurulmasına isə 2005-ci il mayın 18-də başlandı. Kəmərin Gürcüstan hissəsinə neft 2005-ci il avqustun 10-da, Türkiyə hissəsinə noyabrın 18-də, Ceyhan terminalına isə mayın 28-də çatdı. Neft kəmərinin 2006-cı il iyulun 13-də istifadəyə verilməsi Azərbaycan Respublikasının yeni neft strategiyası idi.

Avropadan Asiyaya gedən çoxsaylı nəqliyyat magistralları sistemi müvafiq infrastrukturla birlikdə perspektivdə Azərbaycan Respublikası üçün kifayət qədər ciddi imkanlar açan yeni qlobal Avrasiya bazarının formalaşmasına xidmət edəcəkdir. 1993-cü ildə Avropa İttifaqının himayəsi ilə həyata keçirilən Böyük İpək yolu - TRASEKA proqramı qəbul olundu.

ABŞ-dakı erməni diasporunun maraqlarını təmsil edən konqresmenlərin etirazına baxmayaraq, 1999-cu il martın 23-də Konqres «İpək yolu haqqında qanun» layihəsini qəbul etdi. İpək yolu boyunca yerləşən ölkələr Mərkəzi Asiya və Cənubi Qafqazın Qərblə iqtisadi inteqrasiyasına, iqtisadi dirçəlişə, uzun sürən sülhün möhkəmlənməsinə və yeni müstəqil dövlətlərin sabitliyinə kömək etməli idi. Avropa Şurasının köməyi ilə TRASEKA proqramının gerçəkləşdirilməsi Azərbaycanın bölgələrinin də iqtisadi dirçəlişinə zəmin yaratdı. Dünyanın aparıcı dövlətlərinin siyasi və iqtisadi maraqları sisteminə daxil olmuş Azərbaycan Respublikası özünün təhlükəsizliyi və başqa ölkələrlə dinc yanaşı yaşamağın, sivilizasiyalı formalarını yaratmaq üçün beynəlxalq təminat əldə etdi.

TRASEKA proqramının məqsədi hazırda mövcud olan yollarla yanaşı, Avropadan Qara dəniz və Qafqaz vasitəsilə Mərkəzi Asiyaya gedən ən sürətli və ucuz ikitərəfli yol yaratmaqdır.

Heydər Əliyev bu hadisəyə çox böyük əhəmiyyət verirdi. İpək yolunun bərpası böyük tarixi hadisədir. Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu hadisə ilə fəxr edə bilər. Prezident iqtisadi blokadadan çıxmaq üçün

Böyük İpək Yolunun bərpası ideyasından çox məharətlə istifadə etdi [454, 1998, 15 mart].

Möhtərəm prezident dəfələrlə qeyd etmişdir ki, TRASEKA proqramının həyata keçirilməsi xalqların maddi rifahının yaxşılaşmasına gətirib çıxaracaq və bu layihənin gerçəkləşdirilməsində türkdilli dövlətlər aparıcı rol oynayırlar [34]. Böyük İpək Yolunun bərpa olunması üzrə Beynəlxalq konfransın 1998-ci ilin sentyabrında Azərbaycan Respublikasının paytaxtında keçirilməsində Prezident Heydər Əliyevin nüfuzu həlledici rol oynamışdır.

Heydər Əliyev sentyabrın 10-da beynəlxalq konfransın yekunlarına dair geniş müşavirədə demişdir: «Ümidvar olduğumu bildirmək istəyirəm ki, biz proqramın həyata keçirilməsi üçün dəyərli işlər görəcəyik və bu vasitə ilə Avropa ilə Asiya arasında olan inteqrasiya prosesinə öz xidmətimizi göstərəcəyik, Azərbaycanın Avropa–Asiya əməkdaşlığında daha da əhəmiyyətli rolunu təsdiq edəcəyik» [25].

Prezident sonralar da vurğulayırdı ki, TRASEKA proqramının həyata keçirilməsi xalqlarımızın rifahının yüksəlməsinə böyük töhfə verəcəkdir, bu layihənin reallaşmasında türkdilli dövlətlər açar rolunu oynayır. Qloballaşma prosesləri beynəlxalq əlaqələri, iqtisadi, siyasi, informasiya və bir çox başqa sahələrdəki ölkələr arasında asılılığı kəskin surətdə gücləndirdi. Dünya birliyinin tərkib hissəsi olan Azərbaycan Respublikası inteqrasiya qruplaşmalarında iştirakı barədə düşünməyə bilməzdi. Müstəqilliyi əldə edəndən sonra ölkəmiz qısa bir müddət ərzində Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, İslam Konfransı Təşkilatı, Türkdilli dövlətlər Birliyi, Müstəqil Dövlətlər Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat – QUAM, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı, Asiya İnkişaf Bankının və s. qurumların üzvü oldu və Parlamentlərarası İttifaqla, Avropa Parlamenti, NATO və başqa beynəlxalq və regional təşkilatlarla qarşılıqlı surətdə faydalı münasibətlər qurdu.

Bir tərəfdən, Azərbaycan Respublikası üçün Qərb məkanına inteqrasiyanın siyasi-iqtisadi və elmi-texnoloji əhəmiyyəti daima artır, o biri tərəfdən isə, MDB məkanında, habelə türkdilli dövlətlər arasında qarşılıqlı əlaqələrin inkişafı üçün yeni perspektivlər açılır.

Aparıcı enerji və nəqliyyat dəhlizləri regionun başqa dövlətləri ilə müqayisədə Azərbaycan üçün daha çox inteqrasiya imkanlarını təmin etmişdir. Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri kimi qlobal enerji daşıyıcılarının nəqli magistralları işə salınmışdı, regional iqtisadi əməkdaşlığın vacib vəsiləsi olacaq və perspektivdə Qərb və Şərqin genişmiqyaslı əməkdaşlığı üçün imkanlar açacaq Bakı-Tbilisi-Qars dəmir yolunun inşasına başlanmışdır. Azərbaycan Respublikası təbii qazının Gürcüstan, Türkiyə, Yunanıstan və İtaliyaya, sonra isə Avropa İttifaqının digər ölkələrinə tranzitini nəzərdə tutan Nabukko layihəsində ölkəmizə xüsusi əhəmiyyət verilir. Nabukko layihəsi fəaliyyət göstərən Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin davamı olmalıdır.

Azərbaycan Respublikası Qərb iqtisadiyyatına inteqrasiyaya və Qərbin sosial-siyasi dəyərlərini əxz etməyə çalışır. Bütövlükdə, Azərbaycanın qloballaşması ölkənin inkişafına kömək edən müsbət prosesdir, lakin onun çoxsaylı mənfi təzahürləri də vardır. Məsələn, korrupsiya, cinayətkarlıq artır, qeyri-bərabərlik dərinləşir, milli-mədəni sərvətimizə təhlükə yaranır.

Azərbaycan Respublikasının qloballaşma cəmiyyətinə inteqrasiya yolu seçdiyi şəraitdə milli-mədəni sərvətlərin qorunması ilə yanaşı, Qərb iqtisadiyyatı və siyasəti elementlərinin milli xüsusiyyətlərə uyğunlaşdırılaraq tətbiqi çox mühüm vəzifədir. Ölkənin qloballaşma çərçivəsində rəqabətə davamlılığı özünün bənzərsizliyini qoruyub saxlamaqla, dünya iqtisadi məkanında bərabər səviyyədə rəqabət apara bilməkdir.

Artıq bu gün Azərbaycan Respublikasında bir sıra xüsusiyyətləri olan qloballaşmanın konkret nəticələrindən danışmaq olar. Qloballaşmanın müasir mərhələsinə daxil olmaq ərəfəsində respublika texniki təchizatın səviyyəsinə görə xeyli geridə idi. Sosial quruluşun müxtəlifliyi özünü göstərir, planlı sosialist iqtisadiyyatı kapitalist iqtisadiyyatından köklü şəkildə fərqlənirdi.

Dünya kapitalist sisteminə daxil olarkən, pis şəraitdə olan Azərbaycan Respublikası inteqrasiya və qloballaşma yoluna postsovet məkanı ölkələrindən daha əvvəl çıxdı. Bu isə bilavasitə Prezident Heydər Əliyevin xidmətidir, çünki o, əvvəlcədən aydın şəkildə görürdü ki, qloballaşma xeyli dərəcədə dünya inkişafının strategiyasını müəyyən edəcək, iqtisadiyyat isə bütün bu prosesin canıdır.

Azərbaycan Respublikasının qloballaşma prosesində iştirakının ən mühüm aspektləri sırasında neft siyasəti daha çox diqqəti cəlb edir. Azərbaycan Respublikasının qloballaşmaya cəlb olunmasının milli xüsusiyyəti ondadır ki, bu, dövlətin strateji inkişafı üçün şərait yaradan energetikadan başlayır. Heydər Əliyev neft amilindən məharətlə istifadə edərək, dünyanın aparıcı dövlətlərinin, transmilli korporasiyaların diqqətini respublikamıza cəlb etdi və bununla da onun müstəqil dövlət kimi inkişaf imkanlarını genişləndirdi. O, qloballaşmaya uyğun iqtisadi layihələr qəbul etdi, Azərbaycan Respublikası bir çox qlobal nəqliyyat-kommunikasiya layihələrinin iştirakçısı oldu. Özünün təbii sərvətlərinin işlənilməsini və onların dünya bazarlarına çıxarılması yollarını təmin edərək, regional mərkəzlər arasında qarşılıqlı iqtisadi əlaqələr kompleksi yaradaraq, Azərbaycan Respublikası dünya qloballaşma sisteminə qoşuldu.

Qazaxıstan Prezidenti N.Nazarbayevin dediyi kimi, Heydər Əliyev qloballaşma əsrinin bəzən heç də humanist olmayan çağırışları və təhdidlərinə uğurlu cavablar verməyi təmin edə bildi, öz doğma yurdunun qədim tarixini, zəngin mədəniyyətini və milli ənənələrini qoruyub genişləndirdi [530, 370].

Azərbaycan Respublikası öz xüsusi yolunu, özünün orijinal inkişaf modelini seçmişdir. Bu, ölkədə demokratik proseslərin inkişafı, ictimai-siyasi stabilliyin təminatı, dövlətçiliyin möhkəmlənməsi, dünya iqtisadi sisteminə fəal inteqrasiya üçün möhkəm əsas yaratmağa imkan verdi.

Liderin şəxsiyyəti və fəaliyyəti qarşıya qoyulan məsələlərin həyata keçirilməsinə olduqca böyük təsir göstərdi. Heydər Əliyevin liderlik təcrübəsi və intellektual potensialı nəinki son dərəcə mürəkkəb şəraitdə dövlətçiliyimizi yaratdı, həm də ölkəmizi dünya birliyinin üzvü etdi. İllər ötdükcə Heydər Əliyevin irsi daha əhəmiyyətli və qiymətli olur, onun əzəməti daim dərk ediləcəkdir.

Azərbaycan dövləti yeni inkişaf mərhələsinə daxil olmuşdur. Bakı–Tbilisi–Ərzurum qaz kəməri layihəsi başa çatmışdır. Şərq ilə Qərbin əməkdaşlığına imkan verən Bakı–Tbilisi–Qars dəmir yolunun inşasına başlanmışdır. «Energetika» qloballaşmasından əlavə, tədricən siyasi, iqtisadi və sosial-mədəni dəyişikliklərin bütöv bir spektri həyata keçirilir.

Prezident İlham Əliyev ABŞ-ın CNBC telekanalına müsahibəsində Azərbaycan Respublikasının strategiyasının əsas məqamlarını ətraflı şəkildə ifadə etmişdir: «Strategiyamızın əsas məqamları bunlardır: şaxələndirmə və modernləşdirmə, iqtisadiyyatın enerji sahəsindən asılılığının azaldılması və ölkəmizin dayanıqlı inkişafının təmin olunması. Bununla bağlı, müasir texnologiyalar, informasiya-kommunikasiya texnologiyaları, təhsil, əhalinin məşğulluğu, yoxsulluğun azaldılması, səhiyyə və digər sahələr prioritet təşkil edir» [392, 2009, 3 fevral].

4.3. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası: ikitərəfli və çoxtərəfli əlaqələr, beynəlxalq təşkilatlarla əməkdaşlıq

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra xarici siyasət fəaliyyətində dünyanın bütün aparıcı dövlətləri ilə münasibətlər yaratmağa başlamışdır. Müasir Azərbaycan Respublikasının xarici siyasət strategiyasının prioritet istiqamətləri sırasında ABŞ-la ikitərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi mühüm yer tutur.

1991-1992-ci illərdə ABŞ hökuməti müstəqil Azərbaycan Respublikasını hərtərəfli öyrənir, bu dövlətə münasibətdə ABŞ-ın gələcək xarici siyasətinin konturlarını müəyyənləşdirir, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, Azərbaycan–Rusiya, Azərbaycan–İran münasibətlərinin xarakterini, mahiyyətini və perspektivlərini, Birləşmiş Ştatların Cənubi Qafqazda maraq, nüfuz və təsir mexanizmlərinin dayaqlarını araşdırır, strateji planlar qurmaq üçün Dövlət Departamentində bələdçi və məlumat toplusu hazırlayırdı. Məhz bu mərhələdə Azərbaycan Respublikası ABŞ dövləti üçün özünün prinsipial, ardıcıl, dəyişməz müstəqil xarici siyasətini, strateji tərəfdaş olmaq əhəmiyyətini anlatmalı, demokratiyaya, sülhə, insan hüquq və azadlıqlarının qorunması prinsipinə əsaslanan hüquqi dövlət qurmaq əzmini və istəyini sübut etməli, onun müdafiə etdiyi dövlətlər sırasına keçməyə çalışmalı idi.

Lakin hər addımını Moskva ilə razılaşdıran respublikanın o vaxtkı iqtidarı ABŞ-ın bölgədəki iqtisadi və siyasi maraqlarını nəzərə alan

və Azərbaycan Respublikasının müstəqil dövlətçilik və təhlükəsizlik problemlərinin həllini ABŞ-ın (o cümlədən Avropa dövlətlərinin) regionda təmsil olunan maraqları ilə uzlaşdıran xarici siyasət yürütmək əvəzinə, ölkəni beynəlxalq aləmdən təcrid edən və dünyada ictimai rəyin antiazərbaycan istiqaməti almasına zəmin yaradan düşünülməmiş strateji xəttə üstünlük verdi.

1992-ci ilin mayında Azərbaycan Respublikasında baş verən hakimiyyət dəyişikliyindən sonra ABŞ-ın rəsmi dairələri bir daha bu böyük geostrateji əhəmiyyəti olan dövlətlə geniş əlaqələr yaratmağa, bölgədə gedən ictimai-siyasi və hərbi problemlərə fəal müdaxilə etməyə cəhd göstərdilər [246, 163]. Lakin respublikanın yeni rəhbərləri də əvvəlki sələflərindən uzağa gedə və ABŞ-ın bu təşəbbüsünə lazımi qiymət verə bilmədilər. Onlar hesab edirdilər ki, təkcə Azərbaycanın müstəqil dövlətçilik maraqları və Rusiyanın bu bölgədəki təsirini zəiflətmək istəyi Azərbaycanın bütün problemlərinin həllini ABŞ və Avropa dövlətlərinin (xüsusən Türkiyənin) öz üzərinə götürməsi üçün kifayətdir. Ona görə də Azərbaycan ATƏM-in 1992-ci ilin iyulunda, erməni təcavüzünün tüğyan etdiyi bir vaxtda keçirilən Helsinki sammitində nəinki ABŞ-ın dəstəyini qazanmadı, heç Dağlıq Qarabağ problemini və Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü məsələsini sammitin gündəliyinə salınmasına belə nail ola bilmədi [245, 12].

1992-ci ilin iyul–dekabr aylarında Ə.Əliyev (Elçibəy) hakimiyyətinin xarici siyasət sahəsində səriştəsiz fəaliyyəti rəsmi Vaşinqtonun respublikamıza qarşı ciddi sanksiya tətbiq etməsinə gətirib çıxardı. Məhz bu siyasətin nəticəsi və ABŞ-dakı güclü erməni diasporunun təsiri ilə 1992-ci ilin axırlarında ABŞ Konqresi Azərbaycan Respublikasına hər cür yardım göstərilməsini qadağan edən «Azadlığa Dəstək Aktı»na 907-ci düzəliş deyilən sənəd qəbul etdi [282, 61]. Bu, müstəqil dövlət quruculuğu yolunu tutmuş və zorla müharibəyə cəlb edilmiş Azərbaycan Respublikası üçün çox ağır zərbə idi.

Həmin vaxt ABŞ-ın Azərbaycan milli dövlətçiliyi üçün əhəmiyyətini, müstəqilliyimizin və təhlükəsizliyimizin təmin olunmasında rolunu və yaranmış gərginliyin doğura biləcəyi təhlükəli vəziyyəti obyektiv qiymətləndirən Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü ilin yan-

varında ABŞ Prezidenti Bill Klintona məktub göndərdi. Məktubda yenicə prezidentlik fəaliyyətinə başlayan Bill Klintonu təbrik edən Heydər Əliyev ümidvar olduğunu bildirirdi ki, o, müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcək, dünyanın bir çox regionlarında baş verən silahlı münaqişələrin həllinə nail olmaq, Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən blokadaya alınmasını aradan qaldırmaq üçün ABŞ-ın bütün imkanlarından istifadə edəcəkdir [440, 1996, 29 iyul].

Heydər Əliyevin məktubu Ağ evdə dərhal reaksiya doğurdu. 1993-cü ilin yanvarında ABŞ və Rusiya Federasiyası prezidentləri Dağlıq Qarabağ problemi və Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı birgə bəyanat verərək, münaqişənin həlli üçün tezliklə ATƏM-in Minsk konfransının çağırılmasına tərəfdar olduqlarını bəyan etdilər.

Bunun ardınca, 1993-cü il fevralın 4-də ABŞ-ın Azərbaycan Respublikasındakı səfiri Riçard Mayls Naxçıvana getdi. O, Ali Məclisin Sədri Heydər Əliyevlə görüş zamanı ABŞ Prezidenti Bill Klintonun bölgədə yaranmış vəziyyətlə bağlı narahatlığını çatdırmaqla bərabər, Naxçıvan MR-ə təcili humanitar yardım göstərilməsi haqqında Prezidentin qərarı barədə Dövlət Departamentinin humanitar yardımlar üçün proqramının rəhbəri Riçard Armitac tərəfindən göndərilən məktubu təqdim etdi [285, 705–707].

Görüşdə Azərbaycan Respublikasında yaranmış ictimai-siyasi vəziyyət, Ermənistan–Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi, Naxçıvan MR-in blokadası və onun ağır nəticələri haqqında geniş fikir mübadiləsi edilmiş, bütün bu problemlərin həlli yolları aranmışdır. Az keçmədən, Azərbaycana qarşı hər cür yardımı qadağan edən 907-ci düzəlişə baxmayaraq, ABŞ-ın humanitar yardım yüklənmiş təyyarəsi Naxçıvana gəldi [285, 716-717]. Bunun Azərbaycan–ABŞ əlaqələrində gərginliyin yumşaldılmasına və aradan qaldırılmasına yönələn ilk addım kimi gələcək münasibətlərə də müsbət təsiri oldu.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə başlanan Azərbaycan–ABŞ dialoqu tezliklə iki ölkə arasındakı münasibətlərin yaxşılaşmasına müsbət təsirini göstərdi. Azərbaycan Respublikasının xarici siyasəti, o cümlədən ABŞ-la münasibətləri yeni mərhələyə qədəm qoyaraq, məqsədyönlü xarakter aldı və daha ardıcıl surətdə həyata keçirilməyə başladı. Azərbaycan Respublikası Prezidentinin səlahiy-

yətlərini həyata keçirən Ali Sovetin Sədri Heydər Əliyev 1993-cü ilin sentyabrında ABŞ Prezidenti Bill Klinton, vitse-prezident Albert Qor və Konqresin spikeri Tomas Foliyə məktub göndərərək, 907-ci düzəlişin qeyri-obyektiv olduğunu əsaslandırmış və Azərbaycan Respublikası barədə ayrı-seçkiliyin ləğvi üçün tədbirlərin görülməsini xahiş etmişdi [9, 125-126]. Vaşinqton dərhal bu məktuba reaksiya vermiş və öz nümayəndəsini Bakıya göndərmişdi.

1993-cü ilin sentyabr ayında Heydər Əliyev tərəfindən qəbul edilən ABŞ dövlət katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Stroub Talbott Prezident Bill Klintonun cavab məktubunu Azərbaycan rəhbərinə təqdim etdi. ABŞ Prezidenti məktubda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin narahatlıq keçirdiyini bildirməklə bərabər, Azərbaycan Respublikasına edilən son hücumları və bunun nəticəsində bir çox torpaqların işğalını qətiyyətlə pislədiyini bildirmiş, münaqişənin aradan qaldırılması üçün Dağlıq Qarabağda yaşayan ermənilərə və Ermənistan hökumətinə ciddi təzyiqlər göstərilməsi haqqında məlumat vermişdi. Məktubda həmçinin, ABŞ–ın Azərbaycan Respublikasına bundan sonra 907-ci düzəliş qüvvədə qalmaqla, qeyri-hökumət təşkilatları xətti ilə ciddi kömək göstərəcəyinə söz verilirdi [392, 1993, 14 sentyabr].

Həmin ilin oktyabrında Azərbaycan Respublikasının cənub-qərbində erməni silahlı qüvvələrinin hücumu ilə əlaqədar ABŞ Dövlət Departamentinin dərhal bəyanatla çıxış etməsi və hərbi qüvvələrin işğal olunmuş bütün ərazilərdən çıxarılmasını təkidlə tələb etməsi də başlanmış dialoqun və iki ölkə arasındakı yeni münasibətlərin ilkin müsbət əlamətlərini nümayiş etdirirdi.

Bütün bunlar göstərir ki, ermənilərin dörd il müddətində Azərbaycana qarşı məqsədyönlü şəkildə apardıqları xarici siyasətin ağır nəticələri Heydər Əliyevin həyata keçirdiyi ardıcıl diplomatik fəaliyyətin nəticəsində 1994-cü ilin birinci yarısından etibarən aradan qalxmağa başladı. Azərbaycana qarşı hər cür yardımı qadağan edən 907-ci düzəlişə baxmayaraq, bir tərəfdən, Vaşinqtonun qeyri-hökumət təşkilatları xətti ilə Azərbaycana yardım göstərməyə başlaması, digər tərəfdən isə bütün dövlətləri Azərbaycan Respublikasına humanitar yardım etməyə çağırması ermənilərin planlarının baş tutmamasına əyani sübut idi.

Yaranmış münasibətlərin və getdikcə dərinləşən strateji əməkdaşlığın müsbət təsiri nəticəsində 1996-cı ilin yanvarında konqresmen C.Vilsonun təşəbbüsü və ABŞ-ın digər rəsmi dairələrinin dəstəyi ilə Konqresdə «Azərbaycana birbaşa humanitar yardım göstərilməsi haqqında» qanun layihəsi (xatırladaq ki, 1995-ci ilin mayında həmin layihə lazımi qədər səs toplaya bilməmişdi) bəyənildi və erməni lobbisinin ciddi müqavimətinə baxmayaraq təsdiq edildi. Elə həmin gün bu qanun Prezident Bill Klinton tərəfindən imzalandı [440, 1996, 2 fevral].

Bunun ardınca Azərbaycan Respublikasına, onun yeritdiyi daxili və xarici siyasətə, regionda tutduğu mövqeyə və atdığı addımlara bütünlükdə ABŞ-da, onun ayrı-ayrı qurumlarında münasibət əsaslı surətdə dəyişməyə başladı. Heydər Əliyevin üç ilə yaxın yeritdiyi fəal, ardıcıl və məqsədyönlü siyasət, keçirdiyi görüşlər, ABŞ-ın nüfuzlu senatorları, konqresmenləri, siyasi və hökumət xadimləri ilə apardığı danışıqlar, ABŞ-ın neft şirkətləri ilə əməkdaşlıq bu ölkənin Azərbaycana münasibətinin müsbət istiqamətdə dəyişməsinə, Azərbaycan Respublikasının «Amerikanın tərəfdaşı olan» dövlətlər qrupuna daxil edilməsinə gətirib çıxardı.

1996-cı ildə Azərbaycan–ABŞ münasibətləri tərəfdaşlıq və əməkdaşlıq istiqamətində yüksələn xətlə inkişaf etmiş və ATƏT-in Lissabon sammitində Azərbaycan üçün taleyüklü məsələ hesab olunan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prinsiplərini müəyyən edən qərarın qəbul olunmasında ABŞ bir daha öz prinsipial mövqeyini bildirmişdi. Bundan başqa, həmin il ABŞ Senatının bütövlükdə Azərbaycanın dövlətçilik maraqlarına qarşı çevrilmiş «Porter əlavəsi»ni rədd etməsi (25), Konqresi, ABŞ hökumətini Azərbaycan Respublikasının ərazi bütövlüyünün və sərhədlərinin pozulmasına yönəlmiş tədbirlərə qarşı çıxmağa çağırması, ABŞ-ın əksər ictimai-siyasi və dövlət xadimlərinin 907-ci düzəlişə etiraz etməsi və s. Heydər Əliyev diplomatiyasının qələbəsi olmaqla bərabər, həm də iki ölkənin bütün sahələrdə dövlətçilik maraqlarının üst-üstə düşdüyünü bir daha sübut etmişdir.

Azərbaycan–ABŞ münasibətlərinin və əlaqələrinin inkişafında Prezident Bill Klintonun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a 1997-ci il iyulun 27-dən avqustun 7-dək

davam edən rəsmi səfəri böyük rol oynamışdır. Bu səfər özünün bütün əlamətləri və cəhətlərinə görə tarixi əhəmiyyət kəsb etmiş və Azərbaycan–ABŞ münasibətləri tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Azərbaycan Respublikası Prezidentinin səfəri iyulun 28-də Nyu-Yorkda keçirilən görüşlərlə başlanmışdır. Həmin gün Prezident Heydər Əliyev onun üçün ayrılmış iqamətgahda «Wall Street Journal» qəzetinin müxbirlərinə müsahibə vermiş, sonra öz iqamətgahında ABŞ-ın BMT yanında daimi nümayəndəsi Uilyam Riçardson ilə görüşmüşdür [440, 1997, 22 avqust; 440, 1997, 23 avqust].

Avqustun 1-də Ağ evdə keçirilən görüşlər Azərbaycan Respublikası Prezidentinin ABŞ səfərinin zirvəsi hesab olunur. Həmin gün Prezident Bill Klinton ilə Prezident Heydər Əliyev arasında təkbətək görüş keçirildi.

Səfər zamanı prezidentlər iki ölkə arasındakı münasibətlərin əsas strategiyasını, prinsiplərini, xarakterini və perspektiv istiqamətlərini müəyyən edən «Amerika–Azərbaycan münasibətləri haqqında» birgə bəyanat imzaladılar [440, 1997, 12 avqust].

Beləliklə, 1993-cü ilin ortalarından Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində baş verən konstruktiv dəyişikliklər, ABŞ-ın beynəlxalq aləmdəki mövqeyinin strateji baxımdan düzgün qiymətləndirilməsi, münasibətlərin tənzimlənməsi və inkişafı sahəsində müvafiq taktiki gedişlərin ardıcıl surətdə həyata keçirilməsi Azərbaycan–ABŞ münasibətlərinin strateji tərəfdaşlıq istiqamətində inkişafını şərtləndirən normativ-hüquqi bazanın yaradılmasına gətirib çıxardı.

2001-ci ildən – yeni əsrin başlanğıcından Azərbaycan Respublikasının anti-terror koalisiyası tərkibində ABŞ-a göstərdiyi kömək və aparılan məqsədyönlü fəaliyyət ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılması ilə nəticələndi. Bu, Heydər Əliyevin ABŞ-la strateji tərəfdaşlıq istiqamətində gördüyü işlərin müsbət yekunu kimi qiymətləndirilməlidir.

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələri və

dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada, Azərbaycan Respublikasının beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşdırılmasında aparıcı rol oynayan dövlətlərlə, o cümlədən siyasi çəkisinə və iqtisadi potensialına görə beynəlxalq aləmdə özünəməxsus yer tutan Qərbi Avropa ölkələri ilə qarşılıqlı münasibətlərin tənzimlənməsinin böyük əhəmiyyəti vardı.

1993-cü ilin dekabrında Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri Azərbaycan Respublikasının Qərbi Avropa ölkələri ilə əlaqələrində intensiv inkişafın başlanğıcını qoydu. Səfərin gedişində qarşılıqlı maraq doğuran məsələlər hərtərəfli müzakirə olundu, «Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında» müqavilə və digər sənədlər imzalandı [75, 14–25].

Azərbaycan Respublikasının fəal xarici siyasət yeritməsi və Avropa dövlətləri ilə inteqrasiya sahəsində ardıcıl tədbirləri Qərbdə Azərbaycan Respublikasına marağın artmasına səbəb olurdu. Məhz bunun nəticəsində Böyük Britaniyaya rəsmi səfərə dəvət olunan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1994-cü ilin fevralında Londonda bir sıra yüksək səviyyəli görüşlər keçirdi. Müzakirələrin yekunu olaraq iki ölkə arasında «Dostluq və əməkdaşlıq haqqında» Birgə Bəyannamə və başqa ikitərəfli sənədlər imzalandı [75, 110]. Bununla da Azərbaycan Respublikasının Avropa ölkələri ilə inteqrasiyası yolunda növbəti addım atıldı.

1994-cü il sentyabrın 20-də Qərb ölkələri şirkətlərinin geniş təmsil olunduğu konsorsiumda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin imzaladığı «Əsrin müqaviləsi» Avropa dövlətləri ilə Azərbaycan Respublikası arasında əməkdaşlığı yeni səviyyəyə qaldırdı. Bu müqavilənin uğurla həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq mövqelərinin güclənməsinə ciddi təsir göstərmişdir.

Prezident Heydər Əliyevin 1996-cı ilin aprelində Norveçə, iyulunda Almaniya Federativ Respublikasına rəsmi səfərləri qarşılıqlı münasibətlərin daha da dərinləşməsində mühüm rol oynadı. Azərbaycan Respublikası və Norveç Krallığı arasında birgə bəyanat, Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında münasibətlərin əsasları haqqında birgə bəyanat, eləcə də imzalanmış sənədlər

ölkələr arasında qarşılıqlı əlaqələrin normativ-hüquqi bazasını genişləndirdi.

Azərbaycan Respublikası Prezidentinin 1997-ci ildə Fransa, İtaliya, Vatikan və Böyük Britaniyaya, 2001-ci ildə yenidən Fransaya rəsmi səfərlər etməsi, aparılan danışıqlar, imzalanan çoxsaylı sənədlər Qərbdə Azərbaycan Respublikasına artan marağın və onun yüksələn beynəlxalq nüfuzunun təzahürü kimi qiymətləndirilməlidir. Bu fikri təsdiq edən daha bir fakt isə Vatikan Dövlətinin başçısı, Roma Papası II İoann Pavelin 2002-ci ilin mayında Azərbaycana rəsmi səfəri idi. Roma Papasının respublikamıza səfəri Azərbaycan Respublikasının Avropa ilə siyasi, mədəni və mənəvi əlaqələrinin inkişafında mühüm hadisə oldu.

Mərkəzi və Şərqi Avropa dövlətləri ilə ikitərəfli və çoxtərəfli iqtisadi, siyasi və mədəni əlaqələr, qarşılıqlı surətdə faydalı və strateji münasibətlər gənc Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Avropa dövlətləri sırasında Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq tanıyan (11 dekabr 1991-ci il) Rumıniya olmuşdur. Onun ardınca Polşa, Bolqarıstan və başqa Şərqi və Mərkəzi Avropa dövlətləri Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımış və 1992-ci ilin əvvəllərində ölkəmizlə diplomatik münasibətlər yaratmışdı. Lakin 1991–1993-cü illərdə Azərbaycanda bu dövlətlərlə qarşılıqlı münasibətlərin yaradılmasına və beynəlxalq hüquq normalarına uyğun surətdə inkişaf etdirilməsinə lazımi əhəmiyyət verilməmiş, keçmiş dövrlərdə formalaşmış və sosializm düşərgəsinin süqutu ilə pozulmuş iqtisadi və mədəni əlaqələrin yeni prinsiplər əsasında bərpasına səy göstərilməmişdir.

Azərbaycan Respublikasında Mərkəzi və Şərqi Avropa dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın əhəmiyyəti və gələcək perspektivləri yalnız 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklərdən sonra dərk olunmuş və respublikamızın xarici siyasət xəttinə xüsusi bir istiqamət kimi daxil edilmişdir. Polşa, Bolqarıstan, Macarıstan, Rumıniya, Çexiya, Slovakiya və digər Mərkəzi və Şərqi Avropa dövlətlərinin mühüm geostrateji, iqtisadi, siyasi mövqelərini, beynəlxalq və regional siyasətdə həyata keçirdikləri strateji xətti bütün incəlikləri ilə obyektiv qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev onlarla qarşılıqlı münasibətlərin yaradılması

üçün əməli tədbirlərin zəruri olduğu qənaətinə gəlmiş və bu istiqamətdə fəal siyasət xətti yeritmişdir.

Mərkəzi və Şərqi Avropa dövlətləri ilə əlaqələrin digər forması BMT, Avropa İttifaqı, Avropa Şurası, ATƏT, NATO, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı və s. beynəlxalq təşkilatlar çərçivəsində yaradılmış münasibətlərdən ibarətdir. Bu qurumlardakı çoxtərəfli əlaqələrlə yanaşı, Heydər Əliyev əksər hallarda ikitərəfli əlaqələrin, xüsusən dövlətçilik mənafeləri və maraqları ölkəmizin ali mənafeləri ilə uyğun gələn dövlətlərlə tərəfdaşlıq münasibətlərinin yaradılmasına xüsusi diqqət verirdi [246, 238-239].

Azərbaycan Respublikasının xarici siyasətində Asiya qitəsinin böyük və kiçik dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr, bu regionda yaradılmış və müxtəlif sahələr üzrə fəaliyyət göstərən beynəlxalq və regional qurumlarla münasibətlər xüsusi bir istiqamət təşkil edir.

Asiya dövlətlərinin bəziləri (Çin, Yaponiya, Pakistan və s.) Azərbaycan Respublikası ilə sıx tərəfdaşlıq münasibətləri yaratmış və onunla hərtərəfli əməkdaşlıq edir, digərləri (Hindistan, Cənubi Koreya, İndoneziya, İraq, Suriya, İsrail, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Əfqanıstan) ölkəmizlə diplomatik münasibətlər qurmuş və tərəfdaşlıq istiqamətində hərtərəfli iş aparırdı.

Çin Şərqi Asiya ölkələri arasında Azərbaycan Respublikası ilə əlaqələrə xüsusi maraq göstərən ən fəal ölkədir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan bu dövlətlə siyasi və iqtisadi münasibətlərin qurulmasına və inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verirdi. Təsadüfi deyil ki, o, özünün ilk səfərlərindən birini 1994-cü ilin martında məhz bu ölkəyə etmişdi.

Həmin səfər iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin formalaşmasında mühüm rol oynamış və Çin–Azərbaycan birgə bəyanatının qəbul edilməsi ilə nəticələnmişdi [248, 374-380]. Əsası Heydər Əliyev tərəfindən qoyulmuş qarşılıqlı münasibətlər sonrakı dövrdə prioritet istiqamət kimi inkişaf etdirilmişdir.

Şərqi Asiyanın Azərbaycan Respublikası ilə sıx münasibətlər və geniş tərəfdaşlıq əlaqələri yaratmış ikinci ən fəal dövləti Yaponiyadır. Yaponiya Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 28-də tanımış və 1992-ci il sentyabrın 7-də iki ölkə arasında

diplomatik əlaqələr qurulmuşdur. Azərbaycan Respublikasına 1 mln. ABŞ dolları məbləğində humanitar yardım göstərən ilk ölkələrdən biri də məhz Yaponiya olmuşdur (mart 1991-ci il). 2000-ci il yanvarın 21-də Yaponiyanın Azərbaycan Respublikasında səfirliyi, 2002-ci il oktyabrın 1-də isə Azərbaycan Respublikasının Yaponiyada səfirliyi təsis edilmişdir. Ötən müddətdə iki ölkə arasında bir çox dövlətlərarası və hökumətlərarası sənədlər imzalanmışdır. Prezident Heydər Əliyev 1998-ci il fevralın 24–28-də Yaponiyada ilk rəsmi səfərdə olmuş və səfər çərçivəsində Azərbaycan Respublikası ilə Yaponiya arasında 8 sənəd imzalanmışdı [248, 380–384].

Cənubi Asiya dövlətləri içərisində Azərbaycan Respublikasının ən sıx əlaqələri olan və qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ölkə Pakistandır.

Pakistan ölkəmizin müstəqilliyini tanıyan (12 dekabr 1991-ci il), onunla diplomatik əlaqələr yaradan (9 iyun 1992-ci il) və Azərbaycan Respublikasında səfirliyini açan (12 mart 1993-cü il) ilk müsəlman dövlətlərindən biridir. Ümumiyyətlə, Azərbaycan Respublikasına ən yaxın və dost ölkələrdən biri olan Pakistan ölkəmizin mənafeyini bütün beynəlxalq təşkilatlarda ardıcıl müdafiə etmiş, Ermənistanın təcavüzünə birmənalı münasibət bildirmişdir. Xatırladaq ki, 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasına dair 822 nömrəli qətnaməsinin qəbul olunduğu iclasa Pakistan sədrlik etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın o vaxtkı Baş naziri Bənazir Bhutto ilə görüşündən sonra ikitərəfli münasibətlər daha yüksək səviyyəyə çatmışdı. 1995-ci ilin oktyabrında Pakistan Prezidenti Sərdar Faruk Əhməd Xan Leqari Bakıda rəsmi səfərdə olmuş, 1996-cı ilin aprelində isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev dost ölkəyə səfər etmişdir. Səfərlər zamanı iki ölkə arasında dostluq və əməkdaşlıq haqqında müqavilə, habelə iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün bir neçə saziş imzalanmışdır. Pakistan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycan Respublikasının haqq işini müdafiə etdiyi kimi, Azərbaycan Respublikası da Kəşmir probleminin həlli ilə bağlı bu ölkənin atdığı addımları dəstəklədiyini dəfələrlə bəyan etmişdir.

1997-ci ildə Azərbaycan Respublikası Pakistan İslam Respublikasında öz səfirliyini açmış və rəsmi İslamabadla münasibətləri bir qədər də fəallaşdırmışdır [248, 389–392].

Asiya qitəsinin mühüm bir geosiyasi bölgəsi siyasi ədəbiyyatda Yaxın və Orta Şərq adlanır. Bu bölgə öz əhali və ərazi xarakteristikasına görə daim böyük dövlətlərin maraq dairəsində olmuşdur. Yaxın və Orta Şərq dünyanın həm də ən böyük enerji və xammal (neft, qaz və s.) ehtiyatına malik regionudur. Yaxın və Orta Şərq ölkələri (İsrail istisna olmaqla) müsəlman dövlətləridir və yeni dünya nizamında bu amil də beynəlxalq münasibətlərin əsas problemlərindən biri kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının xarici siyasətində Yaxın və Orta Şərq ölkələri ilə münasibətlər də xüsusi əhəmiyyət kəsb edir. 1993-cü ildən başlayaraq, bu regionun həm müsəlman ölkələri – İran, Səudiyyə Ərəbistanı, Suriya, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya və başqaları, həm də İsraillə münasibətlər ikitərəfli və çoxtərəfli əməkdaşlıq çərçivəsində kifayət qədər geniş olmuşdur.

Ərəb dünyasının və müsəlman aləminin ən nüfuzlu ölkələrindən biri Səudiyyə Ərəbistanı Krallığıdır. Təsadüfi deyil ki, Prezident Heydər Əliyev müsəlman dövlətləri arasında üçüncü (Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasından sonra), ərəb dövlətləri arasında isə birinci səfərini məhz bu ölkəyə etmişdi. 1994-cü ilin aprelində Azərbaycan Respublikası keçmiş Sovet İttifaqının müstəqillik qazanmış müsəlman dövlətləri arasında birinci olaraq Krallıqda öz səfirliyini açmışdır. Həmin il iyulun 9-da bu ölkəyə səfərə yola düşərkən jurnalistlərə müsahibə verən Azərbaycan Respublikası Prezidenti demişdir: «İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı Məlikinin dəvətini qəbul etmişəm və indi səfərə gedirəm... Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm» [248, 399].

Heydər Əliyev Səudiyyə Ərəbistanında olarkən İki Müqəddəs Ocağın Xadimi, Kral Fəhd ibn Əbdüləziz əl-Səudla, İslam Konfransı

Təşkilatının (İKT), (İslam İnkişaf Bankının) rəhbərləri və digər rəsmi şəxslərlə danışıqlar aparmış, Məkkə və Mədinə şəhərlərini ziyarət etmişdi. Səfər zamanı Azərbaycanla Səudiyyə Ərəbistanı arasında iqtisadiyyat, ticarət, investisiya, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair beş saziş imzalanmış, səfərin yekunlarına dair birgə bəyanat qəbul olunmuşdu.

Səudiyyə Ərəbistanı Ermənistanın hərbi təcavüzü ilə əlaqədar BMT, İKT və digər beynəlxalq və regional təşkilatlarda Azərbaycan Respublikasının mövqeyini daim dəstəkləyir.

1999-cu ilin iyununda Azərbaycan Respublikasında Səudiyyə Ərəbistanı Krallığının səfirliyi fəaliyyətə başlamışdır. Rəsmi Ər-Riyad Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyir və dəfələrlə bildirmişdir ki, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi həll olunmayınca, Ermənistan Respublikası ilə heç bir siyasi, iqtisadi və mədəni əlaqə qurmayacaqdır [248, 397–401].

Azərbaycan Respublikasının xarici siyasətində mühüm diqqət verilən Yaxın və Orta Şərq ölkələrindən biri də İsraildir. Bu ölkə dünyada ABŞ-ın dostu və müttəfiqi kimi böyük nüfuza və dəstəyə malik olmaqla bərabər, həm də dünyada çox böyük gücü olan yəhudi lobbisinin xüsusi himayəsinə malikdir. Azərbaycan Respublikası İsrail dövlətinin Qərblə, xüsusən ABŞ-la olan yaxın əlaqələrindən, yəhudi lobbisinin dəstəyindən də bəzi milli problemlərin həllində (Dağlıq Qarabağ və s. məsələlər) istifadə etməyə çalışır.

1998-ci ildə İsrailin Baş naziri B.Netanyahu yolüstü Bakıda olarkən Prezident Heydər Əliyevlə iki ölkə arasındakı əlaqələrin kompleks istiqamətləri müzakirə olunmuş və bəzi razılaşmalar haqqında qərar qəbul edilmişdi.

1999-cu ildə İsrail Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin, habelə İsrail müdafiə nazirinin müavini general Efraim Sineyin Bakıya səfəri olmuşdur. İkitərəfli əlaqələrin möhkəmlənməsi Azərbaycana Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində İsrailin dəstəyini qazanmağa imkan vermişdir. Təsadüfi deyil ki, ABŞ-dakı yəhudi lobbisi məlum «907-ci düzəliş»in ləğvi məsələsində Bakını ən fəal dəstəkləyən strukturlardan biridir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinə nail olduğu vaxtdan bu günə qədər Afrika ölkələri ilə müxtəlif səpkili əlaqələr qu-

rulmuş, konkret görüşlər keçirilmiş və müzakirələr aparılmış, dövlətlərarası münasibətləri tənzimləyən normativ-hüquqi sənədlər imzalanmışdır. Bu əlaqələr daha çox qitənin müsəlman ölkələri – Misir Ərəb Respublikası, Əlcəzair Xalq Demokratik Respublikası, Qambiya, Liviya, Mərakeş, Mavritaniya, Qəmər Adaları Birliyi, Sudan və Seneqalla qurulmuşdur.

1994-cü ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin Əhali və İnkişaf üzrə beynəlxalq konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olarkən Misir Prezidenti Hüsni Mübarəklə keçirilən görüş Azərbaycan–Misir münasibətlərinin möhkəmləndirilməsi və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsində böyük rol oynamışdır.

Afrikanın Əlcəzair, Mərakeş, Sudan, Tunis kimi müsəlman ölkələri ilə Azərbaycanın əməkdaşlığı, əsasən, BMT və İKT çərçivəsində inkişaf etdirilir.

İstiqlaliyyət əldə etmiş hər bir ölkə özünün suveren hüquqlarını qorumaq, dövlət müstəqilliyini möhkəmləndirmək, beynəlxalq münasibətlər sistemində layiqli yer tutmaq və meydana çıxmış münaqişələri həll etmək üçün ardıcıl və prinsipial xarici siyasət yeridərək, qonşu ölkələr və dünyanın nüfuzlu dövlətləri ilə yanaşı, onların təmsil olunduğu bütün beynəlxalq və məhəlli təşkilatlarla da geniş əməkdaşlıq əlaqələri qurmağa ehtiyac duyur. Məhz buna görə də dünya birliyinə tamhüquqlu üzv kimi daxil olmağa çalışan, müstəqilliyinin ilk kövrək addımlarını atan və Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində beynəlxalq və məhəlli təşkilatlarla (BMT, Avropa Şurası, ATƏT, İKT, NATO və s.) əlaqələrin yaradılması və inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edirdi.

BMT ilə qarşılıqlı əlaqələrin inkişafı özünün dinamizmi, miqyası və dərinliyi baxımından iki mərhələyə bölünür. Azərbaycan Respublikasının BMT üzvlüyünə daxil olduğu 1992-ci ilin mart ayından 1993-cü ilin ortalarına qədər dövrü əhatə edən birinci mərhələdə qarşılıqlı münasibətlərin qurulması sahəsində ilk addımlar atılmış, Nyu-York və Bakıda nümayəndəliklər fəaliyyətə başlamış, Azərbaycan üçün aktual və ağrılı məsələlər, xüsusilə Ermənistanın təcavüzü və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər BMT-nin müzakirəsinə çıxarılmış, bu

mötəbər tribunadan Azərbaycan Respublikasında cərəyan edən hadisələrə münasibət bildirilmişdir.

1993-cü ilin ortalarından sonrakı ikinci mərhələdə BMT ilə əlaqələr, əvvəlki illərdən fərqli olaraq, sistemli şəkildə həyata keçirilməyə başlamış, fəal və ardıcıl xarakter almışdır. Azərbaycan Respublikasında milli dövlətçilik maraqları üzərində qurulmuş xarici siyasət konsepsiyasının işlənib hazırlanması və tarazlaşdırılmış, çoxşaxəli diplomatik fəaliyyətin həyata keçirilməsi BMT ilə əlaqələrin yeni səviyyəyə yüksəlməsinə, daha geniş və məqsədyönlü şəkil almasına səbəb olmuşdur.

BMT-də aparılan diplomatik iş respublikamızın mənafelərinin daha dolğun ifadə olunması və qorunması sahəsində ilk ciddi addımların atılmasına imkan verdi. Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü və onun aradan qaldırılması ilə bağlı məsələlər müntəzəm olaraq BMT Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarılmış, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təsdiqləyən, işğalçı qoşunların zəbt olunmuş ərazilərdən qeyd-şərtsiz çəkilməsini və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılmasını tələb edən 1993-cü il 30 aprel tarixli 822 nömrəli, 29 iyul tarixli 853 nömrəli, 14 oktyabr 1993-cü il tarixli 874 nömrəli və 11 noyabr tarixli 884 nömrəli dörd qətnamə qəbul edilmişdir. Bu qətnamələrin qəbul edilməsi üçün Azərbaycan BMT-nin üzvü olan dövlətlərlə intensiv müzakirələr aparmış və onları öz mövqeyinin haqlı olduğuna inandırmışdır.

İldən-ilə genişlənən əlaqələr Azərbaycan Respublikası Prezidentinin BMT Baş Məclisinin sessiyalarında və digər iclaslarında iştirakı və keçirdiyi çoxsaylı görüşlərlə daha da inkişaf etmişdir. Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak edərək, bu mötəbər beynəlxalq təşkilatın tribunasından bir çox qlobal məsələlərlə bağlı Azərbaycan Respublikasının mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır.

Azərbaycan Respublikasının BMT ilə əməkdaşlığının dərinləşməsində BMT-nin Baş katibi Butros-Qalinin 1994-cü ilin oktyabrında Bakıya səfəri mühüm rol oynamışdır. Azərbaycan Respublikasının ictimai-siyasi və iqtisadi həyatı, Ermənistanın təcavüzünün ağır nəticələri ilə yaxından tanış olan B. Butros-Qali mövcud problemlərin

həllində Azərbaycan Respublikasını dəstəkləmək üçün BMT-nin müxtəlif təşkilatlarının öz səylərini artıracağını bildirmişdi.

BMT ilə əlaqələrin intensiv inkişafına xüsusi əhəmiyyət verən Azərbaycan bu təşkilatın müxtəlif beynəlxalq toplantılarında müntəzəm iştirak edir, irəli sürdüyü ideya və təkliflərə fəal münasibət bildirir.

1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı Baş Məclisin xüsusi təntənəli iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək, Azərbaycan dövlətinin mövcud qlobal problemlərə dair prinsipial mövqeyini açıqlamış, habelə Ermənistanın təcavüzünün aradan qaldırılması üçün beynəlxalq səylərin artırılmasına çağırmışdır.

2000-ci ilin sentyabrında BMT-nin Minilliyin sammitində çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair ölkəmizin mövqeyini bir daha bildirmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

2001-ci il sentyabrın 11-də ABŞ-da baş vermiş terror aktlarından sonra Azərbaycan Respublikası BMT-nin keçirdiyi beynəlxalq antiterror tədbirlərində fəal iştirak edir. Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının Terrorizmə Qarşı Komitəsi və Əfqanıstanla bağlı sanksiya komitəsi ilə sıx əməkdaşlıq edərək, terrorizmlə mübarizə sahəsində həyata keçirdiyi tədbirlər barədə öz hesabatlarını təqdim etmişdir [248, 437 –451].

Azərbaycan Respublikası 1992-ci il yanvarın 20-də ATƏT-in (o vaxt ATƏM) üzvlüyünə qəbul edilmiş və həmin il iyulun 10-da onun sənədlərini imzalamışdır. 1994-cü ilin dekabr ayında keçirilmiş Budapeşt sammiti ATƏM-in tarixində mühüm bir dövrün başlanğıcını qoydu. Əgər 1990-cı il «Paris Xartiyası» bu təşkilatın fəaliyyətinə yeni məzmun verdisə və Avropada «Soyuq müharibə»yə son qoydusa, Budapeşt sammiti həmin yeni məzmunu reallaşdırdı. Bu sammitə qədər təşkilat Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi adlanırdısa və onun fəaliyyəti məsləhətləşmə üzərində qurulurdusa, Budapeştdə

o, əsl ümumavropa təşkilatına (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı – ATƏT) çevrildi. ATƏT, əslində, ABŞ, Kanada və Rusiyanın qalan bütün Avropa dövlətləri ilə birgə təşkilatı olmaq etibarilə yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, ümumavropa təhlükəsizliyi mexanizmlərini yaradan və ümumdünya təhlükəsizliyi ilə əlaqələndirən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı maraq istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını daşıyır. Getdikcə dövlətlərin ən nüfuzlu və nümayəndəli forumuna çevrilən bu beynəlxalq qurum yeni Avropada demokratiya və insan hüquqlarının, regional təhlükəsizlik və qarşılıqlı əməkdaşlığın əsas müdafiəçisinə və qurucusuna çevrilir.

Azərbaycan Respublikasının haqlı mövqeyinin dünya birliyinə çatdırılması, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli yolunda ATƏT-in Budapeşt (1994) və Lissabon (1996) sammitlərində qəbul olunmuş sənədlər böyük əhəmiyyət kəsb edir.

Regional təhlükəsizliyin təmin edilməsində, Avropanın təhlükəsizlik sisteminə inteqrasiya olunmasında, beynəlxalq əməkdaşlığın inkişafında, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunda Qərbin sınaqdan keçmiş qabaqcıl təcrübəsindən bəhrələnərək, onun səmərəli surətdə tətbiq olunmasında ATƏT ilə əməkdaşlıq edən Azərbaycan Respublikası bu təşkilatla əlaqələrini daha da dərinləşdirməklə özünün strateji inkişaf yolunu davam etdirir.

Azərbaycan Respublikasının demokratik transformasiyasında ən ardıcıl və məqsədyönlü iş aparan təşkilat isə Avropa Şurası hesab olunur.

Hökumətlərarası və parlamentlərarası siyasi təşkilat olan Avropa Şurasına Azərbaycan Respublikası hələ 1992-ci ildə qonaq statusu almaq üçün müraciət etsə də, bu məsələ öz müsbət həllini tapmamışdı. Belə ki, həmin dövrdə Avropa Şurasının özü Cənubi Qafqaz regionuna qədər genişlənməyə hazır deyildi. Üstəlik, bu təşkilatın ölkəmizə qeyri-obyektiv münasibəti də özünü göstərirdi və hətta 1992-ci ildə Avropa Şurasının qeyri-üzv ölkələr üzrə komitəsi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar respublikamızın əleyhinə bəyannamə qəbul etmişdi. Belə bir şəraitdə, ilk növbədə, Avropa Şurasında Azərbaycan Respublikasının obyektiv, düzgün imicini formalaşdırmaq lazım idi.

1993-cü ilin ikinci yarısından Azərbaycan xalqı müstəqil dövlətçiliyini inkişaf etdirərək, öz tarixi seçimini etmiş, Avropa dəyərləri, normaları və standartları əsasında hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması yolunu tutmuşdur. Məhz həmin ildən etibarən Azərbaycan Respublikasının xarici siyasətində Avropa Şurasına daxil olmaq istiqamətində həyata keçirilən kompleks tədbirlər müstəqil Azərbaycan Respublikasının dünyəvi dövlət quruculuğu sahəsində bu qurumdan öyrənmək meyillərini daha bariz şəkildə büruzə verirdi.

Bu dövrdə Prezident Heydər Əliyevin beynəlxalq aləmdə cərəyan edən proseslərə incə və praqmatik yanaşma tərzi və Azərbaycan Respublikasının vahid Avropa ailəsinə daxil olması istiqamətində apardığı məqsədyönlü siyasəti nəticəsində Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv olması üçün zəmin yaradıldı. Ölkənin beynəlxalq fəallığının güclənməsi, ictimai həyatın hərtərəfli demokratikləşdirilməsi sahəsində inamlı addımların atılması, Ermənistanla münaqişədə Azərbaycan Respublikasının hərbi əməliyyatların dayandırılması və atəşkəsin əldə edilməsinə yönəlmiş fəaliyyəti Avropa Şurası ilə yaxınlaşma prosesinə zəruri impulslar verdi. 1994-cü ilin mayında Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəsin əldə edilməsi Avropa Şurası ilə əməkdaşlıq üçün yeni üfüqlər açdı.

Qısa müddət ərzində Azərbaycan Respublikasında demokratik dəyərlərin bərqərar olması və inkişaf etdirilməsi, insan hüquqları və əsas azadlıqlarının təmin olunması sahəsində nəzərə çarpan nailiyyətlər əldə edildi. 1995-ci ildə referendum yolu ilə qəbul edilən, insan hüquq və azadlıqlarını özündə əks etdirmək baxımından ən yüksək norma və standartlara cavab verən müstəqillik dövrünün ilk Konstitusiyası Azərbaycan cəmiyyətinin irəliyə doğru inkişafının bünövrəsini qoydu.

Məhz bu uğurların məntiqi nəticəsi kimi, 1996-cı il iyunun 28-dən etibarən Azərbaycan Respublikasının Avropa Şurasında xüsusi dəvət olunmuş qonaq statusunda iştirakı milli qanunvericiliyimizin Avropa standartları səviyyəsinə yüksəldilməsinin işlək mexanizmini hazırlamağa imkan verdi. Prezident Heydər Əliyevin 1996-cı il iyulun 8-də «Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında», 1998-ci il yanvarın 20-də

«Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında», 1999-cu il mayın 14-də «Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında» imzaladığı sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə zəmin yaratmış oldu.

Bu sərəncamlarda Avropa ölkələrində hamılıqla qəbul edilmiş standartlara və normalara uyğunluq baxımından Azərbaycan Respublikasında cinayət, cinayət-prosessual, mülki və mülki-prosessual məcəllələrin, digər məcəllələrin hazırlanmasının sürətləndirilməsi, respublikamızın Avropa Şurasının bir sıra konvensiya və sazişlərinə qoşulması məsələsinin öyrənilməsi tövsiyə edilmişdi. Həmin tövsiyələrə uyğun olaraq, çox qısa müddətdə bu məcəllələr və hüquq mühafizə orqanları ilə bağlı qanunların, demək olar ki, hamısı Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul olunmuşdu.

2000-ci il iyunun 28-də Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyasında Nazirlər Komitəsinə Azərbaycan Respublikasını Avropa Şurasının tamhüquqlu üzvü seçmək tövsiyə edildi. Nazirlər Komitəsinin məsələ ilə bağlı iclaslarında respublikamızın Avropa Şurasına qəbul olunması barədə səmərəli fikir mübadiləsi aparılmış, müvafiq tövsiyələr verilmişdi.

Nəhayət, 2001-ci ilin yanvarında Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmuş və bununla da Azərbaycan diplomatiyası Avropaya inteqrasiya proseslərinə qoşulmaq uğrunda mübarizədə böyük qələbə əldə edərək, Avropanın üzvi hissəsinə çevrildiyini işdə sübut etmişdir.

Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi yeni əsrin əvvəllərində xalqımızın taleyində baş verən ən mühüm hadisələrdən biridir. Ölkəmizin Avropa xalqlarının demokratik ailəsinə inteqrasiyasını reallığa çevirmiş bu hadisə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyəti yaradılması, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi sahəsində görülən nəhəng işlərin məntiqi nəticəsi olmuşdur.

Avropa Şurası ilə əməkdaşlığı günbəgün gücləndirən Azərbaycan Respublikası bu təşkilatın fəaliyyətində Avropada və dünyada

insan hüquqlarının qorunması, demokratik proseslərin inkişaf etdirilməsi, dövlətlərarası münasibətlərdə bərabərlik, qlobal problemlərin həllinə yardım göstərmək, təşkilatın tamhüquqlu üzvü olaraq öz üzərinə götürdüyü öhdəliklərə vicdanla əməl etmək kimi prinsiplərini həmişə rəhbər tutur.

Beləliklə, Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması prosesi xeyli vaxt aparsa da, bəzi qüvvələrin müqavimətinə rast gəlsə də, Heydər Əliyevin prinsipial və ciddi siyasəti Azərbaycan Respublikasının bu təşkilatda təmsil olunmaq arzusunu gerçəkləşdirdi. Bu hadisə beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndirilməsinə səbəb oldu.

Hazırda Azərbaycan beynəlxalq təşkilatlarla həyata keçirilən münasibətlərin nizamlanması prosesində ən önəmli və xüsusi diqqət yetirilən sahə Avropa Şurası ilə əlaqələrdir. Hələ ki, bu qurum Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi faktını İslam Konfransı Təşkilatından sonra tanıyan yeganə beynəlxalq təşkilat olaraq qalmaqdadır [248, 461–481].

Dünyanın əsas güc və siyasət mərkəzlərindən biri son zamanlar iqtisadi, siyasi və sosial birlik modelinə çevrilən Avropa İttifaqıdır (Aİ).

Avropa İttifaqının əsasında «ümumi Avropa evi», «vahid Avropa» ideyası dayanır. Buna müvafiq olaraq, üzv dövlətlərdə əvvəl vahid tarif və azad ticarət yolunda bütün milli sədlər yığışdırılır. Sonra İttifaq çərçivəsində vahid iqtisadi, siyasi və valyuta məkanı yaradılır, vətəndaşların ümumi sərhədlər çərçivəsində azad hərəkəti, vizasız gediş-gəlişi təmin edilir.

Azərbaycan Respublikası ilə Aİ arasındakı əlaqələr də məhz belə proqramlar çərçivəsində müxtəlif sahələr üzrə: iqtisadi və sosial islahatlara yardım, Şərq–Qərb nəqliyyat-kommunikasiya dəhlizinin (TRASEKA) yaradılması, infrastrukturların inkişafı və s. istiqamətlərdə aparılır.

1993-cü ildən Azərbaycan Respublikası Avropa İttifaqı ilə münasibətlərdə maraqlı olduğunu bəyan etmiş və onunla müxtəlif sahələrdə əlaqələr qurmağa başlamışdır.

1996-cı ildə Prezident Heydər Əliyev Aİ-nin «Tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş»ni imzalamış və Azərbaycan Respublikasının bu qurumla rəsmi əlaqələrini yaratmışdır. Bu çərçivədə

Avropa İttifaqının Azərbaycan Respublikasında bazar iqtisadiyyatı münasibətlərinin inkişaf etdirilməsi məqsədilə bəzi struktur islahatlarının aparılmasına, özəlləşdirmə proqramına, infrastruktur layihələrinin reallaşmasına maddi və texniki yardımları nəzərdə tutulmuşdur. Təkcə 2001-ci ilə qədər Avropa İttifaqı bu proqram çərçivəsində 100 milyon avrodan çox vəsait ayırmışdır.

Avropa İttifaqı Azərbaycan Respublikası ilə əlaqələrini təkcə həm də Cənubi Qafqazda həyata keçirilən ümumi regional əməkdaşlıq layihəsi, Avrasiya bölgəsində sülhün, sabitliyin və iqtisadi tərəqqinin təmin olunmasına yönəlmiş digər proqramlar çərçivəsində də reallaşdırır.

1993–2004-cü illər ərzində Avropa İttifaqı Avrasiya, xüsusən Cənubi Qafqaz ölkələri arasında əməkdaşlığa yardım çərçivəsində Azərbaycana ayırdığı maddi-texniki yardımdan əlavə, həm də fövqəladə və humanitar yardım, bərpa, texniki layihə, struktur islahatları və s. proqramlar xətti ilə yüz milyon avroluqdan çox işlər görmüşdür. İttifaqın İNOGATE, ECHO və başqa proqramları ölkəmizdə ciddi layihələri maliyyələşdirir [248, 481–500].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun beynəlxalq münasibətlərdə yeni rolunu və dünya siyasətində yeni meyilləri nəzərə alaraq, NATO proqramında iştirak etmək haqqında prinsipial qərar verdi. Suveren dövlət kimi Azərbaycan öz potensialını və mənafelərini əsas tutaraq, 1994-cü il mayın 4-də «Sülh naminə tərəfdaşlığın çərçivə sənədi»ni imzaladı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin NATO baş katibinin müavini Serco Balansino ilə görüşü zamanı tərəflər belə bir yekdil fikrə gəldilər ki, silahlı münaqişələrin dayandırılması və sülhün bərqərar olmasında «Sülh naminə tərəfdaşlıq» proqramı mühüm rol oynaya bilər.

Prezident Heydər Əliyev NATO-nun iqamətgahında sənədlərin imzalanmasından sonra keçirdiyi mətbuat konfransında bildirmişdir ki, «Sülh naminə tərəfdaşlıq» sənədinin imzalanması Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Gənc müstəqil dövlət kimi Azərbaycan Respublikasının bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Regionda hərbi münaqişə olduğunu nəzərə alaraq, Azərbaycan bu proqrama böyük ümidlər bəsləyir. Azərbaycan Respublikasının «Sülh naminə tərəfdaşlıq» proq-

ramına qoşulması Azərbaycan Respublikası ilə NATO-nun üzvü olan dövlətlər arasında əlaqələrin genişlənməsinə kömək edəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti Ermənistanın ölkəmizə qarşı təcavüzü probleminə toxunaraq demişdir ki, NATO-nun üzvləri hər hansı dövlətin ərazi bütövlüyünün və siyasi müstəqilliyinin zərərinə olaraq güc tətbiq etməkdən imtina etmək haqqında öhdəliklərini, habelə mövcud sərhədlərə hörmətlə yanaşmağa və mübahisələri dinc vasitələrlə həll etməyə tərəfdar olduqlarını təsdiq etdilər. NATO-nun üzvü olan dövlətlərin bu mövqeyi müstəqil Azərbaycan Respublikasının maraqlarına cavab verir.

Beləliklə, «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmaqla, Azərbaycan hər şeydən əvvəl, ən güclü hərbi-siyasi blokla əməkdaşlıq tellərini möhkəmləndirdi, həmçinin NATO-nun simasında güclü və etibarlı tərəfdaş qazandı.

NATO ilə Azərbaycan arasında qarşılıqlı münasibətlər 1994-cü ilin iyununda Azərbaycan nümayəndə heyətinin Şimali Atlantika Əməkdaşlığı Şurasının sessiyasında iştirakı ilə bir qədər də inkişaf etdirilmişdir. Səfər zamanı Ermənistanın Azərbaycan Respublikasına təcavüzü və onun nəticələri haqqında geniş məlumat verilmiş və bu problem qəbul olunmuş bəyanatın «Regional münaqişələr» hissəsində öz əksini tapmışdır. Bəyanatda belə bir prinsipial müddəa ifadə olunmuşdu ki, bütün dövlətlərarası münaqişələr dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həll edilməlidir.

1995-ci ildə NATO-nun Verifikasiya Komitəsinin sədri Necil Nədimoğlunun başçılıq etdiyi nümayəndə heyəti təşkilatın müxtəlif rəhbər strukturlarının təmsilçiləri ilə birgə ölkəmizdə səfərdə olmuşdu. Səfər zamanı NATO ilə ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilmiş, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunmasının və bölgədə sülh yaradılmasının vacibliyi vurğulanmışdı.

Ölkəmizin nümayəndə heyətlərinin NATO-nun müxtəlif tədbirlərində iştirakı ilə yanaşı, alyansın müxtəlif səviyyəli nümayəndələrinin Azərbaycan Respublikasına səfərlərini də əməkdaşlığın genişlənməsi və inkişafı formaları kimi qəbul etmək olar. 1995-ci il iyunun 7-də Prezident Heydər Əliyev Bakıda NATO silahlı qüvvələrinin Avropa üzrə komandanının müavini general Ç.Makkenzini qəbul et-

mişdir. Azərbaycan Respublikası ilə NATO arasında münasibətlərin inkişafından məmnun qaldığını bildirən general Makkenzi demişdi ki, Şimali Atlantika İttifaqı Azərbaycan Silahlı Qüvvələrinin qurulmasında və təkmilləşdirilməsində əhəmiyyətli rol oynaya bilər. O, xüsusi vurğulamışdı ki, ordu hər bir dövlətin atributudur və Azərbaycan da layiq olduğu orduya malik olmalıdır.

İlk dəfə olaraq bu görüşdə NATO-nun rəsmi nümayəndəsi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi və regionda sülhün təmin olunmasının zəruriliyini bildirmişdi.

1996-cı il aprelin 22-də Azərbaycan Respublikası və Avropa İttifaqı arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasının NATO ilə əlaqələrin dərinləşməsində çox böyük əhəmiyyəti olmuşdur. Azərbaycan Respublikasının xarici siyasətinin parlaq səhifələrindən biri kimi qiymətləndirilən və müstəqil dövlətimiz üçün tarixi əhəmiyyəti olan bu müqavilə Azərbaycanın Avropa strukturları və təsisatları ilə əlaqələrinin genişlənməsi və dərinləşməsi üçün hüquqi baza rolunu oynayır.

Aprelin 23-də Azərbaycan Respublikasının Prezidenti Brüsseldə NATO-nun qərargahında təşkilatın baş katibi Xavyer Solana ilə görüşdü. Söhbət zamanı NATO-nun baş katibi bildirdi ki, Cənubi Qafqazda baş verən hadisələri diqqətlə izləyir, Azərbaycan Respublikasının müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsində Prezident Heydər Əliyevin fəaliyyətini yüksək qiymətləndirir. Görüşdə belə bir ümumi fikir səsləndi ki, Qafqazda sülh və sabitlik region dövlətlərinin gələcək əməkdaşlığının və xalqların rifahının stimuludur. Bununla əlaqədar NATO-nun baş katibi üç Cənubi Qafqaz dövləti tərəfindən Avropa İttifaqı ilə tərəfdaşlıq və əməkdaşlıq müqavilələrinin imzalanmasını və Azərbaycan Respublikası ilə Ermənistanın birgə bəyanat qəbul etməsini yüksək qiymətləndirdi. Azərbaycan Respublikasının Şimali Atlantika İttifaqı ilə əməkdaşlığını təsdiqləyən və şərtləndirən «Təqdimat sənədi» görüş zamanı X.Solanaya təqdim edildi. Ölkənin hərbi struktur rəhbərlərinin də iştirak etdiyi həmin görüşdə Azərbaycan Respublikasının gələcəkdə NATO ilə əməkdaşlığı barədə məsələlər müzakirə olunmuşdu.

1994–1996-cı illərdə əsası qoyulmuş və inkişaf etdirilmiş Azərbaycan–NATO əlaqələri sonrakı dövrdə qarşılıqlı münasibətlərin daha

da intensivləşdirilməsi üçün əlverişli baza rolunu oynadı. Məhz həmin illərdə münasibətlərin hüquqi cəhətdən tənzimlənməsi və bir sıra praktik addımların atılması NATO-nun Azərbaycan Respublikası ilə əməkdaşlığı inkişaf etdirməyə marağını artırdı.

1997-ci ilin əvvəlində NATO baş katibinin Bakıya səfəri Azərbaycan–NATO əlaqələrinə xüsusi təkan verdi və təşkilatın ölkəmizlə bağlı niyyətlərinin ciddi olduğunu sübut etdi. 1997-ci il fevralın 13-də Bakıda NATO-nun baş katibini qəbul edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bildirdi ki, Azərbaycan «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində üzərinə götürdüyü öhdəlikləri, əsasən, yerinə yetirir, lakin hələ çox iş görmək lazımdır. O, xüsusi vurğuladı ki, Ermənistanla münaqişə vəziyyəti ölkəmizin qarşısında duran problemlərin sürətli həllinə mane olur. Azərbaycan Respublikasının Prezidenti bir daha bəyan etdi ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə çalışır və Lissabon sammitində elan olunmuş prinsipləri əsas götürür.

Azərbaycan–NATO əlaqələrinin mahiyyəti və xüsusiyyətlərinə qiymət vermək baxımından 1997-ci ilin iyulunda Prezident Heydər Əliyevin Avratlantik Əməkdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının sammitindəki çıxışı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti həmin çıxışında yeni müstəqil dövlətlərlə NATO arasında əməli dialoqa və əməkdaşlığa böyük əhəmiyyət verdiyini xüsusi vurğulayaraq demişdi ki, Azərbaycan bölgədə silahlı münaqişənin aradan qaldırılmasında həmçinin NATO-nun və Avratlantik Əməkdaşlıq Şurasının da fəal roluna ümid bəsləyir. Onlar Qafqazdakı silahlı münaqişələri kənardan müşahidə etməməlidir. Nəzərə almaq lazımdır ki, bu münaqişələr ümumavropa təhlükəsizliyi üçün də ciddi qorxu yaradır.

Şimali Atlantika Alyansı ilə əməkdaşlığın inkişafı sahəsində növbəti addım 1997-ci il noyabrın 14-də Prezident Heydər Əliyevin imzaladığı «Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında» sərəncam oldu. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidenti yanında NATO ilə əməkdaşlıq üzrə dövlət komissiyası yaradıldı. Komissiya «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığın vahid proqramının hazırlanması ilə bağlı müvafiq nazirlik və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi sahəsində ardıcıl iş görürdü.

1997-ci ildə NATO-nun Brüsseldəki qərargahında Azərbaycanın diplomatik nümayəndəliyi–fəaliyyətə başlaması əməkdaşlıq əlaqələrinə yeni təkan verdi.

Həmin ildə Azərbaycan NATO-nun Planlaşdırma və Analiz Prosesinə qoşuldu. Bu, tərəfdaş dövlətlərlə NATO arasında əməkdaşlığın səmərəsini artırmaq məqsədi–ilə bir sıra praktik tədbirlərin birgə həyata keçirilməsini nəzərdə tutur.

1998-ci ilin sentyabrında NATO-nun baş katibi X.Solana Azərbaycana ikinci dəfə səfərə gəldi. Səfər zamanı NATO-nun Avratlantik və regional təhlükəsizliyə dair mövqeyi Azərbaycan tərəfinə açıqlandı və qarşılıqlı əlaqələrin inkişafına dair müzakirələr aparıldı.

Həmin ildə Azərbaycanın NATO ilə əməkdaşlığında yeni addım atıldı. Sentyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin sülhməramlı taqımı Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələrinin tabru tərkibində ilk dəfə Kosovoda beynəlxalq sülhyaratma əməliyyatlarında iştirak etmək üçün həmin bölgəyə ezam olundu. Azərbaycan hərbçilərinin beynəlxalq sülhməramlı qüvvələrin tərkibində iştirakı ordumuzun NATO standartlarına uyğun formalaşdırılması, zəruri təcrübənin qazanılması və respublikamızın beynəlxalq nüfuzunun artması baxımından böyük əhəmiyyət daşıyırdı.

Yüksələn xətlə davam edən əməkdaşlıq Azərbaycan ərazisində keçirilən NATO tədbirlərinin sayının artması ilə müşayiət olunurdu. 1999-cu ilin mayında Bakıda NATO-nun Atlantika siyasəti üzrə məsləhət qrupunun sessiyası keçirildi. Bu, həmin qrupun postsovet məkanında keçirdiyi ilk sessiya idi. Sessiyada Avratlantik regionunda kollektiv təhlükəsizliyin yaradılması, əməkdaşlığın dərinləşdirilməsi, böhranların aradan qaldırılması yolları, NATO-ya gələcək üzvlük və s. məsələlər barədə müzakirələr aparıldı.

2001-ci ilin yanvarında NATO-nun baş katibi Corc Robertsonun Bakıya səfəri Azərbaycana artan marağın təzahürü kimi qiymətləndirilməlidir. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti ilə görüşdə Ermənistanın ölkəmizə təcavüzü, NATO ilə əlaqələrin inkişaf perspektivləri və s. məsələlər müzakirə edildi.

Azərbaycan NATO-nun nüfuzlu qurumu hesab olunan Parlament Assambleyası ilə əməkdaşlığı dərinləşdirmək siyasətini davam etdirirdi. Parlament Assambleyasının 1999-cu ilin mayında Polşada

keçirilən sessiyasında Azərbaycana, bu qurumda müşahidəçi statusu verildi. 2001-ci il noyabrın 19-da isə Azərbaycan Respublikası NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul olundu. Bununla da respublikamız öz problemlərini və digər aktual məsələlərini dünya ictimaiyyətinə çatdırmaq üçün yeni beynəlxalq tribuna əldə etdi.

NATO-nun beynəlxalq aləmdə rolunu yüksək qiymətləndirən Azərbaycan Respublikası həmin blokla hərtərəfli fəal əməkdaşlıq əlaqələrinin qurulmasına böyük əhəmiyyət verir. 2002-ci ilin noyabrında Avratlantik Tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Praqa zirvə görüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti NATO-nu Cənubi Qafqaz regionunda davam edən münaqişələrin aradan qaldırılmasında daha fəal olmağa çağırmışdı.

Azərbaycan Respublikası NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret praktik tədbirləri ilə təsdiq edir. Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələr tərkibində öz missiyasını uğurla yerinə yetirən Azərbaycan 2003-cü ilin mayında beynəlxalq koalisiya qüvvələrinin tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak haqqında qərar qəbul etdi. Bununla da erməni terrorizmindən ziyan çəkmiş respublikamız beynəlxalq terrorizmə qarşı mübarizədə dünya dövlətlərinin ön sırasında olduğunu nümayiş etdirdi.

Beləliklə, NATO bütün yeni müstəqil dövlətlərə, o cümlədən Azərbaycana demokratiyanın inkişafı, hüquqi dövlət qurulması, bazar iqtisadiyyatı yaradılması işində perspektivli imkanlar təklif edir. Azərbaycan Respublikası «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak etməklə və «Fərdi tərəfdaşlığın əməliyyat planı»nı həyata keçirməyə başlamaqla dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, beynəlxalq birliyə qoşulmaq, demokratik, iqtisadi islahatları müvəffəqiyyətlə aparmaq üçün əlavə imkan və vasitələr əldə etmişdir. Respublikanın intellektual kadr potensialı, iqtisadi bazası, geosiyasi mövqeyi bu imkanların reallaşması üçün geniş perspektivlər açır [248, 500–526].

Qərblə Şərqin, Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan Respublikasının xarici siyasətində Avropa məkanına, Avratlantik strukturlarına inteqrasiya xüsusi yer tutsa da, öz tarixi,

mədəniyyəti, dini etiqadı və adət-ənənələri ilə islam aləminin ayrılmaz hissəsi olan ölkənin müsəlman dövlətləri ilə, bu dövlətlərin təmsil olunduğu beynəlxalq təşkilatlarla əlaqələrinə də böyük əhəmiyyət verilir.

Hazırda müsəlman ölkələrini birləşdirən ən nüfuzlu beynəlxalq qurum İslam Konfransı Təşkilatıdır (İKT). Beynəlxalq aləmdə bəzən «müsəlman BMT-si» adlandırılan İKT üzvlərinin sayına və mütəşəkkilliyinə görə dünya siyasətində xüsusi yeri olan qurumlardan biridir.

İKT-yə üzv olmaq hər bir müsəlman ölkəsinin beynəlxalq əlaqələrini və dünya birliyindəki mövqelərini möhkəmləndirməklə yanaşı, həm də islam aləminin mənəvi, siyasi və iqtisadi dəstəyindən yararlanmaq imkanı verir. Keçmiş Sovet İttifaqının müsəlman respublikaları arasında ilk dəfə Azərbaycan İKT-yə üzv olmaq üçün müraciət etmiş və 1991-ci ilin dekabrında təşkilata qəbul edilmişdir. Azərbaycan Respublikasının İKT ilə əlaqələri 1993-cü ilin ortalarından – Heydər Əliyev ali rəhbərliyə qayıtdıqdan sonra daha da intensivləşdi, ardıcıl və məqsədyönlü xarakter aldı. Azərbaycan bu təşkilatın maliyyə, informasiya və siyasi dəstək imkanlarından daha səmərəli istifadə etməyə başladı. 1994-cü ilin noyabrında Prezident Heydər Əliyevin İKT-nin baş katibi Həmid əl-Qabidlə Bakıda keçirdiyi görüş və apardığı danışıqlar respublikamızla qurum arasındakı əlaqələri fəallaşdırmaqla yanaşı, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişə- sinin ilk dəfə olaraq İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına salınmasına səbəb oldu. Münaqişənin həlli yollarının dünya səviyyəsində araşdırılması baxımından bunun böyük əhəmiyyəti vardı.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə BMT və ATƏT-lə yanaşı, 1993-cü ildən İslam Konfransı Təşkilatı da özünün bütün toplantılarında baxmış və Azərbaycan Respublikası üçün böyük əhəmiyyəti olan qərarlar qəbul etmişdir. Belə ki, 1994-cü ildə Kasablankada İKT-nin zirvə toplantısı, 1996-cı ildə Cakartada İKT üzvü olan dövlətlərin xarici işlər nazirlərinin 24-cü konfransı, 1997-ci ildə Tehranda və 2000-ci ildə Dohada keçirilən zirvə toplantılarında Ermənistanın Azərbaycan Respublikasına təcavüzü haqqında qətnamələr qəbul olunmuşdur. Onu da deyək ki, İKT Ermənistanı birmənalı şəkildə təcavüzkar dövlət kimi tanıyan ilk beynəlxalq təşkilatdır.

Azərbaycan Respublikasının xarici siyasətinin mühüm bir istiqamətini Avrasiya subregion dövlətləri (bölgə ölkələri) ilə münasibətlər təşkil edir.

Avrasiya inteqrasiyasının mərkəzində dayanan hökumətlərarası qurumlardan biri Müstəqil Dövlətlər Birliyidir (MDB). Azərbaycan Respublikasının MDB ilə münasibətləri ziddiyyətli inkişaf yolu keçmişdir. Əgər 1991–1992-ci illərdə A.Mütəllibov dövründə Azərbaycan Rusiya ilə bərabər MDB-nin «SSRİ tipli yeniləşmiş bir dövlət» statusu uğrunda fəal çalışmaları ilə yadda qalmışdısa, 1992-1993-cü illərdə Ə.Elçibəy hakimiyyəti dövründə, əksinə, MDB-yə və onun üzvlərinə qarşı çox kəskin münasibətilə fərqlənmişdir. Bu da həmin dövrdə Azərbaycanın həm regionda gedən proseslərdən əsassız təcrid olunmasına, onun dövlət müstəqilliyi yolunda yeni problemlərin yaranmasına, həm də bu məkanda Ermənistanın mövqelərinin möhkəmlənməsinə xidmət etmişdir. Bütün bunları nəzərə alan Prezident Heydər Əliyev 1993-cü il sentyabrın 24-də Azərbaycanın MDB-yə daxil olması haqqında qətiyyətli qərar qəbul etdi və təşkilatın sənədlərini imzaladı [246, 45]. Bu isə postsovet ölkələri ilə çoxtərəfli əlaqələrin inkişafında, bu məkanda Azərbaycanın maraqlarının qorunmasında mühüm rol oynadı.

MDB ölkələrinin iştirakı ilə təsis edilən subregional inteqrasiya təşkilatlarından biri 1997-ci ildə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova tərəfindən yaradılan, 1998-ci ildə Özbəkistanın da daxil olduğu GUAM-dır (2005-ci il may ayının 26-da Özbəkistan qurumu tərk etmişdir). Bu qurumun yaranması MDB daxilində gedən proseslərin ən obyektiv və qanunauyğun nəticələrindən biri idi. Çünki yarandığı gündən MDB adından bəyan edilən, əslində isə Rusiyanın mövqeyini əks etdirən bəzi qərarlara, yanaşmalara münasibətdə GUAM üzvü olan dövlətlər həmişə fərqli mövqelərdən çıxış etmişdir. Qərb dövlətləri ilə əlaqələrə, Qərbə inteqrasiyaya, MDB və NATO təhlükəsizlik məsələlərinə, Şərq–Qərb enerji, nəqliyyat-kommunikasiya layihələrinə, MDB ölkələrinin ərazisində mövcud olan etnik separatizmə və s. məsələlərə münasibətdə bəhs edilən beşlik həmişə MDB-nin (Rusiyanın) mövqelərinə fərqli yanaşma nümayiş etdirmiş və alternativ layihələr irəli sürmüşdür.

GUAM Qərb istiqamətli siyasət yeridən, Qərbi Avropa nümunəsində siyasi, iqtisadi, sosial, mədəni inteqrasiyaya nail olmağa

çalışan və ən əsası, bütün bu proseslərdə bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq istəyən dövlətlərin birliyi hesab olunur. Bu təşkilatın perspektivlərinə Avropa İttifaqı və ABŞ-da inananların sayı getdikcə artmaqdadır. Türkiyə, Rumıniya, Bolqarıstan, Litva və Polşa kimi dövlətlər hazırda bu təşkilata maraq göstərir.

2001-ci ildə Yaltada beş ölkə (üzv dövlətlərin) prezidentlərinin görüşündə GUAM regional beynəlxalq təşkilat adlandırıldı. İmzalanmış birgə xartiyada deyilir ki, GUAM öz qarşısına üzv ölkələr arasında sosial-iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, enerji layihələrinin, nəqliyyat-kommunikasiya xətlərinin birgə və səmərəli istifadə edilməsi, regional təhlükəsizliyə nail olunması, terrorizmə, narkoticarətə qarşı birgə mübarizə aparılması vəzifəsini qoyur. Xartiyada o da bildirilir ki, bu təşkilat hərbi-siyasi blok deyil və MDB-yə qarşı qoyulmamışdır. Sammitdə qarşılıqlı konsul xidmətlərinin təşkili və yardımı haqqında konvensiya qəbul edilmişdir.

Azərbaycan Respublikasının iştirak etdiyi Avrasiya subregional inteqrasiya təşkilatlarından biri də İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) hesab olunur.

Bu təşkilat hələ keçən əsrin 60–70-ci illərində Asiya Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı adı ilə fəaliyyət göstərmiş və İranda 1979-cu ildə baş verən İslam inqilabından sonra fəaliyyətini dayandırmışdı.

İƏT-in yenidən, lakin bu dəfə Avrasiya ölkələrinin regional iqtisadi inteqrasiya təşkilatı statusu ilə meydana çıxması 1985-ci ildə İran, Pakistan və Türkiyə dövlət başçılarının ümumi qərarı ilə mümkün olmuşdur.

SSRİ dağılandan sonra İƏT postsovet məkanının müsəlman dövlətləri ilə intensiv əlaqə yaratmaq üçün xüsusi səy göstərərək, 1992-ci ildə Qazaxıstan, Azərbaycan, Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanla danışıqlara başladı. Əlbəttə, yenicə müstəqillik qazanmış bu dövlətlər bütün dünya ilə, o cümlədən qonşu müsəlman ölkələri ilə əməkdaşlıq etməkdə çox maraqlı idi. İran, Türkiyə və Pakistan vasitəsilə həm Qərb, həm də Şərq ölkələrinə, bütün dünyaya çıxmaq, müstəqil dövlət quruculuğu prosesində onların köməyindən yararlanmaq, mövcud problemlərinin aradan qaldırılmasında böyük müsəlman dövlətlərinə arxalanmaq o dövrdə həm də tez-tez ictimai bir tələb kimi müşahidə olunurdu.

Prezident Heydər Əliyev ölkəmizin İƏT-lə əlaqələrinə böyük əhəmiyyət verirdi. Ona görə ki, İƏT Xəzər hövzəsi və Fars körfəzi rayonunda, Qazaxıstan və Türkmənistan respublikalarına məxsus zəngin karbohidrogen yataqlarında həyata keçirilən qlobal enerji layihələri, Şərq–Qərb nəqliyyat-kommunikasiya dəhlizi (TRASEKA), Bakı–Ceyhan neft kəmərinin çəkilişi kimi mühüm işlərin görüldüyü bir regionu əhatə edir. Bundan başqa, İƏT-in işləyib hazırladığı və tikintisində iştirak etdiyi nəqliyyat magistralları İranı, Türkiyəni, Azərbaycanı, Pakistanı, Əfqanıstanı və Türkmənistanı birləşdirərək, Çindən Avropaya qədər böyük bir ərazini əhatə edir. Dəmir və avtomobil yollarının bir başı Mərkəzi Asiya və Hind okeanı, Fars körfəzi və Afrikaya, digər başı isə Pakistana, Türkiyəyə və Avropaya çıxır [248, 643–645].

Avrasiya subregional təşkilatlarından biri də Türkdilli Dövlətlər Birliyidir (TDB). Bu qurum bölgənin Türkiyə Cümhuriyyəti və Azərbaycan Respublikası ilə yanaşı, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan kimi türkdilli ölkələrini də birləşdirir.

SSRİ dağıldıqdan və İttifaqa daxil olan beş türkdilli respublika müstəqillik qazandıqdan sonra formalaşmağa başlamış TDB-nin yaradılmasında əsas məqsəd türkdilli dövlətlər arasında həmrəyliyi möhkəmləndirmək, iqtisadiyyat, ticarət, ekologiya, elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığı inkişaf etdirmək idi. TDB-nin təsis edilməsində türk dünyasının aparıcı dövləti olan Türkiyə Cümhuriyyəti xüsusi fəallıq göstərmişdir. Yenicə müstəqillik qazanmış türkdilli dövlətləri, xüsusən də hələ Rusiya Federasiyasının təsir dairəsindən çıxa bilməmiş Mərkəzi Asiya respublikalarını məhz Türkiyə Cümhuriyyəti rəhbərlərinin səyləri nəticəsində Birliyə cəlb etmək mümkün olmuşdu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev TDB-nin fəaliyyətində Türkiyə Cümhuriyyətinin rolunu belə qiymətləndirmişdi: «Ümumiyyətlə, 1992-ci ildən başlayaraq, Türkiyə Cümhuriyyəti... türkdilli dövlətləri yaxınlaşdırmaq baxımından öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirir... Türkdilli Dövlətlər Birliyinə qatılmış hər bir ölkə bərabərhüquqludur, ancaq Türkiyə bu Birliyin daha da güclü olmasını, daha da inkişaf etməsini təmin edən ən qabaqcıl ölkədir».

TDB-nin ali orqanı türkdilli dövlət başçılarının zirvə toplantılarıdır. 1992-ci ildən 2001-ci ilədək 7 belə toplantı olmuşdur. Bu təd-

birlər 1992-ci ildə Ankarada, 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda və 2001-ci ildə İstanbulda keçirilmişdir.

TDB-yə xüsusi əhəmiyyət verən, beynəlxalq aləmdə türkdilli dövlətlərin yerinin möhkəmlənməsinə və nüfuzunun artmasına çalışan Azərbaycan və Türkiyənin dövlət başçıları bu görüşlərin səmərəli keçməsi üçün daha çox səy göstərmiş, onların hamısında əvvəldən axıradək iştirak etmiş, Birliyin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əməli təkliflər irəli sürmüşlər.

TDB-nin 1992-ci ilin oktyabrında Ankarada keçirilmiş ilk zirvə toplantısında türkdilli dövlətlərin inteqrasiyasına xidmət edən qərarlar qəbul edilmişdi. Toplantıdan sonra bu istiqamətdə müəyyən işlər görülsə də, həmin qərarların bir çoxu yerinə yetirilmədi. Azərbaycan Respublikasının o vaxtkı rəhbərliyinin bəzi məsələlərdə düzgün mövqe tutmaması nəticəsində ölkəmizin bu toplantıda Mərkəzi Asiya respublikaları ilə münasibətlərində müəyyən gərginliklər də yaranmışdı. Bu əlaqələr 1993-cü ildə Heydər Əliyev ali rəhbərliyə qayıtdıqdan sonra yenidən normal məcraya düşməyə, beynəlxalq hüququn norma və prinsipləri əsasında formalaşmağa başladı.

1994-cü il oktyabrın 18-19-da İstanbul şəhərində keçirilən ikinci Zirvə toplantısında bütün türkdilli dövlətlərin prezidentləri – Heydər Əliyev, Süleyman Dəmirəl, Nursultan Nazarbayev, İslam Kərimov, Əsgər Akayev və Saparmurad Niyazov iştirak edirdilər. İstanbula yola düşərkən, Binə hava limanında jurnalistlərə müsahibə verən Heydər Əliyev demişdir: «Mən bu görüşə çox böyük əhəmiyyət verirəm. Orada hansı sənədin imzalanıb-imzalanmamasından asılı olmayaraq, elə bu görüşlərin özü, fikir mübadiləsi, həmin ölkələrin prezidentlərinin ünsiyyəti – bunlar hamısı respublikalarımızın həm iqtisadi, həm mədəni, həm də bütün başqa sahələrdə bundan sonra da bir-biri ilə sıx əlaqələr yaratması üçün imkanlar açacaqdır».

Zirvə toplantısında bütün dövlət başçıları, o cümlədən Prezident Heydər Əliyev geniş nitq söylədi. Heydər Əliyev nitqində vurğuladı ki, bu toplantılar xalqlarımızın tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrin ümumiliyi, dil və fəaliyyət birliyi əsasında qurulub. Bu əsasda ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə böyük imkan var. Yenicə müstəqillik qazanmış, keçid

dövrünü yaşayan, dərin sosial-iqtisadi böhran keçirən postsovet ölkələrinin bir-birinin köməyinə daha çox ehtiyacı olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan Respublikasının həm Mərkəzi Asiya respublikaları, həm də Türkiyə Cümhuriyyəti ilə əlaqələrə xüsusi önəm verdiyini söylədi. Heydər Əliyev Xəzər dənizinin ətrafında olan bütün dövlətləri sıx əməkdaşlığa dəvət edərək dedi ki, təkcə dənizə bilavasitə çıxışı olan ölkələr yox, başqa türkdilli dövlətlər də bu əməkdaşlığa qoşula bilər. Əgər Xəzəryanı dövlətlər öz enerji daşıyıcılarını dünya bazarlarına çıxarmaq üçün Azərbaycan ərazisindən istifadə etmək istəsə, onlara bunun üçün tam şərait yaradılacaqdır. O, regiondakı təbii sərvətlərin ixracında Azərbaycan Respublikası ilə yanaşı, Türkiyə Cümhuriyyəti ərazisindən də istifadə edilməsini məqsədəuyğun saydığını bildirdi. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən və onun nəticələrindən danışan Heydər Əliyev türkdilli dövlətlərin rəhbərlərini münaqişənin həllinə yardım etməyə, qaçqın və məcburi köçkünlərin vəziyyətini yüngülləşdirmək üçün onlara maddi və mənəvi kömək göstərməyə çağırdı. İstanbul toplantısı 24 maddədən ibarət bəyannamə qəbul etdi.

Toplantı keçirilən zaman Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi bəyanat yayaraq, zirvə görüşünün keçirilməsindən narahatlığını ifadə etmişdi. Toplantıdan sonra keçirilən mətbuat konfransında jurnalistlərin bununla bağlı sualına Süleyman Dəmirəl belə cavab vermişdi: «Əgər Rusiya Xarici İşlər Nazirliyinin bəyanatında İstanbulda keçirilən və birlik, bərabərlik, sülh, istiqlal məqsədi daşıyan bir toplantı özlərinə qarşı düşmənçilik kimi başa düşülürsə, bu, səhvdir... Toplantının qəbul etdiyi Bəyannamədə pantürkizmdən əsər-əlamət yoxdur...Biz ayrı-ayrılıqda, yaxud birlikdə kimisə təkləmək fikrində deyilik... Biz müştərək mədəniyyətə, müştərək taleyə, keçmişə, müştərək dinə malik olan xalqlarıq. Bunu tarix belə yetirmişdir».

İstanbul toplantısının qərarına uyğun olaraq, türkdilli dövlət başçılarının növbəti – III Zirvə görüşü 1995-ci ilin avqustunda Qırğızıstanın paytaxtı Bişkek şəhərində, «Manas» eposunun 1000 illik yubileyi ilə bir vaxtda keçirildi. Bu toplantıda Türkmənistandan başqa, bütün türkdilli dövlətlərin rəhbərləri iştirak edirdilər. Toplantıdan sonra təşkil olunmuş mətbuat konfransında Prezident Heydər Əliyev Azərbaycan Respublikası ilə Mərkəzi Asiya ölkələri arasında iqtisadi

əlaqələrin lazımi səviyyədə olmamasından təəssüfləndiyini bildirdi və dedi ki, Azərbaycan Respublikası rəhbərliyi tarixi keçmişimizi, ümumi köklərimizi əsas tutaraq, bütün türkdilli dövlətlərlə daha sıx iqtisadi, elmi-texniki və mədəni əməkdaşlığın yaradılmasını istəyir.

1996-cı ilin oktyabrında Özbəkistan Respublikası Əmir Teymurun anadan olmasının 660 illiyini təntənəli yubiley tədbirləri ilə qeyd edirdi. Türkdilli dövlət başçılarının IV zirvə toplantısı da həmin dövrdə Daşkənddə keçirildi. Bu toplantıda bütün türkdilli dövlətlərin prezidentləri iştirak edirdilər. Zirvə görüşündə Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov Türkdilli Dövlətlər Birliyinin daimi fəaliyyət göstərən Katibliyinin yaradılması təklifi ilə çıxış etdi. Bu təklif digər dövlətlərin rəhbərləri tərəfindən dəstəkləndi.

Türkdilli dövlət başçılarının V Zirvə toplantısı 1998-ci ilin iyununda Qazaxıstanın paytaxtı Astanada, VI toplantı isə 2000-ci ilin aprelində Bakı şəhərində baş tutdu. VI toplantının keçirildiyi günlərdə Azərbaycan Respublikasında həm də «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyinə həsr olunmuş yubiley təntənələri təşkil olunmuşdu. Toplantıya gələn dövlət başçıları yubiley mərasimlərində də iştirak etdilər.

TDB-nin VII Zirvə toplantısı 2001-ci il aprelin 26-27-də İstanbulda keçirildi. Bu tədbirdə beş ölkənin dövlət başçıları, Özbəkistanı isə həmin ölkənin Ali Məclisinin Sədri təmsil edirdilər.

Bu toplantıda da zirvə görüşlərinin Daimi katibliyinin yaradılması və onun Türkiyədə yerləşməsi haqqında təklif səsləndi. Öz işini aprelin 27-də başa çatdıran toplantı 19 maddədən ibarət «İstanbul bəyannaməsi»ni qəbul etdi. Azərbaycan tərəfinin təkidi ilə bu sənədə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aşağıdakı məzmunda bir maddə salındı: «Dövlət başçıları BMT Təhlükəsizlik Şurasının Ermənistan–Azərbaycan münaqişəsi haqqında müvafiq qətnamələrini dəstəklədiklərini bildirmiş və onların yerinə yetirilməsinin vacibliyini vurğulamışlar». Bəyannamədə habelə TÜRKSOY-un təhsil və mədəniyyət sahəsində apardığı işlər təqdir edilir və bu təşkilatın fəaliyyətinə bundan sonra da dəstək veriləcəyi qeyd olunurdu [248, 646–650].

Heydər Əliyev Türkdilli Dövlətlər Birliyinin möhkəmlənməsinə və daha səmərəli fəaliyyət göstərməsinə xüsusi əhəmiyyət verirdi. Azərbaycan bu qurumun bütün tədbirlərində həmişə fəal iştirak edir

və onun davamlı fəaliyyət göstərməsi, üzvlərinin mənafelərinin qorunması sahəsində öz potensialından dolğun istifadə etməsi üçün səylərini əsirgəmirdi.

4.4. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və probleminin həlli istiqamətində fəaliyyət

Azərbaycan Respublikasının xarici siyasətinin və milli təhlükəsizliyinin ən əsas problemi – Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün və suveren dövlət hüquqlarının bərpası məsələsidir. Ölkənin xarici aləmlə bütün təmaslarında, ikitərəfli və çoxtərəfli münasibətlərində bu problemin müzakirəsi, beynəlxalq hüquq norması çərçivəsində həlli məsələsi daim diqqət mərkəzində saxlanılır. Bu problem nəinki təkcə Azərbaycan Respublikasına, onun müstəqil dövlət quruculuğu prosesinə, vətəndaşlarının sabit həyat şəraitinə ciddi zərbə vurmuş, həm də regionda (Qafqaz, Xəzər–Qara dəniz hövzəsində) dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələri pozmuş, ölkələri və xalqları qarşıdurmaya sürükləmiş, onların bir-biri və beynəlxalq aləmlə münasibətlərinə, regional və beynəlxalq inteqrasiya proseslərinə çox ciddi mənfi təsir göstərmişdir. Hazırda Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, həm Qafqazda və Avrasiyada, həm də bütövlükdə qlobal dünyada həllini gözləyən ən çətin və mürəkkəb problemlərdən biri hesab olunur.

1988–1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə Sovet İttifaqının hakim dairələri tərəfindən himayə edilən Ermənistan SSR Azərbaycan SSR-ə qarşı açıq-aşkar təcavüzkarlıq siyasəti yeritmiş, nəticədə minlərlə dinc sakin qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır.

SSRİ süqut etdikdən sonra ermənilər və onların havadarları Ermənistan–Azərbaycan Dağlıq Qarabağ məsələsini öz maraqları çərçivəsində beynəlxalq əhəmiyyətli problemə çevirmək üçün genişmiqyaslı kampaniyanın yeni mərhələsinə başladılar.

1992-ci ilin əvvəlində Ermənistan silahlı qüvvələri Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı sonuncu yaşayış məntəqələrini də bir-birinin ardınca işğal etdilər. Fevralın 25-dən 26-na keçən gecə onlar Xankəndidə yerləşən Rusiya Federasiyasına məxsus 366-cı motoatıcı alayın köməyi və iştirakı ilə Xocalı şəhərinə hücum edərək, min nəfərə qədər dinc sakini qətlə yetirdilər. Bu soyqırımı əsrin ən böyük faciələrindən biri idi. Xocalı erməni-rus birləşmiş qüvvələri tərəfindən işğal edildikdən sonra az müddət içərisində bütün yuxarı Qarabağ zəbt olundu.

1992-ci il mayın 8-də Azərbaycan Respublikasının qədim mədəniyyət mərkəzi olan Şuşa şəhəri ələ keçirildi. Ermənistan ordusu Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək məqsədilə ətraf rayonlara hücuma başladı. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Ermənistan Respublikasına birləşdirilməsi yolunda qonşu respublikanın sərhədinə yaxın ərazidə yerləşən qədim Azərbaycan şəhəri Laçın əsas maneə idi. 1992-ci il mayın 17-də Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Beləliklə, «öz müqəddəratını təyin etmək» ideyasını reallaşdırmaq adı altında Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini işğal edən ermənilərin təcavüzkar siyasəti vüsət aldı. Laçının işğalı Ermənistanın hərbi işğalçılıq niyyətinin daha böyük olduğunu göstərdi. Ermənilərin «humanitar dəhliz» adlandırdıqları bu yol ilə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə qısa müddətdə külli miqdarda silah, döyüş sursatı, hərbi qüvvə gətirildi. Nəticədə, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4.400 kv. km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Azərbaycan Respublikasının Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları (17.000 kv. km) Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

Ermənistanın Azərbaycan Respublikası ərazilərini işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 7 bəyanat və 4 qətnamə qəbul etmişdir. Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 (30 aprel 1993), Ağdam rayonunun işğalı ilə əlaqədar 853 (29 iyul 1993), Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874 (14 oktyabr 1993), Zəngilan rayonunun işğalı ilə əlaqədar isə 884 (11 noyabr 1993) saylı qət-

namələr qəbul edilərkən TŞ-nin daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏM-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasını üstün tutdular. Cəzasız qalmasından ruhlanan və bundan istifadə edən Ermənistan Respublikası BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı.

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar işğalına göz yumdu və təcavüzkarın cilovlanması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişənin həlli üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrdə və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan böyük dövlətlər Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və mahiyyətinin qiymətləndirilməsinə birmənalı yanaşmadı. Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü «Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə» kimi qiymətləndirilmişdi. Şuranın daimi üzvləri münaqişəyə Azərbaycan Respublikası ilə Dağlıq Qarabağ arasında olan münaqişə kimi baxırdılar.

1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv dövlətlərin daha çox diqqət obyektinə çevrildi.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1992-ci il martın 24-də keçirilən görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə edilərək, münaqişənin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Azərbaycan Respublikasının Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul edildi. Qərara alındı ki, Minskdə çağırılacaq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin.

1992-ci ilin mayında Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı münaqişənin mahiyyətini dəyişərək, yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi. Minsk qrupu çərçivəsində

aparılan danışıqlarda qarşı tərəflər arasında ziddiyyətlərin qalması, xüsusilə Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin ləngidilməsinə və münaqişənin dondurulmuş vəziyyətdə qalmasına gətirib çıxardı.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin vasitəçilik tarixinə nəzər salsaq və onu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər birinin xeyli dərəcədə Rusiya Federasiyası – Qərb qarşıdurmasının xarakterindən asılı olduğu görünər. 1992-ci ilin martında Minsk qrupu yaradılanda Rusiya Federasiyası bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin həllinə dair vasitəçilik səylərinin fəallaşması Rusiyanın siyasi dairələrində narahatlıq doğurmağa başlamışdı. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya Federasiyası təşəbbüsü beynəlxalq təşkilatların və dünya dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi.

Rusiya Federasiyası öz məqsədlərinə nail olmaq üçün Azərbaycan Respublikasına təzyiq göstərərək, «sülhməramlı qüvvələr» adı altında qoşunlarını münaqişə bölgəsinə gətirmək niyyətində idi. Lakin bu məqsədinə nail olmayan Rusiya Ermənistandakı qoşunlarının sayını bir qədər də artırmış, bu ölkəni gizli və aşkar yolla silahlandıraraq, Azərbaycan ərazilərinin işğal olunmasına dəstək vermişdir.

1997-ci ilin əvvəllərində Rusiya Federasiyasından Ermənistana qanunsuz olaraq dəyəri 1 milyard dollardan çox olan müasir silahların verilməsi haqqında faktlar üzə çıxanda məlum oldu ki, Rusiya Federasiyası bu silahları 1993-cü ildən etibarən, yəni Ermənistan ilə Azərbaycan arasında qızğın hərbi əməliyyatlar getdiyi bir vaxtda göndərməyə başlamış və nəticədə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikası ərazilərinin işğal edilməsinə şərait yaratmışdır. Ermənistanın silahlandırılması atəşkəs elan olunduqdan sonra da davam etdirilmişdir.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli 1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət fəaliyyətində əsas yer tutmuşdur. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra münaqişə-

nin aradan qaldırılmasına nail olmaq üçün ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏM-in zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, beynəlxalq forumlarda, habelə Ermənistan Respublikasının prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi ardıcıl səylər dövlət başçısının apardığı siyasətin mühüm hissəsini təşkil etmişdir.

Prezident Heydər Əliyevin Azərbaycan Respublikasının dövlət müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq sahəsində təxirəsalınmaz vəzifələrindən biri davam etməkdə olan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəti tədbirlər görməkdən ibarət olmuşdur.

Bu məqsədlə Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Ermənistan–Azərbaycan münaqişəsinin dinc vasitələrlə həlli məqsədilə məhz Prezident Heydər Əliyevin qətiyyəti və gərgin fəaliyyəti sayəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏM-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1992-ci ilin martında yaradılmış Minsk qrupunun əsas vəzifəsi Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsini dinc vasitələrlə həll etmək üçün müvafiq sənəd hazırlamaq və xüsusi olaraq Minsk şəhərində beynəlxalq konfrans çağırmaqla, bu münaqişəni birdəfəlik aradan qaldırmaqdan ibarətdir. Qrupun tərkibinə 11 dövlət – Almaniya FR, ABŞ, Fransa, İtaliya, İsveç, Çexiya, Türkiyə, Belarus, Rusiya, Azərbaycan və Ermənistan daxildir. Onun həmsədrlik funksiyası 1994-cü ilin dekabrından iki dövlətin–Rusiya və Finlandiyanın, 1997-ci ildən isə Rusiya, ABŞ və Fransanın nümayəndəsi tərəfindən həyata keçirilir.

Minsk qrupunun yarandığı vaxtdan etibarən münaqişənin həlli sahəsində göstərdiyi ilk səyləri gözlənilən nəticəni vermədi. Beynəlxalq ictimaiyyətin təcavüzkara qarşı təsirli tədbirlər görməməsi Ermənistanın işğalçılıq siyasətinin daha da genişlənməsinə yol açırdı. 1993-cü ilin payızına qədər Azərbaycan Respublikasının Dağlıq

Qarabağ və onun ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal olundu.

1993-cü ilin noyabrında Minsk qrupunun üzvləri–Almaniya, ABŞ, Belarus, Fransa, İtaliya, Rusiya, İsveç, Çexiya və Türkiyə işğalın genişlənməsi ilə bağlı, o cümlədən Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli haqqında bəyanat verdilər. Bu bəyanatda döyüş əməliyyatları və yeni ərazilərin ələ keçirilməsi pislənir və ATƏM prinsiplərinin pozulması kimi qiymətləndirilirdi. Ərazi tutulmasından beynəlxalq aləmdə tanınmaq, status qazanmaq və s. məqsədlərlə istifadə olunmanın yolverilməzliyi göstərilir, işğalçıların Horadiz və Zəngilandan birtərəfli qaydada çıxması, atəşin dayandırılması, işğal olunmuş ərazilərin boşaldılması, münaqişə bölgəsində beynəlxalq müşahidəçilərin yerləşdirilməsi və BMT Təhlükəsizlik Şurası qətnamələrinin yerinə yetirilməsi tələb olunur, güc tətbiqindən imtina edilməsi irəli sürülür, qaçqınlara yardım etmək zərurəti vurğulanır və sazişi pozan tərəfin məsuliyyət daşıdığı göstərilirdi [392, 1993, 12 noyabr].

1994-cü ildə, xüsusən may ayında atəşkəs əldə olunduqdan sonra, ATƏM-in Budapeşt sammitinin yaxınlaşması ilə əlaqədar olaraq, Azərbaycan diplomatiyası öz fəallığını daha da artırdı. 1994-cü ilin iyulunda Moskvada Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin görüşü keçirildi və atəşkəsin qorunub saxlanması haqqında ümumi razılıq əldə edildi [392, 1994 , 7 sentyabr].

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Budapeşt sammitində ilk dəfə xüsusi bir məsələ kimi gündəliyə salınaraq müzakirə olundu. Müzakirələrdə dünyanın aparıcı dövlət başçıları və siyasi xadimləri B.Klinton, B.Butros-Qali, T.Çillər və başqaları çıxış edərək, münaqişənin həlli sahəsində ATƏM-in mühüm rolunu və səylərin artırılmasının zəruriliyini vurğuladılar.

Dekabrın 6-da Budapeşt sammitində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı ən mühüm hadisələrdən biri oldu. Heydər Əliyev öz çıxışında ATƏM-in Avropada oynadığı rola, onun təkmilləşdirilməsi zərurətinə böyük diqqət yetirdi, bildirdi ki, müasir şəraitdə ATƏM-in rolu və əhəmiyyəti getdikcə artır. Yeni Avropaya, ayırıcı xətlərin və təsir dairələrinin olmadığı Avropaya təkmilləşdirilmiş təşkilat lazımdır. Heydər Əliyev çıxışında Ermənistanın təcavüzünün ölkəmizə vurduğu dəhşətli nəticələri də diqqətə çatdırdı. Bildirdi ki, Azərbaycan Respublikası ərazisinin 20 %-dən çoxu işğal olunmuş, 20 min nəfərdən artıq insan həlak olmuş, 100 mindən çox adam yaralanmış və əlil olmuş, 6 min nəfər əsir düşmüş, 1 milyondan artıq adam öz doğma ocaqlarından qovulmuş və çadır şəhərciklərində yaşamağa məcburdur. Azərbaycan Respublikası ərazilərində 946 şəhər və kənd dağıdılmış, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və qarət olunmuş, ən qədim mədəniyyət abidələri məhv edilmişdir [10, 573-574].

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında BMT ilə ATƏT arasında münasibətlərin düzgün qurulmasına mühüm əhəmiyyət verirdi. O, heç zaman məsələni belə qoymurdu: ya ATƏT, ya da BMT. Lap əvvəldən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-ə üstünlük verən Heydər Əliyev belə hesab edirdi ki, bu proses ATƏT-də də sona çatdırılmalıdır. ATƏT münaqişə zonasında müəyyən iş təcrübəsi qazanmışdır, münaqişəyə cəlb olunmuş tərəflərlə təmaslar qurmuşdur, sülhə nail olmaq üçün onun öz mövqeyi vardır.

ATƏT-in yeni keyfiyyətə keçməsi, bundan sonra strukturlaşması iştirakçı dövlətlərin ərazisində münaqişə və böhranların aradan qaldırılmasında onun imkanlarını daha da artırır. Eyni zamanda BMT ilə ATƏT arasındakı münasibətləri heç vaxt rəqabət, mübarizə kimi qəbul etmək düzgün deyildir. Məhəlli təşkilat kimi ATƏT-in fəaliyyəti BMT Nizamnaməsinin səkkizinci fəslinə uyğun olaraq qurulmuşdur. Bu iki təşkilat beynəlxalq və məhəlli qurum kimi bir-birini tamamlayır və müdafiə edir. ATƏT ona daxil olan ölkələrin ərazisində münaqişələrin həllində üstünlüyə malikdir. Lakin böhran ATƏT-in səlahiyyətlərini aşan mərhələyə çatdıqda, o, kömək üçün BMT Təhlükəsizlik Şurasına müraciət edə bilər. Bu halda BMT və ya digər səlahiyyətli təşkilatlar nizamlama prosesinə qoşula bilər.

ATƏT-in bir təşkilat kimi güclənməsi, Avropanın münaqişəli bölgələrində sabitliyin bərqərar olunması işinə fəal müdaxilə etməsi, sülh və təhlükəsizlik məsələlərində bütün Avropa dövlətlərinin səylərinin birləşdirilməsi, sözsüz ki, müstəqillik və demokratik dövlət quruculuğu yolu tutmuş, lakin Ermənistan və onu himayə edən dövlətlərin təcavüzünə məruz qalmış Azərbaycan üçün çox böyük tarixi əhəmiy-

yət kəsb etmişdir. Məhz Budapeşt sammitində Azərbaycan Respublikası Avropanın bu və ya digər bölgələrində münaqişəli məsələlərin həll edilməsinin ayrı-ayrı dövlətlərin inhisarından ATƏT-in ixtiyarına verilməsinə nail olmuşdur. Məhz Azərbaycan tərəfinin tələbi ilə dövlət başçıları bütün münaqişələrin, o cümlədən Ermənistan–Azərbaycan münaqişəsinin həllinin bir dövlətin şəriksiz nəzarətində qalmasının yolverilməzliyini təsdiq etmiş, çoxmilli və proporsional əsasda ATƏT-ə məxsus sülhməramlı qüvvələrin yaradılması, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə göndərilməsi haqqında qərar qəbul etmişlər.

Sammitin işinin konkret yekunu kimi qəbul edilən sənədlərdən biri də «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» adlı qətnamə oldu [75, 257].

Bu məsələ ətrafında Rusiya Federasiyası və ABŞ nümayəndələri ilə fəal məsləhətləşmələr aparılmışdı. Ümumi razılıqla qəbul edilmiş sənədin əsas müddəaları ondan ibarət idi ki, üzv dövlətlər münaqişə tərəflərinin 1994-cü il may ayının 12-də Minsk qrupu ilə birgə əməkdaşlıq şəraitində, Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə dair öhdəliklərini təsdiqlədilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həlli sahəsində ATƏT-in səylərinə verdiyi siyasi dəstəyi təqdir etdilər. Bununla əlaqədar olaraq münaqişədə iştirak edən tərəfləri, birbaşa əlaqələr də daxil olmaqla, intensiv, müntəzəm danışıqlara çağırdılar. Onlar Minsk qrupunun səylərini tamamilə müdafiə etdilər. ATƏT-in sədrinə tapşırıldı ki, danışıqlar üçün ümumi və razılaşdırılmış əsasın təmin olunması və bütün vasitəçilik və danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsindən ötrü Minsk konfransının həmsədrlərini təyin etsin. Onlar Minsk qrupunun iclaslarında birgə sədrlik etməli və daimi Şuraya öz işlərindəki irəliləyişlər barədə mütəmadi məlumat verməlidirlər.

Bundan başqa, üzv dövlətlər Minsk konfransı həmsədrlərinə mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək üçün dərhal tədbirlər görməyi və silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqlar aparmağı tapşırdılar. Onlar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən, silahlı mü-

naqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏT-in çoxmilli sülhməramlı qüvvələrini göndərmək barədə siyasi iradələrini bəyan etdilər.

Azərbaycan Respublikası bu sammitdə Qafqaz regionunda baş verən münaqişəli halların aradan qaldırılması işinə bilavasitə ATƏT kimi nüfuzlu bir təşkilatı yaxından cəlb etməklə, münaqişənin həlli zamanı yol verilə biləcək hər hansı ədalətsizliyin və birtərəfli fəaliyyətlərin qarşısını almış və bununla da özünün ərazi bütövlüyünü, müstəqil dövlət quruculuğunu, təhlükəsizliyini və suverenliyini beynəlxalq təhlükəsizlik sistemi ilə tam əlaqələndirmiş və ATƏT-in himayəsinə bağlamışdır.

Nəhayət, qeyd etmək lazımdır ki, Budapeştdə Dağlıq Qarabağ ətrafında baş verən münaqişənin dayandırılması, atəşkəs rejiminin qorunması, münaqişənin həlli yollarının axtarılması, onun sülh yolu ilə aradan qaldırılması və Böyük sülh sazişinin hazırlanması ilə bağlı bütün vəzifələr ATƏT-in Minsk qrupuna və ona həmsədrlik edən Rusiya və Finlandiyaya tapşırıldı [246, 235–244].

Beləliklə, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ümumavropa təhlükəsizliyinin aktual məsələsinə çevrildi.

Budapeşt sammitindən keçən dövr ərzində Azərbaycan dövləti tezliklə sülh əldə etmək, işğal olunmuş torpaqları geri qaytarmaq, respublikamızın ərazi bütövlüyünü təmin etmək, doğma yurdlarından didərgin salınmış vətəndaşları öz ata-baba torpaqlarına qaytarmaq üçün bütün imkanlardan istifadə etmişdir. Bu illərdə Azərbaycan diplomatiyasının əsas fəaliyyət istiqamətlərindən biri Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupu və bu qrupun üzvü olan dövlətlərlə ayrılıqda aparılan işdən ibarət olmuşdur.

Budapeştdən başlayaraq «Minsk qrupu»nun fəaliyyətində xüsusi canlanma baş vermiş və qarşıya qoyulmuş məsələnin həlli ilə bağlı mühüm addımlar atılmışdır. Ötən dövr ərzində Minsk qrupu üzvləri dəfələrlə Azərbaycanda, Ermənistanda və əsas münaqişə zonası olan Dağlıq Qarabağda olmuş, intensiv danışıqlar və görüşlər keçirmiş və son nəticəyə nail olmaq üçün mühüm təşəbbüslər göstərmişlər. ATƏT-in 1996-cı ildə keçirilən Lissabon sammitində də Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi əsas müzakirə

mövzularından biri oldu. Lissabon sammitində Azərbaycan Respublikasının qarşıya qoyduğu məqsədi və gözlədiyi nəticəni Prezident Heydər Əliyev belə ifadə etmişdir: «Bizim məqsədimiz ondan ibarətdir ki, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Lissabon görüşünün sənədlərində yeni imkanlar açılsın. Bizim əsas məqsədimiz gələcəkdə məsələnin ədalətlə həll olunması üçün Lissabon Zirvə görüşündə ən məqbul formulu təsdiq etdirmək, yaxud onun orada bəyənilməsinə nail olmaq idi» [293, 111].

Gərgin müzakirələr nəticəsində beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi prinsiplərini əks etdirən müddəanın yekun sənədinə salınması bu münaqişənin həlli sahəsində ATƏT çərçivəsində görülən işlərin məntiqi təzahürü idi. Lakin ATƏT-in Zirvə toplantısında qərarlar konsensus yolu ilə qəbul edildiyi üçün Ermənistanın qeyri-konstruktiv mövqeyi bu müddəanın qəbuluna mane oldu.

Buna baxmayaraq, Azərbaycan Respublikasının Prezidenti qətiyyətli mövqe tutaraq, bütün yekun sənədinə «veto» qoymaqla, obyektiv qərarın qəbul edilməsi sahəsində ardıcıl fəaliyyətini davam etdirdi.

Azərbaycan diplomatiyası təkzibolunmaz dəlillərlə sübut etdi ki, məhz Ermənistan Respublikası özünün inadkar, qeyri-konstruktiv mövqeyi, təcavüzkar siyasəti ilə regionda davamlı, ədalətli, bütün maraqları və mənafeləri nəzərə alan sülh əldə edilməsinə imkan vermir.

Azərbaycan Respublikası ATƏT-in prinsiplərinə, hamılıqla qəbul olunmuş beynəlxalq hüquq normalarına sadiqliyini, möhkəm sülhə və regional təhlükəsizliyə maraqlı olduğunu nümayiş etdirdi. Dövlət başçılarının və rəhbər xadimlərin, demək olar, hamısı Azərbaycan Respublikasının ədalətli mövqeyini müdafiə etdiklərini bildirdilər. Zirvə toplantısının yekun iclasının başlanmasına çox az vaxt qalmış Azərbaycan Respublikası Prezidentinin ATƏT-in sədri F.Kotti ilə keçirilən görüşü zamanı sammitin bəyannamə layihəsinin qəbul olunması istiqamətində yaranmış vəziyyət ətraflı müzakirə edildi. Azərbaycan Respublikasının mövqeyinin tamamilə haqlı olduğunu və ATƏT tərəfindən dəstəkləndiyini nəzərə çatdıran F.Kotti yekun iclasında bu məsələyə dair verəcəyi bəyanat və irəli sürülən üç prinsip barədə Azərbaycan Respublikasının Prezidentinə ətraflı məlumat verərək bildirdi ki, ATƏT Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin bu üç əsas prinsip zəminində həllinə xüsusi diqqət yetirəcəkdir. Belə bir vəziyyətdə Prezident Heydər Əliyev Azərbaycan Respublikasının mənafelərinin, əsasən, təmin edildiyini nəzərə alaraq, sammitin müəyyən yekun sənədi qəbul etməsinə imkan yaratmaq üçün Ermənistan–Azərbaycan münaqişəsinin həlli prinsipləri haqqında ATƏT-in sədri adından bəyanat verilməsinə və yekun sənədinə qoyduğu «veto»nu götürməyə razı oldu. Nəhayət, 1996-cı il dekabrın 6-da ATƏT-in sədrinin Ermənistan və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağ bölgəsinə ən yüksək özünüidarə dərəcəsi verən hüquqi status, Dağlıq Qarabağ və onun bütün əhalisinin təminatlı təhlükəsizliyi prinsiplərini əhatə edən bəyanatı Lissabon sammitinin rəsmi sənədi kimi qəbul edildi [246, 258–267].

Beləliklə, ATƏT-in 54 dövlət başçısının iştirak etdiyi Lissabon Zirvə toplantısı ümumdünya və ümumavropa məsələlərinin strateji, perspektiv inkişaf meyillərini aydınlaşdırmaqla və müəyyənləşdirməklə bərabər, ilk dəfə olaraq, Qafqazda gedən proseslərin, xüsusən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini, ümumi və xüsusi cəhətlərini, həlli yollarının hüquqi-siyasi çərçivəsini açıqladı.

Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupunun fəaliyyətinin intensivləşməsi və münaqişə tərəfləri olan Ermənistan və Azərbaycan Respublikası ilə çoxsaylı müzakirələrin aparılması məsələnin həllinə dair yeni təkliflərin hazırlanması ilə yekunlaşdı. Lakin tərəflərə təqdim olunan təkliflərlə bağlı qərarın qəbulu ərəfəsində hər dəfə Ermənistanda vəziyyətin gərginləşməsi – 1997-ci ildə Prezident L.Ter-Petrosyanın istefaya getməsi, 1999-cu ildə isə Ermənistan parlamentində terror aktının baş verməsi ilə müşayiət olundu. Bu isə Minsk qrupunun vasitəçilik missiyasına zərbə vuraraq, münaqişənin həlli prosesinə mane oldu.

Buna baxmayaraq, Azərbaycan Respublikasının ATƏT-lə əməkdaşlığı davam etdirərək, münaqişənin bu təşkilat çərçivəsində sülh yolu ilə həllinə dair mövqeyindən imtina etmədi. Amma vasitəçilik missiyasının yerinə yetirilməsi prosesində ATƏT-in işğalçı ilə işğala məruz qalmış tərəf arasında tarazlığı gözləməsi, obyektiv və prinsipial

mövqedən çıxış edərək, təcavüzkarı beynəlxalq hüquq normalarına hörmətlə yanaşmağa sövq etmək əvəzinə, loyallıq nümayiş etdirməsi münaqişənin həllində irəliləyişin əldə olunmasına stimul vermir. Bununla belə, ATƏT bu sahədə öz missiyasını davam etdirir.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya Federasiyası ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq, iki hissədən ibarət (Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi) 3 təkliflə çıxış etmişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin «paket» həlli (bu variantda Dağlıq Qarabağın statusu da daxil olmaqla, bütün məsələlərə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) 1997-ci ilin sentyabrında irəli sürülən ikinci təklif münaqişənin «mərhələli» həllindən (bu variantda isə münaqişənin mərhələlərlə həlli nəzərdə tutulurdu) ibarət idi. Azərbaycan Respublikasının Prezidenti həmin təkliflərlə tam razı olmasa da, sülh prosesinin ölü nöqtədən çıxarılması məqsədi ilə həmsədrlərin hər iki təklifini qəbul etdiyi halda, Ermənistan Respublikası tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək təkliflərlə razılaşmadı.

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qəbul edilməsi mümkün olmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan «ümumi dövlət» ideyasına əsaslanırdı. Prezident Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən «ümümi dövlət» təklifi Azərbaycan Respublikasının mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşmanın göstəricisi idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan Respublikası tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Prezident Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən dövlət başçısı «ümumi dövlət» ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı ABŞ, Fransa və Rusiya dövlət başçılarını

münaqişənin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı.

«Ümumi dövlət» prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı, münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə danışıqlar prosesində durğunluq yarandı və münaqişənin həllində müsbət irəliləyiş əldə etmək mümkün olmadı.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin diqqətini artırmaq və daha çox dövlətin dəstəyini qazanmaq üçün Heydər Əliyev digər nüfuzlu beynəlxalq təşkilatların imkanlarından da səmərəli istifadə etmişdir. 1994-cü ilin dekabrında Prezident Heydər Əliyev İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VII konfransında iştirak etdi. Zirvə toplantısı dekabrın 13-dən 15-dək Kasablanka şəhərində (Mərakeş) keçirilirdi. Bu, islam ölkələri toplantısında Azərbaycan Respublikası rəhbərinin iştirak etdiyi ilk sammit, Azərbaycan həqiqətlərini bu ölkələrin rəhbərlərinə çatdırmaq üçün əldə olunmuş ilk geniş imkan idi. Heydər Əliyevin zirvə toplantısındakı dərin məzmunlu nitqi iştirakçılar arasında böyük əks-səda doğurdu, toplantıda Ermənistanın təcavüzünü pisləyən qətnamələrin qəbul olunmasında həlledici rol oynadı. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti bir sıra ölkələrin (Türkiyə Cümhuriyyəti, Misir Ərəb Respublikası, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Pakistan İslam Respublikası, İran İslam Respublikası, Səudiyyə Ərəbistanı Krallığı, Malayziya, Bruney, Fələstin, Maldiv Adaları və s.) dövlət və hökumət başçıları, xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirdi. Bu görüşlər Azərbaycan Respublikası ilə müxtəlif müsəlman ölkələri arasındakı əlaqələrin inkişafına və genişlənməsinə təkan verdi.

Zirvə toplantısı bilavasitə Azərbaycan Respublikası ilə bağlı iki qətnamə qəbul etdi. Birinci qətnamədə Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü 52 müsəlman dövləti tərəfindən pislənilir, Ermənistan silahlı qüvvələrinin, Şuşa və Laçın da daxil olmaqla, işğal edilmiş bütün Azərbaycan Respublikası ərazisindən qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Konfransın qəbul etdiyi ikinci qətnamə İKT-nin üzvü olan ölkələri, islam təsisatlarını və beynəlxalq təşkilatları təcavüzə məruz qalmış, bir milyondan artıq qaçqını və məcburi

köçkünü olan Azərbaycan Respublikasına iqtisadi və humanitar yardım göstərməyə çağırırdı.

Heydər Əliyevin dərin zəkaya, geniş dünyagörüşünə, dövlət idarəçiliyi sahəsində zəngin təcrübəyə malik olduğunu nəzərə alan İKT katibliyi və bir sıra dövlətlərin rəhbərləri ondan yekun iclasında Asiya dövlətləri adından nitq söyləməsini xahiş etmişdilər. Bu xahişi qəbul edən Azərbaycan Respublikasının Prezidenti iclasda qitə dövlətləri adından çıxış etmiş, konfransın yekunlarını təhlil etmiş və onun əhəmiyyətini yüksək qiymətləndirmişdi.

Kasablanka Zirvə toplantısından Bakıya qayıdarkən təyyarədə jurnalistlərə açıqlama verən Heydər Əliyev demişdir: «Ötən üç ildə Azərbaycan İKT ilə müəyyən əməkdaşlıq etsə də, bu, çox da səmərəli olmayıb. Ona görə də VII Zirvə toplantısında Azərbaycanın dövlət başçısı səviyyəsində iştirak etməsi, şübhəsiz, Azərbaycan Respublikasının beynəlxalq aləmdəki vəziyyəti və xarici siyasəti ilə əlaqədar böyük hadisədir... Eləcə də bu toplantının birinci hissəsində mənə söz verilməsi və çıxışımın böyük diqqətlə dinlənilməsi, bir çox dövlət başçılarının bu çıxış barədə müsbət rəyi, çıxışımın doğurduğu əks-səda onu göstərir ki, artıq Azərbaycan Respublikası özünə layiq olduğu yeri tutubdur...».

Azərbaycan Respublikası Prezidentinin səfərindən sonra İKT ölkəmizlə bağlı məsələləri daha ətraflı müzakirə etməyə, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar daha təsirli qərarlar qəbul etməyə başladı. Təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin 1995-ci ildə Konakridə, 1996-cı ildə Cakartada keçirilmiş konfransları İKT baş katibinin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məruzələrini müzakirə edərək, Ermənistanın təcavüzünü kəskin şəkildə pislədi. Hər iki konfransın qəbul etdiyi sənədlərdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili surətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyulmuşdu. Cakartada keçirilmiş XXIV konfransda ilk dəfə idi ki, İKT-nin 1993-cü ildən etibarən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi qətnamələrin adı dəyişdirilmiş, «Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamə» əvəzinə, «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə» adlandırılmışdı. Cakarta konfransı,

həmçinin ATƏT-in dövlət və hökumət başçılarının Lissabon Zirvə toplantısında ATƏT-in sədrinin Dağlıq Qarabağ probleminin həllinə dair bəyanatını dəstəklədiyini bildirmişdi.

İKT-nin VIII Zirvə toplantısı 1997-ci il dekabrın 9–11-də İranın paytaxtı Tehranda çağırılmışdı. Toplantıda 53 ölkənin nümayəndələri iştirak edirdi. Azərbaycan nümayəndə heyətinə dövlət başçısı Heydər Əliyevin özü rəhbərlik edirdi. Heydər Əliyev sammitdəki çıxışında dövlət və hökumət başçılarını daha fəal əməkdaşlıq etməyə dəvət etmiş, Ermənistanla münaqişənin ölkəmizə vurduğu ziyandan ətraflı bəhs edərək, İKT rəhbərliyini və üzv dövlətləri Azərbaycan Respublikasının haqq işini dəstəkləməyə çağırmışdı. Tehran konfransı bilavasitə Azərbaycana aidiyyəti olan iki qətnamə qəbul etdi. «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında» qətnamədə deyilirdi ki, İKT-nin üzvü olan dövlətlər Ermənistana silah və hərbi sursat verməkdən qəti imtina etməli, onların ərazisindən bu cür yüklərin tranziti üçün istifadə olunmasına yol verməməlidir. Sənəddə həmçinin BMT Təhlükəsizlik Şurasına Ermənistanın təcavüzü ilə bağlı qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin yerinə yetirilməsi üçün daha təsirli tədbirlər görmək tövsiyə olunurdu. Zirvə toplantısının qəbul etdiyi digər qətnamə üzv dövlətləri və islam təsisatlarını Azərbaycan hökumətinə və xalqına lazımi iqtisadi və humanitar yardım göstərməyə çağırırdı.

Tehran konfransından sonra Azərbaycanın müvafiq dövlət orqanları ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara çatdırılması üçün İKT-nin imkanlarından daha səmərəli istifadə etməyə başladılar. Azərbaycan tərəfinin xahişinə əsasən, 1998-ci il dekabrın 30-da təşkilatın baş katibi İzzəddin İraqi ATƏT-in sədri, Polşanın xarici işlər naziri B.Geremikə Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü ilə əlaqədar İKT-nin mövqeyi barədə məlumat verdi.

Heydər Əliyev İKT ilə yanaşı, bu quruma daxil olan ayrı-ayrı dövlətlərlə ikitərəfli əməkdaşlığın qurulması, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində onların potensialından istifadə edilməsi istiqamətində də ardıcıl iş aparmışdır [248, 526–537].

Azərbaycan Respublikasının 2001-ci il yanvarın 25-də Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olması mühüm problemlərimizin

dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün ölkəmizə yeni və çox mötəbər bir tribuna qazandırdı. Avropa Şurasının Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyətinə deputat İlham Əliyevin rəhbərlik etməsi ölkəmizin bu təşkilatdakı rolunu xeyli gücləndirmiş və qarşıya qoyulan bütün vəzifələrin reallaşdırılmasına şərait yaratmışdı.

2001-ci il aprelin 24–27-də Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyəti ilk dəfə bu qurumun sessiyasında tamhüquqlu üzv kimi iştirak edərək, plenar sessiyada dövlətçilik maraqları baxımından, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən bəzi əhəmiyyətli sənədləri yaymışdı. Bunlardan 9 ölkəni və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış «Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması» adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış «Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar» haqqında məlumat AŞPA-nın rəsmi sənədləri kimi yayılmışdı. Həmin sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin qətlə yetirilməsi, Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistanda, habelə işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlı girovun saxlanılması faktı və digər mühüm məsələlər öz əksini tapmışdı.

2001-ci il iyunun 25–29-da AŞPA-nın növbəti sessiyası zamanı Azərbaycan Respublikası ilə bağlı daha 2 mühüm sənəd qurumun rəsmi sənədləri kimi yayılmışdı. «Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Qubadlı, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan) ekoloji vəziyyət» adlanan birinci sənəddə Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində ekoloji vəziyyəti düşünülmüş şəkildə korlaması, «Azərbaycanın mədəni irsinin qəsb olunması və dağıdılması» adlı ikinci sənəddə isə işğal olunmuş Azərbaycan ərazilərində yerləşən mədəniyyət abidələri və sərvətlərin dağıdılması məsələsi Avropa ictimaiyyətinin diqqətinə çatdırılmışdı.

AŞPA-nın 2001-ci il sentyabrın 24–28-də keçirilən sessiyasında Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış «Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi» adlı digər bir mühüm sənəd yayılmışdı.

İlham Əliyev Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi ilk dəfə AŞPA kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin və daha 7 rayonunun işğal olunduğunu, işğal edilmiş ərazilərdə terrorçuların hazırlandığını, bu ərazilərin narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etmişdi. Azərbaycan təmsilçiləri Avropa Şurasını qaldırılan məsələlərə operativ və obyektiv münasibət bildirməyə çağırmışdılar.

Azərbaycan nümayəndə heyətinin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞPA-nın 2002-ci ilin sentyabrında keçirilən payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı.

2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə xüsusi diqqət yetirən İlham Əliyev bu məsələdə yalnız respublikamızın milli və dövlətçilik maraqlarını daim üstün tutduğunu nümayiş etdirmişdir. Azərbaycan Respublikasının Prezidenti bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək, Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç vaxt razılaşmayacağını, ehtiyac yarandığı halda hərbi əməliyyatların başlanmasına qərar verəcəyini vurğulamışdır. Bununla yanaşı, dövlət başçısı Azərbaycanın xarici siyasət xəttinin mühüm tərkib hissələrindən birinə çevrilən Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllinin tərəfdarı olduğunu bildirərək, beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.

Azərbaycan Respublikasının parlament nümayəndə heyətinin səyi ilə AŞPA-da obyektiv müsbət rəyin formalaşması nəticəsində 2005-ci ilin qış sessiyasında qəbul edilən sənədin ölkəmiz üçün böyük əhəmiyyəti vardır.

Bu sənədin qəbul edilməsindən əvvəl AŞPA rəhbərliyi qurum çərçivəsində obyektivliyi ilə tanınan və Parlament Assambleyasının Avropa demokrat qrupunda Böyük Britaniyanı təmsil edən Devid Atkinsona «ATƏT-in Minsk qrupu tərəfindən araşdırılan Dağlıq Qarabağ münaqişəsi» mövzusunda məruzə hazırlamağı və müzakirəyə təqdim etməyi tapşırmışdı.

2005-ci il yanvarın 25-də Devid Atkinsonun müzakirəyə çıxarılan məruzəsi qətnamə və tövsiyə adlanan iki hissədən ibarət idi. Məruzənin qətnamə hissəsində deyilirdi: «Assambleya hərbi əməliyyatların başlamasından keçən on ildən artıq müddətdə Dağlıq Qarabağ regionunda münaqişənin həll edilməməsinə təəssüfləndiyini və yüz minlərlə insanın hələ də məcburi köçkün vəziyyətində ağır şəraitdə yaşadığını bildirir». Sənəddə Azərbaycan Respublikasının ərazilərinin böyük bir hissəsinin hələ də Ermənistan qoşunlarının işğalı altında olduğu və separatçı qüvvələrin Dağlıq Qarabağ regionuna nəzarət etdiyi göstərilirdi.

Məruzənin ikinci bəndində Ermənistan Respublikasının yeritdiyi etnik təmizləmə siyasəti pislənərək deyilirdi: «Assambleya dəhşətli etnik təmizləmələrlə müşayiət olunan hərbi əməliyyatların monoetnik ərazilərin yaranmasına gətirib çıxarmasından narahatlığını bildirir». Bununla yanaşı, sənəddə göstərilirdi ki, Avropa Şurasının üzvü olan ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir və Assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu təsdiqləyir.

Məruzənin üçüncü bəndində isə deyilirdi ki, Assambleya tərəfləri BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinə qayıtmağa və onları yerinə yetirməyə çağırır. Bununla yanaşı, sənəddə deyilirdi: «Assambleya ATƏT-in Minsk qrupunun üzvü olan ölkələri münaqişənin həlli istiqamətində səyləri artırmağa və bu ölkələrin AŞPA-dakı milli nümayəndə heyətlərini öz hökumətlərinin bu istiqamətdəki fəaliyyətləri barədə hesabat verməyə çağırır. Bu məqsədlə Assambleya xahiş edir ki, AŞPA Bürosu ölkələrin milli nümayəndə heyətlərinin rəhbərlərindən ibarət xüsusi komitə yaradılmasını təmin etsin».

Avropa Şurası kimi nüfuzlu bir beynəlxalq təşkilatın qəbul etdiyi bu sənədlər münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həlli prosesində böyük əhəmiyyətə malikdir. Eyni zamanda məruzə və qəbul edilən sənədlər münaqişənin həlli ilə birbaşa məşğul olan ATƏT-in Minsk qrupu üçün də əhəmiyyətli sayılmalıdır və o, bu sənədə laqeyd yanaşmamalıdır.

Beynəlxalq təşkilatların Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesindəki səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq, münaqişənin dinc vasitələrlə aradan qaldırılması istiqamətində yeni formatda addımlar atılmışdır. Bu, Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin birbaşa dialoqunun aparılmasıdır. Həmin vaxtdan iki respublikanın prezidentləri dünyanın müxtəlif şəhərlərində onlarca görüş keçirmişlər. Münaqişənin dinc yolla aradan qaldırılması imkanlarının tükənmədiyini bildirən prezidentlər hələlik dialoqun davam etdirilməsini zəruri hesab edirlər.

Beləliklə, Azərbaycan Respublikası üçün çətin, əlverişsiz xarici şəraitin olduğu bir vaxtda hakimiyyətə gəlmiş Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və gərgin əməyi sayəsində, ilk növbədə, milli mənafeyimizə xidmət edən, beynəlxalq aləmdə ölkəmizin yerini, rolunu və təsir gücünü müəyyənləşdirən vahid xarici siyasət strategiyası formalaşdırıldı. Azərbaycan Respublikasının ətrafında yaradılmış informasiya blokadası yarıldı, onun geosiyasi vəziyyəti, daxili ictimai-siyasi durumu, xarici siyasətinin mahiyyəti və əsasları haqqında dünyada müsbət ictimai fikir yaradıldı, erməni millətçilərinin və digər bədxah qüvvələrin dövlətimiz və xalqımız barədə apardığı yanlış təbliğata güclü zərbə vuruldu. Eyni zamanda ölkəmizin müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün beynəlxalq aləmdə müdafiə olunmasına təsir göstərə bilən dövlət və təşkilatlarla hərtərəfli münasibətlər yaradıldı. Bütün bunlar Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll olunması üçün əlverişli zəmin hazırlaması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin yaratdığı möhkəm bünövrə üzərində münaqişənin sülh yolu ilə həlli istiqamətində səyləri davam etdirir. Ümummilli liderin xarici siyasət xəttinin yaradıcılıqla həyata keçirilməsi, Azərbaycan Respublikasının iqtisadi potensialının və müdafiə qabiliyyətinin durmadan gücləndirilməsi danışıqlar prosesində müəyyən irəliləyişlərə nail olmağa imkan vermişdir. Son vaxtlar Minsk qrupu həmsədrlərinin fəallaşması, habelə regionda gedən proseslərə həlledici təsir göstərmək imkanına malik olan dövlətlərin sülh danışıqlarına əlavə dəstək verməsi Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət strategiyasının alternativsiz olduğunu bir daha təsdiq edir.

V FƏSİL

HEYDƏR ƏLİYEV
və
AZƏRBAYCAN RESPUBLİKASINDA MİLLİ MƏNƏVİ TƏRƏQQİ

5.1. Elmin inkişafı

Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandıqdan və beynəlxalq hüququn subyekti olduqdan sonra xalqımızın ictimai-siyasi, milli mənəvi və mədəni həyatında keyfiyyətcə yeni bir mərhələ başlanmışdır. Xüsusən 1993-cü ildən sonra respublikamızın dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində Heydər Əliyev tərəfindən görülən nəhəng işlər, aparılan məqsədyönlü daxili və xarici siyasət ganc müstəqil dövlətin beynəlxalq nüfuzunu artırmış, Azərbaycan Respublikası dünya birliyinin tam və bərabərhüquqlu üzvünə çevrilmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə öz zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması sayəsində ardıcıl olaraq milli tarix siyasəti işləyib hazırlamış və onu dönmədən həyata keçirmişdir. Xalqın mənəvi aləminin milli və bəşəri dəyərlər əsasında daha da zənginləşməsinə, elmin, təhsilin inkişafına, habelə milli mentalitetə yad elementlərin qətiyyətlə dəf olunmasına istiqamətləndirilmiş bu siyasət Azərbaycan milli dövlətçiliyinin daha da möhkəmlənməsinə, əbədi olmasına möhkəm zəmin yaratmışdır.

Azərbaycan Respublikasında həyatın bütün sahələri kimi, elm və təhsilin coşqun inkişafı da Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünə təsadüf edir. Həmin dövrdə bugünkü müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi, elmi-texniki potensialının möhkəm təməli qoyulmuşdur. Lakin 1980-ci illərin sonu – 90-cı illərin əvvəlində ölkə həyatının bütün sahələri, o cümlədən elm və təhsil də dərin böhran keçirirdi. Azərbaycan elmi sahəsində formalaşmış

mütərəqqi ənənələr unuduldu, elmə, maarifə, təhsilə dövlət qayğısı heçə endirildi, elmi müəssisələrin, təhsil ocaqlarının binaları hərraca qoyuldu, elmə maraq azaldı, ölkədən xaricə beyin axını gücləndi. AXC-Müsavat iqtidarı Azərbaycan Elmlər Akademiyasına qərəzli mövqedən yanaşır, onun səmərəsizliyi, hətta akademiyanın ləğv olunması barədə mürtəce fikirlər yayırdı.

1993-cü ildə Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra elm sahəsində də tənəzzülün, böhranın, dağılmanın qarşısı alındı. Təsadüfi deyil ki, Heydər Əliyev hələ Azərbaycan Respublikasının Prezidenti seçilməzdən əvvəl ziyalılarla ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Elmlər Akademiyasında keçirmişdi. Bu, həm də ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizliklərdən irəli gələn narahatlıqla bağlı idi. Heydər Əliyev həmin görüşdə belə narahatlıqların əsassızlığını və yalnız naqis adamların təxəyyülünün məhsulu olduğunu bildirərək demişdir: «Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir... Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir» [9, 161-162]

Bununla Heydər Əliyev dövlətçilik ənənələrini sistemli şəkildə davam etdirən görkəmli dövlət xadimi kimi yeni yaratmağa başladığı müstəqil dövlətin bünövrəsinin elmi sütunlar üzərində qurulduğunu, intellektual potensiala arxalandığını ictimai fikrə çatdırdı. Bu, bir tərəfdən, Ümummilli liderin Azərbaycan elminə, intellektinə böyük hörmətinin təsdiqi idisə, digər tərəfdən, Azərbaycan ziyalılarının Heydər Əliyev şəxsiyyətinə sonsuz inam və yüksək etimadının bariz nümunəsi idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev AMEA-nın 60 illik yubileyində çıxışında məhz bu məqamı xatırlayaraq demişdir: «O görüş rəmzi xarakter daşıyırdı. Çünki Azərbaycan alim-

ləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivliyini xeyli dərəcədə müəyyən edir» [85, 13].

Ümummilli liderin Azərbaycan elminin gələcək inkişaf yollarına dair bu tarixi nitqindən sonra həmin istiqamətdə dövlət siyasətinin əsasları işlənilməyə, bu sahədə inkişaf strategiyasını müəyyən edən islahatlar proqramının hazırlanmasına başlanıldı.

Heydər Əliyev elmi, alimi həmişə yüksək qiymətləndirmişdir. O, 1997-ci il iyulun 3-də Rusiya Elmlər Akademiyasının tanınmış elm adamları ilə görüşündə bir daha vurğulamışdır: «Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam... Ona görə ki, elm adamları müstəsna adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdır...bu insanlar ən böyük hörmətə layiqdirlər» [18, 261-262].

Respublika Elmlər Akademiyasında yaranmış vəziyyət Azərbaycan milli elminə daim hamilik etmiş Heydər Əliyevi ciddi narahat edirdi. 1997-ci il yanvarın 31-də Azərbaycan Elmlər Akademiyasının rəhbərliyini, alimlərin bir qrupunu Prezident sarayında qəbul edərkən Heydər Əliyev demişdir: «Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir. O, dövlətə məxsusdur. Bu akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaq. Biz bu akademiyanın hörmətini həmişə qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, akademiyamız, yüksək səviyyəli elmi tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz» [16, 367].

Bu görüş Azərbaycan elminin və Elmlər Akademiyasının tarixində böyük əhəmiyyət kəsb etməklə elmimizin nüfuzunu yenidən artırdı, onun cəmiyyətdəki rolunu və mövqeyini möhkəmləndirdi. Heydər Əliyev həmin görüşdə elmimizin qarşısında duran problemlərin dərindən təhlilini verərək, dünya səviyyəli elmi işlərlə bərabər, həm də dövlətimizə, xalqımıza lazım olan elmtutumlu strateji problemlərlə məşğul olmağı məsləhət gördü. Azərbaycanda elm sahəsində islahatların aparılmasının vacibliyini təsdiqlədi, elmin inkişaf strate-

giyasının əsas müddəalarını, Elmlər Akademiyasının onlardan irəli gələn vəzifələrini müəyyənləşdirdi [44, 166].

Həmin gün dövlət başçısı Elmlər Akademiyasında çalışan bütün işçilərin əməkhaqqının 50 faiz artırılması haqqında sərəncam imzalamışdı. Eyni zamanda Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərinin rütbə məvacibi də artırılmışdı.

Bu görüşdən sonra Elmlər Akademiyasının Rəyasət Heyəti Prezidentin tövsiyələrini rəhbər tutaraq islahatların aparılması, akademiyanın idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi idarə və elmi xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədilə bir sıra tədbirlər gördü. «Elmin strateji inkişafı və Azərbaycan MEA-da islahatların konsepsiyası», «Elm siyasəti haqqında» qanun layihəsi hazırlandı.

Konsepsiyada elmi-texniki sahədə prioritetlərin müəyyən edilməsi və mövcud elmi potensialın bu istiqamətlərə yönəldilməsi, elmi-texniki kompleksin islahatı, Azərbaycan xalqının rifahının və iqtisadi yüksəlişinin təmin edilməsi üçün texnoloji bazanın yaradılması və nəhayət, elmi kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi və inkişafı üçün lazımi şəraitin yaradılması Elmlər Akademiyasının qarşısında duran əsas məsələlər kimi müəyyənləşdirilmişdir.

Elmi tədqiqatların daha səmərəli aparılması, Elmlər Akademiyasının fəaliyyətinin təkmilləşdirilməsi struktur dəyişikliklərini zəruri etmişdi. 1993-cü ildə Arxeologiya və Etnoqrafiya Bölməsi müstəqil institута çevrildi, İctimai Elmlər üzrə Elmi Məlumat Mərkəzi əsasında İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutu, Mikrobiologiya Sektoru əsasında eyniadlı institut yaradıldı.

Prezident Heydər Əliyevin 2001-ci il 15 may tarixli Fərmanına əsasən, Azərbaycan Elmlər Akademiyası Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) adlandırıldı.

2001-ci ilin iyun ayında bilavasitə Heydər Əliyevin israrlı təkidi nəticəsində 1989-cu ildən sonra ilk dəfə AMEA-da seçkilər keçirildi. Dövlət başçısı seçki ərəfəsində AMEA-nın həqiqi və müxbir üzvlərinin sayının 200 nəfər müəyyən edilməsi barəsində xüsusi sərəncam imzalamışdı. Bu seçkilərdə müxtəlif ixtisaslar üzrə 500-ə yaxın iddiaçı sırasından 29 akademik və 91 müxbir üzv seçildi. 2002-ci ilin əvvəlində

AMEA-da 60 akademik, 113 müxbir üzv, 3899 elmi işçi, o cümlədən 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı [406, 237].

Azərbaycan MEA-nın strukturunu təkmilləşdirmək, elmi-texniki potensialdan istifadənin səmərəliliyini artırmaq və onu prioritet istiqamətlərə yönəltmək məqsədilə Nazirlər Kabinetinin «Azərbaycan Milli Elmlər Akademiyasında struktur dəyişiklikləri haqqında» 2002-ci il 21 may və 2003-cü il 30 yanvar tarixli qərarları ilə AMEA-nın Fizika və Fotoelektronika institutlarının bazasında Fizika İnstitutu, Kimya Texnologiyasının Nəzəri Problemləri və Qeyri-Üzvi və Fiziki Kimya institutlarının bazasında Kimya Problemləri İnstitutu, Fəlsəfə və Hüquq, Milli Münasibətlər, İctimai-Siyasi Tədqiqatlar və İnformasiya institutlarının bazasında Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Radiasiya Tədqiqatları Sektorunun bazasında Radiasiya Problemləri İnstitutu, İnformasiya-Telekommunikasiya Elmi Mərkəzinin bazasında İnformasiya Texnologiyaları İnstitutu, Geologiya və Dərin Neft və Qaz Yataqları Problemləri institutlarının bazasında Geologiya İnstitutu, Genetika və Seleksiya İnstitutunun bazasında Genetik Ehtiyatlar İnstitutu yaradıldı.

Demokratik, hüquqi dövlət quruculuğu yoluna çıxmış respublikada insan hüquqları və azadlıqları probleminə dair elmi tədqiqat işlərinin aparılması, elmi, hüquqi tövsiyələrin hazırlanması və bu sahədə biliklərin dərinləşdirilməsi məqsədilə Prezident Heydər Əliyevin 1998-ci il 30 noyabr tarixli sərəncamına əsasən, 1999-cu ildə Elmlər Akademiyasının İctimai elmlər bölməsi nəzdində İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutu təşkil olundu [96, 50].

Azərbaycan Respublikasında elmi tədqiqatların daha da səmərəli təşkil edilməsi və təkmilləşdirilməsi məqsədilə Prezidentin «Azərbaycan Milli Aerokosmik Agentliyi haqqında» 2003-cü il 4 yanvar tarixli fərmanının icrası ilə əlaqədar AMEA Rəyasət Heyətinin qərarına əsasən, Azərbaycan Milli Aerokosmik Agentliyi mövcud strukturu ilə AMEA-nın Yer Elmləri Bölməsinin tərkibinə daxil edildi.

Dövlət başçısının qəbul etdiyi qərarlar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmış, AMEA-nın fəaliyyətinə müsbət təsir göstərmişdir. Görülən işlər elmi potensialdan düzgün və səmərəli istifadə etməyə, paralelçilikdən və təkrardan azad olmağa, ən başlıcası isə alimlərin səylərini Azərbaycan Respublikasının inkişafı

üçün vacib olan ictimai, siyasi, sosial-iqtisadi və mədəni problemlərin həllinə xidmət edən tədqiqatların aparılmasına yönəltməyə imkan vermişdir.

Naxçıvan MR-in geosiyasi vəziyyətini nəzərə alaraq, elmi tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, diyarın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə Prezident Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli sərəncamına əsasən, AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. Ümummilli lider bu münasibətlə Naxçıvan MR Ali Məclisində keçirilmiş müşavirədə Bölmənin qarşısında duran vəzifələrdən danışarkən demişdir: «Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və bu sahələr haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib, bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur... Bir sözlə, mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın Milli Elmlər Akademiyası bu sərəncamla çox böyük və vacib işə başlayacaqdır. Bu, təkcə Naxçıvana aid olan iş deyildir. Bunun mənim üçün dərin mənası var, o mənada ki, bizim Azərbaycan xalqının tarixinə, ölkəmizin tarixinə aid olan bir məsələdir. Mən bu məsələni bundan ötrü qaldırmışam».

Keçmiş Naxçıvan Regional Elmi Mərkəzinin bazasında yaradılmış Bölmədə Tarix, Etnoqrafiya və Arxeologiya, [467] İncəsənət, Dil və Ədəbiyyat, Bioresurslar institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası üçün hər cür şəraiti olan müasir tipli binalar tikilib istifadəyə verilmiş, yeni laboratoriyalar yaradılaraq ən müasir avadanlıqla təchiz olunmuşdur.

Prezidentin «Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında» 2003-cü il 4 yanvar tarixli fərmanı Ümummilli lider Heydər Əliyevin ölkə elminə diqqət və qayğısının daha bir bariz nümunəsi idi. Fərman-

da xüsusi vurğulanır ki, «Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən elmi təşkilatdır» [392, 2003, 5 yanvar].

Bununla da Akademiyaya müstəqil dövlətimizin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət orqanı statusu verildi. Dövlət başçısının həmin fərmanı ilə AMEA-nın Nizamnaməsi də təsdiq olundu [399, 47]. Beləliklə, Azərbaycan MEA-nın hərtərəfli inkişafı üçün yüksək səviyyədə hüquqi zəmin yaranmış, akademiyanın fəaliyyət dairəsi genişlənmiş, səlahiyyətləri artmış və onun qarşısına məsul vəzifələr qoyulmuşdur.

Azərbaycan elminin maddi bazasının keyfiyyətcə yaxşılaşması üçün də konkret tədbirlər görülürdü. Dövlət büdcəsindən elmə ayrılan xərclər yeni manatla 1995-ci ildə 3,9 milyon manat, 2000-ci ildə 9,3 milyon, 2001-ci ildə 9,4 milyon, 2002-ci ildə 11,4 milyon, 2003-cü ildə isə 16,6 milyon manat olmuşdu.

Ayrılan büdcə vəsaitinin artması aparılan elmi-texniki işlərin həcminə də müsbət təsir göstərmişdi. AMEA-nın institutlarında 1995-ci ildə (yeni manatla) 1371,1 min manatlıq, 2000-ci ildə 4420 min, 2001-ci ildə 4429 min, 2002-ci ildə 5344 min, 2003-cü ildə isə 8358,7 min manatlıq elmi-texniki işlər aparılmışdı [406, 247, 252].

1991–2001-ci illərdə AMEA-nın müəssisələrində 1644 mühüm nəticə alınmış, 20 minə yaxın məqalə (3000-i xaricdə) çap olunmuş, 200-ə yaxın doktorluq, 650-dək namizədlik dissertasiyası müdafiə edilmiş, 504 iş istehsalata tətbiq olunmuşdu [115, 16].

Elmi və elmi-pedaqoji kadrlar hazırlanması işini tənzimləmək üçün 1992-ci il aprelin 23-də Azərbaycan Ali Attestasiya Komissiyası (1994-cü ildən Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyası) təşkil edilmişdi. Bu komissiya Ali Attestasiyalar Komissiyaları Beynəlxalq Assosiasiyasına üzv qəbul olunmuşdur. Respublikanın elm və təhsil müəssisələrində 140-a yaxın ixtisas üzrə doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üçün ixtisaslaşdırılmış elmi şuralar fəaliyyət göstərir. Bakı ilə yanaşı, Naxçıvan, Gəncə, Lənkəran şəhərlərinin ali təhsil müəssisələrində də belə şuralar yaranmışdı [279, 281].

Bu illərdə Azərbaycan elmi mühüm uğurlar qazanmışdı. Riyaziyyat, fizika, neft kimyası, geologiya, biologiya, humanitar və ictimai elmlər sahəsində nəzəri və praktik əhəmiyyətə malik elmi nəticələr əldə edilmişdi. Azərbaycan Milli Aerokosmik Agentliyinin Xüsusi kosmik cihazqayırma konstruktor bürosunda günəş küləklərinin Yerin maqnit sahəsinə təsirini öyrənən nadir aerokosmik cihaz yaradılmışdı.

Bakının neftayırma zavodlarında Azərbaycan və Qazaxıstan neftinin müxtəlif nisbətlərdə qarışıqlarının emal variantları tədqiq olunmuşdu. Kimyaçı alimlər mürəkkəb həndəsi formalı səmərəli alüminium-karkas katalizatorları işləyib hazırlamışlar. Dəmirin yeni monoalkil törəməsi sintez edilmiş və o, əvvəllər təklif edilən metal törəmələri ilə müqayisədə benzinlərə oktanyüksəldici əlavə kimi tədqiq olunmuşdur. Bakı yağları və yeni aşqar kompozisiyaları əsasında xüsusi texnikada istifadə olunan yüksəksürətli dizel mühərrikləri üçün sürtgü yağı alınmışdır [93, 29-30].

Azərbaycan Respublikasının neft sənayesinə geniş xarici sərmayələr cəlb olunması neft, neft kimyası, neft-qaz quyularının qazılması və istismarı ilə bağlı elmi tədqiqatların genişlənməsinə imkanlar açır, alimlərimiz böyük elmi və praktik əhəmiyyəti olan tədqiqatlar aparırdılar.

Azərbaycan geoloqları respublikanın və həmsərhəd ölkələrin Xəzər akvatoriyasının palçıq vulkanlarının yeni xəritəsini tərtib etmişlər. Azərbaycanın çökmə süxur qatlarının müxtəlif litoloji tərkibi kollektorlarında gedən deformasiya proseslərinin eksperimental tədqiqi aparılmış və onların mexanizmi öyrənilmişdir ki, bu da təzyiqin boşalma əmsallarının süxurların parametrlərinə təsirinin kəmiyyətcə qiymətləndirilməsinə imkan vermişdir.

Azərbaycan geofizikləri Aşağı Kür çökəkliyində beş strukturdan ibarət tektonik zona kəşf etmiş və onu Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi şərəfinə «Qayıdış zolağı» adlandırmışlar.

«Şahdəniz» yatağında böyük qaz ehtiyatları, respublikada yeni qızıl yataqları kəşf olunmuşdur. İlk dəfə olaraq Azərbaycanın IV dövr paleocoğrafi atlası və 50-dən çox paleocoğrafi, paleoiqlim, paleobotaniki xəritələr hazırlanmışdır. NATO-nun «Sülh naminə elm» proqramı çərçivəsində Bakı–Supsa neft kəmərinin ekoloji inspeksiyalarında, beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən «Səhralaşmaya qarşı

mübarizə», «Çirklənməyə nəzarət» layihələrinin icrasında Azərbaycanın coğrafiyaşünas alimləri də fəal iştirak etmişlər.

Azərbaycanda molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, riyazi biologiya və bioinformatika üzrə tədqiqatlar genişlənmişdir.

Torpaqşünas alimlər tərəfindən Azərbaycanın torpaq örtüyünün təsnifatı hazırlanmış və «Azərbaycan dövlət torpaq xəritəsinin legendası» kitabı nəşr edilmişdir. İlk dəfə olaraq respublikada antropogen mənşəli torpaqların tam təsnifatı müəyyənləşdirilmişdir.

Heydər Əliyev milli özünəməxsusluğun ən mühüm təzahürü olan Azərbaycan dilinin inkişafı, onun təmizliyinin qorunması, dövlət dili statusunun tətbiqinə daim böyük diqqət göstərmişdir. O deyirdi: «Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Hər bir xalq öz dili ilə tanınır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur» [204, 23].

Prezident Heydər Əliyev 2001-ci il iyunun 18-də «Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında» fərman vermiş, dövlət başçısının yanında Dövlət Dil Komissiyası yaradılmış, 2002-ci il sentyabrın 30-da «Azərbaycan Respublikasında dövlət dili haqqında» qanun qəbul edilmişdir. Prezidentin fərmanı ilə hər il avqustun 1-i «Azərbaycan əlifbası və Azərbaycan dili günü» kimi qeyd olunur.

Azərbaycan dilinin dövlət dili kimi yaşaması, statusunun möhkəmlənməsi və inkişafını ən böyük uğurlarımızdan biri, bunun təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsi olduğunu [307, 20] vurğulayan Prezident Heydər Əliyevin dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında fərmanının da əsas məqsədi «Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən sayılan Azərbaycan dilinin tətbiq və inkişaf etdirilməsinə dövlət qayğısının artırılması, ana dilimizin öyrənilməsi, tədqiqinin genişləndirilməsi, dilimizin cəmiyyətdə tətbiq dairəsinin və bu işə nəzarətin genişləndirilməsi» idi [260, 252].

Heydər Əliyevi ən çox maraqlandıran məsələlərdən biri də Azərbaycan tarixinin öyrənilməsi, tədqiqi və təbliği idi. O, 1997-ci ildə Elmlər Akademiyasında görüşdə demişdir: «Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirli humanitar elmlərdir. Və xüsusən...onun

ədəbiyyatının, mədəniyyətinin tarixidir. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya və başqa fənlər hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi vardır. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq lazımdır. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır» [16, 367].

Ümummilli lider Azərbaycanın çoxəsrlik tarixinin dərindən tədqiqinin aktuallığını vurğulayaraq deyirdi ki, «bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX və XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb» [9, 154].

Heydər Əliyev tarixi təhrif etmədən, olduğu kimi yazmağın vacibliyini xatırladırdı. O, tarix elminin mühüm problemlərinin obyektiv tədqiq edilməsi sahəsində özünün konsepsiyasını irəli sürmüşdü ki, bu da tariximizin işlənməsində mühüm elmi-metodoloji əhəmiyyət kəsb edir. Heydər Əliyevin son dövrə qədər Azərbaycan tarix elmində unudulmuş səhifələrin açılmasında, bir çox məsələlərin yeni konsepsiyada işlənilməsinin metodikasının müəyyən edilməsində xidmətləri böyük elmi-nəzəri əhəmiyyət daşıyır. Məsələn, onun akademiyanın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunmuş müşavirədəki çıxışında deyilirdi: «... Mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. ...İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-birilə çox bağlı idi. İndi ermənilər deyirlər ki, yox, orada ermənilər olubdur. Amma həqiqətən İrəvan xanlığıdır. Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız. İrəvan xanlığı haqqında Ermənistanda tapmadığınız materialları Rusiyanın arxivlərində, Sankt-Peterburqda, rus imperiyasının arxivlərində tapacaqsınız və görəcəksiniz ki, nələr var» [467]. Onun azərbaycanlıların soyqırımı, Qərbi Azərbaycan tarixinin öyrənilməsi, Azərbaycanın İran tərəfindən işğalı, Şimali Azərbaycan xanlıqlarının Rusiya imperiyası tərəfindən zəbt olunması, 1918–1920-ci illərdə Şimali Azərbaycanda yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövləti tarixinin həqiqətlərinin üzə çıxarılması və s. məsələlərin zəruriliyinin tarix elminin mühüm bir problemi kimi rəsmi şəkildə əsaslandırması tariximizə, millətimizə böyük elmi xidmət nümunəsidir [413, 25–48].

Sonrakı illərdə bu sahədə tədqiqatlar daha geniş şəkil aldı, 7 cildlik «Azərbaycan tarixi», çoxsaylı digər əsərlər yazıldı. Azərbaycan

Respublikasının müxtəlif bölgələrində arxeoloji tədqiqatlar aparıldı, ilk dəfə olaraq, «Azərbaycan arxeoloji abidələr bankı» yaradıldı.

Ümummilli lider 1930-cu illərdə repressiyaların qurbanı olmuş, «xalq düşməni» damğası vurulmuş görkəmli şəxsiyyətlərimizin adlarının tariximizə qaytarılmasına da çox böyük diqqət yetirirdi. O, 1993-cü ildə akademiyanın alimləri ilə görüşündə demişdir: «Şübhəsiz, bu dövrün çox qaranlıq səhifələri də var – 37-38-ci illər, elə 20-ci illərin əvvəlləri, 30-cu illər, repressiya illəri, qanunsuzluq, insan hüquqlarının pozulması, Azərbaycan xalqına böyük zərbələr vurulması...[9, 158] 20-ci illərin, 30-cu illərin repressiyaları on minlərlə insan həyatını məhv etmişdir. On minlərlə azərbaycanlı öz yurdlarından uzaq yerlərə sürgün olunmuşdur. Onların hüquqları pozulmuş, var-yoxları əllərindən alınmış, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni və mənəvi irsə böyük zərbələr vurulmuşdur. O illərin qurbanları minlərlə, on minlərlə, bəlkə yüz minlərlə olmuşdur [204, 18].

1996-cı ilin martında «Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında» qanun qəbul edilmişdir [395, 368].

Heydər Əliyev respublikaya rəhbərliyinin birinci dövründə Şabranda aparılan elmi tədqiqat və elmi-bərpa işlərinin yarımçıq qalmasından narahat idi və vaxtilə hazırlanmış kompleks tədbirlər planının həyata keçirilməsini sürətləndirmək məqsədilə 2003-cü ildə «Şabran tarixi-arxeoloji qoruğu» haqqında yeni sərəncam vermişdi. Həmin il o, «Çıraqqala tarixi abidələr kompleksinin bərpası və qorunması» barədə də sərəncam imzalamışdı.

Bakının tarixi guşəsi olan İçərişəhərin qorunması və bərpası da Heydər Əliyevin diqqət mərkəzində idi. Onun «Bakı şəhərində İçərişəhər tarixi-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında» 2003-cü il 17 fevral tarixli sərəncamının bu nadir kompleksin gələcək nəsillər üçün qorunub saxlanması baxımından çox mühüm rolu olmuşdur [380, 196]. Milli Elmlər Akademiyasının beynəlxalq əlaqələri də inkişaf edir və daha intensiv xarakter alırdı. AMEA ilə dünyanın bir sıra aparıcı elm mərkəzləri arasında əməkdaşlıq haqqında müqavilələr imzalanmış, akademiyanın onlarca alimi xarici ölkələrin qabaqcıl elm mərkəzlərinin, elmlər akademiyalarının üzvü seçilmişdi. Alimlərimiz müxtəlif ölkələrə elmi ezamiyyətlərə gedir, simpoziumlarda və elmi konfranslarda iştirak edirdilər.

Xarici elmi mərkəzlərlə əməkdaşlıq haqqında 25-dən çox ikitərəfli müqavilə və protokol imzalanmışdır. ABŞ-ın Mülki Tədqiqatlar və İnkişaf Fondu (MTİF) tərəfindən MEA-da müstəqil, ictimai, qeyri-kommersiya xarakterli Azərbaycan Milli Elm Fondunun (AMEF) təsis edilməsi akademiyanın həyatında mühüm hadisələrdən biridir. Belə ki, bu fonda ayrılmış vəsait hesabına Azərbaycan alimləri elan olunmuş elmi proqramların müsabiqələrində iştirak edərək, qrantlar əldə etmək hüququ qazanırlar. 2001-ci ildə AMEA Ukraynada yerləşən və böyük maliyyə vəsaitinə malik olan Beynəlxalq Elm və Texnologiya Mərkəzinə (BETM) üzv seçilmişdir [97, 142]. Elmlər Akademiyasında «Bakı qovşağı» adlı Beynəlxalq Kompyuter Mərkəzi təşkil olunmuşdur. Yeni elektron rabitə vasitələri azərbaycanlı alimlərə Transavropa tədqiqat və yaradıcılıq şəbəkəsi ilə əlaqə yaratmağa imkan verdi, indi dünya azərbaycanlı alimlərin əsərləri, elmi xidmətləri ilə daha yaxından tanış ola bilir. 1996-cı ildə Bakıda Soros Fondunun imformasiya mərkəzi fəaliyyətə başladı. Bu Fond Elmlər Akademiyasının İnternetlə əlaqə yaratmasına kömək etmiş, elmin inkişafı üçün 93 qrant ayırmışdı [279, 282].

Azərbaycan Elmlər Akademiyası MDB Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının yaradılmasının təşəbbüsçülərindən olmuşdur. Bu qurum postsovet respublikaları alimlərinin keçmiş əlaqələrinin bərpa olunmasına, yeni elmi əlaqələrin yaranmasına imkanlar açmışdır.

Ümummilli lider Heydər Əliyevin görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin yubileylərinin, xalqımızın qəhrəmanlıq dastanı «Kitabi-Dədə Qorqud»un 1300 illiyinin geniş miqyasda qeyd olunması ilə bağlı gördüyü işlər respublikanın həyatında əlamətdar hadisələrə çevrilməklə yanaşı, yeni-yeni elmi əsərlərin yazılması, Azərbaycan elminin və mədəniyyətinin dünyada tanıdılması, azərbaycançılıq ideologiyasının formalaşdırılması baxımından çox böyük əhəmiyyət kəsb edirdi.

Heydər Əliyevin vurğuladığı kimi, Məhəmməd Füzulinin 500 illiyinə həsr olunmuş təntənələr məhz müstəqillik dövründə keçirilməsi baxımından Azərbaycan dövlətçiliyinin, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bayramı oldu. «Dədə Qorqud» eposunun yubileyinin çox geniş miqyasda, əzəmətli tədbirlərlə keçirilməsi, «Kitabi-

Dədə Qorqud» ensiklopediyasının yaradılması, həqiqətən, onu birdəfəlik Azərbaycan xalqının mənəvi sərvətinə çevirdi, bu eposun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya tanıtdı [307, 57, 60-61]. Prezident Heydər Əliyev görkəmli elm xadimlərinin yubileylərinə təkcə onların xidmətlərinin qiymətləndirilməsi kimi baxmır, bu tədbirlərin daha geniş məna daşıdığını vurğulayırdı. Bu baxımdan, onun Azərbaycan elminin ən parlaq nümayəndələrindən olan akademik Yusif Məmmədəliyevin abidəsinin açılışında dediyi sözlər olduqca ibrətamizdir: «Yusif Məmmədəliyevin həyatı, yaradıcılığı, əsərləri və qoyduğu böyük elmi irs Azərbaycan xalqının tarixinin böyük bir fəslidir, hissəsidir, parçasıdır. Bu insan öz zəkası, biliyi, istedadı, fədakarlığı, elmi ixtiraları ilə, elmi əsərlər yaratmaqla, həm də ümumən Azərbaycan elmini təşkil etmək, inkişaf etdirmək sahəsindəki fəaliyyəti ilə Azərbaycan xalqının tarixinə daxil olmuşdur ... Bu gün Yusif Məmmədəliyevin xatirəsinə həsr olunmuş heykəlin, abidənin burada, Bakının mərkəzində, Elmlər Akademiyasının yanında ucaldılması da əsaslıdır və ədalətlidir. Çünki onun Azərbaycan elminin inkişafındakı xidmətləri və eyni zamanda Azərbaycan elminin təşkilində, bütün elmlərin mütəşəkkil inkişafındakı xidmətləri belə bir qərarı qəbul etməyə əsas vermişdir. Güman edirəm ki, bu abidə də, Yusif Məmmədəliyevin şəxsiyyətini, simasını əks etdirən bu heykəl də həm onun xatirəsinə həsr olunubdur, həm də Azərbaycan elminin inkişafına, keçmişinə və gələcəyinə həsr olunubdur. Bu, bizim insanlara bir də onu nümayiş etdirir ki, Azərbaycanda həmişə elmə hörmət olubdur, bu gün də hörmət var və gələcəkdə də hörmət olacaqdır. Özünü elmi axtarışlara, elmə həsr etmiş insanlar və bu gün, ölkəmizin mürəkkəb dövründə bütün çətinliklərə sinə gərərək elmlə məşğul olan insanlar cəmiyyətimizdə böyük hörmətə layiqdirlər» [25, 325–329].

Heydər Əliyev Azərbaycan elmi qarşısında böyük xidmətləri olan alimlərin əməyini yüksək qiymətləndirməklə yanaşı, onların mənəvi cəhətdən həvəsləndirilməsinə də böyük əhəmiyyət verirdi. Bu illərdə alimlərimizin böyük bir qrupu orden və medallarla təltif edilmiş, Prezident təqaüdünə, fəxri adlara layiq görülmüşlər. Dövlət başçısının diqqət və qayğısı alimlərimizi daha məhsuldar işləməyə, respublikamızın hərtərəfli inkişafı naminə yeni-yeni uğurlar qazanmağa ruhlandırırdı.

Ümummilli lider Heydər Əliyevin böyük diqqət yetirdiyi Azərbaycan elminin inkişaf konsepsiyası bu gün dövlət siyasətinin tərkib hissəsi kimi uğurla davam etdirilir. Prezident İlham Əliyevin bu istiqamətdə imzaladığı sərəncamlar, xüsusilə «Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında» və «Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında» sərəncamlar öz gələcəyini möhkəm və sağlam elmi zəmində qurmaq istəyən qüdrətli Azərbaycanın işıqlı sabahına ünvanlanmışdır [450, 17]. Heydər Əliyevin elmə dövlət diqqət və qayğısının davam etdirilməsi, elmimizin dünya səviyyəsinə yüksəlməsi üçün göstərilən səylər əminliklə deməyə imkan verir ki, Azərbaycan alimləri üzərlərinə düşən məsul vəzifələri uğurla yerinə yetirəcək, elmimiz daha sürətlə inkişaf edəcək və ölkəmizin dinamik inkişafına öz töhfələrini verəcəkdir.

5.2. Təhsilin inkişafı

Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərliyinin hər iki dövründə təhsil sahəsinə xüsusi önəm verir, onu strateji sahə kimi qiymətləndirirdi. O, yaxşı bilirdi ki, cəmiyyət təhsilsiz inkişaf edə bilməz. 1999-cu il avqustun 31-də respublikanın təhsil işçiləri və ali məktəblərə daxil olmuş tələbələrlə görüşdəki nitqində dediyi sözlər buna parlaq misaldır: «Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o, mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır» [392, 1999, 1 sentyabr]

Məlumdur ki, XX əsr Azərbaycan tarixinin ən böyük nailiyyətlərindən biri ölkəmizdə müasir tipli təlim-tərbiyə müəssisələrinin geniş şəbəkəsinin formalaşdırılmasıdır. Azərbaycanda təhsilin, pedaqoji fikrin, təlim-tərbiyə ocaqlarının tarixi qədim dövrlərlə səsləşsə də, milli təhsilimizin təməli XIX əsrin sonlarında qoyulmuş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhsil məsələləri dövlət siyasəti səviyyəsinə qaldırılmış, sovet dövründə məlum ideoloji

stereotiplərə baxmayaraq, güclü təhsil sistemi formalaşmış, respublikamızda savadsızlıq tamamilə ləğv edilmişdir. 1970-ci illər – 1980-ci illərin əvvəlləri isə Azərbaycanda, sözün əsl mənasında, milli təhsilin intibah dövrü olmuşdur. Bu, milli müstəqilliyə aparan yolda xalqımızın ən böyük tarixi nailiyyətlərindən biri idi və şübhəsiz ki, bilavasitə böyük şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır.

Cəmiyyətə və dövlət quruculuğuna bir sistem kimi yanaşan Heydər Əliyev burada təhsilin yerini də müəyyənləşdirərək vurğulayırdı ki, həyat böyük bir prosesdir və bu prosesdə uğurla iştirak etmək üçün müasir tələblərə uyğun təhsil almaq lazımdır [260, 195].

Azərbaycan Respublikasında milli təhsil və tərbiyənin tam, bitkin konsepsiyası işlənib hazırlanmasa da, əminliklə deyə bilərik ki, Heydər Əliyevin məruzələri, nitqləri və çıxışlarında müstəqil Azərbaycan Respublikasının bu sahədə konsepsiyasının əsas müddəaları və baza prinsipləri öz əksini tapmışdır.

Heydər Əliyevin çoxşaxəli fəaliyyətində təhsil nəzəriyyəsi, təhsilin milli tərəqqidə rolu və mahiyyəti, təhsilin məzmunu və milli ideologiya, milli ideologiya prinsiplərinin təhsil müəssisələrində tədrisinə dair fikirləri Azərbaycanın təhsil konsepsiyasının, təhsil sahəsində dövlət islahat proqramının, bütövlükdə, müasir təhsil sisteminin nəzəri aspektlərini əsaslandırmağa imkan verir. Ulu öndər deyirdi: «Dövlət müstəqilliyinin xalqımıza bəxş etdiyi nemətlərdən biri də odur ki, biz artıq təhsil sistemimizi xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, ənənələrinə uyğun qururuq. Doğrudur, bu proses çox mürəkkəb prosesdir. Bu proses qısa müddətdə başa çata bilməyəcəkdir. Bu gün təhsil sahəsində çalışan bütün vətəndaşlara, müəllimlərə, təhsil müəssisələrinin rəhbərlərinə müraciət edərək xahiş edirəm ki, onlar tezliklə təhsil sistemində işlərinin müstəqil Azərbaycanın prinsipləri əsasında qurulmasına nail olsunlar. Burada dərsliklərin dəyişdirilməsi, yeni dərsliklərin yaranması xüsusi əhəmiyyət kəsb edir. Bilirəm, bu asan məsələ deyil. Bu, bir çox amillərlə bağlıdır. ... Ancaq indi dərs alan uşaqlar, gənclər gərək mütləq və mütləq bizim yeni dərsliklər əsasında oxusunlar» [436; 440, 1997, 2 sentyabr].

Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının gələcəyinin gənclərin əlində olduğunu vurğulayaraq deyirdi ki, gənclərimiz nə qədər yaxşı, hərtərəfli təhsil alsalar ölkəmizin gələcəyi də bir o qədər

uğurlu, parlaq olacaqdır. O, təhsilin məzmunca milli müstəqilliyimizin reallıqlarına və prinsiplərinə uyğunlaşdırılmasında humanitar fənlərin, xüsusilə, tarix, dil və ədəbiyyat fənlərinin tədrisində milli dövlətçilik ideologiyasının yeni zəmində təqdimatının vacibliyinə xüsusi önəm verirdi: «Milli ideologiyamızı hər yerdə təqdim etmək üçün məktəblərdə Azərbaycan xalqının tarixinin tədrisinə çox ciddi fikir vermək lazımdır. ...Gənclərimiz öz tarixini, öz tarixi keçmişlərini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bugünkü və gələcək mənəviyyatı bununla bağlıdır» [367, 17].

İstər milli təhsilimizin məzmunu ilə bağlı nəzəri görüşlərinin, istərsə də milli ideologiyanın konseptual müddəalarının, təməl prinsiplərinin irəli sürülməsində Heydər Əliyevin yeganə məqsədi Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaqdan və daha da möhkəmləndirməkdən ibarət olmuşdur.

Azərbaycan təhsilinin vüsətli inkişafı Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyinin birinci dövrünə təsadüf edir. 1969–1982-ci illərdə Azərbaycanda 350 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikilib istifadəyə verilmiş, məktəblərdə təhsil alan şagirdlərin sayı 710 min nəfərə çatmışdı. Həmin dövrdə məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsi genişlənərək 1600-dən 1875-ə, bunlarda tərbiyə alan uşaqların sayı isə müvafiq olaraq 110 mindən 147 minə çatmışdı [181, 21-22].

Heydər Əliyevin imzaladığı «Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməsinə keçmək haqqında» qərarla 1978-ci ildən etibarən şagirdlərin dərsliklərlə pulsuz təminatına keçilmişdi. Bu humanist iş təhsilin ictimai-mənəvi statusunu anlamayan «rəhbərlər» tərəfindən 1992-ci ildə ləğv olunmuşdu. Lakin Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1995-1996-cı tədris ilindən ilkin olaraq I–IV sinif şagirdlərinin dərsliklərlə pulsuz təminatı yenidən bərpa edilmişdi.

Texniki peşə təhsilinin inkişafı da diqqətdən kənarda qalmamışdı. 1970-ci ilin əvvəlində 76 texniki peşə məktəbində 40,9 min şagird, 1982-ci ildə isə 184 məktəbdə 109 min şagird təhsil alırdı [367, 33].

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili Heydər Əliyevin daim diqqət mərkəzində idi. 1980-ci illərin əvvəllərində Azərbaycanda ali məktəblərin sayı 12-dən 17-yə, tələbələrin sayı isə 70 mindən 100

minə çatmışdı. 78 orta ixtisas məktəbində isə 80 minə yaxın gənc oxuyurdu. Bütün bunlar gələcəkdə Azərbaycanın müstəqilliyinə hesablanmış kadr potensialının gücləndirilməsinə Heydər Əliyevin vətəndaş qayğısının nəticəsində mümkün olmuşdur.

Heydər Əliyevin Azərbaycan milli təhsili sahəsində müstəsna xidmətlərindən biri, bəlkə də birincisi gənclərimizin respublikadan kənarda təhsil almasına nail olması idi. 1969-cu ildə Azərbaycan Respublikasından kənarda təhsil almaq üçün cəmi 50 yer ayrılmışdısa, Heydər Əliyevin səyləri sayəsində 1978-ci ildə bu 900-ə çatdırılmışdı. 1980-ci illərin əvvəllərində isə bunu 1000–1400 nəfərə qaldırmaq mümkün olmuşdu. Ümumiyyətlə, 1970–1980-ci illərdə SSRİ-nin 50-dən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəbdə respublikamızdan 17 mindən çox gənc 250-dən artıq ixtisas üzrə təhsil almışdı [280, 195].

1988-ci ildən başlayaraq həm SSRİ-də, həm də Azərbaycan SSR-də gedən ictimai-siyasi proseslər təhsildən də yan keçmədi. Lakin Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə respublikamızda təhsil sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı qətiyyətlə alındı. Milli təhsil sisteminin bərpası və yeni tarixi dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi, hüquqi-mənəvi mühit yarandı. Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ilə 11 illik ümumi icbari təhsilə keçildi. Azərbaycan vətəndaşlarının pulsuz ümumi orta təhsilinə dövlət təminatı verildi. Yeni təhsil qanununun yaradılması həyati zərurətə çevrildi və Heydər Əliyevin təşəbbüsü ilə «Təhsil qanunu»nun yeni layihəsi ümumxalq müzakirəsinə verildi. Prezident Heydər Əliyev 1998-ci il martın 30-da «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında» sərəncam imzaladı. Komissiyanın hazırladığı «Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı» 1999-cu il iyunun 15-də dövlət başçısı tərəfindən təsdiq olundu. Həmin sənəd Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib saysa da, eyni zamanda milli təhsil ənənələrimizə sədaqətin və varisliyin də parlaq təzahürü idi. Ümummilli lider təhsilə son məqsəd deyil, müvafiq ixtisas biliklərinə yiyələnməklə, həyatın müxtəlif sahələrində uğur qazanmaq üçün vasitə kimi baxaraq deyirdi

ki, həyat böyük bir prosesdir və bu prosesdə uğurla iştirak etmək üçün müasir tələblərə uyğun təhsil almaq lazımdır.

Azərbaycan təhsili tarixində ilk dəfə olaraq yaradılan ümumi orta təhsilin dövlət standartları və tədris planları 1999-cu ildə hazırlanıb təsdiq edildi. Bu plana uyğun olaraq, ümumtəhsil fənlərinin şagirdin maraq və arzusunu nəzərə almaqla tədrisi real gerçəkliyə çevrildi.

Ümummilli lider təhsil sahəsində yeniliklərin tərəfdarı olduğunu vurğulamaqla yanaşı, dünya təcrübəsindən səmərəli istifadəni də tələb edirdi. Eyni zamanda deyirdi ki, bu işlər sistemli şəkildə görülməli, onların yaxın və uzaq zamanda nəticələri mütləq nəzərə alınmalıdır. Bazar münasibətləri şəraitində müasir elmi-texniki yeniliklərə yiyələnmək və onları ölkəmizdə tətbiq etmək üçün gənc nəsli hazırlamaq, bir çox yeni ixtisaslar üzrə kadrlar yetişdirmək lazımdır və bütün bu işlərin əsası orta təhsil illərində qoyulmalıdır.

Heydər Əliyevin göstərişi və bilavasitə rəhbərliyi ilə ümumtəhsil məktəblərinin yeni milli dərsliklərlə təchiz edilməsi üçün ciddi tədbirlər görülürdü. 2001/2002-ci tədris ili üçün ümumtəhsil məktəblərinin 1–4-cü sinifləri üzrə dərsliklərin 90 faizi, 5–11-ci siniflər üzrə 75 faizdən çoxu məzmunca yeniləşdirilmişdi. Ümumiyyətlə, Heydər Əliyevin respublikaya rəhbərliyinin ikinci dövründə təxminən 200 adda 12 milyon nüsxədən artıq orta məktəb dərsliyi latın qrafikası ilə nəşr olunmuşdu.

Heydər Əliyev təmayüllü siniflərin, yeni tipli tədris müəssisələrinin şəbəkəsinin genişlənməsinə də daim diqqət göstərmişdir. Onun qayğısı nəticəsində 2001-ci ilədək istedadlı şagirdlər üçün 41 lisey və gimnaziya fəaliyyətə başladı ki, onlarda 17558 şagird təhsil alırdı. İstedadlı uşaqlara dövlət qayğısının hüquqi təminatı üçün Prezident «Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında» xüsusi fərman da imzalamışdı. Həmin fərmanla gənc istedadların «Qızıl Kitab»ının və Prezidentin ayrıca təqaüdünün təsis olunması bu sahədəki işlərə güclü stimul olmuşdur.

Heydər Əliyev orta məktəbdə tədrisin keyfiyyətinin milli zəmində və dünya təhsilinin ən qabaqcıl təcrübəsi əsasında yüksəldilməsinə xüsusi diqqət yetirir, eyni zamanda narahatlığını da gizlətmirdi. O, 2002-ci il avqustun 30-da ali məktəblərə ən yüksək balla daxil olmuş tələbələrlə görüşündəki nitqində demişdir: «Məni narahat edən ümumi təhsil, yəni bizim gənclərin ilkin təhsili, orta məktəb-

lərdəki vəziyyət, orta məktəbin verdiyi təhsil və bu məktəbləri qurtaran uşaqların bilik səviyyəsidir. Məni narahat edən budur. Bu, ümumiyyətlə bizim xalqın bilik səviyyəsini göstərir. Çünki çox yüksək nəticələr əldə edən ayrı-ayrı insanlar, yaxud da ki, tələbələr, elmi işlə məşğul olanlar hələ xalqın, millətin ümumi bilik səviyyəsini göstərə bilməz. Onun göstəricisi ola bilməz. Bu göstərici orta məktəblərdədir» [440, 2002, 31 avqust].

Bütövlükdə, təhsilin, o cümlədən orta təhsilin ən ciddi problemlərindən biri məktəb tikintisi, mövcud olanların təmiri və müasir avadanlıqla təchizatı ilə bağlıdır. 2002-ci il oktyabrın 4-də Prezident Heydər Əliyevin «Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında» sərəncamından sonra məktəblərin tikintisi, bərpası, təmiri və avadanlıqla təchizi sahəsində mühüm tədbirlər görüldü. Belə ki, əgər 1995–96-cı dərs ilində respublikada 4494 ümumtəhsil müəssisəsi (erməni təcavüzü nəticəsində dağıdılmış 616 məktəb bura daxil deyil) fəaliyyət göstərirdisə, 2002/2003-cü dərs ilində onların sayı 4561-ə çatmışdı [465, 32]. 1993–2002-ci illərdə Azərbaycanda 137 yeni məktəb binası tikilmişdi. Bunlardan 47-si Naxçıvan MR-in payına düşürdü. Məktəb tikintisi, eləcə də təmir və bərpa işlərinin görülməsi sahəsində beynəlxalq təşkilatların, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin gördükləri işlər də təqdirəlayiqdir. Ümumiyyətlə, 1999-cu ildən 2002-ci ilədək xarici təşkilatlar tərəfindən respublikanın 10 rayonunda 8936 yerlik 28 məktəb binası tikilmiş, 15 rayonda 29045 yerlik 70 məktəb binası təmir edilmişdi. Bununla belə, ümumtəhsil məktəbləri ilə bağlı ciddi problemlər hələ də var idi. Belə ki, 4561 ümumtəhsil məktəbindən 1248-i birtipli layihə üzrə tikilmiş binalarda, 3265-i müasir tələblərə cavab verməyən, uyğunlaşdırılmış binalarda yerləşirdi ki, bunların da 204-də minimum şərait belə yox idi. Məhz bu səbəbdən Heydər Əliyev məktəblərin maddi-tədris bazasının möhkəmləndirilməsi sahəsində ən aktual problemlərdən biri kimi yeni məktəb binalarının tikintisinə xüsusi önəm verirdi.

Prezidentin 2002-ci il 4 oktyabr tarixli sərəncamına uyğun olaraq, Təhsil Nazirliyi tərəfindən yeni məktəb binalarının tikintisi və bərpası ilə əlaqədar «Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin əsaslı təmiri və müasir avadanlıqlar ilə təmin olunmasına

dair proqram (2003–2007-ci illər)» hazırlandı və 2003-cü ilin aprelində dövlət başçısı tərəfindən təsdiqləndi.

Milli təhsilimizin Heydər Əliyevin diqqətində olan mühüm sahələrindən biri texniki peşə təhsili idi. Dövlət başçısının tapşırığı ilə 1996-cı ildə respublika hökuməti «Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında» qərar qəbul etdi. Həmin qərara əsasən, maddi-texniki bazası zəif olan 41 peşə məktəbi ləğv edildi və bir çoxu başqaları ilə birləşdirildi. Müasir avadanlıqla təchiz edilmiş yeni peşə məktəbləri və liseyləri yaradıldı. 2002/2003-cü tədris ilinin başlanğıcında Azərbaycan Respublikasında 49 peşə liseyi, 61 peşə məktəbi fəaliyyət göstərirdi, onlarda 115 peşə istiqaməti üzrə 25 mindən artıq şagird təhsil alırdı.

Heydər Əliyevin rəhbərliyi ilə ali və orta ixtisas təhsili pilləsində də uğurlar əldə olunmuşdur. Azərbaycan ali təhsil tarixində ilk dəfə olaraq 1993–1994-cü dərs ilindən etibarən ikipilləli ali təhsilə – 4 illik bakalavr və 2 illik magistratura təhsilinə keçilmişdi, 2003-cü ildə dövlət ali məktəblərinin sayı 17-dən 30-a çatdırılmışdı. Dövlət ali məktəbləri ilə yanaşı, 1993-cü ildən 2003-cü ilədək 18 özəl ali təhsil müəssisəsi də yaradılmışdı.

Prezident Heydər Əliyev vurğulayırdı ki, dövlət təhsilin maliyyələşdirilməsini, yüksək təhsil almaq üçün maddi-texniki bazanın yaradılmasını, məktəblərin şəraitinin yaxşıllaşdırılmasını özünün əsas vəzifələrindən biri hesab edir və təhsilin inkişafı gələcəkdə də dövlətin siyasətinin öncül sahəsi olacaqdır.

Heydər Əliyevin «Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» 2000-ci il 13 iyun tarixli fərmanı da ali təhsil sahəsində dövlət siyasətinin yeniləşdiyini və onun daha mobil xarakter kəsb etdiyini göstərirdi. Həmin fərman təhsil sisteminin əsaslı şəkildə təkmilləşdirilməsinə, idarəetmənin müasir prinsiplərinin bərqərar olunmasına, təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasına və dünya təhsil sisteminə inteqrasiyasına zəmin yaratdı. Fərmana müvafiq olaraq, ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, ölkənin 4 aparıcı ali məktəbinə – Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə «Universitet» statusu verildi. Yenə həmin fər-

manla müəllim hazırlığının keyfiyyətini yüksəltmək məqsədilə ölkəmizdə indiyədək bənzəri olmayan yeni ali tədris müəssisəsi – Azərbaycan Müəllimlər İnstitutu və onun bölgələrdə 12 filialı yaradıldı, müəllimlərin təkmilləşdirilməsi, ixtisasının artırılması üçün dayaq məntəqələri şəbəkəsi təşkil edildi.

Təhsilin modernləşdirilməsi prinsipinə uyğun olaraq, orta ixtisas məktəblərinin sayı azaldılıb 78-dən 72-yə endirildi ki, onlardan da 4-ü özəl təhsil müəssisəsi idi.

Heydər Əliyev təhsil sahəsində beynəlxalq əlaqələrin genişlənməsinə də çox həssaslıqla yanaşırdı. O, hələ Naxçıvanda işləyərkən, 1992-ci ildə 75 nəfər naxçıvanlı gəncin Türkiyəyə təhsil almağa göndərilməsinə nail olmuşdu. Azərbaycana rəhbərliyə qayıdandan sonra isə onun bilavasitə təşəbbüsü ilə dünyanın inkişaf etmiş 40-dək ölkəsinə 160 ixtisas üzrə 4 mindən çox azərbaycanlı gənc göndərildi [367, 46]. Eyni zamanda Azərbaycanın da müxtəlif ali məktəblərində xarici ölkə vətəndaşları oxuyurdular. 2001-ci ilin sonunda respublikada təqribən 50 xarici ölkədən 2000-dən çox tələbə, magistr, aspirant təhsil alırdı [115, 219].

Xarici əlaqələr sahəsində əsas strateji məqsəd hər bir ali təhsil müəssisəsinin beynəlxalq fəaliyyət subyektinə çevrilməsinə şərait yaratmaqdan, Avropa İttifaqının YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif təhsil proqramları və layihələrində iştirak etməkdən ibarət olmuşdur. XXI əsrin əvvəllərində Azərbaycan Respublikası dünyanın 30-dan çox ölkəsi ilə ali təhsil sahəsində genişmiqyaslı əməkdaşlıq edirdi.

5.3. Milli mənəvi dəyərlərin dirçəldilməsi və qorunması

Hər bir xalqın özünəməxsusluğunu müəyyən edən başlıca meyarlar onun dili və milli mənəvi dəyərləridir. Milli mənəvi dəyərlər xalqın, millətin, şəxsin kimliyini ortaya qoyur. Milli mənəvi dəyərlərə görə xalqlar bir-birindən fərqlənirlər. Milli mənəvi dəyərləri qoruyan, təkmilləşdirən, ona əməl edən xalq həmişə hörmətlə qarşılanmışdır. Milli ruhu qorumağın, inkişaf etdirməyin və gələcək nəsillərə çatdır-

mağın ən yaxşı forması milli dövlətdir. Çünki milli dövlət təkcə ölkənin ərazisinin, maddi sərvətlərinin deyil, eyni zamanda xalqın milli mənəvi dəyərlərinin qorunmasına xidmət edir.

Sovet rejimi xalqımızı öz dilindən, dinindən, milli mənəvi dəyərlərindən uzaq salmışdı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra milli mənəvi dəyərlərin dirçəldilməsi, qorunması və möhkəmləndirilməsi üçün əlverişli şərait yaranmışdır. Xalqımız indi öz milli mənəvi köklərinə qayıdır, milli xüsusiyyətlərinə uyğun olan həyat tərzi qurur. Buna nail olmaq üçün isə, ilk növbədə, əsrlərdən, keçmiş nəsillərdən bizə miras qalmış milli sərvətlərimizi qoruyub saxlamağı və qiymətləndirməyi bacarmalıyıq.

Azərbaycan xalqının tarixində və taleyində müstəsna xidmətləri olan görkəmli dövlət xadimi Heydər Əliyev respublikaya rəhbərliyinin hər iki dövründə milli mənəvi dəyərlərimizə xüsusi əhəmiyyət vermiş, milli şüurumuzda inqilabi dəyişikliklər etmişdir. Keçən əsrin 70-ci illərinin əvvəllərindən başlayan milli dirçəliş, mənəvi mühitin sağlamlaşması, elm və təhsilin inkişafı, ölkənin hərtərəfli yüksəlişinə ciddi diqqət yetirilməsi, mədəniyyətə qayğı bütövlükdə milli oyanışa, milli özünüdərkə təkan vermişdi. 70–80-cı illərdə Heydər Əliyev böyük qətiyyət, əzm və cəsarətlə xalqın tarixi yaddaşının qorunmasına, mədəniyyətimizin tərəqqisinə, Azərbaycanın bütün dünyada tanınmasına çalışırdı. Həmin dövrün mövcud siyasi reallıqları milli ruhun yüksəldilməsi istiqamətində açıq-aşkar fəaliyyət göstərməyə imkan verməsə də, xalqımızın mədəniyyətinin inkişafı və dünya miqyasında təbliği sahəsində ciddi iş görülürdü.

Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyətə qayıdışından sonra respublikanın sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni həyatında baş vermiş dəyişikliklər cəmiyyətdə mənəvi mühitin xeyli dərəcədə sağlamlaşmasına, milli köklərə bağlılığın artmasına gətirib çıxardı. Qətiyyətlə deyə bilərik ki, xalqımızın milli mənəvi dəyərlərinin qorunmasında, onların dövlətçiliyin ayrılmaz tərkib hissəsinə və dövlət siyasətinin aparıcı qoluna çevrilməsində Ümummilli lider Heydər Əliyev qədər xidmət göstərən şəxsiyyət olmamışdır. Ulu öndər doğma torpağımız, ana dilimiz, böyük və zəngin tariximiz, millətimizlə yanaşı, milli mənəvi dəyərlərimizə də sadiq olmağı hər bir azərbaycanlının vətəndaşlıq borcu hesab edirdi.

Milli mənəvi dəyərlərin qorunmasında, kənar və yabançı təsirlərdən xilas olmasında, saflaşmasında, Azərbaycan xalqının dəyərli sərvəti kimi mühüm amilə çevrilməsində böyük öndərimizin uzaqgörən siyasəti, əməli fəaliyyəti, verdiyi fərman və sərəncamlar, beynəlxalq kürsülərdən söylədiyi tarixi nitqlər, gənc nəslin milli mənəvi dəyərlərə yiyələnməsi üçün istiqamətləndirdiyi tədbirlər, özünün şəxsi nümunəsi əvəzsiz rol oynamışdır.

Heydər Əliyevin çox yüksək qiymətləndirdiyi milli mənəvi dəyərlərin özü mürəkkəb daxili struktura malikdir. Burada böyük öndər üç tərkib hissəni xüsusi vurğulayırdı: dil, din, adət-ənənə. Bunların şüur müstəvisində proyeksiya olan milli mentalitet. Ümummilli lider deyirdi ki, hər xalqın öz adət-ənənələri, milli mənəvi və dini dəyərləri var, biz də milli mənəvi, dini dəyərlərimizlə fəxr edirik. Heydər Əliyev milli mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü.

İslam dünyasının bir çox ölkəsində, o cümlədən Azərbaycanda geniş qeyd edilən, əslində, insanların təbiətlə münasibətini ifadə edən Novruz bayramına Heydər Əliyev müstəqillik dövründə daha geniş anlamda yanaşır, ona yeni məna verirdi: «Müstəqil Azərbaycan Respublikasında Novruz bayramı ilbəil geniş vüsət alır, bizim qədim, əziz bayramımız kimi ölkəmizin ictimai-siyasi həyatında özünə layiq yer tutur və insanlara ruh verir, onları sevindirir, şadlandırır.

Bu bayram günlərində xalqımız Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının nə qədər qiymətli, hər bir şəxs üçün tarixi əhəmiyyətli bir hadisə olduğunu daha da dərindən dərk edir. Ona görə də bu bayram artıq Azərbaycanın dövlət müstəqilliyinin və milli azadlığının rəmzidir».

Ulu öndər milli mənəvi dəyərlərimizə yiyələnməkdə gənc nəslin milli ruhda tərbiyə olunmasını başlıca vəzifələrdən biri hesab edirdi. O deyirdi: «Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz».

Azərbaycan Respublikasının və onun xalqının ən qiymətli milli mənəvi sərvətinin bu ölkənin insanları olduğunu vurğulayan Heydər Əliyev insan amilini həmişə önə çəkirdi. Ulu öndərin nəzə-

rində Azərbaycan xalqı təkcə respublikamızda yaşayan insanlardan ibarət deyildir. O, dünya azərbaycanlılarını bir an da olsa unutmur, onların problemləri ilə maraqlanır, onlara doğma Vətənə xidmət etməyi, xalqımızın dilini, dinini, mədəni sərvətlərini xaricdə yaşatmağı, övladlarını azərbaycanlı kimi böyütməyi tövsiyə edirdi.

Heydər Əliyev Dünya azərbaycanlılarının I qurultayındakı nitqində soydaşlarımıza əbədi-tarixi tövsiyə və nəsihətini söyləmişdir: «...Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir. Ancaq tarixin müxtəlif mərhələlərində azərbaycanlılar bəzi məhrumiyyətlərə düçar olmuşlar. Ona görə də bütün dünyaya səpələnmiş azərbaycanlıların birliyi, həmrəyliyi indi həm bizim üçün, müstəqil Azərbaycan dövləti üçün, həm də dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir... Biz istəyirik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi istədikləri kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Bizim hamımızı – azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir..., xalqımıza mənsub olan adət-ənənələrdir.

İnsan hansı ölkədə yaşamasından asılı olmayaraq, gərək öz milliliyini qoruyub saxlasın. Dünyada, eyni zamanda assimilyasiya prosesi də var. Ancaq insanlar gərək daim öz milli mənəvi dəyərlərinə, milli köklərinə sadiq olsunlar. Bizim hamımızı birləşdirən məhz bu amillərdir. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır» [392, 2001, 10 noyabr].

Ulu öndərimiz xalqımızın milli mənəvi dəyərlərini yaşadarkən, ilk növbədə, xalqımızın tarixinin çoxcəhətli səhifələrini özündə yaşadan abidələrə, əsərlərə, şəxsiyyətlərə, ümumtürk dəyərlərinə daxil edilən əsərlərə üstünlük verirdi. Onun məqsədi tariximizin görkəmli səhifələrini xalqımızın bugünkü və gələcək nəsillərinə, bütün dünyaya daha yaxşı tanıtmaq idi.

Öz ölkəsinin xilasını yalnız silahda, hərbi gücdə deyil, həm də bu torpaqda yaradılmış qədim və bənzərsiz mədəniyyəti xalqa qaytar-

maqla onun milli ruhunun dirçəldilməsində görən Heydər Əliyevin Azərbaycanın çətin bir vaxtında – 1994-cü il martın 16-da dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi haqqında Fərman imzalaması da məhz bu məqsəddən irəli gəlmişdi. Təkcə ölkəmizdə deyil, Parisdə YUNESKO-nun iqamətgahında, İraqda, Orta Asiya respublikalarında, Türkiyədə, Rusiyada və İranda da keçirilən, Ulu öndərin dediyi kimi, milli mədəniyyətimizin, Azərbaycan dövlətçiliyinin, müstəqilliyimizin bayramına çevrilən yubiley təntənələri ölkəmizin müstəqilliyinin başlıca mənbəyi, onun əbədiliyi və dönməzliyinin təminatçısı olan Azərbaycan gəncliyinin xalqımızın, tariximizin nə qədər zəngin olduğunu, bəşər mədəniyyətinə nə qədər töhfələr verdiyini bir daha dərk etməsi, gənc nəsildə milli iftixar hissinin daha da yüksəlməsi baxımından da son dərəcə əhəmiyyətli idi.

«Kitabi-Dədə Qorqud» dastanı da Heydər Əliyevin diqqətini məhz bu baxımdan cəlb etmişdir. O bu dastanı Azərbaycan xalqının dünya mədəniyyət xəzinəsinə bəxş etdiyi ən qiymətli inci, milli sərvətimizin ən əzəmətli və parlaq abidəsi sayırdı. Bu dastan elə bir sənət abidəsidir ki, burada Azərbaycan türklərinin dünyagörüşü, milli xarakteri, adət-ənənəsi, dini, fəlsəfi və psixoloji görüşləri, əxlaqı, dövlətçiliyi, ailə və cəmiyyət münasibətləri, Vətən, torpaq sevgisi, xalqın mübarizliyi, qəhrəmanlıq səhifələri, dilimizin şirinliyi, humanizm və xeyirxahlıq kimi saf hisslər cəmlənmişdir.

Dövlətimizin başçısı bütün bunları nəzərə alaraq, 1997-ci il aprelin 20-də oğuz türklərinin tarixini əks etdirən, yüksək bəşəri ideyaları tərənnüm edən «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi üçün tarixi Fərman imzalamışdı.

«Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyini keçirən dövlət komissiyasının iclasında Ümummilli lider deyirdi: ««Kitabi-Dədə Qorqud» dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son illərdə Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədilə bir çox yubiley tədbirləri keçirmişik. Bunlardan da hər birinin çox böyük faydası olubdur. Bu faydaları nə faizlə, nə miqdarla, nə də ki, çəki ilə ölçmək olar. Ancaq əgər bir ölçü olsaydı,

demək olardı ki, ən böyük ölçüyə malik faydalardır... «Dədə Qorqud» dastanı bizi bu gün, eyni zamanda birləşdirir, bir-birimizə yaxınlaşdırır. Birləşməyə də ehtiyac vardır... Bu, hamımız – onlar üçün də, bizim üçün də doğmadır. Amma bu, hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Bu da türk aləmində Azərbaycanın nə qədər görkəmli yer tutduğunu göstərir» [392, 1999, 9 aprel].

«Dədə Qorqud» dastanının yubileyinin təntənə ilə keçirilməsi, həqiqətən, onu birdəfəlik Azərbaycan xalqının mənəvi sərvətinə çevirdi, gənclərimizin mənəvi dəyərlər sisteminə daxil etdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması, inkişaf etdirilməsi, vətənə sevgi hissini, dövlət mənafeyinin üstün tutulmasını, şəxsi mənafeyi dövlət mənafeyi prizmasından keçirmək vəzifələrini, dövlət ideologiyasının yaradılmasını və bu ideologiyanın insanların bir vətəndaş kimi formalaşmasına yönəldilməsinə xüsusi əhəmiyyət verirdi.

Heydər Əliyevə görə milli ideologiyanın əsas komponentləri, bir tərəfdən, milli dövlətçilik, digər tərəfdən milli mənəvi dəyərlər idi. Azərbaycan dövlətinin milli ideologiyasının əsasını azərbaycançılıq təşkil edir. Dövlətçilik, milli mənəvi dəyərlər azərbaycançılıq anlayışının tərkib hissələridir. Milli mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz. Ulu öndərimiz deyirdi ki, xalqı həmişə mənəviyyat birləşdirmişdir, çünki başqa əsaslara nisbətən, mənəvi əsaslar daha üstündür.

Ümummilli liderimiz dövlət quruculuğu və idarəçiliyi ilə yanaşı, milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyanın yaradılması və onun həyata keçirilməsi sahəsində də müstəsna xidmətlər göstərmişdir.

Milli ideologiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ən mühüm istiqamətlərindən biri azərbaycançılıq xəttidir. Bu xətt, bir tərəfdən, Azərbaycanda vahid milli dövlətçilik hissiyyatının formalaşmasını, etnik-milli yetkinləşmə və bütövləşməni, digər tərəfdən isə Azərbaycan dilinin dövlət dili kimi inkişafını və bütün ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini nəzərdə tutur.

Dilimizin inkişafı, qorunması, fəaliyyət dairəsinin genişlənməsi kimi tarixi missiyanın yerinə yetirilməsində Heydər Əliyevin müstəsna

rolu vardır. Ulu öndər Azərbaycan xalqının və onun dilinin mənşəyi, formalaşması kimi məsələlərə çox ciddi əhəmiyyət verirdi. O, Azərbaycan dilinə xalqımızın əvəzsiz sərvəti, tarixi, mədəniyyəti, mədəni sərvəti kimi yanaşır, ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsini müstəqil ölkəmizin gələcəyi üçün əsas vasitələrdən biri hesab edirdi. Heydər Əliyevin səyi nəticəsində Azərbaycan dili Azərbaycan Konstitusiyasında təsbit olunmuşdur. Ümummilli liderin Azərbaycan dilinin qorunması və inkişafı sahəsində ən böyük xidməti dilimizə dövlət statusu verilməsi istiqamətində gördüyü əməli işlərdir. Heydər Əliyevin, xüsusilə Azərbaycan dili və əlifbası, xalqımızın mənəvi dəyərləri ilə bağlı imzaladığı tarixi fərman və sərəncamlar bu istiqamətdə olduqca əhəmiyyətli işlərin görülməsinə imkan yaratdı.

2001-ci ildə Prezident Heydər Əliyev «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» müstəsna dəyəri olan bir Fərman imzaladı. Həmin Fərman ölkəmizdə Azərbaycan dilinin inkişafı üçün yeni perspektivlər açmışdır. Fərmanda Azərbaycan dilinin xalqımız üçün ən mühüm milli dəyər olduğu vurğulanır və ona yüksək qiymət verilir: «Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı bir xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır» [392, 2001, 19 iyun].

Prezident Heydər Əliyev 2001-ci il iyulun 4-də «Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının təşkilinin təsdiq edilməsi haqqında» sərəncam, avqustun 9-da «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsdiq edilməsi haqqında» fərman imzalamışdı.

Bütün bu sənədlərin imzalanması milli qeyrət, mənəvi saflıq, dövlətə, xalqa, onun dilinə sədaqət, nəhayət, bu sahədə dərin bilik tələb edirdi. Tədqiqatçılar belə bir cəhəti də vurğulayırlar ki, Heydər Əliyev milli dövlət dilinin, yəni rəsmi dilin, siyasət dilinin müstəqil üslub kimi formalaşmasının da əsasını qoymuşdur. Bu isə bilavasitə dövlətçilik təfəkkürü ilə bağlıdır. Görkəmli siyasi xadim Heydər Əliyevin dövlət başçıları, xarici nümayəndə heyətləri ilə görüşlərdə, rəsmi tədbirlərdə çıxışları və nitqləri dövlətçilik təfəkkürünün inkişafı, siyasi mədəniyyətin formalaşdırılması, dövlət dilinin bir dil üslubu kimi formalaşması və yayılması üçün əhəmiyyəti əvəzsizdir və inamla demək olar ki, həqiqətən, böyük bir məktəb, universitet rolu oynamışdır.

İndiki qloballaşma şəraitində milli mənəvi dəyərlərimiz, həqiqətən, böyük təhlükələrlə üzləşir və milli fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünüqoruma şüuru formalaşdırmadan, ictimai şüuru düzgün istiqamətləndirmədən bu təhlükənin qarşısını almaq çox çətin, əslində, mümkün deyildir. Ulu öndər Heydər Əliyevin 2001-ci il avqustun 13-də dövlət televiziyası ilə verdiyi bəyanat məhz belə bir zərurətdən irəli gəlmişdi. Həmin məşhur bəyanat bu istiqamətdə baş verən anarxiyanın və özbaşınalığın qarşısını aldı və xalqda böyük razılıq yaratdı. Bəyanatda Azərbaycan xalqının zəngin mədəni dəyərlərinin, çoxəsrlik tarixə malik adət-ənənələrinin, dünyanın ən qədim və sivil xalqları ilə müqayisə olunacaq mədəni irsinin bütün azərbaycanlılar tərəfindən qorunmasının zəruriliyi öz əksini tapmışdır. Bu bəyanat mənəviyyatımızın saflaşdırılmasında, ona xələl gətirən əməllərin qarşısının alınmasında, zəngin irsimizə münasibətin yaxşılaşmasında, xalqın öz tarixi keçmişinə bağlılığının və milli adət-ənənələrimizə sədaqətin möhkəmləndirilməsində böyük rol oynadı. Ulu öndər bəyanatında bildirirdi ki, biz öz milli mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli illər boyu sınaqlardan keçmiş bu mənəvi-əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Yaxın keçmişin uzun sürən totalitar rejimi, ateizm ideologiyası konfessiyaların, xüsusən də islam dininin sərbəst fəaliyyəti üçün ciddi qadağalar qoymuşdu. Azərbaycanda əhalinin mütləq əksəriyyəti islam dininə mənsub olduğu halda, rəsmən fəaliyyət göstərən 53 dini icmadan ancaq 18-i islam dini təşkilatı idi. Həmin dövrdə respublikamızda 31 xristian dini icması və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi [115, 297].

Xalqımız dövlət müstəqilliyi əldə etdikdən sonra ölkəmizdə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı beynəlxalq standartlara uyğun bərpa edildi. Dini etiqad azadlığı Azərbaycanın dövlət siyasətində demokratik hüquqi cəmiyyət quruculuğunun zəruri atributu kimi dərk edilir və bu sahədə Azərbaycan

Respublikasının Konstitusiyasına, «Dini etiqad azadlığı haqında» qanuna müvafiq olaraq ardıcıl işlər görülür.

Prezident Heydər Əliyev islam dininin insan mənəviyyatının saflaşdırıcı xüsusiyyətlərindən və mənəvi emosional gücündən milli birlik vasitəsi kimi səmərəli istifadə edilməsini azərbaycançılıq məfkurəsinin fundamental prinsiplərindən biri kimi qiymətləndirmişdir. İslam dini icmaları, müqəddəs ocaqlar bərpa olunur, yeniləri yaradılırdı. 1991–2001-ci illərdə respublikada məscidlərin sayı 19-dan 1236-ya çatmışdı. Yeni məscidlər tikilmiş, ziyarətgahlar təmir edilib abadlaşdırılmışdı. Bakı mədrəsəsi öz fəaliyyətini genişləndirərək, 1997-ci ildə Bakı İslam Universitetinə çevrilmişdir.

Prezident Heydər Əliyev dinə və dindarlara ehtiramla yanaşır, milli-əxlaqi mentalitetdə islam əxlaqi normalarının əhəmiyyətini yüksək qiymətləndirir, onların inkişaf etdirilməsinə, yayılmasına hər cür yardım edirdi. Dinin mənəviyyatda rolunun artmasını Azərbaycanın inkişaf strategiyasının mühüm istiqamətlərindən biri hesab edən Ulu öndər deyirdi ki, biz heç vaxt inamımızdan, dinimizdən uzaqlaşma-yacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq. Eyni zamanda o vurğulayırdı ki, bu işdə fundamentalizmə və fanatizmə yol verilməməlidir. Heydər Əliyev tez-tez dindarlarla görüşür, dini bayramlarda məscidlərə gedir, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşırdı ki, bu da xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanırdı.

Ümummilli lider həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşürdü.

Ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda islam dini xalqımızın həm dini əqidəsi, həm də milli mənəvi dəyəri kimi insanların həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ulu öndər milli mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir.

Heydər Əliyev insan cəmiyyətində mənəviyyatı hər şeydən üstün tuturdu. Hesab edirdi ki, əsrlərdən bizə miras qalmış milli mənəvi

dəyərlər təkcə müasir milli mövcudluğumuzun deyil, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin təminatçısına çevrilməlidir və əksinə, milli-mənəvi varlığımızın qorunub saxlanılması da dövlətin ən əsas funksiyalarından biri olmalıdır. Ən böyük azərbaycanlının, xalqımızın Ulu öndərinin qarşıya qoyduğu tələb belə idi. Məhz bu dahi şəxsiyyətin iradə və əzmi sayəsində ölkəmizdə milli-mənəvi dirçəliş baş vermiş, azərbaycançılıq ideologiyası formalaşmış və nəticədə bu ideologiya Azərbaycan dövlətinin milli-siyasi məfkurəsinə çevrilmişdir.

5.4. Heydər Əliyev Fondu

Heydər Əliyev Fondu Prezident İlham Əliyevin Ümummilli liderin xatirəsinin əbədiləşdirilməsi haqqında fərmanına uyğun olaraq yaradılmış, rəsmi açılışı 2004-cü il mayın 10-da olmuşdur. Azərbaycan Prezidenti açılış mərasimindəki çıxışında vurğulamışdır ki, ictimai təşkilat olan Fond Ulu öndər Heydər Əliyevin siyasi irsini öyrənəcək, təhlil, tədqiq və təbliğ edəcəkdir. Fondun qarşısında böyük vəzifələr durur və ümidvaram ki, Azərbaycanın ictimai həyatında rolu böyük olacaqdır.

Fond fəaliyyətə başladığı vaxtdan özünün məqsəd və vəzifələrindən irəli gələn müxtəlif layihələrin həyata keçirilməsi üçün konkret işlər görmüşdür. İlk tədbirlərdən biri 2004-cü ilin sentyabrında Səttar Bəhlulzadə adına sərgi salonunda təşkil edilmiş «Mən Azərbaycanı sevirəm» mövzusunda rəsm sərgisi idi. Sərginin təşəbbüsçüsü, Ümummilli liderin nəvəsi Leyla Əliyeva uşaq evlərinə və internat məktəblərinə gedərək istedadlı uşaqlarla görüşmüş, onların əl işləri ilə tanış olmuşdu. Bundan sonra respublikanın müxtəlif bölgələrindən 30-dək uşaq evi və internat məktəbində tərbiyə alan gənc istedadlar bu sərgidə öz işlərini nümayiş etdirmişdilər.

Ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətində ölkənin iqtisadi, sosial və mədəni tərəqqisində mühüm amillərdən olan təhsil, elm və mədəniyyətin, səhiyyə və idmanın inkişaf etdirilməsinə böyük diqqət yetirilirdi. Heydər Əliyev Fondu da bütün bu sahələrlə bağlı layihələrin həyata keçirilməsinə, xüsusilə milli mənəvi dəyərlərin qorunması və təbliğinə, gənc nəslin sağlam, hərtərəfli biliyə malik vətəndaş kimi böyüməsinə yardım edir.

Bu baxımdan Fondun fəaliyyətində təhsil sahəsindəki proqram və layihələr xüsusi yer tutur. Bu istiqamətdə fəaliyyət uşaq evlərindən, bağçalardan tutmuş ali məktəblərə qədər bütün pillələri əhatə edir.

2004-cü ildən başlayaraq hər il respublikanın müxtəlif rayonlarında məskunlaşmış məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə məktəb ləvazimatı və hədiyyələr təqdim olunur.

Heydər Əliyev Fondunun bu sahədə ən genişmiqyaslı işlərindən biri «Uşaq evləri və internat məktəblərinin inkişafı» proqramıdır. Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə belə bir proqramın hazırlanması təsadüfi deyildi. Azərbaycanın şəhər və rayonlarında yetim və valideyn himayəsindən məhrum, əqli, fiziki cəhətdən qüsurlu, müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqlar üçün 65 məktəb, uşaq evi və sanatoriya fəaliyyət göstərsə də, onların binaları, şəraiti, təchizatı qənaətbəxş deyildi. Fondun prezidenti özü Bakıda və ətraf qəsəbələrdə yerləşən 25 belə obyektdə olmuş, mövcud vəziyyəti öyrənmişdi. Proqramın birinci mərhələsi paytaxtda və şəhərətrafı qəsəbələrdə, ikinci mərhələsi isə bölgələrdə həyata keçirilmiş, uşaqlar üçün ev şəraitinə maksimum yaxın olan mühit yaradılmasına xüsusi diqqət yetirilmişdi. YUNİSEF-in Bakı nümayəndəliyi bu layihəni yüksək qiymətləndirmiş, uşaqların problemlərinin həlli sahəsində Azərbaycanın nümunəsinin başqa ölkələr üçün də faydalı olduğunu bildirmişdi.

«Yeniləşən Azərbaycana yeni məktəb» proqramı təhsil sahəsində ən aktual problemin həllinə köməyə – məktəb binalarının müasirləşdirilməsi və yenilərinin tikilməsinə yönəldilmişdir. Bu genişmiqyaslı proqramın həyata keçirilməsi ilə bağlı işlər respublikadakı mövcud məktəb binalarının vəziyyəti ilə tanışlıqdan başlandı. Fondun əməkdaşları bütün bölgələrdə vəziyyəti araşdırdıqdan sonra, ilk növbədə yeni binaların tikilməsinə və əsaslı təmirinə ehtiyacı olan məktəblər müəyyənləşdirildi. Proqramın həyata keçirilməsində respublikanın müxtəlif qurumları, yerli və xarici şirkətlər, beynəlxalq təşkilatlar da öz köməyini göstərirdi.

Proqram çərçivəsində 2005–2009-cu illər ərzində ölkənin ən müxtəlif bölgələrində 70 mindən artıq şagird yerlik 280-dən çox məktəb binası inşa olundu və yenidən quruldu. Bu məktəblərin hər birində laboratoriya, kitabxana, yeməkxana, kompyuter otaqları, emalatxana, idman salonları və meydançaları, ayrıca istilik sistemi var.

Heydər Əliyev Fondunun bu sahədəki işlərindən biri də «Təhsilə dəstək» layihəsidir. Fond hər il layihə çərçivəsində Gürcüstanda yaşayan azərbaycanlı birinci sinif şagirdlərinə, Qax, Zaqatala və Balakən rayonlarında tədrisin gürcü dilində aparıldığı məktəblərə yeni dərslik və tədris ləvazimatı göndərir. Pakistanda qızlar üçün yeni orta məktəb binasının inşası bu layihə çərçivəsində görülən ən önəmli işlərdən biridir. 2005-ci ildə Pakistanda çoxlu insan tələfatına və böyük dağıntılara səbəb olmuş zəlzələ zamanı Müzəffərabad şəhərinin Rara ərazisindəki qızlar məktəbinin binası da tam yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondu həmin məktəbi yenidən inşa etdi. Bu, Fondun Azərbaycanın hüdudlarından kənarda inşa etdirdiyi ilk məktəbdir.

Daha bir aksiya qonşu Gürcüstanda həyata keçirilmişdir. 2008-ci ilin iyununda Heydər Əliyev Fondunun təşəbbüsü ilə Dmanisi rayonunda Elm-tədris mərkəzinin binası tikilərək istifadəyə verildi, kitab və dərsliklərlə də təmin edildi.

«Təhsilə dəstək» layihəsi çərçivəsində təhsilin birinci pilləsi sayılan məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması ilə də bağlı işlər görülür. 2005–2009-cu illər ərzində respublikada 11 uşaq bağçası əsaslı təmir edilmiş və müasir avadanlıqla təchiz olunmuşdur.

Heydər Əliyev Fondunun fəaliyyətinin ən mühüm istiqamətlərindən biri səhiyyə sahəsində görülən işlər və müxtəlif xəstəliklərə düçar olmuş insanlara kömək göstərilməsidir. Bu sahədə ilk böyük tədbir «Diabetli uşaqlara ən yüksək qayğı» layihəsi idi. 2004-cü il dekabrın 4-də təqdimatı keçirilən, Heydər Əliyev Fondunun, Azərbaycan Diabet Cəmiyyətinin və yüksəkkeyfiyyətli insulin istehsalı sahəsində dünyada lider olan Novo Nordisk şirkətinin (Danimarka) bu birgə layihəsinin əsas məqsədi ictimaiyyətin, yerli və xarici şirkətlərin diqqətini respublikadakı diabetli uşaqların problemlərinin həllinə yönəltmək, Beynəlxalq Diabet Federasiyasının bu işdə iştirakını fəallaşdırmaq idi. Həmin vaxt Azərbaycanda bu xəstəliyə tutulmuş 310 nəfər 14 yaşınadək uşaq vardı. Onlara yarımillik insulin preparatları və şpris-qələmlər verilmişdi. Bu istiqamətdə işlər Fondun prezidenti Mehriban xanım Əliyevanın şəxsi nəzarətinə götürülmüşdür və o vaxtdan diabetli uşaqlar müntəzəm olaraq insulin preparatları və şpris-qələmlərlə təmin edilirlər.

Heydər Əliyev Fondu BMT-nin təşəbbüsü ilə hər il noyabrın 14-də qeyd olunan Dünya diabet günü kampaniyasına qoşulmuşdur.

Azərbaycanda talassemiya daşıyıcılarının əhalinin sayına görə orta nisbəti 8 faizə bərabərdir, başqa sözlə, hər 12 nəfərdən biri bu patoloji genin daşıyıcısıdır. Bəzi rayonlarda isə bu xəstəliyin yayılma tezliyi xüsusilə təşviş doğurur. Dünya Səhiyyə Təşkilatının proqnozuna görə, Azərbaycanda talassemiyanın profilaktikası lazımınca təşkil edilməsə, bu xəstəliyə düçar olanların sayı 45 il ərzində 16 minə çata bilər. Buna görə də Fondun prezidenti Mehriban xanımın təşəbbüsü ilə müvafiq layihənin həyata keçirilməsi üçün respublikadakı talassemiyalı xəstələrin sayı, vəziyyəti, müalicə imkanları təhlil olunmuş, müvafiq məlumatlar hazırlanmışdı. İctimaiyyətin, xarici ölkələrin, beynəlxalq təşkilatların, o cümlədən Beynəlxalq Talassemiya Federasiyasının imkanlarını müzakirə etmək, talassemiyanın müalicəsi və profilaktikası üçün milli proqram hazırlamaq məqsədilə 2005-ci ilin fevralında Fondda «dəyirmi masa» keçirildi. Geniş müzakirədən sonra Fondun hazırladığı «Talassemiyasız həyat naminə» proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Mərkəzi və Mərkəzi qan bankı yaradılmışdır. Proqramın daha səmərəli həyata keçirilməsi üçün Məsləhət Şurası yaradılmışdır, eyni zamanda Heydər Əliyev Fondunun işçi qrupu fəaliyyət göstərir. Talassemiyalı uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafına, əhalinin maarifləndirilməsinə, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılmasına da xüsusi diqqət yetirilir. Bu xəstəliklə mübarizədə İtaliya, Türkiyə, Yunanıstan və İsraillə əməkdaşlıq edilir.

Fond tibb infrastrukturunun qurulmasında da yaxından iştirak edir. Bakı şəhərində psixonevroloji uşaq evi, Türkan qəsəbəsində poliklinika, təcili yardım stansiyası, Şüvəlan və Qala qəsəbələrində xəstəxanalar tikilmiş, Zirə qəsəbəsində müalicə-diaqnostika mərkəzi yenidən qurulmuş və müasir avadanlıqla təchiz olunmuş, «Təbəssüm» uşaq sanatoriyasında əsaslı təmir və yenidənqurma işləri başa çatdırılmışdır.

Heydər Əliyev Fondunun fəaliyyəti konkret proqramlar və layihələrlə məhdudlaşmır. Respublikanın şəhər və rayonlarından Fonda çoxsaylı müraciətlər olur, müxtəlif problemlərlə bağlı kömək

göstərilməsi xahiş edilir. Bu müraciətlərin çoxu ağır xəstəliklərin müalicəsi barədədir. Ötən illər ərzində Fondun köməyi ilə respublikanın müxtəlif tibb müəssisələrində 700-dən çox xəstədə cərrahiyyə əməliyyatı aparılmış, 90 nəfərdən çox xəstə əməliyyat və müayinə üçün xarici ölkələrə göndərilmişdir.

Heydər Əliyev Fondu Azərbaycanın qədim muğam sənətinə yeni nəfəs vermişdir. Muğam sənətinin inkişafı üçün çoxpilləli tədbirlər planı həyata keçirilmiş, musiqimizin bu incisinin YUNESKO-nun Qeyri-maddi irs siyahısına salınmasına nail olunmuşdur.

Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə bir il davam edən muğam müsabiqəsi keçirilmiş, Ağcabədi şəhərində Qarabağ Muğam Mərkəzi yaradılmışdır. «Azərbaycan muğamları» layihəsi çərçivəsində «Qarabağ xanəndələri» musiqi albomu buraxılmışdır. Albomda 24 muğam ustasının ifası yazılmış disklər var. Parisdə, YUNESKO-nun iqamətgahında, xoşməramlı səfirlərin illik toplantısında da albomun təqdimat mərasimi olmuşdur. Azərbaycan muğamının qorunması, dünyada geniş təbliği məqsədilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzi yaradılmışdır. Bakıda keçirilmiş «Muğam aləmi» adlı beynəlxalq festival dünyanın müxtəlif xalqlarının muğamları ilə tanış olmağa imkan vermişdir. Festival çərçivəsində keçirilmiş beynəlxalq elmi simpoziumda isə 20-dək ölkədən 80-ə yaxın sənətşünasın muğam haqqında məruzələri dinlənilmişdir.

Heydər Əliyev Fondu Respublika Mədəniyyət Nazirliyinin və YUNESKO-nun dəstəyi ilə Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşasının təşəbbüsçüsü olmuşdur. 2009-cu ilin martında isə Fondun təşəbbüsü ilə Bakıda Müasir İncəsənət Muzeyi açılmışdır. Muzeydə avanqard üslubda işləyən gənc rəssam və heykəltəraşlarımızın 800-dən çox işi, habelə Azərbaycanın görkəmli sənətkarlarının əsərləri nümayiş etdirilir.

2005-2006-cı illərdə Fondun təşəbbüsü və təşkilatçılığı ilə Dmitri Şostakoviçin və Bülbülün yubileylərinə həsr olunmuş beynəlxalq festivallar təşkil edilmiş və ustad dərsləri keçirilmişdir.

Heydər Əliyev Fondunun Bakıda təşkil etdiyi Mstislav Rostropoviç adına beynəlxalq musiqi festivallarının da Azərbaycan musiqisinin təbliği baxımından çox böyük əhəmiyyəti vardır.

2009 və 2010-cu illərin yayında Qəbələ şəhərində beynəlxalq musiqi festivalları keçirilmişdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təşkil olunmuş və dünyanın məşhur musiqiçilərinin iştirak etdikləri bu festivallar Azərbaycan mədəniyyətinin, ölkəmizin musiqi ənənələrinin təbliği və tanıdılmasına xidmət etmişdir.

Görkəmli muğam ifaçılarının yubileyləri münasibətilə Mehriban xanımın təşəbbüsü ilə Fond onların albomlarını buraxır.

Fond ölkəmizdə tarix-mədəniyyət abidələrinin bərpasına da xüsusi önəm verir. Onun dəstəyi ilə Gəncənin sonuncu xanı Cavad xanın qəbri üstündə milli memarlıq üslubunda məqbərə tikilmiş, Gəncə şəhərində VII əsrin yadigarı olan və ziyarətgaha çevrilmiş Comərd Qəssab türbəsi yüksək səviyyədə bərpa edilmişdir. Dəmirçi İbrahim Osmanoğlu tərəfindən 1063-cü ildə hazırlanmış və 1139-cu ildə zəlzələ zamanı yadellilər tərəfindən aparılmış məşhur Gəncə darvazası 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən ilkin şəkildə bərpa edilərək, şəhərin girişində qoyulmuşdur.

2005-ci ildə Azərbaycanın görkəmli yazıçısı və pedaqoqu Abdulla Şaiqin ev-muzeyi əsaslı bərpa olunmuş, Mərdəkan qəsəbəsindəki 86 min nüsxə fondu olan kütləvi kitabxana üçün müasir bina tikilmişdir. Qəsəbədəki XVI əsrə aid Pir Həsən ziyarətgahında da əsaslı təmir və bərpa işləri görülmüşdür. Rəvayətə görə burada Pir Həsənin və yeddinci İmam Museyi Kazımın qızı Xədicə xanımın qəbirləri vardır. Axund Hacı Mirzə Əbu Turab Axundzadə, Hacı Zeynalabdin Tağıyev və qızı Sara xanım da burada dəfn olunmuşlar.

Heydər Əliyev Fondunun bu sahədə ən böyük layihələrindən biri Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisindəki abidələrin qorunması, Abşeronda aşkar edilən arxeoloji tapıntılar hesabına qoruğun zənginləşdirilməsi məqsədilə açıq səma altında Arxeoloji-etnoqrafik muzey kompleksinin yaradılmasıdır. Bu layihə Azərbaycanın tarixi keçmişinin qorunub saxlanılması ilə yanaşı, ölkənin turizm mərkəzlərindən birinə çevrilməsinə xidmət edir.

Fond Azərbaycanın hüdudlarından kənarda da abidələrin bərpasında iştirak edir. Gürcüstanın Tbilisi şəhərində yerləşən panteonda dəfn edilmiş Azərbaycanın görkəmli şəxsiyyətlərinin – şair Mirzə Şəfi Vazehin, yazıçı, dramaturq, filosof Mirzə Fətəli Axundzadənin, ictimai-siyasi xadim Həsən bəy Ağayevin, Azərbaycan Xalq Cümhuriyyətinin

banilərindən biri Fətəli xan Xoyskinin qəbirüstü abidələri 2006-cı ildə yenidən qurulmuşdur.

2007-ci ildə Fond Parisdə yerləşən və 1979-cu ildən etibarən Dünya irsi siyahısına salınmış Versal sarayının parkında qorunub saxlanılan, zamanın və iqlimin təsiri nəticəsində zədələnmiş iki abidədə («Amazonka», «Qulpları favn başları ilə bəzədilmiş vaza») bərpa işləri aparmışdır.

Ölkəmizə tarixən xas olan tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu «Tolerantlığın ünvanı – Azərbaycan» layihəsini həyata keçirir. Layihə çərçivəsində Bakının Binə qəsəbəsindəki Möhsün Səlim məscidi, Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuşdur. Paytaxtın Buzovna qəsəbəsindəki Cümə məscidinin tikintisinə hələ 1896-cı ildə başlanmış, lakin 1900-cü ildə yarımçıq qalmışdı. Sovet dövründə ondan anbar və dükan kimi istifadə olunmuşdu. Fondun təşəbbüsü ilə burada yenidənqurma işləri aparılmış və məscid dindarların istifadəsinə verilmişdir.

Heydər Əliyev Fondu tərəfindən Bakıdakı Pravoslav kilsəsində də təmir-bərpa işləri görülmüşdür. Bakıda yaşayan yəhudi uşaqları üçün «Or-Avner» Beynəlxalq Fondu ilə birgə 600 yerlik Təhsil mərkəzi tikilmişdir. Burada uşaq bağçası, üçmərtəbəli yataqxana kompleksi də olacaqdır.

2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma katolik dini icması arasında Anlaşma memorandumu imzalanmışdır. Sənəd müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsini, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəzlənmiş, kilsənin fasadında keramik panno yerləşdirilmişdir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Qafqazın ən böyük qeyri-hökumət təşkilatına çevrilmişdir və hazırda onun ABŞ, Rusiya, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Leyla Əliyevanın rəhbərlik etdiyi Rusiya nümayəndəliyi xüsusilə fəal işləyir. Nümayəndəliyin Moskva şəhərindəki

157 nömrəli etnomədəni komponentli məktəblə sıx əlaqəsi yaradılıb və məktəbin maddi-texniki bazasının gücləndirilməsinə yaxından kömək göstərilir. Rusiyanın bir çox nüfuzlu ali məktəblərində yaradılmış Azərbaycan klubları rusiyalı gənclər arasında milli mədəniyyətimizi təbliğ edir. Nümayəndəliyin Rusiyanın «Zəif eşidənlər dünyası» ictimai təşkilatı ilə birlikdə 300 uşaq üçün təşkil etdiyi xeyriyyə aksiyası bu ölkədə geniş əks-səda doğurmuşdur. Rusiya nümayəndəliyi «Xocalı. 16 il sonra» mövzusunda elmi-praktik konfrans keçirib və bu mövzuya xüsusi əhəmiyyət verir. 2008-ci ildə Heydər Əliyev Fondu ilə Rusiya Milli Kitabxanası arasında əməkdaşlığa dair saziş imzalanmışdır. Moskvada Dövlət Sosial Universitetində rus və azərbaycanlı tələbələrin iştirakı ilə Azərbaycan incəsənət sərgisi təşkil edilmiş, Rüstəm İbrahimbəyovun əsəri əsasında hazırlanmış tamaşa göstərilmiş, Rusiya Elmlər Akademiyasının Elmi–Tədqiqat Göz Xəstəlikləri İnstitutunda akademik Zərifə Əliyevaya həsr olunmuş tədbir keçirilmişdir. Nümayəndəliyin fəaliyyəti Moskva ilə məhdudlaşmır və Rusiyanın müxtəlif vilayətlərində də görüşlər və tədbirlər təşkil olunur.

Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyi Kluj şəhərindəki ahıllar evinə himayədarlıq edir, Buxarestdəki uşaq evinə, Konstansa və Məcidiyyə şəhərlərində yoxsul və kimsəsizlərə sosial yardım göstərir. Eyni zamanda Rumıniyanın İon Pop de Popa Fondu ilə əməkdaşlıq çərçivəsində ürək xəstəliklərindən əziyyət çəkənlərə, 2008-ci ildə Suceva bölgəsində daşqından ziyan çəkmiş yerli əhaliyə yardım edilmişdir.

Fondun ABŞ-dakı nümayəndəliyi 2008-ci ilin avqustundan fəaliyyətə başlamışdır. Elə həmin il Kanadada keçirilmiş Niaqara beynəlxalq kamera musiqisi festivalı çərçivəsində nümayəndəliyin dəstəyi ilə Azərbaycan muğamına həsr edilmiş təqdimat, Azərbaycan muğam üçlüyünün və kanadalı musiqiçilərin iştirakı ilə böyük konsert proqramı təşkil olunmuşdu.

Heydər Əliyev Fondu beynəlxalq təşkilatlar tərəfindən etibarlı tərəfdaş kimi qəbul olunur və birgə layihələr həyata keçirilir. Bu sırada BMT mühüm yer tutur. Məsələn, Fondla BMT-nin İnkişaf Proqramı arasında görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair layihə reallaşdırılır. YUNESKO ilə əməkdaşlıq isə

ən yüksək səviyyəyə çatmışdır. Fondun prezidenti Mehriban Əliyeva mədəniyyət sahəsindəki fəaliyyətinə görə YUNESKO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür. YUNESKO Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təbliğində Fondun əsas tərəfdaşlarındandır. Qurumun sabiq baş direktoru Koişiro Matsuura Azərbaycanda bu sahədə keçirilən ən mötəbər tədbirlərdə iştirak etmişdir. YUNESKO-nun Parisdəki iqamətgahında Azərbaycanın görkəmli elm və ədəbiyyat xadimləri Yusif Məmmədəliyevin və Mir Cəlal Paşayevin yubileyləri keçirilmişdir. Azərbaycan Uşaq Filarmoniyası kollektivinin «Azərbaycanın xoşməramlı mələkləri» adlı geniş konsert proqramı ilə çıxışı isə Azərbaycan mədəniyyətinin əsl təntənəsinə çevrilmişdi.

2006-cı ilin payızında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 50-dən çox islam dövlətinin təmsil olunduğu İslam Ölkələri Elm, Təhsil, Mədəniyyət Təşkilatının – İSESKO-nun ilk qadın xoşməramlı səfiri elan edilmişdir. Qurumun rəhbəri Əl Tüveycri bununla əlaqədar demişdir ki, Mehriban xanım artıq təkcə Azərbaycan Respublikasının deyil, həm də islam dünyasının birinci xanımıdır.

Beləliklə, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva YUNESKO-nun simasında bütün dünyanı və əsasən Qərbi İSESKO-nun simasında isə islam dünyasını təmsil edən iki mühüm humanitar təşkilatın xoşməramlı səfiri missiyasını yerinə yetirməyə başlamışdır. Bu, Fonda həm Qərbin, həm də islam dünyasının vətəndaş cəmiyyətləri, mədəniyyətləri ilə daha geniş əməkdaşlığa yol açır, həm də sivilizasiyaların dialoqu ilə bağlı qeyri-dövlət proseslərində fəal olmaq imkanı verir.

Heydər Əliyev Fondu sivilizasiyalararası dialoqun praktik təşkilatçısı missiyasını artıq öz üzərinə götürmüşdür. Bakıda Latın Mədəniyyəti Akademiyası ilə birgə «Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü» mövzusunda təşkil olunmuş konfransda 30-dan artıq ölkədən gəlmiş mədəniyyət və ədəbiyyat xadimlərinə Şərq və Qərb mədəniyyətlərinin qovuşduğu Azərbaycanda dinlə dövlətin münasibətləri, ölkədəki tolerantlıq, dinlərin qarşılıqlı münasibəti məsələləri barədə ətraflı məlumat verilmişdir. Daha sonra Fond Bakıda İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Naminə Gənclər Forumu ilə birgə «Gəncləri sivilizasiyaların alyansı naminə» mövzusunda beynəlxalq konfrans təşkil etmişdi. Konfransda yekun

sənədi – «Nəsillərarası Alyans» adlı Bakı Bəyannaməsi qəbul olunmuş, Fondun prezidenti Mehriban Əliyeva təhsil, elm, gənclər, mədəniyyətlərarası dialoq sahəsində və Azərbaycan mədəniyyətinin dünyada təbliğində xidmətlərinə görə Gənclər Forumunun Gəncliyin inkişafı uğrunda Qlobal səfir adına layiq görülmüşdür, YUNESKO və İSESKO-nun dəstəyi ilə Heydər Əliyev Fondu Bakıda «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi» mövzusunda keçirdiyi beynəlxalq forumda dünyanın müxtəlif ölkələrindən 300-dən çox nümayəndə, o cümlədən bir neçə ölkənin birinci xanımları, İSESKO-nun baş direktoru, YUNESKO-nun xoşməramlı səfirləri iştirak edirdilər.

Fond, həmçinin BMT-nin Əhali Fondu ilə qadın və uşaqların məişət zorakılığından müdafiə olunması, erkən nikahların qarşısının alınması və ailədəki zorakılığın uşaqlara təsirinə yol verilməməsi məqsədilə də layihə həyata keçirir.

Fondun beynəlxalq əlaqələri sırasında ABŞ-ın 150-dən çox ölkədən olan 5 milyondan artıq qadını öz ətrafında birləşdirən «Vital Voice» qeyri-hökumət humanitar təşkilatı da var. ABŞ-ın «Uşaqların xilası» təşkilatı ilə isə Anlaşma memorandumu imzalanmışdır. Bu təşkilatın Şüvəlanda inşa etdiyi Uşaqlara və Ailələrə Dəstək Mərkəzi xüsusi qayğıya ehtiyacı olan 100-dək uşağı alternativ qayğı ilə təmin edir, təlimlər keçirir və nəticədə onların uşaq evlərinə və internatlara düşmələrinin qarşısı alınır.

Heydər Əliyev Fondunun beynəlxalq əməkdaşlıq əlaqələri coğrafiyasında Polşanın Kiçik Qrantlar Fondu da var. Bu əməkdaşlığın nəticəsində Samux rayonunda 220 yerlik yeni məktəb binası inşa olunmuş və müasir avadanlıqla təmin edilmişdir. Rusiyanın «Uralsib» maliyyə korporasiyası ilə əməkdaşlıq çərçivəsində isə Bakıda serebral iflic xəstəliyindən əziyyət çəkən uşaqların müalicəsi üçün Uşaq Serebral İflic Reabilitasiya Mərkəzinin təməli qoyulmuşdur. Rusiyanın birinci xanımının himayəsi ilə Moskvada təşkil olunmuş «Bibliobraz 2007» beynəlxalq festivalı ilə Fondun əməkdaşlığı nəticəsində Azərbaycan bu sərgidə geniş təmsil olunmuşdu.

Xocalı soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması Fondun xaricdəki fəaliyyətinin mühüm hissəsidir. 2007-ci ildən başlayaraq hər il Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Paris, London, Nyu-York, Vaşinqton və s.

kimi böyük şəhərlərdə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar keçirilir və bu, özünün praktik nəticələrini verir. Aksiyaya reaksiya verənlərin sayı ilbəil artır və reaksiyaların mahiyyəti də dəyişir.

Heydər Əliyev Fondunun YUNESKO ilə birgə keçirdiyi beynəlxalq konfrans çərçivəsində Azərbaycanla YUNESKO arasında təhsil sahəsində əməkdaşlığa dair memorandum imzalanmışdır. Bakıda Vaşinqton Elmlər Akademiyası ilə birgə təşkil olunmuş «Orta əsr əlyazmalarında tibb və əczaçılıq» mövzusunda 1-ci beynəlxalq konfransda ABŞ, Almaniya, Böyük Britaniya, Rusiya, Suriya, Ukrayna və digər ölkələrdən 50-dən çox nümayəndə, bir sıra beynəlxalq təşkilatların təmsilçiləri, diplomatlar iştirak etmişdir. Fondun səyləri sayəsində Azərbaycan Əlyazmalar İnstitutunda saxlanılan tibb və əczaçılığa aid 3 əlyazma YUNESKO-nun Dünya yaddaş siyahısına daxil olunmuşdur.

Heydər Əliyev Fondu məşğulluğun cəmiyyətdə sabitlik və rifah üçün əhəmiyyətini və bunun qlobal bir problem olduğunu nəzərə alaraq, Bakıda Dünya gənclərinin 4-cü məşğulluq sammitini təşkil etmişdir. Sammitdə 100-dən çox ölkədən 600 nümayəndə iştirak edirdi.

Fondun rəhbərliyi xeyriyyəçilik işlərini də diqqət mərkəzində saxlayır. Mehriban xanım Əliyeva AzərTAC-a müsahibəsində demişdir: «Xeyriyyəçilik insanların hər hansı direktivlər və göstəricilər əsasında deyil, öz qəlbinin və vicdanının səsi ilə öz vəsaitlərini, qüvvələrini, vaxtını və enerjisini sərf edərək gördüyü xeyirxah işlərdir... Xeyriyyəçilik fəlsəfəsinin əsası, ilk növbədə, insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividentlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır.

Xeyriyyəçilik nemətlərin və resursların indiki anda dəstəklənməyə ən çox ehtiyacı olan müəyyən fərdlərin, sosial qrupların və sahələrin xeyrinə yenidən bölüşdürülməsinin nadir mexanizmidir. Bu mexanizmin nadirliyi ondadır ki, siyasi məqsədəuyğunluq və iqtisadi səmərə mülahizələrinə əsaslanan dövlət və bazar mexanizmlərindən fərqli olaraq, nemətlərin xeyriyyəçilik formasında yenidən bölüşdürül-

məsi bilavasitə mənəvi-əxlaqi motivlərlə, ilk növbədə, ümumbəşəri dəyərlərlə tənzimlənir» [643].

Yeri gəlmişkən, Mehriban Əliyeva 2007-ci il mayın 10-da geniş amnistiya təşəbbüsü ilə çıxış edərkən də özünün «mərhəmət cəmiyyətdə problemlərin həllinin əsas vasitəsidir» prinsipini rəhbər tutmuşdur. Fondun prezidentinin təşəbbüsü ilə 2009-cu ilin martında Milli Məclis daha bir amnistiya aktı qəbul etmişdir.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycanda xeyriyyəçiliyin yeni bir istiqaməti uşaq evlərində tərbiyə aldıqdan sonra müstəqil həyata qədəm qoyan qızlar üçün mənzillərin tikintisidir. Bakının Nizami rayonunda 50 mənzilli ilk yaşayış binası istifadəyə verilmiş və bütün zəruri məişət avadanlığı ilə təmin olunmuşdur.

Ümummilli lider uşaqlara daim böyük qayğı göstərmiş və ictimaiyyəti də bu işə kömək etməyə çağırmışdır. O, çıxışlarından birində demişdir: «Uşaqlar cəmiyyətimizin aynasıdır. Bizim arzumuz budur ki, bu ayna həmişə ləkəsiz, təmiz və işıqlı olsun... Çoxları üçün adi görünən anlar onların həyatını bayrama çevirə bilər. Biz yalnız və yalnız bircə təbəssümlə onlara dünyaları bəxş edə bilərik. Gəlin onları unutmayaq, o zaman biz də unudulmarıq».

Bu vəsiyyəti yaddan çıxarmayan Fondun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə hər il əlaçı şagirdlər, internat məktəblərində, uşaq evlərində təlim-tərbiyə alan, habelə qaçqın-köçkün ailələrindən olan uşaqlar üçün Yeni il və Novruz bayramı şənlikləri təşkil olunur. Bu şənliklərdə Mehriban xanım özü də iştirak edir.

Fondun Azərbaycan dövlətinin sosial siyasətinə, hərtərəfli dəstəyə əsaslanan nəcib, xeyirxah işləri digər qeyri-hökumət təşkilatları üçün də örnək ola bilər.

Heydər Əliyev Fondu özünün İnternet saytını açmışdır. Burada Ulu öndərin həyat və fəaliyyəti, zəngin irsi haqqında məlumat, Fondun gördüyü işlər, beynəlxalq əməkdaşlığı, kitabxanası barədə materiallar toplanmışdır.

Fondun ən mühüm layihələrindən biri «Azərbaycan» adlı internet səhifəsinin yaradılmasıdır. Burada ölkəmizin tarixi, coğrafiyası, ictimai-siyasi həyatının bütün sahələri haqqında Azərbaycan, ingilis və rus dillərində geniş material yerləşdirilmişdir. Bu, informasiyanın həcminə və zənginliyinə görə respublikada bənzəri olmayan layihədir.

Heydər Əliyev Fondunun ən mühüm işlərindən biri 2010-cu il martın 19-da təqdimatı keçirilən «Azərbaycan» kitabının nəşridir. Üç il ərzində hazırlanmış bu kitabın 11 bölməsi ölkəmizin təbiəti, tarixi, mədəniyyəti, dünəni və bu günü ilə tanış olmağa imkan verir. Kitabda külli miqdarda nadir fotoşəkillər toplanmışdır. Fondun bu nəşri ingilis, fransız, alman, ərəb və Çin dillərinə də tərcümə olunub böyük tirajla çap ediləcəkdir.

Heydər Əliyev Fondu öz xeyirxah işlərini, geniş ictimaiyyətlə əlaqələrini daha da möhkəmləndirməklə Ulu öndərin ideyalarının həyata keçirilməsinə yardımçı olmaq məqsədi daşıyan fəaliyyətini təkmilləşdirir, Azərbaycanın hərtərəfli inkişafına, ölkəmizdə vətəndaş cəmiyyətinin bərqərar olunmasına öz töhfəsini verir.

Fondun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva özünün çoxşaxəli fəaliyyəti ilə təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da çox böyük hörmət, etimad və nüfuz qazanmışdır. Ölkəmizin birinci xanımına Rumıniya Ulduzu ordeni, (Rumıniya), Kral Əbdüləziz ordeni (Səudiyyə Ərəbistanı), «Şərəf» ordeni (Gürcüstan), «Şərəf Legionu» ordeni (Fransa), «Xidmətlərə görə» Böyük komandor xaçı ordeni (Polşa), I dərəcəli Yaroslav Mudrı ordeni (Ukrayna), «Mübarək əl-Kəbir» ordeni (Küveyt), Əsrlərin xeyriyyəçiləri» Beynəlxalq Fondunun Yaqut Xaç ordeni, Heydər Əliyev mükafatı (Azərbaycan), YUNESKO-nun «Qızıl Motsart» medalı, «Qızıl ürək» beynəlxalq mükafatı, İhsan Doğramacı Ali Sağlamlıq Fondunun mükafatı və daha neçə-neçə orden və mükafatların verilməsi bunun bariz sübutudur.

Heydər Əliyev Fondu yarandığı vaxtdan bəri, həqiqətən, misilsiz işlər görmüşdür. Lakin həmişə və hər yerdə nəcibliyi və təvazökarlığı ilə fərqlənən Fondun prezidenti ötən altı il ərzində görülmüş işləri qısaca belə səciyyələndirmişdir: «Bu, yüzlərlə yeni inşa olunmuş məktəblər və təmir olunmuş, müasirləşmiş uşaq evləri, internat məktəbləri, uşaq bağçaları və yay düşərgələridir. Bu, yeni tikilmiş tibb müəssisələri, diaqnostika və müalicə mərkəzləri, müxtəlif xəstəliklərdən əzab çəkən uşaqlar üçün xüsusi tibb müəssisələri və reabilitasiya mərkəzləridir. Bu, Fondun dəstəyi ilə bərpa olunan tarixi və dini abidələr, yeni qurulan mədəniyyət ocaqları, muzeylər, mərkəzlər, konsert salonlarıdır. Bu, Fondun uğurlu sosial

proqramının icra olunması nəticəsində yeni salınan parklar, yollar, çəkilən su, işıq və qaz xətləridir. Bu, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış və Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq istiqamətində aparılan işlər nəticəsində nəşr olunmuş yüzlərlə kitab, broşür, foto və videoalbomlardır. Bu, Fondun dəstəyi ilə keçirilən və zəngin mədəni, tarixi irsimizin təbliğinə yönələn beynəlxalq simpoziumlar, elmi konfranslardır. Ən əsası, ən vacibi isə Heydər Əliyev Fondunun səmərəli xeyriyyəçilik fəaliyyəti nəticəsində normal sağlam həyata qayıtmış yüzlərlə insandır» [392, 2010, 13 may].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fondun ötən illərdə gördüyü işləri yüksək qiymətləndirmişdir. Dövlətimizin başçısı «Azərbaycan» kitabının təqdimat mərasimindəki çıxışında demişdir: «Heydər Əliyev Fondunun bütün əməlləri Azərbaycan xalqının maraqlarına xidmət göstərir. Bütün sahələrdə – həm xeyriyyəçilik, həm Azərbaycanın milli mədəni irsinin dünya birliyinə çatdırılması, həm musiqi sahəsində atılan addımlar, Azərbaycanın haqq işinin, Xocalı soyqırımının dünya birliyinə olduğu kimi çatdırılması işində çox böyük və əvəzolunmaz xidmətlər məni çox sevindirir. Mən çox şadam ki, qısa müddət ərzində Heydər Əliyev Fondu, doğrudan da, Azərbaycanın inkişafı, Azərbaycanı dünyada təqdim etmək istiqamətində atılan addımların gücləndirilməsi üçün çox mühüm rol oynamışdır. Heydər Əliyev Fondu Ulu öndər Heydər Əliyevin adına layiq şəkildə fəaliyyət göstərir» [440, 2010, 19 mart].

5.5. Gənclər siyasəti

Hər bir ölkənin maddi və mənəvi tərəqqisi həm də cəmiyyətin ən dinamik təbəqəsi olan gənclərin həyat və fəaliyyət şəraitindən, dövlətin gənclər siyasətinin düzgün müəyyənləşdirilməsi və həyata keçirilməsindən bilavasitə asılıdır. Gənclər ölkənin və millətin gələcəyi, onun inkişafının və yüksəlişinin əsas meyarı və parametridir.

Hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra Ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi həyatında gənclərin fəal iştirakının təmin olunması, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, gələcəyin layiqli vətəndaşları kimi formalaşmaları üçün şəraitin yaradılması, bütövlükdə, gənc nəslə diqqət və qayğının artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi olmuşdur.

Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini bərpa etməsində gənclərin böyük xidməti olmuşdur. Sovet imperiyasına qarşı mübarizənin, Qarabağ hadisələri ilə bağlı başlanmış xalq hərəkatının ön sıralarında gənclərimiz getmişlər. 1991–1993-cü illərdə respublikada gənclərin müxtəlif təşkilatları yaranmağa başladı. O vaxt ölkədə hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü göstərir, bu təşkilatların bir çoxu müxtəlif yönlü siyasi partiya və qurumların təsiri altına düşürdü. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, milli dövlət maraqları əsasında səfərbər olunmasını, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsini zərurətə çevirdi [415].

Milli dövlətçiliyimizin təhlükə qarşısında olduğu bir vaxtda, 1993-cü il sentyabrın 22-də respublika Ali Sovetinin Sədri, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev gənclərin bir qrupu ilə görüşmək üçün vaxt taparaq, ölkənin və gəncliyin problemləri ilə bağlı onların fikir və mülahizələrini dinlədi. Ümummilli lider bu görüşdə Azərbaycanın üzləşdiyi problemləri dərindən təhlil etmiş, o cümlədən gənclərlə bağlı həyata keçirilən siyasətdə buraxılmış kobud səhvləri göstərmişdi. Gəncliyə öz tövsiyələrini verən Heydər Əliyev onları ölkənin taleyinə biganə qalmamağa, iqtisadi, ictimai, siyasi problemlərin həllinə töhfələrini verməyə, fəal olmağa çağırmışdı.

Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, bu işin sistemli şəkildə təşkil olunması məqsədilə Prezident Heydər Əliyev 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyinin

yaradılması haqqında fərman imzaladı. Fərmanda nazirliyin qarşısında gənc nəslin Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafının ümummilli strateji siyasətinə uyğun tərbiyəsi, gənclərlə iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən siyasətin həyata keçirilməsi, gənclərin qüvvə və bacarıqlarını, yaradıcılıq imkanlarını milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə islahatlar proqramının həyata keçirilməsinə səfərbər olunmasına, gənclərin yüksək sosial, mənəvi və sağlam fiziki inkişafını təmin edən bütün fəaliyyət sahələrinin istiqamətləndirilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, onların sosial problemlərinin həlli, gənc nəsil arasında bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, bədən tərbiyəsi sahəsində milli proqramın həyata keçirilməsi və s. vəzifələr qoyulmuşdu.

Nazirliyin və respublikanın gənclər təşkilatlarının təklifini nəzərə alaraq, Prezident Heydər Əliyev 1996-cı il yanvarın 26-da Azərbaycan gənclərinin I Forumunun keçirilməsi haqqında sərəncam imzaladı. Fevralın 2-də keçirilən Forumda gənclərin bütün kateqoriyalarını, siyasi partiyaları və gənclər təşkilatlarını, ölkənin bütün regionlarını təmsil edən 2000-dək nümayəndə iştirak edirdi. Forumun işində Azərbaycan Prezidenti başda olmaqla bütün dövlət strukturlarının rəhbərləri iştirak etmiş gənclərin irad və təkliflərini dinləmiş, onların problemlərini öyrənmişdilər. Forumda proqram xarakterli nitq söyləyən Ümummilli lider Heydər Əliyev gənclərin qarşısında çox böyük vəzifələr durduğunu, onların əsas vəzifəsinin isə özlərini müstəqil Azərbaycan Respublikasının inkişafına, onun əbədiyaşarlığına həsr etməkdən ibarət olduğunu bildirmişdi. Dövlət başçısı ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinin Azərbaycan gənclərinin mühüm vəzifəsi olduğunu vurğulamış, bu vəzifənin yerinə yetirilməsi üçün gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini, orduya diqqətin artırılmasını tələb etmiş və göstərmişdir ki, gənclər təşkilatlarının əsas vəzifəsi hər bir gənci, hər bir Azərbaycan övladını orduya hazırlamaqdan ibarət olmalıdır. Lakin gəncləri təhsilə, elmə yiyələnməyə çağıran Heydər Əliyev onların mənəvi tərbiyəsini daim diqqət mərkəzində saxlamağı tövsiyə edərək bildirmişdir ki, milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Vətənpərvərlik təkcə orduda

xidmət etmək deyil, vətənpərvərlik vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq deməkdir.

Azərbaycan Respublikası gənclərinin I Forumu gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlanmasına öz müsbət təsirini göstərdi. Azərbaycan Prezidentinin tapşırığına əsasən, «Gənclik» beynəlxalq turizm mərkəzi, keçmiş pionerlər evləri, əvvəllər komsomola məxsus obyektlər öz həqiqi sahibinə –gənclərə qaytarıldı.

Forumdan sonra keçən müddətdə görülən işlərin vəziyyəti ilə tanış olmaq üçün Prezident Heydər Əliyev 1997-ci il fevralın 1-də Forum nümayəndələrinin bir qrupunu qəbul etdi. Gənclərin çoxsaylı müraciətlərini, dövlət quruculuğu sahəsində müstəsna rolunu nəzərə alaraq, həmin gün imzaladığı sərəncamla Azərbaycanda I Forumun keçirildiyi günü – fevralın 2-ni Azərbaycan gəncləri günü elan etmişdi. 1998-ci ildə Azərbaycan gəncləri gününün qeyd edilməsi ilə bağlı bayram mərasimində çıxış edən Heydər Əliyev ötən illərdə görülən işlərə yekun vuraraq demişdi ki, bu illərdə Azərbaycanda əldə olunan ən böyük nailiyyətlərdən biri ölkəmizin sağlam, yüksək ideyalarla yaşayan, xalqına, vətəninə, torpağına hədsiz sədaqət hissləri ilə çalışan gənclərinin olmasıdır.

Heydər Əliyev hər imkan tapdıqca gənclərlə görüşür, onların problemləri ilə maraqlanır, təkliflərini dinləyirdi. 1998-ci il fevralın 18-də YAP gənclər təşkilatı nümayəndələrinin respublika toplantısında iştirak edən Prezident onların qarşısında duran vəzifələrin bütün Azərbaycan gənclərinin vəzifələri olduğunu bildirmiş, gəncləri ölkədə gedən ictimai-siyasi proseslərdə yaxından iştirak etməyə, demokratik cəmiyyət quruculuğuna töhfə verməyə çağırmışdı.

Azərbaycan gəncliyi də Ümummilli liderin etimadını doğruldaraq, dövlət başçısının gördüyü işlərə, apardığı siyasətə, dövlətçiliyə sədaqət nümayiş etdirərək, 1998-ci ilin oktyabrında prezident seçkilərində Heydər Əliyevə yekdilliklə səs verdi.

Azərbaycan gənclərinin 1999-cu il martın 2-3-də keçirilən II Forumunda gəncliyin vəziyyəti, mövcud nöqsanlar və qarşıda duran vəzifələr ətraflı müzakirə olundu. Çıxış edən gənclər onların problemlərinə biganə olan dövlət orqanlarını ciddi tənqid etmişdilər. Prezident Heydər Əliyev tənqidi çıxışları yüksək qiymətləndirərək, bundan hamının nəticə çıxarmasını tələb etmiş və söz vermişdir ki, o, irəli

sürülən təkliflərə və layihələrə diqqətlə baxacaq və lazımi qərarlar qəbul ediləcəkdir [184, 333]. Bu, Prezidentin gənclərin qayğı və problemlərinə dövlətçilik baxımından yanaşmasının əyani təzahürü idi.

Forumdan bir müddət sonra, 1999-cu il iyunun 29-da Prezident Heydər Əliyev «Dövlət gənclər siyasəti» haqqında fərman imzaladı. Fərmanda Azərbaycan gəncliyinin XX əsrdə keçdiyi yola nəzər salınmış, xalqımızın əldə etdiyi uğurlarda onun rolu vurğulanmış, müstəqillik əldə edildikdən sonra gənclər siyasəti sahəsində görülən işlərə toxunulmuşdu. Fərmanda dövlət gənclər siyasətinin həyata keçirilməsi sahəsində həllini gözləyən bir sıra problem və məsələlərin olduğu bildirilmiş, ayrı-ayrı dövlət hakimiyyəti və idarəetmə orqanlarının gənclərlə iş sahəsində əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsi üçün lazımi şəraitin yaradılmasının vacibliyi, gənclərin dövlət idarəetmə işlərinə daha geniş cəlb olunması və bunun üçün maliyyə vəsaitinin ayrılmasına ehtiyac olduğu, ölkə əhalisinin yarıdan çoxunu təşkil edən uşaq, yeniyetmə və gənclərin üzləşdiyi problemləri həll etməyin zəruriliyi vurğulanmışdı. Bu fərmanla respublikada dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmiş, Gənclər və İdman Nazirliyi nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin yaradılması, nazirliyin dövlət gənclər siyasətinin həyata keçirilməsinin gedişi haqqında hər ilin sonunda Prezidentin İcra Aparatına hesabat təqdim etməsi nəzərdə tutulmuşdu [415].

Bütövlükdə, 1997–2000-ci illərdə dövlət gənclər siyasətinin–normativ hüquqi bazasının təkmilləşdirilməsi ilə bağlı mühüm işlər görülmüş, uşaq və gənclərin fiziki, mənəvi, vətənpərvərlik tərbiyəsini yaxşılaşdırmaq, sosial-iqtisadi problemlərini həll etmək üçün bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul olunmuşdu. Eyni zamanda Prezident tərəfindən təsdiq olunmuş digər dövlət proqramlarının əksəriyyətində gənclərlə bağlı müvafiq maddələr öz əksini tapmışdı. Lakin 1991-ci ildə qəbul olunmuş «Dövlət gənclər siyasəti haqqında» yeni qanun gənclərlə bağlı sahələrdə yaranmış münasibətləri tənzimləməyə imkan vermirdi. Ölkədə gənc nəslin hərtərəfli inkişafını təmin edən, bu sahədə müxtəlif dövlət orqanlarının səlahiyyətlərini müəyyənləşdirən və müasir dövrün tələblərinə cavab verən yeni qanuna ehtiyac var idi. Azərbaycan Prezidentinin 2002-ci il

6 may tarixli fərmanı ilə qüvvəyə minmiş «Dövlət gənclər siyasəti haqqında» qanun məhz bu tələblərə cavab verir, respublikada gənclər siyasətinin məqsədlərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

Qanuna müvafiq olaraq, Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi gənclərin sosial, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmələri üçün şərait yaratmaqdır. Gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyəsi, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi gənclər siyasətinin əsas prinsipləri kimi müəyyənləşdirilmişdir.

Qanunda gənclər siyasətinin formalaşmasında və həyata keçirilməsində gənclərin iştirakının təmin olunması üçün müvafiq mexanizm müəyyənləşdirilmişdir. Belə ki, gənclər bilavasitə və ya yaratdıqları təşkilatlar vasitəsilə dövlət orqanları qarşısında təkliflər irəli sürə, müvafiq qanunvericilik aktlarının hazırlanmasında, gənclər siyasətinin əsas istiqamətlərinə uyğun proqramların həyata keçirilməsində iştirak edə bilərlər. Gənclər siyasətinin həyata keçirilməsinin maddi təminatı ilə bağlı məsələlər də qanunda öz əksini tapmışdır.

«Gənclər siyasəti haqqında» qanunun qəbul edilməsi Azərbaycan Respublikası gənclərinin hərtərəfli inkişafına daha da əlverişli şərait yaratmış, cəmiyyətin həyatında onların fəal iştirakının təmin edilməsi üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasını sürətləndirmiş, yaxın gələcəkdə gənclərin dövlət quruculuğu işlərinə geniş cəlb olunmasına və onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir.

Respublikada uşaqlarla iş sahəsində də bir sıra qanunlar qəbul edilərək, icrasına başlanmışdı. 1999-cu il iyunun 2-də qəbul edilmiş «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» qanun bu qəbildən olan uşaqların, habelə onların arasından 23 yaşadək şəxslərin sosial

müdafiəsinə dair dövlət təminatının məzmununu, tədbirlərini müəyyən edir, bu təminatın verilməsi və həyata keçirilməsi ilə əlaqədar münasibətləri tənzimləyir.

2001-ci il iyunun 5-də qüvvəyə minən «Fiziki cəhətdən qüsurlu olan şəxslərin xüsusi təhsili haqqında» qanunda belə şəxslərin təhsil hüququnun təmin edilməsində müvafiq dövlət orqanlarının vəzifələri müəyyənləşdirilmişdir. 2002-ci ildə «yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında» Əsasnamə təsdiqlənmiş, əlaqədar dövlət orqanlarının nümayəndələrindən ibarət vahid dövlət orqanı kimi bu komissiyaların yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması ilə bağlı hər bir məsələnin həllində sərbəst qərarverici qurum olması təsbit edilmişdir.

Bədən tərbiyəsi və idmanın inkişafına, uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunmasına, ordudan tərxis olunmuş gənclərin məşğuliyyətinə dair proqramların, gənc ailə proqramının dövlət gənclər siyasətinin həyata keçirilməsində böyük əhəmiyyəti olmuşdur.

Gənclərlə işin əsas sahələrindən biri onların arasında hüquq pozuntularının, cinayətkarlığın və narkomanlığın qarşısının alınmasıdır. Müşahidələrə görə, narkotik qəbul edənlərin əksəriyyətinin gənclər olması Prezident Heydər Əliyevi çox narahat edirdi. O, 1998-ci il fevralın 18-də YAP gəncləri ilə görüşündə demişdir ki, narkomaniya ilə mübarizə aparmaq təkcə polis orqanlarının, hüquq mühafizə orqanlarının işi deyil. İnsanların, gənclərin narkotik maddələrdən istifadə olunmasından qorunması cəmiyyətin, ictimai təşkilatların, bütün gənclərin işidir.

Gənclər və İdman Nazirliyi Gənclər Təşkilatlarının Milli Şurası ilə birlikdə narkomaniyanın tibbi bioloji aspektləri, Azərbaycan Yazıçılar Birliyi ilə birlikdə «Narkomaniyanın qarşısının alınmasında bədii ədəbiyyatın rolu», habelə «Narkomaniya ümummilli problemdir» mövzularında konfranslar təşkil etmiş, narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının qərarına uyğun olaraq, xüsusi proqram tədbirlər planı hazırlayıb həyata keçirmişdir. Narkomaniya ilə mübarizə tədbirləri təkcə Bakı şəhəri ilə məhdudlaşdırılmır, respublikanın bütün rayonlarında seminar-müşavirələr təşkil olunmuş, yeniyetmələr və gənclər

arasında antinarkomaniya məzmunlu maarifləndirmə tədbirləri, profilaktik işlər görülmüşdür. Azərbaycan Prezidenti Heydər Əliyevin 2000-ci il 15 iyul tarixli fərmanı ilə təsdiq olunmuş «Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Ümummilli proqram»ın həyata keçirilməsi ilə əlaqədar Gənclər və İdman Nazirliyi 2001-2002-ci illər üçün tədbirlər planı hazırlayaraq reallaşdırmışdır.

Prezident Heydər Əliyevin 2003-cü il 14 aprel tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında baxımsız və küçə uşaqları probleminin həlli üzrə tədbirlər planı» təsdiq edilmişdi. Tədbirlər planında uşaq baxımsızlığı və küçə uşaqları probleminin aradan qaldırılması istiqamətində müvafiq işlərin görülməsi, zəif sosial qruplardan olan uşaqlar üçün sosial və psixoloji reabilitasiyanın təşkili, onların sosial-iqtisadi hüquqlarının müdafiəsi, təhsili, səhiyyə problemləri, dərsdənkənar fəaliyyətinin təşkili məsələləri öz əksini tapmışdı.

Ümummilli lider hələ respublikaya rəhbərliyinin birinci dövründə sovet rejiminin verdiyi məhdud imkanlar daxilində azərbaycanlı gənclərin hərbçi peşəsinə yiyələnmələrinə xüsusi diqqət yetirirdi və buna zəmin yaratmaq üçün Bakıda ixtisaslaşdırılmış məktəbin açılmasına nail olmuşdu. Azərbaycanın məşhur generallarından biri olan Cəmşid Naxçivanskinin adını daşıyan bu məktəbin məzunları sonralar müstəqil respublikamızın milli zabit heyətinin özəyini təşkil etmişdilər. Məhz Heydər Əliyevin təşəbbüsü ilə o vaxt hər il yüzlərlə gənc azərbaycanlı Sovet İttifaqının ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. Heydər Əliyev Bakıda yerləşən iki ali hərbi məktəbdə də azərbaycanlı kursantların sayının dəfələrlə artırılmasına nail olmuşdu.

Azərbaycan Respublikasının Ermənistanın hərbi təcavüzünə məruz qaldığı bir vaxtda Heydər Əliyev Azərbaycan ordusunun gücləndirilməsini və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsini, torpaqlarımızın azad edilməsi üçün döyüşə daim hazır olmasını ən mühüm vəzifə hesab edirdi. O deyirdi ki, respublikanın düşdüyü vəziyyət və qarşıda duran vəzifələrimiz gənclərimizin hərbi hazırlığının, orduda xidmətinin nə qədər zəruri olduğunu göstərir. Cəmiyyətimizdə, xüsusən gənclər arasında orduya, hərbi xidmətə hörmət və diqqət artırılmalıdır. Hər bir gəncin orduya xidmətə getməsi onun ailəsində bayram olmalıdır, belə bir ənənə yaratmaq lazımdır.

Heydər Əliyev prezidentliyinin ilk dövrlərində böyük humanistlik və alicənablıq göstərərək, ordudan fərariliyə görə həbs olunmuş gənclərin əfv edilməsi haqqında bir neçə fərman imzalamış və onların vətən qarşısında öz günahlarını yuması üçün imkan yaratmışdı.

Bu tədbirlər qısa müddətdə öz müsbət təsirini göstərdi. Orduya çağırışdan yayınanların sayı getdikcə azalaraq tamamilə aradan qalxdı. Bu, Azərbaycan xalqının öz ordusuna olan etimadının və inamının bariz nümunəsi, Heydər Əliyev siyasətinin bəhrəsi idi.

Prezidentin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, əlaqədar dövlət orqanlarının iştirakı ilə müxtəlif tədbirlər keçirilməyə başlanmışdı.

1999-cu il fevralın 17-də Prezidentin sərəncamı ilə «Gənclərdə vətənpərvərlik və vətəndaşlıq hisslərinin yüksəldilməsi» proqramı təsdiq edildi. Proqramda hər bir dövlət orqanının bu sahədəki funksiyaları, keçiriləcək tədbirlərin siyahısı və icra müddəti, maliyyə mexanizmləri öz əksini tapmışdı. Dövlət başçısının 1999-cu il 29 iyul tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı»nda isə gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində müxtəlif tədbirlərin, layihələrin və proqramların reallaşdırılması nəzərdə tutulurdu.

Vətənpərvərlik tərbiyəsinin əsas istiqamətlərindən biri məktəbliləri ordu sıralarında xidmətə hazırlamaq üçün onların hərbi idman oyunlarına cəlb edilməsi idi. Bu məqsədlə 1996-cı ildən başlayaraq bütün rayon və şəhərlərdə orta məktəblərin IX–XI sinif şagirdləri arasında «Şahin» hərbi idman oyunları, 1998-ci ildən isə VI–VIII sinif şagirdləri arasında «Cəsurlar» hərbi idman və turizm oyunları keçirilir, onların səmərəliliyi və kütləviliyi ilbəil artırdı. Hər iki oyunun respublika final yarışları, ənənəvi olaraq, Bakıda C.Naxçıvanski adına Hərbi liseydə keçirilir.

Heydər Əliyev istedadlı və yaradıcı gənclərin üzə çıxarılması, onlara dövlət qayğısının artırılması, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılmasını da dövlət orqanları qarşısında bir vəzifə kimi qoymuşdu. O, gənc istedadlara, idmançılara dövlət qayğısının artırılması, onlara fərdi təqaüdlərin verilməsi haqqında bir neçə sərəncam imzalamış, mütəmadi olaraq onlarla görüşərək, yaradıcılıqları ilə tanış olmuş, dəyərli məsləhətlərini vermişdir. Prezidentin «Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında»

1996-cı il 22 iyun tarixli fərmanında elmi və mədəni tərəqqinin Azərbaycan Respublikasının gələcəyi üçün müstəsna əhəmiyyəti nəzərə alınaraq, istedadlı gənclərə Azərbaycan Respublikası Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialının inkişafı üçün dövlət qayğısını təmin etməkdən ötrü gənc istedadların «Qızıl kitabı»nın təsis olunması, Azərbaycan Respublikası Prezidentinin qərarı ilə gənc istedadların adlarının oraya yazılması, Azərbaycan Respublikasının Prezidenti yanında «Gənc İstedadlar Fondu»nun, «Qızıl kitab»a adları yazılanlara xüsusi təqaüdlərin təsis edilməsi nəzərdə tutulmuşdu.

Dövlət başçısının «Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında» 1999-cu il 6 dekabr tarixli fərmanı ilə gənc yazıçılar üçün təyin edilmiş fərdi təqaüdlər iki dəfə artırılmış və «Azərbaycan Respublikasının gənc yazıçılarına fərdi təqaüdlər verilməsi haqqında» sərəncamla 10 gənc yazıçının hər birinə 6 ay müddətində ayda bir milyon manat məbləğində fərdi təqaüd təyin edilmişdi.

Gənclər və İdman Nazirliyi, əlaqədar dövlət orqanları və yaradıcılıq ittifaqları ilə birgə istedadlı gənclərin üzə çıxarılması üçün elm, texnika, təhsil, ədəbiyyat, mədəniyyət, incəsənət və s. sahələrdə müxtəlif tədbirlər – müsabiqələr, festivallar, sərgilər, olimpiadalar, konfranslar təşkil edilir, xarici ölkələrdə müxtəlif tədbirlərdə onların iştirakı təmin olunurdu.

Respublika Nazirlər Kabinetinin 2000-ci il 4 avqust tarixli sərəncamı ilə istedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial-iqtisadi problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərinin inkişafına kömək məqsədilə təsdiq olunmuş Dövlət proqramında istedadlı yeni nəslin yetişməsi və onun potensialından dövlət quruculuğunda geniş istifadə olunması üçün həyata keçiriləcək tədbirlərin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Proqramın təsdiqindən sonra ölkənin bölgələrində gənc istedadların üzə çıxarılması sahəsində işlər daha ardıcıl xarakter almışdır. 2000-ci ildən «Bakı Payızı» estrada mahnı müsabiqəsi, 2001-ci ildən isə respublika uşaq folklor musiqi festivalları keçirilməyə başlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 aprel tarixli fərmanı ilə Gənclər və İdman Nazirliyi Gənclər, İdman və Turizm Nazirliyinə çevrilmiş, sentyabrın 18-də onun Əsasnaməsi təsdiq edilmişdir.

Gənclər arasında ayrı-ayrı sənət növlərinə və əmək fəaliyyətinə marağın artırılması, onların iqtisadi fəallığının yüksəldilməsi üçün əlverişli şəraitin yaradılması məqsədilə Gənclər, İdman və Turizm Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası «Gənc peşəkar» fəxri adının verilməsi qaydalarını hazırlamışdır. Bu adın təsis edilməsində məqsəd gənclərin yaradıcılıq potensiallarının inkişaf etdirilməsi, peşəkarlıq səviyyəsinin artırılması üçün yeni stimulların tətbiq olunmasıdır.

Azərbaycan Respublikasında milli gənclər siyasətinin əsas istiqamətlərindən biri də uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi, onların mənəvi, intellektual, fiziki inkişafına şərait yaratmaqdır. Respublika Uşaq Təşkilatının, Azərbaycan Skaut Assosiasiyasının yaradılması, «Uşaq və gənclər birlikləri proqramlarının qismən maliyyələşdirilməsi haqqında» Əsasnamənin təsdiq edilməsi bu istiqamətdə görülən işlərin bir hissəsi idi.

Ümummilli lider Heydər Əliyev uşaqların asudə vaxtlarının təşkilinə xüsusi önəm verir, onların keçirdiyi tədbirlərdə, bayram şənliklərində vaxtaşırı iştirak edirdi. Elə buna görə də uşaqlar Prezidenti çox sevir, özlərinə xas səmimiyyətlə ona «Heydər baba» deyirdilər. 1995-ci il dekabrın 21-də Bakının uşaq evlərində və internat məktəblərində tərbiyə alan uşaqların Yeni il şənliyində iştirak edən Prezident Heydər Əliyev onları «bizim sevincimiz, həyatımızın mənası, gələcəyimiz» adlandıraraq, inamla deyirdi ki, «sizə baxanda mən on, on beş, iyirmi il sonrakı Azərbaycanı görürəm. Azərbaycan Respublikasının necə parlaq gələcəyi var, bizi nə qədər gözəl günlər gözləyir. Çünki Azərbaycanın gələcəyini təşkil edən sizin kimi istedadlı balalarımız var».

Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikasında «Uşaq və gənclər birliklərinə dövlət yardımı haqqında», «Uşaq hüquqları haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında», «Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında» mühüm qanunlar qəbul edilmiş, dövlətimiz uşaq hüquqlarının qorunması ilə bağlı bütün beynəlxalq konvensiyalara qoşulmuşdur.

Respublika Nazirlər Kabineti valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsinin yaxşılaşdırılmasına dair tədbirlər planını təsdiq etmişdir. Tədbirlər planında dövlət

himayəsində olan və olmayan, qəyyumluqda, himayədə olan, övladlığa verilən, habelə rəsmiləşdirilmədən yaxın qohumunun yanında yaşayıb tərbiyə edilən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi üçün güzəşt və imtiyazlar müəyyənləşdirilmişdir.

Nazirlər Kabinetinin 2000-ci il 22 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş «Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında» Dövlət Proqramında isə uşaqların sosial, iqtisadi, mədəni hüquqlarının təmin edilməsi, əlverişsiz şəraitdə yaşayan, sosial müdafiəyə ehtiyacı olan və dövlətin himayəsində olan uşaqlarla iş, onların istismarının və onlara qarşı zorakılığın qarşısının alınması, uşaqların normal və ahəngdar inkişafı, yetkinlik yaşına çatmamış uşaqların hüquqlarının təmin edilməsi və s. məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planına uyğun olaraq, 1999-cu ildə Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi Gənclər və İdman Nazirliyinə verilmişdir. Orada hər il əqli və fiziki cəhətdən qüsurlu, yetim uşaqların, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqların, istedadlı və yaradıcı uşaqların yay, qış tətillərində istirahəti təmin olunur.

Gənc ailələrə dövlət qayğısının artırılması və onların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyinin təmin edilməsi üçün 1999-cu ilin fevralında respublika hökuməti «Gənc ailə proqramı»nı təsdiq etmişdir. Proqramda gənclərin ailə həyatına hazırlanması, gənc ailələrin reproduktiv sağlamlığının qorunması, ailə mənəviyyatının yüksəldilməsi, ailənin sosial oriyentasiyası və sosial müdafiəsi ilə bağlı, habelə təşkilati məsələlər nəzərdə tutulur. Proqrama uyğun olaraq, rayon və şəhərlərdə nikahaqədərki məsləhət xidmətləri şəbəkəsi, gənclərin ailə planlaşdırması, reproduktiv sağlamlıq, ailə mənəviyyatı problemləri ilə bağlı məlumat və məsləhət almaqları üçün anonim etimad mərkəzləri və anonim etimad telefonu xidməti yaradılmışdır.

Heydər Əliyev qaçqın və məcburi köçkün ailələrindən olan gənclərin sosial müdafiəsini və cəmiyyətə səmimiyyətə inteqrasiyasını təmin etməyi, onların problemlərinin həllini daim diqqətdə saxlamağı

bütün dövlət təşkilatları qarşısında bir vəzifə kimi qoyurdu. Qəbul olunmuş bir çox dövlət proqramlarında və normativ-hüquqi sənədlərdə belə ailələrdən olan uşaq, yeniyetmə və gənclərin sağlamlığının qorunması, istirahətinin, təhsil hüququnun təmin edilməsi məsələləri öz əksini tapmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş, şəhid ailələrindən olan, əlil və sosial müdafiəyə ehtiyacı olan gənclərin sosial, iqtisadi və hüquqi müdafiəsinin gücləndirilməsi Azərbaycan dövlətinin əsas diqqət yetirdiyi məsələlər idi. Ümummilli lider Azərbaycan Respublikasının müdafiəsində iştirak etmiş və əlil olmuş gənclərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların fərdi avtomobillərlə təmin edilməsi, xaricdə müalicə olunmaları üçün bir neçə sərəncam imzalamışdır. Əlil gənclərin reabilitasiyasını təmin etmək üçün Əlillərin Bərpa Mərkəzi və müxtəlif pansionatlar yaradılmışdır.

Heydər Əliyevin prezidentliyi dövründə gənclər hərəkatında nəzərə çarpan ən mühüm məqamlardan biri ölkəmizdə gənclər təşkilatlarının sayının artması idi. 1997-ci ilin əvvəlində respublikada 60-a yaxın gənclər təşkilatı vardısa, 2000-ci ildə onların sayı 120-dən çox idi. Bu təşkilatların əksəriyyəti konfederativ qurum olan Gənclər Təşkilatlarının Milli Şurasında (GTMŞ) birləşmişdir. 1995-ci ilin noyabrında yaradılmış GTMŞ bir sıra beynəlxalq gənclər qurumları – Avropa Gənclər Mərkəzi, Avropa Gənclər Forumu, Avropa Milli Gənclər Komitələri Şurası, Dünya Türk Gəncləri Birliyi ilə əlaqə yaratmış, onların çoxuna üzv olmuşdur.

Hazırda Azərbaycan Respublikasında gənclər hərəkatı yeni mərhələyə qədəm qoymuşdur. Ölkəmizdə 200-ə yaxın uşaq və gənclər təşkilatı fəaliyyət göstərir. Son dövrdə Azərbaycan gənclərinin beynəlxalq əlaqələri daha da genişlənmişdir. Onlar həm ölkə daxilində, həm də ondan kənarda bir sıra beynəlxalq tədbirlərdə iştirak edərək, ölkəmizin həqiqətləri barədə də öz həmyaşıdlarını məlumatlandırır, Dağlıq Qarabağ məsələsi haqqında düzgün fikir formalaşdırmağa kömək edirlər.

Heydər Əliyev respublika gənclərinin II Forumuna təbrikində Azərbaycan Respublikasının dövlət müstəqilliyini və suverenliyini qoruyub möhkəmləndirmək, ərazi bütövlüyünü təmin etmək, tor-

paqları işğaldan azad etmək, eləcə də ölkə iqtisadiyyatını inkişaf etdirmək, əhalinin sosial problemlərinin həlli, dünya birliyində ölkəmizin öz layiqli yerini tutması kimi vəzifələrin əsas ağırlığı və məsuliyyətinin gənclərin üzərinə düşdüyünü bildirərək, gəncliyi Azərbaycanı, dövlətçiliyimizi yaşatmağa, onu qüdrətli etməyə daim hazır olmağa çağırırdı. O, əmin edirdi ki, gənclərlə bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsi bundan sonra da təmin ediləcəkdir.

Əslində, bu, Heydər Əliyevin Azərbaycan gəncliyinə siyasi vəsiyyəti idi. İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmizdə gənclər hərəkatı yeni yüksəliş dövrünə qədəm qoydu. Gənclər hərəkatının inkişafında, gənclərin ictimai-siyasi proseslərdə yaxından iştirak etməsində 2005-ci ildə keçirilmiş Azərbaycan gənclərinin IV Forumu mühüm rol oynadı. Forumda geniş nitq söyləyən Prezident İlham Əliyev gənclərə müraciətlə demişdir: «Bilin ki, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxayın ola bilərsiniz. Mən də sizə arxalanıram» [392, 2005, 15 oktyabr].

Son illərdə qəbul olunmuş mühüm qərarlar, dövlət proqramları Ümummilli lider Heydər Əliyevin dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini göstərir. Bütün bunlar gənclərin hərtərəfli inkişafının təmin olunması üçün şərait və imkanların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına, iqtisadi, mədəni həyatda daha yaxından iştirak etməsinə, problemlərinin həlli istiqamətində daha səmərəli tədbirlərin həyata keçirilməsinə kömək etmişdir.

VI FƏSİL

HEYDƏR ƏLİYEVİN İNKİŞAF STRATEGİYASININ UĞURLU DAVAMI (2003–2010)

6.1. İqtisadi inkişafın yeni mərhələsi

2003-cü il avqustun 4-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Sərəncamı ilə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev Baş nazir təyin edildi. Bu, Azərbaycan Respublikasının son on ildə apardığı siyasətin davam etdiriləcəyini dünyaya nümayiş etdirdi.

Əsası Heydər Əliyev tərəfindən qoyulmuş və 1993-cü ildən 2003-cü ilədək ölkənin inkişafını təmin etmiş prinsiplərin gündəlikdə qalması sərmayəçiləri və sabitlikdə maraqlı olanları sakitləşdirdi.

Biznes elitası İlham Əliyevin Baş nazir təyin olunmasını və prezidentliyə əsas namizəd kimi göstərilməsini iqtisadi siyasətin davam etməsinə və öz kapitalına yeganə zəmanət kimi görürdü. İşgüzar dairələr məhz Heydər Əliyev siyasətini davam etdirəcək namizədi dəstəkləmək haqda qərar qəbul etdilər.

Cənubi Qafqaz regionunda əsas aparıcı xarici güclərdən biri olan ABŞ İlham Əliyevin Baş nazir təyin olunmasını bəyəndiyi haqda xüsusi bəyanat verdi. Prezident Corc Buş İlham Əliyevə göndərdiyi məktubda səbirsizliklə onunla əməkdaşlığı gözlədiyini bəyan etdi. Heydər Əliyevin siyasətinin varisliyi ABŞ üçün neft müqavilələrinin, strateji tərəfdaşlığın davam etdirilməsi, Vaşinqtonun terrorizmə qarşı mübarizə siyasətinin dəstəklənməsi, Bakı–Ceyhan neft və Bakı–Ərzurum qaz kəmərlərinin tikilməsi demək idi.

Türkiyə Cümhuriyyəti İlham Əliyevin Baş nazir təyin edilməsini alqışladı. Yeri gəlmişkən, İlham Əliyev bu vəzifəyə təyin olunmazdan iki gün əvvəl, avqustun 2-də Ankarada səfərdə olmuşdu. Sentyabrın 8-də isə İlham Əliyevi Ankarada artıq Baş nazir, həm də prezidentliyə

namizəd kimi qarşıladılar. Türkiyə Cümhuriyyəti də Heydər Əliyevin «bir millət, iki dövlət» siyasətinin davam etdirilməsində maraqlı idi.

Heydər Əliyevin siyasətinin davam etdirilməsi Rusiya üçün də böyük əhəmiyyət kəsb edirdi. O zaman bu, Çeçenistanda müharibə aparan Rusiya Federasiyası üçün Azərbaycan Respublikası tərəfindən ərazi bütövlüyünün dəstəklənməsi, Şimali Qafqazda separatizmə qarşı müttəfiqlik və ən başlıcası, Rusiya Federasiyasına qarşı olmamaq siyasətinin davam etdirilməsi demək idi. Baş nazir İlham Əliyevin 2003-cü ilin sentyabrında Yaltada Vladimir Putinlə görüşü zamanı Rusiya Federasiyasının Prezidenti onu açıq-aşkar dəstəkləyən bəyanat verdi: «Biz bütün sahələrdə köməyə hazırıq. Əgər səfərlər də kömək edirsə, mən Sizi Moskvaya səfərə dəvət edirəm». Moskva Baş nazir İlham Əliyevə de-fakto prezident kimi müraciət edirdi.

Gürcüstan Prezidenti Eduard Şevardnadze də 2003-cü ilin sentyabrında Yaltadakı görüşü zamanı birmənalı olaraq İlham Əliyevi nəinki Baş nazir, hətta gələcək prezident kimi dəstəklədiyini elan etdi: «Mən şadam ki, Heydər Əliyevin işini İlham davam etdirəcək. Mən onu Tbilisiyə dəvət edirəm».

İranın vitse-prezidenti də İlham Əliyevin Baş nazir təyin olunmasına müsbət münasibət bildirdi.

Lakin 2003-cü ildə Azərbaycan Respublikasında proseslərin gedişi müxtəlif istiqamətlərə, vektorlara və oriyentirlərə yönələ bilərdi. Əvvəla, Ümummilli liderin banisi olduğu, möhkəm təməllərə söykənən suveren Azərbaycanın tarixində dahi siyasətçinin həyatdan getməsi kimi sarsıntıdan doğan gərginlik, tərəddüd ovqatı mövcud idi. Əvəzolunmaz siyasət öndərini əvəzləyə biləcək hər bir şəxsiyyət bu zirvə-etalonla müqayisə edilirdi. Azərbaycan tarixində də dəfələrlə baş verən uğursuzluq mərhələsinin təkrarolunmaz ehtimalı istisna deyildi [300, 11].

Ancaq Baş nazir İlham Əliyev çox uğurla seçki kampaniyası apardı, istər Azərbaycan cəmiyyətini, istərsə də beynəlxalq aləmi Heydər Əliyevin xəttinin davam etdiriləcəyinə inandırdı. İlham Əliyev oktyabrın 15-də keçirilmiş prezident seçkilərində inamlı qələbə qazandı.

Əhalinin seçkilərdə fəal iştirakının və İlham Əliyevin səslərin əksəriyyətini qazanmasının başlıca səbəbi onda idi ki, xalq Heydər Əliyevin daxili və xarici siyasətini, ölkənin bazar iqtisadiyyatı yolu ilə, hüquqi,

dövlət və demokratik cəmiyyət quruculuğu yolu ilə tədricən inkişafı xəttini dəstəkləyirdi [301, 337].

Lakin «öz məğlubiyyətini səsvermənin nəticələrinin saxtalaşdırılması, seçkilər haqqında qanunun pozulması və inzibati vasitələrdən istifadə olunması ilə izah etməyə çalışan» [301, 342] radikal müxalifət liderləri onları təlimatlandıran və maliyyələşdirən beynəlxalq qurumların «xeyir-duası» ilə oktyabrın 15-16-da Bakının mərkəzi küçələrində xaos və anarxiya törətdilər. Ancaq iqtidarın qətiyyətli tədbirləri nəticəsində iğtişaşlar yatırıldı.

2003-cü ilin oktyabr hadisələrindən iki il keçdikdən və əfv fərmanı nəticəsində azadlığa çıxdıqdan sonra müxalifət liderlərindən biri qəzetə müsahibəsində deyəcək: «Oktyabrın 16-da bizə xaricdən demişdilər ki, bir gün də dözün». Qəribədir ki, elə yenə xaricdən hökumət nümayəndələrinə zəng edib iğtişaşları yatırmağı və sabitliyi bərpa etməyi xahiş edirdilər. Sonralar təsadüf nəticəsində ortaya çıxan və ictimaiyyətə bəlli olan bu məlumatlar 15-16 oktyabr iğtişaşlarının əsl mahiyyətini və maraqlı qüvvələri açıb göstərdi. Xaricdəki bəzi qüvvələrə təzyiqlərə qarşı immuniteti olmayan zəif Azərbaycan hakimiyyəti lazım idi. Elə hakimiyyət ki, həmin qüvvələrə ölkəyə gələcək neft milyardlarına nəzarət imkanı verəcəkdi.

2003-cü il milli transformasiyanın yeni mərhələsinin başlanğıcı oldu, səlis qurulmuş sabit siyasi sistemi tərəqqi etməkdə olan iqtisadi strukturun intensiv formalaşması məkanına yönəltdi. İlham Əliyevin prezidentliyinin əsas konsepsiyası güclü iqtisadi bazanın formalaşdırılmasından ibarət idi [308, 13].

İqtisadi sahədə əsas məqsədlər bunlar idi:

İqtisadiyyatda liberal islahatların dərinləşdirilməsi; yerli şirkətlərin rəqabət qabiliyyətliliyini artırmaq üçün onların liberal prinsiplərə zidd olmayan metodlarla dəstəklənməsi; Xəzər regionunun xarici sərmayələr üçün açıqlığının davam etdirilməsi; neft və qaz sahəsində yerli sərmayələrə üstünlük verilməsi; xarici təzyiqlərə baxmayaraq, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisində aparıcı rolun davam etdirilməsi; Azərbaycan Respublikasının qlobal nəqliyyat dəhlizinə çevrilməsi siyasətinin davam etdirilməsi; neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi; regionların sosial-iqtisadi inkişafı xəttinin davam etdirilməsi; ərzaq təhlükəsizliyinin təmin olunması; yoxsulluğun azaldılması; Dünya Ticarət Təşkilatına daxil olmaqda tələsməmək və ölkə iqtisadiyyatının tədricən bu prosesə hazırlanması siyasətinin davam etdirilməsi.

Prezident İlham Əliyev oktyabrın 31-də andiçmə mərasimində demişdir: «Qeyri-neft sektoruna böyük diqqət göstəriləcəkdir. Yeni zavodlar, fabriklər istifadəyə veriləcəkdir. Sahibkarlığın inkişafı üçün tədbirlər planı, Azərbaycan Respublikasında iqtisadi inkişaf proqramı hazırlanır. Bu çoxşaxəli inkişaf proqramı Azərbaycan Respublikasını qısa müddət ərzində zəngin dövlətə çevirməyə imkan verəcəkdir» [392, 2003, 31 noyabr].

Ötən illərdə qazanılmış uğurlara baxmayaraq, xüsusilə regionların inkişafı və əhalinin məşğulluğu sahəsində həll edilməmiş problemlər qalmaqda idi. Azərbaycan Respublikasının sənaye potensialının və bununla bağlı infrastruktur obyektlərinin əksər hissəsinin Bakı şəhərində yerləşməsi və eyni zamanda regionlardakı bir çox müəssisələrin, istehsal və xidmət obyektlərinin fəaliyyətinin zəifləməsi, yaxud tamamilə dayanması əhalinin paytaxta axınını sürətləndirmişdi. Bu amillər iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərərək, paytaxtla bölgələrin inkişaf səviyyəsində fərqin artmasına, bir çox yerlərdə sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətin ağırlaşmasına səbəb olurdu.

İlham Əliyev prezident seçkiləri kampaniyası zamanı regionlara səfərində bölgələrin inkişafı ilə bağlı proqramın hazırlanması haqda bəyanat vermişdir. Noyabrın 24-də «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında» fərman imzalandı. Prezident seçkilərindən 4 ay sonra, 2004-cü il fevralın 11-də Prezident fərmanı ilə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004–2008-ci illər)» təsdiq olundu.

Proqramda aşağıdakı əsas məqsədlər nəzərdə tutulmuşdu: müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq; yerli resurslardan istifadənin səmərəsini artırmaq; regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək; aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək; sərmayədarların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək; yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək; əhalinin kommunal xidmətlə təminatını yaxşılaşdırmaq.

Proqramın həyata keçirilməsi gedişində ona düzəlişlər və əlavələr edildi. Əlavə tədbirlər barədə Prezident daha 17 sərəncam imzaladı. Proqram 5 il üçün nəzərdə tutulsa da, artıq 2008-ci il fevralın 11-də, proqramın 4 illiyi münasibətilə təşkil edilmiş sərgi-konfransda onun, demək olar, tam həyata keçirildiyi bildirildi.

Proqramın həyata keçirilməsində regionlara ayrılan dövlət investisiyalarının artırılmasına xüsusi əhəmiyyət verilirdi. 2004–2008-ci illərdə regionlara 6,8 milyard manat həcmində dövlət investisiyaları qoyulmuşdu. Dövlət büdcəsindən sahibkarlığın inkişafına ayrılan vəsait də artırılmışdı. Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə 7 min investisiya layihəsinə 324 milyon manat kredit verilmişdi. Bu layihələrin 87 faizi, kreditlərin isə 70 faizi regionların payına düşürdü. Dövlət proqramının icrası ilə bağlı regionlarda həyata keçirilən layihələrin maliyyələşdirilməsinə beynəlxalq maliyyə qurumlarından 2,2 milyard dollar vəsait cəlb edilmişdi. Kənd təsərrüfatı məhsulları istehsalçılarına yanacaq, gübrə, toxum üçün, habelə buğda əkinlərinə görə subsidiyaların verilməsi, vergi güzəştlərinin tətbiqi nəticəsində məhsul istehsalının nominal dəyəri 2,4 dəfə artmışdı [392, 2009, 24 fevral].

Eyni zamanda geniş miqyasda sosial və infrastruktur layihələri həyata keçirilmişdir. Prezident İlham Əliyev proqramın həyata keçirilməsini şəxsən nəzarətdə saxlayır və görülən işlərlə bilavasitə yerlərdə tanış olmaq üçün tez-tez bölgələrə gedirdi. O, bütün rayonlar əhatə olunmaqla 127 səfər etmiş, 500-dək müəssisə və obyektin təməlinin qoyulması və açılışında iştirak etmişdir.

Ümumiyyətlə, 2004–2008-ci illərdə Azərbaycan Respublikasının iqtisadiyyatı 2,6 dəfə, büdcə xərcləri 12 dəfədən çox, sərmayə qoyuluşu 2,4 dəfə, ÜDM-də qeyri-neft sektorunun payı 1,2 dəfə artmış, ölkənin valyuta ehtiyatları 18 milyard dolları ötmüşdü. Respublikada 27,5 min yeni müəssisə, 766 min iş yeri (bunun 547 mini daimi idi) açılmışdı. Bu müəssisələrin 40 faizi, iş yerlərinin isə 80 faizi regionların payına düşürdü. 1600 məktəb (1300-ü bölgələrdə), 16 xəstəxana, 18 olimpiya idman kompleksi tikilmiş, Dövlət Neft Fondunun vəsaiti hesabına qaçqın və məcburi köçkünlər üçün 15 mindən çox evi olan 54 qəsəbə salınmış, ümumiyyətlə, mövcud 12 çadır şəhərciyinin hamısı ləğv edilmişdi. Ötən beş ilin ən mühüm uğurlarından biri isə yoxsulluğun səviyyəsinin 49 faizdən 13,2 faizə düşməsi idi.

Bu illərdə Bakı–Tbilisi–Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilmiş, Bakı–Tbilisi–Qars dəniz yolunun, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə başlanmışdı. Beş il ərzində Azərbaycan bütövlükdə MDB məkanında iqtisadiyyatı ən tarazlı inkişaf edən ölkəyə, regionda mühüm iqtisadi güc mərkəzinə çevrilmişdi. 2008-ci ildə Dünya Bankı Azərbaycan Respublikasını ən islahatçı ölkə elan etmişdi.

2009-cu ilin fevralında dövlət başçısı «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nı təsdiq etmişdir.

Dünya tarixinə maliyyə böhranı ili kimi daxil olan 2009-cu ildə Azərbaycan ən sürətlə inkişaf edən ölkələr sırasında idi. Ötən illər ərzində ölkədə yaradılan maliyyə-iqtisadi potensial, həyata keçirilən iqtisadi islahatlar, qətiyyətli və çevik iqtisadi siyasət tədbirləri ili uğurla başa vurmağa imkan verdi. Dünya iqtisadiyyatının 1,1 faiz aşağı düşməsi fonunda ÜDM-in artımı 9,3 faiz olmuşdu. Bunu tarixi nailiyyət adlandıran Prezident İlham Əliyev demişdir ki, Azərbaycan MDB məkanında ən sürətlə inkişaf edən ölkədir. Mötəbər beynəlxalq qurum olan Dünya İqtisadi Forumu rəqabət qabiliyyətinə görə Azərbaycana 51-ci yeri vermişdir. Bu isə o deməkdir ki, Azərbaycan MDB məkanında ən rəqabət qabiliyyətli ölkədir.

2009-cu ildə respublikamızda sənaye istehsalı 8,6 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 3,5 faiz artmış, 74 min yeni iş yeri açılmışdı. Yoxsulluğun səviyyəsi 11 faizə düşmüşdü. İl ərzində 9,2 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da tam əksəriyyəti – 7,3 milyard dolları daxili sərmayələr idi. Dünya bazarında neftin qiymətinin 2008-ci ilə nisbətən təxminən 1,5 dəfə aşağı düşməsinə baxmayaraq, Azərbaycan Respublikasının valyuta ehtiyatları da artmış və 20,4 milyard dollar təşkil etmişdi.

İkinci Dövlət Proqramının icrasına başlanması qeyri-neft sektorunun inkişafına, yeni iş yerlərinin və müəssisələrin yaradılmasına, beləliklə, məşğulluğun artırılmasına və yoxsulluğun səviyyəsinin azaldılmasına, bölgələrdə kommunal xidmət və sosial infrastruktur təminatının həcmi və keyfiyyətinin yüksəldilməsinə, iqtisadiyyata sərmayə qoyuluşunun artmasına güclü təkan verdi.

2009-cu il xüsusilə sahibkarlığın inkişafı, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırıl-





masi, özəl bölməyə dövlət dəstəyi tədbirlərinin genişləndirilməsi ilə səciyyəvi olmuşdur.

«Xüsusi iqtisadi zonalar haqqında» qəbul olunmuş qanun rəqabətə davamlı yeni istehsal sahələrinin yaranmasına, qeyri-neft məhsullarının ixracının artmasına, bütövlükdə sahibkarlığın daha da inkişafına töhfə verəcəkdir.

2009-cu ildə Azərbaycan İnvestisiya Şirkətinin nizamnamə kapitalının artırılmasına dövlət büdcəsindən 70 milyon manat vəsait ayrılmışdı. Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 2100 sahibkarlıq subyektinə 130 milyon manat güzəştli kreditlər verilmişdi ki, bu da 2008-ci ildəkindən 1,5 dəfə çox idi. Bu kreditlərin 70 milyon manatı büdcədən Fonda ayrılmış vəsait hesabına təmin edilmişdi. Həmin kreditlər hesabına qeyri-neft sektorunda 94 iri layihə, o cümlədən 52 istehsal, emal və infrastruktur layihəsi maliyyələşdirilmişdi. Bu layihələrin 99, 2 faizi bölgələrin payına düşürdü.

Qlobal maliyyə böhranı şəraitində ölkədə makroiqtisadi sabitliyin, maliyyə-bank sistemində sabitliyin pozulması kimi risklər vardı. Lakin Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf və radikal islahatlar strategiyası, ölkənin valyuta ehtiyatları hesabına iqtisadiyyatda yüksək dayanıqlıq potensialının yaradılması, dövlət başçısının irəli sürdüyü səmərəli antiböhran strategiyası sayəsində böhranın mənfi təsirləri minimuma endirildi. Ölkədə orta illik inflyasiya səviyyəsi 2004–2008-ci illərdəki orta səviyyədən təxminən 10 dəfə az oldu. Bu isə əhalinin real pul gəlirlərinin artım tempinin təxminən 6 faiz səviyyəsində saxlanmasını təmin etdi. Görülən tədbirlər nəticəsində bankların aktivləri 14 faiz, kreditləri 17 faiz, kapitalı 18 faiz, əmanətləri 23 faiz artdı.

Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyaları cəmi 5-6 il əvvəl inkişaf etməyə başlasa da, artıq bu sahədə böyük uğurlar var. Dünya İqtisadi Forumu MDB məkanında bu sahədə birinci yeri Azərbaycana vermişdir. Bu sahədə görülən ən mühüm işlərdən biri «Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı»nın həyata keçirilməsidir. Prezident İlham Əliyev İKT-nin ölkəmizin gələcəyi baxımından əhəmiyyətindən danışarkən demişdir: «Bu həm iqtisadi inkişaf, həm müasirlik, həm də təhsil deməkdir... dünyanın elmi-texniki tərəqqisi bu istiqamətdə inkişaf edəcəkdir» [392, 2010, 15 aprel].

2010-cu ilin ötən doqquz ayında Azərbaycan Respublikasının iqtisadiyyatı uğurla inkişafını davam etdirmişdir. Bu müddətdə ÜDM 4,1 faiz, sənaye istehsalı 3,1 faiz, qeyri-neft sektoru 5,2 faiz, əhalinin pul gəlirləri 11 faiz artmışdır. İlin əvvəllərindən ölkənin valyuta ehtiyatları artaraq 28 milyarddan çox olmuşdur. Ötən doqquz ayda 56 min, 2003-cü ildən sonra isə təxminən 900 min yeni iş yeri açılmışdır [392, 2010, 12 oktyabr].

2005-ci il Azərbaycan Respublikasının neft sənayesinin inkişafının yeni keyfiyyət mərhələsinə keçidinin başlanğıcı oldu. 1994-cü ildən 2005-ci ilədək neft sektorunun bütün sahələrində xarici kapitala çox böyük ehtiyac hiss olunurdu. Buna görə də ötən on il ərzində Azərbaycan Respublikasının neft sənayesi sahəsindəki siyasətinin əsas prinsipi xarici kapitalın cəlb edilməsi idi. Bu, təkcə iqtisadi deyil, həm də mühüm siyasi məsələ kimi gündəlikdə dururdu. 1995–2005-ci illərdə Azərbaycan Respublikasının neft sənayesinə 17 milyard dollar xarici sərmayə qoyulmuşdu. Görülmüş işlər nəticəsində Azərbaycan Respublikasının neft sənayesi böhran vəziyyətindən çıxa bildi. Artıq ölkənin özünün neft sektoruna yatırmaq üçün böyük maliyyə ehtiyatları yaranmağa başlamışdı.

«Böyük neft» erasının başlanması ilə müstəqil Azərbaycan Respublikasının yeni neft strategiyasının ikinci mərhələsinin elan olunması üst-üstə düşdü. 2005-ci il fevralın 13-də «Mərkəzi Azəri» yatağından ilkin neft çıxarıldı. Bir gün sonra, fevralın 14-də isə Prezident İlham Əliyev «2005–2015-ci illərdə yanacaq-energetika kompleksinin inkişafı üzrə Dövlət Proqramı»nı təsdiqlədi. Bu proqramda göstərilir ki, növbəti on ildə yeni yataqların axtarılması, kəşfiyyat işləri və sair məsələlərdə yerli şirkətə – ARDNŞ-ə üstünlük veriləcəkdir.

Prezident İlham Əliyevin məqsədi aydındır: milli neft şirkətinin Xəzər dənizində, eyni zamanda xaricdə mövqelərini möhkəmləndirmək və Norveçin «Statoyl» şirkəti modelində bir şirkət yaratmaq.

Kommersiya manevrlərinin miqyasını genişləndirmək üçün ARDNŞ «Exson» və TPAO şirkətlərinə olan borclarını ödədi. Bu, Azərbaycan Respublikasına öz payından daha çox neft gəlirləri üçün şərait yaratdı. Yeni neft siyasəti kontekstində bunu belə izah etmək olar:

«Gəlir nə qədər çox, tərəfdaş nə qədər azdırsa, öhdəliklər də o qədər azdır. Öhdəlik nə qədər az, gəlir nə qədər çoxdursa, azadlığın sərhədləri də o qədər genişdir». Hər şey hesablanmışdı. Böyük rəqabətə girmək üçün qərarların qəbul olunmasında daha çox müstəqilliyə nail olmaq lazımdır. Müstəqilliyin dəyərinin dollarla ifadəsi isə belədir: ARDNŞ «Əşrəfi» strukturuna 200 milyon dollar sərmayə yatırarsa, bundan təxminən 1 milyard dollar, yəni yatırılmış sərmayədən beş dəfə artıq qazana bilər. Eyni işi tərəfdaşlarla birlikdə gördükdə isə gəlirin həcmi yarıbayarı azala bilər. Ancaq qarşıya qoyulmuş məqsədə çatmaq üçün təkcə maliyyə müstəqilliyi yetərli deyildir. Odur ki, ölkə Prezidentinin müəyyənləşdirdiyi istiqamətlər üzrə islahatların detalları açıqlandı: avadanlıqların yeniləşdirilməsi; neftin maya dəyərinin aşağı salınması; Qərb universitetlərində mütəxəssislərin hazırlanması; insan resurslarına investisiya qoyulması, neftçilərin əməkhaqqının artırılması; maddi-məişət şəraitinin yaxşılaşdırılması.

2006-cı il dekabrın 29-da Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Gürcüstanın Kulevi terminalının alınması haqqında müqaviləni imzaladı. Kulevi terminalı və dəmir yolunun tutduğu ərazi Azərbaycanın mülkiyyəti olaraq 148 hektar ərazini əhatə edirdi, sonradan isə 300 hektara qədər genişləndirildi. Ərazidə quru yüklərin yüklənməsi və boşaldılması üçün liman və neft emalı zavodunun da tikilməsi planlaşdırılır.

Azərbaycan Dövlət Neft Şirkəti Gürcüstanda 30-dan çox benzindoldurma stansiyasını işə salmış, eyni zamanda bu ölkənin daxili qazpaylaşdırıcı bazarında aparıcı mövqe tutmağa başlamışdır.

ARDNŞ Gürcüstan və Türkiyədən sonra Rumıniyada da öz ofisini açdı. Sərmayə ixracı Azərbaycanın xarici iqtisadi əlaqələrində yeni istiqamətə çevrildi. Prezident İlham Əliyev deyirdi: «Biz növbəti illərdə Azərbaycandan kənarda investisiya qoyuluşuna daha böyük diqqət göstərməliyik. Əlbəttə, ilk növbədə, biz öz resurslarımızı Azərbaycana investisiya şəklində qoymalıyıq. Ancaq həm biznes baxımından, həm də ki, geniş maraqlarımız baxımından biz başqa ölkələrə kapital qoyuluşunu daha da artırmalıyıq. Bu baxımdan, Dövlət Neft Şirkəti artıq böyük layihələrdə iştirak edir. Son müddət ərzində neft-qaz kəmərlərinə qoyulan vəsaitdən əlavə, Dövlət Neft Şirkəti Türkiyə, Gürcüstan iqtisadiyyatına 2,5 milyard dollar sərmayə qoyubdur və bu proses

davam edir. Mən əvvəllər demişəm ki, Dövlət Neft Şirkəti beynəlxalq səviyyəli neft şirkətinə çevrilməlidir və bu proses uğurla gedir. Növbəti illərdə başqa ölkələrə, bizə dost olan ölkələrin iqtisadiyyatına investisiyaların qoyulması nəzərdə tutulmalıdır. Digər dövlət şirkətlərinin də imkanları artır. Onlar da baxmalıdırlar ki, harada cəlbedici layihələr var ki, xarici ölkələrə investisiya qoyulsun» [392, 2008, 6 avqust].

Prezident İlham Əliyevin neft-qaz siyasəti təbii ehtiyatların yalnız beynəlxalq kommersiya prinsipləri əsasında, bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə hasilatı, emalı, nəqli və satışını nəzərdə tutur. Digər məqam isə neft və qaz ticarətinin siyasiləşdirilməməsidir. Üçüncü prinsip neft və qazın satış bazarlarının şaxələndirilməsi və bir bazardan asılı olmamaq siyasətinin yürüdülməsidir. Dördüncü prinsip enerji resurslarının nəqli marşrutlarının şaxələndirilməsidir. Beşinci prinsip isə Azərbaycana dost ölkələrin enerji infrastrukturuna sərmayələrin yatırılması sayıla bilər. Altıncı prinsip ölkənin enerji ehtiyatlarının yerli şirkət tərəfindən işlənməsinə üstünlük verilməsi və nəhayət, yeddinci prinsip Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin beynəlxalq şirkətə çevrilməsi və ölkə hüdudlarından kənarda enerji ehtiyatlarının kəşfiyyatı, hasilatı, nəqli və emalı proseslərində iştirakının təmin edilməsidir.

Dövlət başçısı neft hasilatı və ixracı ilə bağlı strategiyaya yeni bir düzəlişlə çıxış etmişdir. Bunu enerji siyasətində yeni konsepsiya da adlandırmaq olar. Prezident Azərbaycan Respublikasının ildə 50–60 milyon tondan artıq neft hasil etmək niyyətində olmadığını və bu səviyyənin ölkənin istər xarici öhdəlikləri, istərsə də daxili tələbatı üçün yetərli olduğunu bildirmişdir: «Mən hesab edirəm ki, biz gələcəkdə neft hasilatını çox da artırmamalıyıq. Bizim buna ehtiyacımız yoxdur. 50 milyon ton, bəlkə də 60 milyon ton illik hasilat tam şəkildə bizə kifayətdir ki, bütün problemləri həll edək və valyuta ehtiyatlarını artıraq. Beləliklə, bizim neft yataqlarımız daha uzun müddətdə Azərbaycan xalqına xidmət edəcəkdir» [392, 2007, 14 noyabr].

Neft strategiyasına edilən bu düzəlişin mahiyyəti Prezidentin vurğuladığı kimi, milli sərvət olan neftin yerin altında daha uzun müddətə ehtiyat kimi qalması, Azərbaycanda neft erasının müddətinin uzadılması, ehtiyatların pul şəklində deyil, məhz neft şəklində saxlanmasının məqsədyönlülüyüdür.

Əgər Azərbaycan Respublikası ölkə qarşısında duran strateji siyasi, iqtisadi və maliyyə problemlərini qaz hasilatı və ixracı ilə təmin edə bilirsə, neftin bir hissəsinin ehtiyatda saxlanması üçün imkan yaranır. Prezident İlham Əliyev bununla bağlı demişdir: «Qaz hasilatına isə daha böyük diqqət göstərməliyik. Azərbaycan Respublikasında çox böyük qaz ehtiyatları var. Təkcə təsdiq olunmuş 2 trilyon kubmetr, bəlkə də çox ehtiyat var. Bu, Azərbaycan Respublikasının daxili tələbatının ödənilməsi üçün 150 il kifayət edəcəkdir. Ancaq mən əminəm ki, əlbəttə, yeni quyular qazılandan sonra bu həcm daha da böyüyəcəkdir. Biz həm özümüzün, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün qaz hasilatımızı artırmalıyıq» [392, 2007, 14 noyabr].

2009-cu ilin dekabrında isə Prezident İlham Əliyev Rusiya televiziyasının «Vesti» proqramına müsahibəsində Azərbaycan Respublikasının qaz potensialının 5 trilyon kubmetr həcmində olduğunu bildirmişdir: «Bizim potensialın çox böyük olmasını, – Azərbaycanda qaz ehtiyatlarının təsdiq edilmiş minimal həcmi 2 trilyon kubmetr, real ehtiyatlar isə təqribən 5 trilyon kubmetrdir, – nəzərə alsaq, yeni satış bazarlarına çıxmaq imkanı hər bir ölkə üçün cəlbedici məqamdır».

Türkiyə Cümhuriyyəti və Yunanıstanın qaz xətlərinin birləşdirilməsi ilə Azərbaycan Respublikasının mavi yanacağı Avropa İttifaqı bazarına çıxmışdır. Prezident İlham Əliyev həmin mərasimdə demişdir: «Mən çox şadam ki, bu gün Azərbaycan qazı ilk dəfə olaraq, Avropa İttifaqı bazarına çatdırılır. Azərbaycan qədim neft ölkəsidir.... Ancaq qaz ölkəsi kimi Azərbaycan təzə-təzə özünü dünyaya təqdim edir. Biz o ölkəyik ki, hələ keçən il xaricdən 4,5 milyard kubmetr qaz idxal edirdik. Amma Azərbaycanda aparılan böyük işlərin nəticəsində, neft strategiyasının icrası nəticəsində, Azərbaycanda böyük qaz yataqlarının kəşfi və işlənilməsi nəticəsində bu gün Azərbaycan artıq qaz idxal etmir, əksinə, öz qazını qonşu ölkələrin bazarlarına ixrac edir. İndi Azərbaycan üç ölkəyə – Gürcüstana, Türkiyəyə və bu gündən Yunanıstana qazın ixracı ilə məşğuldur. Azərbaycan qazı bundan sonra başqa ölkələrə ixrac ediləcəkdir və beləliklə, həm bizim maraqlarımız, həm tranzit ölkələrin maraqları təmin olunacaq və əlbəttə ki, istehlakçıların maraqları təmin ediləcəkdir».

2009-cu ilin əvvəllərində «Əsrin müqaviləsi» çərçivəsində yeni bir layihənin – «Çıraq» layihəsinin həyata keçirilməsinə başlanmışdır. Bu,

«Azəri–Çıraq-Günəşli» yataqları üzrə görüləcək işlərin bir hissəsi olsa da, Prezident İlham Əliyevin vurğuladığı kimi, onun əhəmiyyəti nəzərə alınaraq, ayrıca layihə adlandırılmışdır. Dövlətimizin başçısı həmin layihə barədə demişdir: «Çıraq» layihəsi əlavə 6 milyard dollar investisiyanın qoyulmasını tələb edir. Minlərlə yeni iş yerinin açılmasını təmin edəcəkdir. O iş yerlərinin 90 faizindən çoxu Azərbaycanda açılacaqdır. Beləliklə, Azərbaycanda həm neft hasilatının artımı təmin ediləcək, həm də ki, hasilatın sabit saxlanması üçün əlavə imkanlar yaranacaqdır. Bu, uzun illər bundan sonra hasilatı yüksək səviyyədə, sabit səviyyədə saxlayacaqdır. Bu da ölkəmizin inkişafı üçün çox vacibdir ki, biz gələcəkdə planlarımızı elə quraq ki, əldə ediləcək əlavə mənfəət həm ehtiyatların artırılmasına yönəldilsin, eyni zamanda investisiya xərclərinin təmin edilməsi daha da geniş vüsət alsın» [392, 2009, 15 aprel].

Şaxələndirilmiş boru kəmərlərinin olması neft-qaz hasilatını artırmağa imkan verir. Azərbaycan Prezidenti Estoniyaya dövlət səfəri zamanı ölkənin Xarici İşlər Nazirliyində mühazirəsində bildirmişdir ki, 2010-cu ildə respublikamızda 50 milyon tondan çox neft çıxarılacaq, qaz hasilatı isə 25-26 milyard kubmetrdən artıq olacaqdır [392, 2010, 9 aprel].

Azərbaycan Respublikasının təbii qazının Avropaya ixracı baxımından «Cənub dəhlizi» layihəsinin həyata keçirilməsinin böyük əhəmiyyəti vardır. Ölkəmizin ilk vaxtdan dəstəklədiyi bu layihə– Nabukko, Türkiyə–Yunanıstan-İtaliya, habelə Transadriatik qaz kəmərləri layihələrini nəzərdə tutur. 2010-cu ilin mayında Azərbaycan, Gürcüstan və Rumıniya arasında əməkdaşlığa dair memorandum imzalanmışdır. Prezident İlham Əliyev Azərbaycan qazının mayeləşdirilmiş şəkildə Qara dəniz vasitəsilə Rumıniyaya nəqlini nəzərdə tutan bu layihəni də «Cənub dəhlizi»nin bir hissəsi hesab edir.

Dövlətimizin başçısı «Cənub dəhlizi»ndən danışarkən demişdir ki, bu layihənin baş tutmasında ən maraqlı tərəf Azərbaycan Respublikasıdır. Çünki təbii qazın ixracı üçün bizə etibarlı, uzunmüddətli və qanunlarla tənzimlənən bazarlar lazımdır. Layihə reallaşarsa, xarici şirkətlər «Şahdəniz» yatağının işlənilməsinin ikinci fazasına sərmayə qoymağa başlayacaqdır. Beləliklə, illik ümumi hasilat 40 milyard kubmetr və daha çox ola bilər. Ümumiyyətlə isə neft və qaz hasilatı və

ixracının indiki səviyyəsi ölkəmizi təmin edir. Əgər yeni layihələr baş tutarsa, imkanlarımız daha da genişlənəcəkdir [392, 2010, 15 aprel].

2010-cu ilin son aylarında Xəzər dənizindəki «Ümid» yatağında dərin laylarda aparılan kəşfiyyat qazması uğurla nəticələnmiş, burada zəngin qaz ehtiyatı aşkar olunmuşdur. Prezident İlham Əliyev ölkəmizin neft-qaz sənayesində görülən işlərdən danışarkən demişdir ki, «nə biz, nə də ki, tərəfdaşlarımız Azərbaycan Respublikasının neft-qaz siyasətinə təkcə Azərbaycanın işi kimi baxmırıq. Çünki bu, artıq beynəlxalq münasibətlərdə, dünya enerji xəritəsinin yenidən formalaşmasında mühüm rol oynayır. Azərbaycan bu gün enerji sektorunda müstəqil və çox etibarlı oyunçuya çevrilmişdir» [392, 2010, 21 oktyabr].

Azərbaycan Respublikası iqtisadiyyatının uğurlu inkişafı, davamlı artımı, maliyyə ehtiyatlarının çoxalması, konstruktiv borclanma siyasəti, habelə böhrana qarşı dayanıqlığı nüfuzlu beynəlxalq şirkətlər tərəfindən yüksək qiymətləndirilir. «Fitch» beynəlxalq reytinq agentliyi 2010-cu ilin mayında ölkəmizə ilk dəfə olaraq «sabit» investisiya reytinqi vermişdir. Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının «Doing Business 2010» hesabatında da Azərbaycan biznes mühitinin yaxşılaşdırılması sahəsində ən islahatçı ölkə mövqeyini qoruyub saxlamışdır.

Dünya İqtisadi Forumunun «Qlobal rəqabətlilik hesabatı»nda Azərbaycan Respublikası 2009-cu ildə olduğu kimi, 2010-cu ildə də MDB məkanında liderdir. «Standart and Poor's» beynəlxalq reytinq agentliyi isə ölkəmizin iqtisadiyyatını əks etdirən göstəricini «Stabil»dən «Pozitiv»ə yüksəltmişdir [469].

Ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və həyata keçirilməsinə başlanmış iqtisadi inkişaf xəttinin və onun təməlində dayanan yeni neft strategiyasının sonrakı illərdəki uğurları, regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramında nəzərdə tutulan işlərin artıqlaması ilə yerinə yetirilməsi, ikinci Dövlət Proqramının icrasının ilk ilindəki nailiyyətlər Azərbaycanı güclü, rəqabətə davamlı iqtisadiyyata malik, sürətlə inkişaf edən ölkəyə, regionda əsas iqtisadi güc mərkəzinə çevirmişdir. Azərbaycan Respublikası iqtisadiyyatda keçid dövrünü başa vurmuşdur. Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 90 illiyinə həsr olunmuş yığıncaqda bunu ilk dəfə bəyan edərək demişdir: «Azərbaycan iqtisadi cəhətdən artıq

oturuşmuş dövlət kimi tanınır. Mən hesab edirəm ki, biz artıq iqtisadi sahədə keçid dövrünü başa vurmuşuq» [392, 2009, 21 oktyabr].

Bir müddət sonra, Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasında dövlət başçısı yenidən bu məsələdən danışaraq vurğulamışdır ki, Azərbaycan iqtisadiyyatı öz keçid dövrünü başa vurdu, biz artıq keçid dövrünün iqtisadiyyatı deyilik. Biz tam şəkildə bazar iqtisadiyyatına keçmişik. Azərbaycan iqtisadiyyatı liberal, müstəqil, dayanıqlı, öz resurslarına güvənən, dünya birliyinə sürətlə inteqrasiya edən iqtisadiyyatdır [392, 2010, 19 yanvar].

Beləliklə, Azərbaycan Respublikası iqtisadiyyatı öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Bu, ölkəmizin hərtərəfli inkişafının təmin edilməsi, Azərbaycan Respublikasının zəngin dövlətə çevrilməsi mərhələsi olacaqdır.

Azərbaycan Respublikasının davamlı inkişafını təmin etmək məqsədilə qarşıdakı illərdə makroiqtisadi sabitlik qorunub saxlanılacaq; enerji, ərzaq təhlükəsizliyinin və ekoloji təhlükəsizliyin gücləndirilməsi üçün sistemli tədbirlər davam etdiriləcək; iqtisadiyyatın şaxələndirilməsi genişləndirilməklə neft sektorundan asılılıq minimuma endiriləcək, innovativ iqtisadiyyata keçid təmin ediləcək, aqrar sektorun inkişafında intensiv üsullara üstünlük veriləcək; biznes mühitinin daha da təkmilləşdirilməsi, xüsusi iqtisadi zonaların, sənaye şəhərciklərinin, biznes-inkubatorların yaradılması, məsləhət, informasiya təminatının, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və işgüzar əlaqələrin genişləndirilməsi yolu ilə sahibkarlığın və regionların inkişafı sürətləndiriləcəkdir.

Prezident İlham Əliyev ölkəmizin sosial-iqtisadi tərəqqisindəki uğurların gələcəkdə də davam edəcəyini vurğulayaraq demişdir: «...Uzun illər, onilliklər sonra Azərbaycan ancaq və ancaq inkişaf yolu ilə gələcək, ... daha da zəngin ölkəyə çevriləcək və ölkə qarşısında duran iqtisadi və sosial problemlər daha da sürətlə həllini tapacaqdır. Bütövlükdə bu mənzərə bir daha onu göstərir ki, Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır, daxili resurslara söykənir» [392, 2010, 21 oktyabr].

6.2. Siyasi islahatlar

1991-ci ildə Azərbaycan Respublikasının siyasi müstəqilliyini bərpa etməsi demokratik dövlət quruculuğu istiqamətində əməli tədbirlər görülməsi üçün geniş perspektivlər açdı. Lakin respublikada hakimiyyət uğrunda gedən çəkişmələr, ölkə həyatının bütün sahələrini bürümüş böhran, ictimai-siyasi sabitliyin olmaması, digər tərəfdən də Ermənistanın hərbi təcavüzü yaranmış fürsətdən istifadə imkanlarını, əslində, heçə endirmişdi.

Ölkənin belə gərgin vəziyyətində Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gəlməsi Azərbaycan Respublikasını dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas etdi. Təcrübəli dövlət xadiminin səyləri sayəsində separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş qarşıdurmasına son qoyuldu, dövlət çevrilişi cəhdlərinin qarşısı qətiyyətlə alındı.

Dövlətin dayaqlarının möhkəmlənməsi, ictimai-siyasi sabitliyin bərqərar olunması ölkədə əsaslı dəyişikliklərin həyata keçirilməsinə imkan yaratdı. Məhz həmin vaxtdan Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsi istiqamətində köklü siyasi, sosial-iqtisadi və hüquqi islahatların ardıcıl şəkildə aparılmasına başlandı.

Qanunçuluğun möhkəmlənməsi, sosial-psixoloji gərginliyin tədricən aradan qalxması, cəmiyyətdə baş verən proseslərin gerçək demokratik müstəviyə keçirilməsi müstəqil dövlətin siyasi və hüquqi əsaslarının möhkəmləndirilməsi sahəsində ciddi və cəsarətli tədbirlərin görülməsi ilə müşayiət olunurdu [115, 203].

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Konstitusiya ölkəmizdə demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas istiqamətlərini və hüquqi prinsiplərini müəyyən etdi.

Ərazisinin 20 faizinin işğal edilməsinə, 1 milyon nəfər qaçqın-köçkünün olmasına baxmayaraq, Azərbaycan Respublikası Prezident Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə ardıcıl şəkildə demokratik islahatları həyata keçirirdi. Həm də Qərb ölkələrindən fərqli olaraq, Azərbaycan Respublikasında demokratikləşmə prosesi aşağıdan yuxarıya deyil, əks istiqamətdə gedir, yəni xalqın tələbkarlığı nəticəsində yox, dövlətin təşəbbüskarlığı nəticəsində baş verirdi. Digər tərəfdən, Azərbaycan Respublikası demokratiyaya doğru uzunmüddətli inkişaf yolunu daha qısa müddətdə keçməli olurdu [115, 132-133].

Bunun üçün isə müvafiq zəmin lazım idi və 1990-cı illərin ortalarından Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasında müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə proseslərinin mərkəzləşdirilməsi, milli iqtisadiyyatda durğunluğun dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı [308, 10].

Prezident Heydər Əliyev 2001-ci ilin noyabrında, banisi olduğu Yeni Azərbaycan Partiyasının II qurultayındakı nitqində demişdir: «Əsas vəzifəmiz ... Azərbaycanda keçirilən islahatlardır – siyasi, iqtisadi, sosial və başqa islahatlardır. Yəni Azərbaycanı tutduğu yol ilə, demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə ardıcıl surətdə inkişaf etdirməkdən ibarətdir» [392, 2001, noyabr].

2001-ci ildə Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi mühüm hadisə olmaqla yanaşı, ölkəmizin qarşısında prinsipcə bir sıra yeni vəzifələr də qoydu, eyni zamanda diqqəti cəmiyyətin demokratikləşməsi, insan hüquqlarının təmin edilməsi və müdafiəsi sahəsinə yönəltdi [301, 412].

Ölkəmizin bu mötəbər beynəlxalq quruma qəbul edilməsi məhz Prezident Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildən başlayaraq həyata keçirilən islahatların məntiqi nəticəsi idi.

Bu islahatlar 1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində ölkədə real şəkildə mövcud olmuş hakimiyyətsizliyin ağır nəticələrini bir qədər yumşaltmağa, eyni zamanda həm siyasi həyatın sabitləşməsində, həm də iqtisadiyyatda ciddi uğurlar qazanmağa imkan verdi.

Azərbaycan Respublikasında demokratikləşmə uzun bir prosesdir və bir neçə konteksti əhatə edir. Əvvəla, bu proses sovet sistemindən «üçüncü demokratik dalğa»nın genişlənməsi şəraitində müstəqil birgəyaşayış sisteminə keçid, ikincisi, demokratikləşmənin başlanğıcı üçün bazis əsaslar yaradılması, üçüncüsü, demokratikləşmə üçün zəruri şəraitin yaradılması, dördüncüsü, dövlətin iqtisadi inkişafı ilə qarşılıqlı əlaqəli şəkildə ictimai şüurun mərhələlər üzrə transformasiyası deməkdir. 1993-cü ildən bəri bütün bunlar kompleks

mərhələlər üzrə bir-birini əvəz etməklə həyata keçirilir. Milli inkişafın yalnız bu cür ardıcıllığı Azərbaycan cəmiyyətinin demokratikləşməsinə uğur qazandıra bilər [313, 20-21].

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi islahatlar xətti son dövrdə Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Lakin akademik R.Mehdiyevin vurğuladığı kimi, hazırda Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi islahatlar bir qədər başqa çalar almışdır və bu, ölkənin inkişafında artıq yeni mərhələ olacaqdır.

Eyni zamanda Azərbaycan Respublikasının müasir inkişafı simmetrik islahatların dinamikasını müəyyənləşdirməyi tələb edir. Başqa sözlə, hər bir sahədə islahatlar bir-birini tamamlamalı, dövlətin və cəmiyyətin gələcək inkişafına şərait yaratmalı, bu prosesə yeni təkan verməlidir [300, 47].

Bu isə ölkədə siyasi və iqtisadi islahatların paralel şəkildə həyata keçirilməsinin vacibliyi barədə Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı fikirdir. Dövlətimizin başçısı prezidentliyinin hələ birinci dövründə, 2006-cı ilin oktyabrında Milli Məclisdəki nitqində demişdir: «Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin möhkəmlənməsi, hüquqi dövlətin qurulması, sadəcə olaraq, bir şüar, yaxud da bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir və ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə də müsbət təsir göstərir. Ona görə siyasi və iqtisadi islahatların davam etdirilməsi zəmanənin tələbidir. Əgər biz, doğrudan da, müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik» [392, 2006, 3 oktyabr].

Prezident İlham Əliyevin müəyyən etdiyi demokratik inkişaf yolu Azərbaycanda hər bir vətəndaşın özünü səmərəli dövlətçilik qurulması prosesinin bir hissəsi hesab etdiyi davamlı, konsolidasiya olunmuş demokratik sistem yaradılmasına yönəlmişdir. Dövlət başçısı bu baxımdan ictimai nəzarətin gücləndirilməsinə də böyük əhəmiyyət verir: «...Qəbul olunmuş bütün qərarlar vaxtlı-vaxtında icra edilməli və ciddi ictimai nəzarət olmalıdır. Biz siyasi islahatlar aparmaqla yanaşı, güclü

ictimai nəzarətə də diqqət göstəririk ki, dövlətin, hökumətin bütün addımları xalq tərəfindən izlənilsin, ona güclü təhlil verilsin. Lazım gələrsə, müəyyən islahatlarda düzəlişlər də edilməlidir. Geniş müzakirələr keçirilmədən biz buna nail ola bilmərik» [392, 2008, 28 may].

İctimai nəzarəti gücləndirmək çağırışı Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişaf etdirilməsinin təcəssümüdür. Azərbaycan cəmiyyəti indi elə bir mərhələdədir ki, dövlətlə cəmiyyət arasında heç bir ayırıcı xətt olmamalıdır. Cəmiyyət milli məkanın demokratikləşməsində və liberallaşmasında fəal iştirak etməlidir və yalnız bu halda demokratik konsolidasiyaya doğru hərəkətdən danışmaq olar [313, 59].

2003-cü ildə seçicilərin böyük əksəriyyətinin dəstəyi ilə prezident seçilən İlham Əliyev oktyabrın 31-də andiçmə mərasimində dilindən, dinindən, siyasi mənsubiyyətdən asılı olmayaraq, hər bir azərbaycanlının prezidenti olacağını bəyan etmiş, bir neçə ay sonra isə azadlıqdan məhrum olunmuş bir sıra şəxslərin əfv edilməsi haqqında fərmanlar imzalamışdı. Əfv olunanlar arasında Avropa Şurasının siyasi məhbus hesab etdiyi keçmiş daxili işlər naziri İsgəndər Həmidov, keçmiş baş nazir Surət Hüseynov və keçmiş müdafiə naziri Rəhim Qazıyev də vardı. Yeni dövlət başçısının fərmanları xaricdə də müsbət qarşılanmış, ABŞ Dövlət Departamenti bunları alqışladığını bildirmişdi [638].

Daxili siyasi həyatın liberallaşdırılması sahəsində daha bir mühüm amil kimi ölkə tarixində ilk dəfə olaraq əfvlə bağlı hakimiyyət nümayəndələrindən və qeyri-hökumət təşkilatlarının təmsilçilərindən ibarət işçi qrupunun yaradılmasını göstərmək olar. İqtidarla QHT-lərin birgə qərarlar qəbul etmək mexanizminin yaranmasını Azərbaycanda demokratiyanın inkişafında diqqətəlayiq fakt kimi vurğulamaq mümkündür.

Ölkədə siyasi islahatların həyata keçirilməsi sahəsində mühüm tədbirlərdən biri seçki qanunvericiliyinin təkmilləşdirilməsi ilə bağlıdır.

2003-cü ilin mayında qəbul olunmuş Azərbaycan Respublikasının Seçki Məcəlləsi Avropa Şurasının Venesiya Komissiyası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu (DTİHB) tərəfindən müsbət qiymətləndirilmiş, onun seçkilərin və referendumun keçirilməsi üçün əksər məsələlərdə beynəlxalq meyarlara və ən yaxşı təcrübələrə uyğun olan hərtərəfli çərçivələr nəzərdə tutduğu vurğulanmışdı.

Bununla belə, Azərbaycan hakimiyyəti əvvəlki seçkilərdə qeydə alınmış bir sıra qanun pozuntularının və texniki xətaların aradan qaldırılması üçün Seçki Məcəlləsində dəyişiklik edilməsi barədə təşəbbüslərə həssaslıqla yanaşmış, Venesiya Komissiyasının və DTİHB-nin ekspertləri ilə geniş müzakirələr aparmışdır [309, 13].

Bu müzakirələrin yekunu kimi, 2005-ci ilin iyununda parlament Seçki Məcəlləsinin 43 maddəsində əlavə və dəyişikliklər etmişdir. Bu əlavə və dəyişikliklərə əsasən, parlament, prezident və bələdiyyə seçkiləri eyni vaxtda keçirilə bilməz, dairə seçki komissiyalarının qərarları 24 saat müddətində (əvvəllər 48 saat idi) dərc olunmalıdır, Azərbaycanda ilk dəfə olaraq, təkrar səsvermənin qarşısını almaq üçün vətəndaşlara seçici vəsiqələri verilir. Namizədlərin qeydiyyat qaydası da sadələşdirilmiş, bunun üçün toplanan imzaların sayı 2000-dən 450-yə, namizədin depozitlə qeydə alınmasından ötrü tələb olunan maliyyə vəsaiti bir neçə dəfə azaldılaraq 2250 ABŞ dollarına endirilmişdi.

Seçkilərə hazırlıq dövründə və seçkilərin keçirilməsi vaxtı baş verə biləcək əyintilərin və qanun pozuntularının qarşısını almaq, seçkiləri qanunvericiliyə uyğun keçirmək, bu sahədə icra hakimiyyəti orqanlarının üzərinə düşən vəzifələrin lazımınca yerinə yetirilməsini təmin etmək məqsədilə Prezident 2005-ci il mayın 11-də «Azərbaycan Respublikasında seçki praktikasının təkmilləşdirilməsinə dair» sərəncam imzaladı [392, 2005, 12 may]. Sərəncamda azad və ədalətli seçkilərin keçirilməsinə mane olan amillərin aradan qaldırılması yolları birmənalı şəkildə göstərilmiş, seçkiqabağı mühitin demokratikləşdirilməsi ilə bağlı konkret vəzifələr öz əksini tapmışdı.

İxtisaslaşmış ictimai rəyçilər tərəfindən respublikada ilk dəfə «ekxit-poll» keçirilməsinə şərait yaradılması, «paralel səsvermənin» nəticələrinin ədalətli və şəffaf şəkildə həyata keçirilməsinə dair zəruri tədbirlərin görülməsi barədə verilən tapşırıqlar bu sərəncamın əhəmiyyətini artıran siyasi cəsarət və iqtidarın cəmiyyətdə böyük nüfuzunu təsdiqləyən amil kimi qiymətləndirilməlidir.

Eyni zamanda 2005-ci ilin parlament seçkilərinin təşviqat mərhələsində bəzi problemlərin meydana çıxması, Seçki Məcəlləsinin bir sıra tələblərinin pozulması halları barədə məlumatların daxil olması narahatlıq doğururdu. Azərbaycan Prezidenti belə faktlara prinsipial reaksiya verərək, seçki praktikasının təkmilləşdirilməsi

sahəsində tədbirlərin səmərəliliyinin artırılması, Seçki Məcəlləsinin müddəalarına tam və şərtsiz əməl olunması, vətəndaşların seçki hüquqlarının daha dolğun təmin edilməsi məqsədilə 2005-ci il oktyabrın 25-də «Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında» sərəncam imzaladı [392, 2005, 26 oktyabr].

Ölkədə seçki mühitinin daha da liberallaşdırılması, seçki qanunvericiliyinin təkmilləşdirilməsi baxımından beynəlxalq təşkilatlar və aparıcı demokratik dövlətlər tərəfindən müsbət qarşılanmış bu sərəncam Azərbaycanda parlament seçkilərinin beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində mühüm və həlledici addım olmuşdur.

«Azərbaycan Respublikasında Seçki Məcəlləsinin tətbiqi barədə» Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 3 iyun tarixli 875 nömrəli fərmanına dəyişikliklər və əlavə edilməsi haqqında» fərmanla [392, 2008, 24 iyun] seçki qaydalarını pozanlara qarşı cəzalar sərtləşdirildi, seçki prosedurunun özü isə sadələşdirildi. Prezidentliyə namizədlər üçün toplanacaq imzaların sayı 45 mindən 40 minə endirildi. İlk dəfə olaraq, seçkiləri canlı izləmək imkanı yaradıldı – veb-kamera quraşdırılmış 500 seçki məntəqəsində səsvermənin gedişini internet vasitəsilə dünyanın istənilən ölkəsindən izləmək mümkün idi.

Hazırda Azərbaycan Respublikasında vətəndaş cəmiyyətinin təməlinin qoyulması istiqamətində məqsədyönlü və ardıcıl işlər görülür. «Ölkədə vətəndaş cəmiyyəti **iqtisadiyyatın modernləşməsi – ictimai həyatın demokratikləşməsi - milli məkanın sistemli liberallaşması** paradiqması gerçəkləşdikcə, formalaşacaqdır [308, 49].

Bu baxımdan, öz məqsədlərini güdən xarici sponsorlardan asılı olmayan, fəaliyyət qabiliyyətli, səmərəli «üçüncü sektor»un yaradılmasının böyük əhəmiyyəti vardır və 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması mühüm hadisə oldu.

2008-ci ilin iyulunda isə Prezidentin sərəncamı ilə «Qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası» təsdiq edildi [392, 2008, 28 iyul]. Konsepsiyada QHT-lərlə bağlı aşağıdakı məqsədlər müəyyənləşdirilmişdir: dövlətlə QHT-lər arasında sabit tərəfdaşlıq münasibətlərinin qurulması; QHT-lərin dövlət-cəmiyyət üçün əhəmiy-

yətli problemlərin həllinə cəlb olunması; vətəndaş cəmiyyətinin inkişafının sürətləndirilməsi.

Sənəddə QHT-lərin məsələləri üzrə yeni qurumun, QHT-lərə maliyyə dəstəyi üçün yardım fondunun yaradılması, dövlətin bu təşkilatlara maliyyə dəstəyi göstərməsi nəzərdə tutulur.

Siyasi sistemdə islahatlar sahəsində mühüm tədbirlərdən biri olan bu konsepsiya dövlətin QHT-ləri tərəfdaş kimi tanımasını rəsmiləşdirdi. QHT-lərə dövlətin maliyyə dəstəyi onları xarici təsirlərdən maksimum dərəcədə azad edəcək, eyni zamanda bu təşkilatların Azərbaycan Respublikasından kənarda da fəaliyyət göstərməsinə imkan yaradacaqdır. Bu isə son nəticədə vətəndaş cəmiyyəti vasitəsilə beynəlxalq təsir vasitələrinin formalaşması deməkdir. Bu baxımdan, Heydər Əliyev Fondunun Rusiya, Gürcüstan və Rumıniya nümayəndəlikləri QHT-lərin ölkə xaricindəki fəaliyyətinə nümunə ola bilər. Vətəndaş cəmiyyəti qurumları böyük potensialı olan, artıq beynəlxalq münasibətlərdə də ciddi rol oynayan hərəkatda özlərinə yer tutmasının vaxtı çatmışdır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2006-cı ilin avqustunda Xarici İşlər Nazirliyində diplomatlarla görüşündə səfirlərə işlədikləri ölkələrdə QHT-lərlə fəal əməkdaşlıq etməyi tapşırmışdı.

Siyasi sistemin əsas tərkib hissələrindən olan azad və müstəqil kütləvi informasiya vasitələri cəmiyyətdə aşkarlığın və demokratik prinsiplərin bərqərar olmasında mühüm rol oynayır, demokratiyanın və siyasi plüralizmin hökm sürdüyü ölkələrdə dövlət siyasətinə bilavasitə təsir edir. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, ölkədə müstəqil KİV-in təsis edilməsi və azad fəaliyyəti üçün zəruri qanunvericilik bazası yaradılmışdır. Hazırda Azərbaycan Respublikasında müasir standartlara cavab verən azad, plüralist kütləvi informasiya vasitələri formalaşmış, mətbuatın, azad sözün inkişafına əngəl törədən süni maneələr demokratik prinsiplərə söykənən dövlət siyasəti sayəsində aradan qaldırılmışdır. Azərbaycan Respublikası MDB məkanında mətbuatın özünütənzimləmə funksiyasının rəsmiləşdirildiyi, Mətbuat Şurasının yaradıldığı ilk ölkədir. 2007-ci ildə Bakıda ekspertlərin iştirakı ilə keçirilmiş beynəlxalq konfransda Azərbaycan Mətbuat Şurası MDB məkanı üçün vahid model kimi götürülmüşdür.

Ölkədə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi istiqamətində görülən tədbirlərin miqyası genişlənmişdir. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli sərəncamı ilə «Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası» təsdiq olunmuşdur. KİV-in müstəqilliyinin təmin edilməsi məqsədilə nəzərdə tutulan kompleks məsələlərin həlli üçün 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ardıcıl tədbirlər həyata keçirir. Bu məqsədlə 2009-cu ildə dövlət büdcəsindən Fonda 1,3 milyon manat, 2010-cu ildə isə 2 milyon manat ayrılmışdır [392, 2010, 23 iyul].

2009-cu ildə Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərin olunması ölkəmizin siyasi islahatlar tarixində mühüm hadisə kimi yadda qalacaqdır. Həmin il martın 18-də keçirilmiş ümumxalq referendumunda Konstitusiyanın 29 maddəsinə təklif olunan 41 əlavə və dəyişiklik Azərbaycan vətəndaşları tərəfindən dəstəkləndi.

Dövlət başçısı 2010-cu il iyulun 22-də Mətbuat Şurasının yeni binasının açılışından sonra Şuranın üzvləri ilə görüşündə bir daha bu fikri vurğulayaraq demişdir: «Biz uzunmüddətli inkişafımızı istəyiriksə, mütləq siyasi islahatlar iqtisadi islahatları dəstəkləməlidir, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılmalıdır. Əlbəttə ki, biz öz siyasətimizdə regionda mövcud olan vəziyyəti, Azərbaycanın reallıqlarını nəzərə alırıq. Eyni zamanda biz dünyada gedən prosesləri də çox ciddi izləyirik, tarixi də yaxşı bilirik. Bilirik ki, keçid dövrünü yaşayan ölkələr hansı çağırışlarla, hansı problemlərlə üzləşirlər. Azərbaycanda həmin problemlərin minimum səviyyəyə endirilməsi, risklərin azaldılması istiqamətində çox dəqiq, düşünülmüş, ancaq, eyni zamanda ardıcıl siyasət aparılmalıdır. Siyasi islahatlar iqtisadi islahatları qabaqlamamalıdır, eyni zamanda geri də qalmamalıdır. Mən hesab edirəm ki, biz Azərbaycanda elə bir model yarada bildik ki, həm iqtisadi islahatlar, həm siyasi islahatlar paralel şəkildə aparılır və ölkəmizin hərtərəfli inkişafını təmin edir» [392, 2010, 23 iyul].

6.3. Sosial siyasət

Dövlətlər öz tarixi təcrübələrində «siyasi dövlət», «milli dövlət» mərhələlərini yaşayır. Müasir dövr növbəti – «sosial dövlət» anlayışını reallığa çevirmişdir. Qloballaşma dövründə sosial dövlətçilik fövqəlmilli qurumların, nəhəng regional təsisatların inteqrasiyası, insanlararası münasibətlərdə özünəməxsusluğu, fikir ayrılığını şərtləndirən milli və siyasi prinsiplərlə müqayisədə sosial prinsiplərin daha universal birlik mexanizmini təmin etməsi qənaətinə söykənir [300, 29].

Ölkəmizdə sosial siyasət iqtisadi islahatlarla qarşılıqlı əlaqədə həyata keçirilir. Bununla yanaşı, iqtisadi dəyişikliklərin sosial yönümünün gücləndirilməsi, sosial sahədə ciddi uyğunsuzluğa yol verilməməsi aktual vəzifə olaraq qalır.

2003-cü ildən bəri Azərbaycan Respublikasının nəhəng uğurlarının böyük bir qismi sosial sahənin payına düşür. Ölkədə aparılan islahatların magistral meylini onların sosial yönümlüyü təşkil edir. Digər fərqləndirici cəhət isə «sosial mərkəz və əyalət» anlayışlarının ifadə etdiyi inkişaf baxımından asimmetrik imkanları şərtləndirən vəziyyətin aradan qaldırılmasıdır. Bununla yanaşı, qeyri-neft sektorunun, elm, təhsil və mədəniyyətin inkişafı öncül istiqamətlər sırasındadır [300, 29-30].

Prezident İlham Əliyevin idarəçiliyi liberalizm ilə sosial müdafiənin uzlaşdırılmasını nəzərdə tutan və nəzəriyyəçilərin sosial liberalizm, yaxud ümumi rifah adlandırdıqları baxışlara əsaslanır. Azərbaycanda sosial liberalizmin öz xüsusiyyətləri və onun tətbiqinin siyasi səbəbləri var. Azərbaycan Respublikasının Prezidenti bunu belə əsaslandırmışdır: «Bazar iqtisadiyyatı prinsipləri bəzi hallarda sosial ədalət normalarını pozur. Bu, bazar iqtisadiyyatının mənfi tərəfidir. Ancaq biz Azərbaycanda güclü sosial siyasət aparmağa çalışırıq və çalışmalıyıq ki, aztəminatlı ailələr dövlət tərəfindən dəstəklənsin» [392, 6 avqust 2008].

Prezident vurğulayırdı ki, hər bir vətəndaş dövlətin gücünü və müdafiəsini hiss etməli, iqtisadi inkişaf hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır. 2006-cı ildən etibarən ölkədə əhalinin ən zəif təbəqəsinin sosial müdafiəsini gücləndirmək üçün ünvanlı sosial yardım proqramının həyata keçirilməsinə başlandı.

Dövlətə sosial xarakter verilməsi 2009-cu il martın 18-də keçirilmiş referendumda Azərbaycan Respublikası Konstitusiyasına edilmiş dəyişiklikdə də təsbit olunmuşdur.

Konstitusiyanın 15-ci maddəsinin 2-ci bəndinin yeni redaksiyasında Azərbaycan dövlətinin bazar münasibətləri əsasında məhz sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradılması vurğulanır.

Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsas istiqamətlərindən biri ölkədə yoxsulluğun azaldılmasıdır. «2003–2005-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf Dövlət Proqramı», habelə regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı çərçivəsində görülən işlər sayəsində yoxsulluğun səviyyəsi 49 faizdən 13,2 faizə düşdü. 2004-cü ildə yoxsulluq həddi ilə bağlı müəyyən edilmiş indeks 38,8 manat idisə, 2008-ci ildə 70 manat idi.

Hazırda «2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı» çərçivəsində bu sahədə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Yoxsulluğun azaldılması strategiyasında ilk növbədə regionlarda qeyri-neft sektorunun inkişafına xüsusi əhəmiyyət verilir. Bu baxımdan da Sahibkarlığa Kömək Milli Fondunun güzəştli kreditlərinin tam əksəriyyəti məhz regionların payına düşür. Bu sahədə ikinci iqtisadi mexanizm kənd təsərrüfatı istehsalının stimullaşdırılmasıdır. Kənd təsərrüfatında çalışan əhaliyə vergi güzəştlərinin müddətinin uzadılması, dövlət büdcəsinin vəsaiti hesabına texnika və gübrə alınaraq əlverişli şərtlərlə fermerlərə verilməsi, digər yardımlar kənd yerlərində yoxsulluğun səviyyəsinin azalmasına müsbət təsir göstərir.

Hazırda Azərbaycan MDB məkanında infrastruktur və sosial-iqtisadi baxımdan regionların paytaxta maksimum yaxınlaşdığı yeganə ölkədir. Bu tarazlığın nəticəsidir ki, başqa ölkələrin qarşılaşdığı demoqrafik problemlər Azərbaycanda, demək olar ki, müşahidə edilmir. Respublikadan kənara iş dalınca gedənlərin sayı kəskin şəkildə azalmış, hazırda əks proses – Azərbaycana xaricdən əmək miqrantlarının axını başlanmışdır. Dövlətimizin başçısı 2010-cu ilin martında «Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr

olunmuş konfransda 2004–2008-ci illərdə nəzərdə tutulan 600 min əvəzinə, təxminən 800 min yeni iş yerinin açıldığını xatırladaraq demişdir: «Demək olar ki, bu gün Azərbaycanda işsizlik kimi böyük sosial problem, onun böyük hissəsi aradan qaldırılıb. Bunu biz hər bir bölgədə görürük. Eyni zamanda, bunu biz Azərbaycana son illərdə gələn xarici vətəndaşların sayının artmasında görürük.

Bu gün biz miqrasiya məsələlərini daha da ciddi şəkildə tənzimləməliyik... Elə etməliyik ki, xaricdən gələn vətəndaşlar üçün də yaxşı şərait yaradılsın. Ancaq, ilk növbədə, Azərbaycan vətəndaşları işlə təmin olunsunlar [440, 2010, 13 mart].

Son altı ildə – 2004–2009-cu illərdə açılan yeni iş yerlərinin sayı təxminən 900 minə çatmışdır.

Ölkənin maliyyə imkanlarının artması əhalinin rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə daha çox vəsait ayırmağa imkan verir. 2004–2008-ci illərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə büdcədən ayrılan vəsaitin həcmi 5 dəfə artmışdır. Həmin müddətdə əhalinin real gəlirləri 3 dəfə, onun adambaşına düşən həcmi 3,1 dəfə artmış, orta aylıq əməkhaqqı isə 3,5 dəfə artaraq 77,4 manatdan 268 manata çatmışdır [392, 2009, 1 fevral].

2004–2009-cu illər ərzində minimum əməkhaqqı 6,3 dəfə, minimum pensiyanın məbləği 3,8 dəfə artmış, yoxsulluğun səviyyəsi 11 faizə enmişdir. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə büdcədən maliyyələşdirilən müəssisələrdə çalışan işçilərin aylıq vəzifə (tarif) maaşları 2010-cu il sentyabrın 1-dən 10 faiz artırılmışdır. Eyni zamanda doktorantların, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbə və şagirdlərinin təqaüdləri də artırılmışdır.

Dövlətin sosial siyasətində pensiya islahatları mühüm yer tutur və bu sahədə də Ümummilli Heydər Əliyevin əsasını qoyduğu proses davam etdirilir. 2000-ci ildə təsdiq edilmiş «Azərbaycan Respublikasında pensiya islahatları konsepsiyası» hissə-hissə həyata keçirilmişdir. Konsepsiyanın əsas məsələlərindən biri bütün işləyən vətəndaşların – sığorta olunanların fərdi uçot sisteminin tətbiqi idi. 2006-cı il yanvarın 1-dən yeni əmək pensiyalarına keçid baş verdi, beləliklə də dövlət sosial müavinətlərinin və sığorta-pensiya sistemlərinin bir-birindən ayrılması təmin olundu. Yeni sistem də bazar münasibətlərinə, eyni zamanda sosial ədalət prinsiplərinə uyğundur və pen-

siyaçıların bərabərləşdirilməsi prinsipini aradan qaldırır. Hazırda əmək pensiyaları əməkhaqqına məhdudiyyət qoyulmadan hesablanır. İndiyədək 1 milyon 762 mindən çox sığorta olunana sosial sığorta nömrəsi verilmiş və onlar üçün fərdi hesab açılmışdır.

Prezidentin 2008-ci il 30 dekabr tarixli sərəncamı ilə təsdiq olunmuş «2009–2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı»na uyğun olaraq, pensiya təminatında sığorta prinsiplərinin gücləndirilməsi, yeni sistemin dayanıqlı və dinamik inkişafına nail olunması, bu zəmində vətəndaşların pensiya təminatının daha da təkmilləşdirilməsi tədbirləri davam etdirilir. Prezidentin 2010-cu il 31 avqust tarixli sərəncamı ilə minimum pensiyanın məbləği 85 manata (106 dollara) çatdırılmışdır. Bu göstəriciyə görə Azərbaycan Qazaxıstan (124,2 dollar) sonra MDB məkanında ikinci yerdədir. Əmək pensiyasının baza hissəsi Rusiyada 90,2 dollar, Ukraynada 89,8 dollar, Belarusda 82,1 dollar, Ermənistanda 21,6 dollar təşkil edir [392, 2010, 15 oktyabr].

BMT-nin İnkişaf Proqramının Şərqi Avropa və Orta Asiya ölkələrində demokratik idarəetmənin formalaşdırılmasına həsr edilmiş toplantısında (2009-cu il, mart, Afina) Azərbaycan Respublikasının sığorta-pensiya sistemindəki təcrübəsinin xüsusi təqdimatı olmuş və sonradan bu, BMT-nin veb saytında geniş işıqlandırılmışdır. 2010-cu ilin martında Varşavada – Avropanın 1-ci regional sosial təminat forumunda Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu «Avropanın uğurlu təcrübəsi» müsabiqəsinin qalibi elan olunmuş və Beynəlxalq Sosial Təminat Assosiasiyasının fəxri fərmanı ilə təltif edilmişdir [392, 2010, 15 oktyabr].

Dövlət büdcəsindən birbaşa ünvanlı sosial yardımın təyin edilməsi məqsədilə ehtiyac meyarının mərhələlərlə ölkə üzrə yaşayış minimumuna çatdırılması prosesinə başlanmışdır. Ehtiyac meyarının həddi 2006-cı ildə 30 manat müəyyən olunmuş, sonrakı illərdə isə 65 manata çatdırılmışdır. 2010-cu ilin oktyabrına olan məlumata görə, respublikada 127 min 634 ailə ünvanlı dövlət sosial yardımı alırdı. Hər ailəyə ödənilən yardımın orta aylıq məbləği 108,4 manatdır [392, 2010, 15 oktyabr].

Əlillərin sosial müdafiəsinin gücləndirilməsi Azərbaycan hökumətinin siyasətində öncül istiqamətlərdəndir. Ölkənin iqtisadi

imkanları artdıqca, bu sahəyə daha çox vəsait ayrılır. Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərinin və döyüşlərdə sağlamlığını itirmiş şəxslərin mənzil şəraitinin yaxşılaşdırılması üçün 2008-ci ildə 396, 2009-cu ildə isə 707 mənzil istifadəyə verilmişdir. 2010-cu ildə daha 715 mənzilin tikintisi başa çatdırılacaqdır [392, 2010, 15 oktyabr].

1998-ci ildən 2009-cu ilədək müvafiq kateqoriyadan olan əlillərə 2876 ədəd «Oka» markalı, 2009-cu ildə isə 500 ədəd «Slavuta» markalı minik avtomobili verilmişdir. 2010-cu ildə əlillər üçün 350 ədəd minik avtomobilinin alınması nəzərdə tutulmuşdur. Yeri gəlmişkən xatırladaq ki, Prezident İlham Əliyev şəhid ailələrinə və əlillərə yeni mənzillərin orderlərinin, habelə avtomobillərin təqdim olunması mərasimində dəfələrlə iştirak etmişdir.

Əlillərin reabilitasiya-müalicəsi məsələləri də daim diqqət mərkəzindədir. 2009-cu ildə Xaçmaz və Yevlax şəhərlərində hər biri 14 çarpayılıq yeni bərpa mərkəzləri istifadəyə verilmişdir.

Vətəndaşların həyat səviyyəsinin məşğulluq vasitəsilə yüksəldilməsi məqsədiilə Dövlət Məşğulluq Xidməti ardıcıl tədbirlər görür. 2009-cu ildə təxminən 28,4 min nəfər, 2010-cu ilin doqquz ayında isə 19,7 min nəfər işsiz və iş axtaran vətəndaş işlə təmin olunmuş, 4800-dən çox adam əmək bazarının tələblərinə uyğun peşələr üzrə hazırlıq kurslarına cəlb olunmuşdur. Respublikanın şəhər və rayonlarında müntəzəm keçirilən əmək yarmarkaları da vətəndaşların müvafiq peşələrə görə işlə təmin olunmasına imkan yaradır.

Eyni zamanda iş yerlərində əmək qanunvericiliyinə əməl edilməsinə, əməyin mühafizəsinin təşkilinə dövlət nəzarətinin gücləndirilməsi istiqamətində tədbirlər görülür.

Məişət və xidmətlər sahəsinin prioritet kimi çıxış etdiyi müasir dövrdə sosial şəraitin yaxşılaşdırılmasından danışarkən, təkcə təhsil sisteminin keyfiyyətinin dəyişməsi, mənzil əldə etmək imkanı, səhiyyə sisteminin yüksək səviyyəsi nəzərdə tutulmur. Burada milli sosial sistemin əhəmiyyətli dərəcədə transformasiyasından və onun xarakterinin dəyişməsindən, beynəlxalq standartlara yaxınlaşmasından söhbət gedir. Yəni dövlət öz vətəndaşlarının layiqincə təhsil almasını təmin edir, onların öz peşələrinə görə işə düzəlməsinə və qanuni qazanc əldə etməsinə, vətəndaşın yaradıcılıq qabiliyyətinin üzə çıxarılmasına şərait yaradır [300, 53].

Azərbaycanda sosial sahənin inkişafında əsas vəzifələrdən biri millətin intellektual bazisinin yüksəldilməsidir. Dayanıqlı inkişaf fərdi yanaşmaya üstünlük verən demokratik təhsil sisteminin yaranmasını tələb edir. Gənc kadrların təşəbbüskarlıq, yaradıcılıq, praqmatizm ruhunda yetişdirilməsi bazar münasibətləri şəraitində mühüm amildir. Son illərdə aparılan islahatlar da bu tələbdən irəli gəlir. Azərbaycan dövlətinin əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil siyasəti hazırda uğurla davam etdirilir. Təhsilin Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biri olduğunu, «qara qızılın» insan kapitalına çevrilməsinin zəruriliyini vurğulayan Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə təhsillə bağlı 10-dan çox proqram icra olunmuş və olunmaqdadır. Ötən illər ərzində respublikada 2000-dən çox məktəb tikilmiş və əsaslı bərpa olunmuş, zəruri avadanlıqla təmin edilmişdir.

Təhsil sektorunun inkişafına yönəldilən vəsaitin həcmi ildən-ilə artırılır. Dövlət büdcəsindən təhsilə 2009-cu ildə 2008-ci ilə nisbətən 17,2 faiz çox vəsait xərclənmiş, 2010-cu ildə isə 1.276.755 min manatdan çox vəsait ayrılması nəzərdə tutulmuşdur. Təhsil xərcləri ölkə büdcəsində ən öncül yerlərdən birini tutur.

«2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın təsdiq edilməsi və bu məqsədlə vəsaitin ayrılması Azərbaycanın gələcəyi üçün zəruri olan və müasir dünya standartları səviyyəsində təhsil alan gənc kadrların hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir. Yaxın bir neçə ildə xaricə təhsil almağa göndərilən gənclərin sayının 15 min nəfərə çatdırılması planlaşdırılır.

Təhsilin inkişafı baxımından daha bir mühüm yenilik Prezident İlham Əliyevin 2010-cu il fevralın 10-da «Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiq edilməsi barədə» fərman imzalaması olmuşdur. Həmin fərmanla 2010/2011-ci tədris ilindən respublikanın ali təhsil müəssisələrində dövlət büdcəsindən maliyyələşmənin dövlət sifarişi əsasında həyata keçirilməsinə başlanmışdır. Eyni zamanda dövlət sifarişi formalaşdırılarkən milli, mənəvi və humanitar dəyərlər, əmək bazarının xüsusiyyətləri və ölkənin perspektiv inkişaf amilləri nəzərə alınmalıdır. Müxtəlif ixtisaslar üzrə dövlət sifarişi ilə təhsil almaq hüququ qazanan abituriyentlərə,

mülkiyyət formasından asılı olmayaraq, təhsil alacaqları ali təhsil müəssisələrini sərbəst şəkildə seçmək imkanı verilmişdir.

Fərman tələbəyə seçdiyi ali məktəbdən keyfiyyətli təhsil tələb etmək haqqı verir və o, təhsilin keyfiyyətindən narazı qaldıqda təhsil müəssisəsini dəyişmək imkanı qazanır. Yeni sistem ali məktəblərin reytinqini də təbii yolla müəyyənləşdirməyə imkan verəcəkdir. Belə ki, hansı məktəb keyfiyyətli təhsil verməklə dövlət sifarişi əsasında daha çox kadr hazırlayarsa, onun reytinqi də yüksək olacaqdır.

Dövlət başçısının bu fərmanının icrası universitetlər arasında rəqabət mühiti formalaşdırmağa, təhsilin keyfiyyətini yüksəltməyə təhsil sistemini demokratikləşdirməyə, şəffaflığı artırmağa, dövlət vəsaitinin qənaətlə və ünvanlı xərclənməsini təmin etməyə yönəldilmişdir.

Ölkədə sosial mühitin inkişafının mühüm cəhətlərindən biri də səhiyyə sistemindəki dəyişikliklərdir. Son illərdə respublikanın bütün bölgələrində insanların keyfiyyətli diaqnostika və müalicə imkanlarından istifadəsinə lazımi şəraitin yaradılması üçün zəruri tədbirlər görülür. Paytaxtda səhiyyə sisteminin müstəsnalığı stereotipi aradan qaldırılır. Dövlət başçısı qarşıya məqsəd qoymuşdur ki, paytaxtda, bölgələrdə də texniki təchizatın keyfiyyəti və müalicənin səviyyəsi vahid dünya standartlarına uyğun olmalıdır. Buna nail olmaq üçün müvafiq dövlət proqramlarının həyata keçirilməsi səhiyyə sistemində, işlərə görə cavabdeh olan şəxslərin uzun müddət davam etmiş laqeydliyinin ağrısını çəkmiş bir sektorda vəziyyətin yaxşılaşmasına kömək edəcəkdir [300, 56].

2008-ci il yanvarın 10-da Prezidentin Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi konsepsiyası»na əsasən, səhiyyədə dövlətin aparıcı rolu qalmaqla, özəl klinikalara paralel olaraq, tibbi sığorta mexanizmlərinin yaradılmasına başlanmışdır.

2008-ci il fevralın 1-dən dövlət başçısının təşəbbüsü ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyindəki bütün müalicə-profilaktika müəssisələrində pullu tibbi xidmət ləğv olunmuşdur.

Aparılan struktur dəyişiklikləri nəticəsində səhiyyə sistemində birbirini təkrarlayan, səmərəsiz işləyən idarələr, kağız üzərində olan, əslində isə uzun illər fəaliyyət göstərməyən tibb müəssisələri ləğv edilmişdir ki, bu da dövlət vəsaitinə xeyli qənaət etməyə imkan vermişdir.

Dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitin ilbəil artırılması nəticəsində tibb müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilmiş, tibb avadanlığı və dərman vasitələri ilə təchizatı yaxşılaşdırılmış, xəstələrin qida təminatı məsələsi həll olunmuşdur.

Səhiyyə xərclərinin böyük bir hissəsi şəkərli diabet, ana və uşaqların sağlamlığının qorunması, qan donorluğu, hemofiliya və talassemiya, xroniki böyrək çatışmazlığı, yoluxucu xəstəliklərin immun profilaktikası, onkoloji xəstələrin preparatlarla təmin edilməsi üzrə konkret dövlət proqramlarının icrasına yönəldilir. Məsələn, hazırda xroniki böyrək çatışmazlığından əziyyət çəkən insanların 85 faizinin hemodializlə bağlı xərclərini dövlət öz üzərinə götürmüşdür.

Respublikanın müxtəlif bölgələrində yaradılmış 12 müalicə-diaqnostika mərkəzinin hər birində hemodializ müalicəsi var və belə xəstələrin Bakıya gəlməsinə ehtiyac qalmamışdır. Bu problemin ən yüksək səviyyədə və birmənalı şəkildə həlli üçün Prezidentin Ehtiyat Fondundan Respublika uroloji xəstəxanasının əsaslı təmiri və tibb avadanlığı ilə təchizatına 15,7 milyon manat ayrılmışdır.

Dövlət irsi qan xəstəliyi olan insanların müalicəsi üçün bahalı preparatları xaricdən alaraq xəstələri təmin edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda Talassemiya Mərkəzi istifadəyə verildikdən sonra bu ciddi problemin ən müasir səviyyədə həlli üçün imkan yaranmışdır.

«Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı» çərçivəsində paytaxtda və bölgələrdə 7 perinatal mərkəzin yaradılmasına, eyni zamanda uşaqlar üçün elektron sağlamlıq kartlarının tətbiqinə başlanmışdır.

Səhiyyənin inkişafında mühüm yeri olan təcili tibbi yardım xidmətinin müasir səviyyəyə qaldırılması üçün ciddi tədbirlər görülmüş, ən yeni avadanlıqla təchiz edilmiş avtonəqliyyat vasitələri alınmışdır. Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə yaradılmış 12 regional təcili tibbi yardım xidməti respublikanın, əslində, bütün avtomobil yollarını əhatə etməyə və nəzarətdə saxlamağa imkan verir. Bunun nəticəsində yollarda avtomobil qəzalarına düşmüş yüzlərlə insana yerində tibbi yardım göstərilərək, onların həyatını xilas etmək mümkün olmuşdur.

Respublikanın apteklərində satılan dərman preparatlarının keyfiyyətinə ciddi nəzarət olunur, 2008-ci il martın 1-dən etibarən qey-

diyyata alınmayan, yəni keyfiyyətinə zəmanət verilməyən dərmanların idxalı tamamilə dayandırılmışdır.

Səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması sahəsində paytaxtda və bölgələrdə böyük işlər görülür. Bu işlər sırasında əvvəllər dövlət büdcəsində nəzərdə tutulmayan layihələr də olur. Məsələn, yerlərdən olan təkliflər, xahişlər əsasında dövlət başçısı Ağcabədi, Beyləqan, İmişli və Saatlı rayonlarında yeni müasir xəstəxanaların tikintisi, yaxud da mövcud olanların əsaslı təmiri üçün Prezidentin Ehtiyat Fondundan əlavə vəsait ayrılması barədə tapşırıq vermişdir [440, 2010, 15 aprel].

Bir müddət əvvəl Azərbaycanda əhalinin mavi yanacaq və elektrik enerjisi ilə fasiləsiz təmin edilməsi ciddi sosial problemlərdən biri idi. Son illərdə Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə görülmüş ardıcıl tədbirlər sayəsində bu problem, demək olar ki, aradan qaldırılmışdır. Hazırda respublika hökuməti diqqəti insanları narahat edən digər bir problemin – içməli su təchizatı və kanalizasiya məsələlərinin həllinə yönəltmişdir. Dövlət başçısı «bu ciddi problemin çox ciddi həlli», Azərbaycanda onun aradan qaldırılması barədə tapşırıq vermişdir [392, 2010, 15 aprel].

Azərbaycan dövlətinin qarşısında duran ən ciddi sosial problemlərdən biri Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsidir. 2003-cü ildən bəri dövlət başçısı bu məqsədlərə yönəldilmiş 20-dən çox fərman və sərəncam imzalamış, onların icrası ilə əlaqədar Nazirlər Kabinetinin 80-dək qərar və sərəncamı olmuş, parlament 1 qanun qəbul etmişdir.

İlham Əliyev hələ 2003-cü ilin oktyabrında prezident seçkiləri ərəfəsində bəyan etmişdi ki, Azərbaycan Respublikasında bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu vədə çox qısa bir müddətdə əməl olundu, 2007-ci ilin axırında sonuncu çadır düşərgəsi ləğv edildi. Dörd il ərzində bütün zəruri sosial-texniki infrastrukturu olan müasir qəsəbələr tikilmiş, çadırlarda, yük vaqonlarında müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri yeni mənzillərlə təmin olunmuşdur. Ümumiyyətlə, müxtəlif bölgələrdə daimi məskunlaşmamış təxminən 82 min nəfər qaçqın-köçkün üçün 63 qəsəbə salınmış və fərdi evlər tikilmişdir.

Hazırda Bakı şəhərində köhnə binalarda və yataqxanalarda müvəqqəti məskunlaşmış məcburi köçkünlərin yeni mənzillərlə təmin edilməsi prosesinə başlanmışdır.

2004–2009-cu illərdə qaçqın-köçkünlərin sosial problemlərinin həllinə 1.357.447 min manat ayrılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial siyasəti bir neçə tərkib hissəyə əsaslanır:

– intensiv və səmərəli sosial inkişaf prosesinin başlanması;

– fərdin sosial müdafiəsinin yüksək səviyyəsinin təmin edilməsi;

– müvafiq qərarların hazırlanması, qəbul edilməsi və həyata keçirilməsində təkcə dövlətin deyil, həm də ictimai təşkilatların, biznesin, siyasi qüvvələrin tam mənada iştirakından ötrü bazisi formalaşdıran sosial tərəfdaşlıq üçün şəraitin yaradılması;

– dövlət tərəfindən həyata keçirilən sosial siyasəti tamamlayan, mövcud sistemi daha da təkmilləşdirən özəl sektorun formalaşması;

– insanların əksəriyyəti üçün informasiya baxımından açıqlıq və aydınlıq.

Bunlar qarşıdakı illərdə Azərbaycan vətəndaşlarının necə yaşa-yacağını müəyyənləşdirən strateji istiqamətdir [308, 58-59].

6.4. Xarici siyasət

Prezident İlham Əliyevin hakimiyyətə gəldiyi vaxt dünyada vəziyyət o qədər də sadə deyildi. Dünya siyasətçilərinin son iki nəslinin sarsılmaz hesab etdikləri qlobal nizamın əsasları laxlayaraq hərəkətə gəlmişdi. Siyasətdə bütöv bir ziddiyyətlər və paradokslar durumu ilə yanaşı, meyil və antimeyillərlə də rəftar etmək tələb olunurdu. Ənənəvi siyasi nizam modelləri çoxşaxəli, assimmetrik təsirlər dalğası önündə geri çəkilirdi. Yeni qlobal reallığın mühüm aspektləri beynəlxalq münasibətlər, sivilizasion amillərin dinamikası və ənənəvi idarəetmə strukturlarının dəyişməsi və yenilərinin genezisi problemləri ilə şərtlənmişdi [300, 10].

Belə bir şəraitdə ölkəmizin qarşısında duran başlıca strateji vəzifə Azərbaycan dövlətinin əldə edilmiş geosiyasi simasını, mövqeyini bundan sonra da qorumaq, bəzi dövlətlərin və respublikamıza qarşı qeyri-səmimi olan qüvvələrin müxtəlif məqsəd və vasitələrlə Ermənistanın

işğalçılıq siyasətindən bəhrələnərək, Azərbaycan ərazisini siyasi qrupların münaqişəsi meydanına, qeyri-sabitliyin tüğyan etdiyi məkana çevirməsinin qarşısını almaq idi [300, 11-12].

Bu strateji vəzifənin həyata keçirilməsi üçün bir sıra məsələləri həll etmək lazım idi:

Heydər Əliyevin müəllifi olduğu tarazlaşdırılmış, milli maraqlara söykənən tərəfdaşlıq siyasətini davam etdirmək; xarici siyasi qərarların müstəqil qəbul edilməsi və başqa dövlətin yedəyində getməmək; xarici siyasətin iqtisadi baxımdan əsaslandırılmış olması, praqmatik və rasional prinsiplərə söykənməsi; «hücum diplomatiyası»nın tətbiqi; Dağlıq Qarabağ probleminin həllinə dair səyləri fəallaşdırmaq; qonşularla əməkdaşlıq mühitinin formalaşdırılması və Azərbaycan ərazisindən qonşulara qarşı istifadə olunmasına yol verməmək; heç kimə qarşı olmamaq və Azərbaycanı qarşıdurma deyil, əməkdaşlıq məkanına çevirmək; Azərbaycanın sivilizasiyaların dialoqu məkanında rolunu artırmaq; xarici siyasətdə iqtisadi imkanlardan səmərəli istifadə etmək.

Tarazlaşdırılmış xarici siyasət, bir tərəfdən ölkəni güc mərkəzlərinin radikal münasibətindən qoruyurdusa, o biri tərəfdən də müstəqil xarici siyasət yürütmək üçün əlverişli zəmin yaradırdı. Elə buna görə də Prezident İlham Əliyev arxayınlıqla vurğulayırdı ki, Azərbaycan tam müstəqil xarici siyasət yürüdür. Bəzi qonşulardan fərqli olaraq, biz xarici yardımlardan asılı və xarici təsir altında deyilik. Müstəqil siyasətin əsasını isə iqtisadi inkişaf və iqtisadi müstəqillik təmin edir.

Prezident bəzi beynəlxalq təşkilatlarda Azərbaycana təzyiq etməyə cəhd edən qruplar haqda danışarkən də təzyiqlərə müqavimət olacağını bəyan etmişdir: «Biz öz siyasətimizdən, milli maraqlarımızın müdafiəsi prinsiplərindən bir addım geri çəkilməyəcəyik. ...Bizə təzyiq etmək mümkün deyil. ... Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanla əməkdaşlıq etmək lazımdır, Azərbaycanla yaxşı münasibətlər qurmaq lazımdır. Necə ki biz bütün dövlətlərlə və beynəlxalq təşkilatlarla yaxşı münasibətlər qurulmasının tərəfdarıyıq. Heç kimin ixtiyarı yoxdur ki, Azərbaycanın daxili işlərinə qarışsın, bizə məsləhət versin, bizə mühazirə oxusun. Biz bu haqqı heç kimə verməmişik və heç bir ölkənin qarşısında öhdəlik götürməmişik. ...Azərbaycan ən ağır vəziyyətdə olanda –1993-cü ildə Heydər Əliyev hakimiyyətə gələndə

kim gəlib bizə arxa olub, kim bizə kömək edib? Bizim pulumuz olmayanda, bizim iqtisadiyyatımız dağılanda, – sənaye istehsalı tamamilə tənəzzülə uğramışdı, xaos, böhran, vətəndaş müharibəsi hökm sürürdü və iqtisadiyyat iflic olmuşdu – kimsə gəlib bizə məsləhət veribmi? Xəzinədə bir manat pul olmayanda, kimsə ora bir manat pul qoyub ki, indi gəlib bizim imkanımıza nəzarət etsin? ...Biz özümüz bilirik necə yaşamalıyıq, özümüz bilirik ölkəmizi necə idarə etməliyik. Biz deyəndə, mən Azərbaycan xalqını nəzərdə tuturam» [392, 2008, 8 iyul].

Ötən illər ərzində Azərbaycan dövləti xarici siyasətdə istisnasız olaraq milli maraqlardan çıxış etdiyini dəfələrlə sübut etmişdir. «Milli maraqlar siyasəti» isə, demək olar ki, bütün məqamlarda «heç kimə qarşı olmamaq» prinsipi ilə müşayiət olunub və olunmaqdadır. Məsələn, İranla ABŞ arasında yaranmış gərgin vəziyyətdə ABŞ-ın İrana qarşı Azərbaycan ərazisindən istifadə etməsi məsələsi ABŞ və Avropanın kütləvi informasiya vasitələrində, bəzən hətta rəsmi dairələrində səslənməyə başlamışdı. Prezident İlham Əliyev 2006-cı ildə ABŞ-a səfəri zamanı Birləşmiş Ştatların prezidenti ilə görüşdən sonra Ağ evin qarşısında jurnalistlərin suallarına cavab verərkən demişdir: «Burada birgə planlar haqqında söhbət olmadı. Biz yalnız vəziyyət barədə fikir mübadiləsi etdik. Əlbəttə, vəziyyət narahatlıq doğurur və təbii ki, İranın qonşusu kimi Azərbaycan müəyyən narahatlıq keçirir. Ancaq məsələnin yalnız diplomatik yolla həll edilməsinin zəruriliyi barədə ümumi fikirdə olmağımız ümid verir ki, hər şey dincliklə həllini tapacaqdır» [644].

ABŞ Prezidenti Corc Buş isə KİV üçün bəyanatında vurğulamışdı ki, biz İran haqqında danışdıq. Mən cənab Prezidenti əmin etdim ki, bu problemi diplomatik üsullarla, dinc yolla həll etmək tərəfdarıyam. Beləliklə, Azərbaycan Respublikası İran İslam Respublikasına qarşı çıxmaqdan imtina etdi, eyni zamanda ABŞ Azərbaycan Respublikasının müttəfiqi olaraq qaldı. Hətta ABŞ Prezidenti Azərbaycan Respublikasının Prezidentinə «strateji tərəfdaşlığa görə» təşəkkür etdi.

2004-cü ildə Azərbaycan rəhbərliyi ölkə ərazisində Qərbin hərbi bazalarının yerləşdirilməyəcəyini bəyan etməklə yanaşı, Rusiyanın təklif etdiyi və ATƏT-in fəaliyyətinin tənqidinə yönəlmiş bəyanatı imzalamadı. 2008-ci ilin avqust hadisələri zamanı, RusiyaGürcüstan hərbi münaqişəsinin gedişində Azərbaycanın Xarici İşlər Nazirliyi beynəl-

xalq hüquq normaları və prinsiplərindən çıxış edərək, Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan etdi. Eyni zamanda, Azərbaycan Respublikası Gürcüstandakı qaçqınlara və zərərçəkənlərə humanitar yardım göstərdi.

Azərbaycan Respublikasının bu prinsiplərə riayət etdiyini Çeçenistan məsələsində Rusiya Federasiyası da sübut etmişdir. Təsadüfi deyil ki, Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov Azərbaycan Respublikasının Moskvadakı səfirliyində olarkən Azərbaycan Respublikasının «Rusiyaya qarşı olmamaq» siyasətini yüksək qiymətləndirdiklərini bəyan etmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı ilin aprelində ABŞ-a ilk rəsmi səfəri ikitərəfli münasibətlərdə yeni mərhələnin təməlini qoydu. Səfərin yekunları göstərdi ki, Birləşmiş Ştatlar Azərbaycanla əlaqələrin daha da genişlənməsində və strateji tərəfdaşlıq münasibətlərinin dərinləşməsində maraqlıdır.

Dost və qardaş Türkiyə Cümhuriyyəti ilə münasibətlərin daha da möhkəmləndirilməsi və genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin çox mühüm tərkib hissəsidir. İki ölkə arasında strateji tərəfdaşlıq və genişlənən əməkdaşlıq regionda sabitliyin göstəricisinə çevrilmişdir. Bu əməkdaşlıq türkdilli dövlətlər birliyi çərçivəsində də davam etdirilir. Bu baxımdan, 2009-cu ilin oktyabrında Türkdilli Ölkələrin Parlament Assambleyasının birinci sammitinin, bu ölkələrin dövlət başçılarının IX Zirvə görüşünün keçirilməsi yaddaqalan hadisələr olmuşdur.

İranla mehriban qonşuluq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsiplərinə söykənən ikitərəfli münasibətlər inkişaf edir, hər iki ölkənin mühüm coğrafi mövqeyi və zəngin iqtisadi potensialı iqtisadi əlaqələrin sürətlə inkişafına gətirib çıxarmışdır.

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında bütün sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Hazırda Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmış yeganə ölkədir. Beynəlxalq münasibətlər sistemində xüsusi yeri olan Rusiya ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişləndirilməsinin Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi, bölgədə sabitliyin və təhlükəsizliyin təmin olunması baxımından böyük əhəmiyyəti vardır [644].

Azərbaycan Respublikasının Avropa siyasətində Mərkəzi və Şərqi Avropa dövlətləri ilə əməkdaşlıq mühüm yer tutur. İqtisadi və siyasi islahatları başa çatdırmış həmin ölkələrin Avropanın siyasi, iqtisadi və təhlükəsizlik sistemlərinə inteqrasiya sahəsindəki təcrübəsi Azərbaycan Respublikası üçün maraq doğurur. Avropa İttifaqı və NATO ilə münasibətlərdə yüksək nəticələr əldə etmiş Polşa, Rumıniya, Bolqarıstan, Macarıstan, Çexiya, Sloveniya, Xorvatiya kimi ölkələr Azərbaycan Respublikasının Avropa strukturlarına inteqrasiyası prosesini fəal dəstəkləyir. Eyni zamanda Mərkəzi və Şərqi Avropa Transqafqaz nəqliyyat-kommunikasiya sistemi vasitəsilə Azərbaycanın Qərbi Avropaya çıxışının təmin edilməsi baxımından əlverişli geosiyasi məkandır [464]

Ölkənin xarici siyasətinin «milli maraqlar», «heç kimə qarşı olmamaq», «qonşularla əməkdaşlıq» və «Azərbaycanı qarşıdurma deyil, əməkdaşlıq məkanına çevirmək» prinsipləri istər qonşu Rusiya, Gürcüstan və İrana, istərsə də Azərbaycanla əməkdaşlıq edən güc mərkəzlərinə praktikada göstərdi ki, bu ölkədən təhlükələr doğulmur və o, beynəlxalq münasibətlərdə və iqtisadi əməkdaşlıqda etibarlı tərəfdaşdır.

Öz siyasətini milli və bəşəri maraqların tarazlığı üzərində quran Azərbaycan dövlətinin problemlərin sülh yolu ilə həlli modeli bütün dövlətlərlə qarşılıqlı surətdə faydalı əməkdaşlıq perspektivləri açır. Bununla yanaşı, qloballaşma dövrünün doğurduğu mənfi təzahürlərin milli maraqlara əks-təsiri unudulmur və mühüm məsələ kimi gündəlikdə qalır [300, 23-24].

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının apardığı xarici siyasətin əlamətlərindən biri də müdafiə konsepsiyasından hücum konsepsiyasına keçilməsidir. Dövlət başçısı 2006-cı ilin avqustunda Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən səfirlik və diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşdə ölkəmizin rəqibləri və düşmənlərinə qarşı diplomatik hücum tezisi ilə çıxış etdi.

O vaxta qədər Azərbaycan yalnız hücumlara cavab verir, özünü müdafiə etməklə məşğul olurdu. Ölkənin yeni vəziyyəti isə daha fəal xarici siyasət yürütməyi mümkün edirdi və bu xətt siyasi gündəliyə «hücum diplomatiyası» kimi daxil oldu. «Hücum diplomatiyası», ilk

növbədə, Ermənistanın işğalçı xarici siyasətini ifşa etmək üçün bütün qüvvələri səfərbərliyə almağı və şəraiti diktə etməyi nəzərdə tuturdu. Azərbaycan qabaqlayıcı tədbirlər görməklə Ermənistanı özünü müdafiə etməyə məcbur etməli idi. 2008-ci ildə Prezident diplomatlarımızla növbəti görüşündə hücum taktikasının davam etdirilməsinin vacibliyini bir daha vurğulamış və onun tətbiqindən ötən iki il ərzində ilkin müsbət nəticələrin olduğunu bildirərək demişdir: «...Biz bütün istiqamətlərdə hücum taktikasını rəhbər tutmalıyıq və bu taktika bütün istiqamətlərdə öz bəhrəsini verməkdədir» [392, 2008, 8 iyul].

Prezident İlham Əliyev Türkdilli dövlətlərin və cəmiyyətlərin forumunda bütün türk dünyasına «hücum diplomatiyası»na qoşulmağı təklif etmişdi.

«Hücum diplomatiyası»nın daha bir istiqaməti Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin sayının artırılması və demək olar ki, dünyanın bütün regionlarını əhatə etməsi üçün tədbirlərin görülməsi oldu. 2008-ci ilin ortalarında artıq Azərbaycan 160 ölkə ilə diplomatik əlaqələr qurmuşdu. Prezidentin müvafiq sərəncamından sonra, 2009-cu ilin əvvəlində Azərbaycan Respublikasının xarici ölkələrdə 51 səfirliyi, 6 baş konsulluğu, beynəlxalq təşkilatlar yanında 7 daimi nümayəndəliyi fəaliyyət göstərirdi. Xaricdə çalışan Azərbaycan diplomatlarının sayı isə 600-ə yaxın idi.

«Hücum diplomatiyası»nın Azərbaycana ənənəvi soyuq münasibəti olan dövlətlərdə fəallığı gücləndirmək barədə müddəası ilə bağlı görülən işlər də öz nəticəsini verirdi. Niderland Krallığı ilə Azərbaycan Respublikası arasında münasibətlərdəki dəyişikliyi buna misal göstərmək olar. Bir çox məsələlərdə ölkəmizə soyuq münasibəti olan Niderlandda Avropada ən böyük və ən fəal Azərbaycan diaspor təşkilatlarından biri formalaşdı. Dünyanın beynəlxalq hüquq və məhkəmə mərkəzi sayılan Haaqa şəhərində Xocalı faciəsinin qurbanlarına abidə qoyuldu. Bu, Xocalı faciəsi qurbanlarına xaricdə qoyulmuş hələlik ilk və Avropada yeganə abidədir. 2009-cu ilin yayında Niderland Krallığı Azərbaycan Respublikasında 2004-cü ildə bağlanmış səfirliyin işini yenidən bərpa etmək haqqında rəsmi qərar qəbul etdi və elə həmin il səfirlik Bakıda fəaliyyətə başladı.

İtirilmiş əlaqələrin bərpasına daha bir misal Türkmənistanla münasibətlərin qaydaya salınmasıdır. 2007-ci ildə Azərbaycan Respub-

likasında Türkmənistan Respublikası səfirliyinin fəaliyyəti bərpa edildi və hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyası yaradıldı.

Uzun sürən soyuqluqdan sonra, 2008-ci il mayın 19-da Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycanda rəsmi səfərdə oldu. Səfərin gedişində ticarət-sənaye palataları, maliyyə nazirlikləri arasında əməkdaşlığa dair sazişlər imzalandı. Ən mühüm məsələlərdən biri isə beynəlxalq kombinə edilmiş yükdaşımaları haqqında saziş idi. Beynəlxalq avtomobil əlaqələri haqqında saziş isə Xəzərin hər iki sahili arasında yükdaşımalar və nəqliyyat əlaqələri üçün hüquqi bazanı formalaşdırdı. Dövlət başçıları Bakıda «Türkmənistan və Azərbaycan nefti və qazı» mövzusunda konfrans keçirmək barədə razılığa gəldilər.

Prezident İlham Əliyev Türkmənistan Prezidentinin bu səfərini yeni mərhələnin başlanğıcı kimi xarakterizə etmişdir: «Müzakirə edilən bütün məsələlər üzrə mövqelərimiz üst-üstə düşür. Biz Türkmənistan Prezidentinin Azərbaycana səfərinə çox böyük önəm veririk. Mən bu səfəri ikitərəfli münasibətlərimizin inkişafında keyfiyyətcə yeni mərhələ açan tarixi səfər hesab edirəm» [392, 2008, 20 may].

2008-ci il noyabrın 28-də Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana rəsmi səfəri isə təkcə iki ölkə arasında deyil, Orta Asiya–Cənubi Qafqaz, daha sonra Avropa ilə əlaqələr baxımından da çox əhəmiyyətli idi.

Həmin səfərin gedişində Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Türkmənistan Respublikası prezidentlərinin birgə görüşü də keçirildi. Bu, çox böyük əhəmiyyəti olan bir format idi.

«Hücum diplomatiyası» Qarabağ münaqişəsi ətrafında da yeni vəziyyət yaratdı. GUAM-ın möhkəmləndirilməsi və ona yeni keyfiyyətin verilməsi MDB daxilində və Cənub Qafqaz regionunda Ermənistana qarşı ciddi alyansın yaranmasına səbəb oldu.

Rumıniyanın da Azərbaycan Respublikasının mövqeyini, az qala, Türkiyə Cümhuriyyəti kimi müdafiə etməsi Qara dəniz hövzəsində Ermənistan üçün arzuolunmaz yeni vəziyyət yaratmış oldu. Nəhayət, ABŞ və İngiltərə BMT-də gündəliyi müəyyənləşdirərkən Azərbaycan Respublikasının və GUAM-ın mövqeyini dəstəkləməklə qlobal miqyasda Ermənistan üçün arzuolunmaz şəraitin formalaşmasına təkan verdi.

Azərbaycan Respublikasının Prezidenti Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yanaşmasında bir sıra mühüm məqamlara önəm verirdi: münaqişənin həllinə dair danışıqları davam etdirmək; Azərbaycan Respublikası ilə Ermənistan arasında sosial-iqtisadi fərqi dərinləşdirmək; Ermənistanı regional və qlobal iqtisadi layihələrdən təcrid etmək; beynəlxalq təşkilatlarda Ermənistanın təcavüzkar siyasətini ifşa etmək və bunun sənədlərdə əks etdirilməsinə nail olmaq, beynəlxalq müstəvidə informasiya savaşını gücləndirmək; diaspor siyasətini gücləndirmək; ölkənin müdafiə qabiliyyətini və ordunu gücləndirməklə hərbə həmişə hazır olmaq.

2004-cü ildən etibarən «Praqa prosesi» çərçivəsində Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında birbaşa danışıqlar başlandı.

Münaqişə məsələsi Avropa Şurasının da gündəliyində saxlandı. Bu məsələnin Avropa Şurası Parlament Assambleyasının 2005-ci ilin qış sessiyasında müzakirəsi nəticəsində «ATƏT-in Minsk konfransının məşğul olduğu Dağlıq Qarabağ münaqişəsi» adlı qətnamə qəbul edildi. Parlament Assambleyası Avropa Şurasının üzvü olan bir dövlətin digər üzv dövlətin ərazisini işğal etməsinin üzvlük öhdəliklərinin kobud şəkildə pozulması demək olduğunu açıq şəkildə bəyan etdi [610, 286–293].

Azərbaycan diplomatiyasının səyləri sayəsində 2004-cü il oktyabrın 29-da BMT-nin Baş Məclisi «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı bəndi özünün 59-cu sessiyasının gündəliyinə salmağı qərara aldı. Noyabrın 11-də Azərbaycanın işğal olunmuş ərazilərinə əhalinin köçürülməsi barədə məruzə (A/59/568) Baş Məclisə təqdim olundu. Gündəlikdəki bu bəndin Baş Məclisdə müzakirəsi Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşma məsələsinə diqqətin cəlb edilməsində və müvafiq tədbirlərin görülməsinə başlanmasında mühüm rol oynadı. ATƏT-in faktaraşdırıcı missiyası vəziyyəti öyrənmək üçün bölgəyə səfər etdi və öz məruzəsində işğal olunmuş ərazilərdə yeni yaşayış məntəqələri salınması faktını təsdiqləyərək, Azərbaycan Respublikasının narahatlığına şərik oldu. Faktaraşdırıcı missiyanın məruzəsi və ATƏT-in Minsk qrupu həmsədrlərinin ona əsaslanan tövsiyələri Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyət məsələsinin BMT Baş Məclisində sonrakı müzakirəsi üçün əsas oldu.

2006-cı il sentyabrın 7-də BMT-nin Baş Məclisi işğal olunmuş ərazilərdə kütləvi yanğın halları ilə əlaqədar ölkəmizin təklif etdiyi «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı (A/RES/60/285) qətnaməni qəbul etdi.

2008-ci il martın 14-də BMT-nin Baş Məclisi özünün 62-ci sessiyasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair (A/RES/62/244) qətnamə qəbul etdi. Baş Məclis Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını bir daha təsdiq edərək, erməni qoşunlarının Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Eyni zamanda işğal olunmuş ərazilərdən qovulmuş əhalinin öz yurd-yuvalarına qayıtmaq hüququnu bir daha təsdiqlədi.

Qətnamədə ən mühüm və onu BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsindən fərqləndirən prinsipial məqam Azərbaycan Respublikasının ərazilərinin məhz Ermənistan tərəfindən işğal olunması faktının öz əksini tapmasıdır. BMT-nin rəsmi press-relizində «Erməni qüvvələrinin Dağlıq Qarabağdan çıxarılmasına çağırır» ifadəsi işlədilirsə, deməli, burada yalnız Ermənistanın qüvvələrindən söhbət gedə bilər. Belə ki, Dağlıq Qarabağın silahlı qüvvələrinin oradan çıxarılması məntiqsiz olardı. İkinci tərəfdən, BMT-də münaqişə tərəfi kimi Ermənistan qəbul edildiyi üçün bu ifadəni başqa cür yozmaq da qeyri-mümkündür.

Azərbaycan diplomatiyası bu qətnamənin qəbul edilməsinə çox böyük səylər nəticəsində nail olmuşdur. Məsələn, bütün Avropa İttifaqı ölkələrinin Fransadan fərqli mövqe nümayiş etdirməsi, yəni bitərəf qalması çox böyük uğur sayılmalıdır. Yunanıstan, Belçika və Hollandiya kimi dövlətlərin bitərəf qalması və qətnamənin əleyhinə səs verməməsi isə «hücum diplomatiyası»nın nailiyyəti hesab edilə bilər. Bu, Azərbaycanın yeni Avropa siyasətinin nəticəsidir. Həmin siyasətin əsas mahiyyəti isə Avropa İttifaqı daxilindəki müxtəlif qruplarla ayrıca əlaqələrin qurulması və etibarlı enerji siyasətinin aparılmasıdır.

İslam ölkələri Azərbaycanın mövqeyini dəstəklədilər. Ölkəmizi birmənalı şəkildə dəstəkləyən dövlətlər sırasında Gürcüstan və Ukraynanı xüsusi vurğulamaq lazımdır.

2008-ci il noyabrın 2-də Azərbaycan, Ermənistan və Rusiya prezidentləri Moskva Bəyannaməsini imzaladılar. Bəyannamədə deyilirdi

ki, münaqişə beynəlxalq hüququn normaları və prinsipləri, habelə bu çərçivədə qəbul edilmiş sənəd və qərarlar əsasında həll edilməlidir.

Prezident İlham Əliyev Bəyannamə haqqında danışarkən demişdir: «BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən qeyd-şərtsiz surətdə çıxmasını tələb edən 4 qətnamə qəbul edib. Digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT də müvafiq qərarlar qəbul edib. ATƏT-in Lissabon sammitinin qərarı da indiyədək qüvvədədir. Təbii ki, həmin münaqişə bu prinsiplər əsasında nizama salınmalıdır». Rusiya Prezidenti Dmitri Medvedev bu sənəd barədə öz fikirlərini ifadə edərkən Azərbaycan Prezidenti ilə tam razı olduğunu bildirmişdir: «Mən, əlbəttə, tamamilə razılaşmaq istəyirəm ki, bu cür problemlər yalnız möhkəm beynəlxalq hüquqi baza əsasında nizama salına bilər. Həmin baza məlumdur. O, elə indicə İlham Heydər oğlu tərəfindən ifadə olundu. Həqiqətən, söhbət, bir vaxtlar sivil adlandırılan xalqlar tərəfindən işlənib hazırlanmış beynəlxalq hüququn ümumi prinsiplərindən gedir. Söhbət, təbii ki, əsas beynəlxalq təşkilatların və ilk növbədə, Birləşmiş Millətlər Təşkilatının Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair qərarlarından və qətnamələrindən gedir» [392, 2009, 30 avqust].

«Böyük səkkizlər»in İtaliyanın Akvil şəhərində keçirilmiş toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı birgə bəyanatla çıxış edərək, Azərbaycan və Ermənistan prezidentlərini qalan fikir ayrılıqlarını aradan qaldırmağa və hərtərəfli sülh planının əsasını təşkil edəcək Baza prinsiplərinin razılaşdırılmasını başa çatdırmağa çağırmışlar.

2009-cu il iyulun 11-də isə Ağ evin mətbuat xidməti Madrid prinsiplərinin mahiyyətini rəsmən açıqladı. Məlumatda bildirilirdi ki, bu prinsiplər Helsinki Yekun Aktına, yəni gücün tətbiq edilməməsi, ərazi bütövlüyü, bərabərhüquqluluq və öz müqəddəratını təyin etmək hüququna əsaslanır.

Azərbaycan Respublikası Prezidentinin münaqişənin həllində iqtisadi amildən istifadə strategiyası öz nəticələrini göstərdi. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində iqtisadi fon Azərbaycanın xeyrinə köklü şəkildə dəyişdi:

– Azərbaycan investsiyalar baxımından regionda ən əlverişli, Ermənistan ən əlverişsiz vəziyyətə gəldi;

– Azərbaycan Respublikası qlobal layihələrin təşəbbüskarı, iştirakçısı və aparıcı vasitəçisinə çevrildi. Ermənistan isə bütün qlobal layihələrdən kənarda qaldı;

– Azərbaycan Respublikasının iqtisadi gücü, enerji resurslarının düzgün istifadəsi Ermənistanın Avropa və Amerikada, hətta regionda belə siyasi əlaqələrini minimuma endirdi;

– Ermənistanın regional və qlobal iqtisadi layihələrdən kənarda qalması özünün sosial-iqtisadi nəticələrini göstərdi. Ermənistan dünyadakı qlobal iqtisadi böhran və Rusiya ilə Gürcüstan arasındakı hərbi toqquşma nəticəsində çıxılmaz iqtisadi vəziyyətə düşdü. Nəticədə, Azərbaycan və Ermənistan iqtisadiyyatları arasındakı fərq daha da dərinləşdi.

Lakin on beş ildən bəri aparılan danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından münaqişənin həllində əsaslı irəliləyişə gətirib çıxarmamışdır. Bəzi xarici qüvvələrin Azərbaycana münasibətdə ikili standartlar siyasəti, Ermənistanı düşdüyü çətin vəziyyətdən çıxarmaq cəhdləri işğalçı dövləti öz mövqeyindən çəkilməməyə sövq edir. Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün yekunlarına həsr olunmuş iclasında bu münaqişənin həlli məsələsində yaranmış vəziyyətdən danışarkən demişdir ki, Ermənistanı hansısa yollarla stimullaşdırmaq, ona ümid vermək, onun işğalçı siyasətinə yenə göz yummaq siyasəti danışıqların pozulmasına gətirib çıxara bilər. Belə olan halda, prosesdə yeni mərhələ başlanacaqdır. Həmin mərhələnin nədən ibarət olacağını demək, hələ ki, tezdir, hər halda, Azərbaycan istənilən ssenariyə hazırdır.

Respublikamızın xarici siyasət xəttinin əsas istiqamətlərindən biri də Azərbaycan Respublikasının açıq ölkə, açıq dövlət və açıq cəmiyyət olmasının təmin edilməsi və açıq ölkə imicinin formalaşdırılması oldu. İslam ölkələri, xüsusilə də ərəb dövlətləri ilə əməkdaşlığın intensivləşməsi ilə yanaşı, dünyada çox böyük təsir gücü olan Vatikanla və pravoslav kilsəsi ilə də əlaqələr yüksək səviyyədə quruldu.

Cənubi Qafqazda ən əlverişli geosiyasi mövqedə yerləşən, zəngin karbohidrogen ehtiyatlarına malik, regionun lider dövləti olan Azərbaycan həm Avropa, həm də Asiya üçün maraq doğurur. Avropaya inteqrasiyanı gücləndirmək siyasəti yürüdən Azərbaycan Res-

publikasının Avroatlantik məkanı ilə sıx əməkdaşlığı milli xarici siyasətin mühüm istiqamətidir. Avropa İttifaqının «Yeni qonşuluq siyasəti», «Şərq tərəfdaşlığı» proqramı Aİ çərçivəsində strateji qarşılıqlı münasibətlər yaradılmasının mühüm elementləridir [306, 674].

2006-cı ilin dekabrında Avropa Şurası Parlament Assambleyası Siyasi Komitəsinin iclasının Bakıda keçirilməsi Azərbaycanın Avropa üçün əhəmiyyətinin göstəricisi oldu. Bununla AŞ özünün Şərq sərhədinin haradan keçdiyini bildirdi. İclasda «Avropa nöqteyi-nəzərindən Azərbaycan–Orta Asiya əməkdaşlığı» məsələsi müzakirə olunmuşdu.

Prezident İlham Əliyev 2008-ci ilin avqustunda «CASPİAN OUTLOOK-2008» strateji forumunda nitqində demişdir: «İndi Avropa İttifaqının sərhədləri bizim regionumuza daha da yaxınlaşır. Azərbaycan Avropa İttifaqının «Yeni qonşuluq siyasəti»nə daxil edilibdir. Ona görə də bizim regionumuzda əsas götürüləcək meyarlar Avropa İttifaqında mövcud olan meyarlara çox bənzər olacaqdır. Azərbaycan ilə Avropa İttifaqı arasında çox güclü enerji dialoqu aparılmaqdadır. Bizim nəqliyyat imkanlarımız, istismara verilmiş boru kəmərləri regionda tamamilə yeni bir vəziyyət yaradır. Xəzər regionunun dünya üçün enerji təchizatı məsələsində oynadığı rol get-gedə daha da artacaqdır».

Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış «Enerji sahəsində strateji tərəfdaşlıq haqqında» Anlaşma memorandumu da birgə fəaliyyət üçün yeni imkanlar açır.

NATO ilə təhlükəsizlik, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri ilə mübarizə, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması və digər sahələrdə əməkdaşlıq uğurla inkişaf edir. Bu qurumla fəal siyasi dialoq qarşılaşdığımız birgə təhdidlərə dair ortaq anlayış üçün imkan yaradır. Azərbaycan NATO ilə Fərdi tərəfdaşlığın fəaliyyət planı üzrə ikinci sənədin icrasını uğurla başa vurmuşdur ki, bu da növbəti illərdə qarşılıqlı münasibətləri istiqamətləndirəcəkdir [464].

Azərbaycan Respublikasının xarici siyasətində fəal istiqamətlərdən biri Şərqdir. Ölkəmizi Mərkəzi Asiya ilə həm də etnik və mədəni yaxınlıq birləşdirir. Azərbaycan bu regionun dövlətləri ilə fəal əməkdaşlıq siyasəti yeridir ki, bu da Uzaq Şərq istiqamətində əməkdaşlığı gücləndirmək üçün meydan rolunu oynaya bilər (Yenə orada).

İnteqrasiya proseslərinin sürətlə inkişaf etdiyi Asiyada çoxtərəfli və ikitərəfli qarşılıqlı əlaqələrdə enerji təhlükəsizliyi problemi getdikcə aktuallaşır [306, 680].

Prezident İlham Əliyev 2008-ci ilin iyununda Asiyada Qarşılıqlı Fəaliyyətə və Etimad Tədbirlərinə dair Müşavirənin II sammitindəki çıxışında demişdir: «Gələcəkdə Asiya regionunda əməkdaşlıq genişlənəcək, inkişaf edəcək, ölkələrimizin həm iqtisadi potensialı, həm də qarşılıqlı siyasi fəaliyyəti buna təkan verəcəkdir. Biz öz tərəfimizdən bütün regional layihələrə fəal qoşulmağa hazırıq və bunlarda iştirak etmək niyyətindəyik».

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın – GUAM-ın üzvü olan ölkələrdə enerji təhlükəsizliyinin təmin olunmasının mühüm elementi kimi Azərbaycan bu təşkilat çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət verir. Eyni zamanda milli maraqlara əsaslanmaqla MDB-də əməkdaşlığı davam etdirir. Azərbaycan hesab edir ki, bu çərçivədə münasibətlərin yaşarı və səmərəli olması üçün onları ayıq iqtisadi təfəkkürlə qurmaq lazımdır [306, 680].

Azərbaycan İslam Konfransı Təşkilatı çərçivəsində fəaliyyətinin genişləndirilməsinə xüsusi əhəmiyyət verir. İslam dünyası ölkələri ilə ikitərəfli əlaqələrlə yanaşı, İKT formatında əməkdaşlıq Azərbaycan üçün çox vacibdir. Eyni zamanda ölkəmiz İKT çərçivəsində fəaliyyətini genişləndirməklə, Qərb və Şərq mədəniyyətlərini birləşdirən körpü kimi çıxış edərək, sivilizasiyaların dialoqunu yaradır.

Ümummilli lider Heydər Əliyev terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılmasına dair Bakıda keçirilən beynəlxalq konfransda çıxış edərkən demişdir: «Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır» [392, 2002, 11 oktyabr].

İslam Konfransı Təşkilatına (İKT) daxil olan ölkələrin əməkdaşlığı son dövrdə dünyada özünü göstərən islamafobiya meyillərinə qarşı birgə mübarizə baxımından da əhəmiyyətlidir. Prezident İlham Əliyev İKT ölkələri Xarici İşlər Nazirləri Şurasının 2006-cı ilin iyununda Bakıda keçirilən 33-cü iclasında çıxışında demişdir: «Biz indi sivilizasiyalar arasında dialoq haqqında çox danışırıq, amma əslində, real həyatda bunun əksini görürük. Onu görürük ki, müxtəlif ölkələrdə dini

zəmində ayrı-seçkilik halları artır... Biz hər hansı zəmində – dini, yaxud da ki, milli zəmində ayrı-seçkiliyin olması, yaxud da hansısa dinin nümayəndələrinə mənfi münasibət göstərilməsi ilə heç cür barışa bilmərik».

Bakıda keçirilmiş mədəniyyətlərarası dialoq konfransı Avrasiya məkanını əhatə edən müxtəlif dövlətlərin nümayəndələrini bir araya gətirdi. Bu fakt həm də onu göstərirdi ki, həmin dövlətlər Azərbaycanı mədəniyyətlərarası dialoq məkanı kimi tanıyır və qəbul edir.

Azərbaycan Respublikasının mədəniyyətlərarası dialoq ideyasının aparıcılarından birinə çevrilməsi və bu istiqamətdə siyasətin qurulması strateji məqsədlər daşıyır. İqtisadi baxımdan – Azərbaycan Respublikasının mədəniyyətlərarası dialoqu təşkil etməsi mövcud və gələcək infrastruktur layihələrinin qlobal əhəmiyyətinin və cəlbediciliyinin artırılmasına yönəlmişdir. Mədəniyyətlərarası dialoq siyasətinin iqtisadi əsası artıq Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars, TRASEKA layihələrinin timsalında mövcuddur. Bu siyasət bir-biri ilə rəqabətdə olan güclərə tolerant ölkə, dünyəvi dövlət olan Azərbaycanın ərazisində əməkdaşlıq imkanı açır.

Siyasi baxımdan isə bu, Azərbaycan Respublikasının artıq 1993-cü ildən başlayaraq apardığı tarazlaşdırılmış xarici siyasətinin tətbiqi formalarından biri, heç kimə qarşı olmamaq prinsipinin mədəniyyətlərin ünsiyyəti formasında həyata keçirilməsidir.

Coğrafi baxımdan mədəniyyətlərarası dialoq Azərbaycanın yerləşdiyi məkanın etdiyi diktənin düzgün dərk olunub tətbiq edilməsidir. Belə ki, coğrafiyanı dəyişmək mümkün deyil, sadəcə, onun nə diktə etdiyini anlamaq vacibdir. Azərbaycan coğrafi mövqeyinə görə fövqəl və regional güclərlə əhatələnmişdir. Odur ki, ziddiyyətlərdə tərəf kimi iştirak etmək deyil, əməkdaşlıq nöqtələri tapmaq yeganə doğru siyasətdir və bu, həyata keçrilməkdədir.

2009-cu ildə Bakı islam mədəniyyətinin paytaxtı elan edilmiş, bu çərçivədə çoxsaylı tədbirlər keçiirilmişdir.

Prezident İlham Əliyev 2009-cu il noyabrın 6-da Bakıda keçirilmiş «Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan əməkdaşlığa doğru» konfransında Azərbaycanın bu sahədəki siyasətinin təməl prinsiplərinə aydınlıq gətirmişdir. Tolerantlığı Azərbaycan Respublikasının xarici və daxili təhlükəsizliyi üçün mühüm amillərdən biri kimi səciyyələndirən

dövlətimizin başçısı demişdir: «Coğrafi vəziyyəti, tarixi, bugünkü inkişaf templəri və xüsusilə sivilizasiyalararası münasibətlərə verdiyimiz önəm Azərbaycanı bu mövzu ilə əlaqədar keçirilən və keçiriləcək tədbirlərin qeyri-rəsmi paytaxtı elan edir» [392, 2009, 7 noyabr].

Dağlıq Qarabağ münaqişəsi ətrafında Ermənistanın rəsmi təbliğatının dini amildən fəal istifadə etməyə çalışması da Azərbaycan Respublikasının xarici siyasətində bu amilin neytrallaşdırılmasını tələb edir. Azərbaycan Respublikasının sivilizasiyalararası dialoq məkanı və bütün dinlərin təmsilçilərinin özlərini azad hiss etdiyi ölkə kimi qəbul edilməsi Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın Avropa Şurası Parlament Assambleyasının tribunasından «azərbaycanlılarla ermənilər birlikdə yaşaya bilməzlər» kimi irqçi çıxışının qlobal miqyasda ifşa olunmasıdır.

2010-cu ilin aprelində Bakıda daha bir mötəbər tədbir – dünya dini liderlərinin sammiti keçirilmişdir. Sammitdə 33 ölkədən ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox yüksək səviyyəli nümayəndə iştirak edirdi. «Qloballaşma, din, ənənəvi dəyərlər» mövzusunda keçirilən sammitdə zamanın təhdidlərinə və qloballaşmanın doğurduğu problemlərə layiqincə cavab vermək üçün din xadimlərinin də üzərinə böyük vəzifələr düşdüyü, bu baxımdan onların daha fəal və konkret mövqe tutmalarının vacibliyi vurğulanmışdır. Sammitin açılışında çıxış edən Prezident İlham Əliyev tarixən çoxmillətli və çoxkonfessiyalı ölkə olan Azərbaycan Respublikasının Avropa və Asiya, xristian və islam dünyaları ilə əlaqələrin inkişafına daha böyük töhfə verəcəyini bildirmişdir. Prezident demişdir ki, biz Bakının, Azərbaycanın dinlərarası dialoqun mərkəzinə çevrilməsinə böyük ümidlərlə baxırıq [392, 2010, 27 aprel].

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi xarici siyasət xətti Azərbaycanın milli təhlükəsizliyinin təminatıdır. Varislik və yeniliyin tarazlığına əsaslanan bu model konyukturanın dəyişikliklərinə əməli surətdə cavab verməyə, habelə ölkənin davamlı inkişafını təmin etmək üçün əlverişli xarici şəraitin yaradılmasına yönələn diplomatik strategiyanın saxlanılmasına imkan yaratmışdır. Azərbaycanın xarici siyasətində çoxvektorluq üstünlük təşkil etdiyinə görə, ölkəmizin qlobal miqyasda geosiyasi çəkisi durmadan artır [464].

6.5. Heydər Əliyev və Azərbaycan Respublikası diasporunun formalaşması

Azərbaycanlıların xarici ölkələrə miqrasiyası prosesi və onların dünyanın müxtəlif ölkələrində icmalar şəklində məskunlaşması zəngin tarixə malik olsa da, XX əsrin sonunda Azərbaycan diasporunun siyasi-mədəni fenomen kimi təşkilatlanması və formalaşması bilavasitə Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Müasir mərhələdə milli diasporun Azərbaycan Respublikası dövləti tərəfindən məqsədyönlü şəkildə dəstəklənməsi və ona göstərilən qayğı siyasətinin başlıca prinsipləri Milli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır. Ümummilli liderin əqidəsincə, Azərbaycan Respublikası bir ölkə olaraq bütün dünya azərbaycanlılarının doğma vətəni, Bakı şəhəri isə müstəqil ölkənin paytaxtı kimi həmvətənlərimizi birləşdirən milli mərkəz rolunu oynamalıdır. Bu kontekstdə Ümummilli liderin müstəsna xidmətlərindən biri dünya azərbaycanlılarının birləşməsinə, Azərbaycan xalqının milli mənafelərinin həyata keçirilməsinə yönəlmiş Azərbaycançılıq ideologiyasının əsasını qoymasıdır.

Müasir Azərbaycan Respublikası özünün dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinin başlıca amili olaraq milli birliyin təmin edilməsi, dünya azərbaycanlılarının vahid milli mənafe ətrafında birləşdirilməsi mexanizmlərinin işlənib hazırlanmasını, dövlət quruculuğunun əsas dayaqlarının gücləndirilməsi işini mühüm tarixi vəzifələr kimi həyata keçirməsini təmin edir. Buna görə də dövlət müstəqilliyinin möhkəmləndirilməsi və milli dövlət quruculuğunun inkişafı yolunda bir sıra ideoloji, siyasi, sosial, iqtisadi məsələlərin həlli xüsusi aktuallıq tələb edirdi. Doğrudur, Heydər Əliyev çox təcrübəli dövlət başçısı kimi bilirdi ki, milli diaspor potensialının dünya miqyasında səfərbər edilərək vahid məqsədə yönəldilməsi dövlətçiliyin qorunmasına və inkişafına etibarlı təminatdır. Bu özü isə az bir müddət ərzində bütün yaradıcı səylərin birləşdirilməsini tələb edir.

Dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların mütəşəkkil diaspor kimi formalaşması lobbi quruculuğu sahəsində Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Belə bir fəaliyyət, əslində ölkədə müdrikcəsinə aparılan dövlət siyasətində diasporun formalaşdırılması yolunda

mühüm addımların atılması demək idi. Azərbaycan Respublikasının dünya azərbaycanlıları tərəfindən milli-tarixi təkamülünün bəhrəsi milli mənliyin rəmzi, tarixi Vətən anlayışının inkişafı kimi qəbul edilməsidir.

Sovet imperiyasının süqutundan sonra dövlət maraqları ilə milli mənafeyin vəhdəti anlayışının və bu zəmində diasporla iş aparmaq probleminin dərk olunması ictimai şüurda inqilabi hadisə kimi qəbul edilərək milli təfəkkürdə keyfiyyətcə yeni mərhələnin başlanmasına təkan vermişdir. Bunun əsas təminatı Ümummilli lider Heydər Əliyevin dünya azərbaycanlıları arasında böyük nüfuza malik olması, milli ideologiyanın yaradıcısı kimi qəbul edilməsidir. Məhz onun müdrik rəhbərliyi sayəsində Azərbaycan Respublikası müstəqilliyinin ilk illərindən dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu rəsmən bəyan etmiş və xarici ölkələrdə yaşayan azərbaycanlılarla dövlət səviyyəsində sistemli iş aparılması Azərbaycan Respublikası dövlətinin başlıca vəzifələrindən biri olmuşdur. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün təsis edilməsi, Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi, «Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» Azərbaycan Respublikası Qanununun qəbulu, Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə dövlət siyasətinin nə qədər məqsədyönlü və genişmiqyaslı olduğuna bariz nümunədir.

Bildiyimiz kimi, Heydər Əliyev hələ Naxçıvan MR-də işləyərkən dünya azərbaycanlılarının birliyinə nail olmaq üçün daha bir möhtəşəm addım atdı. 1991-ci il dekabr ayının 16-da imzaladığı sərəncamla 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa olunanadək xaricdə yaşayan azərbaycanlıları birləşdirən vahid ideoloji zəmin, demək olar ki, olmamışdır və sovet rejimindən qalmış ideoloji miras isə artıq işləmirdi, bu işdə heç bir pozitiv rol oynaya da bilməzdi. Bu baxımdan, müstəqil milli dövlətçilik ideologiyası səviyyəsində müdafiə olunan xalqın yeni reallıqlarının tələblərinə cavab verən milli ideologiya olmadığından diasporda həmrəylik hissini gücləndirmək, onun fəaliyyətini milli amal və dövlətçilik mənafeyinə yönəltmək mümkün deyildi. Belə bir sosial tənzimləyici fenomen məhz müstəqillik illərində Heydər Əliyevin səyi nəticəsində işlənib hazırlanan Azərbaycançılıq ideologiyası oldu.

1990-cı illərdən geniş ümummilli hərəkata çevrilmiş diaspor quruculuğu Azərbaycançılıq ideologiyasında öz prinsipial əsaslarını tapmağa başlayır. Ən başlıcası budur ki, «diaspor» anlayışı yalnız dövlət siyasətinin əsas istiqamətini deyil, həmçinin milli ideologiyanın, ictimai şüurun pozitiv istiqamətlərini müəyyən etmişdir. Azərbaycan Respublikasında əhalinin əksər təbəqələrinin, ictimai-siyasi qüvvələrinin müasir dünyagörüşünə cavab verən Azərbaycançılıq ideologiyasının diaspor quruculuğunda sosial mexanizm kimi üstünlüyü onun Azərbaycan Respublikası dövlətinin milli maraqlarına tam uyğun olmasıdır. Milli-mənəvi, əxlaqi, dünyəvi, humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini tarixi təkamüldə varislik və tərəqqiçiliyi əhəngdar şəkildə ehtiva edən Azərbaycançılıq ideologiyası bu keyfiyyətlərinə görə müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış milli diaspor üçün cəlbedici və perspektivlidir. Azərbaycançılığın belə sistemli xarakterizə edilən ideoloji potensialı müxtəlif dövrlərdə yaranmış mühacir nəsillərini də birləşdirməyə imkan verir.

Azərbaycançılıq ideologiyasının diaspor üçün formalaşdırıcı amil kimi daha mühüm cəlbediciliyi onun daxili rəngarəngliyi ilə bərabər, konseptual bütövlüyü, milli özünüdərkə imkan verən tamlığı, intellektual potensialıdır. Bu konseptual ideya özlüyündə əhəmiyyətli formalaşdırıcı faktor kimi, xaricdə yaşayan soydaşlarımızın ölkəmizlə əlaqələrinin inkişafı, onların müxtəlif maraqlarının hüquqi müstəvidə təminatı üçün də fəlsəfi əsas yaradır. Məhz bu ideoloji amil xaricdə yaşayan azərbaycanlılarla işi dövlət səviyyəsində uğurla həyata keçirməyə, digər tərəfdən, onları ölkəmizdəki iqtisadi layihələrə cəlb etməyə və beləliklə də, Vətənə daha sıx bağlamağa imkan vermişdir.

«Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında» qanuna uyğun olaraq xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının ərazisində olarkən ölkə vətəndaşları ilə bərabər hüquqlardan istifadə etmələri ümummilli ideologiya ətrafında birləşməyə aparan vətənpərvərlik, Vətənə məhəbbət, öz torpağına bağlılıq, xalqın milli keçmişinə sahib olmaq və üzvi şəkildə inkişaf etmək hüquqlarını tanımaq kimi təsəvvürə gətirilir.

Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət dəstəyinin artırılmasına yönəlmiş vahid strategiyanın işlənib hazırlanması kimi

mühüm məsələnin həllinə zəmin yaradan hüquq prinsiplərini müəyyənləşdirmişdir.

1993-cü il iyun ayının 15-də xalqın tələbi ilə Ümummilli lider Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıtdı və bununla da ölkənin ictimai həyatında, o cümlədən dünya azərbaycanlıları ilə həmrəylik münasibətlərinin keyfiyyət və mahiyyətcə yeni tarixi mərhələsinin əsası qoyuldu.

Zaman göstərdi ki, Müstəqil Azərbaycan Respublikasının qurucusu, təcrübəli dövlət xadimi və siyasətçi Ümummilli lider Heydər Əliyevin öz xalqı qarşısında çoxşaxəli fəaliyyətində daha bir misilsiz tarixi xidmətlərindən biri onun dünya azərbaycanlılarının milli birliyinin ideologiyası olan Azərbaycançılığın yaradıcısı və təşkilatçısı kimi böyük nüfuz qazanmasıdır. Tarixi təcrübə göstərir ki, o bu şərəfli vəzifənin öhdəsindən böyük uğurla gəlmişdir. Onun müdrik siyasəti sayəsində Dünya Azərbaycanlıları ilə iş, milli dövlət quruculuğu fəaliyyəti xarici siyasətimizdə xüsusi yer tutdu. Bu strategiyanın konseptual əsası – dünya Azərbaycanlılarının Azərbaycan xalqının milli varlığının ayrılmaz hissəsi kimi dərk edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların vətəni sayılmasıdır. Onların milli əqidə və saf əməl birliyi zəminində, elmi əsaslarda formalaşması, lobbiçilik fəaliyyətinin perspektivi, Azərbaycançılıq ideologiyasının dövlət siyasəti səviyyəsində həyata keçirilməsi missiyası məhz Heydər Əliyevin nəhəng fəaliyyəti ilə bilavasitə bağlıdır.

Ümummilli lider Heydər Əliyevin xarici ölkələrə səfərlərinin proqramına bu ölkələrdə yaşayan azərbaycanlılarla görüşlərin daxil edilməsi, diaspor quruculuğu sahəsində mühüm qərarların qəbulu və onların icrası sayəsində dünya azərbaycanlılarının mütəşəkkilliyi, siyasi-mənəvi inteqrasiyası, ən nəhayət, təşkilatlanması daha intensiv xarakter aldı. Heydər Əliyevin sülhməramlı xarici siyasətinin uğurları Azərbaycan diasporunun formalaşması prosesinə güclü impuls vermişdir. Gərgin əmək, xalqına inamından irəli gələn qətiyyət və məsuliyyət, zəngin dövlətçilik təcrübəsi, siyasi məharət və müdriklik az bir zamanda ölkədə 1991–1993-cü illərdəki mövcud olan hərc-mərcliyin aradan qaldırılmasına, vətəndaş birliyinin və sabitliyin bərqərar olunmasına, müstəqil dövlət quruculuğunu həyata keçirməyə imkan verdi. Heydər Əliyev böyük qürur və təəssübkeşliklə milli mənliyin

əsas məsələ olduğunu bütün xalqa bəyan etdi: «Biz gərək milli mənliyimizi həmişə yüksək saxlayaq. Mənim üçün hər şeydən üstün mənim milli mənliyimdir. Milli mənliyim məni həmişə bütün çətin vəziyyətlərdən çıxarıb. Milli mənliyimə görə istədiyim yolla gedə bilmişəm, istədiyimə nail ola bilmişəm və xalqıma xidmət edə bilmişəm. Ona görə milli mənliyimizi gərək itirməyək». O, həmişə qeyd edirdi ki, vətənimizin, respublikanın taleyi hər bir azərbaycanlının taleyinə çevrilməlidir.

Heydər Əliyev Azərbaycan Respublikasının dünyaya inteqrasiyası, iqtisadi-mədəni inkişafı, müstəqilliyimizin möhkəmlənməsində əhəmiyyətli rol oynamış uğurlu və məhsuldar xarici səfərləri zamanı bu ölkələrdə yaşayan azərbaycanlılarla görüşlər keçirir, onların problemləri ilə maraqlanır, dəyərli tövsiyələrini verir, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin bu işə marağını artırır, azərbaycanlıları Azərbaycan Respublikasının ictimai-iqtisadi, mədəni həyatında fəal iştirak etməyə çağırırdı.

O, azərbaycanlıların həmrəyliyinə böyük ehtiramla yanaşırdı. 1997-ci ildə ABŞ-da rəsmi səfərdə olarkən demişdir: «Mən çox məmnunam ki, respublikamızın hüdudlarından kənarda, o cümlədən Amerika Birləşmiş Ştatlarında azərbaycanlılar artıq bir-birinə yaxınlaşırlar, bir yerə toplaşırlar və cəmiyyətlər qururlar».

Xarici ölkələrdə yaşayan azərbaycanlıların milli-mənəvi birliyinə təkan verən bu mühüm görüşlər, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin hər il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə əlaqədar Azərbaycan xalqına müraciətləri, bu münasibətlə respublikada və xaricdə keçirilən tədbirlər dövlət siyasətinin əsas problemi kimi, Azərbaycan diasporunun mütəşəkkil qüvvəyə çevrilməsində, lobbiçilik fəaliyyətinin prioritet istiqamətlərinin müəyyənləşməsində həlledici amil olmuşdur.

Dünya azərbaycanlılarının ümummilli liderinin yüksək nüfuz və dərin ehtiramla qarşılanması soydaşlarımızın Heydər Əliyev şəxsiyyətinə və onun dövlətçilik ideyalarına şəksiz inamı zəngin dövlətçilik fəaliyyətinin tərəfdaşı olan Azərbaycançılıq ideologiyası ətrafında ümummilli birliyə, əqidə və real həmrəyliyinə zəmin olmuşdur.

23 fevral 1994-cü ildə Böyük Britaniyada yaşayan azərbaycanlılarla görüşdə Heydər Əliyev demişdir: «Vətəndən kənarda yaşayan

soydaşlarımızın ürəkləri gərək daim Azərbaycanın nəbzi ilə vursun. Harada yaşamasından, vəziyyətinin ağır və çətinliyindən asılı olmayaraq, gərək hər kəs öz Ana Vətəni haqqında düşünsün. Azərbaycanlılar artıq bilirlər və daha çox bilməlidirlər ki, indi bizim, nəhayət, müstəqil dövlətimiz Azərbaycan Respublikası var, azərbaycanlılar üçün Ana Vətən var. Bu, müqəddəs Azərbaycan torpağıdır. Deməli, harada olursan-ol, hansı ölkədə yaşayırsan yaşa, ancaq Azərbaycan haqqında, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü haqqında, Azərbaycan xalqının bu günü və gələcəyi haqqında düşünməlisən».

İsveçrədə yaşayan soydaşlarımızla görüşdəki çıxışında Heydər Əliyev demişdir: «İndi müstəqil dövlətimizin olduğu bir vaxtda biz azərbaycanlılar həm dövlətimizin bu günü və gələcəyi haqqında, həm dünyada yaşayan bütün azərbaycanlılar barəsində düşünməliyik. Odur ki, məni bir azərbaycanlı kimi, Azərbaycan Respublikasının Prezidenti kimi, şübhəsiz, hər bir ölkədə yaşayan azərbaycanlı, onun həyatı, yaşayışı, vəziyyəti, durumu maraqlandırır».

Real həmrəyliyin, ilk növbədə, mənəviyyat, məfkurə birliyi olduğunu öz fəaliyyətində nümayiş etdirən Ümummilli lider Heydər Əliyev 1996-cı ilin iyul ayında Almaniya Federativ Respublikasına səfəri zamanı Bonn şəhərində bu ölkədə yaşayan azərbaycanlılarla keçirdiyi görüşdə söyləmişdir ki, «.... biz Azərbaycan Respublikasında vətəndaşlarımızı müstəqillik yolu ilə apararkən respublikamızın hüdudlarından kənarda yaşayan soydaşlarımız haqqında da düşünürük. Bu, bizim borcumuz, vəzifəmizdir, çünki Azərbaycan Respublikası indi təkcə respublikamızda yaşayan azərbaycanlılardan ibarət deyil. Azərbaycanlılar dünyanın bir çox ölkələrində, o cümlədən Avropanın digər ölkələrində, Almaniya Federativ Respublikasında da yaşayırlar. Dünyanın hər bir ölkəsində, hər bir şəhərində, guşəsində, kəndində yaşayan soydaşlarımız müstəqil dövlətimiz üçün, Azərbaycan Respublikası Prezidenti kimi, mənim üçün əziz vətəndaşımız, soydaşımız, həmvətənimizdir».

Qeyd olunduğu kimi, milli birliyin ideoloji əsası olan Azərbaycançılıq məhz Ümummilli lider Heydər Əliyevin intellektinin məhsuludur. Dünya Azərbaycanlılarının mənəvi birliyini, vətənə bağlılığını təmin edən bu ideologiyanın mühüm müddəaları Heydər Əliyevin «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan

xalqına müraciəti»ndə öz konseptual ifadəsini tapmışdır. Ümummilli liderin bu müraciətində milli birliyin təməl prinsipləri kimi, tarixi yaddaş və varisliyimizin qorunması, Ana dilinin inkişafı və tətbiqinin genişləndirilməsi və təkmilləşdirilməsi, mədəni identikliyin, etnoqrafik özünəməxsusluğun qorunub saxlanılması, milli əxlaq və mənəviyyatın hifz edilməsi, azərbaycanlıların ümummilli ideyaya sadiqliyi, siyasi-iqtisadi maraqların təminatı, mədəniyyətdə milli simanı saxlamaqla, dünya birliyinə inteqrasiyanın vacibliyi elmi əsaslarla işlənib hazırlanmışdır.

Heydər Əliyevin azərbaycanlıların mədəni irsinə göstərdiyi qayğı və diqqət xalqımızın milli mənlik və milli şüurunun inkişafında mühüm rol oynamışdır. Bir çox mədəniyyət xadiminin yubileylərinin keçirilməsi, xarici ölkələrdə Azərbaycan Respublikasının mədəniyyət günlərinin təşkili, «Kitabi-Dədə Qorqud»un 1300 illiyinin beynəlxalq səviyyədə qeyd olunması, dövlət dili haqqında tarixi fərman və qanunlar, təhsil islahatları, o cümlədən xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasında təhsil almaq hüququnun təsbiti, həmvətənlərimizin respublikada iqtisadi mənafeyinin təmin edilməsi Azərbaycan diasporunun da formalaşmasına mühüm təsir göstərmişdir.

Heydər Əliyevin siyasi təcrübəsi böyük siyasətçiyə xas təmkinliyi, eyni zamanda qətiyyəti və əzmi Dünya azərbaycanlılarını Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ideyası ətrafında birləşdirmiş, onlarda Vətən eşqi, milli təəssübkeşlik hissi yaratmışdır. Azərbaycan diasporu–böyük yolun başlanğıcı – müstəqilliyin ilk illərindən etibarən azərbaycanlıların təşkilatlanması məsələsi, ilk növbədə, ideoloji və tarixi əhəmiyyət daşıyan problemlərdən biridir.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, tarixi vətənlə diaspor arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətlərinin gücləndirilməsi və daha da təkmilləşdirilməsi ilə milli əhəmiyyət kəsb edən problemlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında 2001-ci ilin may ayının 23-də Ümummilli lider

Heydər Əliyevin məlum sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətlənmişdir.

Həmin ilin noyabr ayının 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə, diasporla işin keyfiyyətinə yeni mərhələ kimi daxil olmuşdur.

2001-ci il noyabrın 9-da qurultayın ilk iş günündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev geniş nitq söyləmişdir. O, Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi yolunda həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr barədə ətraflı bəhs etmişdir. Prezident Heydər Əliyev dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, Azərbaycan dilinin və milli mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi haqqında öz fikirlərini söyləmişdir.

Heydər Əliyevin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyul 2001-ci il tarixdə verdiyi Fərman onun Azərbaycan dilinə göstərdiyi müstəsna qayğının təcəssümüdür.

Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycan Respublikası dövlətinin ictimai-siyasi həyatında tarixi hadisəyə çevrilmişdir. Heydər Əliyev öz çıxışında qeyd etdi ki, bu gün müstəqil Azərbaycan Respublikasında yeridilən müdrik daxili və xarici siyasət nəticəsində o, dünya birliyində layiqli yerini tutmuş, beynəlxalq aləmdə tanınmış, ölkənin iqtisadi və mənəvi-intellektual imkanları dünyaya açılmış, beynəlxalq sistemə inteqrasiya olunmuşdur.

Biz indi böyük məmnuniyyətlə qeyd edə bilərik ki, dünyanın bir çox ölkələrində – Avropada, Cənubi və Şimali Amerika ölkələrində artıq böyük Azərbaycan icmaları yaranmışdır. Son illər bu icmalar getgedə təşkilatlanır, genişlənir və azərbaycanlıların yaşadıqları ölkələrdə onların birliyini, həmrəyliyini təmin edir.

Bu qurultay bir daha təsdiqləmişdir ki, böyük dövlət xadimi Heydər Əliyevin müəllifi olduğu Azərbaycançılıq ideologiyası bu gün dünyanın müxtəlif guşələrində yaşayan həmvətənlərimiz üçün milli birliyin və həmrəyliyin əsas konsepsiyası kimi qəbul olunmaqdadır.

Qurultayın bu tövsiyəsi müstəqil Azərbaycan Respublikası dövlətinin çiçəklənməsinə və möhkəmlənməsinə, bütün dünya azərbaycanlılarının öz tarixi vətəninə bağlılığına və milli özünüdərkinə təkan verən mühüm amillərdəndir.

Ümummilli lider təkcə milli birliyə necə nail olmağın yolunu deyil, eyni zamanda onu qorumağın yollarını da göstərmişdir. Heydər Əliyev qurultaydakı nitqində: «Sizdən çox şey tələb olunmur. Sadəcə, siz unutmamalısınız ki, dünyada Müstəqil Azərbaycan dövləti var. Unutmamalısınız ki, bu torpaq bütün azərbaycanlıların doğma torpağıdır. Unutmamalısınız ki, Azərbaycan Dövləti mümkün olan çərçivədə hər birinizin hüquqlarınızın qorunması üçün lazımi işlər görəcəkdir və bilməlisiniz ki, biz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar haqqında daim düşünürük, maraqlanırıq, hər bir həmvətənimizin yaxşı, firavan yaşamasını istəyirik, yaşadığı ölkədə özünəlayiq yer tutmasını istəyirik» – deyərək öz fikirlərini açıq şəkildə bildirmişdir.

Ümummilli lider Heydər Əliyevin bu fikirləri dünya azərbaycanlılarının təşkilatlanması prosesinin tarixi zərurət olduğunu göstərirdi.

Beləliklə, xalqımızın mənəvi birliyi, Azərbaycançılıq ideyaları Dünya Azərbaycanlıların, I qurultayında öz parlaq təcəssümünü tapmışdır. Xarici ölkələrdə yaşayan bir çox həmvətənlərimizin iştirak etdiyi bu qurultayda Ümummilli lider Heydər Əliyevin proqram xarakterli çıxışı xarici ölkələrdə Azərbaycan diasporunun formalaşmasında, bütövlükdə, milli-tarixi proseslərin inkişafında keyfiyyətcə yeni mərhələ açmışdır.

Qurultayın uğurlu keçməsi deməyə əsas verir ki, dünya azərbaycanlılarının əsl milli özünüdərk və milli identiklik nəzəriyyəsi olan Azərbaycançılıq məfkurəsi sayəsində diasporumuzun müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında sıx birləşməsi prosesi başlanmışdır.

Bu gün demək mümkündür ki, Dünya Azərbaycanlılarının I Qurultayından sonra xaricdə yaşayan soydaşlarımızla əlaqələr daha da güclənmiş, onların tarixi vətənə bağlılığının möhkəmlənməsi diaspor quruculuğunun, milli dövlətçiliyimizin inkişafında mühüm amilə çevrilmişdir. Bütün ölkələrdə olduğu kimi, bu gün Azərbaycan Respublikasının dövlət siyasətində diaspor məsələlərinə xüsusi önəm verilir.

Bu kontekstdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında» 2002-ci il 5 iyul tarixli Fərmanı Azərbaycan Dövlətinin fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd olmuşdur. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan vermişdir.

2002-ci il dekabr ayının 27-də qəbul edilmiş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 21 fevral 2003-cü il tarixli fərmanı ilə qüvvəyə minmiş «Xaricdə yaşayan azərbaycanlılarla bağlı Dövlət siyasəti haqqında» Azərbaycan Respublikasının qanunu XXI əsrdə xaricdə yaşayan soydaşlarımız və həmvətənlərimiz qarşısında çox geniş perspektivlər açır və onların ölkəmizin milli mənafeləri ətrafında daha sıx birləşdirilməsini nəzərdə tutur. Bu qanun Azərbaycan diasporunun inkişafına dövlət qayğısının daha da artırılması, bu sahədə ciddi nailiyyətlər əldə olunması məqsədilə vahid strategiyanın hazırlanması kimi mühüm məsələlərin həllinə imkan yaradan hüquqi prinsipləri müəyyənləşdirmişdir. «Xaricdə yaşayan azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında» Azərbaycan Respublikası qanununun qəbulu bir daha təsdiq edir ki, dünya azərbaycanlılarının milli birliyinin və tərəqqisinin təminatçısı Azərbaycan Respublikasıdır.

Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin dünya azərbaycanlılarının təşkilatlanması, diaspor quruculuğu sahəsində gördüyü işlər həmvətənlərimizin mənəvi-ideoloji birliyinin artmasına ciddi təkan vermişdir. Komitə müxtəlif ölkələrdə fəaliyyət göstərən Azərbaycan icmaları və cəmiyyətləri ilə mütəmadi görüşlər keçirir, diaspor nümayəndələri ilə söhbətlər aparır.

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyevin bu sahədə işini uğurla davam etdirir. Onun həyata keçirdiyi siyasət diaspor quruculuğu işinin daha da təkmilləşdirilməsini, Dünya Azərbaycanlıları arasında ideya birliyinin möhkəmləndirilməsini özündə ehtiva edir.

Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin 2006-cı il fevral ayının 8-də imzaladığı sərəncama uyğun olaraq mart ayının 16-da Bakıda Dünya Azərbaycanlılarının II qurultayı keçirildi. Bu qurultayda dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların daha da sıx birləşməsi və Azərbaycan Respublikasının daha geniş miqyasda təbliği məsələləri müzakirə olunaraq müvafiq qərarlar qəbul olundu. Beş ildən sonra – yəni 2011-ci ilin iyul ayında Bakı şəhərində Dünya Azərbaycanlılarının III qurultayı keçirilmişdir. Qurultaylarda dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, xarici ölkələrdə yaşayan azərbaycanlı elm adamları, ictimai xadimlər, mədəniyyət xadimləri, iş adamları iştirak etmişlər.

Hazırda 50 milyona yaxın dünya azərbaycanlılarının 10 milyondan çoxu öz Ana vətənindən kənarda yaşayır.

Dünyanın 5 qitəsində məskunlaşan soydaşlarımızın siyasi, iqtisadi və sosial-mədəni fəaliyyəti yaşadıqları ölkələr, oradakı şərait, mənəvi dəyərlər kimi müxtəlifdir.

Hazırda planetin müxtəlif bölgələrində Azərbaycan diasporları mövcuddur. Azərbaycanlılar Şimali və Cənubi Amerika qitəsinin Şimal, Mərkəz və Cənub hissəsində daha çox məskunlaşmışlar. Onların sayı Birləşmiş Ştatlarda bir milyona çatır. Amerika qitəsinin digər ölkələrində – Argentina, Braziliya, Kanada və Meksikada da soydaşlarımız məskunlaşmışlar.

Azərbaycan diasporunun yayılma coğrafiyası və say tərkibinə görə geniş olduğu ikinci qitə Avropadır. Son zamanların statistik göstəricilərinə əsasən, Avropa Azərbaycanlılarının sayı Türkiyədə 3 milyona, Rusiya Federasiyasında 2,5 milyona, Ukraynada 500 minə, İsveçdə 30 minə, Almaniya Federativ Respublikasında 100 minə, Niderlandda 20 minə yaxındır.

Niderland Krallığı, Belçika, Danimarka, İsveçrə və AFR-da yaşayan soydaşlarımızın əksəriyyəti Türkiyədən köçmüş azərbaycanlılardır. Böyük Britaniya, Çexiya, Slovakiya, Polşa, Avstriya, Estoniya, Belarus, RF, Ukrayna, Moldova və Fransadakı soydaşlarımız isə İran İslam Respublikası və Azərbaycan Respublikasından köçənlərdir.

Azərbaycan diasporunun üçüncü böyük hissəsi Asiya qitəsində məskunlaşmışdır. Onların bir çoxu Banqladeş, Hindistan, Əfqanıstan,

Pakistan, İordaniya və Orta Asiya respublikalarında, İndoneziya, Yəmən Ərəb Respublikası, Yəmən Demokratik Respublikası, Çin, Birləşmiş Ərəb Əmirliklərində, Oman, Səudiyyə Ərəbistanı və Suriyada, İraqda məskunlaşmışlar.

Afrika qitəsində məskunlaşmış azərbaycanlıların Misir, Əlcəzair və Sudanda yaşadığına dair məlumatlar vardır. Avstraliya qitəsində isə təxminən 8 minə yaxın azərbaycanlının yaşadığı barədə məlumatlar var.

Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan millətinin tarixi, mənəvi-əxlaqi və mədəni ənənələri zəminində azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcək birlik ideyası durur. Azərbaycançılıq ideyası müstəqillik və milli eyniyyət, gələcək nəsillər üçün layiqli həyatın və şəxsi azadlığını bariz simvollarına çevriləcəkdir. Bu gün Azərbaycan Respublikasında Azərbaycançılığın bir milli ideologiya kimi formalaşması artıq bir reallıqdır. Azərbaycan xalqının çox böyük potensial təbii ehtiyatlarının və ölkəni tərəqqiyə, firavanlığa doğru aparmağa qadir siyasi elitanın olması onu göstərir ki, Heydər Əliyevin müəllifi olduğu müasir Azərbaycançılıq ideologiyası Azərbaycanın milli dövlətçilik tarixinin gələcəyində də milli ideologiyanın əsası olaraq qalacaq, diasporumuzun sonrakı inkişafında müstəsna tarixi rolunu oynayacaqdır.

6.6. Azərbaycan Respublikası yeni informasiya məkanında

İnformasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı sayəsində yaşadığımız dünyada yeni reallıqlar yaranmış, dövlətlər arasında sərhədlər «silinmiş», xalqlar arasında məsafə xeyli «kiçilmişdir». Peyk və internet şəbəkəsi fərdlər, xalqlar, dövlətlər arasında əlaqələrin intensivləşməsində, keyfiyyətcə yaxşılaşmasında geniş imkanlar açmışdır. Hazırda Yer kürəsi vahid informasiya məkanına çevrilməkdədir. İnformasiya mərkəzləri və agentliklərinin yaydığı məlumatlar sərhəd tanımır. Təbii ki, bu, müsbət dəyişiklik və tərəqqidir. Əlbəttə, belə tərəqqi müxtəlif problemləri, o cümlədən informasiya təhlükəsizliyinin təmin edilməsi zərurətini doğurur.

Son vaxtlara qədər dövlətlər hesab edirdi ki, təhlükəsizliyin dəyişməyən təminatçısı hərbi sahədir. Artıq get-gedə aydın olur ki, bu

sahənin imkanları məhdudlaşır, əvəzində informasiya sahəsi dünya proseslərinə təsir imkanlarına görə önə keçir. İnformasiya ümumi mənada dövlətlərin, konkret mənada isə dünyanın idarəçiliyində əsas alətə çevrilməkdədir. Düşünməyə belə bir əsas vardır ki, bu sahənin əhəmiyyətinin sürətlə artması XXI əsrdə dövlətlərarası münasibətlərin formalaşması və tənzimlənməsində, bəşəriyyəti hədələyən təhdidlərin qarşısının vaxtında alınmasında həlledici amilə çevrilmişdir. Təsadüfi deyil ki, hələ ötən əsrin ortalarında R.Reyqan ABŞ Prezidenti seçilən kimi dörd başlıca komponentdən ibarət yeni milli təhlükəsizlik strategiyasını müəyyənləşdirmişdi: 1) diplomatiya; 2) iqtisadiyyat; 3) hərbi sahə; 4) informasiya. ABŞ Prezidenti R.Reyqanın strategiyasında yeni olan da məhz informasiya məsələsi idi. Elə həmin dövrdə məşhur Corc Soros SSRİ-yə qarşı Reyqan doktrinasını gerçəkləşdirmək üçün bu dövlətin informasiya məkanına girməyə cəhd göstərmişdi. İndi isə artıq keçmiş SSRİ məkanında C.Sorosun 30-dan çox «açıq institutu» fəaliyyət göstərir. 1996-cı ildə B.Klintonun göstərişi ilə ABŞ-da informasiya təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi dövlət komissiyası yaradılmışdı. ABŞ-da informasiya sahəsinə diqqət artdıqca, xərclər də sürətlə yüksəlir. 1980-ci ildə informasiya texnologiyalarına 8 milyard dollar vəsait ayrıldığı halda, 1994-cü ildə bu rəqəm 25 milyard dolları keçmiş, hazırda isə iki dəfədən çox artmışdır.

Son vaxtlar Rusiya Federasiyası da informasiya sahəsinə xüsusi əhəmiyyət verir. Bu ölkədə 2000-ci ilin sentyabrında informasiya təhlükəsizliyi ilə bağlı doktrina qəbul edilmiş, Dövlət Duması informasiya təhlükəsizliyinin qanunvericilik bazasının yaradılması istiqamətində ciddi işlər görmüşdür. İndi ABŞ və Rusiya Federasiyası bu sahədə liderliyi əldə saxlayırlar. ABŞ-ın kosmosda 420, RF-nin isə 160 müvafiq peyki işləyir.

İnformasiya təhlükəsizliyi barədə söhbət açmaqda məqsəd informasiyanın, kütləvi informasiya vasitələrinin əhəmiyyətini nəzərə çarpdırmaqdır. İndi heç bir dövlət öz sərhədləri daxilində məhdudlaşıb qalmır. Müasir dünyada ölkələri demokratik ideyalardan və baxışlardan təcrid edən «dəmir pərdələri» təsəvvür etmək çətindir. İnformasiyanın imkanları problemləri daha tez həll etməyə kömək edir. Bu gün dünyada güclülərin siyasətini formalaşdıran da informasiyadır. «İnformasiyaya sahib olan dünyaya sahib olacaqdır» kəlamını söyləyən aqil tamamilə haqlı imiş.

Akademik Ramiz Mehdiyevin «Demokratiya yolunda: irs haqqında düşünərkən» monoqrafiyasında yazdığı kimi, informasiya-kommunikasiya texnologiyaları sayəsində yeni minillikdə dünyada siyasi proses daha intensiv olmuşdur. Bu baxımdan, təxminən yarıməsrlik tarix ərzində güclü kütləvi informasiya vasitəsinə çevrilmiş internetin – ümumdünya hörümçək torunun rolu günbəgün artır. Müasir dövrdə bəşəriyyətin inkişafı maye-kristallik ekran arxasındakı virtual məkanda baş verir. Müasir informasiya kommunikasiyaları çərçivəsində demokratiya da yeni məna kəsb etmişdir. Bununla belə, o, yeni informasiya müdaxiləsi üçün də zəmin yaratmışdır. Buna misal olaraq, siyasi leksikonda möhkəm yer tutmuş, «şəkillərə» əsaslanan təfəkkür tərzinin formalaşmasına yönəlmiş «CNN effekti»ni xatırlatmaq kifayətdir. Bu şirkətin fasiləsiz informasiya konsepsiyası hadisə yerlərindən təsvirlərin real zaman rejimində verilməsindən ibarətdir və informasiyanın ötürülməsində saxtalaşdırmaların istisna olunmasını nəzərdə tutur. Lakin buna şübhə ilə yanaşanların fikri də diqqəti cəlb edir. Akademik Ramiz Mehdiyev bununla bağlı amerikalı jurnalist və yazıçı Tyeri Meysanın sözlərini sitat gətirir. Amerikalı müəllif yazır ki, indi «CNN» kanalı Vaşinqtonla qırılmaz tellərlə bağlıdır, onun ehtimal edilən rəqibləri isə Amerika ordusunun hücumlarına məruz qalır. Fasiləsiz informasiya ictimai rəyə təsirin yeni metoduna çevrilmişdir, buna baxmayaraq, biz nəinki azadlığımızı itirməkdən şikayətlənmirik, əksinə, bu manipulyasiyada məmnunluq tapır və qismən özümüz də ona görə məsuliyyət daşıyırıq [306, 187-188].

Qloballaşma şəraitində insanların əksəriyyəti üçün gerçəkliyin xeyli dərəcədə kənardan, KİV-lərin köməyi ilə qəbul etdirilmiş və qəbul etdirilməkdə olan postulatlaşdırılmış qavrayışı səciyyəvidir. İnternet informasiyasının istənilən növlərindən istifadə imkanlarını genişləndirməklə bərabər, bu informasiyanın süzgəcdən keçirilməsi problemini də yaradır.

İnformasiya hökumətlərin sonrakı addımlarını və tədbirlərini formalaşdırır. Əslində, ölkələrin özləri də bu və ya digər informasiyanın yayılmasında maraqlıdır. Məsələn, Azərbaycan Respublikası Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, 20 Yanvar faciəsi və Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, erməni təbliğat maşınının yalanlarının ifşa olunmasına,

iqtisadi uğurların təbliğinə böyük əhəmiyyət verir. Bu iş ikili standartların hökm sürdüyü dünyada ardıcıl və məqsədyönlü şəkildə, özü də «Qərb dilində, Avropa dilində» davam etdirilməlidir.

Azərbaycan Respublikası həqiqi, qərəzsiz və obyektiv informasiyanın tərəfdarıdır. Qərəzsizlik və aşkarlıq müasir media məkanının vacib aspekti olmalıdır. Yeri gəlmişkən, bu barədə Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatı (OANA) İcraiyyə Komitəsinin 2008-ci ilin sentyabrında AzərTAC-ın ev sahibliyi ilə Bakıda «Qloballaşan dünyada informasiya hamı üçün» mövzusunda keçirilmiş 30-cu iclasında da geniş danışılaraq bildirilmişdir ki, bu mühüm amil etimada əsaslanan beynəlxalq ab-havanın yaranmasına kömək edir. Unutmamalıyıq ki, Yer kürəsinin müəyyən hissəsi hələ də etnik-ərazi münaqişələrinin məngənəsindədir. Bu münaqişələrin həllinin ləngiməsinin əsas səbəbi, adətən, media strukturlarının formalaşdırdığı kütləvi şüur və ictimai rəydir. Siyasətçilər və mühüm məsələləri həll edənlər çox vaxt informasiya siyasətinin girovlarına çevrilir, bu siyasət isə bəzən çox şeyi həll edir. Belə məsələlərə nəzakətlə yanaşmaq çox vacibdir. Bu, təkcə real və düzgün mövqeyin təcəssümü deyil, həm də bu və ya digər regionun xüsusiyyətlərini başa düşməyin təcəssümüdür [289, 53].

Təəssüf ki, xüsusilə ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan Respublikası bu sahədə böyük çətinliklərlə üzləşmiş, informasiya blokadasına alınmışdı. Bizi istəməyən, regionda öz maraqları olan bəzi qüvvələr isə bu vəziyyətdən yararlanmağa, dövlətçiliyimizə ziyan vurmağa çalışırdılar. Ümummilli lider Heydər Əliyev bununla əlaqədar müsahibələrindən birində vurğulamışdır ki, mən dəfələrlə bəyan etmişəm və indi də deyirəm ki, müstəqil Azərbaycan Respublikası müxtəlif dövlətlərin mənafeləri ilə oynamır, o, öz xarici siyasətində «soyuq müharibə» dövründən miras qalmış metodları tətbiq etməyəcəkdir. Suveren respublika heç bir ayrı dövləti yeni «böyük qardaş» rolunda görmək istəmir, lakin ona xeyirxahlıqla yanaşanların, əməkdaşlığın əsarətli rejimini ona zorla qəbul etdirməyənlərin və bərabərhüquqlu, qarşılıqlı surətdə faydalı şərtlər seçənlərin, nəhayət, Ermənistan–Azərbaycan Dağlıq Qarabaq münaqişəsindən Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında süni surətdə yaradılmış qarşıdurmanı sərtləşdirmək üçün sui-istifadə edənlərlə deyil, bu mü-

naqişənin tezliklə ədalətli şəkildə nizama salınmasına həvəs göstərənlərin hamısı ilə tərəfdaşlığa hazırdır [35, 217].

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası sürətləndikcə, iqtisadi qüdrəti artdıqca «Azərbaycan» kəlməsi müxtəlif ölkələrin KİV-lərində daha tez-tez işlənir. Lakin inteqrasiya, iqtisadi qüdrət asanlıqla əldə edilməmişdir. Bundan ötrü, ilk növbədə, dövlətçilik bərqərar olunmalı, möhkəmləndirilməli idi.

Ölkənin inkişafının strateji xəttini müasir müstəqil Azərbaycan Respublikası dövlətinin banisi, Ulu öndər Heydər Əliyev müəyyənləşdirmişdir. Hamının yaxşı yadındadır: ilk dövrlərdə milli ideoloji xəttin müəyyən edilməsi zamanı müxtəlif təkliflər eşidilirdi. Türkçülüyə istinad etmək, dinə söykənmək və digər prinsipləri qəbul etmək təklifi ilə çıxış edənlər var idi. Amma bu təkliflərin hər biri yarımçıq idi, mükəmməl deyildi. Hansısa elementin çatışmaması və yarımçıq tezis inkişafa, ideoloji xəttə əngəl olardı. Bu prinsipləri tamamlamaq, inkişaf etdirmək və qətiləşdirmək lazım idi. Məhz Ümummilli lider Heydər Əliyev bunu etdi və Azərbaycan Respublikası dövlətinin ideoloji xəttinin aşağıdakı təməl prinsiplərini müəyyənləşdirdi: birincisi, dövlətçilik. Yeni Azərbaycan Partiyasının yaranmasının 6 illiyi ilə bağlı keçirilən tədbirdə çıxış edən Ulu öndər dövlətçiliyin nə olduğunu və nəyə görə milli ideologiyada bu amilə birinci yer verildiyini çox aydın şəkildə ifadə etmişdir: xalq üçün birinci onun dövlətidir, əgər dövlət yoxdursa, hansı ideologiya və prinsipdən danışmaq olar?

Ümummilli lider təməl prinsiplərində sonrakı yerdə qanunçuluğu müəyyən etmişdir: dövlət varsa, qanun olmalıdır. Əgər qanun yoxdursa, dövlət mövcud olmayacaq. Dövlət qanuna söykənməlidir. Dövlətin söykəndiyi qanun onun idarə edilməsinin əsas xətlərini və prinsiplərini müəyyən edir. Bu qanunlar olmasa, idarəçilik olmayacaq. İdarəçiliksiz isə dövlətin gələcəyi təhlükə altına düşər.

Müdrik siyasət xadiminin müəyyən etdiyi təməl prinsiplərindən biri də varislikdir. Varislik dövlətin idarəçiliyində, siyasətdə, iqtisadiyyatda və ideologiyada prinsipial olaraq əldə edilənlərin gələcək nəsillərə ötürülməsidir. Varislik mexaniki deyil, yaradıcı şəkildə, təkamül yolu ilə baş verir. Yaradıcı varislik nəticəsində bu gün Azərbaycan Respublikası Heydər Əliyevin müəyyən etdiyi təməl üzərində irəliyə doğru irəliləməkdədir. Yaradıcı varisliyin nəticəsidir ki, Azər-

baycan Respublikası dövləti özünün ideologiyasında, iqtisadiyyatında keçmişə söykənərək, gələcəyə doğru inkişaf etməkdədir. Bəzən varislik deyəndə, kimlərsə hakimiyyət varisliyini önə çəkmək istəyir. Ancaq bu, hakimiyyət varisliyi, fərdi şəkildə varislik deyildir. Bu, hakimiyyətin ideoloji, siyasi, iqtisadi baxımdan gələcək nəsillərə ötürülməsidir.

Heydər Əliyevin müəyyən etdiyi digər prinsip Azərbaycançılıqdır. Ümummilli lider çox haqlı olaraq deyirdi ki, Azərbaycançılıq söykəndiyimiz təməl prinsiplərinin əsasıdır. Hələ 1992-ci ildə YAP-ın proqramı qəbul edilərkən Heydər Əliyev Azərbaycançılığı vacib məram kimi göstərmişdir. İndi Azərbaycançılıq dünyada yaşayan 50 milyon azərbaycanlını vahid ideya ətrafında birləşdirir, bütün dünya azərbaycanlılarının, Azərbaycan Respublikasında yaşayan bütün xalqların və Azərbaycan Respublikası dövlətinin söykəndiyi əsas təməl prinsiplərindən biridir. Azərbaycan xalqına düşmən olan Ermənistan bütün dünya ermənilərini erməni kilsəsi ətrafında birləşdirmişdir. Biz isə bütün dünyada olan azərbaycanlıları Azərbaycançılıq ideyası altında birləşdirmişik.

Azərbaycan Respublikası dövlətinin çox vacib təməl prinsiplərindən biri də vətəndaş həmrəyliyidir. Məhz Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan Respublikasında vətəndaş sülhünə nail olunmuşdur. Onun ölkədə vətəndaş qarşıdurmasını aradan qaldırmaq istiqamətində gördüyü tədbirlər, dövlət çevrilişi cəhdlərinin qarşısını alması, silahlı yolla hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyması və s. vətəndaş sülhünə yol açmışdır. Vətəndaş həmrəyliyi ölkəmiz üçün daimi prinsipdir. Çünki bu, bizim hamımızı birləşdirən amillərdən biridir.

Heydər Əliyevin müəyyən etdiyi digər bir prinsip isə sosial ədalətdir. Cəmiyyətdə sosial ədalət olmasa, qarşıdurma qaçılmazdır. Bütün cəmiyyətlərin tarixi göstərir ki, ədalət prinsipi pozulduqda qarşıdurma meyilləri güclənir. Bu isə xaosa və anarxiyaya gətirib çıxara bilər. Müdriklərdən biri deyirdi ki, ən yaxşı dövlət o dövlətdir ki, orada nə yoxsul, nə də həddən artıq varlı vətəndaşlar var [306, 31]. Ədalət prinsipinin təmin olunması islahatlardan keçir. Davamlı islahatlar, sürətli inkişaf yolu, cəmiyyətdə insanların rifah halının yaxşılaşdırılması fonunda sosial ədalətin təmin olunması siyasi və iqtisadi vasitələrlə bu gün ölkəmizdə uğurla gerçəkləşir.

Müasir müstəqil Azərbaycan Respublikası dövləti yeni informasiya məkanında məhz bu meyarlar əsasında möhkəmlənir, nüfuz qazanır, beynəlxalq münasibətlərə töhfələr verir. Akademik Ramiz Mehdiyevin vurğuladığı kimi, Azərbaycan Respublikasında Heydər Əliyevin müəyyən etdiyi ideoloji prinsiplərdən kənarlaşmaq qeyri-mümkündür. Necə ki, Türkiyədə heç bir siyasi dairə Atatürkün müəyyənləşdirdiyi prinsiplərdən imtina edə bilməz, ABŞ öz banilərinin müəyyən etdiyi Konstitusiya prinsiplərindən uzaqlaşa bilməz, Böyük Britaniya tarixi ənənələrinin ziddinə gedə bilməz, Yaponiya tarixi ənənələrindən kənara çıxaraq ölkəni başqa istiqamətə yönəldə bilməz, Azərbaycan Respublikasında da Heydər Əliyevin müəyyən etdiyi təməl prinsiplərindən kənara çıxıla bilməz.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu prinsiplərə sadiqdir. Məhz bu sadiqlik, Ümummilli liderin müəyyənləşdirdiyi siyasətin davam etdirilməsi Azərbaycan Respublikasına uğur qazandırmış, onu dünyanın nüfuzlu KİV-lərinin diqqət obyektinə çevirmişdir. İnamla demək olar ki, bu gün Azərbaycan Respublikası informasiya blokadasını yararaq, yeniləşmiş dünya informasiya məkanına daxil olmuşdur və erməni təbliğatına qarşı qətiyyətlə mübarizə aparır. Məlumdur ki, erməni təbliğat maşını yalan və iftira üzərində qurulan bir mexanizmdir. Bu gün ermənilər uydurma «erməni soyqırımı» haqqında danışır, Azərbaycan Respublikası isə müxtəlif vasitələrlə dünya birliyinə Xocalı soyqırımı, azərbaycanlılara qarşı törədilən vəhşiliklər barədə həqiqətləri çatdırır. 1992-ci ildə Xocalıda ermənilər tərəfindən törədilən vəhşiliklərin soyqırımı olması artıq heç kimdə şübhə doğurmur.

Tam qətiyyətlə deyə bilərik ki, Azərbaycan Respublikasının yeni informasiya məkanına daxil olması, onun dünyada tanıdılması, ermənilərin güclü təbliğat maşınının və ondan da güclü lobbisinin məkrli səyləri sayəsində düşdüyü informasiya blokadasından çıxarılması məhz Heydər Əliyevin səyləri ilə mümkün olmuşdur. Milli Lider 1993-cü ildə Prezident kimi özünün ilk xarici səfərini Fransaya etmişdi və bu, təsadüfi deyildi. O, dekabrın 21-də Parisdə mətbuat konfransında demişdir: «Mən burada olarkən daha çox yəqin etdim ki, Azərbaycan Respublikası ilə Fransa arasında əlaqələr son dərəcə zəif olmuşdur, Fransada Azərbaycan Respublikası barəsində məlumat olduqca azdır.

Bəzən qeyri-obyektiv məlumat ölkəmiz, Azərbaycan Respublikası dövlətinin tədbirləri barədə yalan-yanlış təsəvvür yaradır. Buna görə də hesab edirəm ki, Fransaya səfər iki ölkənin rəhbərləri arasında sıx qarşılıqlı əlaqələr, ikitərəfli münasibətlərin inkişafı üçün bünövrə yaratmaqla yanaşı, Fransada Azərbaycan Respublikasının daha yaxşı təqdim olunması mənasında böyük əhəmiyyətə malikdir. Mən belə düşünürəm ki, bu günlər ərzində biz bunu etməyə müvəffəq olduq» [9, 293].

Bununla bağlı, Fransanın Azərbaycan Respublikasındakı ilk səfiri cənab Jan Perrənin 1994-cü il iyulun 14-də AzərTAC-ın müxbirinə müsahibəsində dediyi sözləri də xatırlatmaq istərdim: «Açığını deyim ki, Azərbaycanı Fransaya, sözün əsl mənasında, Heydər Əliyev tanıtdı. Onun Fransaya səfərinə qədər bizim ölkədəki ermənipərəst qüvvələr Azərbaycan əleyhinə təbliğatları ilə müəyyən məqsədlərə çatmağa çalışırdılar... Prezident Heydər Əliyevin Fransaya səfəri hadisələri öz məcrasına yönəltdi. Onun bizim ölkədəki çıxışları, verdiyi bəyanatlar Azərbaycanın siyasətini və regiondakı siyasi vəziyyəti düzgün qiymətləndirməyə imkan yaratdı. Azərbaycan Fransa üçün daha anlaşıqlı, daha yaxın oldu. İndi Fransadakı erməni azlığı bilir ki, qarşıdurma mənasızdır, ərazi dəyişikliyi baş tutan sövda deyildir» [157, 217].

Sonralar hətta düşmənlərimiz də etiraf etməyə məcbur olmuşlar ki, Heydər Əliyevin bu sahədə fəaliyyəti öz bəhrəsini vermişdir. Bədnam «Daşnaksutyun» partiyasının liderlərindən biri G.Kirakosyan demişdi ki, Heydər Əliyev Ermənistanla yanaşı, dünyada erməni lobbisini də sarsıtdı.

Həqiqətən də, Heydər Əliyev bu sahədə o vaxt heç kəsin – nə siyasətçilərin, nə təbliğat qurumlarının, nə də kütləvi informasiya vasitələrinin görə bilmədiyi işi gördü. Ümummilli liderin sayəsində Azərbaycan Respublikası dünya informasiya məkanına, necə deyərlər, daimi qeydiyyata düşmüş və layiqli yerini tutmuşdur.

Bu gün Azərbaycan Respublikasının uğurlarından yazan əcnəbi jurnalistlər yekdilliklə etiraf edirlər ki, əgər Azərbaycan Respublikası təhlükəsiz bir regionda yerləşsəydi, o, şübhəsiz, daha böyük uğurlar qazanardı. Möhkəm daxili sabitlik və təhlükəsizlik, yüksək səviyyəli dövlət idarəçiliyi, dünyəvi inkişaf xətti və Qərbə inteqrasiya Azərbaycanın uğurlarını təmin edən əsas amillərdir. Bir neçə il ardıcıl surətdə

dünyada ən böyük iqtisadi artıma nail olmuş Azərbaycan Respublikasında son altı ildə 840 min iş yerinin açılması, yoxsulluğun səviyyəsinin sürətlə azalaraq təqribən 49 faizdən 11 faizə düşməsi beynəlxalq mətbuatda dərc olunan materiallarda xüsusi vurğulanır. Eyni zamanda bildirilir ki, Azərbaycan Respublikası Qərbin enerji təhlükəsizliyinə böyük töhfə verir.

Təkcə mətbuat deyil, beynəlxalq maliyyə qurumları da Azərbaycan Respublikasında iqtisadi inkişaf sahəsində görülən işləri yüksək qiymətləndirir. Dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycanda hətta böhran ilində – 2009-cu ildə də uğurlar qazanılmış, bütün infrastruktur layihələri, sosial proqramlar icra edilmişdir. Ötən ilin də yekunlarına görə, Azərbaycan Respublikası dünyada ən sürətlə inkişaf edən ölkələr sırasında olmuşdur. 2009-cu ildə Azərbaycan Respublikasında ümumi daxili məhsul 9,3 faiz, sənaye istehsalı 8,6 faiz, kənd təsərrüfatı 3,5 faiz artmış, inflyasiyanın səviyyəsi 1,5 faiz olmuşdur. Artıq Azərbaycan Respublikası xaricdən sərmayə alan ölkədən sərmayə yatıran ölkəyə çevrilmişdir. Son bir ildə ölkəmizə 9,2 milyard dollar sərmayə qoyulmuşdur ki, bunun da 7,3 milyardı daxili sərmayələrdir. Hazırda Azərbaycan Respublikasının valyuta ehtiyatları 28 milyard dollardan çoxdur. Bu uğurlar dünya informasiya məkanında inkişafın Azərbaycan modeli kimi qiymətləndirilir, ölkə təcrübəsinin öyrənilməsindən yazılır.

Əcnəbi jurnalistlər ölkəmizdən yazarkən dövlət başçısının şəxsiyyətindən, dövlətçiliyin inkişafındakı rolundan da bəhs edirlər. ABŞ-da çıxan «Fortune» qəzeti yazır: ««İlham Əliyevin fəaliyyəti göstərir ki, o, ölkənin inkişafında, əhalinin təhsil səviyyəsinin yüksəldilməsində, ölkəyə Qərb həyat tərzinin gətirilməsində maraqlıdır. Bu baxımdan, Azərbaycanın indiki cavan Prezidenti İlham Əliyevi alqışlamaq olar. İlham Əliyev MDB-nin müsəlman ölkələrinin köhnə tipli liderlərindən üstünlüyünü sübut etmişdir» [301, 433].

Akademik Ramiz Mehdiyev «Azərbaycan: qloballaşma dövrünün tələbləri» əsərində bunun səbəblərini belə səciyyələndirir: «İlham Əliyevin dövlət və onun inkişafı barədə baxışları məlumdur. Onun başlıca arzu və istəyi Azərbaycan Respublikası dövlətini modernləşdirmək və ölkəni dünya miqyaslı mühüm qərarlar qəbul edən say-seçmə ölkələr birliyinə daxil etməkdir. O, fəaliyyətində ardıcıl və praqmatik, rasional

və səmimidir. Onu fərqləndirən cəhət budur ki, o, fəaliyyət dairəsi məhdud olan məmur deyil, geniş baxışlara malik siyasətçidir. Azərbaycana məhz belə siyasətçi – amerikalıların işgüzarlığını, britaniyalıların ehtiyatlılığını, almanların dəqiqliyini, habelə məsuliyyətliliyini, azərbaycanlıların açıqlığı, səmimiliyi və tolerantlığını özündə birləşdirən siyasətçi lazımdır» [301, 433].

Fransanın «La Tribune» qəzetindəki yazıda isə deyilir: «Öz ölkəsini Avropaya tamamilə yaxınlaşdırmaq səylərinə görə İlham Əliyevi alqışlamaq lazımdır. İlham Əliyevin Avropa İttifaqı ilə əməkdaşlıq istiqamətində göstərdiyi səylər öz bəhrəsini vermişdir. Qafqazşünas politoloqların bir çoxu hesab edir ki, Qafqazın və Mərkəzi Asiyanın digər ölkələrinə nisbətən Azərbaycan Aİ-yə daha yaxındır» [306].

Əcnəbi jurnalistlər onu da vurğulayırlar ki, İlham Əliyev ikinci prezidentlik müddətinə seçilməklə xalqın etimadını qazanmaqda tam mənada tarixi şəxsiyyətə çevrilir, özü də təkcə Qafqaz miqyasında yox. İlham Əliyev hakimiyyətə, əsasən, aqrar ölkə olan, resursların və potensialların meqapolis və regionlar arasında qeyri-mütənasib bölündüyü, lakin zəngin xammal potensialına malik Azərbaycan Respublikasını fundamental şəkildə modernləşdirmək ideyaları ilə gəlmişdir.

Yeni informasiya məkanında Azərbaycan Respublikasının «vətəndaşlıq qazanmasının» əsas səbəblərindən biri iqtisadiyyatının ölçülərinə görə Qafqazda birinci yeri tutmasıdır. İqtisadiyyatın biliyə əsaslandığı şəraitdə informasiya-kommunikasiya texnologiyalarının inkişafı intellektual və elmi potensialın mühüm göstəricilərindən biridir. Eyni zamanda indiki qloballaşan dünyada dövlətlərin rəqabətə davamlılığını, ilk növbədə, informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi formalaşdırır. Məhz bunu nəzərə alaraq, Ümummilli lider Heydər Əliyev 2003-cü ildə «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya»nı təsdiq etmişdir. Prezident İlham Əliyev isə «2008–2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informatikalaşdırılması üzrə Dövlət Proqramı»nı təsdiqləmişdir. İnformasiya texnologiyalarının inkişaf səviyyəsinə görə Azərbaycan Respublikası MDB ölkələri arasında liderdir. Dünya İqtisadi Forumu tərəfindən 2007-2008-ci illər üçün hazırlanmış «İnformasiya texnologiyalarının qlobal inkişafı haqqında hesabat»da Azərbaycan Respub-

likası dünyanın ən qabaqcıl ölkələri sırasında yer tutur.

Ölkəmizin iqtisadiyyatı həm də bütün postsosializm məkanında ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Dövlətimizin başçısı yaxın beş ildə qarşıya məhz sosial-iqtisadi inkişafın keyfiyyətini yüksəltmək, artımın ahəngdarlaşdırılmasını təmin etmək vəzifəsini qoymuşdur.

Son illər Azərbaycan Respublikasında dövlət üçün zəruri olan hadisələr də baş vermişdir. Əvvəla, elitaların dəyişməsi prosesi başlanmışdır və hələ davam edir; ikincisi, hakimiyyətin və iqtisadiyyatın texniki imkanları yeniləşdirilir; üçüncüsü, əhali özünün inkişafı üçün verilmiş imkanlardan fəal istifadə edir.

Qərəzçilikdən uzaq əcnəbi jurnalistlər dünyanın yeni informasiya məkanına Azərbaycan Respublikası haqqında bu faktları çıxarır, beynəlxalq ictimaiyyətə bu həqiqətləri çatdırırlar. Onu da vurğulayırlar ki, bu uğurlar Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində mümkün olmuşdur.

ABŞ-da son prezident seçkiləri ərəfəsində «Vaşinqton tayms» qəzetində Xəzər Enerji Araşdırmaları Mərkəzinin prezidenti Söhrab Sübhaninin Azərbaycan Respublikasına həsr olunmuş «Amerikanın dostu» məqaləsi dərc edilmişdi [483]. Müəllif ABŞ-ın növbəti seçiləcək 44-cü prezidentini Azərbaycan kimi strateji ölkə ilə yaxın əlaqələr qurmağa, Dağlıq Qarabağ münaqişəsinin həllini Amerika diplomatiyasının prioritetinə çevirməyə çağırır. Yazıda deyilir ki, rəsmi Vaşinqton siyasi iradə nümayiş etdirərək Ermənistanı danışıqlar masasına dəvət etməklə, münaqişənin yekun həllinin tapılmasına yardım göstərməlidir. Bu gün Azərbaycanın qarşısında duran əsas məsələ həm də 1 milyon qaçqın və məcburi köçkünü tarixi torpaqlarına qaytarmaqdır. Müəllif bildirir ki, Ağ ev Gürcüstanı dəstəklədiyi kimi, Birləşmiş Ştatların uzunmüddətli maraqları sabit və məsuliyyətli liderləri olan ölkələrlə strateji müttəfiqliyə də yönəlməlidir. Azərbaycan məhz belə dövlətdir. Məqalədə vurğulanır ki, Azərbaycan regionda ən sabit dövlətdir və qonşuları ilə tarixi ziddiyyətlərə baxmayaraq, yüksək məsuliyyətlə davranır. Sovet totalitar sistemindən çıxan Azərbaycan bu gün demokratik dövlətdir. Müstəqil gənc dövlət çətinliklərə, üstəlik Konqresin qəbul etdiyi «Azadlığa dəstək aktı»na 907-ci düzəlişə baxmayaraq, Vaşinqtonun etibarlı dostu və müttəfiqi olaraq qalmaqdadır. Bu əməkdaşlıq 11 sentyabr olaylarından sonra daha da möhkəm-

lənmişdir. Məqalə müəllifi qeyd edir ki, Prezident Heydər Əliyev 11 sentyabr terror aktlarından dərhal sonra ABŞ səfirini çağıraraq, ölkəsinin Amerikaya dəstəyini ifadə etmişdir və bu gün Azərbaycan terrorizmlə qlobal müharibədə ABŞ-ın yanındadır. Azərbaycanın sülhməramlı qüvvələri İraqda və Əfqanıstanda xidmət edir. Xəzər hövzəsinin neft və qaz ehtiyatlarının davamlı işlənilməsi və beynəlxalq bazarlara nəqli, Bakı–Tbilisi–Ceyhan kimi mühüm layihələr Bakı ilə Vaşinqtonun ortaq işbirliyinin nəticəsidir. Bütün bunlar isə Azərbaycanı bölgənin əsas nəqliyyat dəhlizinə çevirir və ölkənin strateji əhəmiyyətini artırır.

Məqalədə Azərbaycan Respublikasında hökm sürən dini tolerantlıq da vurğulanır, dünyəviliyə sadiq qalan Azərbaycan Respublikasında müsəlman mədəniyyət irsinin radikallaşmasına imkan verilmədiyi bildirilir.

ABŞ-ın Kolorado ştatının nüfuzlu «Rocky Mountain News» qəzetində dərc olunmuş məqalədə Azərbaycanda qadınların hüquqlarının genişləndirildiyi və gender bərabərliyinin inkişaf etdirildiyi bildirilir, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin iyununda Bakıda «Mədəniyyətlərarası dialoqda qadınların rolu» mövzusunda keçirilmiş beynəlxalq konfransın əhəmiyyəti xüsusi vurğulanır.

2010-cu ilin yanvarında ABŞ-ın nüfuzlu internet qəzeti «Haffinqton Post» tanınmış amerikalı politoloq, Kaliforniyanın «Tool Shed Group LLC» analitik mərkəzinin eksperti Ceyson Katzın «İncəliklə oynanılan oyun» sərlövhəli məqaləsini dərc etmişdir. Məqalədə bildirilir ki, Şərq–Qərb enerji dəhlizinin fəaliyyətinin təmin edilməsində mühüm rol oynayan Azərbaycanın təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji layihələri, xüsusilə də Bakı–Tbilisi–Ceyhan neft kəməri Qərb ölkələri üçün çox böyük əhəmiyyət daşıyır. Müəllif qeyd edir ki, dünyəvilik və dözümlülük baxımından nümunə olan, öz siyasətində Qərbə inteqrasiya yolunu tutmuş Azərbaycan istər iqtisadi, istərsə də diplomatik məsələlərdə ABŞ-la müttəfiqlikdən irəli gələn bütün vəzifələri yerinə yetirir. Lakin, təəssüf ki, rəsmi Vaşinqton bunu kifayət qədər qiymətləndirmir və Azərbaycana qarşı çox vaxt laqeydlik göstərir. Bu isə Azərbaycan Respublikasında ABŞ-a qarşı münasibətin soyuqlaş-

masına gətirib çıxara bilər. Müəllif vurğulayır ki, Azərbaycan Türkiyə–Ermənistan münasibətlərinin normallaşmasına və iki ölkə arasında bu məqsədlə imzalanmış protokollara qarşı çıxmır. Əslində, Azərbaycan Respublikası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Ermənistan ilə dialoq aparır. Azərbaycan Respublikasını narahat edən əsas məsələ ondan ibarətdir ki, ABŞ siyasətçiləri və diplomatları «normallaşma» prosesinə xüsusi önəm verməklə, regionda real qeyri-sabitlik yaradan əsas məsələni arxa plana keçirirlər. Azərbaycan, sadəcə, Türkiyə Cümhuriyyətinin Ermənistanla münasibətlərinin normallaşması prosesinin Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində əldə ediləcək irəliləyişdən asılı olacağına əmin olmaq istəyir. Reallıq isə bundan ibarətdir ki, Dağlıq Qarabağ Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan Respublikasının ərazisidir və bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı doğma yurd-yuvasından didərgin salınmışdır. BMT, Avropa İttifaqı kimi nüfuzlu təşkilatlar, eləcə də ABŞ Dağlıq Qarabağı Azərbaycan Respublikasının tərkib hissəsi kimi tanıyır. Buna görə də münaqişənin həllinə biganəlik göstərilməməli, əksinə, onun həlli istiqamətində səylər daha da artırılmalıdır.

Məqalədə deyilir ki, Azərbaycan dəfələrlə dünya ictimaiyyətinin diqqətini regiondakı problemlərə biganə münasibət bəslənilməsinin təhlükəli nəticələr doğura biləcəyinə cəlb etməyə çalışsa da, onun bu çağırışları gözlənilən nəticəni vermir. Dağlıq Qarabağ münaqişəsinin həllinin Azərbaycan rəhbərliyi üçün nə dərəcədə əhəmiyyət daşıması da, təəssüflər olsun ki, kifayət dərəcədə qiymətləndirilmir. Müəllif bildirir ki, Azərbaycan haqqında məlumat əldə etmək istəyən hər bir kəs bu ölkənin öz milli maraqlarından çıxış edən olduqca praqmatik bir ölkə olduğunu öyrənər. ABŞ siyasətçiləri Qafqaz və Avrasiya ilə bağlı xarici siyasətdə strateji yanaşma tətbiq etməli və yaxın deyil, ən azı 20 il sonrakı tarixi nəzərə almalıdırlar. ABŞ-ın regiondakı problemlərin həllinə töhfəsi, şübhəsiz ki, müsbət nəticələr verə bilər. Müəllif xüsusi olaraq vurğulayır ki, Azərbaycan kimi bir dostun itirilməsi ABŞ-ın xarici siyasəti və maraqları üçün böyük zərbə ola bilər.

Azərbaycan Respublikasının yeni informasiya məkanında öz mövqeyini möhkəmləndirməsində, ölkəmizin üzləşdiyi problemlər barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Bakıda keçi-

rilən beynəlxalq tədbirlər, bu tədbirlərdə xarici kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı, dövlətimizin başçısının nüfuzlu nəşrlərə və telekanallara müsahibələri də böyük rol oynayır. Bu mənada, 2010-cu il yanvarın 22-23-də Bakıda keçirilmiş Humanitar Əməkdaşlıq üzrə Birinci Azərbaycan–Rusiya forumunun əhəmiyyətini xüsusi vurğulamaq istərdim. Təkcə onu demək kifayətdir ki, bu tədbirdə Rusiya Federasiyasının «Kommersant», «İzvestiya», «Komsomolskaya pravda», «Selskaya jizn», «Rossiyskaya qazeta» kimi geniş oxucu auditoriyası olan populyar qəzetlərinin rəhbərləri, aparıcı teleradiokanalların təmsilçiləri iştirak edirdilər. Bu forum Azərbaycan həqiqətlərinin yayılması, qarşılıqlı əməkdaşlığın genişləndirilməsi üçün geniş meydan açmışdır. Qonaqlar Azərbaycan Respublikası Dövlət Teleqraf Agentliyində – AzərTAC-da keçirilən mətbuat bölməsinin işində də iştirak etmişlər. Rusiya KİV-lərinin görkəmli nümayəndələri agentliyin işi ilə tanış olmuş, əməkdaşlarla söhbət etmiş, müasir jurnalistikanın bir sıra mühüm problemləri barədə fikir mübadiləsi aparmış, forum barədə fikirlərini bölüşmüşlər. Onlar Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlərin daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi üçün bu tədbirin çox böyük əhəmiyyətini vurğulamışlar.

Ölkəmizin yeni informasiya məkanında möhkəmlənməsində 2010-cu ilin martında özünün 90 illiyini qeyd edən Azərbaycan Respublikası Dövlət Teleqraf Agentliyinin də xidmətlərini xatırlamamaq olmaz. Memarı və qurucusu Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikasının inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun olaraq yaradıcılıqla davam etdirilməsi nəticəsində respublikanın regionda lider dövlətə çevrilməsi, dünyada mövqeyinin möhkəmlənməsi AzərTAC-ın beynəlxalq əlaqələrinin genişlənməsinə, onun dünya informasiya məkanına inteqrasiyasına müsbət təsir göstərən amillərdən biridir. İndi dünyanın tanınmış xəbər agentlikləri AzərTAC ilə əməkdaşlığa böyük maraq göstərir. Hazırda AzərTAc-ın 90-dan artıq ölkənin informasiya agentlikləri ilə çox səmərəli əlaqələri vardır. Bundan əlavə, AzərTAc Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (ANİA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan

ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) təsisçilərindən biridir. 2004-cü ilin sentyabrında AzərTAC Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) üzvü olmuşdur. Bunun sayəsində AzərTAC-ın informasiyaları OANA-nın xüsusi saytında yerləşdirilir və onlardan təşkilatın üzvü olan digər 32 ölkənin 39 informasiya agentliyi istifadə edir. 2007-ci il dekabrın 12-də OANA-nın İndoneziyanın paytaxtı Cakartada keçirilən iclasında AzərTAC bu qurumun rəhbər orqanı olan İcraiyyə Komitəsinin büro üzvü seçilmişdir. AzərTAC-ın Avropa Xəbər Agentlikləri Alyansına (EANA) üzv qəbul edilməsi agentliyin həyatında ən mühüm hadisələrdən biri kimi qiymətləndirilməlidir. Beləliklə, agentlik postsovet məkanında İTAR-TASS və Ukrinformdan sonra EANA-ya qəbul edilmiş üçüncü informasiya agentliyi və həmin təşkilatın sayca 31-ci üzvü olmuşdur. 2008-ci ildən AzərTAC Asiya Xəbər Agentlikləri Konsorsiumunun («AsiaPulse») da üzvüdür.

AzərTAC artıq regional və beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi edir. 2008-ci il aprelin 30-u – mayın 3-də Bakıda Türkdilli Xəbər Agentlikləri Birliyi (TKA) Baş Məclisinin VII iclası keçirilmişdir. Hazırda TKA-da AzərTAC sədrlik edir. 2008-ci il sentyabrın 1–4-də isə AzərTAC-ın ev sahibliyi ilə OANA İcraiyyə Komitəsinin «Qloballaşan dünyada informasiya hamı üçün» mövzusunda 30-cu iclası keçirilmişdir. İlk dəfə idi ki, dünyanın 21-dən çox ölkəsindən ən nüfuzlu xəbər agentliklərinin rəhbərləri və yüksək vəzifəli təmsilçiləri respublikamıza gəlmişdilər. Azərbaycan Respublikasının ictimai həyatında mühüm hadisə olan bu toplantının əhəmiyyəti həm də onda idi ki, OANA və EANA-nın tarixində ilk dəfə olaraq bu qurumların rəhbərləri tədbirdə birlikdə iştirak edirdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iclas iştirakçılarını qəbul etməsi qonaqlarda çox böyük təəssürat doğurmuşdur.

Müstəqil Azərbaycan Respublikasının rəsmi informasiya agentliyinin dünya informasiya məkanına çıxması, Azərbaycan Respublikası reallıqlarının yayılma coğrafiyasının genişləndirilməsi Ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri idi. İndi tam məsuliyyətlə deyə bilərik ki, Ümummilli liderin bu arzusu da reallığa çevrilmişdir. Azərbaycan Respublikası qloballaşan dünyanın yeni informasiya məkanında öz yerini tutmuşdur və bunu getdikcə möhkəmləndirir.

SON SÖZ
və ya
DAHİ ŞƏXSİYYƏTİN VƏTƏN VƏ XALQ NAMİNƏ MÜBARİZƏ YOLU

XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət, əsrin sonunda öz tarixi torpaqlarının bir hissəsində – Şimali Azərbaycanda qədim dövlətçilik ənənələrini dirçəldə bildi. Azərbaycan yenidən siyasi varlığa çevrildi. Bu gün dünya birliyində Azərbaycan Respublikası adlanan ölkəmiz qlobal miqyasda ən sürətlə inkişaf edən və sayılıb-seçilən dövlətdir. Müstəqilliyimizə qənim kəsilən xarici qüvvələrin və onların daxildəki əlaltılarının bitib-tükənməyən məkr, hiylə və qəsdlərinə baxmayaraq Azərbaycan dövləti artıq iyirmi iki ildir ki, yaşayır və getdikcə daha da qüvvətlənir. Hüquqi, demokratik, dünyəvi dövlət quruculuğundakı uğurlarımız göz qabağındadır. Bu gün xalqımız sarsılmaz bir inamla yaşayır: müstəqilliyimiz sarsılmazdır, dönməzdir, dövlətimiz əbədiyyətə qədər yaşayacaqdır!

Azadlıq, müstəqil dövlət halında yaşamaq hər bir xalqdan ötrü, o cümlədən bizim xalqımız üçün ən böyük xoşbəxtlikdir, misilsiz nemətdir. Çünki, dövləti olmayan xalq məhvə məhkumdur. Məhz buna görə də qədirbilən xalqımız ilk növbədə öz dahi oğluna – Heydər Əliyevə minnətdardır. Hər bir Vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda Ulu Tanrı **şəxsiyyət** və **zaman** problemini Azərbaycanımızın xeyrinə həll etməsəydi – xalqımızın Heydər Əliyev kimi qüdrətli şəxsiyyəti olmasaydı müstəqilliyimizi qoruyub saxlaya bilməyəcəkdik!

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində xalqımızın yetirdiyi dahi şəxsiyyətdir. O, öz xalqının bağrından qopub gələn, doğma yurdunun, Vətən torpağının **misilsiz təəssübkeşi olan böyük azərbaycanlı idi.** Heydər Əliyev öz xalqının dahi oğlu olmaqla yanaşı, həm də **dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir**.

Azərbaycan xalqının XX yüzillikdəki tarixi Heydər Əliyev şəxsiyyəti ilə, onun 30 ildən artıq bir müddət ərzində öz xalqının, doğma yurdunun gələcəyi naminə həyata keçirdiyi böyük quruculuq işləri ilə qırılmaz surətdə bağlıdır. Bütün ruhu, varlığı ilə öz xalqına, doğma yurduna bağlı olan bu böyük şəxsiyyət müxtəlif sistemlərdə, bir-birinə zidd siyasi quruluşlarda fəaliyyət göstərsə də həmişə, ən çətin tarixi dövrlərdə və təqiblər şəraitində belə, doğma Azərbaycana xidmət etmişdir. Böyük dövlət xadiminin ömür yolunun bütün məqamlarını bir nadir keyfiyyət səciyyələndirir – **Vətən mücadiləsi, hər yerdə, bütün vəzifələrdə, hər zaman ana Vətənin, doğma xalqın tərəqqisi üçün can qoymaq!**

Elmi ictimaiyyətə və geniş oxucu kütləsinə təqdim olunan iki-cildlik «**Heydər Əliyev**» fundamental araşdırmasının **1-ci** cildində olduğu kimi, **2-ci** cildində də əsas diqqət dahi şəxsiyyətimizin nəsillərə nümunə olan həyat yolunun məhz bu məqamına – ana xəttinə yönəldilmişdir. Şübhə etmirik ki, zaman keçdikcə Heydər Əliyevin Vətən naminə mübarizələrdə keçən ömrünün hər bir səhifəsinə yeni-yeni əsərlər həsr olunacaq. Elə bunu nəzərə alaraq Heydər Əliyevin müasiri, onun böyük quruculuq işlərinin canlı şahidi və iştirakçısı kimi, bu böyük şəxsiyyətə həsr olunmuş həmin araşdırmanı yekunlaşdırarkən onun keçdiyi **Vətən mücadiləsi** yolunu dövrləşdirmək, bu barədə öz mülahizələrimizi oxuculara yetirmək qərarına gəldik.

Heydər Əliyevin doğma xalqına həsr olunmuş ömür yolu, ictimai-siyasi və zəngin dövlət quruculuğu fəaliyyəti, fikrimizcə, bir-biri ilə üzvi surətdə bağlı olan aşağıdakı dövrləri əhatə edir:

Birinci dövr – *XX əsrin* **40-cı** *illərindən* **1969**-*cu ildə Azərbaycanın rəhbərliyinə gəlməsinə qədərki illəri əhatə edir.* Həmin illərdə Azərbaycanın hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev son dərəcə ağır maneələri və çətinlikləri dəf edərək Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəldi. Onun olduqca gərgin, səmərəli və çox çətin şəraitdə göstərdiyi məqsədyönlü fəaliyyəti nəticəsində bu dövrdə Dövlət Təhlükəsizliyi Komitəsinin xalqımızın düşmənlərindən təmizlənməsi sahəsində çox ciddi addımlar atıldı, ilk

dəfə olaraq xalqımızın qeyrətli övladları təhlükəsizlik orqanlarında işə cəlb olundu. **O zaman Heydər Əliyev xalqımızın vətənpərvər oğullarını, milli əhval-ruhiyyəli ziyalılarını təqiblərdən qorudu və bununla, əslində, milli oyanışımızın başında durdu.**

İkinci dövr – *Azərbaycana birinci rəhbərlik dövrüdür.* **1969–1982**-ci illəri əhatə edən bu dövrdə ölkəmiz, ümumiyyətlə Şimali Azərbaycan Rusiya İmperiyası və Sovet dövləti tərkibində olduğu bütün tarixi dövr ərzində, özünün ən yüksək inkişaf zirvəsinə qalxdı. Heydər Əliyevin çox dərindən ölçülüb-biçilmiş, gələcəyə istiqamətlənmiş müdrik və cəsarətli fəaliyyəti nəticəsində o zaman Azərbaycan bütün Sovet İttifaqında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına, SSRİ məkanında nəhəng tikinti meydanına çevrildi. Elm, mədəniyyət və kadr hazırlığı ən yüksək zirvəyə qalxdı. Uzaqgörən və daim Vətəninin gələcəyini düşünən böyük dövlət xadimi öz xalqını həyatın bütün sahələrində **müstəqil yaşamağa hazırladı**. SSRİ-nin dağılacağını qabaqcadan görən **Heydər Əliyev bugünkü müstəqil, yeni Azərbaycanın quruculuğuna hələ o zaman başlamışdı. Bir sözlə, ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi və himayəsi ilə Şimali Azərbaycanda milli oyanış və müstəqilliyə doğru Böyük Dönüş dövrü başlanmışdı. Buna görə də XX yüzilliyin 90-cı illərində böyük Sovet İmperiyası çökərkən məhz Heydər Əliyevin uzaqgörən, olduqca gərgin, səmərəli və cəsarətli dövlətçilik fəaliyyəti nəticəsində Azərbaycan müstəqil yaşamağa tamamilə hazır idi.**

Üçüncü dövr – *Heydər Əliyevin dövlətçilik fəaliyyətinin Moskva dövrüdür.* **1982–1987**-ci illəri əhatə edən bu dövrdə SSRİ rəhbərliyində Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi təmsil olunan Heydər Əliyev velikorus şovinizmi və böyük dövlətçilik psixologiyasının hökmranlıq etdiyi Kreml rejiminə, bu rejimin yaratdığı təqiblər və ayrı-seçkilik sisteminə sübut etdi ki, heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir deyildir. Tənəzzülə başlamış nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan Heydər Əliyev az vaxt içərisində bütün SSRİ-də böyük nüfuz

qazandı. Həmin dövrdə Heydər Əliyev Siyasi Büroda bütün Sovet dövlətini idarə etməyə və onu tənəzzüldən çıxarmağa qadir olan yeganə dövlət xadimi idi. Odur ki, sərişdəsiz və bacarıqsız Kreml rəhbərləri, xüsusilə M.Qorbaçov Heydər Əliyevi özlərinə ciddi rəqib hesab edirdilər. Belə mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev sovet rəhbərliyində olarkən doğma Vətənini həmişə diqqət mərkəzində saxlayır, onun inkişafına hər cür qayğı göstərirdi. Xalqımızın böyük oğlu o zaman, həm də, Dağlıq Qarabağı Azərbaycandan qoparıb almağa çalışan erməni millətçilərinin qarşısında qüdrətli maneə, keçilməz sədd idi. Elə buna görə də, hələ Stavropoldan başlayaraq erməni mafiyasının əlində itaətkar alət olan M.Qorbaçov, nəhayət, öz fitnəkar niyyətinə nail ola bildi: xalqımızın dahi oğlu SSRİ-yə rəhbərlikdən uzaqlaşdırıldı. **Bu, əslində bütün sovet hakimiyyəti illəri ərzində xalqımıza vurulan ən ağır zərbə idi.** Təsadüfi deyil ki, bundan dərhal sonra M.Qorbaçov tərəfindən himayə olunan erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan qoparıb almaq üçün fəal mübarizəyə başladılar.

Heydər Əliyevin Böyük Vətən mücadiləsinin **Dördüncü dövrü 1987–1990**-*cı illəri əhatə edir.* Bu illər M.Qorbaçovun başçılıq etdiyi Kreml rejiminin xalqımızın böyük oğluna qarşı həyata keçirdiyi ağır təqib illəridir. Ömrünün bütün dövrlərində olduğu kimi, Heydər Əliyev həmin illərdə də doğma xalqı üçün yaşamış, nəhəng Sovet dövlətinin dağılmaqda olduğu şəraitdə öz Vətəni üçün çıxış yolları axtarmış, özünün zəngin dövlətçilik təcrübəsi, müdrik məsləhətləri ilə Azərbaycanı düşdüyü ağır böhrandan çıxarmaqdan ötrü bütün qüvvəsini sərf etmişdir. Lakin o zaman Azərbaycana başçılıq edən sərişdəsiz rəhbərlərin Moskva qarşısındakı mütiliyi və xəyanətkar siyasəti nəticəsində Azərbaycan xalqı bu dövrdə öz böyük oğlunun tükənməz zəka potensialından məhrum edilmişdir.

Beşinci dövr – 1990-1993-*cü illəri əhatə edir.* Bu dövr Heydər Əliyevin Vətən naminə mübarizə yolunda xüsusi yer tutur. Həmin dövr Azərbaycanın tarixində ən ağır fəlakət illəri, «**olum ya ölüm**» dövrü idi. Yenicə müstəqillik yollarına çıxmış Azərbaycan bu dövrdə

bir siyasi varlıq kimi dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycan dövlətçiliyi Cənubi Qafqazın xəritəsindən silinmək üzrə idi. Bu zaman Vətənin ümid çırağı, əliyalın xalqın yeganə qələbə silahı Heydər Əliyev zəkası idi. Məhz bu dövrdə – **1990-cı il Yanvarın 21-də** (20 Yanvar qırğınının ertəsi günü!) özünün və ailəsinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının **qurtuluş mübarizəsinin önünə keçdi, Vətən və xalq naminə açıq siyasi mübarizəyə başladı.** Dahi siyasətçi xalqının ağır günündə Kremlin təqiblərindən yaxa qurtarıb 1990-cı il iyulun 20-də Vətənə dönə bildi. Lakin Vətəndə – onun paytaxtı Bakıda tariximizin ən rüsvayçı faktlarından biri baş verdi: xalqın xilaskar oğluna vaxtilə onun qurub-yaratdığı paytaxtda qalmaq, ağır fəlakət anında doğma xalqı ilə birlikdə olmaq, ona yol göstərmək imkanı verilmədi. Böyük dövlət xadimi Bakıya gəlişindən iki gün sonra – 1990-cı il iyulun 22-də doğulduğu Naxçıvana pənah aparmalı oldu. **Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı.** Bu dövrdə ermənilər və onların havadarları olan Rusiya hərbçiləri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan çıxılmaz vəziyyətə düşmüşdü. Ana Vətəndən – Böyük Azərbaycandan da Naxçıvanın harayına cavab verən yox idi. Sərişdəsiz rəhbərlər, oyuncaq kürsü düşkünləri Vətən torpaqlarını hərraca qoymuşdular. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın halı ağır idi. Yağıların torpaqlarımızı bölüşdürmək planları reallaşmaqda, Yurdumuz, o cümlədən də Naxçıvanımız bir siyasi varlıq kimi Cənubi Qafqazın siyasi xəritəsindən yox edilmək ərəfəsində idi. **Məhz belə bir ağır şəraitdə Heydər Əliyev «olum ya ölüm» savaşımızın ən ağır cəbhəsindən – Naxçıvandan bütün Azərbaycanın qurtuluş mücadiləsinə qalxdı.** Müasir daşnakların sovet sərhəd qoşunları ilə birləşərək üzük qaşı kimi mühasirəyə aldığı **Naxçıvanda təkcə həmin bölgəmizin deyil, bütün Azərbaycanın müqəddəratı həll olunurdu.** Ağlasığmaz dərəcədə ağır olan bu mürəkkəb tarixi şəraitdə Heydər Əliyev şəxsiyyəti özünün

yeganə silahı ilə – misilsiz siyasi dühası və dövlət müdrikliyi sayəsində Naxçıvan camaatının mübarizliyinə, əzmkarlığına arxalanaraq qəhrəman Kəngərli yurdunu tarixin ən ağır sınağından çıxara bildi! **O zaman milli müstəqilliyimizin ilk addımları da məhz Naxçıvanda atılırdı. Muxtar respublikanın adından «sovet» və «sosialist» sözlərinin çıxarılıb atılması, Naxçıvan «Ali Sovet»inin «Ali Məclis» adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə burada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması və qaldırılması, Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, SSRİ-nin saxlanılması barədə referendumdan imtina olunması, 1990-cı ilin 19–20 yanvar qırğınına siyasi qiymət verilməsi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar çıxarılması, yeni iqtisadi – təsərrüfat sisteminin qurulmasına başlanması, habelə bir çox digər cəsarətli addımlar Naxçıvanı qurtuluş mücadiləmizin önünə çıxardı.**

Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş savaşının Naxçıvan dövründə ana Vətən – Böyük Azərbaycan qan içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, vəzifə naminə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Yurdun hər yerində silahlı quldur dəstələri hökmranlıq edirdilər. Məmləkəti idarə edənlərin başı sovet hakimiyyəti illərində toplanmış xalq əmlakının talan olmasına qarışmışdı. Faktiki olaraq dövlət yox idi. Ölkə milli fəlakət həddinə çatmışdı. İdarəçilik sükanı, faktiki olaraq, sahibsiz qalmışdı. Azərbaycan vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Artıq Vətəndaş müharibəsinin ilk qanları axıdılmışdı. Cəbhə düşmənin üzünə açıq idi. Vətən torpaqları hərraca qoyulmuşdu. Xalq ümidsizlik və tələş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki xəyanətkar qüvvələrlə birləşmişdilər. Tarixi düşmənlərimizin Azərbaycanı Cənubi Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik

əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bu fəlakət anında müdrik xalqımız, qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı: dünyanın böyük siyasət adamını – Azərbaycanın yeganə ümid çırağını hakimiyyətə gətirdi. Bununla da Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı.

1993-cü ilin iyun günlərində, məhz o zaman, Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlanmış qurtuluş mübarizəsi özünün yeni – həlledici mərhələsinə qədəm qoydu, bütün Azərbaycanın qurtuluşu başlandı. *Bununla Heydər Əliyevin Vətən naminə mücadiləsində* **Altıncı dövr** *başlandı.* **1993-cü ilin iyununda başlanmış və 2003-cü ilədək davam etmiş bu dövr – mahiyyətcə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə və Yeni, Müstəqil Azərbaycanın qurulması dövrüdür.**

1993-cü ilin iyununda doğma yurdunda – özünün vaxtilə qurub-yaratdığı Azərbaycanda ikinci dəfə rəhbərliyə gələn müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət xadiminin əlinə keçdi. Yenicə müstəqillik qazanmış Azərbaycan, bütün xalqımız məkrli düşmənlərin hazırladığı fəlakət uçurumuna yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı. Heydər Əliyev zəkası xarici və daxili düşmənlərin dövlətçiliyimizə qarşı törətdikləri bütün qəsdlərə üstün gəldi. **Bu böyük düha torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu son dərəcə mürəkkəb bir tarixi şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtuldu. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Hedər Əliyev şəxsiyyəti duruş gətirə bildi!**

Dahi siyasətçi Vətənin müstəqilliyinin qorunub saxlanılması uğrunda apardığı ağır mübarizə şəraitində, eyni zamanda, Yeni – Müstəqil Azərbaycanın quruculuğuna başladı. 1990-cı illərin ortalarından başlayaraq hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu daha da genişləndi. Azərbaycan keçmiş sovet məkanında həyatın bütün sahələrində ən qabaqcıl mövqeyə çıxdı. Ölkəmiz daxili siyasətdəki və beynəlxalq aləmdəki uğurlarına görə dünya birliyində öz layiqli yerini tutdu.

İkicildlik «**Heydər Əliyev**» fundamental akademik araşdırmanın **1-ci** cildində oxuculara Ulu Öndərin Vətən və Xalq naminə mübarizə yolunun **I-IV dövrləri**, daha doğrusu, 1990-cı ilə qədərki tarixi dövrə dair, **2-ci** cildində isə dahi şəxsiyyətin dövlətçilik fəaliyyətinin Naxçıvan dövrünə və müstəqil Azərbaycan dövlətinin prezidenti olaraq göstərdiyi yorulmaz dövlətçilik fəaliyyətinə - hüquqi, demokratik və dünyəvi Azərbaycan dövləti qurmasına aid materiallar daxil edilmişdir.

Dünya tarixinin dahi siyasətçisi Heydər Əliyevin Vətənin, doğma xalqın işıqlı gələcəyi naminə hələ ötən əsrin 40-cı illərindən başladığı şərəfli mübarizə yolunu bu gün onun siyasi varisi, zəmanəmizin görkəmli dövlət xadimi, Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir, öz doğma xalqını böyük müdrikliklə, qətiyyətli və çevik siyasətlə daha parlaq gələcəyə aparır.

İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Əliyev H.Ə. Azərbaycan bütün azərbaycanlıların vətənidir: azərbaycanlıların Ümumrusiya Azərbaycan Konqresində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. Bakı: Azərbaycan, 2000, 143 s.
2. Əliyev H.Ə. Azərbaycan gənclərinin II forumunda nitq. Heydər Əliyev və Müstəqil Azərbaycan gəncliyi. Bakı: Qapp-Poliqraf, 2003, 368 s.
